AMEA-nın akad. Z.M.BÜNYADOV ADINA
ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

ƏKRƏM RƏHİMLİ (BİJE)

MÜBARİZƏ BURULĞANLARINDA
KEÇƏN ÖMÜR

# SEYİD CƏFƏR PİŞƏVƏRİ

(Həyatı və ictimai-siyasi fəaliyyəti)

NURLAR
2009-BAKI

«Xalqın hər bir günü tarixdə öz yerini tapmalıdır. Tariximizin hər bir nöqtəsi, hər bir günü bizim üçün əzizdir, nə cür olur-olsun»

Heydər ƏLİYEV

**Əkrəm Rəhimli (BİJE).**

**AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi.**

# MÜBARİZƏ BURULĞANLARINDA KEÇƏN ÖMÜR SEYİD CƏFƏR PİŞƏVƏRİ

Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009,400 s., şəkilli.

Kitabda İranın və Güney Azərbaycanın tanınmış mütəfəkkir-ziyalısı, inqilabçı-demokrat Seyid Cəfər Pişəvərinin həyatından və mübarizəsindən bəhs olunur. Çoxsaylı mənbələr və sənədlər əsasında S.C.Pişəvərinin 55 illik həyatının çalarları, Güneydəki milli-demokratik hərəkatda onun xidmətləri və rolu, Milli Hökumətin süqutundan sonra həyatının son günləri tədqiq və təhlil olunur.

Kitab geniş oxucu kütləsi, orta və ali məktəb tələbələri və Pişəvərisevər insanlar üçün hazırlanmışdı.

ISBN: 978 - 9952 - 450 - 06 – 4

© Ə.Rəhimli, 2009

Bu kitab Seyid Cəfər Pişəvərinin və Güney Azərbaycanın azadlığı yolunda canlarını fəda etmiş insanların xatirəsinə ittihaf olunur

Elmi redaktorlar: **ŞÖVKƏT TAĞIYEVA,**

tarix elmləri doktoru, professor **CƏMİL HƏSƏNLİ,**
tarix elmləri doktoru, professor

Rəyçilər: **TEYMUR BÜNYADOV,**

Akademik **MUSA QASIMLI,**

tarix elmləri doktoru, professor **VÜQAR ƏHMƏD,**
filologiya elmləri doktoru, professor

Redaktor: **MEHMAN TAĞIOĞLU**

## ÖNSÖZ

XX əsr o taylı-bu taylı Azərbaycan xalqının azadlıq uğrunda mücadilə tarixinə bir sıra görkəmli siyasi xadimlər bəxş etmişdir. Onların hər biri öz əməlləri ilə tariximizdə əbədi yaşar insanlardır.

Lakin keçən yüz illikdə yetişən siyasi simalar içərisində haqqında az yazılan, az yad olunan, bəzən təhrif və böhranlara məruz qalan şəxsiyyətlərimizdən biri də Seyid Cəfər Pişəvəri olmuşdur. O, həm «sağdan», həm də «soldan» vurulmuş, çox vaxt da düşmənləri tərəfindən əsası olmayan ittihamlara, hətta təhqirlərə belə məruz qalmışdı. Bu böyük insan haqqında geniş səpgidə obyektiv araşdırma aparıb, həqiqətləri olduğu kimi oxucuya çatdırmağın vaxtı isə çoxdan çatmışdır.

S.C.Pişəvəri təkcə Azərbaycan üçün yox, bütün İranın azadlıq və qurtuluşu üçün ağır mübarizə yolunu fədakarcasına keçmiş bir şəxs olmuşdur. Onun 1941-1946-ci illərdə İranın və Güney Azərbaycanın xalq hərəkatında unudulmaz və yaddaqalan xidmətləri İranın müasir demokratik ictimaiyyəti və xüsusən gəncliyi tərəfindən bu gün də ehtiramla yad edilir. Güney Azərbaycanda milli-demokratik hərəkatların zirvəsi sayılan «21 Azər» inqilabı, Azərbaycan Milli hökuməti S.C.Pişəvərinin adı ilə sıx bağlıdır. Onun həyatı, azadlıq yolunda göstərdiyi mətanət və dözüm sonrakı nəsillər üçün örnək olaraq qalır.

Siyasi xadimlərimiz haqqında dəyərli kitabların və monoqrafiyaların yazılması, filmlərin çəkilməsi, teatr tamaşalarının göstərilməsi, adlarına küçə, xiyaban, saray və parkların verilməsi - bütün bunlar əlbəttə təqdirəlayiq işlərdir. Keçmişimizə hörmət və qayğıdır. Lakin böyük şəxsiyyətlərimizə ayrılan bu diqqətdən S.C.Pişəvəri kimi görkəmli siyasi xadimin kənarda qalması təəssüf doğurur.

Millət öz kimliyini bir də o vaxt yüksəldib dünyaya tanıtdıra bilir ki, o öz keçmişinə biganə qalmır. Keçmişin neqativ cəhətlərini kənara atdığı kimi, müsbət və pozitiv cəhətləri də qabartmağa, onları öyrənməyə və yeni nəslə aşılamağa çalışır. Bu mənada S.C.Pişəvəri həqiqətən də öyrənilməli şəxsiyyətlərimizdəndir. O, Güney Azərbaycan tarixinin yaxın keçmişidir. Bu böyük şəxsiyyətin enişli-yoxuşlu həyat yolunun bütün çalarlarını diqqətlə öyrənmək, ondan nəticə çıxarmaq bugünkü və gələcək nəsillər üçün çox faydalı və önəmlidir.

S.C.Pişəvərinin 55 illik həyatının siyasi istiqamətinə, məfkurə və düşüncə tərzinə birmənalı yanaşmaq mürəkkəb və çətindir. 1918-ci ilədək onun simasında vətəninin və millətinin azadlıq yolunu axtaran və bu işdə müxtəlif siyasi cərəyanlara, cəmiyyət və partiyalara yanaşan, əslində ideya və məslək axtarışında olan bir gənci görürük. O, əvvəl demokrat, sonra sosial-demokrat, sonra bir sıra İran ziyalıları kimi kommunistlik məsləkinə yönəlir, bu məsləkə köklənir və ona sədaqətlə xidmət edir. İlk məqalələrini Məhəmmədəmin Rəsulzadənin «Açıq söz» qəzetində çap etdirən və onun millilik və azərbaycançılıq ideyasına meyillənən

S.C.Pişəvəri sonrakı illərdə ondan uzaqlaşır və N.Nərimanov xəttinə - kommunist məramına qulluq edir. Rza şah zindanına düşmək ərəfəsinədək bu mərama sadiq qalır. O, bu müddət ərzində Nərimanovu özünə müəllim, Şərqin Lenini adlandırır. N.Nərimanov kimi S.C.Pişəvəri də vətəninin və məzlum Şərq xalqlarının xilasını Moskvadan, bolşeviklərdən umurdu. Bu məqsədlə o, 20-ci illərdə siyasi arenada kommunist məfkurəsi ilə yaşayır və mübarizə edir. "Ədalət" firqəsinin milli qanadından uzaqlaşan Pişəvəri az sonra İran Kommunist partiyası sıralarına keçir və bir müddət İran kommunistlərinin aparıcı rəhbərlərindən olur. 20-ci illərin əvvəllərində bolşeviklərin müdafiə etdiyi Gilan inqilabında, Bakıdakı Şərq Xalqları qurultayında, Kominternin 3-cü konqresində, İran kommunistlərinin qurultayında iştirak edir. Bu dövrdə S.C.Pişəvərinin adı tarixi sənədlərdə Sultanzadə, Heydər Əmioğlu, Axundzadə (Bəhram Sirus), Hüseyn Şərqi, Nikbin, Seyfi və s. görkəmli İran kommunist rəhbərləri cərgəsində çəkilir. S.C.Pişəvəri 20-ci illərin sonunadək kommunist məramına sadiq qalmış və yalnız bu məsləkə xidmət etmişdir. Bunu S.C.Pişəvərinin həmin dövrdə yazdığı məqalələrindən də görmək olur.

S.C.Pişəvəri 1917-1927-ci illər arasında olan siyasi fəaliyyətini özü qiymətləndirərkən həm nəşr etdiyi «Ajir» qəzetində, həm də çıxış və xatirələrində kommunistliyə, sosializmə, Sovet Rusiyasına müsbət yanaşmasını xalqının nicatına olan inam və ümidlə bağlayırdı. Yeri gəlmişkən, belə inam Nəriman Nərimanovdan tutmuş, Türk dünyasının böyük şairi Nazim Hikmətə qədər bir çox siyasi və ədəbi şəxsiyyətlərimizin həyat və fəaliyyətində də özünü göstərmişdi.

Siyasi-ictimai olayların təsiri, Sovetlərin sözlə, əməlləri arasında olan fərqli cəhətlər 20-ci illərin sonunda, xüsusən 1930-1941-ci illərdə zindanda qaldığı dövrdə S.C.Pişəvərinin məfkurəsində və siyasi xətt-hərəkətində dəyişiklik yaradır. O, arxaya baxır, buraxılmış səhvləri götür-qoy edir. Bu baxımdan sanki Nəriman Nərimanovun siyasi taleyi S.C.Pişəvəridə təkrarlanır. O, artıq kommunistlik məramının İrandakı milli zəmində mümkünsüzlüyünü dilə gətirir. Bu etirafi onun istintaqdakı izahatından, «Ajir» qəzetindəki məqalələrindən, S.C.Pişəvərinin zindan yoldaşı doktor Ənvər Xameinin Pişəvəri haqda yazılarından və nəhayət son illərdə çap olunmuş S.C.Pişəvərinin xatirələrindən aydın görmək mümkündür.*

S.C.Pişəvərinin keçdiyi mübarizə yolu, siyasi, elmi, bədii və jurnalistika sahəsində qoyub getdiyi irs o qədər zəngin və çoxşaxəlidir ki, onları bir kitabda əhatə etmək çətindir.

Tarixşünaslığımızda S.C.Pişəvəri ilə bağlı müəyyən boşluq olsa da, bu sahədə mətbuatda və kitablarda vaxtaşırı az-çox yazılıb. Bu işdə S.C.Pişəvərinin jurnalistika fəaliyyətinin araşdırılmasında mərhum alimimiz professor Həmid

---

* Bu haqda ətraflı məlumat üçün bax: Şahrux Fərzadın tərtibatında istintaq materiallarına.Tehran. "Şirin" nəşriyyatı, 1384. Həmçinin S.C.Pişəvərinin «xatirələri». Bakı, 2006 («Azərbaycan» qəzetinin nəşri).

Məmmədzadənin, S.C.Pişəvərinin həyatını və bədii yaradıcılığını tədqiq etmiş tanınmış alim-şair Vüqar Əhmədin əməyini xüsusi qeyd etməliyik. Hər iki müəllif filoloq olduqlarından onlar təbii olaraq öz tədqiqatlarında S.C.Pişəvərinin fəaliyyətində onun yaradıcılığının elmi-bədii cəhətlərinə daha artıq işıq salmışlar. Buna görə də S.C.Pişəvərinin siyasi xadim kimi fəaliyyəti, onun keçdiyi ağır mübarizə yolunun bir-birindən fərqli çalarları, xüsusən ideya və siyasi məramında istiqamət dəyişikliyində əmələ gəlmiş depressiyaların səbəblərinin və s. məsələlərin tədqiqi və öyrənilməsi günümüz üçün daha aktual və önəmlidir.

S.C.Pişəvərinin həyatı, siyasi fəaliyyəti yeknəsək, sabit və çalarsız olmamışdır. Odur ki, onun haqqında yazanlar çox vaxt fərqli mövqe göstərirlər. Bu fərqli mövqelərdən biri S.C.Pişəvərini öz dövrünün görkəmli, savadlı, millətini sevən, vətəninə bağlı, siyasi-ədəbi xadim kimi, səciyyələndirir. Bu mövqenin tərəfdarları həm İranda və həm də onun hüdudlarından kənarda böyük çoxluğu təşkil edir. Onların yazılarında, müsahibə və söhbətlərində S.C.Pişəvəri oxucu və dinləyiciyə siyasi rəhbər, böyük mütəfəkkir, iti düşüncəli, bişmiş qələm sahibi kimi təqdim olunur və s. Bu baxışdan tam fərqli olaraq şahpərəstlər, fars şovinizminə xidmət göstərən və Azərbaycan türklərinin tarixini və milli kimliyini dananlar (məsələn, tarixçi Kavə Bayat, Əli Zibai, Pərviz Vərcavənd, Mənsur Gürgani, Hüseyn Pirniya, Sərvan Kavianpur, Məhəmməd Məsud Nəqib, İbrahim Nasehi, Xosrov Mötəzed, Məhəmmədəli Səcadiyyə və başqaları) S.C.Pişəvəri şəxsiyyəti və fəaliyyəti haqda reallığa söykənməyən, olmazın böhtan, yalan və iftiralarla təkcə S.C.Pişəvərini deyil, onun başçılıq etdiyi hərəkatı da ləkələməyə və gözdən salmağa çalışmışlar. Onlar öz yazılarında S.C.Pişəvərini “Moskvanın əl altısı”, “Xalqla əlaqəsi olmayan”, “buyruq icraçısı”, “ara qızışdıran casus” və s. bu kimi Pişəvəri düşmənlərinə xoş gələn qara damğa və böhtanlı etiketlərlə ləkələməyə çalışmışlar. Qeyd etmək gərəkdir ki, bu işə Pəhləvilər dövründə olduğu kimi, hazırkı zamanda da rəvac verən “müştərilər” tapılır.

Keçən əsrin 80-ci illərinin sonunda, 90-cı illərin əvvəllərində Arazın bu tayında, azadlıq hərəkatının ilk illərində bəzi "tənqidçilər" tərəfindən S.C.Pişəvərinin mübarizə yolunu, məram və əqidəsini "təftiş" etməyə meyl göstərənlər də tapıldı. Ara-sıra mətbuat səhifələrində, yığıncaqlarda S.C.Pişəvərinin və onun başçılıq etdiyi hökuməti qınamağa, onların qeyri-müstəqil olmalarını, hər addımı rusların göstərişi və məsləhəti ilə atdıqlarını söyləyənlər və yazanlar olmuşdu. Təəccüblü cəhət burasıdır ki, bu “tənqidçilər” nə Güney Azərbaycandakı baş vermiş hərəkatın milli zəmini, nə hərəkatın aparıcı qüvvələri, nə də fars və əsgi əlifbada mövcud olan çoxsaylı sənəd və ədəbiyyatla tanış deyildilər. Üstəlik S.C.Pişəvərini və 1945-1946-cı illərdə Güneydəki siyasi olayları “təftiş” edənlərin çoxu tarix elmi üzrə savadı və təcrübəsi olmayanlar və bu sahədə əsaslı araşdırma aparmayanlar idi. Öz yazılarında və deyimlərində özgələrdən “kult” düzəltməyə can-başla hazır olan bu adamlar keçmişimizi insafsızcasına təhrif etməyə, tarixi şəxsiyyətlərimizi haqq-nahaq qamçılamağa başladılar. Misal

olaraq vaxtilə “Impuls” qəzetində bir filololoq alimin çap etdirdiyi “Pişəvərinin şəkəri suya düşüb” məqaləsindən bəzi parçaları yada salaq. Məqalədə iddia olur ki:

- Güneydəki xalq hərəkatı guya “Moskvanın adamları həyata keçirib”;
- “Pişəvəri hökuməti dövrünün Azərbaycan xalqının milli-azadlıq hərəkatı kimi təqdim edilməsi tarixi həqiqətə uyğun deyil”;
- Başqa bir tarixçinin kitabına birtərəfli istinadla məqalə müəllifi yazır ki, Pişəvərinin rəhbərlik etdiyi hökuməti və Güneydəki xalq hərəkatını bütünlüklə guya Moskva təşkil və idarə etmişdi. “...Moskva adamlarının həyata keçirdiyi hərəkat Azərbaycan xalqının adına çıxılır”.

Müəllif məqaləsində belə nəticəyə gəlir ki, kim Pişəvərinin başçılıq etdiyi hərəkat və hökumət haqqında xoş niyyətlə danışsa, onda İrandakı antiazərbaycan qüvvələrinin dəyirmanına su tökür ki, bu da iki qonşu ölkə dövləti arasında münasibətləri pozur (Qəribə məntiqsiz “məntiqdir!”). Məqalədə S.C.Pişəvəriyə və hərəkata aid yanlış, qeyri elmi və reallıqdan uzaq başqa məqamlar da çoxdur.

Təəssüf doğuran cəhət budur ki, bütün həyatını millətinin azadlığına həsr etmiş tarixi şəxsiyyət, ensiklopedik mütəfəkkir olan S.C.Pişəvəriyə və Güneydəki milli-azadlıq hərəkatına əsassız ittihamları yağdıran nə erməni, nə rus və nə də başqa yad millətin nümayəndəsi yox, bəzən bizim öz soydaşlarımızda olur.

Qeyd edək ki, bir insan, bir siyasi rəhbər kimi S.C.Pişəvəri səhvlərdən, yanlış cəhətlərdən xali deyildi.[*] O, bunu özü də etiraf etməkdən çəkinməmişdi. Lakin hər hansı səhvi şişirdib, ona böhtanla dolu rənglər verib, Pişəvəri kimi dahi bir insanı ləkələyib, gözdən salmağa olan cəhd həm də onun başçılığı altında Güneydəki xalq hərəkatını, milli hökuməti, milli qüvvələrin hədəf və tələblərini ləkələmək niyyətindən başqa bir şey deyildir. Əlbəttə, məqsədimiz S.C.Pişəvəriyə qaxmar çıxmaq, onu bütün vasitələrlə müdafiə etmək deyil.

Heç onun buna ehtiyacı da yoxdur. Obyektivlik tələb edir ki, hadisələri və şəxsiyyətləri qiymətləndirərkən hər şey oxucuya olduğu kimi çatdırılmalıdır.

* * *

İran tarixçilərinin və tədqiqatçılarının bəzisi S.C.Pişəvəridən bəhs edərkən müəyyən amilləri nəzərə almadan ən çox onu Sovetlərin yardımına söykənməkdə suçlayırlar. Əvvələn bilmək lazımdır ki, 1941-1946-cı illərdə Güneydəki azadlıq və muxtariyyat uğrunda hərəkata Sovet İttifaqından, xüsusən Quzeydəki soydaşlarımızdan başqa arxa duran, ona az-çox yardım əlini uzadan ikinci bir qüvvə olmamışdı. Digər tərəfdən elə bir ölkə tapmaq olmaz ki, orada baş vermiş hər hansı ictimai-siyasi hərəkat xarici yardıma möhtac olmasın, ondan qidalanmasın. Bu mənada arxasındakı məkrli niyyətləri bir tərəfə qoysaq, Güneydəki ağır şəraitdə sovet yardımından (istər mənəvi, istərsə də maddi və hərbi) istifadə olunmasına təbii və normal hal kimi baxılmalıdır. Sovet köməkliyi

[*] Kitabın nəticə hissəsində bu haqda bəhs olunacaq.

məsələsi S.C.Pişəvərinin və xalq hərəkatının opponentlərini daha çox qıcıqlandırır. Bu fakt onların əlində S.C.Pişəvərini və baş vermiş milli-demokratik hərəkatı, onun uğurlarını başqasının adına (Sovetlərin) çıxmağa, hərəkatın süni şəkildə yaradıldığını iddia etməyə və bu haqda saysız-hesabsız böhtanlar yazmağa imkan verir. S.C.Pişəvəri şəxsiyyətini qaralamaq istəyənlər Pəhləvi zamanında olduğu kimi yeni üsul idarə dövründə də öz cildlərini islami "əba" ilə əvəz edərək fəaliyyətlərini davam etdirirlər. Onlardan yetərincə misallar gətirmək olar. Lakin biz oxucunu yormamaq xatirinə onların böhtanla dolu cızma-qaraları üzərində bəhs açmaqdan vaz keçirik. Fəqət iki misal gətirməklə kifayətlənəcəyik.

Son vaxtlar özünü müasir İran tarixinin və keçmiş siyasi olayların "mahir bilicisi" kimi təqdim edən qatı şovinist Xosrov Mötəzed öz yazılarında və xüsusən, Tehran televiziyasındakı çıxışlarında 1945-1946-cı illərdə Güneydəki hərəkata və onun rəhbəri S.C.Pişəvərinin ünvanına ağıla gəlməz yalan və iftiralar söyləyir. Onun "Bədii", "Tərəqqi", "Bəndər və dərya", "Kəşkəşan" dərgilərində çap etdirdiyi məqalələrində, eləcə də Tehran televiziyasının 2-ci kanalında günaşrı 15 dəqiqəlik "Poli be qozəşte" (keçmişə körpü), "Qərne pör macəra" (Macəralarla dolu əsr), "Əz tarixe qozəşte" (Keçmiş tarixdən) və b. adlarla apardığı söhbətlərdə Azərbaycan tarixinin bir sıra önəmli cəhətlərini əsas, fakt, sənəd gətirmədən fars şovinizmi mövqeyindən tamaşaçılara sırıyır. O, çıxışlarının birində S.C.Pişəvərinin başqa ölkənin casusu adlandıraraq onun İran və Azərbaycanla heç bir əlaqəsi olmayan "gəlmə" sayır. Çox təəccüblü də olsa X.Mötəzed iddia edir ki, "Pişəvəri türkcə bilmirmiş, farscanı da az-çox zindanda öyrənib". Minlərlə məqaləsi, yazıları, kitabları və səlis çıxışları olan bir mütəfəkkirə bu böhtanlar heç cür yapışa bilməz.

"Pəhləvilər səltənətinin zühuru və süqutu" kitabının müəllifi, Məhəmməd Rza şahın keçmiş generalı və köməkçisi Hüseyn Fərdust X.Mötəzed nəslinin vətənə, xalqa xəyanətlə dolu xidmətlərinin mahiyyətini pis açmır. (177.s.296-297; 424, 429 və s.)

S.C.Pişəvərinin həmkəndlisi Seyid Məhəmməd Məsud Nəqəvinin çapdan çıxmış "Xalxal məşhurları" adlı (813 səh.) kitabında S.C.Pişəvəriyə aid 7-8 dəfə açılan bəhsin hamısında hiss olunur ki, bu haqda söhbət sifarişlə yazılmış, heç bir həqiqətə söykənməyən yalan və böhtanlardan ibarətdir. Kitabı maliyyələşdirən və çapına şərait yaradanlara xoş gəlmək üçün S.C.Pişəvərini və onun başçılıq etdiyi Milli Hökumət dövrünü "özbaşınalıq", "quldurluq", Azərbaycanın və Xalxalın "pozuculuq", "dərəbəylilik" dövrü kimi xarakterizə edir (16.s.104, 112, 114, 115, 132, 135).

Sonralar rejim məmurları tərəfindən yasaqlanmış "Şəms Təbriz" qəzeti bu səpgili çıxış və kitab müəlliflərini nəzərə alaraq onlara müraciətlə yazmışdı: "Onların məqsədi Pişəvərini və eləcə də Azərbaycandakı milli hərəkatı ləkələməkdir. Belə fərz edək ki, Pişəvəri və onun hərəkatı xaricin işidi, milli zəmini olmayan süni, qondarma işdi. Bəs onda Səttərxan hərəkatına, Xiyabani

qiyamına, 29 Bəhmən Təbriz üsyanına nə ad verirsiz? Görün onlara da bir şey yapışdıra bilərsinizmi?! Anlamaq lazımdır ki, bir zəmidə səmərəli toxum varsa o gec-tez göyərməyə məcburdur".

Milli Hökumətə çox da yaxşı münasibəti olmayan Ayətullah Mirzə Abdulla Müctehidi yazdığı gündəliklərin birində deyir: "Tutaq ki, Tehran bu dəfə müvəffəqiyyət əldə edib bu mövzunu (milli hərəkatı - Ə.R) ortadan götürdü. Lakin bilməliyik ki, onun kökü kəsilməyəcək. İmkan olan kimi o toxum göyərərək və daha qüvvətlə Tehranın qabağında problem yaradacaqdır" (8. s.343).

İranda, xüsusən Güney Azərbaycanda qabaqcıl ictimaiyyətin, xüsusən gəncliyin bu proseslərə düşüncə tərzi göstərir ki, nə S.C.Pişəvərini, nə də onun başçılıq etdiyi Milli Hökuməti, onun birillik fəaliyyəti dövründə görülmüş işləri asanlıqla tarixdən, xalqın yaddaşından silmək mümkün deyildi.

S.C.Pişəvəri şəxsiyyətini, onun İranda, xüsusən Güney Azərbaycanda fəaliyyətini obyektiv qiymətləndirmək üçün onun yaşadığı dövrün çeşidli cəhətlərini, keçdiyi mübarizə yolunun mərhələlərini və bu mərhələlərdə S.C.Pişəvəri təfəkküründə əmələ gəlmiş dəyişiklikləri davamlı izləmək lazımdır.

S.C.Pişəvərinin həyat və fəaliyyətində siyasi mübarizə ilə yanaşı ədəbi-bədii yaradıcılığı, zəngin publisistikası da rnühüm yer tutur.

Onun bədii yaradıcılığına elmi və publisist əsərlərinə Pişəvərişünaslıqda müəyyən yer ayrılsa da onlar yetərincə öyrənilməmişdi. Bədii yaradıcılığından bəzi nümunələr AMEA Nizami adına İnstitutun nəşr etdiyi "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nda, S.C.Pişəvərinin ərəb əlifbası və sonra isə kirilcə çap olmuş seçilmiş əsərlərində isə bir neçə siyasi, ədəbi tənqidi məqalələri və felyetonları yerilmişdi. Professor Vüqar Əhmədin Pişəvərinin ədəbi-bədii yaradıcılığına, Almaz Əliqızının və Sabir Əmrah oğlunun Güney ədəbiyyatının ayrı-ayrı mərhələlərinə həsr edilmiş doktorluq dissertasiyalarında və çap etdirdikləri monoqrafiyalarda S.C.Pişəvəriyə və onun rəhbərlik etdiyi hərəkata ədəbi-bədii prizmadan işıq salınmışdı.

S.C.Pişəvərinin nəsr formasında yazdığı "zindan xatirələri dəftərindən" əsəri əslində bir məhbusun qələmindən çıxan sənədli siyasi epopeyadır. Rza şah zindanın dəhşətlərini təkzibolunmaz faktlar və sübutlarla təsvir edən ittihamnamədir. Filimə çəkilişi, tamaşaya qoyulası faciələrin real mövzusudur.

Tehrandakı "Quyəndə" nəşriyyatı 2004-cü ildə S.C.Pişəvərinin zindanda yazdığı başqa bir əsərini "Nadirə" romanını böyük tirajla çap etmiş, "Məhinbanu" romanını isə çapa hazırlamışdı.

S.C.Pişəvərinin bədii obrazının təsvirinə o taylı-bu taylı Azərbaycan ədəbiyyatında müəyyən yer verilmişdir. Mirzə İbrahimovun, Söhrab Tahirin romanlarında, B.Azəroğlunun, B.Vahabzadənin, Ə.Şahmarın, Ə.Tudənin, Fikrət Sadığın, Mədinə Gülgünün, M.Dilbazinin, S.Tahirin, X.Rzanın, H.Bilurinin, N.Rəfibəylinin, N.Həsənzadənin, H.Tərlanın, A.Səfanın və s. şairlərimizin şeir və poemalarında S.C.Pişəvərinin obrazı bədii fonda canlandırılmışdı.

*   *   *

Tədqiqat prosesində "böyük farsçılıq", "vahid millət" mövqeyindən çıxış edən şovinist tarixçilərin, eləcə də vaxtı ilə Sovet xəfiyyəsinə xidmət etmiş çinovniklərin çoxu əyri, azı düz raport və məlumatlarının təsirinə düşməməyə səy etmişik. Mövzuya aid hər şeyi ilk mənbələrdən, S.C.Pişəvərinin yazılarından, deyim və xatirələrindən, rəsmi firqə sənədlərindən, S.C.Pişəvəriyə aid istintaq materiallarından, Pişəvəri ilə çiyin-çiyinə işləmiş və onunla mübarizə və məslək yoldaşı olmuş insanların xatirələrindən, olayların canlı şahidi və iştirakçısı olmuş insanların etiraflarından, Dövlət Arxivində və Firqə saxlancındakı bəzi sənəd və faktlardan faydalanmağa çalışmışıq. Bununla birlikdə İranda və onun sərhədləri xaricində, o cümlədən respublikamızda yazılmış əsərlərdəki faktlar araşdırmada bizə önəmli dərəcədə kömək etmişdi.

Müasir İranda S.C.Pişəvəriyə aid hər şeyi şovinist məqamından yozan və yazanlardan fərqli yazanlar, sözünü vicdanının səsi ilə deyənlər də az deyil. İranda və Güneydəki ziyalıların bir çoxu, həmçinin universitet tələbələri (nəzarət və senzuraya baxmayaraq) öz yazılarında S.C.Pişəvərini böyük şəxsiyyət kimi təqdim etməkdən çəkinmirlər. Onun başçısı olduğu Azərbaycan Milli Hökumətinin bir ildə gördüyü işləri və icra etdiyi tədbirləri öz yazılarında rəğbətlə yad edirlər.

Məlum olduğu kimi, İranın indiki siyasi mühitində S.C.Pişəvəriyə və onun başçılıq etdiyi hərəkata aid xoş niyyətinə kitab yazıb, məqalə çap etmək böyük maneələrlə üzləşir. Bu iş ən azı cəsarət, milli qeyrət tələb edir. Bu cəhətdən Əli Muradinin "Rza xan zindanından Azərbaycan Demokratik Firqəsinin sədri olanadək" ağır zəhmətin nəticəsi olan dəyərli kitabını, tanınmış tarixçi alim Rəhim Rəisniyanın "Axırıncı səngər" adlı qiymətli əsərini, Şahrux Fərzadın S.C.Pişəvərinin həbsi ilə bağlı istintaq materialları məcmuəsini, təbrizli tədqiqatçı Həmid Mollazadənin kitablarını, eləcə də "Azərbaycan", "Tribun", "Varlıq", "Yol", "Səhənd", "Yoldaş", "Haray", "Anadili", "Azərbaycanın səsi", "Araz", "İldırım", "21 Azər", "Çənlibel", "Şəms Təbriz", "Nəvide Azərbaycan", "Ərməğane Azərbaycan", "Haray" və s. dərgi və qəzetlərdə S.C.Pişəvəri haqda dəyərli məqalələrin məziyyətini xüsusi qeyd etmək lazımdır. Amerikalı müəllif professor Brenda Şeyferin "Sərhədlər və qardaşlar", professor Qulamrza Təbrizinin 1989-cu ildə Londonda nəşr etdirdiyi "İran", tanınmış şair-jurnalist Əlirza Miyanalının "Tüfənglə ölçülən torpaq", professor Cəmil Həsənlinin 1941-1946-cı illərdə güneydəki olaylar haqda arxiv materialları əsasında çap etdirdiyi kitabları, eləcə də professor Vüqar Əhmədin S.C.Pişəvərinin ədəbi yaradıcılığı haqda tədqiqatı və monoqrafiyasını, akademik Mirzə İbrahimovun yazılarında Pişəvəri haqqında məqamları, professor Şövkət xanım Tağıyevanın S.C.Pişəvəri haqda məqalələri, mərhum alimimiz Mirqasım Çeşmazərin Demokrat firqəsinin yaradılması tarixindən bəhs edən kitabı və məqalələri, bu sətirlərin müəllifinin Bakıda, Kanadada, İranda və Türkiyədə çap olunmuş "Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946)" kitabı, məqalə və çıxışları və s.i.a. - bunları

Pişəvərişünaslıqda önəmli addımlar kimi qeyd etmək olar. Bundan əlavə S.C.Pişəvərinin məslək yoldaşlarının çap etdirdikləri xatirələrdə də S.C.Pişəvərinin şəxsiyyətini və fəaliyyətini düzgün işıqlandıran cəhətlər çoxdur və yeri gəldikdə biz tədqiqatda onlardan faydalanmağa çalışmışıq.

Yuxarıda qeyd olunanlarla yanaşı demək lazımdır ki, Azərbaycan Demokrat Firqəsinin nəşriyyələrində S.C.Pişəvəriyə, onun siyasi və ədəbi fəaliyyətinə müəyyən yer ayrılmışdı. 1946-cı ildə Təbrizdə çap edilmiş "Qızıl səhifələr", 1965-ci ildə Bakıda çap edilmiş "Məqalələrindən seçmələr" (seçilmiş əsərləri), sonrakı illərdə "21 Azər" kitabında məqalələri və son illərdə S.C.Pişəvərinin "Xatirələr"i çap edilib oxuculara təqdim edilmişdi və s. Adları çəkilən bu mənbələrdə S.C.Pişəvəriyə aid dəyərli faktları tədqiqat zamanı elmi dövriyyəyə cəlb etməyə çalışmışıq.

***

S.C.Pişəvəri irsinə ehtiramın rəmzi olan bu kitabı azırlamaqda əsas məqsədimiz XX əsr tariximizin fenomenlərindən olan bir insanı - S.C.Pişəvərini ictimaiyyətə, xüsusən gənc nəsilə yaxından tanıtdırmaqdır. Bu hədəfə az-çox çata bilsək bunu özümüzə uğur sayardıq, S.C.Pişəvərinin müqəddəs və narahat ruhu qarşısında tədqiqatçı borcumuzu qismən də olsa yerinə yetirilmiş olardıq.

"Mübarizə burulğanlarında keçən ömür" kitabının hazırlanmasında faydalı məsləhətlərinə görə professor Şövkət xanım Tağıyevaya, professor Cəmil Həsənliyə, akademik Teymur Bünyadova, professor Musa Qasımlıya, eləcə də AMEA Şərqşünaslıq İnstitutunun Güney Azərbaycan Elmi Araşdırmalar şöbəsi əməkdaşlarına, mənə öz köməkliklərini əsirgəməmiş Güneyli soydaşlarımıza, kitabın redaktəsində müəllifə xeyirxah köməklik etmiş Mehmen Tağı oğluna, kompüterdə mətinlərin yığılmasında böyük zəhməti olan Gövhər xanım Quliyevaya, Elmira xanım Məmmədovaya, tarixi şəkillərin çəkilişi və təmizlənməsində əvəzsiz xidmət göstərən Gülüdə xanım Əliyevaya öz təşəkkür və minnətdarlığımı bildirirəm.

## MİLLİ HÖKUMƏTİN DÖVLƏT HİMNİ

Mus: **C.Cahangirov**

Söz: **M.M.Etimad**

Nota köçürən Dr. professor **R.İmrani**

Ey vətənim Azərbaycan,
Əbədi odlardan nişan.
Adlı-şanlı keçmişin var,
Sən böyütdün qəhrəmanlar.

Qoca şərqin çırağısan,
Azadlığın bayrağısan.
Tarix boyunca yadigar,
İftixarlı asarın var.

**Nəqarət:**
Sənsən bizə ana vətən,
Sənsən bizə nemət verən
Sənsən bizə ruhi-rəvan,
Yaşa-yaşa Azərbaycan!
Azərbaycan, Azərbaycan,
Aslanların məkanısan.
Sən qurduğun yeni həyat,
Xalqımıza verdi nicat
Gözəl günlər gətiribsən,
Səttərxanlar yetiribsən.
Qoy yurdumuz cənnət olsun,
Düşmən bağrı qanla dolsun.

## SEYİD CƏFƏR PİŞƏVƏRİ

## (1892 - 1947)

"Bir zaman gələr ki, xalq Məşrutə inqilabında iştirak edən bir mücahidi axtarar ki, o özünün məhəbbətini ona bildirsin. Bəlkə bir müddətdən sonra o da tapılmadı. O vaxt xalq fəqət tarixə müraciət edəcək. Oradan böyük hərəkat və onun başçılarını öyrənmək istəyəcəkdir. Buna görə tarixə ciddi fikir vermək, əldə olan sənəd və faktları toplayıb gələcək nəslə çatırmaq lüzumu meydana çıxır".

*Seyid Cəfər Pişəvəri*

## MİRCƏFƏR CAVADZADƏ - PİŞƏVƏRİ (1892-1947)

## UŞAQLIQ VƏ GƏNCLİK İLLƏRİ

Seyid Cəfər Mir Cavad oğlu Pişəvəri (Cavadzadə)* 1892-ci il avqustun 26-da (hicri tarixlə 1313-cü il səfər ayının 13-də) Azərbaycanın Güneyində, Xalxal mahalının Zeyvə (farscası: Zaviyeye sadat - seyidlər Zeyvəsi) kəndində əkinçi

* Keçən əsrin 20-ci illərində ilk famili "Cavadzadə", sonra "Pərviz", 1927-ci ildən isə "Pişəvəri" olmuşdur. 40-cı illərdə isə "Mir Cəfər" adı "Seyid Cəfər", yazıldığından biz də "Seyid Cəfər Pişəvəri" yazacağıq.

ailəsində dünyaya göz açmışdır.[**] O zaman Zeyvə kəndinin sakinləri əsasən seyidlərdən ibarət olduğundan bu kəndə xalq arasında "Seyidlər Zeyvəsi" deyilir. Həm də Xalxaldakı digər Zeyvə (Xanegahe sadat - Seyidlər evi) kəndindən onu fərqləndirmək üçün bu kənd "Seyidlər Zeyvəsi" adlandırılmış və hal-hazırda kənd bu adı daşımaqdadır.

Seyidlər Zeyvəsi Ərdəbil tərəfdən Təbrizin 334, Miyana tərəfdən 271, Xalxalın isə 30 km. də yerləşir və hazırda Ərdəbil əyalətinə daxildir. (121. s. 1-814)

S.C.Pişəvərinin doğulduğu Zeyvə kəndi Xalxal şəhərinin cənubunda, Alışma kəndi ilə Dəvə ölən dərəsi qonşuluğundadır. XIX əsrin axırında 550 ailədən ibarət olan bu kənddə hazırda 1000-dək ailə yaşayır ki, onların da əksəriyyəti seyidlərdir. Əsrarəngiz təbiətli Zeyvə üç tərəfdən çox da uca olmayan dağ və təpələr, qismən meşəliklə əhatələnmişdi. Bu sətirlərin müəllifi 2003-cü ildə Güney Azərbaycanda olarkən Zeyvə kəndini ziyarət etmiş və S.C.Pişəvərinin mənsub olduğu tayfanın və ailənin tarixçəsini öyrənməyə çalışmışdır. Təəssüflə qeyd etməliyik ki, bu kənddə S.C.Pişəvəri nəslinə mənsub qalan yoxdur və ya siyasi şübhələrlə bağlı özlərini tanıtdırmadılar. Bu cəhətdən biz Zeyvədən məyus qayıtdıq. Bununla birlikdə öyrənə bildik ki, ata babası Kəlbəlayi Mir Yəhya və onun oğlu (S.C.Pişəvərinin atası) Mir Cavad ağa mahalda yaxşı tanınan Seyid Mir Əzizli tayfasındandır ki, bu tayfanın bir qolu da S.C.Pişəvərinin anası Seyid Səkinə xanımın nəsil şəcərəsi - məşhur Təba-təbailər nəsli ilə əlaqələnir.

Kənd ağsaqqallarının etirafına görə S.C.Pişəvərinin ulu babası Kəlbəlayi Mir Yəhya ağa dini təhsil almış, halal kasıb-kusuba əl tutan və hörmətli adam olmuşdur. S.C.Pişəvərinin atası Mir Cavad Kəlbəlayi Mir Yəhya ağanın ikinci arvadından olduğundan o, qardaşları ilə ögey atabir, ana ayrı idilər.

Kəlbəlayi Mir Yəhya ağa ortabab kəndli olmuş, onun bağı, əkin sahəsi, mülkü və bir miqdar mal-heyvanı olmuşdur. O, dünyasını dəyişdikdən sonra qardaşları Mir Cavad ağanın vərəsəlik payına da insafsızcasına sahib çıxdıqları üçün Mir Cavad qardaşlarından incik düşmüş və bu inciklik Mir Cavadın ailəliklə Azərbaycanın Quzeyinə - Bakıya köçməsinə səbəblərdən biri kimi göstərilir.

Mir Cavad 20 yaşında olarkən qonşu Kivi kənddən, Seyid nəslindən olan Seyid Səkinə xanımla ailə qurur. Doğularkən tələf olmuş iki uşağı nəzərə almasaq, Seyid Səkinədən üç oğlan: Mir Cəfəri, Mir Xəlil, Mir Səlim və iki qız: Seyid Cavahir (Rüsxarə), Seyid Suğra dünyaya gəlmişdir. 101 yaşında dünyasını dəyişmiş Suğra xanım ailələri haqqında xatirələrdə söyləyir: "Seyid Cəfər ailədəki beş uşaqdan ikincisi idi. Səfər ayının 13-də doğulmuşdu. Kəndin başbiləni

[**] S.C.Pişəvərinin təvəllüd tarixi bir sıra kitab və yazılarda fərqli verilir: "1893", "1897" və hətta 1888-ci il yazanlar da var. Doğma bacısı Süqra xanım isə S.C.Pişəvərinin 1892-ci ildə anadan olduğunu deyir. Bu tarix S.C.Pişəvərinin 1930-cu ildə istintaqa verdiyi məlumat və "Ajir"də özü haqda çap etdirdiyi yazıdakılarla düz gəlir.

(“münəccim”i) Mirdaməd (guya onun hər şeyi qabaqcadan görmək qabiliyyəti var imiş) atama demişdi ki, bu uşaq çox ağır gündə dünyaya gəlib. Uşağı qada-baladan uzaq eləmək üçün yeddi il onun özü ağırlığında sədəqə paylanmalıdı. Gələcəkdə onun başına nələr gələcəyini təkcə Allah bilirdi. Təzə doğulmuş övlad haqda bu sözləri eşidən atamla anam çox mütəəssir olmuşdular. Yeddi yaşına qədər hər il onu tərəzinin bir gözünə çıxarır, o biri gözünə isə özü ağırlığında düyü, buğda və s. qoyurdular.

Beş yaşında artıq yazıb oxumağı bacarırdı. Mütaliə etməyi çox sevirdi. Bəzən onu oynamağa çağıranda mənə deyirdi ki, get özün tək oyna, mənə qarışma...

Əlinə nə kitab düşürdüsə, hamısını oxuyurdu. Çox güclü hafizəsi vardı. Molla atama onun Bağdadda təhsil almağını məsləhət görmüşdü.

Ata tərəfini Xalxalda məşhur olan Təbatəbai seyidlərindən idi. Atam çox zəhmətkeş idi. Kənddə hamı ona hörmətlə yanaşırdı. Zeyvə kəndində kənd əhli qaçaq-quldur əlindən cana gəlmişdi. Hər payız yığılan məhsulu talan edib aparırdılar. Elə olurdu ki, kəndliyə əkmək üçün toxumluq belə qalmırdı (195. 1999, № 2, s.32-34).

Mir Cavadın vətənin bu tayından o tayına - Bakıya köçməsi səbəbi təkcə qardaşları ilə olan ata malı üstündəki ixtilafı deyildir. Zeyvədə dolanmanın ağırlıq və çətinliyi, üstəlik Nəsrəddin şahın ölümündən sonra onun xəstə oğlu Müzəfərəddin şah dövründə ölkədə baş alıb gedən dərəbəylik və özbaşınalıq da səbəblər sırasında idi. Mülkədar və mənsəb sahiblərinin kəndlərdəki zorakılığı, oğru, çapqınçı və yol kəsib, talanlar törədən quldur dəstələrinin törətdikləri cinayət və faciələr də başqaları kimi Cavadzadələr ailəsini də cana gətirmişdi.*

---

* S.C.Pişəvəri sonralar həmin dövrdəki olayları xatırlayaraq yazırdı: «... Bəlkə də siz qarət və çal-çap haqqında müəyyən sözlər eşitmiş və ya oxumuşsunuz. Mən isə bu hadisələri dəfələrlə öz gözümlə görmüş və onun ağır nəticələrini öz şəxsi həyatımda hiss etmişəm... Bəslədiyim arzu nəhayət həyata keçdi. Xalam oğlu məni öz kəndlərinə apardı. Tam iki həftə müddətində orada qaldım. Bizim kəndin adamları onlara nisbət daha düşüncəli idilər. Xaricə səfər etdikləri üçün göz-qulaqları açılmışdı. Kənddə özlərinin mollası, mərsiyəxanı, hətta, müəllimi və həkimi var idi. Lakin qonaq olduğum kəndin sakinləri çox pis yaşayırdılar. Hamısı əvam və savadsız idi. Evləri bizim evlərdən daha qaranlıq və daha kəsif (çirkli) idi. Qoyun və inəklərlə bir yerdə yaşayırdılar. Mülkədarların hərəkətləri məni təəccübləndirirdi. Xırmanlar tam bir ay qabaq döyülüb hazır olmasına baxmayaraq mübaşir (mülkədar və dövlət vəkili) mülkədarın payını müəyyən etməyə, hazır məhsulu yığışdırmağa icazə vermək istəmirdi... Mülkədarların çoxlu silahlı dəstələri var idi. Onlar ətraf kəndləri talayır və açıqcasına öz aralarında bölüşdürürdülər. Xalam oğlu gecələrin birində məni yavaşca oyatdı, geyindirdi və səssiz-səmirsiz yola düşdük. O gecə çox qaranlıq idi. Dörd ailə, arvad-uşaq, böyük-kiçik üzvlər köhnə paltarlarını, qab-qacaq, yaşayış vasitələrini yığışdırıb çapqınçıların əlindən kəndi tərk etməli oldular. Onlar xırmandakı məhsuldan belə göz örtmüşdülər. Qadınlar böyük həsrət və təəssüflə arxaya baxıb ah çəkirdilər... Bizə göstəriş vermişlər ki, yolda bir kəlmə do danışmayaq. Hətta tapşırmışlar ki, öskürməyək. Dayanmaq istədikdə əlimizdəki ağaclarla bir-birimizə xəbər verməliydik. “Karvanımız” səssiz-səmirsiz hədsiz qorxu və dəhşətlə yol gedirdi. Ən kiçik səslər belə az qala ürəyimizi partladırdı. Mülkədarların atlılarından, yol kəsənlərdən, habelə sayır ehtimallı maneə və çətinliklərdən qorxurduq. Analar körpələrini döşlərinə basır və onların səs çıxmalarına imkan vermirdilər. Bütün bu ehtiyat tədbirlərinə

Halal, zəhmətkeş insanlardan ibarət Zeyvə camaatının evləri çox vaxt rejimin, yerli məmurların və zalım sahibkarların əleyhinə çıxdıqları üçün təqib olunanların etibarlı sığınacaq məkanı olurdu. Bu işdə Mir Cavad ağanın koması istisna deyildi. Kəndə sığınmaq üçün pənah gətirən hər bir mübariz bu ailədə hörmətlə qarşılanardı və onun ələ keçməməsinə cəhdlər olardı. Bunu sezən dövlət məmurları və onların yerli əlaltıları Mir Cavadın evini daha çox nəzarət altında saxlayarmışlar, başqalarına nisbətən bu evə qaçaqçı quldurların vaxtaşırı hücumlarını təşkil edərmişlər. Mir Cavadın evi dəfələrlə bu hücumlara məruz qalmış, özü fiziki zorakılıq ilə üzləşmiş, arvad-uşağı pis və qorxu içərisində yaşamalı olmuşdur. Bu vəziyyət minlərlə güneyli ailələr kimi Cavadzadə ailəsini də 1905-ci ilin martında doğma kəndini tərk edib Azərbaycanın Quzeyinə - Bakıya köçmək zorunda qoymuşdur.

Mir Cavad Bakıya köçüb gələrkən onun Xalxalda qalan Rüxsarə qızı ailəli və xəstə olduğundan Arazın bu tayına gələ bilməmiş və bir müddət sonra o vaxt amansız sayılan, malareya (qızdırma) xəstəliyindən əvvəl özü, sonra isə ailə üzvləri bir-bir dünyalarını dəyişmişlər.

XX əsrin başlanğıcında Güney Azərbaycanda baş vermiş xalq çıxışlarına, xüsusən Səttarxanın başçılıq etdiyi Məşrutə inqilabına Güney Azərbaycanın hər yerində olduğu kimi Xalxal mahalında da böyük rəğbət var idi. Seyid Cəfər Pişəvərinin atası Mir Cavad Məşrutə mücahidlərinə dəfələrlə öz mənzilində yer vermiş və özü də bu hərəkatın başlanğıcında ona qoşulmuşdur. Bunu S.C.Pişəvərinin bacısı Suğra xanımın xatirələrində də görmək olar. "... Əslində atamın Seyid Cəfərə təsiri çox olmuşdur. Atam Səttarxan mücahidlərindən idi. Hələ o vaxt atamla dostları arasında fədailər, inqilabçılar barədə söhbət olurdu. 12-13 yaşlı Seyid Cəfərdə həmişə onlara qulaq yoldaşı olardı. Söhbətə qarışıb bir söz soruşanda ona gülüb deyərdi: "Sən belə şeyləri bilmək üçün çox kiçiksən".

Mir Cavad ailəsi ilə birlikdə Bakıya köçməmişdən əvvəl o,bu şəhərlə tanış idi. Zeyvədə əkin-biçin qurtaran vaxt ailəsini dolandırmaq xatirinə işləmək üçün Bakıya gəlmişdi. Bu mənada Bakı onun üçün əvvəldən tanış idi. Bakı indi olduğu kimi o zaman da Cənubi Qafqazın gözəgəlimli neft sənaye şəhəri idi. "Bakı neft mədənlərində hasil olan neft dünyada işlədilən neftin 50 faizdən çoxunu təşkil edirdi. Neft sənayesinin inkişafı Bakıda sənayenin başqa sahələrində, o cümlədən

---

baxmayaraq səhər tezdən Qarasoranlar, gün çıxandan sonra isə Surxay Xaciəbəyli atlıları bizi çapıb-taladılar. Bütün şeylərimizi aldılar. Yazıq qaçqınlar tam çılpaq şəkildə özlərini qəsəbəyə çatdırdılar. Beləliklə küçə dilənçilərinin sayı daha da artdı... İran Cəmiyyətinin əksəriyyətini təşkil edən kəndlilərin məişət və vəziyyətindən kiçik məlumat istəyən bir adam labüdən kəndə getməli və öz ömrünün müəyyən vaxtını orada keçirməlidir. Hələ bu heç də kifayət deyil. Ona görə ki, kəndlərin, hətta vilayətlərin vəziyyəti eyni deyil. Buna görə də adam həmin tədbirlərlə belə düzgün məlumat əldə edə bilməz. Bu cəhətdən də mən ələ düşmüş fürsətdən istifadə edərək gördüklərimi yazıb nəzərə çatdırmaq əzmindəyəm».

toxuculuq, inşaat materialları, yollar çəkilişi, dağ-mədən sənayesinin və s. inkişafin səbəb olmuşdur... İşçi qüvvəsinə yaranmış tələbatın bir hissəsi də İrandan Bakıya köçüb gələnlərin hesabına təmin olunurdu" (129.s.4-5). İranşünas alim M.S.İvanovun yazdığına əsaslansaq XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı neft mədənlərinə və Qafqaz şəhərlərinə Arazın o tayından gələnlərin sayı ortahesabla 200 min nəfərə çatmışdı. (254. s.ll)

"19-cu yüzillik sona çatmamış Bakı böyük neft istehsalı mərkəzinə çevrildi. Belə olduqda yüzlər və minlərlə işsiz, çarəsiz, çörək əsiri olan güneyli, Arazın o tayı və Qafqazın iş mərkəzlərinə çəkildilər... Az zamanda Bakı neft mədənlərində, Gədəbəy mis əritmə, Tovuz sement zavodunda, Naxçıvan duz mədənlərində və Qafqaz dəmir yollarında çalışan güneyli qara fəhlələrin sayı yüz mini aşıb, ikiyüz min nəfərə çatdı." (201. 1386, № 32, s.26).

S.C.Pişəvəri öz məqalələrinin birində Arazın bu tayına gələn həmvətənlərinin acı taleyindən bəhs edərək yazırdı:

"Dünyanın hər yerindən gələn fəhlə, usta və mütəxəssisləri özünə cəlb edən Bakıda İranlı fəhlələr hamıdan ucuz, hamıdan işlək və iş sahibi üçün daha çox xeyir verən insanlar idi. Quldur-qaçaqçıların onların başına açdıqları oyundan bura qaçıb gələnlər burada da bir gün görmürdülər" (212. 23 VII 1943). S.C.Pişəvərinin istinad etdiyimiz məqaləsində daha sonra oxuyuruq: "İrandan gələnlər çox vətənpərəst insanlar idilər. Onlar hər an vətənə qayıtmaq arzusu ilə yaşayırdılar. Vətəni azad və xoşbəxt görmək istəyirdilər. Qüdrətli və demokratik bir dövlət istəyirdilər ki, heç olmasa onların sadə yaşayışı üçün bir iş görsün. İşçi üçün elə məvacib versin ki, o, enerji və biliyini vətəndə işə sala bilsin" (Yenə orada). Doğma kəndini, bölgəsini tərk edib Arazın bu sahillərinə gələnlərə müraciət edən böyük satirik şair M.Ə.Möcüz yazırdı:

Vətəndən əl çəkib eyyar, getməyim, neylim
Buyur görüm, güzəranı hanı bu viranın?
Yəqin bilin ki, qədəm basmaz özgə torpağa,
Vətəndəxoş keçə ruzigarı insanın.*

Vətəndən baş götürüb Quzey Azərbaycana üz tutanlardan biri də Mir Cavad Mir Yəhya oğlu Cavadzadənin ailəsi idi. Bu ailə Bakıya 1905-ci ilin Novruz bayramı ərəfəsində daxil olmuşdu. Onlar əvvəl Bakının ətrafında yerləşən Bülbülə kəndində bir həmyerlisinin evində qalsalar da, sonradan Sabunçu qəsəbəsinə köçüb və burada məskunlaşmışlar. Bakı o zaman Güneydən gələn həmvətənlərimizi isti ağuşuna olan və onlara sığınacaq və iş verən bir şəhərdən əlavə Qafqazda sənaye, elm, mədəniyyət və inqilabi bir mərkəz idi. Qabaqcıl məfkurənin, maarifçiliyin formalaşdığı bir şəhər idi. Mir Cavadın ailəsinin belə bir şəhərə gəlməsi ailə

* M.Ə.Möcüz, seçilmiş şeirləri, Bakı, Azərnəşr, 1954, s. 25.

üzvlərinin, o cümlədən S.C.Pişəvərinin gələcəyində müstəsna rol oynamışdı. S.C.Pişəvəri XX əsr Azərbaycan xalq hərəkatının öndərlərindən biri, qardaş Mir Xəlil tibb elmləri namizədi (Semaşko adına mərkəzi xəstəxananın şöbə müdiri), Leninqrada təhsilini başa vuran Mir Səlim isə Su qurğuları mühəndisliyinə yiyələnmişdi.

## S.C.PİŞƏVƏRİNİN GƏNCLİK İLLƏRİ

S.C.Pişəvəri 5 yaşında ikən atası onu kənddə molla Mir İbrahimin quranı və şəriəti tədris edən mədrəsəsinə verir. İti hafizəyə və tez qavrama qabiliyyətinə malik olduğundan Mir Cəfər qısa müddətdə quranı bitirir və çox zaman zəif yoldaşlarına köməklik də edirmiş. Ailəsi ilə Bakıya gəldikdən sonra S.C.Pişəvəri bir müddət Bülbülədə, sonra isə Sabunçuda təhsilini davam etdirir. Özünün hazırcavablığı və dərsdə verilmiş tapşırıqlarını vaxtında və keyfiyyətlə yerinə yetirməsi məktəbin müəllim kollektivinin diqqətini çəkir və onların razılığına səbəb olur. Atasının aldığı əməkhaqqı altı nəfərdən idarət ailəni dolandırmağa, üstəlik uşaqlar üçün pal-paltar, məktəb ləvazimatı, ev kirayəsi və s. üçün heç cür kifayət etmirdi. Bu məsələ həddi-buluğa çatmaq üzrə olan məktəbli Seyid Cəfəri valideynləri ilə bərabər narahat edirdi. Bir gün o, cəsarət tapıb məktəb müdirinə ona məktəbdə hər hansı bir iş verməsini xahiş edir. Müəllim kollektivinin həmişə razılıq etdiyi və ailəsinin maddi vəziyyəti ağır olan şagirdin xahişi məktəb müdiri tərəfindən qəbul olunur. Bu haqda məktəb müdirinə yaxın olan Pişəvərinin həmyerlisi Əhmədzadə də məktəb müdirinə ağız açmışdı. S.C.Pişəvəri oxuduğu məktəbdə əmək fəaliyyətinə başlayır. Sonralar o, “Ajir” qəzetində “Mənim həyatım” adlı xatirələrində* yazır: “Ailəmizin maddi çətinlikləri məni erkən yaşlardan əmək fəaliyyətinə başlamağa məcbur etdi... Mən oxuduğum məktəbin xadimə işlərini görür, zəngi çalır, klasları (sinif otaqları) təmizləyir və çox vaxt əlimdə dəsmal pəncərələri də silirdim. Bu işlərə əncam vermək məni dərslərimdən ayırmırdı, gec yatmaq, çox oxumalı olurdum. Həyət-bacada oynayan həmyaşıdlarıma həsəd aparsam da işimdən və təhsilimdən razı idim”. Suğra xanım Pişəvərinin o dövründəki əmək və təhsil fəaliyyətini qiymətləndirərək deyir: “Seyid Cəfər oxuduğu məktəbdə həm də işləyirdi - zəngi çalır, təsərrüfat işlərini görürdü. 13-14 yaşlı bu oğlana müəllimlər hərdən dərsdə onları əvəz etməyi də etibar edirdilər” (195. 1999, № 2, s.33).

* S.C.Pişəvərinin özü haqda xatirələri onun dostlarından olan Ümid Nurinin təkidi ilə yazmış və ilk dəfə “Simruq” imzası ilə “Zindandan Kaşanadək” başlıqda Tehranda çıxan “Dad” qəzetində (18 Aban -19 Bəhmən 1321), sonra isə “Ajir” qəzetinin 15 Azər, 1322-ci il nömrələrində çap olunmuşdur. Bu yazı S.C.Pişəvəri haqda etibarlı mənbələrdən sayılır.

Məktəbin ibtidai sinfini əla və və yaxşı qiymətlərlə başa vurduqdan sonra S.C.Pişəvəri Bakıdakı "İttihad" (birlik)* məktəbinə, sonra isə «Darul-müəllimin» (Pedaqoji məktəb) mədrəsəsinə daxil olur və oranı da bitirdikdən sonra Hacı Xalxali adlı həmyerlisinin vasitəsi ilə vaxtı ilə özünün oxuduğu, "İttihad" məktəbinə müəllim təyin olunur.

"İttihad" məktəbi ilə yanaşı Bakı bələdiyyəsinə məxsus olan 9 №-li məktəbdə də ərəb, fars və islamiyyət fənlərindən dərs deyir.

S.C.Pişəvəri hələ gənc yaşlarından vətənin bir xilas yolunu millətin ölkədəki rejim və imperialist dövlətlərin İranı öz əsarətlərində saxlamaq cəhdinə qarşı birləşməkdə, yekdil olmaqda görürdüsə, digər qurtuluş yolunu millətin maariflənməsində, intibahında görürdü. Buna görə də o, Xırdalan kəndində müəllimlik fəaliyyətinə başlar-başlamaz kirayədə qaldığı evin bir otağını savad almaq həvəsində olan həmyerlilərinin uşaqları və yaşlılar üçün dərs otağına çevirir. O zaman Xırdalan kəndində Güneydən gələn xeyli ailə yaşadığından S.C.Pişəvəriyə şagird toplamaq çətin olmur. S.C.Pişəvərinin maarifçilik fəaliyyəti haqda onun bacısı Suğra xanımın xatirələrində oxuyuruq: "... qazanıb yığdığı pullarla o, Xırdalanda iki otaq kirayə etmişdi. İranlı fəhlə ailələrinin yaşadıqları yerlərdə elanlar yapışdırıb, onları pulsuz təhsil almağa dəvət edirdi. Şagirdlərin çoxluğu ilə bağlı elə olurdu ki, onlara 2-3 növbədə dərs deyirdi. Atam onu danlayıb deyirdi ki, çox çətin işlərdən yapışırsan, buraxmazsan. O isə atama qulaq asmırdı. Beləcə o, Xırdalanda iranlı uşaqlara üç il müəllimlik etdi" (Yenə orada).

S.C.Pişəvərinin gənclik illəri hər cəhətdən, elmi-mədəni, maarifçilik, siyasi-iqtisadi və s. cəhətdən Bakının intibahlı qaynar dövrünə təsadüf etdiyindən bu qaynar mühit S.C.Pişəvərinin şəxsi həyatında, təfəkkür və mübarizəsində təsirsiz qala bilməzdi.

Oxumağa, öyrənməyə böyük maraq və həvəs göstərən, millətinin çıxış yolunu erkən yaşlardan arayıb-axtaran bu gənc bir çıxış yolunu da elmin əsaslarını öyrənməkdə və savadlı olmaqda görürdü. O, özü bu haqda sonralar yazırdı: "Məktəbi bitirdikdən sonra müəllim oldum. Bütün boş vaxtlarımı kitabxanalarda keçirirdim. Tarix, ədəbiyyat və fəlsəfə sahəsinə aid kitablara daha çox meyil göstərirdim. Belə bir mövqedə Birinci Dünya Müharibəsi baş verdi və onun ardınca Rusiyada inqilab oldu..." (212. 15 Azər, 1322).

Bakının, Türküstanın Rusiyadakı digər şəhərlərin mühiti iranlının əhval-ruhiyyəsinə təsir edirdi. Bakının mühitini xüsusi ilə qeyd etmək lazımdır. O vaxt bu şəhər nəhəng addımlarla irəliləyirdi. Şikaqo (Çikaqo) və Amerikanın digər

---

* Məktəbin tam adı: "İttihad iraniyan" idi. Məktəbdə əsasən Güney Azərbaycandan və İranın başqa əyalətlərindən Bakıda məskunlaşan ailələrin uşaqları təhsil alırdılar. Məktəb tanınmış maarifçi Məmmədəli Tərbiyətin, Mirzə Mahmud xan Pərvərişin və Mirzə Abdulla Abdullazadənin vəsaiti, toplanan əyanələr və Bakı milyoneri, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin yardımı hesabına fəaliyyət göstərirdi.

şəhərləri ilə rəqabət etmək istəyirdi" (135.s.277). O, öz dəsti-xətti ilə yazısında 1917-ci ilə qədər maarifçilik pedaqoji fəaliyyətlə məşğul olduğunu qeyd edir (Yenə orada).

S.C.Pişəvərinin müəllim, jurnalist, yazıçı və siyasi xadim kimi yetişməyində və fəaliyyətində Bakıdakı ədəbi-siyasi mühitin, o dövrün mətbuatının, ədəbi və siyasi simalarının təsiri danılmazdı. S.C.Pişəvərinin yeniyetmə və gənclik illərində Bakıda çap olunan çoxlu qəzet və dərgi, o cümlədən "İrşad", "Həyat", "Təkamül", "Dəvət

Qoç", "Yoldaş", "İttifaq", "Tərəqqi", "Həqiqət", "Sədaye Bakı", "Sədaye vətən", "Sədaye Qafqaz", "Açıq söz", Güney Azərbaycanda çap edilən "Fəryad", "Şuraye İran" "Mükafat", "Naleye millət", "Şəms" qəzetləri, eləcə də "Molla Nəsrəddin", "Füyuzat", "Zənbur", "Tuti", "Məktəb", İrəvanda çap olan "Leylək" və s. müxtəlif yönlü dərgilərin bir çoxunun daimi oxucusu olan S.C.Pişəvərinin ədəbi-siyasi cəhətdən formalaşmasında və inkişafında, onun jurnalistliyə və mətbuat işinə güclü həvəsin oyanmasında müstəsna rol oynamışlar (35. Bakı, 1993).

S.C.Pişəvərinin mütaliə edib oxuduğu kitablar və mətbuat onun elmi-siyasi və bədii təfəkkürünə önəmli təsir göstərmiş, hələ erkən gəncliyindən onu vətənə, xalqa, onun azadlıq və qurtuluş məramına bağlamışdır. Onun sonrakı fəaliyyəti məhz bu bünövrə üzərində qoyulmuşdur.

XX əsrin əvvəllərində Bakının elmi-mədəni və qaynar siyasi mühiti və bu mühitin Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə, Əhməd Ağayev, Nəriman Nərimanov, Məhəmmədəmin Rəsulzadə və b. şəxsiyyətləri S.C.Pişəvərinin siyasi cəhətdən formalaşmasında əvəzsiz rol oynamışdı. Həsən bəy Zərdabi, Cəlil Məhəmmədquluzadə, Mirzə Ələkbər Sabir, Sərraf, Səid Salmasi, M.Ə.Möcüz, Üzeyirbəy Hacıbəyli, Əbdülrəhimbəy Haqverdiyev, Nəriman Nərimanov və bu cərgədə olan başqa ədiblər S.C.Pişəvərinin jurnalist-yazıçı kimi yetişməsi üçün dəyərli bir məktəb olmuşdur.

Birinci Dünya müharibəsi və ondan sonrakı dövrdə yetişib meydana çıxmış başqa şəxsiyyətlərimiz kimi S.C.Pişəvərinin də siyasi məfkurə, mübarizə və ideoloji istiqaməti təyin etməsi bir mənalı və çalarsız olmamışdı. Bunu 55 illik ömür müddətində keçdiyi mübarizə yolunun obyektiv izlənməsində aydın görmək olur.

S.C.Pişəvərinin yeniyetmə və gənclik illəri Bakının son dərəcə mürəkkəb və siyasi cəhətdən qaynar dövrü ilə əhatələnmişdi. Əsrin əvvəllərində Güneylə bağlı yaradılmış "İctimayune-amyun" (İran Demokrat Firqəsi), "Ədalət" və müxtəlif məramlı qrup, cəmiyət və təşkilatlar bu dövrdə fəaliyyət göstərmişlər. Başqa güneyli ziyalılar kimi S.C.Pişəvəri də adı çəkilən bu təşkilatların hər birinə demək olar ki, yaxınlaşmış, onların rəhbərləri və fəal üzvləri ilə əlaqə yaratmışdır. İran Demokrat Firqəsi "sıralarında qiymətli inqilabi təcrübə toplamış mübariz inqilabçılar yetişmişdi. Onlar Məşrutə inqilabından sonra yaradılmış İran Demokrat Partiyası təşkilatçılarından Süleyman Mirzə İskəndəri, Heydər Əmioğlu,

Seyid Musəvi Müsavati, Əsədulla Qafarzadə, Bəhram Ağayev, Hüseyn Qənnadizadə və s. bu görkəmli siyasi xadimdərin hər biri ilə yaxından tanış olur və bəziləri ilə, hətta, siyasi fəaliyyətdə həmkarlıq etmişdi" (39. s.99; 96. s. 1,10). Bununla birlikdə S.C.Pişəvəri bir müddət Məhəmmədəmin Rəsulzadə (sonra siyasi baxışlardakı fərqə görə ondan uzaqlaşır), Nəriman Nərimanov, Dadaş Bünyadzadə, Əliheydər Qarayev və başqa quzeyli siyasi xadimlərlə tanış olur və onlarm bir çoxu ilə həmkarlıq da edir.

Rusiyada fevral 1917-ci il və ondan az sonra baş vermiş dövlət çevrilişləri çar Rusiyası ərazisində, o cümlədən Cənubi Qafqaz bölgəsində siyasi ab-havanı dəyişdi. V.İ.Leninin verdiyi dekretlər, Rusiyanın və Şərqin müsəlman xalqlarına ünvanlanmış şirin vədlər və müraciətlər bir çox azərbaycanlı ziyalılar kimi S.C.Pişəvəriyə də təsirsiz ötüşməmişdi. Bu təsir onu maarifçiliklə demokratlıqdan kommunistliyə doğru meyilləşdirmişdi. Bu işdə S.C.Pişəvərinin yaxın münasibətdə olduğu Nəriman Nərimanovun, Süleyman Mirzə İskəndərinin, Heydər Əmoğlunun, Əsədulla Qafqazzadənin, Mir Bəşir Qasımovun, İranın nicatını və azadlığını kommunist məsləkinin qələbəsində görən digər şəxsiyyətlərin gənc Pişəvəriyə təsiri danılmazdır (Yenə orada). Oktyabr inqilabına qədər S.C.Pişəvəri bir növ ideoloji xətt, məram axtarışında olmuşdur. O müxtəlif təşkilatlarda, cəmiyyətlərdə və dərnəklərdə iştirak edir, düşüncələrini və fikirlərini kağız üzərinə gətirir və qəzetlərdə çap etdirir. Biz bu dövrdə S.C.Pişəvərinin ilk məqaləsini Məhəmmədəmin Rəsulzadənin redaktor olduğu "Açıq söz" qəzetində çap etdirdiyini görürük. Mərkəzi Təbrizdə olan Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi Demokrat firqəsinin Bakıdakı təşkilatı və onun üzvləri ilə əlaqə saxladığını S.C.Pişəvəri özü etiraf edir (212.15 Azər, 1322).

1917-ci ildə Şeyx Məhəmməd Xiyabaninin başçılığı altında İran Demokrat Partiyasının Azərbaycan Əyalət Komitəsi yaradılır. 1917-ci ilin aprelində partiyanın orqanı "Təcəddö" qəzeti çap olur. Arazın bu tayında olan İran təbəələri həmin təşkilatın Bakı şöbəsini təşkil edirlər. Bu şöbə Təbrizdə yerləşən MK ilə sıx əlaqə saxlayır, onun göstəriş və tapşırıqlarını yerinə yetirir. Güneydən gələn işçi qüvvəsi və ziyalılar Xiyabani məsləkinə köklənir və bir çoxu bu məsləkin yolçusu olurlar. Sonralar S.C.Pişəvəri "Ajir"də çap etdirdiyi xatirələrdə yazırdı: "Bakıdakı Demokrat Firqəsi yüzdəyüz Azərbaycan Əyalət Komitəsinə tabe idi. O göstərişləri birbaşa Təbrizdən alırdı və öz işlərini bu əsasda qururdu" (212. 27 Mordad 1322).

1918-ci ilin yanvar ayında İran Demokrat Firqəsinin Bakı təşkilatının orqanı olan "Azərbaycan cüze layəntək İran" qəzetində əvvəl ədəbi işçi, sonra redaktor vəzifəsində işləyən S.C.Pişəvəri vətənin o tayında, Güney Azərbaycanda xüsusən Təbrizdə gedən mübarizəni və hadisələri addımbaaddım izləyir. İngilislərlə gizli sövdaləşməyə girmiş Vüsuq-dövlə hökuməti əleyhinə Xiyabaninin rəhbərliyi altında genişlənən xalq hərəkatı və onun fəalları ilə əlaqə saxlamağa çalışırdı. 1918-ci ilin payızında Şeyx Məhəmməd Xiyabaninin başçılığı altında Təbrizdə keçirilən izdihamlı mitinq və mitinq iştirakçıları adından Tehran hökumətinə

göndərilmiş teleqramın məzmunu S.C.Pişəvərini daha artıq mübarizə meydanın mərkəzinə çəkib gətirdi. O, bunu xatirələrində də qeyd etmişdi. Təbrizdəki mitinq iştirakçılarının teleqramında deyilirdi ki, "Azərbaycanlılar öz müqəddəratını mübhüm (şübhəli) siyasətə təslim etmiyəcəklər. Vüsuq-dövlələr, Qəvamü-Səltənələr, Əmin ol-məliklər kimi şübhəli adamlar millət başçısı olmamalıdırlar. Tehranda tam sədaqətli və inanılmış bir dövlət təşkil edilməyincə Azərbaycan xalqı mərkəzə tabe olmayacaqdır" (39. s.138; 127, s.20).

S.C.Pişəvərinin 1916-1919-cu illərdə siyasi fəaliyyətinin elmi-tədqiqat baxımından öyrənilməsi və izlənməsi açıq-aydın göstərir ki, gələcəyin tanınmış siyasi xadimlərindən və mütəfəkkirlərindən biri olacaq gənc Seyid Cəfər mübarizədə özünə hələ də gedəcəyi sabit yolu və məramı tam müəyyənləşdirməmişdi. Əvvəllər M.Rəsulzadənin məqalələrindəki məsləkə köklənən, "Açıq söz" qəzetində yazılarını çap etdirən S.C.Pişəvəri sonrakı illərdə N.Nərimanov mövqeyinə keçir. İranın azadlıq və qurtuluşu üçün Moskvaya, sovetlərə ümid bağlayır. Bunu həmin dövrdə S.C.Pişəvərini çap olmuş yazılarından da görmək olur.

Siyasi mübarizə meydanına əvvəl maarifəçiliklə başlayan S.C.Pişəvəri sonra bu mübarizəni müxtəlif mətbuat əhatələrində getdikcə kəskinləşən və püxtələşən jurnalist yazılarında davam etdirmişdi. Onun ilk məqaləsi 1917-ci ilin fevral ayında Məhəmməd Əmin Rəsulzadənin başçılıq etdiyi "Müsavat" partiyasının orqanı "Açıq söz" qəzetində çap edilir. Sonra o, bu qəzetdə əməkdaşlıqdan uzaqlaşır. özünün məqalələrini, şeir və felyetonlarını "Azərbaycan cüze layənfək İran", "Ədalət", "Əkinçi" (2-ci dövrə) "Ən-cümən" "Həqiqət" və s. qəzet və dərgilərdə çap etdirir.

Mərhum alimimiz, professor Həmid Məhəmmədzadə S.C.Pişəvərinin bir jurnalist və yazıçı kimi yetişməsində "Tərəqqi"dən başlamış "Səda", "Sədaye həqq", "Sədaye Qafqaz", "Sədaye vətən", "Əkinçi", "Günəş", "Açıq söz" qəzetləri ilə yanaşı "Füyuzat", "Molla Nəsrəddin", "Məktəb", "Rəhbər", "Zənbur" və s. dərgilərin bir məktəb qədər rol oynadığını yazır (75. s.49).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, S.C.Pişəvəri öz məqalələrini, felyeton və şeirlərini vahid imzada verməmişdi. Bu da siyasi mühitdə onun təqib və izlənməsi, digər tərəfdən bir qəzetdə iki, bəzən daha çox məqalə çap etdirməsi ilə bağlı olmuşdur. 1919-1946 arasında onun yazılarında bizim rastlaşdığımız imzalar əsasən bunlar olmuşdur: "M.C.Cavadzadə", "M.C.Xalxali", "Cavadzadə Xalxali", "M.C.Seyid", "M.C.Nadi", "Əcul", "Ə.C.", "Pərviz", "Simrux", "Səməndər", "C.P.", "P" və s. Bu imzaların S.C.Pişəvəriyə aid olduğu müəyyən edilsə də "Rağeb", "Sərgərdan", "Kəndli" imzaların da ona aid olması ehtimal edilir. Bir də nəzərə almaq lazımdır ki, S.C.Pişəvərinin 1945-ci ilə qədər yazılarının çoxu fars dilində olmuşdur. Bu bir tərəfdən onun farsca yaxşı bilməsi ilə bağlıdırsa, digər səbəb İranda o zaman yeridilən fars şovinizmi siyasəti nəticəsində oxucu auditoriyasının əsasən fars dillilərdən ibarət olması idi.

S.C.Pişəvəri istər müəllimlik etdiyi, istər jurnalistlik fəaliyyətində və istərsə də, siyasi vəzifələr daşıyan zaman millətin maariflənməsinə, milli oyanışa, mübarizəyə təmənnasız və şüurlu şəkildə qoşulmasına çox böyük önəm vermişdi. O, hələ “Azərbaycan cüze layənfək”, sonra da “Həqiqət” qəzeti səhifələrində çap etdirdiyi məqalələrdə bu məsələyə xüsusi yer vermişdi. S.C.Pişəvəri kütləni oyatmaq və öz haqqını tələb etməsi üçün ən əvvəl onun maariflənməsi, elmə yiyələnməsini vacib sayırdı. O, 1905-1911-ci illərdəki Məşrutə hərəkatının qələbəsi nəticəsində əldə edilmiş nisbi azadlıq və hüquqların aradan qaldırılmasını millətin hələ də cəhalətdə olmasında, xürafata uymasında, həqiqəti çətin dərk etməsində görürdü: “... Millətimiz elmsiz olduğundan hürriyyətdən və hüquqlarından yetərincə faydalana bilmədi... hərgah maarifimiz olsaydı cavan məşrutəmiz xainlərin əlində dəstavüz olmazdı... Bu əsrdə elmsiz yaşamaq mümkün deyildir. Daha oturub özgəyə ümid bağlamaq olmaz. Şəri cəhətdən də elm bizə vacibdir (“tələb ələləm əl-fərizətə əli kolle müsəlləm və müslimə”) (209 a 28 II 1918).

S.C.Pişəvərinin jurnalistlik fəaliyyətində onun Bakıda çıxan (10 fevral 1918) “Azərbaycan cüze layənfək İran” qəzet (fars və türk dilində çıxardı) səhifələrində çap olmuş məqalə, şeir və felyetonlarının xüsusi yeri vardır. İran Demokrat təşkilatının orqanı olan “Azərbaycan cüze layənfək İran” qəzetində Pişəvərinin yazıları müxtəlif imzalarla, əsasən “Cavadzadə”, “M.C.Xalxali”, “Mir Cəfər Cavadzadə” və b. imzalarla çap edilmişdi. Onun çoxsaylı məqalələrinin birində millətə müraciət edilərək deyilir: “...gedək çalışaq elm və maarifi yüksəldək. Tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi parladaq... maarifimiz, ədəbiyyatımız toz-torpaq içində qalmış bir cəvahirə bənzəyir” (Yenə orada, 19 mart).

İran Demokrat təşkilatının əsası 1906-cı ildə qoyulmuşdur. Onun Təbrizdə, Tehranda, Rəştdə və digər əyalət şəhərlərində özəkləri var idi.

Sonralar S.C.Pişəvəri “Ədalət firqəsinin tarixindən” adlı əsərində* etiraf edirdi ki, bu dövrdə “əgər İranda yeganə doğru və düzgün firqə təşkilatı meydana gəlmişdisə o həmin qədim demokrat təşkilatından ibarət omuşdur. Məhzhəmin qüdrətli firqə İran tarixində təsirli addımlar ata bilmişdi” (135.s.407). Əvvəl “Ədalət”ə, sonra İran Kommunist partiyasına üzv olan və rəhbər vəzifələrdə çalışan S.C.Pişəvəri sonrakı illərdə (qəsr-Qacar zindanında və sonrakı illərdə) demokrat firqəsini zəmanəsinin “yeganə doğru və düzgün təşkilatı” adlandırması müəyyən mənada onun məfkurəsində və baxışlarında əmələ gəlmiş dəyişikliklərlə bağlı olmuşdur.

---

* Bu əsər əvvəlcə hissə-hissə “Ajir” qəzetində çap olunur, sonrakı illərdə (1947) kitab kimi hazırlanır. İran tarixçisi Kavə bəyat 1380-ci ildə (1991-ci ildə) Tehranda “Tufan bər fəraz Qafqaz” kitabında həmin kitabdan müəyyən hissələri çap etdirmişdi.

1905-1911-ci illər Məşrutə hərəkatının dalğaları üzərində 1906-cı ildə Bakıda yaradılmış İran Demokrat təşkilati sinifi mübarizəni, mülkiyyətin ümumiləşdirilməsini qəbul etmədiyi kimi sosial-siyasi hərəkatverici qüvvə olaraq şəhər və kənd zəhmətkeşlərini, xırda burjuaziyanı, xırda mülkədarları, bazar əhlini, ziyalıların inqilabı qanadını qəbul edirdi ki, bu da sonra görəcəyik ki, nə ədalətçilərin, nə də kommunistlərin məram və baxışları ilə nəinki heç cürə üst-üstə düşmürdü, onlardan köklü şəkildə fərqli idi. Biz bu səpgidə yazılmış məramnaməni 1945-ci ildə ADF-nin S.C.Pişəvərinin başçılığı ilə tərtib edilmiş məramnamədə görürük.

İran Demokrat təşkilatı tərəfindən 1910-cu il martın 18-də Məclisə göndərilmiş Proqram xarakterli təqdimatda Dini siyasətdən ayırmaq, milli qoşun yaratmaq, torpaqları kəndlilər arasında bölmək, kəndli bankı təşkil etmək, vergiləri gəlirə görə təyin etmək, ümumi və məcburi təhsil haqda qanun qəbul etmək, möhtəkirlərə qarşı təsirli tədbirlər görmək, Senat Məclisini buraxmaq və s. bu kimi dövrü üçün radikal təkliflər irəli sürülmüşdü (39. s.45-51).

Bakıdan kənarda, İranda, bir sıra şəhərlərdə (Tehran, Təbriz, Rəşt və s.) təşkilatları olan İran Demokrat Firqəsini sinifi təşkilat hesab etməyən S.C.Pişəvəri göstərirdi ki: "Hamımız bilirik ki, Demokrat Firqəsi sinifi bir firqə olmamışdır. Onun hövzələrində (özəklərində) ərbab və rəiyyətə, tacir və alverçiyə, fəhləyə, bir sözlə cəmiyyətin bütün siniflərinin nümayəndələrinə rast gəlmək mümkün idi... üzvlər çox həvəslə firqədə iştirak edir, onun şüarlarını cəmiyyət daxilində yayır, onun nüfuz və hörmətini gündən-günə yüksəldirdilər" (135.s.407).

Beləliklə, qəzetin baş redaktoru olmuş S.C.Pişəvəri, bəzi fikirlərini istisna etsək, İran Demokrat təşkilatına, xalq hərəkatında onun xidmətlərinə yüksək qiymət vermişdi və bir müddət onun üzvü olmuş, dərnəklərində və toplantılarında iştirak etmişdi.

Əsasən Kommunist məfkurəli "Ədalət" Firqəsinə üzv olan və onun fəallarından sayılan S.C.Pişəvəri 1941-1946-cı illərdə Güney Azərbaycandakı milli-demokratik hərəkatda, xüsusən Azərbaycan Demokrat Firqəsinin yaranmasından sonra (3 sentyabr 1945) Firqəsinin məramnaməsində çox cəhətləri "Ədalət"çilərdən yox, əsrin əvvəlində yaradılmış demokratların məramnaməsindən götürmüşdü (bu barədə sonrakı səhifələrdə).

Rusiyada 1917-ci il fevral, sonra Oktyabr dövlət çevrilişləri, bolşeviklərin hakimiyyətə gəlməsi və onların kommunist ideologiyası istər-istəməz Rusiya ərazisinə daxil olan əyalət bölgələrinə də öz təsirini göstərmiş oldu. Bolşevik məfkurəsini əyalətlərə və qonşu ölkələrə "ixrac" etmək sahəsində aparılan iş öz nəticəsini göstərdi. Əyalətlərdə, o cümlədən Bakıda kommunist ideyasına meyillənən və sonra bu məfkurəyə köklənənlər meydana çıxdı... Təəssüflə qeyd etməliyik ki, S.C.Pişəvəri də bu cəbhəyə meyil göstərənlər sırasında göründü və fəaliyyət göstərənlərdən oldu. "Zəhmətkeş inqilabçı ziyahlarla qabaqcıl fəhlələr 1917-ci ilin may ayında İranın ilk proletar partiyasını təşkil etdilər. Onları bu

partiyanı İran Ədalət partiyası adlandırdılar" (39. s.121). "Ədalət partiyasının mərkəzi Bakının Sabunçu qəsəbəsində, İranlılara məxsus "Təməddün" məktəbində yerləşmişdi (Yenə orada, s.122). S.C.Pişəvərinin adına ilk Mərkəzi Komitə üzvləri sırasında rast gəlinmir. Partiyaya əslən Ərdəbildən olan Əsədulla Qafarzadə başçılıq etmişdi (212. 3 mordad, 1322).

1917-ci ilin axırı 1918-ci ilin əvvəllərində İran Ədalət partiyasının Azərbaycan rayonlarında, Dağıstanda, Həştərxanda, Tiflisdə, Batumda, İrəvanda və başqa bölgələrdə təşkilatları yaradılmışdı. Bu partiya yerlərdə və xüsusən Bakıda üzvlərinin bir hissəsini silahlandırmağa müvəffəq olmuş, Rusiyadakı olayları İrana keçirmək fikrində idi. Ədalətçilərin fəallarından bir dəstə belə düşünürdülər ki, onların vətəninin imperialistlərin pəncəsindən xilas olması, irtica rejiminin yerində zəhmətkeş xalqın istək və arzusunu gerçəkləşdirə bilən qüvvə Rusiyadakı inqilabın İransayağı təkrarı ola bilər. O vaxt S.C.Pişəvəri məhz belə düşünən və fəaliyyətini bu istiqamətə yönəldənlərdən olmuşdur. O, sonralar bu haqda yazırdı: "Rusiya millətlərinin azadlıq mübarizəsində iştirak edən gənc iranlılardan, biri də mən idim... Mənim xalqımın, vətənimin nicatı və səadəti Rusiya inqilabçılarının istədikləri rejimin bərqərar edilməsindədir. Rusiyada Leninin iftixarlı zəfər bayrağından başqa ayrı bir bayraq dalğalanarsa İranın istiqlalı və azadlığı həmişə təhlükə qarşısında qalacaqdır" (39. s.156). Beləliklə, bir çox azərbaycanlı ziyalılar kimi S.C.Pişəvəri bolşevizmin iç üzünü, onun böyük "Sovet sosialist imperiyası" yaratmaq xülyasından tam xəbərsiz idi, pərdə dalındakıları görmək qüdrətində deyildi.

İstər İran Ədalət Firqəsinə və istərsə də İran Kommunist sıralarına daxil olarkən S.C.Pişəvəri etiraf edirdi ki, bu işdə onu ən əvvəl xalqının azadlığı düşündürürdü. "Məni bu böyük və şərəfli işə cəlb edən amil azadxahlıq mübarizəsindən başqa, mənsub olduğun millətim haqqında düşüncələrim olmuşdur" (212. 15 Azər, 1322).

S.C.Pişəvəri Ədalət Firqəsi yaranandan az sonra partiyanın orqanı olan "Ədalət" qəzetinə işə dəvət olunur və sonra bu qəzetin baş redaktoru vəzifəsində çalışır. Partiyanın digər orqanı "Bəyrəge Ədalət" dərgisinə isə Ə.Qafarzadə özü başçılıq etsə də, onun səhifələrində S.C.Pişəvərinin məqalələri çap olunur.

Tarixçi Rəhim Rəisniyanın yazdığına görə S.C.Pişəvərinin 1298-ci (1919-cu) ildə ədalət firqəsinə üzv olduğu ehtimal edilir. Lakin başqa tarixçimiz T.İbrahimov (Şahin) S.C.Pişəvərinin 1919-cu ildə "İran Ədalət partiyasının MK-nın üzvü seçildiyini" yazır. Az sonra S.C.Pişəvəri partiyanın 5 nəfərdən ibarət belə adlanan "Xarici büro"ya Dadaş Bünyadzadə,Kamran Ağayevlə bərabər dəvət edilir" (39, s.157).

Ədalətçilərlə Demokratlar bir neçə dəfə birləşməyə səy etsələr də ideoloji məsələlərdə razılığa gələ bilməmişlər. Son hesabda Ədalətçilər "Hümmət" qrupu, RK (B) P-nin Bakı təşkilatı ilə birləşərək 1920-ci il fevralın 12-də Azərbaycan

Kommunist partiyasını təşkil etmiş oldular. "Hümmət" qrupunun və "Ədalət"in Komitələri ləğv edilmiş oldu (Yenə orada. s.158).

S.C.Pişəvəri Ədalət Firqəsi sırasında fəaliyyət göstərərkən onun firqənin orqanı "Hürriyyət" qəzeti səhifələrində çap etdirdiyi siyasi-publisistik məqalələr və felyetonlar İrandakı rejimin eybəcərliklərini ifşa etməkdə o dövr üçün çox böyük önəm kəsb etmişdir. S.C.Pişəvəri özünün jurnalistlik fəaliyyətindən danışarkən "Hürriyyət" səhifəsində çap etdiyi bir məqalədə yazır ki, "... Məqsədimiz ədəbi müsabiqə deyil, xalqı başa salmaq, ona həqiqəti aşkar bir surətdə anlatmaqdır" (225. 12 fevral 1920). O, bu həqiqətləri bir çox məqalələri ilə yanaşı "Əcul" imzası ilə çap etdirdiyi silsilə felyetonlarında da zəmanəsinin eybəcərliklərini cəsarətlə qamçılaya bilmişdi.

Baş redaktoru S.C.Pişəvəri olan "Hürriyyət" qəzeti 1919-cu ilin iyun ayından 1920-ci ilin may ayınadək Bakıda nəşr edilmişdi. Onda nəşr olunan məqalələrin əksəriyyəti türk dilində olmuşdur. Ədalət Firqəsinin orqanı olan bu qəzetin ömrü qısa (12 ay) olsa da o az müddətdə öz ətrafına güclü jurnalistləri (Ağababa Yusifzadə, Əli Heydər Qarayev, Məmməd Səid Ordubadi, Ruhulla Axundov və s.) toplaya bilmişdi.

Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə bağlı olaraq "vahid proletar partiyası" şüarının ortaya atılması Ədalət Firqəsini Hümmət qrupu ilə birlikdə yeni yaradılmış Azərbaycan Kommunist bolşeviklər partiyasına daxil etdi. Nəticədə 1920-ci il mayın 2-də "Hürriyyət" də öz nəşrini dayandırmalı olmuşdur.

## SEYİD CƏFƏR PİŞƏVƏRİ VƏ GİLANDAKI "CƏNGƏLİLƏR" HƏRƏKATI

1920-ci ilin aprelində bolşeviklər Azərbaycanı istila etdikdən sonra öz işğalçılıq meyillərini Azərbaycanla həmsərhəd olan ölkələrə, o cümlədən İranda reallaşdırmağa çalışdılar. Bu zaman İranın şimalında - Gilan əyalətində Mirzə Kuçik xanın başçılığı altında belə adlanan "Cəngəlilər" (meşə adamları) hərəkatı gündən-günə vüsət götürüb genişlənməkdə idi. Rusiyada, sonra isə ucqar bölgələrdə sovet rejiminin qələbəsi, V.İ.Lenin və digər sovet rəhbərlərinin şərqin müsəlman xalqlarına verdikləri şirin vədlər və zahirən azadlıq hərəkatlarından tərəfdarlıq etmələri Şimali İranda Gilan əyalətində antirejim qüvvələri ruhlandırdı, hərəkatın miqyası durmadan genişləndi. S.C.Pişəvəri bu haqda yazırdı:

"İranın o vaxtkı vəziyyətindən az-çox xəbərdar olan adamlar yaxşı bilirlər ki, beynəlmiləl müharibənin axırlarında bir iddə (dəstə) Gilan meşələrində "İttihad İslam" (İslam birliyi) adı altında üsyan edərək müttəfiq qoşunları ilə (Antanta) inadlı mübarizəyə girişib, hər qiymətə olursa olsun onların irəliləməsinin qarşısını almağa çalışırdılar" (135.s.396). Azərbaycana doğru irəliləyən ingilis hərbi qüvvələrinin qarşısını kəsməkdə və onların irəliləyişinə mane olmaqda "Cəngəlilər"in köməkliyi danılmazdır. Cəngəlilərin "sədd" yaratmağının mühüm

səbəblərindən biri göstərdikləri xidmət müqabilində öz azadlıqları üçün sovetlərdən kömək alacaqlarına və onlar tərəfindən dəstəklənəcəyinə bəslənilən ümid idi.

Mirzə Kuçik xanın başçılığı altında rejimdən və imperialist dövlətlərin müdaxiləsindən narazı qüvvələrin meşəyə toplanması və öz mübarizələrinə buradan başlaması I Dünya müharibəsinin ilk illərindən - 1915-ci ildən başlanmışdır. Hərəkata başçılıq edən Mirzə Kuçik xan Tehranda din və islamşünaslıq üzrə təhsil almış, gənc yaşlarında Səttarxan hərəkatında (Məşrutə) (1905-1911) iştirak etmişdir. Ömrünün sonunadək dindar müsəlman olmuş Mirzə Kuçik hələ Tehranda olarkən Həsənbəy Rövşəni tərəfindən yaradılmış “İslam Birliyi Təşkilatı”na üzv olur və sonra Rəştə gəlir, “Cəngəldə” (meşədə) öz həmfikirləri ilə birgə “İslam Birliyi Komtəsi”ni yaratmağa müvəffəq olur. Başqa azadlıq mücahidi Ehsanulla xan və onun tərəfdarları əvvəlcə bu komitəyə üzv olurlar və mübarizəni bu komitənin göstərişi əsasında icra edirlər. Komitənin şüarları: Ölkə istiqlaliyyətinin qorunması; xaricilərin İrana müdaxiləsinə son qoyulması; Feodal zülmünün və haqsızlığın aradan götürülməsindən ibarət olmuşdur (101. s.48).

Gilanda başlanan “Cəngəlilər” adı altında genişlənən xalq hərəkatını dəstəkləmək, onun ideya istiqamətini səlisləşdirmək və ona kömək məqsədi ilə Sovetlərin təklifi ilə İran Ədalət Firqəsinin başçısı Əsədulla Qafarzadəni bir neçə nəfərlə birlikdə 1918-ci ilin yazında Gilana - Rəştə yola saldılar. Əslən Ərdəbildən olan fars dilini yaxşı bilən və Sovet rəhbərliyinin inandığı Ə.Qafarzadə Rəştə çatar-çatmaz rejim tərəfdarları tərəfindən qətlə yetirilir. Ə.Qafarzadənin, Firqə rəhbərlərinin bu cür ehtiyatsızcasına Rəştə göndərilməsini S.C.Pişəvəri yanhş addım hesab edərək, “bu təyinatı böyük bir səhvə yol vermək” kimi qiymətləndirmişdi (135. s.296).

20-ci illərin əvvəllərində Gilandakı “Cəngəlilər”in hərəkatı xeyli genişlənir və qüvvətlənir. Həm də Ehsanulla xanın “Mücazat komitəsi” (“Cəzalandırma Komitəsi”) Tehranda bir neçə terror əməliyyatını uğursuz həyata keçirdiyi üçün qaçıb Rəştə gəlməsi, dövlət qoşunundan, polisdən, hətta Kazak dəstələrindən “Cəngəlilər”ə qoşulanlar hərəkatı xeyli qüvvətləndirir. Yaranmış fürsətdən istifadə edən “Cəngəllər” mübarizə mərkəzini şəhərə - Rəştə köçürməyə müvəffəq olurlar.

Əssalam, Talış, Xal-xal, Astara - yolları “Cəngəl” qüvvələrinin nəzarətinə keçir. Hərəkatda irəliləyişin yarandığı bir vaxtda parçalanma əmələ gəlir: iki mövqe, “sağ” və “sol” mövqe yaranmış olur. Mötədil mübarizə yolunu seçən Mirzə Kuçik xan dəstəsi ilə tündlük və bir qədər də “bolşevikçilik” mövqeyinə meyillənən Ehsanulla xanı dəstəsi* arasında qütbləşmə dərinləşir. Bu qütbləşməni

* Onlar xüsusi mülkiyyətin ləğvini, mülkədar və burjuaziyanın bir sinif kimi ləğvini, dinin dövlətdən ayrılmasını, hicabın (baş örtüyünün) ləğvini və s. istəyirdilər.

aradan götürüb vahid strategiya ilə hərəkatı yoluna qoymaq, Mirzə Kuçik xanla Ehsanullanı ortaq məxrəcə gətirmək məqsədi ilə hərəkata kömək üçün Ədalət rəhbərliyindən S.C.Pişəvəri 30 nəfərlik bir nümayəndəliklə 23 may 1920-ci ildə Rəştə gəlir. S.C.Pişəvəri ilə Mirzə Kuçik və Ehsanulla xan arasında gedən danışıqlarda birgə fəaliyyət haqda razılıq əldə olduğundan S.C.Pişəvəri Rəştdə qalır. O, kütlə qarşısında çıxışlar edir, "Cəngəl" silahlıları arasında izahat işləri aparır və "Cəngəl" qəzetinin nəşrinə kömək edir və s.

S.C.Pişəvəri sonralar "Cəngəli"lər hərəkatı ilə bağlı öz xatirələrində yazırdı ki, "Cəngəlilər hərəkatı başqa iranlılar kimi məni də cəlb etdi... kəndlərdə, şəhərlərdə top gülləlləri altında belə irəli gedirdik, iş görürdük... Bizim ruhumuzun qidası iman və əqidə idi. Azadlıq uğrunda mübarizə aparan böyük şəxsiyyətlərin sırasında cəmiyyətin ağır və məsuliyyətli işlərini yerinə yetirməklə məşğul olsaq da heç vaxt özümü böyük saymamışam..." (98. s.272).

S.C.Pişəvərinin özünün bir dəstə həmməsləki ilə Gilana gəlməsi və hərəkatın irəliləməsi üçün yorulmadan gördükləri təbliğatı və təşkilatı işlər "Cəngəl"çi qüvvələr arasında həmrəyliyin artması, həm də tarixi şəraitin verdiyi imkanla bağlı 1920-ci il iyunun 4-də Gilanda "Cəngəlilər" hərəkatı qalib gəldi. Rəştdə və onun ətrafinda ordu və kazak kazarmaları, dövlət təsisatları, polis, poçt-teleqraf "Cəngəli" qüvvələrin əlinə keçdi. Gilan solçu qüvvələrin güclü təzyiqi altında və Rusiyadan gəlmiş komissarların istəyi ilə "Gilan Şura Sosialist Respublikası" elan edildi. "Gilan Muxtar Respublikası" adı əvəzinə, "Şura" və "Sosialist" sözlərinin respublikanın adına pərçim edilməsi çox ciddi taktiki və siyasi yanlışlıq idi. Ölkənin və şəraitin nəzərə alınmaması idi. Sovetlərdəki sosializmin açıq-aydın başqa müsəlman bir ölkəyə ilk ixracı idi. Bu məsələ Mirzə Kuçik xanı, onunla həmfikirdə olanları çox narahat etsə də, Orconikidze kimi bolşevik emissarların, ona qoşulan Ehsanulla xanın və tünd gedən bəzi iranlı kommunistlərin təkidi və "solçu" əməllərinin nəticəsində mümkün olmuşdur.

Qələbəyə qovuşmuş, Gilanı və ətraf bölgələri ələ keçirmiş "Cəngəl" qüvvələri 1920-ci ilin iyun ayının 9-da Gilan Respublikasının ilk hökumətini təşkil etdilər (138. s.271).

**Gilan hökuməti:**
Mirzə Kuçik xan - baş komissar və hərbi nazir;
Mir Cəfər Cavadzadə - Xarici İşlər naziri;
Mirzə Məhəmmədəli Pirbazari - maliyyə;
Mahmudağa - Məhkəmə;
Hacı Məhəmmədcəfər - Poçt və teleqraf;
Nəsrulla Fəttahi - maarif;
Mirzə Məhəmmədəli Xumami - ümumi işlər üzrə;

Mirzə Məhəmmədəli Fəxrai - Ticarət İşlər üzrə komissarlar təyin olunurlar (Yenə orada; 39. s.90).

Göründüyü kimi nə Ehsanulla xan, nə Xali Qurban və nə də Mirzə Kuçikdən narazı olanlar ilk hökumət kabinəsinə daxil olmuşlar. Bu özü-özlüyündə hərəkat rəhbərliyi arasında həmrəyliyin olmamasına və çəkişmələrin olduğunu göstərir ki, bu işdə xaricdən olan diktələr və buyruqlarla bağlı ideoloji ixtilaflar, taktika və strategiyadakı fərqli cəhətlər parçalanmanı daha da dərinləşdirmişdi.

Qeyd etmək lazımdır ki, Mirzə Kuçik xanın təşkil etdiyi hökumət əslində ligitim olmamışdı. Onun daxildə bəzi xırda-para işləri (abadlaşdırma, bazar qiymətlərinin aşağı salınması, möhtəkirliklə mübarizə və s.) nəzərə alınmazsa nə daxili və nə də xarici siyasətdə gözə çarpan iş görülməmişdi. S.C.Pişəvərinin bu hökumətdə xarici işlər naziri olub, olmadığını Əli Muradi özünün "Rzaxan zindanından Azərbaycan Demokrat Firqəsinin sədrliyinədək" kitabında şübhə altına alır. O, yazır: "Bu yazılarda nəzərə çarpan yanlışlıq ondan ibarətdir ki, Seyid Cəfər Cavadzadə (Pişəvəri) inqilabi hökumətdə Xarici İşlər naziri kimi qeyd olunur. Halbuki Pişəvəri təkcə Ehsanulla xanın başçılığı ilə iki aydan sonra qurulmuş Kudəta (Çevriliş) dövlətində nə daxili və nə də xarici işlər naziri yox, Poçt-teleqraf naziri olmuşdur". O sözünə davam edərək yazır: "Mirzə Kuçikxan dövlətində isə xarici işlər naziri bəlkə Seyid Cəfər Möhsün Sümesərayi olmuşdur". Bu yanlışlığın adlarla bağlı olduğunu qeyd edən müəllif S.C.Pişəvərinin nə Xarici və nə də Daxili işlər üzrə nazir olmadığı fikrində israrlıdır (129. s.52). Lakin bu yanlışlığı sübut edən heç bir mənbə göstərmədiyindən "ehtimal" əsasında deyilən bu fikir ciddi qəbul oluna bilməz.

Yuxarıda Ehsanulla xanın başçılığı altında poçt teleqraf naziri S.C.Cavadzadə (Pişəvəri) yox, Sərdar Möhsün* olduğu göstərilir (39. s.227).

Sənədlərdən məlum olur ki, İKP-nın I qurultayı 1920-ci il iyun ayında Rəştə keçirilmiş beş gün davam etmişdi. İran Kommunist partiyasının yeni seçilmiş MK-nın 15 nəfər üzvündən biri də S.C.Pişəvəri olmuşdur. Qurultay "Cəngəlilər" hərəkatındakı çoxşaxəliyi, ideya və məram fərqlərini bir məcraya yönəldə bilməmişdi. Üstəlik yeni yaranmış MK-nın özündə də birlik olmadığından, sonra seçilmiş MK-nın əvvəlki MK-nı tanımaması bütün bunlar Gilandakı xalq hərəkatına ağır zərbələr oldu. Onu istədiyi hədəfə çatmaq işini mümkünsüz etdi.

Rza xanın hakimiyyətdə yerini möhkəmlətməsi, irticanın əl-qolunu açdı. Belə bir şəraitdə "Cəngəl" hərəkatının başlanğıcında özünü "Cəngəl" inqilabçılarına, "Ədalətçilərə" və sonra isə İran Kommunist partiyasına dost, arxa kimi göstərən sovet rejimi verdiyi vədlərə xilaf çıxdı. İran rejimi ilə sovetlər arasında 1921-ci ilin fevralında Moskvada "Dostluq və Qardaşlıq Haqda Müqavilə" imzalandı. Bu, sovetlərin İrandakı milli-azadlıq hərəkatına, onun

* Bu adam 1905-1911-ci illər inqilabının iştirakçısı, sosial-demokrat firqəsinin fəallarından olmuşdur.

rəhbərliyinə ilk və açıq xəyanəti idi. Bu xəyanət Gilanda başlanmış azadlıq hərəkatını məğlubiyyətə itələdi (1946-ci ildə Güneydəki hərəkat kimi).

Gilandakı xalq hərəkatına Sovet rəhbərliyinin etdiyi xəyanət göstərdi ki, onların daimi dostu yox, işğalçılığa xidmət edən Kommunistlik mənafei vardır. Bu mənafein həyata keçməsi yolunda "bütün dünya proletarları birləşin!" yalançı şüarı onlara dünya hegemonluğu üçün lazım imiş.

İrticanın əli ilə daxildə təxribat və xaricdən olan xəyanət, hərəkat rəhbərliyindəki çəkişmə və pozuculuğun artması 1919-1920-ci illərdə Gilandakı hərəkatı məğlubiyyətə uğratdı. 1921-ci ilin astanasında Gilandakı hərəkat yatırılmaq ərəfəsində Ehsanulla xan dəstəsinin Tehrana vaxtsız, məsləhətsiz və yersiz hücumu Tehran qoşunu tərəfindən darmadağın edildikdən sonra Ehsanulla xan sovetlərə qaçmaq məcburiyyətində qaldı. Mirzə Kuçik xanın meşədəki "iqamətinə" məşvərətə çağrılmış Heydər əmioğlunun yatdığı otaq gecə ikən müəmmalı şəkildə yandırıldı. Öz dəstəsi ilə Talış dağlarına çəkilən Mirzə Kuçik xan sərt çovğun və şaxtaya düşüb dondu. Onun donmuş cəsədindəki başı kəsib Rza xana töhfə aparan dönük və xəyanətkar Kürd Xalı Qurban əvəzində Rza xandan polkovnik rütbəsi almağa müvəffəq oldu (146. s.34). Hərəkat fəalları təqiblərə, həbs və edamlara məhkum oldular. Cəngəlilərdən tərəfdarlıq edən və onun təəssübünü saxlayanların əmlakı müsadirə edildi, özləri ağır cəzalara məruz qaldılar və s.

Cəngəli hərəkatının ağır və uğursuz sonluğu sonrakı nəsillərə hər cəhətdən ibrət dərsi olmalıydı. Vahid hədəf uğrunda aparılan mübarizədə yersiz və əsassız ixtilaflar, yersiz çəkişmələr, ən başlıcası yadların felinə uyub, buyruq qulu olmaq mübarizə tariximizdə acı və faciəli sonluqla başa çatmışdı.

Cəngəli hərəkatındakı qarmaqarışıq mövqelər, rəhbərlikdə vahid taktika və strategiya planının olmaması, yersiz çəkişmə və ixtilaflar hərəkata köməyə gəlmiş 28 yaşlı gənc S.C.Pişəvərini məyus etmişdi. O, bu haqda öz mülahizə və fikirlərini "Ajir" qəzeti səhifəsində (15 Azər 1322-ci il tarixdə (6 dekabr 1943) ətraflı söyləmişdi. O, Cəngəlilər hərəkatındakı anarxizmi, çox məramlılığı və vahid mərkəzin olmadığını görüb Rəşti tərk edərək mübarizəsini davam etdirmək üçün qeyri-leqal vəziyyətdə əvvəl İsfahana, sonra Tehrana getmişdir.

## "HƏQİQƏT" İRAN HƏQİQƏTLƏRİNDƏN YAZIRDI

Gilandakı olayların uğursuz sonluğu bir çox azadlıq mücahidini məyus etdi. Hərəkat fəallarını Gilanı tərk etmək zorunda qoydu. Rəşt və bütövlükdə Gilan əyaləti Rza xan qatillərinin və xəfiyyə qüvvələrinin nəzarəti altına keçdi. Çoxsaylı qətillər, terror, həbs və təqiblər azadlıq istəyən qüvvələri pərən-pərən saldı. İran Kommunist partiyası rəhbərliyinin bəzi yersiz, vaxtı çatmamış şüarları və "solçu" hərəkətlər "Cəngəli"lərin məğlubiyyətini sürətləndirmiş oldu. "Solçu",

kommunistlərin bolşevik çağırışları kültənin böyük hissəsini hərəkatdan uzaqlaşdırdı. Hərəkatı yatırmaqda irticanın əlinə tutarlı əsas verdi. Partiyanın daxilindəki ixtilaflar ölkənin istiqlaliyyətini yad əllərdən xilas emək istəyənləri narazı saldı. Onlar öz mübarizələrini başqa bölgələrdə davam etdirməli oldular. Belələrindən biri də Seyid Cəfər Pişəvəri olmuşdur. O, Gilandakı olaylardan, xüsusən burada rəhbərlik iddiasında olan insanların şəxsi ambisiya və yanlış hərəkətlərindən narazı qaldığı üçün Gilanı tərk edib qeyri-leqal şəkildə əvvəl İsfahana, sonra isə Tehrana gəldi və mübarizəsini burada davam etdirməkdə qərarlaşdı.

S.C.Pişəvəri Tehranda köhnə dostu Seyid Məhəmməd Dehqanla əlaqə yaradır və "Həqiqət" adda qəzetin nəşrində əməkdaşlıq etdilər.* Qəzetin təsisçisi S.M.Dehqan, baş redaktoru isə S.C.Pişəvəri olmuşdur. Qəzetdə çap olunmuş baş məqalələrin və səhifələrdək yazıların çoxu S.C.Pişəvərinin qələmindən çıxmışdır.

"Həqiqət"in təsisçisi Məhəmməd Dehqan əsrin əvvəlində Pişəvəri kimi Bakıda M.Ə.Tərbiyətin, Ə.Talıbovun, H.Z.Tağıyevin maddi yardımı ilə təhsil almış və dövrünün savadlı ziyalılarından olmuşdur. O, həmkarlar hərəkatına 1918-ci ildən qoşulmuş və 1919-cu ildə həmkarlar təşkilatına sədr seçilmişdi. 1920-ci ildə İranda ilk dəfə olaraq mətbəə işçilərinin həmkarlar təşkilatını yaratmış və ona rəhbərlik etmişdir (94. s.368).

İran zəhmətkeşlərinin orqanı olan "Həqiqət" qəzeti 1300-ci ilin Dey ayından (1922-ci ilin yanvarından) 1301-ci ilin Tir ayınadək (1922-ci ilin iyun) ayınadək Tehranda çap olunmuşdur. Bu müddət ərzində "Həqiqət"in 106 nömrəsi işıq üzü görmüşdü. Qəzetin səhifələrində çap edilən məqalələrdə İran zəhmətkeşlərinin amansız istismarından, onların tapdalanmış hüququndan və tələblərindən danışılır, durumdakı haqsızlıqlar ifşa və tənqid edilirdi. Qəzet az müddətdə öz ətrafına açıq fikirli ziyalılarla yanaşı, kommunist məsləkinə meyilli olan Salamulla Cavid, Kərim Nikbin, Bəhmən Şeydani və s. kəsərli qələm sahiblərini də toplaya bilmişdi.

"Həqiqət" qəzetində baş məqalələrin çoxu S.C.Pişəvəri qələminə məxsus yazılar olmuşdu. O, özü bu haqda sonralar "Ajir"də çap etdirdiyi avtobioqrafik məqaləsində göstərir ki, "Azadxah yoldaşların yazdıqları bir neçə məqalə istisna olarsa "Həqiqət"dəki baş məqalələrin çoxunu mən yazmışam. Təhlükəsizliyimlə bağlı məqalələrin altında öz imzamı yazmaqdan çəkinməli olurdum".

S.C.Pişəvərinin "Həqiqət"də çap olunmuş, siyasi cəhətdən kəsərli məqalələrindən "İqtisadi əsarət", "Dünya fəhlələrinin inqilabı", "İranda ideoloji inqilab", "Səfalət haradandır", "Vahid cəbhə", "Əsaslı çarə gərəkdir", "Paris kommunası", "Məclisdəki siyasi firqələr", "Azadlığı qorumaq millətin vəzifəsidir"

---

* Adı çəkilən qəzetdə S.C.Pişəvərinin fəaliyyət haqda ətraflı məlumat üçün bax: Rəhim Rəisniya, "Axrin səngər azadi" əsərinə. Tehran, 1377.

və s. başlıq altında yazdığı silsilə məqalələri misal göstərmək olar. Bu məqalələrdə oxucu kommunist məfkurəsini aşılamaqdan daha çox hansı yolla, hansı məslək və məramla İran xalqlarını əsarətdən, haqsızlıqlardan və xarici asılılıqdan qurtarmaq fikri qabardılır. S.C.Pişəvərinin ideoloji baxışlarında və mübarizəsində radikal kommunistlikdən tədricən uzaqlaşıb, demokratik azadlıqları ön plana gətirməsi və mübarizənin istiqamətinin bu yönə döndərməsini 20-ci illərin əvvəllərində baş verən olayların güclü təsiri olmamış deyildi. ("Cəngəli" hərəkatının köməksiz buraxılıb, sovetləri İran irtica rejimi ilə dil tapması, İran kommunistləri arasında çəkişmələr və ixtilaflar və s. və i.) İrtica və polisin nəzərindən yayınmaq üçün qəzetdə rejimə toxuna bilən hər bir məqalənin müəllifi rəmzi adlardan istifadə etmək məcburiyyətində qalırdılar. Məsələn, "Həqiqət"dəki məqalələrinin çoxunu Pişəvəri "Pərviz", "Y.Pərviz", "Ə.Pərviz" və s. imzası ilə onun məslək dostu K.Nikbin isə "Firudin", S.Cavid isə "Həsənzadə" imzası ilə çap etdirmişdi (Yenə orada, s.2-3).

"Həqiqət" o zamankı İran reallıqlarını öz səhifəsində yazmaq S.C.Pişəvəri 1920-ci illərdə dan və yaymaqdan çəkinmirdi. Buna görə də, "Həqiqət" öz oxucularının sayını günbəgün artırırdı. Həmin dövrün tədqiqatçısı tarixçi alim özünün "Azadlıq səngəri" (Səngər Azadı) kitabında belə bir müqayisə aparır. Əgər "Həqiqət" gündə orta hesabla 950 nüsxə satılırdısa, "Stareye İran" qəzeti gündə vur-tut 300 nüsxə, "Mihən" 60 nüsxə, "İttihad" 36 nüsxə,"Qanun" 7 ədəd satılırmış və həm də "Həqiqət"in oxucularının sayı durmadan artırmış.

"Həqiqət" qəzetinin savadlıları az olduğu bir şəraitdə başqa qəzetlərə nisbətdə belə tərzdə daha geniş oxucu auditoriya qazanması onda dərc olan məqalələrin oxucuların və günün tələblərini vaxtında və düz işıqlandırması, əsas hədəfi sözlə atəş açması, xalqa çıxış yolunun azadlıq və demokratiyadan faydalanmaqla xarici asılılıqdan xilas olmağın yolunu göstərməsi idi. Bu işdə başqa müəlliflərlə birlikdə S.C.Pişəvərinin yazılarındakı dəyər və siyasi kəsər daha önəmli olmuşdur. Bu yazılar və siyasi mühitdə baş verənlər şah sarayındakılardan da çox İran taxt-tacında gözü olan, bütün vasitələrlə (mərkəzləşdirmə adı ilə hərbi-mülki və inzibati işlərin ixtiyarını ələ keçirməklə) bu taxt-taca sahib olmaq istəyən Rza xanı (o, əvvəl hərbi nazir, sonra isə baş nazir postunu artıq ələ keçirməyə müvəffəq olmuşdur) daha çox narahat edirdi. Ölkədə rejim əleyhinə olan qüvvələri ram etmək üçün o, əvvəlcə real vəziyyəti xalqa çatdıran və oyanışa kömək edən mətbuatın üzərinə hücum təşkil etdi, sonra rejim əleyhinə olan siyasi özəkləri dağıtdı. "Həqiqət" bu hücuma məruz qalan ilk mətbuat orqanı oldu.

S.C.Pişəvərinin qəzetin 106-cı (son) nömrəsində yazdığı "İki qat irtica" məqaləsi qəzetin həmişəlik bağlanması üçün dövləti əlində bəhanə olur. Adı çəkilən məqalədə S.C.Pişəvəri yazırdı:

"Ölkənin bərbad vəziyyəti hamıya məlumdur... irticai hökumət başçıları ölkənin qanunlannı yaddan çıxarıb istebdad və mütləqiyyət dövrünü yenidən dirçəltmişlər. Hərbi hökumət hər yerdə özbaşınahq edir... bugünkü vəziyyət heç də

beş il bundan əvvəlki vəziyyətə oxşamır. Bu gün bıçaq sümüyə dirənmişdi" (226. 26 VI 1321; 135. s. 146-147). Adı çəkilən bu məqalədə S.C.Pişəvəri dövlət məqamlarına müraciətlə yazır: "... Məqsəd və arzumuz ölkəni inkişaf və tərəqqi etdirməkdən, xalqı azadlığa çıxarmaqdan ibarətdi. Siz də mövcud prinsiplərinizdən kənara çıxıb, xalqın və ölkənin tərəqqisi naminə çalışmadığınız əks təqdirdə sairələri kimi bizdə sizin əleyhinizə mübarizə aparacayıq" (Yenə orada).

Qeyd etmək lazımdır ki, Rza xan hakimiyyətdə baş nazirlik sükanını öz əlinə keçirmək naminə bir müddət özünü "demokrat" kimi göstərməyə çalışmış, ölkədə respublika quruluşunu "yaratmağa" təşəbbüs edən şəxs kimi özünü xalqa tanıtdırmışdı. Bu məsələ bir çox ziyalılar kimi "Həqiqət"in baş redaktoru S.C.Pişəvərini də çaş-baş salmış, mətbuat əleyhinə, xalqın azadlığı əleyhinə günahları baş nazir Möşir-əl dövlənin ünvanına yönəltmişdi. Əslində bu işlərin mərkəzində "demokrat" – "respublikaçı" pərdəsi dalında qılaflanmış hərbi nazir Rza xan dururdu.

Həmin dövrdə S.C.Pişəvərinin "Həqiqət"də çap olmuş məqalələrinin birində oxuyuruq: "... Rza xan da millətlə və qanuna tərəfdar olmaq meyili vardır. Hamı bilir ki, Sərdar Sipəh (Rza xan) heç kəsdən qorxmur və yalanı qəbul etmir. Belə olan təqdirdə azadlığın əleyhinə mətbuatı qadağan etmək və azad olmağm əleyhinə yönələn işləri fikrimizcə ona şamil etmək olmaz... Möşir əl-dövlə istəyir ki, əldən getmiş nüfuzunu qaytarmaq və Rza xanı yerə vurmaq üçün... Sərdar Sipəhin əli ilə anti demokratik işləri icra etsin, azadxahları sındırsın» (226.12 II 1301). Əslində Rza xanla baş nazir arasında olan çəkişmə Rza xanın hakimiyyətdə daha geniş əl-ayaq niyyətindən irəli gəlirdi. Bu oyunda savadsız da olsa ingilis casusluq məktəbinin yetirməsi olan Rza xan qalib gəldi. O, baş nazir Möşir əl-dövlənin istefa verməsinə onun yerinə Əhməd Qəvamus-səltənənin gəlməsinə nail ola bildi. Rza xanın belə "at oynatması" və bu oyunda qalib gəlməsi bir tərəfdən Əhməd şahın səriştəsizliyi və saraydakı çəkişmələrlə bağlı idisə, digər, bundan az önəmi olmayan səbəb İrandakı İngilis kəşfiyyatının fəaliyyətinin nəticəsində mümkün olması idi.

Özü üçün maneəsiz fəaliyyət meydanı açmış Rza xan zaman keçdikcə üzərindəki "qılaf"ları götürdü. Həqiqi amansız diktatorluq və şovinistlik simasını göstərməyə başladı. Hakimiyyətdəki sükanı ələ keçirib yerini möhkəmlətdikdən sonra demokratik qüvvələr üzərinə geniş miqyaslı hücum planını hazırladı və icrasına başladı. Bu məqsədlə əvvəl İran reallıqlarını yazan mətbuatın üzərinə yürüş etdi. Bu yürüşün ilk zərbəsini alanlardan biri də "Həqiqət" oldu. O, bu məqsədlə xəfiyyə məmuru sözsüz tabe olan Mahmud Ağaxan S.C.Pişəvərinin "Həqiqət"in sonuncu (106-cı) nömrəsində çap olunmuş məqaləsini dövlət əleyhinə açıq "Kommunist" təbliğatı kimi qiymətəndirdi. 1921-ci ilin yanvarından (9 Dey 1300) iyul 1922-ci ilin iyulunadək (tir 1301) fəaliyyət göstərən və millətin oyanışında önəmli rol oynayan "Həqiqət" qəzetinin nəşrinə dövlət tərəfindən yasaq qoyuldu. Qəzetin heyəti və ona məqalə yazanlar təqib olunmağa başlandı.

S.C.Pişəvəri gizli yolla 1923-cü ildə İsfahana getməli oldu və fəaliyyətini qeyri-leqal şəkildə orada davam etdirdi. S.C.Pişəvəri həmin dövrü xarakterizə edərək sonralar yazırdı ki, "O günlərdə bizim vəziyyətimiz çox ağır idi. Lakin... şah əleyhinə hücumlarımız gündən-günə daha şiddətli, daha dağıdıcı və daha möhkəm olurdu... Bu iftixarlı mübarizə doqquz ilə qədər davam etmişdi".

İsfahanda, sonra Tehranda gizli siyasi fəaliyyət göstərən və Rza şahın qanlı rejiminə qarşı demokratiya və azadlıq uğrunda mübarizədən çəkinməyən S.C.Pişəvərinin mənsub olduğu gizli təşkilatları polis xəfiyyəsi dörd dəfə hədəfə alıb dağıdır. Ümumiyyətlə 1925-ci ilədək (Rzaxan şahlıq taxtına çıxanadək) İran polisi və hərbi xəfiyyə Əhməd şah əleyhinə ölkədə mövcud olan siyasi təşkilatlardan və narazı qüvvələrdən yetərincə istifadə etdikdən sonra onların fəaliyyətinə bir dəfəlik son qoydu, onların rəhbərlərini və fəallarını küdəvi şəkildə həbsə aldı. İrticanın tüğyan etdiyi, Rza xanın irticai simasımn açıq-aydın göründüyü belə bir şəraitdə S.C.Pişəvəri qeyri-leqal vəziyyətdə 1924-cü ildə ölkəni tərk etmək məcburiyyətində qalır. O, Bakıda yaşayan ailəsinin yanına gəlir (Bu zaman S.C.Pişəvərinin həyat yoldaşı Məsumə xanım Bakı tibb məktəbində təhsil alırdı. 1925-ci ildə oğlu Daryuş dünyaya gəlmişdi). Bu gəlişdə S.C.Pişəvərinin məqsədi özü yazdığı kimi təkcə ailəsini görmək deyil, həm də Moskvadakı "yoldaşların" İrandakı "solçu" hərəkata münasibətdə iki başlı oyunun mahiyyətini öyrənmək idi. (Bu haqda sonrakı səhifələrdə).

1920-1925-ci illər arasında Pişəvərinin qələmindən çıxan və müxtəlif mətbuat orqanlarında çap edilmiş yazıları nəzərdən keçirdikdə S.C.Pişəvərinin siyasi fəaliyyətində sovetlərə inamın olması, kommunistlik əqidəsinə sədaqət motivləri açıqca hiss olunur.

O, Bakı bolşeviklərinin rəhbəri Nəriman Nərimanovun "Şərqin Lenini", "Bakı füqərasının böyük müəllimi" adlandırır (135. s.127). Pişəvəri Azərbaycanda 1920-ci il aprel çevrilişindən sonra redaktoru olduğu "Hürriyyət" qəzetinin demək olar ki, elə bir nömrəsi yoxdur ki, orada sovet rejiminə, Moskvaya ümid və inam ifadə etməsin. O, İranın və Şərqin məzlum xalqlarının nicatını Sovet Rusiyasında, hakimiyyətə gəlmiş Kommunist üsul-idarəsində görürdü. Bu cəhətdən S.C.Pişəvəri ilə Nəriman Nərimanovun düşüncə və yanaşma tərzində fərqli cəhət tapmaq çətindir.

1920-1921-ci illərdə Gilandakı xalq hərəkatına sovetlərin açıq-aydın xəyanətini gördükdən sonra belə S.C.Pişəvəri Rusiyada və Azərbaycandakı sovet çevrilişlərinə inamını itirmir. Hətta o, 1921-ci ilin fevralında Moskvada İranla Sovetlər arasında belə adlanan "Dostluq və qardaşlıq haqqında Moskva müqaviləsi"nə (260. s. 128-129) müsbət yanaşır və onun İranın ingilislərin əsarətindən çıxmasında və istiqlaliyyətə malik olmasında önəmli iş kimi qiymətləndirir. Məsələn o, "Azərbaycan Füqərası" qəzetinin 18 may 1921-ci il tarixli nömrəsində çap olmuş məqaləsində ehyam vurur ki, İran rejimi "İran

inqilabçılarının köməyini kəsmək üçün bu mühadinaməni bağlamağa məcbur olmuşdur. Hər halda bu bir müzəfəriyyətdir".

1921-ci il Sovet-İran müqaviləsini müsbət qarşılayan S.C.Pişəvərinin "respublikaçılıq" şüarı ilə xalqı aldadan Rza xana da əvvəllər münasibəti bir qədər "loyal" olmuşdur. Bunu S.C.Pişəvərinin "Yeni fikir" qəzetində "İranda Cümhuriyyət" adı altında çap etdirdiyi silsilə məqalələrinin ümumi məzmunundan görmək mümkündür. Ölkəyə, millətə münasibətdə S.C.Pişəvəri Əhməd şahla Rza xanı müqayisə edir və üstünlüyü Rza xana verir. "Əgər Rza xan milli olmasaydı heç bir qəzet cürət edib şahın əleyhinə yazı yazmazdı". Və ya "... gələcəkdə Rza xan yaxşımı olacaq, yaxud onunla da mübarizə başlanıb, ya başlanmayacağı başqa bir məsələdir. Ancaq burada Cümhuriyyət tələblər Rza xanın bu məqsədindən böyük istifadə edə bilər" (135. s. 150-153).

İrandakı vəziyyət Moskva rəhbərliyinə çatdırmaq və onların mövqeyini öyrənmək üçün Moskvaya yollanır. Çoxları ilə görüşür, özü demiş "Çox qapılar" döysə də istədiyi cavabı ala bilmir. Moskva rəhbərliyinə ümidlərini itirmiş halda geriyə - Bakıya dönür.

S.C.Pişəvəri növbəti dəfə Bakıya dönərkən o təhsilini davam etdirmək istəyir. Özünün etiraf etdiyi kimi qəbul imtahanından (rus dilindən) yetərincə qiymət ala bilmədiyi üçün universitetin tələbəsi ola bilmir. Bakıda orta məktəblərdə müəllimlik edir, dövrü mətbuatda müxtəlif imzalarla məqalə və felyetonlarını çap etdirir. 1927-ci ilin payızında ailəsi ilə birlikdə, Xorasan yolu ilə İrana - Tehrana gəlir. Bir müddət işsiz qaldıqdan sonra Tehranın "Refahi" xiyabanında yerləşən amerikalı bir şəxsdən 600 tümənə onun kitab mağazasını alır. İki köməkçidən əlavə Əli Şərqi adlı əvvəldən yaxşı tanıdığı şəxsi özünə satıcı qəbul edir. İki il həmin kitab mağazasını işlədir. Mağazanın gəliri yetərincə olmadığı üçün 1929-cu ildə onu Mirzə Hüseyn xan adlı şəxsə satır. Həmin ilin avqust ayında (125 tümən aylıq maaşla) Tehrandakı Sovet məktəbinə müəllim qəbul olunur. O, rus dilli siniflərə riyaziyyat, tarix, coğrafiya və fars dilini tədris edir. S.C.Pişəvəri harada işləməyindən asılı olmayaraq Rza şahın xəfiyyəsi onu gözdən qoymur. Addım-baaddım onu izləyirlər, onu həbsə almaq üçün bəhanə axtarılır. Nəhayət 1929-cu ilin dekabrın son günlərində polisin əlinə belə bir bəhanə düşdü. S.C.Pişəvəri ilə vaxtilə kitab mağazasında işləyən Əli Şərqi dövlət əleyhinə siyasi fəaliyyətdə suçlanaraq həbsə alınır. Onun sənədləri arasında S.C.Pişəvəridən və doktor Salamulla Caviddən borc aldığı pulun qəbzi (çeki) tapılır. Bu S.C.Pişəvəri ilə Əli Şərqinin əlaqəsinin olduğuna "dəlil-sübut" kimi qəbul edilir. S.C.Pişəvəri də həbsə alınır...*

* S.C.Pişəvərinin həbsi ilə bağlı istintaq materialları ilə tanış olmaq üçün bax: Şahrux Fərzad, Zindan Rza şah. Mühakimat, difaiyyat və xatrat zindan Mir Cəfər Pişəvəri (mətn kamel), Tehran, nəşr "Şirin", 1384 (220 s.); Kavə Bayab, fəaliyyəthaye Kommunisthaye İran, Tehran, 1370; Doktor Ənvər Xameyi, Pəncah nəfər... və se nəfər (ilsiz və yersiz, 280 s.).

## S.C.PİŞƏVƏRİ 10 il “QƏSR-QACAR” ZİNDANINDA

## S.C.PİŞƏVƏRİ “QƏSR-QACAR” ZİNDANINDA

## ZİNDAN DİVARLARI ARASINDA KEÇƏN 10 İLLİK ÖMÜR

S.C.Pişəvəri həbsə alınmasını təsvir edərək yazır: “On bir il bundan əvvəl Dey ayının altısı günü (27 dekabr 1930) mənim üçün bir tarixi gün hesab olunur. Mən, 6.10.9 tarixini (6 dey, onuncu ay, 1319-cu ili nəzərdə tutur) bu günədək bir saat da olsun yaddan çıxarmamışam. O gün ki hava şəraiti də lap bu gün kimi nəzərimdədir. Yerlər buz bağlamışdı, bala-bala qar yağırdı. Şimran dağları uzaqdan ağ yumurta kimi görünürdü. Məhəmməd Ənzabi* ilə nahar etdikdən sonra mənzildən çıxdıq. O günlərdə biz Qəvvam əl-Səltənə xiyabanındakı Entexabiye küçəsində yaşayırdıq. Ənzabi məndən ayrılıb öz evinə qayıtdı. Mən isə dostlardan biri ilə işim olduğu üçün onun evinə gedəcək idim. Qapının yanında bir-birimizdən ayrıldıq. O Qəvvam əl-Səltənə xiyabanına tərəf getdi, mən isə sağa döndüm. Həmin dəqiqədə nəyin haqqında fıkirləşdiyim yaxşı yadıma gəlmir. Lakin həmişə olduğu kimi başımı aşağı salıb paltonun yaxasını qaldıraraq sürətlə irəliləyirdim. Küçə xəlvət və soyuq idi. Küçənin başında, sol tərəfə dönmək istədikdə qəflətən tanımadığım bir adam qarşıma çıxdı. O, yöndəmsiz libas (paltar) geyinmişdi. Əlində əsa var idi. Qyafəsi çimçəşdirici, baxışları isə həyasız və fızul idi. Bu yöndəmsiz adamı görən kimi fikrimdə ona qarşı şiddətli nifrət oyandı. Onun xoşagəlməz səsi bu nifrəti daha da artırdı.

- Ağa, sizin adınız filan... deyil, - diye bu şəxs mənə müraciət etdi.
- Nə üçün, sözünüz var?

Zahirdə ədəbli rəftar etmək istəyən, lakin ədəbsiz baxışları və gülüşləri ilə xəbis niyyətini göstərən bu adam əlavə etdi:

- Ağa, şəxsən bəndənin sizə deməli bir sözü yoxdur. Məni göndərmişlər ki, bir neçə dəqiqəlik Ettelaat İdarəsi nə (Təhlükəsizlik İdarəsinə) təşrif gətirməyinizi xahiş edim. Zənnimcə sizdən kiçik bir söz soruşmaq istəyirlər.

---

* Məhəmməd Ənzabi S.C.Pişəvərinin köhnə dostlarından, həm də xalası oğlu idi.

Mən işin bu qədər də sadə olmayacağını başa düşdüm. Axı Ettelaat idarəsinin indiyədək heç mənnən azacıq belə işi olmamışdı. Bu idarəyə girən adamlar heç də asanlıqla oradan çıxa bilməmişdilər. Əlacsız qalaraq dedim: - Belə olduqda qayıdaq mən evə xəbər verim.

O dedi: - Buna ehtiyac yoxdur. Tezliklə qayıdacaqsınız.

Mən başa düşdüm ki, bu polis dərsini əzbərləmişdir. Qaçmaq haqqında da əslən fikirləşə bilməzdim. Yəqin ki, o, tək deyildi. Digər tərəfdən mən özümü günahsız hesab edirdim. Buna görə də mənzilə qayıtmaq haqqında israr etməyərək polis ilə birlikdə yola düşdüm. Bu sadə, səssiz-səmirsiz bir dəvət ilə, həyatımda yeni dövrün başlanmasını hiss etdim və bildim ki, bir daha öz meylimlə könlüm istəyən yerə gedə bilməyəcəyəm, ixtiyarım başqalarının əlinə keçmişdir. Buna baxmayaraq bu işin aqibəti haqqında hələlik məlumatım yox idi. Ayağımın altında birdən-birə açılmış uçurumun haraya gedib çıxacağını bilmirdim.

Sipəh xiyabanında Ənzabi arxadan gəlib bizə çatdı. O, cəmiyyətin izdihamından istifadə edərək qabağa keçib, polisi tanıdığını və onun məqsədindən xəbərdar olduğunu müəyyən işarələrlə mənə başa saldı. Polisin gözləri yalnız mənə dikilmişdi. O, mənim qaça biləcəyimdən qorxurdu. Buna görə də Ənzabinin hərəkət və işarələrinə fikir vermirdi. Biz isə bu vəziyyətdən istifadə edərək Təminat idarəsinin qapısınadək işarə ilə bir-birimizlə söhbət etdik. Orada isə məcburi olaraq təəssüflü gülüşlə vidalaşdıq.

Mən bilirdim ki, o, necə olursa olsun, tutulmaq xəbərimi bizim evə çatdıracaqdır. Buna görə də sakit ürəklə Təminat idarəsi binasının pillələri ilə yuxarı qalxdım. Orada polis məni kiçik bir otağa apardı. Üç böyük miz və bir sadə qəfəs ilə zinət verilmiş bu otaqda polis məni gənc bir kişiyə tapşıraraq çıxıb getdi. Sonralar həmin gəncin adının Rüfət olduğunu bildim. Məni gətirən polisi isə bu günədək ikinci dəfə görməmişəm".

O dövrün ən dəhşətli zindanı kimi tanınan "Qəsr-Qacarda" 226 №-li siyasi məhbus S.C.Pişəvərinin ilk istintaqı 1930-cu ilin yanvarında başlamış, 1940-cı ilin aprelinədək davam etmişdi. İstintaqın ilk mərhələsini əslən Xozustandan olan savadı və peşəkarlığı yetərincə olmayan Fəruzeş familiyalı müstəntiq aparmışdı. S.C.Pişəvəri özünün zindan xatirələrində[*] göstərir ki, bir qayda olaraq onu çox zaman gecə yarısı sorğu-suala çəkirmişlər ki, onun iradəsini sarsıdıb, ondan lazım olan cavabları ala bilsinlər.

S.C.Pişəvərinin çox illik zindan həyatının istintaq materialları nə az, nə çox - 7 cilddir. Suallar dəfələrlə təkrar olduğundan oxucunu yormamaq üçün istintaq materiallarının xülasəsini verməklə kifayədənəcəyik[**].

---

[*] S.C.Pişəvərinin "Zindan xatirə dəftərlərindən" (140 səhifədir) parçalar kitabın sonunda verilir.

[**] İstintaq materialları üçün bax: Ş.Fərzadın Zendan Rza şah. Mühakmat, difaiyyat və xatrat Zendan Mir Cəfər Pişəvəri. Tehran, 1384, s. 7-70 (İstintaq materialları İranda ilk dəfə çap edilmişdi) (bundan sonra Fərzadın kitabı)

Müstəntiq:

S. - Adınız və familiyanız nədir? Özünüz haqda məlumat verin.

S. - Mircavad oğlu Mir Cəfər Pişəvəri. Otuz beş yaşım var. Azərbaycanın Xalxal mahalındanam. İran və Şourəvi mədrəsəsində müəllimlik etmişəm. Ev adresim: Vüzarete Cəng, Çaharrahi. İntixabiyye küçəsinin içi, Moəyyedol-Məmalekin evi, nömrəsi yoxdur. Bir qadınım və bir oğlum var.

S. - Neçə müddətdir Tehrandasınız?

C. - Üç il yarım, dörd il olar.

S. - Nə zamandan Şourəvi mədrəsəsinin müəllimisiniz?

C. - Bir il dörd aydır.

S. - Bundan əvvəl nə iş görərdin?

C. - Ticarət işinə baxardım. Kitab mağazam var idi.

S. - Kitab mağazanız harada idi?

C. - Rifahi xiyabanında.

S. - Nə vaxtdan kitab mağazanız var idi?

C. - Təqribən iki il.

S. - Kitab satmaq işini nə üçün tərk etdiniz?

C. - Qazancı yox idi. Bir də ki, başqa iş tapmışdım.

S. -Şourəvi (Sovet) mədrəsəsində nə dərsi verirdiniz?

C. - Rus siniflərində riyaziyyat, tarix, coğrafiya, fars dili.

S. - Ayda nə qədər gəliriniz var idi?

C. - Yüz iyirmi tümən alırdım.

S. -Nə zamandan Şourəvi mədrəsəsində müəllim oldunuz?

C. - 1929-cu ilin avqust ayında şourəvi mədrəsəsinə daxil oldum.

S. -İran tarixi ilə 1929-cu ilin avqust ayı nə zamandır?

C. - 1308-cı ilin şəhrivər ayının əvvəlləri.

S. - Kitab mağazasında şərikin də var idimi?

C. - Şərik yox, ancaq şagirdim var idi.

S. - Neçə şagirdin var idi?

C. - Üç nəfər.

S. - Adlarını buyurun!

C. - 15 yaşında bir uşaq, adı Hacı Xan idi, familiyası yadımda deyil. Onu mağazamın qonşuluğunda olan bir başmaqçı mənə tanıtdırdı. Başmaqçının adını bilmirəm. Ancaq familiyası Əmiryan idi. Şagirdə gündə 4-5 qran verirdim. Yay tətillərindən sonra, mədrəsələr açılanda o da mədrəsəyə getdi.

Bir də Əli Şərqi idi ki, tanışlarımdan Ağaye Mirzə Hüseyn Xan Omid onu mənimlə tanış etmişdi. Yaşı çox olduğu üçün qərar qoymuşduq ona ayda 30-35 tümən verəm. O da bir müddət qaldı, sonra dedi ki, Mazandaran dəmir yolunda bir iş tapdığı üçün getdi.

Bu iki şagirddən qabaq Məhəmmədxan Ənzabi adlı bir şagirdim var idi. Qohumlarımdan idi, xalam oğlu idi. O da müəllimliyə getdiyi üçün iki nəfər başqa şagirdi gətirdim.

Şagirdlərimin hamısı bu 3 nəfər olmuşdur.

S. - Əli Şərqi neçə müddət sizin şagirdiniz oldu?

C. - İşə başlaması ilə qurtarması yadımda deyil, ancaq 3-4 ay olardı.

S. - Onun maaşını gündəlik verirdiniz, ya aylıq?

C. - Bəzən gündəlik alırdı, bəzən həftəlik alırdı, bəzən də ay başı alardı. Bu kitab satışı ilə bağlı idi.

S. - Getdiyi vaxt sizdən alacağı da var idi?

C. - Alacağı yox idi. 5-6 gün bundan əvvəl, təsadüfən onu xiyabanda gördüm. Məndən pul istədi. Mən də yüz tümən hüdudunda ona bir çek verdim.

S. - Demək, bu pulu ona borc verdiniz?

C. - Bəli.

S. - Onu əvvəldən tanıyırdınızmı?

C. - Yox.

S. - Dediyiniz kimi, 100 tüməni Əli Şərqi sizdən borc aldı?

C. - Bəli. Dedi ki, borcum var, onu verəcəyəm.

S. - Ona çek verəndə qəbz alıbsınızmı?

C. - Qəbz almadım.

S. - Məlum olur ki, siz o pulu müəyyən bir iş üçün veribsiniz. İnanmaq olmaz ki, siz 100 tümən bir şəxsə verəsiz və ondan heç bir qəbz də almayasınız.

Buyurun görək o pulu ona nə iş üçün veribsiniz?

C. - Bir zaman o, mənim kitab mağazamda işləmişdi və mən onu düzgün bir adam kimi tanıyırdım. Bundan başqa, o, məndən pulu uzun müddətə istəmirdi. Mən də bilirdim ki, o, borcunu qaytaracaq.

S. - Bəs nə üçün qəbz almadın?

C. - Ona inanırdım. Bu inam məndə o, kitab mağazasında işlədiyi zamandan yaranmışdı.

S. - Sizin ona bir belə etimadınızın olmağına baxmayaraq, gərək qəbz alaydınız. Çünki onun nə müəyyən yeri, nə də şəxsi təyinatı var idi ki, sizin dediyinizi qəbul edək. Məlum olur ki, siz qeyd olunan pulu müəyyən iş üçün ona veribsiz.

C. - Təkrar deyirəm, təkcə mən yox, onu mənə təqdim edən də onun düzgün adam olmağını təsdiq edə bilər. Kitabxanada işlədiyi zaman əgər xilaf iş görsə idi, Mirzə Hüseyn xan Omidə müraciət edəcək idim.

S. - Əvvələn, Əli Şərqinin sizin verdiyiniz çekdən əlavə, o qədər pulu var idi ki, sizdən borc almağa heç ehtiyacı belə yox idi. Saniyən, çox da ki, sizin ona etimad və inamınız həddən artıq idi, ancaq yeri, işi məlum olmayan və hər gün bir şəhərə gedən adama verdiyiniz pulun müqabilində nə üçün qəbz almadınız? Belə məlumat olur ki, o pulu siz müəyyən xərclər üçün ona veribsiz.

Buna nə sözünüz var?

C. - Bu sualın cavabını yuxarıda vermişəm.

S. - Əgər Əli Şərqi desə ki, sizdən aldığı 100 tümən başqa bir iş üçün imiş, yenə də həqiqəti danacaqsınız?

C. - Onda qəbul edərəm.

S. - Əgər Əli Şərqi çağırıla və sizin öz hüzurunda deyə ki, verdiyiniz pul başqa məqsədlər üçün sərf edilməli idi? Onda necə?

C. - Bəlkə Əli Şərqi min söz deyəcək, mənə nə dəxli var. Mən onu düzgün bir adam kimi tanıyıram. O heç zaman yalan danışmaz.

S. - Bəs onun dediklərini nə üçün qəbul etməzsən?

C. - Qəbul edərəm.

S. Bəs nə üçün yuxarıda rədd etdiniz?

C. Birinci bu ki, belə söz deməz. İkinci, Əli Şərqi əgər hanki bir iş üçün vərəcəyim pul haqqında bir söz desə, mən qəbul edərəm.

S. - Əli Şərqinin sizdən alacağı da var idi?

C. Mümkündür ki, Əli Şərqi məndən 10-15 və ya 20-25 tümənə qədər alacağı olduğunu fikirləşə. Çünki işdən getdiyi vaxt mən maaşını tam hesablamadım. Ancaq, zənnimcə, onun məndən alacağı yoxdur.

S. - Əli Şərqi isə deyir ki, mənim Mir Cəfər Pişəvəridən 100 tümən alacağım var idi. Bu pulu da o hesabdan almışam. Siz bu haqda nə deyirsiniz?

C. - Mənim ona borcum yox idi.

S. - Bəs nə üçün Əli Şərqi belə deyir?

C. - Bilmirəm.

S. - Əgər Əli Şərqi sizdən 100 tümən alacağı olduğunu iddia edə və deyə ki, bu pulu o hesabla sizdən alıbdır, o, düz deyir, ya yox?

C. - Yalan deyir.

S. - Sizin əsl adınız və familiyanız nədir?

C. - Mənim familiyam əslində Pərvizdir. Bundan əvvəl də Cavadzadə adı ilə Tehranda məşhur idim və qəzetlər Pərviz imzası ilə məqalə yazardım.

S. - Onda bəs bioqrafiyanızı buyurun.

C. - Mən Azərbaycanın Xalxalı mahalında anadan olmuşam. 12-13 yaşıma qədər Xalxalda yaşamışam. Sonra evimiz Xalxal ətrafında olan Əşayirlər tərəfindən qarət olduğu üçün, ata-anamla birgə Rusiyaya getdim. Orada həmyerlimiz olan bir müəllimin vasitəsi ilə Badkubədə mədrəsəyə oxumağa daxil oldum. Eyni halda orada işləyirdim də. Çar zamanı ibtidai təhsilimi qurtardıqdan sonra Pedaqoji texnikuma daxil oldum. Oranı da bitirdim. Bu zaman iki mədrəsədə dərs deyirdim: İranlıların "Ettehad" mədrəsəsində ibtidai sinif uşaqları üçün fars, türk və şəriətdən dərs verirdim. Bakının 9 nömrəli bələdiyyə mədrəsəsində isə türk dili və başqa fənlərin tədrisi üzrə müəllimlik edirdim. Kommunistlik başlananda da o mədrəsələrdə çalışırdım. Sonra Gilanda inqilab baş verən zaman mən də Gilana gəldim və 2 ay Ehsanollah Xanın dəstəsində oldum. Orada 2 ay qalandan sonra

vəziyyətin yaxşı olmadığını və milli mənafeyə müxalif hərəkətləri görüb istefa verdim və Bakıya qayıtdım.

Bir müddət orada hazırlaşdım ki, darülfünuna daxil olum. Ancaq rus dili fənnindən kəsildim. Sonralar İrana gəlmək fikrinə düşdüm. Gilanda qarışıqlıq olduğu üçün, orada müxtəlif dəstələrin olduğuna görə onlara qarışmaq istəmirdim. Xorasan yolu ilə Tehrana gəldim. 2-3 ay işsiz qaldım. Sonra "Həqiqət" qəzetinin redaksiyasında mühərrir (redaktor) və tərcüməçi kimi işlədim. "Həqiqət" ruznaməsində (qəzetində) işləyənlər arasında ixtilaf olduğuna görə və bir yandan da qəzet bağlandığı üçün 2-3 aydan sonra yenə Bakıya qayıtmağa məcbur oldum. Orada yenə müəllimlik etdim. Xanımım da mamalıq məktəbinə daxil oldu. Xanım qohumları üçün darıxdığına və mən də orada iranlılara qarşı yaranmış pis münasibətlə bağlı 1927-ci ildə ailəmlə birgə İrana qayıtdım (149. s.7-77).*

S.C.Pişəvərinin 10 illik zindan dövründə xanımı Məsumənin dəfələrlə yüksək dövlət məqamlarına, hətta şahın arvadının ünvanına ərinin bağışlanması haqda ərizələri cavabsız qalmışdı. 24 mordad 1331-ci ildə (sentyabr 1932) 501/4705 №-li cavabla Məsumə xanıma dövlət tərəfindən rəsmən bildirilir ki, "təkrar ərizələr yazmaqla dövlət məqamlarını və şəxsiyyətləri narahat etməsin" (Yenə orada, s.48). S.C.Pişəvəriyə psixoloji əzab verib, ruhiyyəsini sarsıtmaq məqsədi ilə xanımın boşanmasına və başqa ərə getməsinə razılıq ərizəsi yazması təklif olunur. Belə bir təklif Məsumə xanıma da edilmiş və bu haqda rəsmi ərizə ilə dövlətə müraciət etməsi "məsləhət" görülmüşdü. Lakin Məsumə xanım bu riyakar təklifi rədd etmiş və ömrünün sonunadək "Ağaya" (o, Pişəvərini belə adlandırırdı) sədaqətli həyat yoldaşı, vəfalı dost qalacağını söyləmişdi.

S.C.Pişəvərinin istintaqına aid materiallardan və ona verilmiş çoxsaylı suallardan bəlli olur ki, istintaqda əsas məsələlərdən biri Əli Şərqinin kimliyini aydınlaşdırmaq idi. Qarşı tərəf çox əlləşirdi ki, S.C.Pişəvəri özü Əli Şərqini "adam öldürən", "terrorçu", "dövlətə düşmən" adam kimi təqdim etsin. Belə olan təqdirdə S.C.Pişəvəri Əli Şərqini dövlətə qarşı cinayətlərə təhrik edən adam kimi tanınacaq idi. Bu isə həm Əli Şərqinin və həm də S.C.Pişəvərinin edamına "hüquqi əsas" yaratmış olacaq idi. Müstəntiq S.C.Pişəvəriyə bir neçə dəfə: "Siz nahaq inad edirsiz, Ə.Şərqi hər şeyi səmimiyyətlə boynuna alır" deməklə S.C.Pişəvərini Ə.Şərqinin satqınlığına inandırmaq və onu çaş-baş salmaq istəyirdi. Ə.Şərqi ilə bağlı uzun söhbətə son qoymaq üçün S.C.Pişəvəri Ə.Şərqi ilə üzləşdirilməsini tələb etmişdi və əlavə etmişdi "Əli Şərqi nə desə mən qəbul edərəm" deməklə müstəntiqin isti aşına soyuq su qatmışdı.

Çətin vəziyyətə düşən lorustanlı müstəntiq istintaq vərəqəsini özü istədiyi kimi yazır və imzalamağı S.C.Pişəvəridən tələb etdi. S.C.Pişəvəri isə yazılanları oxuduqdan sonra vərəqə imza atacağını bildirdikdə istintaqı aparan Fəruzeş əsəbi

---

* Qeyd: "Qəsr Qacar"da yatarkən S.C.Pişəvəriyə qarşı çoxsaylı istintaqda dəfələrlə verilən sualları təkrar etməyə lüzum görmürük.

halda: "... Ağa mən ki, sənə papış tikmirəm, burada iki kəlmənin artıq ya əskik olmasının nə əhəmiyyəti var?" S.C.Pişəvəri cavabında "Ağa, işə baxılan zaman təqsiri bir kəlmə ilə də adamın boynuna qoyarlar. Məsələn "xeyr" sözü əvəzinə "bəli" sözünü götürək" (135. s.424). Belə olan təqdirdə "Kəssəyin daşa", rastlaşdığım, kəmsavad, təcrübəsiz müstəntiq mətin və zəkalı bir insanla üz-üzə dayandığını anladı...

S.C.Pişəvərinin zindan divarları arasında yazdığı xatirələrdən bəlli olur ki, Rza şah məmurları ona fiziki, pisixoloji əzab-əziyyət verməklə, ondan özlərinə gərək olan cavabı almağa çox çalışsalar da, onun iradəsini sındıra bilməmişlər. "Rza xanın bütün cəlladlıq dəsgahı bizi məhv etmək istəyirdi. Ən yaxşı yoldaşlarımızı itirdik, özümüz isə fiziki cəhətdən ayaqdan düşdük. Lakin əhval-ruhiyyəmiz qüvvətli olduğu üçün mübarizəni davam etdirdik" (212. 15.IX.1322).

## ZİNDAN "MƏKTƏBİ" - FİKİR AYRILIQLARI

Qacarlar hakimiyyəti dövründə şəhərdən xeyli uzaq yerdə, Tehranın şimalında əsas at-qatır və uzunqulaqlar üçün tikilmiş mal damları və tövlələr Rza şah hakimiyyətinin ilk illərində "abadlaşdırılmış" və türk Qacarlara təhqir mənasında "Qacarların qəsr" adı verilərək əzablı zindan vəziyyətinə salınmışdır. Tehranın ətrafında siyasi məhbuslar və ağır cinayətlər etmişlər üçün yaradılmış bu zindan özünün müdhişliyi və dəhşətləri ilə İranda məşhurdur. "Cəhənnəm" və bəzən də "gedər-gəlməz evi" adlandırılan bu qazamat çox zorakılıqların, məhkəməsiz-sübutsuz qətillərin, ağlagəlməz işgəncə, əzab və zorakılıqların şahidi olubdur. Onun dörd divarları arasında neçə-neçə azadlıq mücahidi, siyasi şəxsiyyətlər, vətənsevər insanlar səssiz-səmirsiz güllələnmiş, haqqı, ədaləti istəyənlərin nəfəsi xəfələnmişdir. "Qəsr-Qacar" zindanındakı daşların, divarların dili olsaydı Rza şahın qanlı rejiminin cinayətlərindən nələr damşardı!..

"Qəsr-Qacar" dövlətin əlində "əzab evi" kimi Tehrandan o vaxt xeyli aralı salınmışdır ki, burada həbs olumuş adamların ailələri, qohum-qardaşı, dost və tanışları bura gəlməyin əziyyətini görüb, görüşdən və ya məhbuslara yemək gətirməkdən vaz keçsinlər. Bu dəhşətli məkana ancaq fayton, at və ulaqla (o vaxt başqa nəqliyyat vasitəsi yox həddində idi) gedib-gəlmək mümkün idi. Piyada gedənlər günlərlə yorğunluğun və ayaqlarının sızıltısı və ağrısını çəkmək məcburiyyətində qalırdı.

O vaxtlar "Zindane Mərkezi" kimi tanınan "Qəsr-Qacar"dakı məhbus kameraları, mərtəbə və kolidorlar əzabvericiliyi və cansıxıcılığı ilə bir-birindən fərqlənirdi. Belə kameralardan biri dar, qaranlıq, üfunət mərkəzinə yaxın, siçovul, bit, birə, ağcaqanad və başqa həşaratlarla bol olan 1-ci mərtəbədəki 2 №-li kamera idi. İstintaq müddətinin bir hissəsini məhz bu kamerada keçirən Pişəvəri sonra əvvəlkindən bir qədər fərqli ikinci qatdakı 7№-li kameraya köçürülmüşdü. O,

ömrünün çiçəklənən, mənalı dövrünün nə az, nə çox 10 ilini bu məkanda, qala divarları arasında keçirməli olmuşdur...

S.C.Pişvəri cəhənnəm əzablı bu mühitdəki olayların təsvirini özünün "Zindan xatirələri dəftəri"ndə yetərincə vermişdi.

Əslində onun zindan həyatından bəhs edən bu söhbəti xatirələrdən daha çox bütün varlığını millətinin və vətəninin azadlığı yolunda Prometey kimi alışıb yanan bir insanın 3700 günlük zindan həyatının acı epopeyasıdır. S.C.Pişəvəri əvvəl yatdığı 2 №-li kameradan ikinci qatdakı 7 №-li kame-raya köçürələrkən burada savadlı məhbuslara kağız, qələm əldə etmək və qeyri siyasi kitabları oxumağa imkan verilirdi. Bu fürsətdən istifadə edən S.C.Pişəvəri "Nadirə", "Minurə" adlı romanlarını, "Zindan xatirə dəftəri"ni, felyeton, hekayə, şeir və müxtəlif məzmunlu publisist-tənqidi yazılarını məhbusluq dövründə başa çatdırır (75. s.31).

Görkəmli tədqiqatçı-şair, pedaqoq Vüqar Əhməd yazır: "XX əsrdə M.C.Pişəvəri fenomeni anlayışının məzmununu təşkil etməyə, ondan qüdrətli ictimai xadim, müdrik hökumət başçısı, istedadlı alim, görkəmli şair və nasir, kəsərli qələm sahibi olan publisist, humanist və beynəmiləl təbiətli redaktor kimi bəhs etməyə onun şəxsiyyətini, həyat və fəaliyyətini gələcək nəsillərə örnək, təcrübə və mənbə kimi təqdim etməyə əsas verir" (11. s.188).

"Qəsr-Qacar" zindanındakı cəhənnəm əzablı məhbus həyatı S.C.Pişəvərinin azadlıq istəyini, vətənə sevgi və məhəbbətini az da olsa söndürə bilməmişdi. Məhbəsdə bir müddət eyni kamerada yatmış S.Cavid etiraf edir ki, S.C.Pişəvəri zindanda da bizə müəllim, dəyərli məsləhətçi təəssüratı bağışlayırdı. Cavid S.C.Pişəvəri ilə zindan həyatındakı günləri əvəzsiz məktəb adlandıraraq yazır: "O, zindanda yatan cavanlara bir müəllim, nümunə, əvəzolunmaz məsləhətçi idi" (185 a. s.40).

Siyasi əqidəsinə və rejim əleyhinə olduqları üçün "Qəsr Qacar" da yatan məhbuslar iki qismətlə bölünürdü: stajlı məhbuslar, yeni məhbuslar. Stajlı, belə adlanan "Köhnə" məhbuslar S.C.Pişəvəri ilə eyni vaxtda (1-2 il əvvəl ya ki, sonra) tutulanlara, (S.C.Pişəvəri, Yusif İftixar, Rəhim Həmdad, Əli Ümid, Ardaşes Ovanesyan və b.), yeni siyasi məhbuslar isə əksəriyyəti cavanlardan ibarət olan "53-lər" adlanan dəstə idi (Doktor Tağı Ərani, M.Bəhrami, M.Boqrati, Ə.Xameyi, B.Ələvi, M.Yəzdi və b.) bu dəstələr arasında siyasi və ideoloji baxışlarda fikir ayrılığı var idi. S.C.Pişəvəri bu haqda zindan xatirələrində söhbət açır.

Zindana yeni gəlmiş məhbusların (53-lər) bir qismi oxumuş, savadlı cavanlar olsalar da, onların inqilabi təcrübəsi, siyasi şərait dəyişərkən özünü necə aparmaq vərdişi yox idi. Həm də onlar marksizm-leninizmi kitablardan öyrəndikləri üçün radikalizmə, şəraiti, zaman və məkanı nəzərə almadan birbaşa çevrilişə meyillənən tam kommunist məfkurəli insanlar idi. Cavanların bu cür tünd getməyə aludəçiliyi "Köhnə məhbusların" bir çoxunu, o cümlədən S.C.Pişəvərini onlardan narazı salmışdı. "53-lər"dən olan Bozorq Ələvi onlar haqqında yazdığı xatirələrdə "53-lər"i İran azadlığının mücahidləri və qəhrəmanları adlandıraraq

köhnə, peşəkar inqlabçıları kölgədə qoyur və bəzən onların əməllərini təftiş etməkdən belə çəkinməmişdi (95. s.24-40). Sonralar S.C.Pişəvəri bu məsələyə özünün münasibətini "Ajir"də çap etdirdiyi məqalədə belə bildirir: "53-lər" zindana düşənə qədər əslində kitab oxumaqdan, "Dünya" dərgisini çap etdirməkdən və tələbə nümayişlərini təşkil etməkdən başqa elə bir siyasi fəaliyyət göstərməmişlər... Onlar zindana gələrkən köhnə mübarizləri sust və hətta xain adlandırmaqdan çəkinmirdilər. Halbuki, "53-lər"ə nisbətən köhnə məhbuslar həm istintaqda, həm də zindanda özlərini daha mətin və ciddi aparmışlar" (212. 30 mehr 1323).

"53-lər"in imkanlı ailədən olan bir çoxuna gətirilən yeməkdən S.C.Pişəvəri və onunla həmfikir olanlar imtina etmişlər (174. s.42). Bu faktı "53-lər" sırasında olmuş mərhum alimimiz Tağı Sahilin də bizimlə söhbətində etiraf edirdi.

İdeoloji baxışda və taktiki məsələrdə S.C.Pişəvəri ilə Ardaşest Ovanesyan və Yusif İftixari arasında zindanda olan mübahisə və iftilaflar daha dərin olmuş və uzun müddət davam etmişdi. "53-lər" sırasında olmuş, sonra özünün zindan xatirələrini çap etdirmiş doktor Ənvər Xameyi* bu haqda yazır: "Köhnə" siyasi məhbuslar içərisində ən savadlısı və nəzəri cəhətdən qüvvətlisi Pişəvəri və Ovanesiyan idi... Ardaşest tünd gedən Kommunist idi. Leninçi-stalinçi və qatı Moskva tərəfdarı idi. Ondan fərqli olaraq Yusif İftixar kommunizmidən üz döndərən, Lenin və Stalini söyən və kommunistlikdə pozulduğunu etiraf edən dönük idi. Bunlardan fərqli olaraq S.C.Pişəvəri orta xəttdə dayanan, vətəninin nicatı üçün Moskvanın köməyindən faydalanmaq tərəfdarı idi" (174. s.173).

Yusif İftixarı və Ardaşeştlə S.C.Pişəvəri arasında ixtilafda mübarizədə taktika məsələsi önəmli yer tutan mübahisələrdən olmuşdur. "Bu ixtilaf "Komintern"dən başlayaraq İranlı kommunist tərəfdarları arasında mövcud olmuşdur... Yusif İftixar "Sovetləri sosial imperializm, sosializmi isə, dövlət kapitalizmi" adlandırmış və onları kapitalizmidən və qərb imperializmindən təhlükəli sayırdı... (Yenə orada, s.174, 179). Yusifdən fərqli olaraq Ardaşest şərtsiz Stalinçi idi. O, deyirdi ki, "Yusif İftixari trotiskiçidir". Həqiqətdə nə Ardaşest və nə də Yusif Stalindən və nə də Trotiskdən bir şey bilmirdilər. Onların nəzəri bilikləri Pişəvəridən çox aşağı idi... Onlar sadə, adi fəhlələr idi. Pişəvəri isə ziyalılar cərgəsində olan... təhsil görmüş adam idi" (Yenə orada, s.186). Ə.Xamei sözünə davam edərək yazır: "S.C.Pişəvəri həm Ovanesyandan, həm də Y.İftixaridən fərqli düşünən, savadlı, söhbətcil və stajlı adam idi... siyasi biliyinin səviyyəsinə görə onlardan tam fərqli və üstün idi... S.C.Pişəvəri "Ədalət" firqəsinin əsasını qoyanlardan idi. "Komentern"in ilk konqresində iştirak edən, Rəşt Kommunist hökümətində Daxili İşlər Komissarı olan, bir müddət İran Kommunist partiyasının

---

* Doktor Ənvər Xameyi Pişəvəriyə, onun siyasi mövqeyinə çox vaxt "53-lər" prizmasından yanaşanlardan olmuşdur.

katibi, “Hürriyyət” və “Həqiqət” qəzetlərinin əsasını qoyan... Nəriman Nərimanovla, S.Orconokidze və s. Kirovla, M.Bağırovla şəxsən dost və tanış olan bir adam idi” (Yenə orada, s.186). S.C.Pişəvəri ilə A.Ovanesyanın ixtilafları üzərində dayanan Ə.Xameneyi bunun mühüm səbəblərindən birini və başlıcasını S.C.Pişəvərini müstəqil düşüncəli olmasında görür. O, “nə sovetlərə və nə də Stalinə münasibətdə Ardoşesin və nə də Y.İftixarinin mövqeyində deyildi... Zahirdə sovetlər haqqında deyilənlərə qulaq asıb cavab verməsə də, içində fərqli mövqe var idi... Mən şəxsən bir il S.C.Pişəvəri ilə bir kamerada yatarkən onunla yaxın münasibətdə oldum. Onda nə qorxaqlıq və nə də mühafizəkarlığa şahid olmadım” (Yenə orada, s.186-187). Ə.Xamei xatirələrində göstərir: “...S.C.Pişəvəri zindanda mənə nəql edirdi ki, “Sovetlər 1921-ci ildə İranla bağlaşmadan sonra onların İran Kommunistlərinə köməyi kəsildi. Rza şahın diktatura rejimi “Həqiqət”i, Həmkarlar klublarını bağladıqdan sonra mən kömək almaq məqsədi ilə böyük zəhmətlə Moskvaya getdim. Orada hansı qapını döydümsə müşgüllə rastaşdım. Dövlət məqamları məni partiya orqanına müraciət etməyi, partiya orqanları “Komentern”ə, Komentern isə həmin təşkilatın “Yaxın Şərq” bölməsinə pas verirdilər... Son nəticədə Pişəvəri Komenternin Yaxın Şərq şöbəsinin məsulu Kitayqordski ilə görüşür... Pişəvəri bizə deyirdi ki, “bu adam bürokrat və hoqqabaz adam idi. O, öz vəzifəsini saxlamaqdan başqa bir şey düşünmürdü” (Yenə orada, s.189).

Ə.Xamei kitabında belə bir sual qoyur: Pişəvəri sovetlərə nə üçün vəfadar qalmışdı? O, bu fikirdə idi ki, İranda gələcəkdə nə əldə olunarsa bu ancaq sovetlərin dəstəyi sayəsində mümkün ola bilər. Sovetlər Stalin kimi bir diktatorun əlində olsa belə onu müdafiə etməkdən başqa çarə qalmadığını deyirdi. Pişəvəri dünyanı siyasi cəhətdən iki qütblü: ingilis imperializmi və sovetlər kimi görürdü. Bundan o tərəfə orta yol yoxdur deyirdi” (Yenə orada, s.190-191). Ənvər Xameinin, xatirələrindəki faktlara istinad etsək S.C.Pişəvəri ilə birlikdə 30-cu illərdə “Qəsr-Qacar” zindanında yatan siyasi məhbusları ideoloji xətt və dünya görüşlərinə görə aşağıdakı qruplara ayırmaq olar:

1. Sovetlərin, Stalinin qızğın tərəfdarı erməni Ardaşes Ovanesiyan dəstəsi;
2. Sovetləri və Stalini dönüklük və xəyanətdə ittiham edən Yusif İftixar dəstəsi;
3. İrandakı rejimi demokratik bir quruluşla əvəz etməkdə sovetlərdən başqa ayrı köməyi görməyən S.C.Pişəvəri dəstəsi;
4. İranda marksist-leninçi qüvvənin hakimiyyətə gəlməsinə çalışan “53-lər” dəstəsi (Bu dəstəyə isə böyük mütəfəkkir doktor Tağı Ərani başçılıq edirmiş).

Beləliklə, göründüyü kimi, S.C.Pişəvərinin “Qəsr-Qacar”da keçirdiyi günlər təkcə məhbəs əzabı ilə bitməmiş, həm də zindanda yatan, siyasi məslək üstündə suçlananlar arasında fikir ayrılığı, taktiki ixtilaflar və ideoloji mübahisələrlə əhatəli olmuşdur. Bu fərqli cəhətlər S.C.Pişəvəri azadlığa çıxdıqdan sonra da onun dünya görüşündə və fəaliyyətində özünü daha qabarıq göstərmişdi. O, ömrünün sonunadək çox vaxt düşüncələrini dilə gətirməkdənsə ürəyində saxlamağı üstün

tutmuşdu. Sovetlərə obyektiv münasibətdə o, belə hərəkət etməyə məcbur olmuşdur. Onu belə hərəkət etməyə zaman, məkan, tarixi şərait, ən başlıcası arxasız olması vadar etmişdi.

## ZİNDANIN SON GÜNLƏRİ

S.C.Pişəvəri 10 il "Qəsr-Qacar" zindanında siyasi məhbus kimi yatarkən onun istintaqı 1930-cu ilin yanvarından başlayıb 1940-cı ilin martın 3-dək davam etmişdi. O, dövlət əleyhinə olan və təbliğat aparan partiyaya üzv olmaqda, rejim əleyhinə məqalələr yazıb, cəmiyyəti pozmaqda müqəssir bilinsə də, 20-dən çox ona qarşı qurulmuş "Divan məhkəməsində" irəli sürülən heç bir ittihamı boynuna almamışdı (149. s.7-79).

Ölkənin təhlükəsizliyinə və istiqlaliyyəti əleyhinə fəaliyyətdə suçlanan və cinayət məcəlləsinin 1 və 5-ci maddələri ilə 10 il tamam həbsdə yatmış S.C.Pişəvərinin son istintaqı 1318-ci ilin İsfəndin 12-də (1940-cı il martın 4) olmuşdur (Yenə orada).

Son istintaqda dövlət ittihamçısı Əhməd Asim, Əmniyyət İdarəsindən Həsən Səmii, Polis İdarəsindən Məhəmmədəli Aştiyani, "vəkil" Hüseyin Şəhidi iştirak etmişlər. Əvvəl müttəhimə özü haqqında danışmağı əmr edirlər (kimdir, nəçidir, harda doğulub, ailə tərkibi, savad dərəcəsi, keçdiyi həyat yolu və həbsə alınması və s.). Son sözündə S.C.Pişəvəri üzünü onu istintaqa çəkənlərə tutaraq deyir:

"Heç bir dəlil-sübut olmadan mən günahsızı 10 ildir həbsdə saxlayırlar. Gördüyünüz kimi mən bu müddətdə bu günə düşmüşəm... cavanlığımı əldən verdim!.. Özümü müdafiə etmək niyyətim yoxdur. Fəqət ədalətli hökm çıxarmağınızı istəyirəm" (Yenə orada, s.78). Sonra yenə vərəqədəki əvvəlki faktlar sadalanır:

Adı: Mir Cəfər

Famili: Pişəvəri

Atasının adı: Mir Cavad

Doğulduğu il 1313 (hicri) və yer - Xalxal. Hazırda 47 yaşı var. Mənzilinin sahibi ağaye Möid Əlməmalik

Yaşadığın son adres: Tehran, Bəxş Həsənabad, Çahar rah Vüzarət Cəng, İntixabiyyə küçəsi (nömrəsi yoxdur)

Ailəsi: həyat yoldaşı Məsumə Rəhmani, oğlu Darıyuş

Həbsə alındığı tarix: 6 dey 1309-cu il (yanvar 1930)

Həbsə alınması səbəbi: kommunistlik, rejim əleyhinə təbliğat, İran əleyhinə xaricilərlə birgə fəaliyyət, anti rejim yazılar, rejim əleyhdarları ilə həmkarlığı...

Həbs müddətinin vaxtı qurtarmasına baxmayaraq istintaqın vaxtı yenidən uzadılır. Növbəti son istintaq 1 ördbeheşt 1319-cu ildə (aprel 1940) yenidən davam etdirilir.

Bu istintaqda verilmiş həbsin müddəti qurtardığına görə S.C.Pişəvəri 2 ördbeşt 1319-cu ildə (1940-cı il 23 iyun) həbsdən azad edilib, 3 il müddətinə Kaşana sürgün edilir.

S.C.Pişəvərinin istintaqlar zamanı suallara verdiyi cavablar diqqəti çəkir. Məsələn 14 isfənd 1309-cu il (mart 1940) istintaq materiallarına nəzər salaq.

Sual: Siz Kommunist əqidəsində varsmızmı?

Cavab: əvvəlcə də demişəm ki, xeyir, daha mən bu əqidə də deyiləm.

Sual: Səbəbi nədir?

Cavab: Əvvəllər kommunistiər və onların əqidəsi haqda mən yetərincə məlumata malik deyildim. Bu haqda 7-8 il mütaliə etdim və mənə sübut oldu ki, bu əqidənin İranda ayaq tutması çox tezdir. Kommunistlər fəhlə sinfinə arxalanırlar, onların dayağı bu sinifdir, bu sinif isə İranda yox dərəcəsindədir. Təsəvvür etmirəm ki, heç 100 il bundan sonra da fəhlələr bir sinif kimi ortaya çıxsın və millətimizin əksəriyyətini təşkil edə bilsin.

Daha sonra, mən Bakıda olarkən Kommunist rəhbərlərin çoxu Arazın bu tayından gələnlərə yaxşı münasibət bəsləmədiklərini, bizə inanmadıqlarını gördüm. Mühüm işlərdən və vəzifələrdən bizi kənar saxlayırdılar. Yeri gələndə təhqirdən belə çəkinmədikərinin şahidi oldum. Bu yanaşma onların əvvəl dediklərinə zidd hərəkətlər idi. Bu, məni tədricən onlardan uzaqlaşdırdı.

Qacarların devrilməsi məni nikbin etmişdi, lakin sonra...

Ailəmin vətənə qayıtmaq istəyi məni əvvəlki fəaliyyətdən və onlardan ayırdı... (Yenə orada, s.32-33). Mən 1924-cü ildən sonra (Moskvada Sovet rəhbərliyinin ona göstərdiyi soyuq münasibətdən sonra - Ə.R) heç bir siyasi təşkilatda iştirak etməmişəm. İştirakıma aid heç bir dəlil və sübut da ola bilməz (Yenə orada, s.12).

S.C.Pişəvərinin 1940-cı il aprelin 22-dəki son (1 örd behişt 1319) məhkəmədə həbsdən azad edilsə də yenidən Kaşan şəhərinə sürgün olunur. S.C.Pişəvərinin Kaşana sürgün olunması ilə bağlı doktor Salamulla Cavid xatirələrində yazır:”.. .S.C.Pişəvəri, Məmi Nünəkərani (Dehqan) və mənim tanıdığım başqa yoldaşlarım uzun müddətli həbsdən sonra Kaşana sürgün edilmişlər. Onları sağ-salamat görməyimə çox sevindim.* Bizi burada da izləyirdilər (185a. s.52).

Mərkəzdən göstəriş alan Kaşan polisi və Əmniyyət idarəsi S.C.Pişəvəriyə və onunla həmfikir olanlara burada da rahatlıq vermirdi. Onları vaxtaşırı idarəyə çağırtdırır, sorğu-suallara tutur və şübhələndiklərini bildirirdilər. Kaşandakı sürgün həyatı haqda S.C.Pişəvəri sonralar yazırdı: “... 1319-cu ildə 10 illik həbsdən sonra

* S.Cavid onlardan əvvəl bura sürgün edilmişdi. Pişəvəri ilə birlikdə Dadaş Tağızadə, Mir Əyyub Şəkiba, Məhəmməd Nünəkərani (Dehqan), Əbülqasim Musəvi, Əbülqasim İsgəndəri, sonrakı illərdə isə Tağı Şahin və başqaları zindanda Pişəvəri ilə birgə yatmışlar.

Kaşana sürgün edildim. Bu sürgün mənə həbsxanadan da pis oldu. Lakin ruhdan düşüb məyus olmurdum. Bir xaraba həyəti olan evdə gün keçirirdim. Kimsə ilə söhbəti belə mənə qadağan etmişlər. Sürgün olmuş yoldaşımın 10 yaşlı qız uşağı ilə belə salamlaşmağa, danışmağa icazə vermirdilər. 22 nəfər sürgündəki yoldaşlarımla birgə məni yenidən həbs etdilər. Yalnız Şəhrivər hadisəsindən (müttəfiq qoşunlarının İrana daxil olmasından) sonra azad olub Tehrana yollandım" (212. 15 mordad, 1322).

## YENİDƏN MÜBARİZƏ MEYDANINDA

S.C.Pişəvəri Tehrana 1941-ci il sentyabrın 14-də gəlib və ailəsinə qovuşdu. Dərzilik etməklə yeganə övladını saxlayan Məsumə xanımın gəliri ailəni maddi cəhətdən yetərincə təmin edə bilmədiyindən S.C.Pişəvəri Tehrana gələn gündən iş axtarmalı oldu. Yaxın yoldaşları maddi cəhətdən ona köməklik göstərsələr də, ailəni dolandırmağa və hər hansı ictimai fəaliyyəti üçün bu, yetərincə deyildi. Zindan və sürgündən azad olmuş S.C.Pişəvəriyə ilk işi təklif edən, keçmişdə Gilandan tanıdığı Əhməd Əsədi adlı bir şəxs olmuşdur. O, S.C.Pişəvərini Tehranın Firdovsi xiyabanındakı şirkətində işə qəbul etmişdi (95. s.79).

Mayası azadlıq və demokratiya yolunda mübarizə ilə yoğrulmuş S.C.Pişəvəri zindan həyatından sonra Tehrandakı siyasi mühitə tez alışdı. O vaxt ölkədəki diktatura üsul-idarəsinə qarşı çıxan bir dəstə ziyalının iştirakı ilə siyasi bir partiyanın - İran Xalq partiyasının (Hizb Tude İran) ilk özəyini yaratmağa təşəbbüs edildi. S.C.Pişəvəri bu təşəbbüsə qoşulanlardan olmuşdu. Bir çox mənbələrin yazdıqlarından və hadisələrin iştirakçısı və ya şahidi olanların xatirələrindən bəlli olur ki, İXP-nın ilk özəyi böyük azadlıq mücahidi və rəhbəri Süleyman Mirzə İsgəndərinin evində təşkil edilmiş toplantıda qoyulmuşdur. S.C.Pişəvəri bu haqda yazır: "Zindandan azad olduqdan sonra Süleyman

Mirzənin evində onun tərəfindən qəbul edildik" (212. 15 mordad, 1322).

Süleyman Mirzənin evindəki toplantıda S.C.Pişəvəridən başqa İyrəc İskəndəri, Rza Rusta, Əbdülqədir Azad da iştirak etmişlər (95. s.25). Başqa bir mənbədə qeyd olunur ki, "S.C.Pişəvəri zindandan azad olduğu ilkgünlərdə İXP yaradılmasından öncə tarixə çevrilmiş keçmiş Demokrat partiyasını yenidən ehya (bərpa) etmək fikrində olmuşdur" (143. s.260).

Süleyman Mirzənin evindəki toplantıda İXP ilk özəyinin yarandığı haqda qərar qəbul olunur. Özəyin ilk müvəqqəti məramnaməsinin hazırlanması və yazılması İyrəc İskəndəri ilə S.C.Pişəvəriyə tapşırıhr. Müvəqqəti məramnamədə diktatura ilə mübarizə, ölkənin istiqlaliyyətinin qorunması, demokratik azadlıqlar, sülh və s. məsələlərə xüsusi yer verilir (172a. 1378, № 2,s.261-262).

1941-ci ilin sentyabrın sonunda yaradılmış İXP-nin özək təşkilatına sonrakı aylarda xeyli adam daxil olduğun dan özək təşkilatı müstəqil partiyaya - İXP-na çevrilmişdi. Partiya rəhbərliyinə gəlmiş adamların bir çoxunun siyasi baxışlarında, taktiki məsələlərdə, xüsusən partiyanın sinfi tərkibi və mübarizənin istiqaməti və s. məsələlərdə S.C.Pişəvəri ilə bəzi rəhbər iddiasında olanlar arasında prinsipial və fərqli cəhətlər meydana çıxır. Məhz buna görə də 1942-ci ilin oktyabrında(1321-ci il Mehrin 17-də)İXP-nin çağrılmış ilk konrfansında partiyanın MK-sinə seçilən 15 nəfər içərisində S.C.Pişəvərinin adına rast gəlmirik. Bu faktı Ənvər Xameidə xatirələrində və başqa mənbələrdə təsdiq edir.

Belə qənaətə gəlməyə əsas vardır ki, İXP-nin təsis toplantısında və məramnamənin hazırlanmasında iştirak edən S.C.Pişəvəri İXP MK üzvü olmamışdı. O, hələ zindandan fikir və düşüncələrinə yaxşı bələd olduğu Ardaşes Ovane-syan, Xəlil Məliki, Yusif İftixar və başqa bu kimi dönüklərlə bir sırada olmaq istəməmişdi. S.C.Pişəvərinin İXP rəhbər özəyindən uzaqlaşmasının başqa səbəbləri də var: İXP özünü kommunist məramlı partiya hesab etmiş, sinifi mübarizəni qəbul edərək mübarizədə hərəkətverici qüvvə kimi ancaq fəhlə sinifinə söykənmiş və məramnaməsini bu əsasda tərtibləmişdi. Aqrar və çox millətli ölkə olan İranda aqrar-kəndli və milli məsələ partiyanın məramnaməsinə yetərincə daxil edilməmişdi. İran cəmiyyətini və yerli şəraiti (həm də keçmişin acı təcrübəsini), nəzərə alan S.C.Pişəvəri “kommunist” adından çəkinmiş sinifi mübarizədən uzaq, İranın çox millətli ölkə olduğunu qəbul edən partiyanın yaradılmasına ehtiyac duymuşdur. Əslində bu fikir onda zindana düşmək ərəfəsində (1928-1930) formalaşmışdı. Bunu onun istintaq materiallarından və sonrakı illərdə çap etdirdiyi yazılarından da sezmək mümkündür.

S.C.Pişəvəri İXP məramnaməsində və əməli fəaliyyətində demokratik azadlıqlar, diktaturaya qarşı mübarizə ilə yanaşı, milli zülmün və milli bərabərsizliyin və şovinizmin mövcudluğunun etirafını, qeyri-fars xalqlara muxtariyyatın verilməsi və s. bu kimi, aktual və ədalətli prinsipləri görmək istəyirdi. İXP-nin xətt-hərəkətindəki çatışmayan cəhətlər və yanhşhqlar bir sıra başqa demokratlar kimi S.C.Pişəvərini də ondan uzaqlaşmağa vadar etmişdir. İXP-nin MK-nın üzvü olmuş və sonra onlardan uzaqlaşmış Firudin Kəşavərz öz kitabında bu məsələlərə toxunmuşdur.

İXP rəhbərliyindəki radikal “solçu”larla onun “suyunun bir arxda gedə bilməyəcəyini” etiraf edən S.C.Pişəvəri İXP-nın rəhbər özəyindən birdəfəlik uzaqlaşır. O, İrandakı siyasi, iqtisadi və yerli mənəvi mühiti düz anlaya bilən başqa bir siyasi təşkilat yaratmaq haqda düşünür. O, əvvəl keçmişdəki İran Sosial-demokrat partiyasını “Demokrat Firqəsi” adı altında yeni məzmunda dirçəltmək istəyirsə, sonra bu fikirdən daşınmalı olur (143. s.260). Lakin biz S.C.Pişəvərinin heç bir yazısında və söhbətlərində belə fikirlə rastlaşmadıq.

Zindandan azad olub Tehrana gələn gündən S.C.Pişəvəri kütləni oyatmaq, onu mübarizəyə cəlb etməkdən ötrü demokratik ruhlu mətbuata böyük ehtiyac

olduğunu anlamışdı. Mətbuat sahəsində yetərincə təcrübəyə, iti qələmə, zəngin bilik və təfəkkürə malik olan S.C.Pişəvəri siyasi kəsəri, ifşaedici qüdrəti olan yeni bir qəzetin nəşrinə başlamaq qərarına gəlir. Bu işdə onunla həmməslək insanların maddi və mənəvi köməklikləri olmuşdur.*

## "AJİR" OYANIŞ VƏ MÜBARİZƏ ÇAĞRIŞÇISI İDİ

XX əsrin 40-cı illərində İranda şahlıq üsul-idarəsinə, istibdada qarşı azadlıq mücadiləsində S.C.Pişəvərinin "Ajir" (Həyəcan, haray, səs) qəzetinin xüsusi rolu və yeri vardır. Ömrü çox da uzun olmayan bu qəzet öz səhifələrindəki yazılarda mövcud rejimin xalqa etdiyi zülm və zorakılığı, cəmiyyətdəki eybəcərlikləri, azadlığın və insan haqlarının boğulduğunu ifşa etməklə önəmli rol oynamışdır. Buna görə də "Ajir" çap olunduğu gündən dövlətin ilk hədəfində olmuş mətbuat orqanı idi.

"Ajir" S.C.Pişəvərinin zindandan çıxdıqdan sonra çalışdığı şirkətdən aldığı əmək haqqının bir hissəsini toplamaq, köhnə borcluların qaytardıqları borc və Məsumə xanımın dərzilikdən əldə etdiyi puldan yığımın hesabına, eləcə də dostların və xeyirxah insanların maddi yardımı ilə nəşrə başlamışdı (129.S.478-480).

Ümumiyyətlə, S.C.Pişəvərinin siyasi fəaliyyətini mətbuatdan kənar təsəvvür etmək çətindir. Cəmiyyəti istiqamətləndirməkdə və onu başlıca hədəfə yönəltməkdə mətbuatın rolunu S.C.Pişəvəri hələ gənc yaşlarından anlamışdır. Zindana düşənədək (dekabr 1929) o, bir çox qəzetlərin – "Açıq söz", "Azərbaycan cüze layənfək İran", "sosyal-demokrat" "Hürriyyət", "Yeni fikir", "Kəndçi", "Cəngəl", "Həqiqət", "Yeni yol" və s. qəzetlərin əməkdaşı və çoxunun da baş redaktoru olmuşdur. Mətbuat S.C.Pişəvərinin mübarizəsində ömrünün sonunadək onun söz silahı, qələm silahı olmuşdur. S.C.Pişəvərinin keçdiyi mübarizə yolunu və həyatını izləyən hər bir kəs onun mətbuata sıx bağlılığını görə bilər. Bu mənada mətbuat, o cümlədən "Ajir" qəzeti S.C.Pişəvəri həyatının və mübarizəsinin bir parçası olmuşdur desək, yanılmarıq.

"Ajir" adlı müstəqil qəzetin nəşrinə icazə almaq haqda S.C.Pişəvəri 1322-ci il Fərvərdinin 16-da (1943-cü il aprelin 7-də) mətbuat üzrə dövlət komissiyasına ərizə ilə müraciət edir. Dövlət komissiyası müəyyən qeyd-şərtlərlə qəzetin nəşrinə icazə verir. Qəzetin nəşri üçün S.C.Pişəvəri Tehranın Laləzar xiyabanında "Passaj Bahar" adlanan və doktor Ərsəncabı adlı şəxsə məxsus binada iki otağı kirayə edir.

* Bu haqda S.C.Pişəvəri "Ajir"də çap etdiyi "Sərquzəşt qüzəraneye mən" məqaləsində ətraflı məlumat verilir.

“Ajir”in ilk nömrəsi 2 xordad 1322-ci ildə (23 may 1943-cü il) çapdan çıxır (212. 2 III 1922). Qəzetin təsisçisi və baş redaktoru S.C.Pişəvəri olsa da Kərim Kəşavərz (Rəşti) onun yaxın köməkçisi olur. Firudin İbrahimi (sonra Milli hökumətdə baş prokuror) və iki nəfər ali məktəb tələbəsi nəşriyyat işində köməkçi olurlar. “Ajir” (bir neçə məqalə nəzərə alınmazsa) fars dilində çap edilmişdi*. Qəzet bir neçə ay hər gün, sonralar maddi vəziyyət və çap kağızı çətinliyi ilə əlaqədar həftədə 3 dəfə çap edilmişdir. “Ajir”in elə bir nömrəsi yoxdur ki, orada S.C.Pişəvərinin məqaləsi olmasın. Baş məqalələr və gün üçün aktual mövzuda olan yazıların demək olar ki, hamısı S.C.Pişəvəri qələminin məhsullarıdır. 1943-cü ilin mayından (dövlətin məcburi qadağaları nəzərə alınmasa) 1945-ci ilin fevralınadək çap olmuş “Ajir”də S.C.Pişəvərinin yüzlərlə siyasi, elmi, pedaqoji və s. mövzularda yazdığı məqalələrlə yanaşı onun “Ədalət firqəsinin tarixi”, “Zindan dəftərindən xatirələr”, çoxlu felyeton, hekayə, şeir, ədəbi-bədii və s. yazıları az müddətdə geniş oxucu dairəsini “Ajir”ə cəlb edə bilmişdi. “Ajir” Tehranda və əyalət şəhərlərində çox oxunan qəzet olmuşdur.

“Ajir”in nəşrində S.C.Pişəvəri ilə çiyin-çiyinə işləyən Kərim Kəşavərz sonralar çap etdirdiyi xatirələrdə S.C.Pişəvərini qəzet işinin mahir ustası, zəhmətkeş, zehinli, ədalətli və qayğıkeş bir insan kimi xarakterizə etmişdi. “... Ajir”dəki məqalələrin çoxu ağaye S.C.Pişəvəriyə və bir qismi də mənə məxsus idi. “Dad” qəzetində çalışan iki cavan tələbə də qəzetin korrekturasında bizə təmənnasız kömək edirdilər. Mən və Pişəvəri gecə yarayadək mətbəədə olardıq, qəzetin vaxtında, səhvsiz və təhrifsiz çıxmasına çalışardıq” (172a. 1378, № 2, s.274-275).

K.Kəşavərz “Ajir”dəki baş məqalələrin istisnasız olaraq S.C.Pişəvəriyə məxsus olduğunu etiraf edir. “...0, çox zehinli, çox düzgün və çox insaflı adam idi... müxtəlif mövzularda yazmaqda çox istedad sahibi idi”. Jurnalistik sahəsində müəyyən təcrübəyə malik olsam da mən “Ajir”də məqalə yazmaqda, xəbərləri tənzimləməkdə və s.-də ondan çox şey öyrəndim” (Yenə orada).

“Ajir”in oxucular içərisində şöhrətləndiyini və onun oxuyanlarının gün-bəgün artdığını görən dövlət məmurları və “senzura” müxtəlif vasitələr və bəhanələrlə (qəzetdən “şikayətlər” təşkil etmək, kağız və mətbəə ləvazimatı verilməsinə əngəl törətmək və s.) qəzetin vaxtında çıxmasına mane olurdular.

“Ajir” “solçuluq” və radikallıqdan uzaqda dayanan, həqiqətə söykənən, ifşaedici məqalələrində sübut və faktlara əsaslanan qəzet olmuşdur. Buna görə “Ajir” çox vaxt təkcə düşmənlər tərəfdən deyil, “dostlar” tərəfdən də (İXP) yersiz hücumlara məruz qalırdı. Bunu S.C.Pişəvəri öz yazılarında dönə-dönə etiraf etmişdir.

---

* Qəzetin bir çox nömrələri İranın Milli kitabxanası fondunda və bacısı Suğra xanımın saxlancığında vardır.

S.C.Pişəvəri ilə “Ajir”də həmkarlıq etmiş K.Kəşavərz yazırdı: “S.C.Pişəvərini yaxından tanıyanlar və onunla birgə çalışanlar etiraf edərlər ki, bu rəhmətlik tünd hərəkəti, radikallığı, yekəxanalığı, özündən deməyi sevməyən adam idi”. Onun nəşr etdiyi “Ajir” də bu cəhətdən başqa qəzetlərdən fərqli idi. O öz səhifəsində mötədil, həqiqətdən danışan, nə “sağa”, nə “sola” təmayül göstərməyən qəzet idi. O iş görmək, hədəfə doğru irəliləmək tərəfdarı idi. Buna görə bəziləri “Ajir”i «nağıl zəka” qəzeti hesab etməkdən çəkinmirdilər” (Yenə orada, s.276).

S.C.Pişəvəri qəzetin nəşrinin bir illiyi münasibətilə yazdığı məqalədə qeyd edir ki, “Biz imkan daxilində oxucuya çox şeyi anlatmaq istəyirdik. Ehtiyacımız çox idi... Bizimlə müxalifət edirdilər... Bizim kiçik kollektivimizə böyük eyiblər tutmağa çaplışırdılar. Biz isə müstəqil olmağa çalışırdıq... Çox əlləşirdik. Sınıq masa üzərində yazıb-pozurduq, ağ səhifədə çox söz deyib oxucunu mətləbdən ətraflı halı etməkdən ötrü xırda hürufatlardan istifadə edirdik” (212. 4 IV 1323).

“Ajir”in baş redaktoru olan Pişəvəri öz oxucuları və onu tamyanlar arasında sadə, səmimi, insanlarla tez ünsiyyətə girməyi və qarşı tərəfin diqqətini cəlb etməyi bacaran adam olmuşdur”[*]. K.Kəşavərzin “S.C.Pişəvəri haqqında xatirələrim” başlıqlı yazısında oxuyuruq: “O, illərlə mübarizə aparmış, zindanlarda yatmışdır. Ehtiyac və yoxsulluq içərisində yaşamışdı. Ömrünün sonuna qədər onun heç nəyi (var-dövlət, sərvət nəzərdə tutulur Ə.R) olmamışdı. Tehranda Vəliəsr meydanının cənubi-şərqindək kiçik evi xanımı Pişəvəri zindanda olarkən onun xanımı dərzilikdən topladığı pula almışdır” (172a s.275).

S.C.Pişəvəri “Ajir”də fəaliyyət göstərdiyi dövrdə ölkədəki demokratik azadlıqlar tələb edən digər qəzetlərin vahid cəbhəsini yaratmaq məsələsi ortaya gəldi. Bu iş böyük zəhmət və cəsarət tələb edirdi. S.C.Pişəvəri ilə həmfikir naşirlərin səyi nəticəsində 1322-ci ilin Mordad ayında (1943-cü il iyul) belə adlanan “Azadlıq cəbhəsi” (“Cəbheye azadi”) adlı mətbuat birliyi yaradıldı (177a. s.49-50). “Azadlıq cəbhəsi” ilk mərhələdə “Ajir”lə birlikdə 15 qəzet və dərgini əhatə etsə də sonralar onların sayı 40-a çatmışdı. Bundan əlavə “Azadlıq cəbhəsi”nin əyalət mərkəzlərində və şəhərlərdə şöbələri fəaliyyət göstərməyə başlamışdır. “Azadlıq cəbhəsi” faşizmə qarşı çıxış etdiyindən dövlət orqanları müttəfiqlərdən (SSRİ, ABŞ və İngiltərə) çəkinərək onun fəaliyyətinə mane ola bilməmişdi. “Cəbhə” isə irticaya qarşı mübarizədə öz işini görürdü.

S.C.Pişəvəri “Azadlıq cəbhəsi”nin Azərbaycanda özəklərini yaratmaq məqsədi ilə Azərbaycana gəlmiş, Təbriz, Xoy, Urmiya, Ərdəbil və s. Azərbaycan məntəqəsindəki rayon və kəndləri gəzmiş, xalqla söhbətlər aparmışdı. Buradakı siyasi-iqtisadi durumla yaxından tanış olmuş, xalqın ruhiyyəsini, istək və

[*] Bu sözləri S.C.Pişəvərini yaxşı tanıyan İsmayıl Şəms öz xatirələrində yazır (Bu haqda bax: Kitabın sonunda İ.Şəmsin xatirələrinə).

tələblərini öyrənmişdi (Yenə orada). S.C.Pişəvəri xalq hərəkatının sonrakı mərhələsi üçün bu səfərin əhəmiyyətindən danışarkən yazmışdı: "...Azərbaycanda böyük konfranslar verdikdən sonra cəbhənin heyətini intixab etməklə (seçməklə), Azərbaycanın siyasət adamları ilə yaxından tanış və dost olmuşdum. Ona görə Firqəmizin təşkilinə başladığımız vaxt "Cəbheye Azadi" təşkilatı bizə hazır və amadə (tam hazır) bir vəsilə olub, hər yerdə firqənin şöbəsini onların vasitəsi ilə qurmağa müvəffəq ola bildik" (Yenə orada). Pişəvərinin bu yazısından anlamaq olur ki, o, Azərbaycanda xalqın istək və arzusunu həyata keçirməyə çalışan milli bir firqənin yaradılması üçün bünövrəçi qüvvələri hələ o zamandan müəyyənləşdirməyə çalışırmış. Bu məsələyə biz doktor Salamullanın xatirələrində də rast gəlirik. D.S.Cavid yazır ki, "O, həm zindanda, həm də sonralar deyirdi ki, "Azərbaycanın öz dərdləri var, ona ancaq millət özü əlac etməlidir... Ümumiyyətlə, onu deyə bilərəm ki, biz Azərbaycana dönənə qədər (1945-ci il nəzərdə tutulur - Ə.R) burada görəcəyimiz işlərin bərnaməsi (proqramı), siyasi hərəkət xətti rəhmətlik Pişəvəri tərəfindən ətrarlı və ağlabatan səviyyədə müəyyənləşdirilmişdi" (185a. s.54).

Beləliklə həm "Ajir"də, həm də "Azadlıq Cəbhəsi"ndə S.C.Pişəvərinin fəaliyyətində Azərbaycana qayıdış və burada xalqın mübarizəsini düz istiqamətə döndərmək məsələsi onu həmişə düşündürən və narahat edən məsələlərdən olmuşdur.

1322-ci ilin Mordad ayında (1943-cü il iyul) S.C.Pişəvərinin təşəbbüsü ilə "Azadlıq Cəbhəsi"nə daxil olan redaktorların birgə toplantısı keçirilmişdi. Toplantı iştirakçılarının qəbul etdikləri qətnamədə ölkədə diktatorluq rejiminin aradan qaldırılması, demokratiya prinsiplərinin bərpası, azad mətbuata qarşı polis basqınlarına və qadağalara son qoyulması, qarşıda gələn 14-cü çağırış Şura Məclisinə seçkilərin demokratik əsaslarda, azad, maneəsiz keçirilməsi, dövlət idarələrinin rüşvətxor məmurlardan təmizlənməsi və s. tələb olunurdu. Bu tələblər hökumətə təqdim olunmaqla yanaşı "Azadlıq Cəbhəsi"nə daxil olan bütün qəzetlərdə çap edilmişdi. Bu sənəd o zaman milli oyanışda, antirejim cəbhəsinə daxil olan qüvvələrin uğurlu addımı hesab olunurdu.

"Azadlıq Cəbhəsi"nin fəallaşması və onun şüarlarının geniş xalq kütləsi tərəfindən hərarətlə qarşılanması Tehran rejimini qorxutdu və onu cəbhə daxilində pozucu tədbirlərə əl atmağa sövq etdi. Cəbhəyə daxil olan qəzetlər İrandakı müttəfiq qoşunlarına və bu dövlətlərə münasibətdə parçalandılar. Bu parçalanma və fikir ayrılığı 1323-cü ilin sonunda (1945) dövlət orqanlarının təzyiqinə tab gətirməyib "Baxtər" qəzeti redaksiyasında təşkil edilmiş müşavirədə üzə çıxdı. "Xurşid", "Baxtər", "İran", "Mühit", "Təcədöd", "Sədaye İran", "Dəmavənd" və s. "Azadlıq Cəbhəsi"ndən çıxdıqlarını bildirdilər. Buna baxmayaraq "Azadlıq Cəbhəsi"nin 40-cı illərin əvvəllərində göstərdiyi fəaliyyət milləti oyatmaq və mövcud rejimi laxlatmaq baxımından çox önəmi olmuşdur. "Ajir" Məhəmmədrza şahın hakimiyyətdə olduğu və irticanın azadlıq istəyən qüvvələrə qarşı ardıcıl

basqınlar etdiyi zamanda belə Rza şah diktaturasının İran üçün gətirdiyi zülm, əzab və özbaşınalıqlarından yazmaqdan çəkinməmişdi. S.C.Pişəvərinin imzası ilə "Ajir"də çap olunmuş "Biz və keçmiş şah" məqaləsində oxuyuruq: "Biz ilə keçmiş şah arasında münasibətin müəyyən sabiqəsi (stajı) vardır. Bu, keçmiş şahın ilk irticai addımdan başlamışdı... Əlbəttə biz ürəyimizdə həmişə keçmiş şaha nisbət xüsusi kin və şiddətli düşmənçilik hiss edirdik. Həmin nöqteyi-nəzəri bu günədək belə dəyişməmişik. Nə qədər ki, Rza xan ölməmişdi biz ondan intiqam almaq istəyirdik. Lakin burada düçar olduğumuz əzab-əziyyət və məhrumiyyətlərin intiqamı deyil, bəlkə milli bir intiqamın alınması nəzərdə tutulurdu" (135. s.204-205).

S.C.Pişəvərinin "Ajir"də çap edilmiş məqalə, xatirə, felyeton və müsahəbələrinin külliyyatına nəzər yetirdikdə bəlli olur ki, o, diktaturaya qarşı, azadlıq və demokratiya istək və tələbi ilə çıxış etməklə bərabər, öz hüquqlarını yaxşı dərk etməyən milləti qəflət yuxusundan oyadıb, onu mübarizə meydanına çəkməyə çalışmışdı. "İyirmi il (Rza xan hakimiyyəti nəzərdə tutulur - Ə.R) ərzində onu tapdalayıb taqətdən salmışdılar. Onun danışmağa, öz varlığını göstərməyə belə qüdrəti yox idi. Buna görə də diktatorluq üzərindən pərdə götürüldükdə o nə edəcəyini, haradan işə başlayacağını, öz qanunu hüquqlarından hansını daha tez tələb edəcəyini bilmirdi" (212. 2 III 1322).

"Ajir" qəzeti Tehranda nəşr olunsa da, onun Azərbaycanla sıx əlaqələri var idi, "Ajir"in elə bir nömrəsi olmamışdır ki, orada Azərbaycandan, onun ayrı-ayrı bölgələrindəki olaylardan xəbər dərc olunmamış olsun. Bu məlumat və xəbərlər "Ajir"in ünvanına gələn məktublarla yanaşı, Azərbaycandan Tehrana gələnlərin şahidi fədailərində yerli polis, jandarma və məmur özbaşınalıqları, ərbab-rəiyyət münasibətlərindəki haqsızlıqlar canlı deyimlər əsasında "Ajir"in səhifələrində öz əksini tapırdı.

Qeyd etmək lazımdır ki, "Ajir" qəzeti müxtəlif yönlü siyasi, iqtisad və mədəni olayları əks etdirən, təbliğat və təşviqat orqanından əlavə, həm də xalqın mübarizəsinə istiqamət verən, onu təşkilatlandıran bir mətbuat orqanı olmuşdur. "Ajir"in gördüyü mühüm işlərdən biri də Tehranda azərbaycanlı ziyalıları və fəalları öz ətrafına toplamaqdan və onları Azərbaycanın gələcək taleyi haqqında düşünüb, yollar axtarmaqdan ibarət olmuşdur. Kərim Kəşavərz, İsmayıl Şəms, Firudin İbrahimi Əli Fitrət, Məmi Nüvəkəranı (Dehqan), Doktor Mirzəağa Vəlizadə (Behbud) və s. onlarca bu cür insanlar doktor Salamulla Cavidin dediyi kimi "Ajir" məktəbinin yetirmələri olmuşlar. Bunların hər biri "21 Azər" hərəkatında fəal iştirak etmiş və S.C.Pişəvərinin yaxın silahdaşları olmuşlar.

Doktor Salamulla Cavid yazır: "Ağaye Pişəvəri Azərbaycana həmişəlik siyasi işə getdiyindən "Ajir"i idarə etməyi dostlarına tapşırdı". Azərbaycandakı hadisələri müntəzəm işıqlandırmaqda "Ajir"in tayı-bərabəri yox idi. "Ajir"dəki son görüşdə firqənin adı, məram və məqsədi, hədəfi, hansı qüvvələrə istinad edəcəyi,

siyasəti, bir sözlə hər şey müzakirə edildi. Az sonra ağaye Pişəvəri bir neçə yoldaşla Azərbaycana yollandı" (185a. s.62).

"...Bu azərbaycanlı rahat oturan adama bənzəmir. Bunu buradan (məclisdən) uzaqlaşdırmaq lazımdır"

*S.C.Pişəvəri*

## S.C.PİŞƏVƏRİNİN DEPUTAT MANDATI NİYƏ LƏĞV OLUNDU?

Pəhləvi sülaləsinin hakimiyyətdə olduğu illərdə (1925-1979) İran Şura Məclisi tarixində 14-cü çağırış məclisə seçki kompaniyası qədər gərgin, qarşıdurmalı, çox fraksiyalı məclis olmamışdı. Bu, hər şeydən əvvəl zaman, durumdakı vəziyyət və siyasi qüvvələr arasında qarşıdurma imkanlarının mövcudluğu ilə bağlı olmuşdur.

İran Şura Məclisinə 14-cü çağırış Əli Söheyli və Məhəmməd Said Marağeyinin hökumətlərinin hakimiyyətdə olduğu illərə (fevral-aprel 1942; mart-noyabr 1944) təsadüf edir. 14-cü Məclisə seçki kompaniyası 1322-ci il Xordad ayının son həftəsində (1943-cü ilin iyununda) start götürmüş, 1323-cü ilin (1944-cü ilin) yayında başa çatmışdı (165. s.14). Məclisdə mövcud olmuş 136 deputat kürsüsü uğrunda 800 namizəd iştirak etmişdir ki, bunlar da ən azı 6-7 fraksiyanı təmsil edirdilər (98. s.187-192).

Fraksiyalar öz məzmun və siyasi əqidələrinə görə biri-birindən fərqli idilər və hər biri öz məqsədlərinə və siyasi hədəflərinə görə İrandakı müttəfiq dövlətlərin qüvvələrinə arxalanırdıl ar. Məsələn, Seyid Ziyanın başçılıq etdiyi belə adlanan "Mihən pərəstan" (vətəni sevərlər) fraksiyası ingilislərə, "Səltənət tələban" (şahpərəstlər) mövcud rejimə, doktor Müssədiqin başçılıq etdiyi "Fraksion Milli" (Milli fraksion) milli burjuaziya və müstəqil mövqeli ziyalılara, İXP-sı İHT, "Azadlıq cəbhəsi", "Zid faşist" təşkilata və s. "sol" təmayüllü qüvvələr sovetlərə söykənirdilər. Başqa sözlə desək, hər fraksiya öz hədəf və məqsədinə görə özünə dəstək tapmaq zorunda olmuşdur.

Antirejim qüvvələrin səy və istəyinə baxmayaraq Söhili hökumətinin fəallığı və irtica qüvvələrinin ona köməyi nəticəsində keçmiş 13-cü məclis nümayəndələrinin 60 faizi 14-cü Məclisə mandat ala bilmişlər. Bu 14-cü çağırış Məclisdə qüvvələr nisbətinin şahpərəst və mürtəce qüvvələr tərəfində olacağını əvvəlcədən nişan verirdi.

İXP fraksiyasına 10 nəfər daxil idi*. Bu 10 nəfərdən biri məclis açılan ərəfədə vəfat etmiş (Süleyman Mirzə İskəndəri), digəri (Rəhman Xələtbəri) Rza şaha (Mozandaranda) təziyə tutduğuna görə İXP tərəfindən deputat mandatından

* S.M.İskəndəri, Murtaza Yəzdi, İyrəc İskəndəri, Rza Radməneş, Rəhmanqulu Xələtləri, Firudin Kəşavərz, Əbdülsəməd Kambəxş, Məhəmməd Pərvin Günabadi, Ardaşes Ovanesyan, Tağı Fədakar.

məhrum edilmişdi. Beləliklə, 14-cü Məclisdə İXP-nı 8 deputat təmsil etməli olmuşdur (173. s.147).

Azərbaycandan İran Şura məclisinə Təbriz şəhər əhalisinin vətənsevər və demokratik qüvvələri tərəfindən bir neçə mütərəqqi şəxsiyyətlər sırasında Seyid Cəfər Pişəvərinin də namizədliyi 14-cü çağırış Şura Məclisinə irəli sürülmüşdü.

S.C.Pişəvərinin deputatlığa namizəd göstərilməsi İXP, mütərəqqi təşkilat və cəmiyyətlər tərəfindən müdafiə edilmişdi. Onun namizədliyi sovetlər tərəfindən də müdafiə edilmişdi. "Seyid Cəfər Pişəvəri, "Ajir" qəzetinin müdiri... on altı min təbrizlinin rəyini almaqla Məclisə nümayəndə seçildi. Pişəvəri bu seçkidə sovet dövlətinin də mənəvi nüfuzundan bəhrələndi. Haqq üçün deməliyik ki, ona verilən rəyləri Təbriz əhalisi fəhlələr və zəhmətkeşlər seçki qutularına salarkən heç bir əyintiyə yol verməmişlər" (98. s.190). Mənbələrdə belə bir fakt qeyd olunur ki, seçkilərdə S.C.Pişəvərinin şəksiz qələbəsini hiss edən rejim məmurların, o cümlədən Təbrizdəki dövlət valisi Müqəddəm, Seyid Ziya və onların adamları səsləri parçalamaq məqsədi ilə iki yüz nəfərdən artıq adamın namizədliyini irəli sürmüşlər. Lakin, irticanın bütün cid-cəhdinə baxmayaraq... S.C.Pişəvəri 15780 səslə İran məclisinə vəkil seçildi (177a. s.18). Halbuki dövlətin dəstəklədiyi və maddi cəhətdən çox imkanlı olan Fətəli İpəkçiyan 10 min səsdən artıq əldə edə bilməmişdi.

S.C.Pişəvərinin xalq kütləsi içərisində böyük hörmətə malik olduğunu görən vali general Müqəddəm karxanalarda (fabrik, zavodlarda), emalatxanalarda və iş yerlərində iş vaxtının saat 18-də qurtarması və zəhmətkeşlərin işdən çıxan vaxt səsvermə məntəqələrinin bağlanması haqda xüsusi göstəriş vermişdi. Bu vasitə ilə də S.C.Pişəvərinin xeyrinə rəy vermək istəyənlərə süni əngəl və maneələr törədilmişdi.

Tehran məmurlarının törətdikləri çoxsaylı maneələrə baxmayaraq Təbrizdən Məclisə göstərilmiş 12 nəfər namizəd içərisində S.C.Pişəvəri Rəhim Xoidən sonra səslərin sayına görə ikinci yeri tutmuşdur. S.C.Pişəvərinin seçilməməsi üçün törədilən çoxsaylı maneələrə baxmayaraq o, 16 min nəfərə yaxın Təbrizlinin rəyini almağa müvəffəq olması Təbrizdəki dövlət məmurları və irtica üçün ağır zərbə olmuşdur. Hətta bu məsələ üstündə "... Təbriz ostandarı (vali) mərkəzdən yetərincə dannaq almışdır" (129. s.270).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, S.C.Pişəvərinin parlamentə namizədliyinin uğurlu olmasını İXP Təbriz Əyalət Komitəsi rəhbər Pişəvəri ilə heç vaxt düz gəlməyən erməni Ardaşes Ovanesyan öz adına çıxır və bu işdə onun böyük "zəhməti" və "qayğısı" olmasını qeyd etmişdi. Halbuki sənədlərdə və S.C.Pişəvərinin məqalələrində və xatirələrində A.Ovanesyan S.C.Pişəvərinin şəxsiyyətinə və məsləkinə hələ "Qəsr-Qacar"dakı zindan dövründən müxalif bir adam olduğu qeyd edilir. S.C.Pişəvəri və zindanda olarkən və azadlığa çıxıb siyasi fəaliyyətini davam etdirərkən A.Ovanesyanı oportinist "solçu" kimi xarakterizə etmişdi. Təbriz kimi ayıq, inqilabçı və yad yerdən gələn rəhbərliyə dözməyən

müsəlman bir şəhərə kənardan A.Ovanesyan kimi bir erməninin partiya rəhbərliyinə təyin edilməsini S.C.Pişəvəri İXP başçılarının kadr siyasətindəki günahlarından biri hesab etmişdi.

S.C.Pişəvərinin 14-cü çağırış Məclis seçkilərindəki uğurunu az qala tam öz adına çıxan Ardaşes öz xatirələrində belə bir uydurmanı nağıl edir ki, guya "Pişəvəri Tehrandan yola düşməzdən əvvəl güman edirmiş ki, Təbrizdəki seçkidə mən ona müxalif olacağam. Buna görə də o, bir neçə nəfərdən, o cümlədən Süleyman Mirzədən və doktor Yəzdidən məktub alıb gətirmişdi ki, mən ona seçkidə kömək edim. Mərkəzi Komitədəki yoldaşlar sonralar mənə dedilər ki, o, (Pişəvəri - Ə.R) söz verdi ki, İXP-na yenidən üzv olacaq və Hizb Tudənin (İXP) Məclisdəki fraksiyasma daxil olacaqdır". A.Ovanesyan sonra söyləyir ki, "... seçkilərdə namizədlər hələ rəsmən elan edilməmişdi ki, qəflətən kabinetimin qapısı döyüldü, Pişəvəri nigaranlıq keçirən vəziyyətdə otağa daxil oldu. Məlum oldu ki, vəziyyəti onu məcbur edib ki, kömək üçün mənə müraciət etsin. Həmin an fikirləşdim ki, hisslərə qapanmayım, keçmişdə olanlan unudub ona kömək edim ki, o məclisə vəkil seçilə bilsin..." (129. s.480). A.Ovanesyanın dediklərindən belə çıxır ki, İXP-nin bu erməni "Komissan" Təbrizdə rəhbərlikdə olmasaydı S.C. Pişəvəri Məclisə deputat seçilə bilməyəcək idi. Halbuki: S.C.Pişəvəri 10 il həbsdə olanda, sonrakı dövrlərdə də və 1947-ci ildə Bakıda "xatirələr"ini yazanda da həmişə Ardaşes Ovanesyanı cəmiyyətə radikal "solçu", "vaxtsız banlayan xoruz", hərəkat rəhbərliyində ixtilaf salan, dedi-qodu yaradan, özündən razı bir adam kimi təqdim etmişdi. Belə olan halda A.Ovanesyanın S.C.Pişəvəriyə "dostluq münasibəti" göstərməsi haqda dedikləri yəqin ki, uydurma və qondarmadan başqa bir şey ola bilməzdi.

"Qəsr-Qacar" zindanından həbsdən və Kaşan şəhərinə sürgündən sonra 1945-ci ilin yayınadək Tehranda yaşayan S.C.Pişəvəri bir neçə dəfə Azərbaycana gəlmiş, müxtəlif bölgələrdə olmuş, Azərbaycandakı vəziyyətlə yaxından tanış idi. Bu tanışlıq təkcə zahiri görüş yox, ayrı-ayrı zümrələrin nümayəndələri ilə canlı söhbət, ünsiyyət yaradan görüşlər olmuşdur.

Sonralar o, xalqına, onun istək və düşüncəsinə yetərincə bələd olmadığını özü üçün bağışlanmaz günah sayırdı. Seçki kompaniyası ilə əlaqədar bir neçə ay Azərbaycanın şəhər, rayon, qəsəbə və kəndlərində xalqla olan görüşlər S.C.Pişəvəridə öz soydaşları haqqında böyük inam və dərin təəssürat yaratmışdır.

S.C.Pişəvəri Tehrana qayıtdıqdan sonra "Ajir"də çap etdirdiyi "Biz nə deyirik, millət nə istəyir?" adlı məqaləsində yazmışdı: "seçkilərdə altı aylıq mübarizə istər-istəməz məni millətin içərisinə çəkdi... Bütün təbəqələrə mənsub insanlarla tanış oldum. Onların bir çoxunun, hətta, evinə getdim". Millətinin mübarizə əhval-ruhiyyəsinin bu həddə olduğunu təsəvvür etməyən S.C.Pişəvəri yazırdı ki, "...etiraf etməliyəm ki, cəmiyyətə yol göstərməyə çalışan rəhbər olsam da, onu bu qədər tanımırdım, ehtiyacları, amal və arzuları ilə yaxından tanış deyildim. Əslində dövlət və Məclis kimi mətbuatın da millətin vəziyyəti ilə bağlı

düzgün təsəvvürü yox idi. Mən dövlətin siyasəti və ölkənin taleyi haqqında kəndlilərlə çox söhbət etdim. Hər bir kəndli kəndxudadan, jandarmalardan, kənd ərbabından, təhsilli maliyyə işçilərindən, vəzifədə olan məmurlardan tutmuş ali dövlət məqamlarınadək onlara etdikləri zülm, əziyyət və zorakılıqdan başqa bir şey görmədiklərini deyirdilər" (212. 18 111 1323).

S.C.Pişəvərinin seçicilərlə bağlı Azərbaycan əhalisi ilə görüşləri Tehran hakimiyyətinin xidmətində duran məmurları və ali məqam sahiblərini rahat buraxmadı. Onlar gah seçkilərin keçirilməsi vaxtını, gah da Məclisin təşkili tarixini müxtəlif bəhanələrlə geri çəkir, seçiciləri ələ almaq üçün müxtəlif vasitələrə (pul təklif etmək, hədiyyə vermək və son hesabda qorxutmaq və s.) əl atsalar da S.C.Pişəvərinin Məclisə gedən yolunu kəsə bilməmişlər. Məclis seçki komissiyası 1322-ci ilin Xordadın sonunda (iyun 1943) başlasa da onun rəsmi açılışı, 6 isfənd 1322-ci ildə (fevral 1944) baş tutmuşdur. Təbrizdən seçilən deputatların mandatı 1323-cü ilin tir ayında (iyul 1944) Məclisin gündəliyinə gətirildi. Əvvəl mütərəqqi vətənpərvər şəxsiyyət olan Hacı Rəhim Xoinin mandatı səsə qoyulmuşdur. Onun əleyhinə danışan Babildən seçilmiş və öyrədilmiş Şəriətzadə çıxış etdi və deputatları ona səs verməməyə çağırdı. Nəticədə Təbrizdən seçilmiş H.R.Xoinin mandatı 99 deputatın səs verməsi ilə 48:48 nisbətində (üç nəfər bitərəf qalmaqla) rədd edilmişdir (129. s.281). Xoidən 10 gün sonra 1323-cü il tirin 22-də (1944-cü il iyul) S.C.Pişəvərinin mandatı Məclis vəkillərinin toplantısında müzakirə olunmuşdur. Məclisdəki həmin toplantıya sədarət etmiş Əmir Teymur Klali başda olmaqla Şəriətzadə, doktor Tahiri, Əmirnösrət İskəndəri, Siqətul-islami, Şəriətzadə (son üç nəfər Təbrizdən seçilmişlər idi), Əli Eqbol, Dəşti, Camal İmami və bir neçə nəfər başqa deputat S.C.Pişəvərinin mandatını ləğv etmək üçün Məclisdə deputatlar arasında əvvəlcədən pozuculuq işi aparmışlar. Bu dəstə iştirakçılarda əsası olmayan belə bir fikir oyatmağa çalışmışlar ki, guya Təbrizdə Məclisə seçkilərdə "ciddi əyintilər, qeyri-qanuni işlər olub" və s. Bu müzakirələrdə İXP-dan seçilmişlərin mövqeyi haqda iki fikir mövcuddur: 1-ci fikir: Ardaşest Ovanesyan S.C.Pişəvərinin əleyhinə səs verənlər sırasında olmuş (131. s.34); ikinci fikir: İXP nümayəndələrindən 2 nəfər səsvermədə bitərəf qalmışlar (98. s.192). Nəticədə S.C.Pişəvərinin deputatlıq mandatı 100 nəfərdən əleyhinə 50, lehinə 47 səs verilmiş, 3 nəfər bitərəf qalmışdır. Müzakirə və səsvermə zamanı Məclisdə S.C.Pişəvərinin əleyhinə aşkarda yeganə tünd danışan Babel nümayəndəsi, şahpərəst Şəriətzadə olmuşdur. Onun təklifi ilə başqa namizədlərdən fərqli olaraq S.C.Pişəvərinin namizədliyi açıq yox, gizli səsə qoyulmuşdur. Bu vasitə ilə pərdə dalında Pişəvəri əleyhinə təxribat işləri başa çatdırılmışdır.

S.C.Pişəvərinin və Xoinin mandatına qarşı çıxan dəstənin başçısı Şəriətzadə öz çıxışında riyakarlığın üstünü malalamaq üçün demişdi ki, o, Təbrizdən seçilmişlərin səlahiyyəti əleyhinə heç nə demir. Onun etirazı guya orada seçkinin aparılma tərzinin düz olmaması və seçki qaydalarının pozulması ilə bağlıdır. Bu riyakarlıqla barışmayan obyektiv insanlar soruşurdular: Əgər doğrudan da

Təbrizdəki seçkidə pozğunluq və ya əyinti olmuşdursa, bu nə üçün Təbrizdən seçilən digər deputatlara yox, ancaq iki nəfərə, İ.Xoiyə və S.C.Pişəvəriyə şamil edilmişdi (98. s. 190-191). Bununla əlaqədar olaraq "Dad" qəzeti yazmışdır:"... Məclisdə Pişəvəri haqqında bəhs açılarkən heç kəs ondan soruşmadı ki, aya sən dəlil-sübut olmadan 10 il Rza şah zindanında niyə yatmısan?

Pişəvəri o siyasi dustaqlardan olmuşdur ki, onun günahları haqda heç bir sübut yazılan "dosiya" olmamışdır. O adamın dünya malında heç vaxt gözü olmamışdı. Niyyəti və məqsədi ancaq azadlıqdır. Onun əməlində nə günah vardır ki, bizim Şura məclisi onun mandatını təsdiq etməmişdi? Əgər doğrudan da Təbrizdəki seçkilər qüsurlu olmuşdursa bəs nə üçün ağaye Əbülhəsən Siqətülislaminin, Rəflinin, Əmirnüsrət İskəndərinin və başqalarının namizədliyi təsdiq edilmişdi? Əgər Pişəvərinin şəxsiyyətinə kiminsə etiraz və narazılığı var idisə bu haqda Məclisdə niyə açıq danışmamış, hər şeyi pərdə dalında gizlin həll edilmişdi" (229. 24 IV 1323). S.C.Pişəvərinin deputatlıq mandatı Məclisdə müzakirə olunarkən iclası Məclisin sədr müavini Əmir Teymur Klali idarə etmişdi. O, öz xatirələrində etiraf edir ki, açıq səsvermədə S.C.Pişəvərinin yetərincə səs aldığını görən bəzi şahpərəst deputatlar səsvermənin gizlin aparılmasmı təkidlə tələb etmişlər. Nəticədə S.C.Pişəvəri gizli səsvermə yolu ilə deputat mandatından məhrum edilmişdi, halbuki ilk əvvəl S.C.Pişəvəri açıq səsvermədə əksəriyyətin müsbət rəyini almışdı.

S.C.Pişəvəri əvvəldən bilirdi ki, böyük əksəriyyəti şahpərəstlərdən, varlı və mənsəb sahibi olan məmurlardan, Şəriətzadə və Seyid Ziya kimi irticaçılardan ibarət olan bir Məclisdə onun deputat mandatına malik olması mümkünsüzdür. Buna görə də o, mandatı müzakirə olunarkən Məclisin tribunasından rejimə və onun Məclisdəki manqurtlarına qarşı kəsərli nitq söyləmişdi. O, sonralar etdiyi çıxışların birində demişdi:"... Təbriz hazırda xaraba bir təndirə bənzəyir. 6 aydır ki, şəhər xəstəxanası işləmir. Şəhərdəki 27 məktəbdən 5-6-sı dövlətindir, qalanları özəldir. Mən onlann bir neçəsi ilə yaxından tanış oldum. Sizin bir çoxunuz atınızı belə ora salmazsız...

Mən bilirdim ki, Məclis kürsülərini qəsb edən xainlər ilə mənim suyum bir arxda getməyəcək və hiss edirdim ki, bu yolkəsənlər dəstəsi mənim aralarına girməyimə asanlıqla razı olmayacaqlar. Ona görə fürsətdən istifadə edib sözlərimi dedim. Məni 16 min rəy ilə intixab (seçib) edib, Məclisə göndərən Azərbaycan xalqının ehtiyaclarını sayıb söylədim. Sözlərimi böyük bir diqqət və dərin bir sükut ilə eşidib təsdiq etdilər. Lakin bu təsdiqlər xəyanətlərini gizlətmək üçün qara pərdədən başqa bir şey deyildir. Fürsət əllərinə düşən kimi də bu "azərbaycanlı rahat oturan adama bənzəmir, bunu buradan uzaqlaşdırmaq lazımdır" deyib etibarnaməyə tülkülərə yaraşan alçaqlıq ilə müxalifət etdilər"*.

---

* Həmin nitqin tam mətni üçün bax: "Qızıl səhifələr"ə Təbriz, 1946.

14-cü Çağırış Məclisdə S.C.Pişəvəriyə qarşı törədilən riyakarlıq ağır mübarizə yolu keçmiş bu insanı salmamışdı. S.C.Pişəvəri üçün bu həqiqət bir daha aydın oldu ki, əksəriyyəti xalqın qanını içməyə hazır olan bu qatillərlə heç cür dil tapıb, onları millət istəyən yola gətirə bilməyəcəkdir. O, hələ Təbrizdə seçiciləri ilə görüşdə deputat seçilməyi özünə nə yüksəliş və nə də məqam hesab etməmişdi. O, hədəfə çatmaq üçün deputat seçilməyi vasitələrdən biri saymışdır. "...Biz bu vasitədən istifadə edib mübarizəmizdəki əsgərləri ön səngərə çıxarmaq, İranın azadlıq və demokratiyaya çatması arzusunu həyata keçirmək bu vasitədən istifadə etmək istəyirdik" (212. 15 IX 1323).

14-cü çağırış İran Şura Məclisindəki olaylar S.C.Pişəvəridə belə bir fikrin tam və qəti şəkildə formalaşmasına inam yaratmışdır ki, Azərbaycan Tehrandan "mərhəmət" gözləməməli, öz dərdlərinə özü əlac etməlidi. Şeyx Məhəmməd Xiyabaninin "Elə çırax yandırmaq lazımdır ki, ixtiyarı öz əlimizdə olsun" sözlərini, özünə sərməşq götürən S.C.Pişəvəri azadlıq çırağını yandırmaq üçün Azərbaycana - Təbrizə üz döndərdi.

## S.C.PİŞƏVƏRİNİN AZƏRBAYCANA DÖNÜŞÜ ƏRƏFƏSİNDƏ ORADA DURUM

Xarici qoşunlar İran ərazisini işğal edərkən, ölkənin hər yerində olduğu kimi Azərbaycanda da sosial-iqtisadi vəziyyət ağır idi. Ölkənin bu regionunda yeridilən dövlət siyasəti ideoloji baxımdan buradakı aborigenlərin farsdan dönmə olması tezisinə əsaslanıb bütün sahələrdə: təhsil, elm, mədəniyyət, eləcə də dövlət atributları ilə bağlı bütün təsisatlar və müəssisələrdə farslaşdırma siyasəti geniş planda icra olunurdu. İranın rəsmi dövlət sənədlərindən birində açıqca yazılırdı ki, "...Azərbaycanda iranlılıqdan başqa hər hansı milliyyətdən söz gedə bilməz" (207. 1358, № 2, s.29).

Müttəfiq qoşunları İrana daxil olmamışdan əvvəl Azərbaycan hər cəhətdən Rza şahın amansız müstəmləkəçilik zülmü altında inləyən regionlardan biri idi. Azərbaycanlıların azadlığa və muxtariyyata güclü meyilli olduğunu yaxşı bilən Rza şah buradakı vətənpərvər qüvvələri məhv etdirməklə kifayətlənməyib, Azərbaycanı İranın tərkibində geridə qalmış bir bölgə kimi saxlamışdı. 30-cu illərdə Təbriz və onun ətrafi güclü sellərin zərbəsinə məruz qalarkən, əhalinin şaha və dövlət orqanlarına müraciəti cavabsız qalmışdı. Üstəlik sel dağıntılarını aradan qaldırmaq məqsədilə qismən də olsa Təbriz əhalisi tərəfindən yığılmış pulun böyük hissəsi Təbriz ostandarlığı tərəfindən mənimsənilmişdi (Yenə orada).

"1299-cu il 3 Esfənd kudətası (çevriliş) (1920-ci il fevral) və Rza şah hökumətinin bərqərar olmasından qabaq Azərbaycan özünün coğrafi mövqeyi və təbiətinə görə İranın abad və sərvətli əyalətlərindən biri idi. Azərbaycanda ana dilində bir neçə qəzet nəşr edilirdi. Məktəblərdə Azərbaycan dilində teatr tamaşaları göstərilirdi və Azərbaycanın xarici məmləkətlərlə ticarət və iqtisadi

münasibətlər inkişaf edirdi. Pəhləvi sülaləsinin hakimiyyətə gəlməsi ilə qara günlər başlandı. Azərbaycanda ana dilindən istifadə etmək, ana dilində oxuyub-yazmaq, hətta məhkəmələrdə belə ana dilində danışmaq qadağan edildi. Azərbaycan xalqı cürbəcür təhqirlərə məruz qaldı. İranm keçmişdə çırağı və gözü hesab olunan Azərbaycanla bir müstəmləkə kimi rəftar etdilər" (Yenə orada). Rza şah dövründə Tehranın Azərbaycana öz müstəmləkəsi kimi baxmasını hökumətin bu əyalətin insanlarını aclıq və qıtlıqla imtahana çəkməsində də görmək olar. "Varlıq" jurnalı həmin dövrdəki olaylardan belə bir faktı misal olaraq gətirir ki, 1940-cı ildə İran bazarında buğdanın hər xalvarı 400-350 riala getdiyi bir vaxtda, Təbrizdəki ostandar (Vali) Azərbaycan kəndlisinə qarşı zor işlədib, buğdanın hər xalvarını 140 riala alıb mərkəzə yollayırdı. 1941-ci ilin qışında aclıqla üzləşən Azərbaycan əhalisinə Rza şahın Gürgandakı mülkündə hasil olan buğdanı Astara yolu ilə Təbrizə gətirib, hər xalvarını 600 riala satmışlar, Gürgandan gətirilmiş arpa nəmləndiyindən onu Təbriz hərbi dairəsindəki atlar yemədiyini Vali Mostəfiyə xəbər verərkən o cavabında: "Atlar yemirsə, verin təbrizli eşşəklər yeyər" - demişdir (Yenə orada, s.30). O zaman "Peykar" qəzeti həmin dövrün siyasi-ideoloji mənzərəsini belə təsvir etmişdi: "İranın əhalisinin qeyri-fars olan geniş regionları, xüsusən Azərbaycan, Kürdüstan, Ərəbistan (Xuzistan) bu gün də hər cür hüquqdan məhrumdurlar. Burada yaşayan uşaqlar qeyri-ana dilində olan məktəblərdə oxumağa məcburdurlar. Həmin rayondan Məclisə seçilmiş nümayəndənin mandatı fars dilini bilmirsə, təsdiq edilmir. Bütün dövlət məmurları farslardan təyin olunurlar və onlar bu rayonların əhalisinə qul kimi baxırlar. Onların ərizə və şikayətləri mütləq fars dilində olmahydı. Hüquq-mühafizə orqanları fars dilində tərtib olunmayan ərizələri qəbul etmirlər, bu da çox vaxt milliyyətcə fars olmayan şəxslərin qeyri-qanuni surətdə məhkum olunmasına səbəb olur" (Yenə orada, s. 30). Rza şahın hakimiyyəti illərində Azərbaycan dilində kitab, qəzet, jurnal çap etmək rəsmən qadağan edilmişdi. Assimilyasiya tədbirləri qeyri-farsların, o cümlədən azərbaycanlıların milli-mədəni, mənəvi, sosial-iqtisadi həyatının bütün sahələrinə tətbiq edildi. Həmin dövrdə Azərbaycanda bir sıra dövlət məqamlarında işləmiş A.Mostofi* sonralar etiraf edirdi ki, "... O, azərbaycanlılara yas yerində türkcə ağı deməyə belə icazə vermirdi. "Mən onlara başa sahrdım ki, siz Daryuşun və Kambizin əsl xələfləri nə üçün Əfrasiyab və Çingizin dilində danışırsınız" (189a. 1379, № 8, s.27).

Rza şah hakimiyyətinin ilk illərində Azərbaycanda maarifə başçılıq etmiş R.Möhsünü azərbaycanlı ziyalıları Təbrizə bir toplantıya yığıb azərbaycanca hər cür tamaşanın qoyulmasının və maarif idarələrində və məktəblərdə türkcə danışığın

* O, əvvəlcə səbt (natariust) idarəsinin rəisi olmuş 1936-cı ilin fevralından 4-cü Ostanın (Qərbi Azərbaycan) 1938-ci ilin avqustundan Şərqi , Azərbaycanın(3-cü ostan) valisi (ostandarı) vəzifələrində işləmişdi.

qadağan olduğunu bildirdikdən sonra demişdi: "Məktəblərdə hər kəs türkcə danışsa, eşşəyin noxtasını onun başına salıb, axura bağlayın" (198a. 1379, № 2, s.24).

Azərbaycan maarifinə rəhbərlik etməkdə Möhsününü əvəz etmiş Zövqi məktəblərdə türkcə danışanlara əvvəlcə cərimə, sonra isə fiziki cəza verilməsini əmr etmişdi. O, Azərbaycan məktəbində hər fars sözünün mənasını türkcə uşaqlara başa saldığı üçün (nan-çörək, ab-su, xrus-xoruz və s.) kənd müəlimini ciddi cəzalandırmış və ona "nan" deyərkən çörəyi, "ab" deyərkən suyu, "xrus" deyərkən xoruzu göstərməyi "məsləhət" görmüşdü (189a, 1379, № 2, s.24). Təbriz ostandarlığından (qubernatorundan) Rza şah tərəfindən Tehrana daha yüksək vəzifəyə çəkilmiş Abdulla Mostəfi müsahibələrinin birində xalqı təhqir etməkdən çəkinməyib demişdir: "Yonca yeyib məşrutə alan Azərbaycan türkləri ələf yeyib İranı abadlaşdırarlar" (Yenə orada).

Rza şah hakimiyyətə keçən kimi onun ilk tədbirlərdən biri "fars dilini yabançı sözlərdən təmizləmək" adı altında 1926-cı ildə Müdafiə Nazirliyi nəzdində xüsusi komissiya təşkil etmək oldu. Həmin komissiya "Əcnəbi söz" adı altında bütün türk sözlərini hərbi leksikondan çıxartdı. Sonra bu iş genişləndirilib yer, dağ, çay və yaşayış məntəqələri adlarının dəyişdirilməsinə, daha sonra adamların adına və soy adına tətbiq edildi. 1934-cü ilin payızında İran Məclisi "Ölkədə başqa dillərdə məktublaşmaya, şikayət və ərizələrə baxmağa yasaq qoymaq haqda" qanun qəbul etmişdi.

Qeyri-fars regionlara qarşı ayrı-seçkilik Azərbaycanın da mərkəzdən asılılığını gündən-günə artırdı. Həmin dövrə aid ayrılmalarda dövlət büdcəsindən Azərbaycanın bütövlükdə payı İsfahan və ya Şiraz şəhərlərinə ayrılmış paydan az idi (209. 19 I 1325). 1946-cı il İran statistikası rəqəmlərinə əsaslansaq, məlum olur ki, 1938-1939-cu ildə ümumölkə üzrə sənayeyə (hərbi və metallurgiya istisna olmaqla) o zamankı pul vahidi ilə 1300 milyon rial xərclənmişdi. Bu vəsaitin isə cəmi 3% Güney Azərbaycana sərf olunmuşdur ki, bu da əsasən yüngül sənayeyə, emalatxana və əl sənayesinə xərclənmişdi. 30-cu illərdə (1932-1940) İran dövlətinin sənayeləşdirmə tədbirləri ilə bağlı aksioner kampaniyalarının sayı 93-dən 1735-ə, onların kapitalı isə 143 milyon rialdan 1863 milyon riala çatdığı halda, Azərbaycanda həmin dövrdə bu rəqəm 32 milyon rialdan yuxarı olmamışdı ki, bu vəsaitin də böyük qismi mərkəzdəki kompaniyaların payına düşürdü. 1940-ci ilə aid olan məlumatlardan bəlli olur ki, İranda mövcud olan o dövr üçün müasir istehsal üsuluna əsaslanan 25 iri toxuculuq müəssisəsindən biri də Azərbaycanda yox idi (115. s.35). Təbrizdəki "Pəşminə", "Zəfər", "Kəlkətəçi" kimi toxuculuq müəssisələri milli kapitalın sərmayəsi ilə yaradılmış və dövlətdən maneçilikdən başqa heç cür yardım görməmişdi. Təbrizdəki kibrit karxanası xoylulara, "Mir" adlı qismən iri sabunbişirmə zavodu təbrizlilərə, toxuculuq karxanaları Təbriz, Xoy, Marağa və Ərdəbilin iş adamlarına məxsus olmuşdur. 30-cu illərin ortalarına aid olan statistikada Təbrizdə fəaliyyət göstərən 60 istehsal müəssisəsindən cəmi

dördündə çalışanların sayı 100 nəfərə çatırdı, qalanları isə kustar xarakterli, əl əməyinə əsaslanan (burada əsasən qadın və uşaqlar işləyirdi) müəssisələr olmuşdur. Dövlətin Azərbaycanın sənayeləşdirilməsi tədbirlərini öz fəaliyyətinə cəlb etməməsi bir yana qalsın, milli sərmayə hesabına yaradılmış müəssisələrin normal fəaliyyətinə müxtəlif vasitələrlə mane olurdu və onların üzərindəki vergi yükünü daim artırırdı. İri dövlət sənaye müəssisələrinin, əsasən ölkənin mərkəzində yaradılması ilə yanaşı "ucqarların" milli kapitalının mərkəzə axını da şirnikləndirilirdi. Kapitalın və işçi qüvvəsinin fars dilli mərkəz şəhərlərdə təmərküzləşməsi "ucqarların" hər cəhətdən (siyasi, iqtisadi, mədəni və b.) zəifləməsini gücləndirirdisə, qeyri-farsların mərkəzdə assimlyasiyasını, öz dilini və milli kimliyini itirmə prosesini sürətləndirirdi. Bu isə Rza şah rejimini dövlət siyasətinin mühüm tərkib hissələrindən biri idi. "İdarə işlərinin Tehranda cəmləşdirilməsi siyasəti İran ostanlarının hamısına, xüsusən Azərbaycanın iqtisadi fəaliyyətinə mənfi təsir göstərmişdi. Azərbaycan kapitalistləri, təcrübəli mütəxəssisləri və fəhlələrinin Tehran və digər mərkəzlərə miqrasiyası İranın iqtisadi inkişafını sürətləndirdi" (10. s.97). Amerikalı müəllif Con Furan yazır ki, 1323-1324-cü büdcə ili (1944-1945) üçün təkcə Tehran şəhərinə ayrılmış vəsaitin miqdan bütövlükdə Azərbaycana ayrılmış vəsaitdən 20 dəfə çox olmuşdur, halbuki, o zaman Güney Azərbaycanın əhalisi Tehrandakılardan 3 dəfə çox idi (100.s.408).

Azərbaycanda sənayeni inkişaf etdirmək üçün kifayət qədər yerli xam mal, fiziki qüvvə və şəraitin olmasına baxmayaraq dövlət bu sahələrdə qəsdən maneçelik yaradırdı. Maliyyə vergilərinin artırılması, dövlət məmurlarının özbaşınalığı, çoxsaylı süni maneələrinin ortaya atılması Azərbaycanda yerli milli sənayenin yaradılması və inkişafı yolundakı əngəllər idi. Vaxtilə dövlət hesabına Miandabda tikilmiş şəkər zavodu 1940-1941-ci illərdə ölkədə mövcud olan 8 şəkər zavodundan yeganə nümunə idi. Çox geniş xammal ehtiyatına və ucuz işçi qüvvəsinə malik olmasına baxmayaraq, onun istehsal etdiyi qənd-şəkər Azərbaycandakı tələbatın heç əllidə birini də ödəyə bilmirdi (210. 14 III 1325).

İkinci Dünya müharibəsi ərəfəsində Güney Azərbaycanda az-çox gözəgəlimli sənaye obyektləri aşağıdakılardan ibarət olmuşdur.

40-ci illər ərəfəsində Güney Azərbaycanda başlıca sənaye müəssisələr (208a. 1345, № 61, s.19)

| Müəssisələr | İşə salındığı tarix | Yerləşdiyi yer |
|---|---|---|
| "İran gön zavodu" | 1930 | Təbriz |
| "Təbriz un dəyirmanı" | 1930 | Təbriz |
| "Rəfii un dəyirmanı" | 1930 | "-" |

| | | |
|---|---|---|
| “Sitarə pivə zavodu” | 1930 | “-” |
| “Xosrovi göndəri zavodu” | 1931 | “-” |
| “Bəradərane - Vahabzadə gön zavodu” | 1932 | “-” |
| “Ümid” gön zavodu | 1932 | “-” |
| Corab fabriki | 1932 | “-” |
| “Pəşminə” yun parça fabriki | 1936 | “-” |
| Yun təmizləmə fabriki | 1937 | “-” |
| “Azərbaycan” (sonra “Kəlkətəçi”) toxuculuq fabriki | 1937 | “-” |
| “Təbriz elevotoru” | 1939 | “-” |
| “Miandab qənd zavodu” | 1939 | Miandab |

Yuxarıdakı müəssisələrin heç biri (Miandab qənd zavodu və Təbrizdəki elevator istisna olmaqla) dövlət sərmayəsi ilə işə salınmamışdır. Bu müəssisələrin istehsal gücü olduqca aşağı həddə idi. Məsələn, Təbrizdəki kibrit fabriki təkmilləşdirildikdən sonra oradakı işçilərin sayı 65 nəfərdən çox olmamışdı ki, bunun da əksəriyyəti 7-14 yaşlı uşaqlardan ibarət idi (209. VII 1324).

30-cu illərin axırlarında dövlət xətti ilə ölkənin üç şəhərində (Tehran, İsfahan, Təbriz) tikilmiş elevatorlardan biri Azərbaycanda tikilsə də, onun taxıl saxlama tutumu Tehran və İsfahandakından çox aşağı idi, halbuki, Azərbaycan İranın başlıca taxılçılıq regionlarından idi. Ən çox işçi qüvvəsi olan müəssisədə işçilərin sayı 80-90 nəfərdən çox deyildi və bu müəssisələrin əksəriyyətində əl əməyi üstünlük təşkil edirdi. Halbuki, Azərbaycanda sənayenin bütün sahələrini (metallurgiya, dağ-mədən, pambıqçılıq, tütünçülük, ipəkçilik, tərəvəzçilik və s.) yaratmaq üçün yetərincə həm təbii, həm fiziki imkanlar var idi.

Dövlətin iqtisadi siyasətində də Azərbaycana münasibətdə “ögeylik” özünü aydın şəkildə biruzə verirdi. Məsələn, 1940-1941-ci illərdə milli məhsulda Azərbaycanın sənaye üzrə payı 1,1%-ə bərabər olmuşdur (115. s.29). Azərbaycan istehsal vasitələri və istehsal üsulu cəhətdən İranın geri qalmış başlıca aqrar-kəndli regionlarından biri idi. Həmin dövrə aid İranın xarici ticarətində ixracat siyahısında Azərbaycandan daxil olan yeganə məhsul İrana qızıl valyuta gətirən xalçalar və qismən meyvə qurusu (əsasən Almaniyaya satılan lölə-qaxlar) idi (209. 11 X 1350). İranın dünya bazarına ixrac etdiyi xalçaların təqribən yarısı Güney Azərbaycanın payına düşmüşdü (Yenə orada). Bu dövrdə (40-cı illərin ərəfəsi və əvvəlləri) Azərbaycanda xalçaçılıqla məşğul olan müəssisələrin sayı 950-dən çox, oradakı dəzgahlar 5328, işçilərin sayı 12 min nəfərə yaxın olmuşdur. Xalçaçılıqda əl əməyi, xüsusən qadın və uşaq əməyi üstünlük təşkil etmişdi. Texniki səviyyə və

müasir sənaye avadanlığının yoxluğu ucuz əl əməyinə rəvac verirdi. Təbrizdə, Sarabda, Ərbəbildə, Mərənddə, Xoyda, Zənganda xalça toxuma işlərində maşın və texnikanın qismən tətbiqi 40-cı illərin əvvəllərində xalça istehsalının artımına təkan verdi. Xalçadan gələn gəlir istehsalçılardan əvvəl dövləti və xalça möhtəkirləri varlandırırdı. Ümumiyyətlə, 40-cı illərin əvvəllərində Güney Azərbaycanda daimi və mövsimi işi olanların sayı 50-60 min arasında göstərilir ki, bu da o zamankı Azərbaycan əhalisinin təqribən 0,02 %-ni təşkil edirdi (Yenə orada).

Tədqiq olunan dövrdə Güney Azərbaycan iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etmişdi. Bu regionda yaşayan əhalinin 75-80% kənd yerlərinin payına düşürdü. Aparılan hesablamalardan aydın olur ki, kənd təsərrüfatı və maldarlıq məhsulları Azərbaycandakı məcmu milli məhsulun 91,8 %-ni təşkil etmiş, əhalinin 10 nəfərdən 9-nun dolanışığı kənd təsərrüfatı ilə bağlı olmuşdur (195. 2000, № 4, s.7). Kənddə ərbab-rəiyyət münasibətlərinin hökm sürməsi, əkinə yararlı torpaqların, su mənbələrinin və istehsal vasitələrinin kənd əhalisinin cəmi 5%-ni təşkil edən iri mülkədarların, vəzifə və mənsəb sahiblərinin əlində olması Güney Azərbaycan kəndlisini ağır vəziyyətdə yaşamağa məcbur etmişdi. Hasil olan məhsulun istehsal vasitələrinə görə bölünməsi (torpaq, su, toxum, gübrə, qoşqu heyvanı və s.), üstəlik hazır məhsuldan tutulan çoxsaylı vergilər, rüsumlar və ayrılmalar istehsalçı kəndlini ölmə-dirilmə yaşayışına gətirib çıxarmışdı. Güney Azərbaycan kəndindəki sosial-ictimai vəziyyət öz kəskinliyi ilə kəndliləri rejim əleyhinə, aqrar-kəndli münasibətlərindəki haqsızlığa qarşı mübarizəyə kökləmişdi. Güney kəndlisi ayağa qalxmaq üçün fürsət axtarırdı.

Rza şahın müharibə ərəfəsində ölkənin inzibati - ərazi bölgüsündə əmələ gətirdiyi "parçala, ağalıq et" siyasəti Azərbaycanın etnik, iqtisadi və mədəni bütövlüyünü pozmaqdan əlavə, Azərbaycan şəhərlərində iqtisadi-ticarət əlaqələrində də əngəllər yaratmış oldu. 1937-1938-ci illərdə ölkənin yeni inzibati - ərazi vahidlərinə (ostanlara) bölünməsi, əslində Güney Azərbaycanın parçalanması və onun bütöv xəritəsinin doğranılması idi. Bu bölgünün nəticəsində Azərbaycan 3-cü və 4-cü ostana (əyalətə) ayrılmış oldu. "Qəzvin, Həmadan, Qum, Məlayir, Tufaerqan və Sənəndəc vilayətləri ətrafındakı onlarla Azərbaycan mahalı və 2500 çox kəndi İranın I-ci mərkəzi və 5-ci əyalətlərinə verilmişdi" (21. s.36).

Həmin tarixdən rəsmi sənədlərdə, mətbuat və informasiya vasitələrində, eləcə də orta və ali məktəb dərsliklərində Azərbaycan adı "3-cü" və "4-cü" ostan adı ilə əvəz olundu. Bu tədbir, əslində Pəhləvi hakimiyyətinin Azərbaycanı "Böyük İran" daxilində həzm etmək siyasətinin təcavüzlərindən biri idi. "... Rza xanın Azərbaycanı Ostane-3 və Ostane-4 adı ilə 2 əyalətə bölməsi də hövl və həvəs üzərində irəli gəlməmişdi. Bunların altında şeytani bir nəğmə gizlənmiş idi, o da Azərbaycanın dilini, birliyini və milliyətini ortadan aparmaqdan ibarət idi" (195. 2000, № 2, s.18).

Rza şahın hakimiyyətdən getdiyi vaxtdan sonrakı illərdə də Azərbaycana qarşı mərkəzin münasibəti dəyişməmişdi. Təzyiqlər bölgəyə ögey münasibət, iqtisadi gerilik və baxımsızlıq əvvəlki illərdə olduğu kimi davam etməkdə idi. S.C.Pişəvəri siyasi fəaliyyətini davam etdirmək üçün 1945-ci ilin yayında Təbrizə gəlmək ərəfəsində Azərbaycan partlamağa hazır olan barıt çəlləyini xatırladırdı. Pəhləvilərin amansızlığına əlavə olunmuş milli zülm böyük tarixə və zəngin keçmişə malik olan bir xalqın - Azərbaycan türklərinin bir millət kimi "əridilməsi" cəhdi bu ərazidə yaşayanların mövcud rejim əleyhinə və onun yerlərdəki dövlət strukturlarına qarşı nifrət və barışmaz əhvali-ruhiyyə yaratmışdı. Buna görə də mütəffiq qoşunların İran ərazisinə keçməsi ilə bağlı siyasi ab-havada qismən yumuşaqlığın əmələ gəlməsindən istifadə edən Azərbaycandakı milli qüvvələr dirçəlməyə və açıq mübarizə meydanına atılmağa imkan tapdılar. Bu özünü hər şeydən əvvəl bu bölgədə xalqın öz azadlığı uğrunda gündən-günə yüksələn və yeni vüsət alan mübarizəsində göstərirdi.

ADF-in yaranması ərəfəsində Azərbaycanda təkcə iqtisadi vəziyyət deyil, siyasi durum da bir çox cəhətdən ağır və mürəkkəb idi. 1945-ci ilin əkin mövsümündə çəyirtkələrin görünməmiş şəkildə əkin sahələrinə hücumu və nəticədə hasil olacaq taxılın və digər dənli bitkilərin zavala məruz qalması taxıl cəhətdən onsuz da korluq çəkən Azərbaycan əhalisini daha ağır imtahana çəkdi. Azərbaycana üz vermiş gözlənilməz təbii fəlakət Tehranı nəinki narahat etmirdi, əksinə, Azərbaycanda aclıq və qıtlığı şiddətləndirmək üçün mərkəz bütün vasitələrdən istifadə edirdi. Bu haqda dövlətin adına ünvanlanmış çoxlu sayda şikayət və ərizələr Mərkəzi hökümət tərəfindən Təbrizə gəlmiş general Cahanbaninin başçılıq etdiyi nümayəndə heyətinə təqdim olunmuşdu. Xammalın və texniki avadanlığın gətirilməsinə göstərilən süni maneələr Təbriz, Urmiya, Miyandab, Xoy, Ərdəbil və b. şəhərlərdəki sənaye müəssisələrinin və manufakturaların bağlanmasına səbəb olur və ya tam gücü ilə işləyə bilməsinə imkan vermirdi. "Pəşminə", "Büstan", "Şayan" kimi toxuculuq fabrikləri, "İran gön-dəri zavodu" istehsalı dayandırmaq məcburiyyətində qaldı. Həmin dövrdə Azərbaycamn valisi olmuş Dadvər 1945-ci ilin mayında Tehranda keçirilən mətbuq konfransında etiraf etməyə məcbur olmuşdu ki, "İqtisadi böhran və işsizliyin baş verməsi ilə əlaqədar olaraq Azərbaycan fabrik-zavodlarına hökümət qəti fikir vermədi. Əməli layihələr hazırlanıb Tehrana göndərilsə də, təəssüflər olsun ki, heç bir cavab verilmədi" (109. 24 XI 1324).

1945-ci ilin baharında Məhəmmədrza şahın dəstəyi ilə baş nazir vəzifəsinə gəlmiş Möhsün Sədr (Sədrəl-əşrəf) öz kabinə üzvləri ilə birlikdə şahın sarayında təşkil olunmuş görüşdə iştirak etmiş, Azərbaycandakı vəziyyət xüsusi müzakirə olunmuşdur (135a. s.145-146). Bu görüşdə Azərbaycandakı siyasi duruma qarşı tədbirlər paketi hazırlanmışdı. Bu tədbirlərdən birincisi bu oldu ki, Azərbaycan xalqına qarşı qəddarlığı və şovinist əhval-ruhiyyəsi ilə fərqlənən Möhtəşəmi Təbrizə vali təyin edildi. Möhtəşəminin Təbrizə gəlişi ilə əlaqədar Təbrizdə və

Azərbaycanın digər yerlərində siyasi vəziyyət daha da kəskinləşdi. Dövlət məmurlarının, jandarma və polis qüvvələrinin azadlıq istəyən milli qüvvələrə qarşı zorakılıq və özbaşınalığı həddini aşdı. Qacarlar hakimiyyəti dövründə İranın say-seçmə vilayətləri sayılan Təbriz, Urmiya, Ərdəbil və s. Pəhləvi xanədanlığı dövründə məmləkətin hər cəhətdən geri qalmış ucqarlarına çevrilmişdi. İranın mərkəz şəhərlərində dəmir və şosse yolları, tunellər, limanlar - bunlar hamısı Azərbaycandan iş dalınca cənuba üz tutanların ağır zəhmət və əməyi ilə salınmış, təkmilləşmiş və istifadəyə hazır vəziyyətə gətirilmişdi. Mərhum Mirzə Kuçikxan demiş: "Tehran abad olmaq üçün bütün İran bərbad edilmişdi" (147. s.34). Pəhləvi hakimiyyəti dövründə Güney Azərbaycandakı vəziyyəti diqqətlə izləyən və onu ürək ağrısı ilə təsvir edən S.C.Pişəvəri "Bizi öz halımıza qoysunlar" adlı məqaləsində deyirdi: "Azərbaycan Tehrandan bir şey istəyir: onu öz halına qoysalar kifayətdir. Ona imkan versələr, öz əli ilə öz işlərini idarə etsin, bəsdir. Tehran bizi fələc və mətəl etmişdir. Göz acmağa yol vermir. Xırda iş görmək istəsək nəfəsimizi kəsir, əl-qolumuzu bağlayır. Hər gün bir oğrunu ostandar, fərmandar ünvanı altında böyük bir çamadan verib üstümüzə göndərir. Təzə və iti bir ülgüc ilə min dəfələrlə qırxılmış başımızı qırxmaqdan utanmırlar" (Yenə orada, s.77).

ADF-in yaradılması (3 sentyabr 1945) ərəfəsində əhalinin Azərbaycandakı sosial-iqtisadi vəziyyətinin ağırlığı, işsizlik, bahalıq, dövlət məmurlarının, xüsusən jandarm qüvvələrinin zorakılığı, özbaşnalığı və yersiz təqibləri haqda şaha, baş nazirə, Məclisə saysız-hesabsız ərizə, şikayət və müraciətləri cavabsız qalırdı. "Xalq baş nazir Bayata müraciət etmişdi. Baş nazir Bayat isə bunun müqabilində demişdi: "Mən radio vasitəsi ilə xalqa müraciət etmişəm. Artıq xalq ərizə və teleqraf vasitəsi ilə özünə zəhmət verməsin". Sonrakı baş nazir Sədr isə bildirmişdi: "Bir teleqraf olmasın, min teleqraf olsun, mən bu kimi boş sözlərə cavab belə verməyəcəyəm" (Yenə orada, s.32).

40-cı illərin əvvəllərində Azərbaycanda qəddar valilərdən biri kimi tanınan Vüsüqissəltənə Tehranda qəzet müxbirlərinə verdiyi müsahibədə etiraf etməyə məcbur olmuşdur ki, "...Azərbaycanda iqtisadi böhranın baş verməsi və dərinləşməsi ilə dövlət az maraqlanır. Əməli layihələr hazırlanıb Tehrana göndərildiyinə baxmayaraq təəssüflər olsun ki, bunlara əhəmiyyət verilmir (212. 21 II 1324).

Beləliklə, 40-cı illərin ortalarında Güney Azərbaycandakı iqtisadi və sosial durum, göründüyü kimi, həddən artıq ağır və dözülməz idi. Belə bir şəraitdə yuxarıda haqqında bəhs etdiyimiz təşkilat və cəmiyyətlərdə vətənin azadlıq və qurtuluşu uğrunda mübarizə aparanların qabaqcıl dəstəsi, xüsusən açıq fikirli ziyalılar rejimə qarşı vahid və milli məramlı bir təşkilatın yaradılmasına ehtiyac duydular. Bu məqsədlə şah rejiminə qarşı ağır mübarizə yolu keçmiş bir neçə nəfər azərbaycanlı həmin illərdə Tehranda yaşayan S.C.Pişəvəri ilə məsləhəüəşməyə getdilər. S.C.Pişəvəri özü bu haqda yazır: "...Xalqın əli ilə işə başlamaq, xalqın

yumruğunun gücü ilə azadlığı təmin etmək - hu şüarla mən Təhriz azadxahlarının təklifi üzrə Tehrandan Azərhaycana hərəkət etdim” (147. s.32).

“Firqəmiz xalqın iradə vəgücünə dayanaraq öz haqqını alacaq və onun vasitəsi ilə xalqın azadlığını və ölkənin tərəqqisini təmin edəcəkdir”.

*12 Şəhrivər müraciətindən*

## S.C.PİŞƏVƏRİNİN AZƏRBAYCANDAKI FƏALİYYƏTİ (1945-1946)

Yuxanda qeyd etdiyimiz kimi S.C.Pişəvəri zindan və sürgündən azad olub “Ajir”in nəşri illərində və 14-cü çağınş İran Şura Məclisinə deputat göstərilməsi ilə bağlı bir neçə dəfə Təbrizə, doğma vətəninin bölgələrinə gəlmişdi. Bu gəlişlərdə o, şəhər, qəsəbə və kəndlərdə əhalinin sosial-iqtisadi durumunu, siyasi vəziyyəti, xalqın istək və arzularını öyrənmək imkanı əldə edə bilmişdi. S.C.Pişəvəri Tehranda yaşayıb, fəaliyyət göstərsə də doğma vətənlə heç vaxt əlaqəsini kəsməmişdi. Bu işdə ona Azərbaycandakı dostlarının, həmfikirlərinin, Tehrana vaxtaşın gələn qohum-qardaşın verdiyi məlumat və xəbərlərin önəmli olduğunu o, öz yazılarında dönə-dönə qeyd etmişdi.

Azərbaycandakı durum, hərəkat fəallarının, azadlıq istəyən qüvvələrin, Pişəvəri ilə həmfikir ziyalıların müraciət və təkidi ilə 1945-ci ilin yayında o, həmişəlik olaraq Təbrizə gəlir. Əməli işə başlamamışdan əvvəl o, Təbrizdə və bölgələrdəki (Ərdəbil, Zəngan, Sərab, Urmiya, Xoy, Mərənd və s.) durumla, xalqın ruhiyyəsi, istək və tələbləri ilə bir daha yaxından tanış olur. Hərəkat fəalları, “Ajir” “məktəbi”nin yetişdirdiyi kadrlarla, inqilabi mübarizə yolunda ağır smaqlardan keçmiş insanlarla, ağsaqqallarla, vətənpərvər ruhanilərlə geniş müzakirə və məsləhətləşmələr aparır. Bu haqda onun və silahdaşlarının xatirələrində dəyərli qeydlər və yazılar vardır.

1945-ci ildə Azərbaycandakı sosial-siyasi və iqtisadi durum elə bir həddə gəlib çatmışdır ki, millət rejimin zorakılığına müqavimət göstərməkdən başqa çıxış yolunun qalmadığını görür. Belə bir şəraitdə xalqın mübarizəsinə başçılıq edə bilən və onu əsas hədəfə yönəltməyi bacaran bir təşkilatın yaradılmasına ehtiyacın duyulur. Belə bir təşkilat S.C.Pişəvərinin başçılığı ilə 1945-ci ilin sentyabrın 3-də (12 Şəhrivər) yaradılmış Azərbaycan Demokrat Firqəsi olmuşdur.

Firqənin yaradılmasını və fəaliyyətini şərh etməzdən əvvəl belə bir məsələyə aydınhq gətirilməlidir ki, firqə təşkil olunana qədər İranda, o cümlədən Güney Azərbaycanda rejim əleyhinə çıxış edən bir sıra cəmiyyət və təşkilatların (“Zəhmətkeşlər təşkilatı”, “İran bidar”, “Zidd faşist”, “Azadlıq Cəbhəsi” “Demokratiya ocağı”, İran Xalq Partiyası (Tudə) və s.) olduğu bir zamanda S.C.Pişəvərinin başçılığı altında demokrat firqəsinin yaradılmasını zəruri edən hansı amillər idi? Yaradılmasında S.C.Pişəvərinin iştirakı və zəhməti olmuş İran

Xalq Partiyasının (Tudə) Azərbaycandakı təşkilatı ola-ola firqənin yaradılmasını nə zəruri etmişdi?

Bu suallara S.C.Pişəvərinin yazılarında, son illər çap olmuş xatirələrində yetərincə cavab tapmaq mümkündür.

Əvvələn İXP İranın milli zəminindəki xüsusiyyətləri, ölkənin əsasən aqrar və çoxmillətli bir ölkə olduğunu özünün fəaliyyət proqramında qabarda bilməmişdi. Orada həmçinin qeyri-fars xalqların milli tələblərinə və hüquqlarına yetərincə yer verilməmişdi. "Bu proqramda torpağın kəndliyə əvəzsiz olaraq verilməsi qeyd olunmalıydı" (177a. s.46). İXP rəhbərliyində elələri var idi ki, öz partiyasını təkcə fəhlə partiyası "daha doğrusu Kommunist partiyası olduğunu isbat etməyə çalışırdı" (Yenə orada). İqtisadi cəhətdən çox uklatlı olan İran kimi aqrar-kəndli ölkəsində təkcə azsaylı fəhlə sinfinin hegomonluğu altında rejimə qarşı mübarizəni uğursuz sayan S.C.Pişəvəri yazırdı ki, Hizb Tudənin başçıları arasında vahid bir nəzər olmadığından hər biri xalqı bir tərəfə çəkirdi, partiyanı sinifi bir partiya adlandırırdılar.

Yerli şəraiti, müxtəlif sinif və təbəqələrdən mövcud olan siyasi qüvvələrin vahid bir cəbhədə birləşdirilməsinin zəruriyyətini tam dərk edən S.C.Pişəvəri İXP rəhbərliyini tünd getməkdə, fikir pərakəndəliyində və daxildəki qüvvələrə düz olmayan mövqedən yanaşmaqda qınayırdı. O Tudə rəhbərliyinin yanlış hərəkətinə belə bir misal gətirir: "Əksəriyyəti azərbaycanlılardan ibarət olan məzhəbi bir ölkədə bir nəfər qeyri-azərbaycanlı, məsələn, erməni bir azadxahı təşkilata rəhbər təyin edən bir firqə üçün ümumin rəğbətini qazana bilməməsi təbii bir məsələ idi". Erməni Ardaşes Ovanesyanı Təbrizdəki təşkilata rəhbər təyin edən İ.X.P. MK xətt hərəkətindəki yanlışlığı qeyd edərək Pişəvəri yazır: "Hizb Tudənin Mərkəzi isə xalqın ruhiyyə və həssaslığını nəzərə almayıb, Azərbaycan təşkilatının başçılığına Ardaşes Ovanesyanı gətirilmişdir" (Yenə orada).

Beləliklə, S.C.Pişəvəri İran Xalq Partiyası (Tudə) rəhbərliyinin fəaliyyətində taktiki-nəzəri səhvlərlə, bəzən həddini aşan radikallıqla, təkcə fəhlə sinfinə söykənmək şüan ilə, milli məsələdə tutduqlan qeyri-qənaətbəxş mövqe ilə, kadr siyasətindəki yanlışlıqlarla və s. ilə barışmağın mümkünsüzlüyünü görüb milli və demokratik məramlı bir təşkilatın yaradılmasına ehtiyac olduğunu bildirdi. O, bu haqda yazırdı ki, "Azərbaycanda olan Hizb Tudə və digər siyasi təşkilat və cəmiyyətlər bu haqda düşünə bilmədikləri və ya düşünsələr də onu icra etməyə qadir olmadıqlarından qüdrətli bir təşkilatın yaranmasma ehtiyac olda Firqə bu zərurətdən yarandı" (Yenə orada, s.52).

S.CPişəvəri Firqənin yaradılması ərəfəsində ölkədə sabitliyə əməl olunması, qarşıdurmalardan və hər cür radikallıqdan çəkinməyə, düşmənin əlinə basqı üçün bəhanə verməməyə çağırırdı. Belə bir şəraitdə İXP-nın Azərbaycandakı rəhbərləri Təbriz ətrafında Liqvan kəndinə, yaşı 90-nı haqlamış Hacı Ehtişamini və onun oğlunu qətlə yetirib, əmlakını talan edilməsinə rəvac verməklə siyasi mühiti daha artıq kəskinləşdirmişlər. S.C.Pişəvəri bu ekstremist olayı pisləməklə yanaşı onun təşkilatçılan olan İXP-sı rəhbərliyi

təmsil edən Ardaşes Ovanesyanı, Xəlil Məlikini və İsfahanini Təbrizdən qovlatdırmışdır. (243.17.11.1383)

## AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN YARANMASI

## "12 ŞƏHRİVƏR" MÜRACİƏTİ

Güney Azərbaycanda 1945-1946-cı illərdəki milli-demokratik hərəkat tarixinə 12 Şəhrivər (3 sentyabr) müraciətnaməsi kimi daxil olan bu sənəd əslində yeni yaranan Azərbaycan Demokrat Firqəsinin (Bundan sonra ADF) Fəaliyyət Proqramının tezisləri idi. Xalqa müraciət şəklində təqdim olunan bu sənəd S.C.Pişəvəri və azərbaycanlı millətsevər ziyalılar tərəfindən hazırlanmışdı. "12 Şəhrivər müraciəti"ni ilk imzalayan 46 nəfər sırasında 1905-1911-ci illər Məşrutə və 1918-1920-ci illərdə Xiyabani hərəkatlarının iştirakçılarını və ya onların övladlarının, qohumlarının imzasını görmək mümkündür. Sonradan çapxanada öz imzasını könüllü əlavə etmiş (47-ci imza) çapxana fəhləsi Səlimül-nəfsin müraciətdəki imzalara qoşulmasının maraqlı məqamı vardı. 15 min nüsxə müraciəti 24 saat ərzində çap etməyin mümkünsüz (o vaxtkı çap maşını ilə) olduğunu deyən çapçı fəhlələr bu işi öhdələrinə götürmürlər. Onlar S.CPişəvərinin var qüvvəsini bu işə sərf etməsini, mətbəədə 3 sutka yuxusuz qaldığı üçün özündən asılı olmayaraq 2 saatdan artıq işçilərin nahar masası üstündə yatması çapçı fəhlələrin ruhiyyəsinə dərin təsir buraxır. Onların fasiləsiz, sürətlə işləmələri nəticəsində 15 min nüsxə müraciət 12 Şəhrivərin səhər xoruz banınadək hazır olur.

S.C.Pişəvərinin işə yorulmadan, cəsarətlə girişdiyinə şahid olan və müraciətdəkilərin ürəyindən olduğunu görən çapçı heç kimdən məsləhətiaşmədən, icazə almadan "12 Şəhrivər" müraciətini imzalayanlardan olur və bu işi ilə fəxr etdiyini bildirir (Yenə orada, s.56-57).

Müraciətnamə üç bölmədən ibarət olmuşdur(147.s.l-10).

ADF-nin yaradılmasını zəruri edən amillər;

Firqənin şüarları; müraciət edənlərin adı və soyadı*.

Müraciət S.C.Pişəvərinin yazılarında və deyimlərində tez-tez rastlaşdığımız bu sözlərlə bitir: "Biz əvvəl öz evimiz olan Azərbaycandan başlayırıq". Müraciətdə daha sonra deyilir: Biz inanırıq ki, Azərbaycanın islah və tərəqqisi təbii olaraq İranın tərəqqisinə səbəb olacaqdır və vətənimiz bu vasitə ilə quldurların və mürtəcelərin cəngəlindən nicat tapacaqdır. Yaşasın demokrat Azərbaycan! Yaşasın müstəqil azad İran!

Yaşasın İran və Azərbaycan azadlığının həqiqi məşəldarı olan Azərbaycan Demokrat Firqəsi!"

---

* Müraciətnamənin tam mətni üçün bax: Qızıl səhifələr, Təbriz 1324, s.

ADF-nin yaradılmasında Məşrutə inqilabının və Şeyx Məhəmməd Xiyabani hərəkatının fəalları, azadlıq istəyən bütün sinif və zümrələrin nümayəndələri, eləcə də məşhur "53-lər"dən olanlar yaxından və fəal iştirak etmişlər. S.C.Pişəvəri öz yazılarında bunlardan Hacı Əzim xan, Nizam əl-dövlə Rəfii, Müstəşar dövlə, Nurulla Yekani, Nemət Ağavəli Səmsam, Şeyx Borhani, Əli Fitrət, Əli Qəhrəmani, Tağı Şahin, Təsuclu Camal, Mirkazım Ələm, Cəfər Ədəbi, Mirəbdülhüseyn Faiqinin və s. adlarını çəkir. Bu şəxsiyyətlər Məşrutə hərəkatında və Xiyabani qiyamında, şahlıq diktaturası əleyhinə mübarizədə ağır və məşəqqətli yol keçmiş insanlar idi. Firqənin yaranmasını təkcə Pişəvərinin və ya xarici "buyruğun" adına çrxanlar və yazanlar firqənin meydana çıxdığı milli zamindən xəbərsiz olanlardı. Firqənin yaranmasına aid obyektiv yanaşmaq üçün həmin olaylara aid sənədlərə, hərəkatın canlı iştirakçısı olmuş insanların etiraf və xatirələrinə nəzər salmaq kifayətdir. Firqənin yaradılması və onun müraciətnaməsində irəli sürülən müddəalar ilk gündən azadlıq təşnəsi olan bir millətin bütün sinif və zümrələri, milli ruhlu insanları tərəfindən ruh yüksəkliyi ilə qarşılandı. Bunu firqənin rəhbərliyi adına Azərbaycanın müxtəlif bölgələrindən, müxtəlif peşə sahiblərindən: fəhlə, kəndli, tacir, mülkədar, ziyalı, ruhani və s. gələn çox saylı teleqram və məktublardan bir daha aydın görmək olur. Firqənin kütlə içərisində az zaman kəsiyində böyük rəğbətlə qarşılanması onun şüarlarında xalqın istək, arzu və tələblərinin əks olunmasıydı. Digər tərəfdən sinifi fərq yerinə milli birliyin ön plana çəkilməsi idi. Məsələnin məhz bu kontekstə qoyulması S.C.Pişəvərinin keçmişin səhvlərini düz nəzərə alması və milli zəminə yaxşı bələd olmasının nəticəsi və hərəkatda onun önəmli xidməti idi. Firqənin yaradılmasından 2 gün sonra (14 şəhrivər) nəşrə başlayan "Azərbaycan" qəzeti 50 ildən çox bu firqənin mərkəzi orqanı kimi çap olunmuş və kütləri firqə ətrafında toplamaqda, məram və məqsədi doğma dildə onlara çatdırmaqda əvəzsiz rol oynamışdı.

"12 Şəhrivər" müraciətnaməsindən bir həftə sonra Təbrizin "Şire-Xurşid" teatrosunun salounында S.C.Pişəvəri ADF-in təsisi və onun şüarları ilə bağlı geniş məzmunlu və əhatəli nitq söyləmişdi. 90-dəqiqəlik bu nitq əslində yeni yaranan partiyanın fəaliyyət proqramının müfəssəl şərhi idi*. Azərbaycan xalqının demək olar ki, bütün ehtiyac və problemlərinə toxunan və onlara məntiqlə açıqlama verən bu çıxışın sonunda S.C.Pişəvəri deyirdi: "Təkrar edirərn: biz İranın istiqlalına kamilən əlaqəməndik. Onun bir qarış torpağını ayrı bir ölkəyə vermək fikri əbədən meydanda yoxdur. Bizim istəyimiz Qınuni-əsasının bizə verdiyi daxili haqq və muxtariyyatdan ibarətdir. Dil məsələsi də bunun cüzvüdür".

Nitqin tam mətni üçün bax: "Qzıl səhifələr", Təbriz, 1325, s. 30-45.

(147. s.45). "Azadlığı verməzlər, alarlar" şüarına şərik çıxan S.C.Pişəvəri "... Haqqı almaq şayəd asan bir işdir, onu sax-lamaq şərtdir", - deməklə xalqı alınacağı azadlığı əldə saxlamağı bacarmağa çağırırdı.

* Nitqin tam mətni üçün bax: "Qızıl səhifələr", Təbriz, 1325, s. 30-45.

“12 Şəhrivər” bəyannaməsi ilə yarandığını elan edən ADF-in sıralarına ilk gündən axın başlandı (21. s.53-56). Bunun başlıca səbəbi illərdən bəri milli zülm və əsarət altında yaşayan, hüquqları əllərindən alınmış insanların firqənin müraciətindəki müddəalarda öz istək və arzularının həyata keçirilməsi işığını görməsi idi.

1945-ci il sentyabrın 7-də İXP-nın Azərbaycan Əyalət təşkilatı geniş konfrans çağırdı. Konfransın gündəliyində bir məsələ dururdu: Yeni yaranmış ADF-yə və “12 Şəhrivər” müraciətnaməsindəki müddəalara münasibət. Konfrans iştirakçılarının çox böyük əksəriyyəti ADF-in Azərbaycan xalqının ehtiyaclarına, milli istək və tələblərinə düzgün yanaşdığını qeyd etdikdən sonra İXP Azərbaycan təşkilatı rəhbərliyi təşkilatı cəhətdən İXP ilə əlaqəni kəsdiyini və Azərbaycan Demokrat firqəsinə birləşməsi (ilhaq olunmaq) haqda qərar qəbul etdi. Bu qərardan 5 gün sonra, 1945-ci il sentyabrın 12-də İXP-nın Azərbaycandakı bütün təşkilatları ADF-in sıralarına daxil oldular (209. 23 VI 1324).

S.C.Pişəvəri bunu Azərbaycanın siyasi mühitində baş verən önəmli və tarixi hadisə hesab edərək yazırdı: “Biz, Hizb Tudeye Tranın Azərbaycan təşkilatına rəhbərlik edən vətənpərəst və azadxah şəxslərin bu böyük fədakarlıqlarını səmimi qəlblə alqışlayırıq. Bu qəhrəman firqəçilər bizim xətt-hərəkətimizin doğruluğunu etiraf edərək altmış mindən çox üzvə malik olan bu təşkilatı firqəmizə yapışdırmaqla Azərbaycan xalqı üçün gözəl bir nümunə olacaqlar... Bu gündən etibarən Tudə təşkilatı tarixə keçir. Biz onun böyük işləri ilə bərabər səhvlərini də nəzərdə saxlamalıyıq” (147. s.25).

Müraciətdən aydın görünür ki, ADF yarandığı gündən İranın ərazi bütövlüyü daxilində Əncümənlərin fəaliyyətinə imkan vermək çərçivəsində Azərbaycana muxtariyyat istənilmişdi. Müraciətdə muxtariyyatın federativ dövlət səviyyəsinə qaldırılması arzulanır, bir sıra çoxmillətli ölkələrdə millətlərin federativ dövlət sistemində yaşadıqları örnək kimi qeyd olunur və göstərilir ki, “...Milli ixtiyarat və federasion üsulunu gözləməklə millətlərin tam fərdləri məmləkətin müqəddəratını həll etmək və dövlət işlərinə müdaxilə etməyə müvəffəq olmuşlar” (Yenə orada, s.1-2). Millətlərin öz daxili işlərini özlərinin həll etməyi mərkəzi dövlətə zərbə olacağını iddia edənlərə cavab olaraq müraciətdə deyilir ki, “... Məşrutəxahlıq cərəyanını vücuda gətirənlər və İran qanun əsasını yazanlar əyalət və vilayət əncümənlərini irəli çəkib, çalışmışlar ki, bu vasitə ilə ümumiran xalqını məmləkətin müqəddəratını təyin etməkdə şərik etsinlər. ...Əyalət və vilayət əncümənlərindən sükut ilə keçilməsi İran millətlərinin ictimai hüquqdan məhrum edilməsi deməkdir” (Yenə orada). Daha sonra müraciətdə göstərilir ki, İrandakı rejim bu məmləkətdə yaşayan millətlərin hüququna hörmət etməyib, onlara muxtariyyat verməsə, onlar “zülm və fişardan, yoxsulluqdan və biçarəlikdən yaxa qurtara bilməyəcəklər” (Yenə orada).

Beləliklə, ADF yaradılması ilə bağlı müraciət müxtəlif sosial-siyasi, iqtisadi və mədəni tələblərlə yanaşı, ölkədə Əyalət və Vilayət Əncümənlərinin azad və

müstəqil fəaliyyətinə icazə verilməsi tələbi, qeyri-fars xalqlara muxtariyyat verilməsi və ya federativ dövlət yaradılması təklifi ilə tamamlanır.

S.C.Pişəvərini separatçıhqda (təcziyyə tələb) suçlayan İrandakı hakim rejim nümayəndələri və real həqiqətləri təhrif etməyə aludə olmuş bəzi tarixçilər və yazarlar "12 Şəhrivər"dəki milli tələbləri görməməzliyə vururlar, onları İranı parçalamaq cəhdi kimi qiymətləndirirlər. Halbuki S.C.Pişəvərinin yazılarına, nitqlərinə və müsahibələrinə az-çox bələd olanlar onun separatçılıqdan həmişə uzaq olduğunu inkar edə bilməzlər.

Pişəvəri onu separatçılıqda, Güney Azərbaycanı ayırıb hansısa bir ölkəyə birləşdirəcək ittihamlara cavab olaraq bu haqda təkrar-təkrar dediyi sözləri 1945-ci il 10 sentyabr tarixli nitqində bir daha dilə gətirərək: "... Mən açıq deyirəm, Bizim sözümüz və təhbatımız İran sərhədi hüdudlarından kənarda deyildir. Biz İran sərhədləri daxilində danışmq. Bir dəfə bunu hamı nəzərdə tutarsa danışıb anlamaq asan olacaqdır" (Yenə orada, s.30). S.C.Pişəvərinin yazdıqlarına və dediklərinə istinad olunduqda bəlli olur ki, o, hər şeydən əvvəl İran daxilində Azərbaycanın muxtariyyat məsələsində israrh idi. 1945-ci ildə böyük dövlətlərin qəbul etdiyi "Atlanta xartiyası"na istinad edən və orada millətlərin öz müqəddəratını özü tərəfindən təyin edilməsi müddəasını qabağa çəkən S.C.Pişəvəri, muxtariyyatın məzmununu açıqlayaraq onun "dil azadlığı, milli mədəniyyət azadlığı və sair iqtisadi, siyasi və ictimai azadlıqlar"dan ibarət olduğunu və Azərbaycan xalqının mərkəzdən tələbin bundan ibarət olduğunu söyləyirdi.

1945-ci il sentyabrın 13-də (1324-cü il şəhrivərin 22-də) Təbrizdə ADF-in ilk konfransı çağırıldı. Konfransda bütün bölgələrdən firqə fəalları, ağır mübarizə yolu keçmiş şəxslər iştirak etmişlər. Konfransda Azərbaycanda və İranda siyasi vəziyyət müzakirə edildikdən sonra 11 nəfərdən ibarət belə adlanan "Müəssislər Komitəsi" yaradıldı və firqənin 1-ci qurultayını çağırmaq ona həvalə edildi. Müəssislər Komitəsinə S.C.Pişəvəri başçılıq edirdi.

İXP-nin Azərbaycan əyalət təşkilatının başçısı kimi S.Padiqan, İran Həmkarlar Şurasının Azərbaycan üzrə sədri kimi M.Biriya öz təşkilatları adından bəyanat verərək ADF-in sıralarına daxil olmaq (mülhəq) arzularını bildirdilər. Milli qüvvələrin vahid hədəfə doğru birliyini yaratmaq işində bu hadisə çox önəmli idi. Bu işdə S.C.Pişəvərinin təşkilatçılıq məharətini, kütlədə firqəyə və onun məramına inam yaratmaq bacarığını xüsusi qeyd etmək lazımdır.

İXP Azərbaycan təşkilatı Firqə sıralarına gəlməmişdən 1945-ci il sentyabrın 7-də əvvəl geniş tərkibdə Əyalət konfransı keçirmişdi. Bu konfransda ADF-ni yaradılması ilə bağlı "12 Şəhrivər" müraciəti geniş müzakirə olunduqdan sonra İXP Azərbaycan təşkilatlarındakı 60 min nəfərlik üzvü kollektiv şəkildə ADF sıralarına keçmək haqda yekdil qərar qəbul edilmiş və bu haqda məlumat Tehrana göndərilmiş nümayəndə vasitəsi ilə İXP MK-ə çatdırılmışdı. S.C.Pişəvəri bunu xalq hərəkatının irəliləyişində çox önəmli hadisə kimi qiymətləndirmişdi. O, "Azərbaycan" qəzetində çap etdirdiyi "Güc birlikdədir" məqaləsində bu məsələyə

işarə edərək yazırdı: "Bu konfrans müraciətnaməni və firqəmizin təşkili xəbərini çox şadlıq ilə istiqbal edib, Azərbaycan xalqının səadətini onun şüarlarında gördüyü üçün bir çox səbəbləri nəzərə alaraq hizbin Mərkəzi Komitəsi ilə (İXP MK-sını nəzərdə tutur - Ə.R) əlaqəsini kəsib firqəmiz ilə birləşməyi qərara almışdır". Pişəvəri bu hadisəni xalqın azadlıq mübarizəsindəki birliyinə parlaq bir nümunə kimi qeyd etmişdi (209. 21 VI 1324).

Yeri gəlmişkən qeyd etməliyik ki İXP rəhbərliyi nəinki partiyanın ADF sırasına daxil olmasından, hətta, ADF-nin yaradılmasından belə narazı olub, bu işə qısqanclıqla yanaşmışdı. Onlar öz narazıhqlarını Kremldəkilərə çatdırmaqdan belə çəkinməmişlər (191. 1387, N? 207, s.116) İXP rəhbərlərindən olan İyrəc İsgəndər etiraf edir ki, "biz Firqənin yaranmasından tam xəbərsiz olmaqla yanaşı və həm də bu işə müxalif idik, əslən bunu qəbul etmirdik" (173. s.171).

Sənədlər, kitablardakı yazılar və xatirələrdə gedən fikirlərdən məlum olur ki, İXP rəhbərliyi ilə S.C.Pişəvəri arasında mövcud olmuş ixtilafın köklü və prinsipial səbəbləri var idi. İXP rəhbərliyinin əksəriyyəti kommunist ideologiyası mövqeyindən az da olsa çəkinməmiş və bu ideologiyada heç bir dəyişiklik etmədən onu özlərinə sərməşq qəbul etmişlər. Onlar İranın çox millətli bir ölkə olduğunu və burada milli məsələnin ədalətli həllinin gündəmdə durduğunu qəbul etmək istəmirdilər[*]. Digər tərəfdən İXP özünü marksistleninçi hesab etdiyindən aparıcı qüvvə kimi ancaq fəhlə sinifinə arxalanırdı. Bu sinif o zaman (indi də) antirejim qüvvələr içərisində çox cüzi yer tuturdu. Bundan əlavə İXP rəhbərliyi bir çox hallarda milli zəmindəki şəraitə və yerli ənənə və xüsusiyyətlərə uyğun olmayan şüarlarla çıxış edirdi və s. Bu məsələlər S.C.Pişəvərinin İXP-dan qopmasına səbəb olmuş və Azərbaycan xalqının istəyinə və milli tələblərinə cavab verən yeni bir təşkişlatın yaradılmasını zəruriləşdirmişdir.

Çox gərgin və ciddi hazırlıqdan sonra ADF-in 1-ci qurultayı 1945-ci ilin oktyabrın 2-də (1324-cü il mehrin 10-da) Təbrizdə Firdovsi adına solonda keçirilmiş və iki gün davam etmişdi. Qurultayda Azərbaycanın bütün bölgələrindən firqə üzvləri tərəfindən seçilmiş 277 nəfər nümayəndə iştirak etmişdi. Nümayəndələr sosial-iqtisadi vəziyyətlərinə görə bütün sinif, təbəqə və zümrələri təmsil edirdi. Bu firqənin ilk gündən siniflər arasında fərq qoymamaq siyasətinə bir işarə idi. Məsələnin belə qoyuluşu firqənin qurultayda qəbul etdiyi məqamnamədə də öz əksini tapmışdır (151). I Konfransdan keçən qısa müddətdə S.C.Pişəvərinin başçılıq etdiyi Müəssislər Komitəsinin fəaliyyətinə qurultay müsbət qiymət vermiş və ölkədəki vəziyyət ətraflı təhlil olunaraq, götür-qoy edilmişdi. Belə bir şəraitdə hələ Rza şah vaxtı Urmiyada vali (Ostondar) olarkən öz qəddarlığı ilə ad çıxarmış Mehdi Fərruxi Azərbaycana vali təyin edildi. O, Azərbaycana "sabitlik" yaratmaq məqsədi ilə gəlmişdi. O, burada S.C.Pişəvərinin rəhbərlik etdiyi ADF-nin başçılığı

[*] Bu məsələ İXP yarandığı gündən S.C.Pişəvəri ilə partiya rəhbərliyi arasında mövcud olmuş başlıca ixtilaflardan idi. Əslində bu ixtilaf "Qəsr-Qacar" zindanından başlamışdı.

altında vulkan kimi püskürməyə hazır olan vəziyyəti görüb geri qayıtmaq məcburiyyətində qalır. Azərbaycana vali gəlməkdən imtina edən Mehdi Fərruxi Səidabad sarayında Məhəmmədrza şah tərəfindən qəbul edilir. O, Azərbaycanda durumun çox təlatümlü olduğunu, S.C.Pişəvərinin rəhbərliyi altında orada xalqın ayağa qalxdığını söylədikdən sonra aşağıdakı təklifi irəli sürür: "Hansı yolla olursa-olsun Təbrizdəki Firqə rəhbərliyini həbs edib Tehrana gətirmək". Şahın, baş nazirin (M.Sədrin), hərbi nazirin (İ.Zənd), Baş Qərargah rəisinin (H.Ərfə) və başqa məqam sahiblərinin iştirakı ilə keçən müşavirədə M.Fərruxinin təklifi bəyənilir və bunun icra olunması haqda məxfi məktub şah qoşunlarının Azərbaycandakı baş komandanı general-mayor Ələkbər Derəxşaniyə çatdırılır. Məktubdakı göstərişlə bağlı Ə.Derəxşani demişdi: "Ağalar, şahənşahın fərmanını icra etmək bizim hərbi və müqəddəs vəzifəmizdir. Lakin diqqətli oltnaq lazımdır. Bura Azərbaycandır!. Burada İranın digər əyalətləri kimi rəftar etmək olmaz. Təsəvvür edin, Azərbaycan İranın dövlət gerbindəki tacı və qılıncı saxlayan şiridir. İndi bu şir həyəcanlanmış və təlatümdədir. O qəzəblənsə, hərəkət etsə, qarşısını almaq çətin olar. Tac yerindən oynar, qılınc əldən düşər. Qorxaq Mehdi Fərruxinin xatirinə bütün Azərbaycanda qırğın yaranmasına icazə vermək olmaz. Bu mülahizələri baş qərargaha çatdırın".*

M.Fərruxinin Azərbaycandakı olaylardan qorxuya düşüb bura vali gəlmək fikrindən tam yayındıqdan sonra antiazərbaycançılığı ilə şahpərəstlər içərisində şöhrət tapan Murtazaqulu Bayat M.Fərruxinin yerinə 1945-ci ilin oktyabrında Azərbaycana vali təyin olunur. M.Fərruxidən fərqli olaraq M.Bayat "diplomatiyaya" əl ataraq, S.C.Pişəvəri və onun rəhbərlikdə olan məsləkdaşları ilə "dil" tapmağa çalışdı. Bu məqsədlə o, S.C.Pişəvərini dialoqa çağırdı. Bir müddət valini əvəz etmiş və sonra Təbrizdə maliyyə işləri üzrə məsul olan Dövlət şahini S.C.Pişəvərinin yanına göndərir. Dialoq üçün razılıq əldə edildi. Bunun üçün görüş dövlətə məxsus "Alaqapı"da yox, tanınmış din xadimi Siqətül-islamın evində, 1945-ci il dekabrın 1-də keçirilmişdi. Bu görüşdə S.C.Pişəvəri iştirak etməmişdi.

Bu məzmunda 2-ci görüş 1945-ci il dekabrın 3-də, saat 14-də Təbrizli əsilzadə İyrəc Əmir Zəkaəldövlənin evində keçirilmişdi. Bu görüşdə S.C.Pişəvəri ilə yanaşı, Rəfii və T.Şahin də iştirak etmişlər. Vali M.Bayat, Tehrandan gəlmiş bir neçə dövlət nümayəndəsi və Dövlətşahinin iştirakı ilə keçirilmiş bu görüş 2 saat çəkmişdi. M.Bayat başda olmaqla bu danışıqlarda S.C.Pişəvəri əvvəlcə qarşı tərəfi dinləmiş sonra bəyanatla çıxış etmişdi. Pişəvərinin bəyanatında dövlət nümayəndələri qarşısında irəli sürülən tələblərin qısa məzmunu bunlar olmuşdur:

1. Əncümənlərə fəaliyyət imkanı verilsin;
2. Azərbaycan dili məktəblərdə tədris edilsin və idarələrdə işlədilsin;
3. Dövlətin büdcə ayrılmalarında Azərbaycanın payı artırılsın;
4. Polis və jandarmaların zorakılıq və özbaşınalığına son qoyulsun;
5. İşsizliyin aradan qaldırılması üçün ardıcıl və təsirli tədbirlər götürülsün;

* Mirqasım Çeşmazər. "Bura Azərbaycandır" ("Novruz" qəzeti, 19 iyul,1991).

6. Kəndlərdə mülkədar (ərbab)-rəyət münasibətləri tənzimlənsin və torpaq məsələsi ədalətli həllini tapsın;

7. Demokratik azadlıqlar bərpa edilsin, insan haqlarına hörmət qail olunsun;

8. Azərbaycana öz daxili işlərini özü görmək üçün Muxtariyat verilsin və s.

Qarşı tərəf muxtariyyatdan başqa qalan tələblərin yerinə yetirilməyə söz versə də Tehranın yalan vədlərinə yaxşı bələd olan S.C.Pişəvəri Muxtariyyat məsələsində israrlı olduqlarını və nəyin bahasına olursa-olsun muxtariyyat tələblərindən əl çəkməyəcəklərini qarşı tərəfə bildirmişdi.

M.Bayatın başçılıq etdiyi nümayəndəlik muxtariyyatı "təcziyə tələblik" (İrandan ayrılma) kimi yazmış və bunun qəbul olunmazlığını bildirmişdi. S.C.Pişəvəri isə istənilən muxtariyyatın mahiyyətini açaraq bildirmişdir ki, bizim muxtariyyat tələbimiz İran sərhədləri daxilində, mərkəzi dövlət artibutlarının və xalqın xeyrinə olan qanunların qəbulu və İran Məclisində şirkət etmək istəyi ilə hüdudlaşır və s. qarşı tərəf muxtariyyat kəlməsindən xoflandığını və onun qəbul olunmazlığını təkrar-təkrar bildirdikdə S.C.Pişəvərinin son sözü Bayata bu olmuşdu: "Əgər mərkəzi dövlət zor tətbiq etməklə bizi susdurmaq istəsə onda Azərbaycan xalq son nəfəsə qədər öz haqqını müdafiə edəcək. Biz zora-zorla cavab vermək məcburiyyəsində qalacayıq" (177a. s.180-197).

Azərbaycanda xalq hərəkatı gücləndikcə, mərkəzi hökumətin ağalığının son günlərinin çatdığını hiss edən Tehran rejimi Tehranda yaşayan azərbaycanlıları da təqiblərə və zorakılıqlara məruz qoyurdu. Polis şəhərdə "sabitlik" yaratmaq adı ilə Tehranda türk mənşəlilərin evini bir-bir gəzir, adlarını, familyalarını və ünvanlarını qeydə alırdı. Bu ona görə edilirdi ki şəhərdə baş verən qanunsuz hərəkətləri, oğurluğu, soyqunçuluğu, zorlama və dələduzluğu türklərin adına çıxmaqla onların həbsinə əsas yaratsın. S.C.Pişəvəri "Polislə müxalif deyilik" adlı məqaləsində bu haqda yazırdı: "Mənim sərhəng (polkovnik) Seyfulla ilə söhbətim bu haqda oldu. Mən ona dedim ki, Tehrandakı azərbaycanlıların siyahısının tərtibi tam olan təqdirdə onları çətinlik çəkmədən ələ keçirmək üçündür. Mənim narazılığıma etiraz edən sərhəng bildirdi ki, "...dəfələrlə avtomobil "oğurluğu" guya türklərlə bağlı olmuşdur. Bu ağa oğurluğu ancaq türklərə şamil edir. Əslində bu bəhanədir, Tehrandakı türkləri nəzarətdə saxlamaq üçün idi" (218a. 21 VI 1325).

Azərbaycanlılara qarşı umumiran miqyasında təzyiqin və təqiblərin gücləndiyi bir şəraitdə ADF-in Təbrizdə keçirilən I qurultayı özünün 6-cı iclasında (son) ADF-in MK (42 nəfər) və Mərkəzi Təftiş Komissiyasını (12 nəfər) seçdi. Qurultay eyni zamanda firqənin taktika və strategiyasına aid bir sıra dəyərli təkliflərin əməli fəaliyyətdə nəzərə alınmasını məsləhət gördü. Bununla birlikdə I qurultay ADF-i Azərbaycandakı xalq hərəkatına rəhbərlik edəcək yeganə və səlahiyyətli təşkilat kimi rəsmiləşdirdi, onun məramnamə və nizamnaməsini qəbul etdi, mübarizəyə köklənmiş xalqı təşkilatlandırdı. Qurultay nümayəndələrinin son sözü bu olmuşdur ki, "Biz İran və Azərbaycanın nicatını bu firqənin bayrağı altında görürük. Onun müqəddəs şüarlarını həyata keçirmək üçün canımız, malımız

və namusumuz ilə mübarizə edəcəyik”. ADF I qurultayının materiallarında və qəbul edilmiş məramnamədə heç bir “izmdən” söhbət açılmır. Proletar diktaturasından, “bütün ölkələrin proletarları birləşin!” ənənəvi kommunist şüarından və nə də sosializm, kommunizmdən, sinfi mübarizədən ad belə çəkilmir. Qurultay Azərbaycan cəmiyyətini milli azadlıq və demokratik tələblər ətrafında başlıca hədəfə doğru vahid cəbhədə birləşdirməyi özü üçün əsas strategiya olaraq qəbul etmişdi. S.C.Pişəvəri ADF-nin strategiya, məqsəd və hədəflərindən danışarkən demişdi: “Həqiqi halda bizim firqəmiz kommunist firqəsi deyildi. Biz Azərbaycanda olan şərait daxilində xüsusi mülkiyyəti ləğv edə bilməzdik. Hizb Tudeye İranın səhvlərini təkrar etmək bizə yaramazdı. Biz eyləyə biməzdik ki, milli bir firqə olduğumuz halda birinci qədəmdə sinifi mübarizəni alovlandıraq. Bizim o günkü hədəfimiz Azərbaycanda fəqət milli-demokratik bir rejim yaratmaq, xalqı müasir və mütərəqqi yola çəkməkdən ibarət idi. Ona görə kommunist və ya sosialist adını üstümüzə qoya bilməzdik. Bu, hoqqabazlıq olardı” (177a. s.123).

Azərbaycanda və İranda siyasi vəziyyətin kəskinləşməsi, ADF-in I qurultayı ərəfəsində və qurultaydan sonra milli qüvvələrin daha artıq oyanışında diqqəti cəlb edəcək dərəcədə əmələ gələn dirçəliş mərkəzi dövləti daha artıq narahat edib qıcıqlandırırdı. Hərəkat əleyhinə əməlləri dalana dirənmiş dövlət XV çağırış məclisinə seçkiləri belə təxirə salmaq məcburiyyətində qaldı. O yaxşı bilirdi ki, əgər bu şəraitdə XV məclisə seçkilər keçirilsəydi, məclisdə demokratik qüvvələrin mütləq üstünlüyü şəksiz olacaq idi.

1945-ci ilin sonunda Güney Azərbaycanda siyasi hadisələrin istiqamətləndirilməsində, Xalq Konqresinin çağırılmasına təşəbbüsdə və fədai dəstələrinin (silahlı könüllülərin) yaradılmasında 18 noyabr 1945-ci ildə (17 Aban 1324) çağırılmış ADF-in II geniş plenumunun xüsusi rolunu qeyd etmək lazımdır (147. s.290-298). Plenumun gedişində əncümənlərin bərpa edilməsi, daxili muxtariyyatın əldə olunması, “zora zorluqla” cavab verilməsi məcburiyyəti və nəhayət inqilabı çevriliş üçün situasiyanın yetişdiyi haqda fikirlər plenumun sənədlərində xüsusi olaraq qeyd edilmişdi.

Milli azadlıq hərəkatında münasib fürsətin ələ düşməsini qeyd edərək S.C.Pişəvəri yazırdı: “Fürsətdən istifadə edə bilmək özü böyük istedad və ləyaqət istəyir. Biz fürsəti əldən verməyə razı ola bilməzdik” (135. s.219). İki gün davam edən geniş plenum, əslində, qarşıdan gələn günlərdə həyata keçiriləcək tədbirlərin proqramını vermişdi. Geniş kütlənin siyasi fəallığı və xalq tərəfindən seçilmiş nümayəndələrin iştirakı ilə Xalq Konqresinin çağrılmasına hazırlıq II plenumun qərarlarında xüsusi qeyd olunmuşdu.

“Biz İran istiqlal və təmamiyyətini dəfələrlə etiraf etmişik. Tehran isə bu istiqlaliyyəti pozmaq yolunda hər gün tazə fırıldaq çıxarır. İş belə gedərsə biz tamamilə ayrılıb müstəqil bir dövlət təşkil etməyə məcbur olacağıq. Ayrı çarə yoxdur...

İş belə gedərsə bizim ayrı çarəmiz qalmayacaq. Naçar gərək deyək: “Sizinki sizdə, bizimki bizdə”. Yaxamızdan əl çəkib qoyun bildiyimiz kimi öz evimizi idarə edək”.

*S.Pişəvəri*

## ÜMUMAZƏRBAYCAN XALQ KONQRESİ

Ölkədəki siyasi vəziyyətə qiymət vermək, rejim məmurlarının, xüsusən jandarmların zorakılıq və özbaşnalığının* qarşısını almaqdan ötrü gərəkli tədbirlərin görülməsi üçün geniş xalq toplantısına ehtiyac duyuldu. Azərbaycan faktiki olaraq S.C.Pişəvərinin dediyi kimi iki yol ayrıcında idi: ya istibdad rejiminin yaratdığı mövcud ağır vəziyyətlə razılaşmaq və ya xalqın bu vəziyyətdən çıxması üçün çıxış yolu tapmaq. ADF-in II geniş plenumu çrxış yolunun “yumruğa yumruq” göstərmək vaxtının artıq yetişdiyini bildirmişdi. Firqə Azərbaycan üzrə xalq elçilərinin ümumi məsləhət toplantısını keçirmək qərarına gəldi və fasiləsiz olaraq 10 gün (10-20 noyabr) ümumazərbaycan üzrə mitinqlər və yığıncaqlar keçirildi. Ümumxalq nümayəndələrinin toplantısını - Xalq Konqresinin çağrılması qərarlaşdırıldı. Xalq Konqresinə nümayəndə seçkiləri** başlıca olaraq üç şüar altında keçirilmişdi:

1. Rejim məmurlarının zorakılıq və özbaşnalığının qarşısını almaq;

2. Əyalət və Vilayət Əncümənlərinin demokratik əsaslar üzrə fəaliyyətinə imkan vermək;

3. İran daxilində Azərbaycana muxtariyyatın verilməsi. 2 gün davam etmişdi Konqresin qəbul etdiyi qətnamədəki müddəaların qısa məzmunu belədir:

- AXK özünü Müəssislər Məclisi elan edir;
- Əyalət əncumənin səlahiyyəti bir qədər artırılıb, İranın ərazi bütövlüyünə toxunmadan ona Azərbaycan Milli Məclisi (AMM) statusu verilir və vaxt itirmədən Azərbaycan Milli Məclisi çağrılır;
- Azərbaycan muxtariyyatı elan edir, Məclisə seçkilər üçün fərmanı Tehran yox, xalq özü verir;
- AXK nümayəndələrindən ibarət 39 nəfər seçilmiş milli heyət Milli Məclis çağrılıb və milli hökümət qurulanadək AXK-nin qərarlarını icrası və MM çağrılması işi ilə məşğul olmalıdır;
- Milli heyət S.C.Pişəvərinin yaxın silahdaşı olmuş Hacı Mirzəəli Şəbüstərinin sədirliyi ilə ilk tədbir olaraq AXK adından şaha, İran ali hakimiyyət orqanlarına və böyük dövlətlərə: ABŞ, SSRİ, İngiltərə, Fransa və Çin dövlətinə

---

* Bu haqda çox saylı faktlar və cinayəti əks etdirən şəkillər “Azərbaycan” (Təbriz) qəzetinin noyabr-dekabr nömrələrində çap olunub. Həmçinin bax: “Qzıl səhifələr”, s.301-312.

** Nümayəndələrin adları ilə tanış olmaq üçün bax: ədəbiyyat siyahısında Çeşmazərin göstərilən əsəri, (№ 21), səh. 87.

teleqramla müraciət edildi (150. s. 42-48). Bu müraciətlərdə bildirilirdi ki, "Onu bütün dünya bilsin, mütəməddün (sivil) dövlətlər gözlərini açıb görsünlər ki, Tehran dövləti Azərbaycan xalqından intiqam çəkir, ona azadlıq əvəzinə cəlladlardan, qatillərdən himayət edən, onların cinayətlərinin üstünü örtən xain ədliyyə məmurları, cani jandarm rəisləri, vəhşi və qan içən bəxşdar və dehdarlar verməkdədir" (209. 11 IX 1324). Müraciətdə böyük dövlətlərdən haqqı tapdalanmış Azərbaycan xalqına öz hüquqlarına və adi insani haqlarına sahib olmaqda kömək etmək xahiş olunurdu.

"Cin bismillahdan qorxan kimi" Tehran hakim dairələri, mürtəce qüvvələr, hətta "sol" məsləkli bəzi rəhbər xadimlər Azərbaycanın muxtariyyat istəmək tələbindən təşvişə düşürdülər*. Muxtariyyat tələbini "təcziyyə tələb"lə (İrandan ayrılmaqla) eyniləşdirirdi. Əslində onlar bu yolla Azərbaycandakı hərəkatın mahiyyətini ləkələmək istəyirdilər. S.C.Pişəvəri ADF-i "təcziyyə tələb"likdə ittiham edənlərə dəfələrlə cavab vermiş və göstərmişdi ki, bizim Tehrana ən sərt və konkret cavabımız bu olmuşdur ki, "Tehran hökuməti gərək bilsin ki, o ikiyol ayrıcında dayanmışdır: Azərbaycan öz yolunu intixab (seçmiş) etmiş, o azadlıq və demokrasi üsula doğru gedəcəkdir. Əgər Tehran irtica yolunu intixab edirsə, xudahafiz, buyurub Azərbaycansız yoluna davam etsin".

"Biz əvvəl işə başladıqda çox sadə bir sürətdə azadlığımızı təmin etmək istəyi ilə Əyalət və Vilayət Ən-cümənləri şüarını meydana atdıq. Tehran və onun başçısı dedi: bir teleqraf olmasın, min teleqraf olsun, biz bu haqqı verə bilmərik. Məsxərəli bu cavab xalqımızı bir addım daha irəli gedib əməli olaraq öz haqqını almağa, yəni Milli Məclisi və Milli dövləti yaratmağa vadar etdi"

*"Qzıl səhifələr"dən.*

## AZƏRBAYCAN MİLLİ MƏCLİSİ

1945-ci il dekabrın 12-də Təbrizdə Azərbaycan Milli Məclisi açıldı. Məclis öz işini Milli heyət tərəfindən hazırlanmış və Məclisin ilk iclasında yekdilliklə bəyənilmiş "Daxili nizamnamə" əsasında apardı. Bu nizamnamədə İranın ərazi bütövlüyü daxilində Azərbaycan muxtariyyatı - milli hökümətin yaradılmasını nəzərdə tutulurdu. Milli hökümətin strukturunda Xarici İşlər, hərbi və xarici ticarət nazirliyi yox idi. Bu o demək idi ki, Azərbaycan Milli höküməti İranın dövlət sistemində muxtar qurum kimi qalır. Belə bir muxtariyyat isə demokratik və sivil ölkələrdə o zaman da, indi də mövcuddur.

---

* "53-lər" sırasında şah zindanına salınmış İXP-nın görkəmli azərbaycanlı xadimlərindən biri, həmin partiyanın Azərbaycandakı təşkilatının rəhbərlərindən olan Əli Əmirxizidə Azərbaycanın muxtariyyat tələbi əleyhinə olanlar sırasında idi. Bu haqda bax: Məsud Behnud, oz Seyidziya ta Bəxtiyar. Tehran, 1377, səh. 247.

Milli Məclisin fəaliyyətə başlaması ilə bağlı 1945-ci il noyabrın 21-də AXK tərəfindən seçilmiş, Milli heyətin fəaliyyətinə xitam verildi. AMM 1945-ci il dekabrın 12-də (21 Azər) Azərbaycan Milli hökümətinin təşkili haqda qərar qəbul etdi və hökümәti təşkil etmək ADF-in sədri S.C.Pişəvəriyə tapşırıldı (150. s.55-56).

AMM-də Azərbaycan Milli hökümәti seçildikdən sonra məclis Təbrizdəki dövlətə məxsus hərbi qarnizonunun imkan daxilində qan tökmədən sülh yolu ilə təslim edilməsi S.C.Pişəvəriyə həvalə olundu. Artıq bu vaxt (11 və 12 dekabr səhər) Təbriz polis və jandarm idarələri fədailər tərəfindən tutulmuş, polis və jandarmalar tərksilah edilib evlərinə buraxılmışdı. Mərkəzi hökümət həm Təbrizdə və həm də Urmiyada qardaş qanı axıtmamaq üçün bütün vasitələri işə saldı. S.C.Pişəvərinin başçılığı altında fəaliyyət göstərən Azərbaycan milli hökümət rəhbərliyinin düşünülmüş və təmkinli hərəkəti Tehranın fitnəkar niyyətinin icrasına yol vermədi. Təbriz qarnizonunun başçısı general Ə.Derəxşani vəziyyətin çıxılmaz olduğunu Tehrana bildirib nə etməli olacağını soruşduqda, Tehran: “Əsgər və zabitlər sizinlə birlikdə son damcı qanınız qalana qədər vuruşmalısınız” cavabını vermişdi (110. s.407). Tehranın əsgərlərə qan tökmək müraciətinə cavab olaraq S.C.Pişəvəri yazırdı: “Sərbaz (əsgər) cəllad deyildir. O fəqət ölkənin sərhədlərini müdafiə etməyə borcludur. Onu qardaş qanı tökməyə vadar etmək olmaz. Belə bir əmr verilərsə, əsgər öz milli vəzifəsinə əməl edib, xalqla birləşə bilər. Bu hadisəyə dünyanın böyük milli hərəkatlarında çox təsadüf edilmişdir (209. 20 IX 1324).

Azərbaycandakı vəziyyət Tehranı təşvişə saldığından* həmin tarixi günlərdə fasiləsiz olaraq öz işini davam etdirən İran Məclisi Azərbaycandakı vəziyyəti müzakirə edən zaman azərbaycanlı (baxmayaraq onların çoxu şahpərəst idi) deputatları məclis iclasına buraxmamışdılar (209. 20 IX 1324). Şahın Azərbaycana qarşı qəzəblənmiş məmurları Azərbaycan şairi Xaqaninin adını daşıyan xiyabanı onun adından silib ingilis alimi Eduard Braunun adını vermişdilər. Bu münasibətlə S.C.Pişəvəri “Azərbaycan” qəzetində yazmışdı: “Ağaye Tehraniyan! “Elme şüma, məlum şod” (Sizin elminiz məlum oldu). Biz bunu elə əvvəldən bilirdik ki, siz həmişə imkan olduqca azərbaycanlının var-yoxunu alıb biganələrə verməyə hazırsız!” (Yenə orada 19 IX 1324).

Təbrizdəki qarnizonu qardaş qanı tökülməyə təhrik edən qərargah rəisi polkovnik (sərhəng) Vərəhram Ə.Derəxşanini silahlı toqquşma törətməyə qızışdırırdı (110. s.407; 182).

General Ə.Derəxşani əvvəlcə kazarmadakı zabit və əsgərlərin tərk-silah edilib təslim olmalarını istəmirdi. Bunu o, xatirələrində də etiraf edir. Belə bir şəraitdə hərbi kazarmanın əsgərlərinə S.C.Pişəvərini qələmi ilə yazılmış müraciət

* Azərbaycandakı hadisələr İrandakı bütün vətənpərvər qüvvələri, xüsusən haqqı tapdalanmış xalqları rejim əleyhinə ayağa qaldırmışdı.

mühüm rol oynamışdı. S.C.Pişəvəri qarnizondakı azərbaycanlı əsgər və zabitlərə müraciətində deyirdi ki, "Damarlarında azərbaycanlı qanı olan hər bir əsgər və zabit (sərbaz və əfsər) gərək Azərbaycanın və onun xalqının azadlıgına kömək etsin. Bəsdir indiyə qədər Tehran mürtəce hökümətinin bizə etdiyi tənə və təhqirlər. Sizin analarınızın südü o vaxt sizə halal ola bilər ki, siz onların namusunu hifz edəsiz...

Yaşasın Azərbaycanın rəşid, məmləkətinə, xalqına və öz doğma ata və analarına sadiq qalan əsgər və zabitləri!" (147. s. 330). Müraciətnamənin kazarmaya ötürülməsi və səs qüvvətləndiricilərlə yayılması kazarmadakılar arasında parçalanmanı gücləndirdi. Əsgər və zabitlərin xalqa artan rəğbəti və Baş qərargahın göstəriş və əmrlərini icra etməkdən yayınması meyilinin getdikcə artması və digər səbəblər son hesabda Ə.Derəxşanini geri oturmağa məcbur etdi. S.C.Pişəvəri başda olmaqla danışıq aparmaq üçün bir neçə mömün ağsaqqal və millət vəkilləri 1945-ci il dekabrın 13-də (22 Azər saat 20 radələrində) Təbrizdəki 3-cü ordunun kazarmasına gəldilər. Nəticədə 3-cü ordunun Təbriz hərbi qarnizonunun baş komandanı general Ə.Derəxşani ilə S.C.Pişəvəri arasında 7 maddədən ibarət olan qərardad imzalandı (147. s. 447-449; 110. s. 408-409). Həmin qərardad əsasında kazarmadakı ordu silahı yerə qoyub təslim oldu. Kazarmadakı əsgərlərin və zabitlərin təhlükəsizliyi təmin olunaraq onlar istədikləri yerə yola salınmışlar. S.C.Pişəvəri bu işi Daxili işlər naziri S.Cavidə həvalə etmişdir (176. s.110). General Ə.Derəxşani, polkovnik Vərəhram 7 nəfər yüksək rütbəli zabitlə birlikdə təyyarə ilə Tehrana çatdırıldıqdan sonra şah onların həbs edilməsi haqda əmr vermişdi. S.C.Pişəvəri Tehranın bu əməlinə cavab olaraq demişdi:

"General Derəxşani və zabitlər qrupunun həbs olunması ağılsız hərəkətdir. Derəxşani öz iradəsi ilə təslim olmadı. Sadəcə olaraq, onun əsgər və zabitləri xalqa güllə atmaq istəmədilər" (176. s. 110).

Təbrizdəki hərbi qornizonun qansız-qadasız təslim olmasında S.C.Pişəvərinin böyük zəhməti və xidməti olmuşdur. O, bu işdə hərbi-siyasi bir strateq kimi bütün vasitələrdən (diplomatik, hərbi, dini, siyasi və b.) bacarıqla istifadə edib, məqsədə uğurla çata bilmişdir. O, AMM-in son iclasındakı nitqində demişdir. "Gördüyümüz işlər tarixdə səbt olsun. Qoy tarixə yazılsın ki, qan tökülmənin qabağını almaq üçün mən 6 saat general Derexşani ilə danışıq aparmağa məcbur oldum. Axırda xalqın arzusunu yerinə yetirməyə müvəffəq oldum. Mən özümü tərifləmək istəmirəm. Bu mənim şəxsiyyətimə də yaraşan bir iş deyil. Mən bir fədai kimi tapşırığı yerinə yetirmişəm" (120. s.149).*

* "21 Azər" hərəkatının iştirakçısı Bağır İmrani S.C.Pişəvəri şəxsiyyəti ilə bağlı danışırdı ki, "Mən hərbi nazirliyin dəftərxanasında işləyirdim. Bir gün ağaye Pişəvəri qəflətən bizim idarəyə gəldi. Əvvəl bizim otağa daxil oldu və səmimi salamlaşdı. Sonra divara vurduğumuz azərbaycanlı rəhbərlərin Səttərxan, Sərdari Millinin, Şeyx Məhəmməd Xiyabaninin və bir də öz şəklinə nəzər saldıqdan sonra soruşdu: "Bu şəkilləri kim belə düzüb?" Mən hərbi qaydada ayağa qalxıb dedim: "Cənab baş nazir bu şəkilləri mən divara vurmuşam. O mənalı baxışlarla məni süzdü və dedi: "Oğul, bu Səttərxandır, bütün İrana məşrutə (azadlıq) verdi. Xiyabani böyük mütəfəkkir və Azərbaycanı bir neçə ay olsa da, azad yaşadan insan

Azərbaycanda xalq hərəkatının silahlı üsyan səviyyəsinə yüksəlməsi hər şeydən əvvəl xalq üçün başqa çıxış yolunun qalmaması ilə bağlı olmuşdur. Bu həqiqəti XIV İran Şura Məclisinin 1945-ci il 9 dekabr (1324-cü il 18 Azər) iclasında böyük ictimai xadim doktor M.Müsəddiq etirafı çox dəyərlidir. O, demişdi: "Azərbaycanda olayların başlıca səbəbi xalqın haqlı şikayətlərinə baxılmaması, jandarm və mürtəce xanlar tərəfindən yüzlərlə günahsız kəndlinin vəhşicəsinə öldürülməsidir... Azərbaycan xalqı hiss etmişdir ki, bu məclis, bu dövlət heç bir zaman onun dərdlərinə çarə etməyəcəkdir. Ona görə Azərbaycan özü özünə çarə yolu axtarmaq üçün ayağa qalxmışdı" (207. 1358, № 2, s.551; 219. 15 VII 1325) Bu fikri bir qədər başqa tərzdə XX əsr İran tarixində hiyləgər diplomat kimi ad qoymuş Qəvamülsəltənə də "Royter" müxbirinin suallarına cavab verərkən təkrar etmişdi.

"Biz İranın müstəqilliyinə hörmət edirik, lakin belə olsa bizim ayrılıb müstəqil dövlət təşkil etməkdən başqa çarəmiz qalmır."

*S. C. Pişəvəri*

## S.C.PİŞƏVƏRİ VƏ AZƏRBAYCAN MİLLİ HÖKÜMƏTİ

Azərbaycan Milli Məclisi 1945-ci il dekabrın 12-də (21 Azər) keçirdiyi iclasında Azərbaycan Milli Hökümətini (AMH) təşkil etməyi S.C.Pişəvəriyə tapşırdı. S.C.Pişəvəri həmin gün Məclisin günortadan sonrakı iclasında Milli hökumətin tərkibini aşağıdakı heyətdə Məclisin müzakirəsinə və təsdiqinə təqdim etmişdir:

Baş nazir (vəzir) - Seyid Cəfər Pişəvəri
Daxili İşlər naziri - Salamulla Cavid
Xalq qoşunları naziri - Cəfər Kaviyan
Kənd təsərrüfat naziri - doktor Mehtaş
Maarif naziri - Məhəmməd Biriya
Səhiyyə naziri - doktor Urəngi
Maliyyə naziri - Qulamrza İlhami
Ədliyyə naziri - Yusif Əzima
Poçt-teleqraf naziri - Mirzə Rəbi Kəbiri
Ticarət və İqtisad naziri - Rza Rəsuli

---

olmuşdur." Barmağı ilə öz şəklini göstərib dedi: "Axı bu hələ heç nə etməyib. Hər bir şey nəticəsi ilə qiymətləndirilir. Biz istədiyimiz məqsədə hələ tam çatmamışıq. Mənim şəklimi o böyük insanlarla bir cərgədə qoyma. Xahiş edirəm elə indi şəklimi ordan çıxardasan." Mən rəhbərin, baş komandanın əmrinə tabe olmaya bilməzdim. Divarda iki şəkil qaldı. Səttərxan Sərdari Milli və bir də Şeyx Məhəmməd Xiyabani".

Yuxarıdakı tərkib Məclis tərəfindən təsdiqlənəndən sonra Zeynalabdin Qiyami Ali Məhkəmənin rəisi, Firudun İbrahimi isə Baş prokuror vəzifələrinə təyin olunmuşlar (209. 22 IX 1324).

Azərbaycan Milli hökümətinin fəaliyyətinin başlanğıcında ciddi çətinlik törədən məsələlərdən biri Azərbaycanın ikinci böyük şəhəri Urmiyanın (Rzaiyyə) düşmən əlində qalması idi. S.C.Pişəvərinin başçılıq etdiyi hökümət Təbrizdə olduğu kimi Urmiyada da öz fəaliyyətinin ilk günündən düşmənlə məsələni danışıqlar yolu ilə həll etmək niyyətində olduğunu Urmiya qarnizonun başçısı Zənginəyə bildirdi. "Bilirdik ki, iş davasız, döyüşsüz ötüşməyəcək... Çalışırdıq silah işlətməkdə əvvəlinci olmayaq" (S.C.Pişəvəri). Urmiyadakı qarnizonun mühasirəyə alınması zamanı milli hökumətin hərbi qüdrəti xeyli artmışdı. Milli hökümətin təşkilindən keçən bir həftə ərzində əvvəl azad edilmiş bölgələrdən əlavə Qaradağ mahalı, Ərdəbil, Xalxal, Kəleybər və Miandab rayon və şəhərləri ətraf kəndləri ilə birlikdə şahpərəstlərdən tam azad edilmişdi. "Aparılan əməliyyatlar zamanı İran ordusunun 5983 nəfər əsgər və zabiti tərk-silah edilmiş, onlardan 4 top, 1000 mərmi, 205 pulemyot, 3577 tüfəng, 22 tapanca, 6 tank, 2 minomyot, 300 mina, 470 min patron alınmışdı. Təkcə Rzaiyyə və Ərdəbil jandarm bölüyündən 2800 nəfərə yaxın jandarm tərk-silah edilmiş, onlara məxsus 565 tüfəng, 31 min patron fədailər tərəfindən müsadirə edilmişdi" (235. 26 VIII 1381). Əli hər yerdən üzülən Tehran höküməti öz ümidini Urmiyadakı (o vaxtkı Rzaiyyə) ağır silahlarla və bir neçə tankla təchiz olunmuş 4-cü ostan Qarnizonuna bağladı. Təbrizdə qardaş qırğını salmağa müvəffəq olmayan Tehranın irticaçı qüvvələri növbəti qanlı səhnəni Urmiyada yaratmaq istədilər. Bunun üçün 4-cü əyalət (ostan) sayılan Qərbi Azərbaycanın qubernatorunu əvəz edən və Urmiyyə hərbi qarnizonunun başçısı polkovnik Zənginəyə hər cür kömək və şirnikləndirici vədlər verilsə də son hesabda Urmiyadakı hərbi qarnizon da təslim olmağa məcbur edildi.

Beləliklə, Azərbaycan ərazisi tam olmasa da, Zəngandan Culfaya qədər, Astaradan Maku və Salmasa qədər ərazidəki kənd və şəhərlər Tehranın əsarətindən azad oldu. Bu 1828-ci ildən İran şahlarının, XX əsrin 20-ci illərindən isə Pəhləvi sülaləsinin caynağına keçirilmiş bir məmləkətin Güney Azərbaycanın milli azadlıq mübarizəsində qazandığı tarixi qələbə idi.

Azərbaycan Milli Məclisinin 1945-ci il 13 dekabr tarixli iclasında təsdiq olunmuş Azərbaycan Milli hökümətinin 20 maddədən ibarət olan fəaliyyət proqramı bütün istiqamətlərdə S.C.Pişəvərinin rəhbərliyi altında icra edilməyə başlamışdı. Bu proqram öz dövrünə görə çox geniş və əhatəli idi*. Proqram aşağıdakıları əhatə etmişdir:

Azərbaycan muxtariyyatının dünyaya tanıtdırılması, demokratik əsaslarla Əncümən seçkilərinə başlamaq və Əncümənləri təşkil etmək, şəhər və kəndlərin

* İş proqramının tam mətni üçün bax: "Qzıl səhifələr", səh. 435-438.

abadlaşdırılması, yerlərdə dövlət vəzifələrinə vətənpərvər və vicdanlı adamları irəli çəkmək, ədalətli vergi qanunu tətbiq etmək, fədai dəstələrinin və xalq qoşunlarının təchizatına və təliminə fikir vermək, tədrisin və bütün ölkədə yazışmaların ana dilində aparılmasına, savadsızlığın ləğv edilməsinə nail olmaq və milli darülfünunun açılmasını tezləşdirmək, iqtisadi tədbirlər sırasında ədalətli torpaq islahatının keçirilməsi, ərbab-rəiyyət münasibətlərinin nizama salınması, dayanmış istehsal müəssisələrinin işə salınması və yeni sənaye obyektlərinin inşası, milli sahibkarlığın dəstəklənməsi və təşviq edilməsi, infrastrukturun nizama salınması və onun ahəngdar işinin təmin edilməsi, işsizliyi aradan qaldırmaq üçün təsirli tədbirlərin həyata keçirilməsi, mütərəqqi iş qanunu və sığortanın tətbiqi, səhiyyə xidmətinin yaxşılaşdırılması, Azərbaycanda yaşayan milli azlıqlara azərbaycanlılarla bərabər hüquq verilməsi və onların milli dil, mədəniyyət, adət-ənənələrinin inkişafına dövlət səviyyəsində qayğı göstərilməsi, İran hökümətinin Azərbaycanın milli mənafeyinə zidd olmayan qərar və qanunlarının tanınması və s. və i.a. - bütün bunlar hamısı S.C.Pişəvərinin başçılıq etdiyi Milli hökumətin fəaliyyətinin əsasını təşkil etmişdir (146. s.46-70). Bununla belə deməmək mümkün deyil ki, iqtisadiyyat və quruculuq sahəsində görülən işlər, milli mədəniyyətin inkişafına göstərilən qayğı, ilk növbədə Azərbaycan türkcəsinin rəsmi dövlət dili elan edilməsi və bütün Azərbaycanda bu qanunun həyata keçirilməsi, Təbrizdə dövlət universiteti, dram teatrı və filarmoniyanın açılması, şair və yazıçılar birliyinin, bəstəkar və memarlar cəmiyyətlərinin yaradılması, çap işinin yüksək səviyyədə təşkili və i.a. - bunlar hamısı Güneydə geniş miqyash iqtisadi dirçəliş və mədəni inqilabdan xəbər verirdi (41. s.223).

Azərbaycan Milli hökumətinin həyata keçirdiyi tədbirlər sırasında azərbaycan dilinin rəsmi dövlət dili elan edilməsi, məktəblərdə tədrisin, dövlət idarələrində danışıq və yazışmaların ancaq bu dildə aparılması dövlətin rəsmi göstərişi ilə maarif nazirliyinin 1 №-li əmri ilə (yanvar 1946) həyata keçirilmişdi (150. s.76). S.C.Pişəvəri hökumət başçısı kimi ana dilinin məktəb və tədris müəssisələrində işlədilməsinə, bu sahədə mövcud çətinliklərin tez aradan aparılmasına xüsusi diqqət ayırmışdı. Bu cəhətdən S.C.Pişəvərinin maarif nazirliyinə ünvanladığı 1324-cü il 28 Azər tarixli 28/465 №-li sərəncamda aşağıdakılar qeyd olunur:

1. Bütün milli və dövlət məktəblərində təlim və tərbiyənin Azərbaycan dilində aparılması üçün hazırlıq işləri görülsün.

2. Maarif nazirliyi tərkibində "dərs kitabları hazırlayan şöbə" yaradılsın.

3.Alimlər, təcrübəli müəllim və məktəb müdirləri hazırlıq işinə cəlb edilsin.

4.Azərbaycan dilində çap olunacaq dərsliklər nəzarət komissiyasının rəhbərliyi ilə hazırlansın və bu haqda maarif nazirliyi məlumatlandırılsın.

5.Əlifbadan əlavə, ədəbiyyat, tarix, hesab, fizika, coğrafiya və s. fənlər üzrə kitablar hazırlanıb, çapa verilsin.

6.Dərsliklər hazırlayan şöbənin rəyasət heyətinə təcrübəli, məlumatlı və savadlı şəxslər cəlb edilsin.

7.Dərsliklər hazırlayan şöbə 5 gün ərzində xərclənəcək pul və vəsaitinin miqdarını müəyyənləşdirsin.

8.Dərslikləri hazırlayan şöbə bir aydan gec olmayaraq 1-4 siniflər üçün azərbaycanca dərslikləri hazırlayıb, çap etdirsin.

9.Bütün milli və dövləti məktəb rəhbərlərinə göstəriş verilsin ki, azərbaycanca dərsliklər hazırlanana qədər mövcud dərsliklərdən istifadə etməklə tədrisi ana dilində aparsınlar (209. 301X1324).

S.C.Pişəvəri ölkədə savabsızlığın ləğv edilməsinə, xalqın maariflənməsinə, elmə, mədəniyyətə yiyələnməsinə xüsusi diqqət vermiş və qayğı göstərmişdi. O deyirdi ki, "Maarifsiz bir millət yaşaya bilməz. Dünya bilik, maarif və mədəniyyət üstündə dayanır." (120. s. 23)

Amerikalı müəllif C.Foranın yazdığı kimi "Milli Hökumətin bir ildə gördüyü işləri Rza şah rejimi heç 20 ildə də görə bilməzdi. Ona görə ki bu işləri görmək üçün damardakı qan türk qanı, millətə və vətənə bağlı qan olmalı idi. Həm də S.C.Pişəvərinin ətrafındakı insanların çoxu ağır mübarizə yolu keçmiş mətanətli insanlar idi.

S.C.Pişəvərinin başçılıq etdiyi hökumətin fəaliyyətində ümdə məsələlərdən biri də Azərbaycana İran daxilində muxtariyyatın verilməsi məsələsi olmuşdur. S.C.Pişəvəriyə görə milli Muxtariyatı əldə etmədən millət üçün azadlıq təmin oluna bilməzdi və bu muxtariyyat başlıca dövlətlərin zəmanəti ilə Tehrandan alınmalıydı. Bu haqda 21 Azər nehzətindən 17 gün sonra, 1945-ci ilin dekabrın 29-da S.C.Pişəvəri ilə ABŞ-ın Təbrizə təzə gəlmiş konsulu Robert Rosso arasındakı söhbətdə də bəhs olunmuşdur. RRossounun "əgər şah sizin muxtariyyatınızı tanısa, Azərbaycan demokratları buna necə baxarlar?" sualına S.C.Pişəvəri: "Təkcə şahın tanıması Azərbaycan Milli Muxtariyyatının mövcudluğu üçün təminat ola bilməz. Şah öz qərarını sabah ləğv edə bilər. Azərbaycan xalqı öz qanuni tələblərinə həqiqi təminat istəyir ki, bu da bütün demokratik dövlətlərin, o cümlədən Amerika hökumətinin yardımından və müdafiəsindən ibarət ola bilər" (209.15 X 1324).

## "AZƏRBAYCAN" QƏZETİ VƏ S.C.PİŞƏVƏRİ*

Ağır və zəngin mübarizə yolu keçmiş S.C.Pişəvəri jurnalistika sahəsində böyük təcrübə və iti qələm sahibi olmuşdur. Bunu onun qələmindən çıxan yazılardan aydın görmək olar. Onun fikrincə kütləni öz hüquqları uğrunda mübarizəyə qaldırmaqda və bu mübarizədə onun uğurlar əldə etməsində, milli

* S.C.Pişəvərinin mətbuat sahəsindəki fəaliyyəti haqda geniş məlumat üçün bax: Həmid Məhəmmədzadənin namizədlik dissertasiyası (əlyazması hüququnda). Bakı, 1955; Həmçinin bax: Vüqar Əhmədin doktorluq dissertasiyasına. Bakı, 1998.

oyanış və səfərbərlik işində mətbuat əvəzsiz vasitədir. Mətbuata böyük önəm verən S.C.Pişəvəri təsadüfı deyil ki, 10 illik zindandan azad olduqdan az sonra "Ajır" qəzetini çıxartmağa təşəbbüs etmişdi. "Ajir"in nəşrində S.C.Pişəvəri ilə yaxından həmkarlıq edən Kərim Kəşavərz öz xatirələrində yazır ki "İran cəmiyyətini Pəhləvi diktaturasına və istebdada qarşı ayağa qaldırmaqda başqa mütərəqqi ruznamələrlə (qəzetlərlə) müqayisədə "Ajir" ölçüyəgəlməz iş görmüşdü. "Ajir"in hər sayında ağaye Pişəvərinin çap olmuş məqalə, felyeton və yazıları onun dərin biliyə, iti qələmə, sərrast və geniş düşüncə sahibi olmasına şəksiz dəlalət edir" (K.Kəşavərzin xatirələri kitabın sonunda verilir).

ADF yaradıldıqdan iki gün sonra Təbrizdə ana dilində "Azərbaycan" qəzeti nəşrə başlamışdı. Qəzetin səhifələrində ilk zamanlar farsca da məqalələrə yer verilmişdir. Qəzetin yubanmadan nəşri məsələsini S.C.Pişəvəri ortalığa gətirmiş və az müddətdə qəzet öz ətrafına Həmzə Fəti Xoşginabi, İsmayıl Şəms, Firidun İbrahimi, Məhəmməd Biriya, Əli Fitrət, Yəhya Şeyda, Balaş Azər oğlu və s. gənc jurnalistləri, yazıçı və şairləri toplaya bilmişdi. Aparılan araşdırmalar göstərir ki, "Azərbaycan" çap olan gündən - 5 sentyabr 1945-ci ildən 1946-cı ilin sonunadək qəzetin elə bir nömrəsi olmamışdır ki, onun baş və ya sütunlarda gedən məqalələri S.C.Pişəvəri yazmamış olsun. Həmin dövrdə S.C.Pişəvəri ilə "Azərbaycan"ın nəşrində əvvəl ədəbi işçi, sonra redaktor işləmiş mərhum yazıçı H.F.Xoşgünabı söyləyirdi ki, qəzet çapa gecikən vaxt və ya hər hansı vacib məqaləni qəzetin səhifəsində çap etməkdən ötrü S.C.Pişəvəri bəzən mətbəədə gecələməli olurdu. Onun "döşəyi" taxta stullar, "yastığı" isə kitab qalağı idi. Sonralar "Azad Millət" qəzetinin baş redaktoru olmuş İsmayıl Şəms həmin günləri xatırlayaraq "Qəzetin elə bir nömrəsi olmurdu ki, çapa getməmişdən əvvəl S.C.Pişəvəri orda gedən məqalələri nəzərdən keçirməsin, fikir və imla xətalarını düzəltməmiş olsun".*

S.C.Pişəvərinin jurnalistlik fəaliyyətini tədqiq və təhlil edən H.Məmmədzadə yazır ki, "S.C.Pişəvəri təkcə "Azərbaycan" ruznaməsinə (qəzetinə) məqalələr yazaqla kifayətlənmirdi. Ana dilində nəşr olunan 50-dən artıq qəzet və dərgi səhifələrində onun nəfəsi, alovlu qələminin hərarəti duyulurdu" (75. s.49).

Pişəvərinin təmiz və sadə dili, özünəməxsus üslubu olmuşdur. 40-cı illərdə Güney Azərbaycanda yeni jurnalist nəslinin yetişməsində onun əvəzsiz xidməti olmuşdu.

Nəinki ədəbi və yazı dili, hətta məişət və ünsiyyətdə be lə danışıq dili əlindən alınmış, məktəblərdə doğma ana dilində tədrisin qadağan edildiyi bir ölkədə az zaman kəsiyində öz ana dilində məqalələr, şeir, hekayə yazmaqdan əlavə, səhnə tamaşaları, ədəbi-bədii görüşlər keçirmək, radio veri-lişləri aparan insanların öz ana dilinə məhəbbət və bağlıhğı hər bir kəsi heyran qoyur. Bu işdə

---

* İ.Şəmsin S.C.Pişəvəri haqda xatirələri kitabın sonunda verilib.

S.C.Pişəvərinin açdığı cığırın və göstərdiyi nümunəvi önəmini xüsusi qeyd etməliyik. Həmzə Fəti Xoşginabi, İsmayıl Şəms, Balaş Azəroğlu, Firidun İbrahimi, Həbib Sahir, İbrahim Zakir, Mir Mehdi, Etimad, Əli Fitrət, Yəhya Şeyda, Əli Tudə, Mədinə Gülgün, Həkimə Billuri, Haşım Tərlan, Məhəmməd Tahir, Məmməd Hüseyn Bürhani və s. i.a. Bunlar "Azərbaycan" qəzetinin və S.C.Pişəvəri məktəbinin yetirmələri olmuşlar (67 və 75).

Beləliklə, S.C.Pişəvərinin mətbuatdakı fəaliyyəti siyasi məqsədə çatmağa yönəlmiş bir fəaliyyətdən əlavə, həm də doğma ədəbi dili tez mənimsəməkdə və bu dildə səlis yazmaqda gənc jurnalistlərə, şair və yazarlara qiymətli örnək olmuşdur.

Ana dili uğrunda inadla mübarizə aparmış və doğma dilin saflığını saxlamağa səy edən S.C.Pişəvəri dilinin təmizliyi cəhətdən (bəzi fars və ərəb mənşəli sözləri nəzərə almasaq) başqalarından fərqlənirdi. "O, ana dilini unutmamaq və onun saflığını qoruyub saxlamaq xatirinə "Qəsr Qacar" zindanında məhbus kimi yatarkən M.Ə.Sabirin, S.Ə.Şirvaninin, M.Ə.Möcüzün, Səid Salmasinin və başqa Məşrutə şairlərinin şeirlərini təkrar-təkrar oxuyar, xalq deyimlərini, bayatıları və xalq mahnılarını yada salarmış. Bu təmrinlər S.C.Pişəvəri nitqinin təmizliyinə, sözlərin yerində və düz işlədilməsinə çox kömək etmişdi". Bu sözləri S.C.Pişəvəri ilə "Qəsr-Qacar" zindanında yatmış mərhum tarixçi alim Tağı Şahin söyləyirdi.

S.C.Pişəvəri qələminin və təfəkküründəki qüdrəti anlamaq üçün onun məqalələrindən bəzi fraqmentləri nəzərdən keçirək.

## S.C.PİŞƏVƏRİNİN ÇIXIŞLARINDAN VƏ MƏQALƏLƏRİNDƏN

ADF yaranandan bir həftə sonra, 1324-cü il Şəhrivərin 19-da (10 IX 1945) Təbrizin "Şir-Xorşid" teatrosu salonunda Pişəvərinin etdiyi tarixi çıxışından bəzi məqamları və "Azərbaycan" qəzetindəki məqalələrdən parçaları, Güney Azərbaycanın bugünü üçün də aktual olduğunu nəzərə alıb oxucuların diqqətinə çatdırmağı vacib saydıq.

S.C.Pişəvəri bu çıxışında İranın xəritəsini fəzada barmağı ilə çəkərək demişdir: "Mən açıq deyirəm, bizim sözümüz və tələbatımız bu xəritədən xaric deyildir. Biz İran sərhədləri daxilində danışırıq. Bir dəfə bunu hamı nəzərdə tutarsa danışıb, anlamağa asan olacaqdır. Bu salonda mənim ikinci müfəssəl nitqimi yada salanlar ola bilər. O gün mən 16 min azərbaycanlı tərəfindən Məclisə deputatlığa namizəd olmuşdum. Mən o gün məmləkətin vəziyyətini nəzərə alıb dedim ki, bir vəkil vasitəsi ilə məmləkəti fəlakətdən qurtarmaq olmaz. O gün mən çox təəssüratlı idim. Belə ki, bir sadə fəhlə böyük şövq və təsir ilə mənim çiynimdən öpüb "get səni Allaha tapşırdım, bəlkə bizim dərdlərimizə çarə edə biləsən" demişdi. Mən bilirdim məmləkətin, məxsusən Tehranın şəraiti durduqca mən o kişinin arzusunu əncam verməyə müvəffəq ola bilməyəcəyəm. Ona görə mən o gün xalqa müraciət edib kömək istədim və dedim "vəkil təkbaşına heç bir iş görə bilməz. Xalq özü əl-

ələ verib öz dərdlərinə çarə tapmahdır.” Tehrana gedib Məclisə varid olduqdan sonra mənim naümidliyim şiddətləndi... Bütün məclis və dövlət təşkilatının beş-üç nəfər məğriz (əliəyri, təmənalı) oğruları, yalançı və hoqqabaz mürtəcelərin əlində alət olduğunu bir daha təcrübədə anlamağa müvəffəq oldum. Bu müşahidə mənim ruhumda böyük təsir bağışladı. Bununla belə məyus olmayıb “Cəbheye Azadı” ətrafına toplanan azadxahların köməkliyi ilə mübarizəni davam etdirdik. Əfsus ki, hərarətli məqalələr və şiddətli həmlələrimiz təsirsiz və cavabsız qaldı... Tehranda oturub məqalə yazmaqdan və ya nitq etməkdən bir nəticə ola bilməyəcəyini yəqin etdim. Naçar bir il bundan əvvəl Təbrizdə uzun-uzadı bəhs etdiyimiz məsələ ətrafında düşünməyə başladıq. Mənim təbrizli məsləkdaşlarımdan çoxu Tehrandan bir iş çıxmıyacağını irəli çəkib deyirdilər: “Azərbaycandan başlamalı, əvvəl buranı islah etməli, Azərbaycan xalqının öz gücü ilə burada Milli Hökumət vücuda gətirməliyik...”

Bu fikrin həqiqəti o vaxt nəzərimə daha aşkar bir surətdə çatdı ki, dövlətin məsul məmurları Azərbaycan xalqının zülm və dada çatmaq harayına, teleqraflarına saymamazlıq göstərdilər. Məsələn, Bayat (vali-Ə.R.) dedi: “Mən radio vasitəsi ilə xalqa müraciət etmişəm ki, xalq artıq ərizə və teleqraf vasitəsi ilə özünə zəhmət verməməlidir”. Sədr (baş nazir - Ə.R.) dedi: “Bir teleqraf olmasın, min teleqraf olsun, mən bu kimi boş sözlərə cavab belə vermiyəcəyəm”. Bu sözlərin ayrı cavabı ola bilməzdi: gərəkdi xalqa müraciət etmək, xalqın əli ilə işə başlamaq. Xalqın yumruğunun gücü ilə azadlığı təmin etmək. Bu şüarla mən Təbriz azadxahlarının təklifi üzrə Tehrandan Azərbaycana hərəkət etdim.

Burada (Təbrizdə - Ə.R.) yaxın məsləkdaşlarım ilə bir daha ciddi surətdə İranın və Azərbaycanın daxili və xarici vəziyyətini ayrıd və təhlildən sonra bu böyük fikri icra etmək üçün böyük və müstəqil bir firqə yaratmaq lüzumunu anladıq”.

* * *

“Biz Azərbaycan xalqının azadlıq yolunda apardığı mübarizə tarixini unuda bilmərik. Tehran irticası Azərbaycana böyük zərbələr vurmuşdur. Biz orada kök salmış istibdad rejimindən heç bir ümid gözləyə bilmərik. Tehran Azərbaycanı həmişə fişar altında qalmasına çalışmışdır. Orada hökumət sürən xain və müstəbid ünsürlər bizim başçılarımızı məhv və nabud edib, milli qürurumuzu sındırmaqdan bir an belə sərfnəzər etməmişlər. Azərbaycan xalqının böyük sərdarı Səttərxanın xainanə bir surətdə Tehrana çəkilib öldürülməsi hələ də unudulmamışdı... Tehran həmişə Azərbaycan adından vahiməyə düşmüş, o adı ağzına alanlarla rəhmsiz rəftar etmişdir...

Moxbirsəlsəltənə utanmadan Məclisdə tribun dalına keçib dedi: “Doğrudur mən onu (Şeyx Məhəmməd Xiyabanini-Ə.R.) öldürdüm. Bu böyük xidmətdir, çünki Xiyabani məmləkətə xəyanət edirdi.” Azərbaycan qəhrəmanlarının qanı ilə qurulan Məclis Şura bu cəlladın etibarnaməsini qəbul edib onu millət nümayəndəsi adlandırdı. Sonradan bu sima Rza xanım əmri ilə on ildən artıq İran dövlətinin

başçısı oldu. Bu onun etdiyi xəyanəti təltif etmək və zəhmət haqqı idi... Mirzə Kuçikxanın özü də çox vəhşiyanə bir surətdə öldürülüb onun başı İran azadlığının qəddar düşməni olan Rza xana töhfə göndərildi...

Bu cinayətlərə son qoymaq üçün Tehranın qüdrətini məhəlli və milli ixtiyarlar vasitəsi ilə sındırmaq lazım gəlir. Bu işdə Azərbaycan həmişə olduğu kimi indi də pişqədəm (qabaqda addımlayan - Ə.R.) olmalıdır. Tehrandan azadlıq ummaq böyük səhvdir. Orada azadlıq mübarizəsi aparan dəstələrin əl-qolları bağlanmışdır."

* * *

"Biz həqiqəti açıq və aydın bir surətdə xalqa göstərməliyik. Bizim meydana atdığımız şüarların əsasını da qanun təşkil edir. Biz millətlərin və xalqların ixtiyarını təmin etmiş qanun əsasını (konstitusiyanı-Ə.R.) diriltmək yolunda mübarizəyə başlamışıq. Qanun əsası Əyalət və Vilayət Ən-cüməni olmazsa o, quru və mənasız kağızdan ibarət ola bilər. Qanuna ehtiram edib onu müqəddəs saydığımız üçündür ki, biz birinci növbədə ən böyük, ən əsası qanuni, yəni Əncüməne Əyaləti məsələsini həyata keçirmək istəyirik... Mən bu sözləri fürsətdən istifadə edib Məclis Şurada bundan da kəskin çıxış edib nümayəndə (deputat - Ə.R.) adı daşıyan yalançı pəhləvanlardan bu haqda ciddi əməl tələb etmişdim. Halbuki, onların bir qədəm belə xalqa doğru gəlmələrinə ümidim yox idi... Həqiqət acıdır, lakin onu söyləməliyik: Mən Məclisdə açıq surətdə dedim ki, (bunu mən dəqiq hesab nəticəsində isbat edə bilərəm) Azərbaycan xalqına maarif büdcəsindən verilən pul adambaşına təqsim edilərsə onu göstərən bir vahid tapmaq olmaz. Mən onu kibritə tədbil (dəyərcə müqayisə - Ə.R.) etdim, nəticə bu çıxdı ki, hər bir nəfərə bir kibrit çöpündən az pay düşür...

Biz böyük bir firqə yaratmaqla dünyaya sübut edəcəyik ki, öz evimizi yabançı köməyi olmadan idarə eləməyə ləyaqət və qüdrətimiz vardır... Burada böyük biri həqiqəti gərək sizə deyəm, bu məlum bir deyimdir. Haqqı almaq lazımdır, onu verməzlər. Mənim əqidəmə görə bu kamil bir şüar deyildi. Mən deyirəm haqqı almaq bəlkə də asan bir işdir, onu saxlamaq şərtdir. Əgər bizim məşrutə istəyənlərimiz bu nöqtəyə diqqət verib aldanmasaydılar indi Azərbaycan, bəlkə bütün İran dünyanın ən azad, ən mütərəqqi, ən demokratik məmləkətlərindən biri olmuş və indi düçar olduğumuz yoxsulluq, fəlakət, aclıq və səfalət qabağımıza çrxmamışdı".

* * *

"Bizim arzularımızdan ən böyüyü xalqın savadlanmasıdır. Savadlı və sağlam xalq heç vaxt zülm və fişara boyun əyməz...

Bizim fikrimizi məşğul edən məsələlərdən birisi də dil məsələsidir. Bu bizim azərbaycanlılar üçün çox mühüm və əsas məsələdir... Altı-yeddi yaşında təzə dil açmış uşağa yabançı bir dili təhmil etmək (zorla qəbul etdirmək - Ə.R.) cinayətdir. Təlim-tərbiyə ilə məşğul olan azərbaycanlıların əksəriyyətinin əsəbiliyi bundadır. Ana dilində yazıb oxumağı qadağan etmək maariflənmə təkamülünün

qabağını almaq deməkdir. Beş milyondan çox kənd və şəhərlərdə yaşıyanlarımız bir tərəfə qalsın, hətta məhəlli məktəblərdə təhsil alanlarımız belə ömürlərinin axırına qədər fars dilini düzgün tələffüz etməyə qadir deyildilər.

Rza xan iş başına gəlib Azərbaycanı parçalamaq siyasətinə başlamazdan əvvəl Azərbaycanda milli teatrolarımız geniş bir surətdə tərəqqi etməkdə idi. Xalq (arvad və kişi) tamaşalarakəmal-meyil ilə hazır olub sənətkarlarımızın əsərlərini seyr edirdi. Fəqət teatro məcburən fars dilinə çevrilən kimi tamaşa salonlarımız bağlanmağa məcbur oldu. Çünki xalqımızın əksəriyyəti bu dili anlamağa qadir deyildi.

...İndiyədək məscidlər və minbərlərdə vaizlərimiz xalqın anladığı Azərbaycan dilində vəz edib dini vəzifələrini yerinə yetirirlər. Biz Azərbaycan dilinin müxaliflərindən soruşuruq ki, bu işdə nə pislik var? Niyə bir dildə minbərdə istifadə etmək olar, amma məktəblərdə olmur? Mən kəndlərdə və xırda şəhərlərdə müəllimlər gördüm ki, fars dilini heç bilməyən kəndli və əsnafa bu dildə maarif mövzusunda nitq edirdilər. Məxsusən Salmasda bu gulunc işin lap qaba bir şəklini keçən il görməyə müvəffəq oldum. Mən Salmas sözünün məxsusən işlətdim. Çünki bizim Şahpur Əlirzaya (Salmas onun adı ilə Şahpur adlandırılmışdı - Ə.R.) iradətimiz yoxdur. Şahpu sözü onun əxlaqi cinayətlərini nəzərdə canlandırır. Səttarxan xiyabanının da Pəhləvi adlanması qulaqlarımızı zay edir, ruhiyyəmizi incidir. Azərbaycanı qurbanlıq qoyunu kimi parçalayan Rza xan Pəhləvi adına Təbrizdə xiyaban da ola bilməz. Onu Təbriz əhalisi öz milli qəhrəmanı Səttarxan adına adlandırmışdır. Poçtxanalarımız bunu bir dəfəlik bilməli Pəhləvi adına gələn məktubları geri qaytarmalıdır.

Təbrizdə Pəhləvi xiyabanı yoxdur. Böyük xiyabanımız böyük Sərdarımızın (Səttarxan nəzərdə tutulur - Ə.R.) adınadır. Elə də gərək məşhur olsun.

Axırda təkrar edirəm: Biz İranın istiqlalına kamilən əlaqələndik. Onun bir qarış torpağını ayrı bir ölkəyə vermək fikri qətiyyən meydanda yoxdur. Bizim istəyimiz Qanun-əsasının bizə verdiyi daxili haqq və muxtariyyatdan ibarətdir. Dil məsələsi də bunun bir hissəsidir.

Biz müraciətimizdə dediyimiz kimi öz evimizin işlərini özümüz idarə etmək fikrindəyik. Ondan ötrü var qüvvəmizlə çalışacağıq. Zor ilə İran xalqlarını əsarətdə saxlayanlar bunu birdəfəlik düşünməlidirlər”.

* * *

### “Bizi öz halımıza qoysunlar”

Azərbaycanın İranın başqa əyalətlərdən geri qalması haqda S.C.Pişəvəri ilə razılaşmayan Tehrandakı bəzi qəzetlərə cavab olaraq:

“...O məqaləni yazanlar Təbriz şəhərini gəlib görsəydilər qətiyyən təsdiq edərdilər ki, heç onu Cəndəq və Bəndərabbasla da müqayisə etməzdilər. Urmiyə (Rzaiyyə), Ərdəbil, Xoy qətiyyən Koşan və Qum ilə belə müqayisə edilə bilməz.

Dərsurəti ki (halbuki) Rza xan meydana çıxmazdan əvvəl abadlıq və Fərhəng (maarif) cəhətdən bu şəhərlər hətta Tehranın özündən belə irəli idilər.

Təbrizdə teatr və nümayişxanələr olduğu zamanda Tehranda bu ad ilə adlandırma mümkün olan bir müəssisə belə yox idi. Astarada xalqın öz köməyi və təşəbbüsü ilə açılan mədrəsənin nəzərini (tayını) İsfahanda görmək mümkün olmazdı. Təbrizin, Ərdəbilin ticarət müəssisələri bütün İranda şöhrət və etibarda birinci hesab olunardı. Urmiyənin gözəlliyi, abadlığı İranı səyahət edən avropalıların əsərlərində mühüm yer tutardı.

İndi istərdik Azərbaycan haqqında məqalə yazanlar gəlib bu şəhərləri nəzərdən keçirəydilər.. Təbriz indi hətta Qəzvinlə belə müqayisə edilə bilməz...

Bəndər şahdan Bəndər Şahpura qədər (bəndər-liman) qurulan dəmir yol xətti bizim zəhmət və rəncbərin (zəhmətkeş, kəndli) məhsuludur. Mazandaran və sair şəhərlərdə vücuda gələn (yaradılan) fabrikləri Azərbaycan kargərləri (fəhlələri) dolandırır. Hətta Tehranın ağır işləri bizim kəndlərimizi tərk edib çörək dalınca gedən cavanlarımızın öhdəsindədir...

Azərbaycan Tehrandan bir şey istəmir. Onu öz halına qoysalar kafidir. Ona imkan versələr öz əli öz işlərini idarə etsin. Bəsdir!”

* * *

## “Dostum sənə deyirəm”

...Ağaye doktor Əfşar! (milliyyətcə türk, fars şovinizminin təbliğatçısı - Ə.R.). Bəli, Nizami Gəncəvi azərbaycanlıdır və azərbaycanlıların milli iftixarıdır. Siz soruşa bilərsiniz: nə dəlil ilə? Heç vəchlə inkar edə bilməyəcəyiniz dəlillərinizdən birisi azərbaycanlı tanımaq istəmədiyiniz Nizaminin “Leyli və Məcnun” dastanını alın və diqqətlə oxuyun. Orada... bu beytlər yazılmışdır:

Səkkiz yüz il bundan qabaq, yəni hələ monqoların ayaqları bu yerlərə dəymədiyi zaman yazılmış bu beytlərin mənası bilirsənmi nədir? Əgər onları sadə və adi ana dilimizə, yəni Azərbaycan dilinə çevirsək mənası belə çıxır:

“Mən Nizami əsərlərimi Azərbaycan dilində yazmaq istəyirdim. Amma Şirvan şahlar qoymadılar. Dedilər ki, biz türk dilini, yəni Azərbaycan dilini bəyənmirik, o dil bizə yaraşmır. Bizim üçün farsı dili xoşdur. Ona görə də sən əsərlərini fars dilində yazmalısan.

Bu gün Tehranın fasid (pozulmuş, şərəfsiz) hakimləri azərbaycanlıları öz dillərində yazmağa, oxumağa, öyrənməyə və danışmağa qoymadıqları kimi, o vaxt da Şirvanşahlar Nizamiləri öz ana dillərində yazmağa qoymadılar. Odur ki, qəni ədəbiyyatımız biganələrin ədəbiyyatını zənginləşdirir. Öz ana dilimiz, azərbaycanlı dilimiz isə yaddan çıxıb gedirdi.

...Əgər bu gün doktor Əfşar azərbaycanlı olmaq və Azərbaycan dilini bəyənmək istəmirsə, istəməsin. Bu Nadir şah Əfşara nə az, nə çox təsir etməz. Əgər siz həqiqəti bilmək istəyirsinizsə, ağaye doktor Əfşar, bu qədər bilməlisiniz

ki, Nadir şah Əfşar azərbaycanlı qəbiləsindən idi və Azərbaycan dilini də çox sevərdi. Bu həqiqəti də sübut etmək üçün əlimizdə möhkəm dəlillər vardır ki, onu da inkar edə bilmiyəcəksiz... Ağaye doktor Əfşar! Siz millət ilə təbəəliyi biri-birindən ayıra bilmirsiniz. Azərbaycanlılar təəbəlikdə İran təbəəsidir, lakin, milliyyətcə azərbaycanlıdırlar. Siz demək istəyirsiniz ki, azərbaycanlılar farsdılar. Bu sözü açıq deməyə cəsarət etmirsiz. Odur ki, deyirsiz ki, "biz azərbaycanlı deyilik, İranlıyıq". Mübahisəmiz milliyyət üstədir, təbəəlik üstə deyildir... Biz deyirik yüz illərdən bəri aparılan farslaşdırma siyasəti bizim millətimizi məhv etmək üçündür... Biz min illərdən bəri azərbaycanlı olmuşuq, azərbaycanlı da qalacağıq".

"Mən, mən deyiləm?": - "Bir gün Molla Nəsrəddin eşşəyinə minib gedirdi. Bir qədər getdikdən sonra bir ağacın kölgəsində eşşəkdən düşüb dincəldi. Yedi, içdi, nəhayət eşşəyin nuxtasını ayağına bağlayıb yatdı. Molla yuxuda olduğu vaxt bir oğru gəlib mollanın əmmaməsini, ləbədəsini (araqçını) və əbasını çıxardıb özü geydi və eşşəyin də noxtasını açıb öz ayağına bağladı və mollanın yanında uzandı. Molla yuxudan ayılıb heyrətə düşdü. O, öz-özünə dedi: əgər mən mənəm, bəs bu kimdir?

Molla nə qədər fikirləşdi, bir nəticə çıxara bilmədi. Nəhayət o bu qərara gəldi:

Mən, mən deyiləm, eşşək də mənim deyildir. Bunu deyib çıxıb getdi. Mollanın bütün hərəkətlərində bir fəlsəfə, bir hiz hikmət vardır... Bu gün doktor Əfşarların "Ayəndə" (gələcək) məcəllələrində yazdıqları məqalələr eyni Molla Nəsrəddinin hekayəsini xatırladır.

Doktor əfşarlar və ayrı alim və müvərixlər (tarixçilər) və daha kimlər, kimlər buyururlar ki: biz azərbaycanlı deyilik, biz yoxuq, biz biz deyilik.

Bu sözləri demək üçün onlar əvvəlcə bizi oğru kimi soyundururlar, var-yoxumuzu əlimizdən alıb özlərinə çıxırlar, sonrada deyirlər ki: siz azərbaycanlı deyilsiz.

Azərbaycan dili monqollardan qalıb - əmmamə getdi,
Azərbaycan adı Arandır - ləbada getdi,
Nizami, Xaqani Farsdırlar - Əba getdi.
Azərbaycanlılar Farsdırlar - Eşşək getdi.

Bir az da keçsə deyəcəklər ki, ümumiyyətlə Azərbaycan deyilən ölkə və orada yaşayan canlı adamlar yoxdurlar.

Doğrudur, indi Tehranda belə iddiaya düşmək moddur. Yerindən duran azərbaycanlıları töhmət edir. Nə olar, qoy etsinlər: dəyirman bildiyini edir, çax-çax da başın ağrıdır. Bu söhbətlərdən sonra doktor Əfşara və o qəbildən olan əşxasə bir məsləhətimiz var:

Tərsəm nərəsi, be məqsəd ey Əfşar!
Qorxuram məqsədinə çatmayasan ey Əfşar!"

* * *

Azərbaycan xalqının dili və ədəbiyyatı vardır. Dil məsələsi böyük məsələdir. Bunu almaq və mürtəcelərlə mübarizə aparmaq şəhamət istəyirdi. Biz o şəhaməti göstərdik və qorxmadıq... Dil məsələsi bizim ölüm-dirim məsələsidir. Azərbaycan dili fars dilinin bir şöbəsi deyil, məxsus bir dildir. Bu dili danmaq həqiqəti danmaq kimidir. Bizim içərimizdə bir iddə (bir dəstə) adamlar vardır ki, özləri fars dili bilməz, deyəndə deyir ki, "mənim dilim fars dilidir".

Mən demirəm ki fars dili pis dildir. Deyirmə ki, mənim dilim Azərbaycan dilidir. Öz dilin danan azərbaycanlı xain deyil, bəs nədir?!

## S.C.PİŞƏVƏRİ TEHRAN-TƏBRİZ DANIŞIQLARINDA

Azərbaycan məsələsini nizamlamaq üçün Qəvamül-səltənə hökuməti AMH-nin başçısı S.C.Pişəvəriyə 1946-cı ilin aprelində müraciət etdi. Bu müraciətdə Azərbaycan xalqının ünvanına çoxlu xoş sözlər deyilsə də (Tehran həmişə xoş təriflər deməklə Azərbaycanı öz əsarətində saxlamışdı) məsələ aydın idi: Molla Nəsrəddin demiş: "dava yorğan davası idi". Qəvamül-səltənənin bütün cidd-cəhdləri Azərbaycandakı hərəkatı yatırtmaq və onu yenidən Tehranın əsarətinə salmaq idi. Tehranla danışıqlar stolu arxasında oturmağa razılıq almaq üçün 1946-cı il aprelin 22-də Tehrandan gəlmiş ilk elçini Pişəvəri qəbul etdi. Tehrandan gəlmiş nümayəndəliyə Fətəli İpəkçian başçılıq edirdi. O, azərbaycanlı idi və Məclisə Azərbaycandan deputat seçilmişdi. S.C.Pişəvərini yaxşı tanıyırdı və ona hörmət bəsləyirdi. F.İpəkçian danışıqlar aparmaq üçün Qəvamın siyasi məsələlər üzrə müavini Müzəffər Firuzun başçı təyin olunduğunu bildirdi. F.İpəkçian da həmin nümayəndəliyə daxil olan 7 nəfərdən biri idi. İpəkçian danışıqlara razılıq verməyi S.C.Pişəvəridən xahiş etməklə yanaşı ona hörmət bəslədiyini bəyan etmiş və hətta bəzi məsələlərdə xeyirxahlığını təzahür etdirmişdi[*]. İpəkçianla görüşdən sonra S.C.Pişəvəri mərkəzi dövlətlə danışıqlara razılıq vermişdir.

İpəkçian Təbrizdə olarkən gizli bir məsələnin üstünü açmışdı. Onun dediyinə görə Təbrizə gələnədək o, Tehrandakı sovet səfiri İvan Sadçikovun görüşündə iştirak etmişdir. Bu görüş zamanı məlum olmuşdur ki, Qəvamül-səltənə ilə səfir arasında Azərbaycan məsələsinə aid gizli razılıq əldə olunmuşdur. Beləliklə, Azərbaycan Milli hökumətinin və Azərbaycan xalqının taleyi onlardan gizli sadçikovlarla qəvamlar arasındakı sövdələşmədə artıq həll olunmuşdur. Şimali İrandakı qara qızılın parıltısı altında dönüklük edən Kreml rəhbərliyi Azərbaycandakı hərəkatı söndürməkdə İranın Şahənşah dövlətinə dolayısı ilə yardım göstərmişdi.

[*] Sənədlərdən bəlli olur ki, F.İpokçian milli ruhiyyəli adam olmuşdur. O, XV Məclis açılana qədər milli qoşunun və fədai dəstələrinin saxlanılmasını məsləhət görmüş, danışıqlar üçün Təbrizə gələcək nümayəndələrin Azərbaycana münasibətini açıqlamış, Tehranda azərbaycançı qüvvələrin getdikcə artdığını və bəzi yarı məxfi fikirləri şəxsi, söhbətində Pişəvəriyə bildirmişdi.

Azəbaycandakı hərəkatın müqəddəratını həll etmək üçün Tehranla danışıqlar aparmaq məqsədilə 1946-cı il aprelin 28-də S.C.Pişəvəri başda olmaqla Azərbaycan nümayəndəliyi Tehrana gəldi. Qeyd etmək lazımdır ki, S.C.Pişəvəri nümayəndəliyə başçılıq etməyə və Tehrana getməyə meyilli deyildi. O, qan təzyiqinin yüksək olduğunu əsas gətirib Tehrana getməkdən qəti boyun qaçırdısa da son anda razılıq verməyə məcbur olmuşdur. Tehrana gedəcək nümayəndə heyətinin tərkibi aprelin 22-də baş nazir S.C.Pişəvərinin sədarəti altında keçən iclasda müəyyənləşmişdi. Nümayəndə heyətinə əvvəlcə doktor S.Cavid daxil olsa da, S.C.Pişəvərinin təklifi ilə o Təbrizdə qalmalı oldu və daxili işlər naziri vəzifəsi ilə yanaşı baş nazirin səlahiyyətləri də müvəqqəti olaraq ona etibar edildi.

Qəvam dövləti danışıqların əhəmiyyətini azaltmaq üçün onun Tehranda yox, Kərəcdə aparılmasını təklif etmişdi. S.C.Pişəvəri bu haqda qəti etirazını F.İpəkçian vasitəsi ilə mərkəzə çatdırdıqdan sonra Qəvam danışıqların Tehranda aparılmasına razı olmuşdu.

Danışıqlar aparmaq üçün Tehrana gedən Azərbaycan nümayəndəliyi Təbrizdəki təyyarə meydanında böyük izdihamla yola salınmışdır. Təyyarə meydanında xalqa müraciətlə nitq söyləyən S.C.Pişəvəri milləti mübarizə əzmini saxlamağa, ruhdan düşməməyə çağırmış və azadlığa qovuşmuş Azərbaycanın əldə etdiyi azadlığı qanı bahasına olsa belə qoruyub saxlayacağım söyləmişdi. Təyyarə meydanında S.C.Pişəvəriyə müraciətlə məktəblilərin oxuduğu mahnı onu çox kövrəltmişdi:

“Pişəvəri, sərkərdəmiz, get qardaşım, yaxşı yol,
Azad etdin sən vətəni düşmənlərdən,
get qardaşım, yaxşı yol,
Düşmənlərə vermə aman, get qardaşım, yaxşı yol”.

1946-cı il aprelin 29-da Tehranda Azərbaycandan gəlmiş nümayəndə heyəti ilə rejim nümayəndələri arasında danışıqlar başlandı. Danışıqlarda mərkəzi dövlət tərəfindən baş nazirin siyasi məsələlər üzrə müavini Müzəffər Firuz, hərbi müavini, şahın çox yaxın adamı, general Hidayət, general Məhəmmədəli Müqəddəm, Musəvizadə (baş nazir dəftərxanasının məsulu) və mühəndis Xosrov Hidayət iştirak edirdilər. İki həftəyə qədər davam edən danışıqlarda Tehran hələ aprelin 21-də elan etdiyi və Azərbaycan rəhbərliyinə təqdim olunan 7 maddədən ibarət təkliflərindən əl götürmədiyi kimi, Azərbaycan nümayəndəliyi də 33 maddədən ibarət irəli sürdüklərindən geri çəkilmədi (150. s.80-83).

Azərbaycan nümayəndəliyinin tələblərini Əhməd Qəvam 1946-cı il mayın 13-də radio ilə çıxışında şərh etmişdir. Həmin çıxışdan məlum S.C.PİşəvəriMüzəffər Firuz olur ki,  Azərbaycan nümayəndəliyi Azərbaycana baş valinin (Ostandarın) təyin olunmasında Əyalət Əncüməni Şurası ilə məsləhətləşməni, ordu, polis və jandarm rəislərinin təyinatında isə Azərbaycan

Əyalət Şurasının təqdimatının hökumət tərəfindən təsdiqini irəli sürmüşdür. Azərbaycanda keçirilmiş torpaq islahatı nəticələrinin dövlət tərəfından qəbul olunması təklif edilmişdir. Əslində Azərbaycan nümayəndələrinin irəli sürdüyü təkliflərin və tələblərin miqyası daha geniş idi. Azərbaycan nümayəndəliyi təklif edirdi ki, əvvələn Azərbaycanın muxtariyyatı və ADF dövlət tərəfindən rəsmən tanınsın, hərəkat iştirakçılarının təqib olunmaması haqda dövlət zəmanət versin, Azərbaycanın ərazi bütövlüyü saxlanılsın, fədai dəstələrindən, qoşun və zabitlərdən Azərbaycanda əmniyyətin və təhlükəsizliyin qorunub saxlanılmasında dövlət tərəfindən istifadə olunsun, 5-ci sinfə qədər təhsil ana dilində aparılsın və yuxarı siniflərdə fars dili ilə yanaşı Azərbaycan dilindən də istifadə olunsun, xalisə torpaqların kəndlilərin ixtiyarında qalması, kəndlilərə verilmiş mülkədar torpaqlarının bir qisminin pulunun hissə-hissə ödənilməsi, seçkilərin azad və demokratik keçirilməsi və qadınlara verilmiş seçki hüququnun saxlanılması, Azərbaycandan götürülmüş gəlirin 75%-nin Azərbaycanda qalması və onun Azərbaycanın iqtisadi dirçəlişinə, şəhər, rayon və kəndlərin abadlaşdırılmasına, yolların, körpülərin, artezian quyuların və su mənbələrinin təmizlənməsinə sərf olunması və s. və i.a. Azərbaycan nümayəndəliyinin təkliflərində səsləndirilən və qeyd olunan əsas maddələr idi.

Qəvamül-səltənə hökuməti nümayəndəsinin danışıqların ikinci görüşündə irəli sürdüyü təkliflərə gəldikdə bu təkliflərin qısa məzmunu belə idi: bir sıra sahələrin başçıları (kənd təsərrüfatı, ticarət, sənət, daxili nəqliyyat, maarif, səhiyyə, milis, ədliyyə, prokurorluq və maliyyə işləri üzrə) Azərbaycan əyalət və vilayət əncümənləri tərəfindən seçiləcək, lakin onlar Tehran dövlətinin təsdiqindən sonra legitim ola bilər; Azərbaycan valisi dövlət tərəfindən təyin olunur və bu təyinat Əyalət Əncüməninin nəzərinə çatdırılır. Hərbi və jandarm qüvvələri başçılarının təyinatı dövlətin səlahiyyətində qalır. Dövlət dili fars dilidir, məhəlli idarə və dəftərxanalarda fars dili ilə yanaşı türk dili də işlədilə bilər və ibtidai siniflərdə dərslər Azərbaycan dilində aparılacaq; xəzinəyə daxil olan gəlirin bir hissəsi Azərbaycan şəhərlərinin abadlığına, maarif, səhiyyə işlərinə sərf olunacaq; demokratik təsisatların, həmkarlar ittifaqının fəaliyyəti azaddır; milli hərəkatda iştirak edənlər hər cür cəza və təqibdən azaddırlar; Məclisdə azərbaycanlı deputatların sayca artırılması məsələsinə 15-ci məclisdə baxılacaq və s (147. s.105-108).

Qəvamül-səltənə hökuməti tərəfindən bağlanılması təklif olunan sazişin mətnindəki maddələrin çoxunun hiyləgərcəsinə yazıldığını və Azərbaycan "fəth" olunandan sonra bunlara əməl olunmayacağını Azərbaycan nümayəndəliyi dərk edirdi. Bunu S.C.Pişəvəri Tehrandakı danışıqlardan qayıtdıqdan sonra Təbriz radiosu ilə çıxışında bir daha bildirmişdi.

Danışıqlar zamanı mərkəzi dövlətin nümayəndəliyi müxtəlif bəhanələrlə Azərbaycan nümayəndəliyinin irəli sürdüyü təkliflərin demək olar ki, çoxunu və əsaslarını qəbul etmədi. Buna görə də danışıqlar nəticəsiz qurtardı. Tərəflər

arasında prinsipial məsələlərdə ciddi fərqlərin mövcudluğu məlum oldu. Bu vəziyyət nə mərkəzi dövləti və nə də Tehranrandakı sovet səfiri İ.Şadçikovu təmin etmədi. Azərbaycan nümayəndələrini qəbul edən İ.Şadçikovun İ.V.Stalindən S.C.Pişəvəriyə ünvanlanmış teleqrafi Pişəvəriyə göstərməsi də danışıqlarda nəticələrin dəyişilməsinə kömək etmədi.

Azərbaycan nümayəndəliyi 1946-cı il mayın 13-də (Sovet qoşunları Güney Azərbaycanı tam tərk etdikdən 4 gün sonra) Təbrizə döndü. Tehranda ikən İ.V.Stalindən məktub alan S.C.Pişəvəri «Məzlumların atası»nın xəyanətini açıq-aydın bir daha başa düşsə də, artıq gec idi, iş-işdən keçmiş, Azərbaycandakı hərəkata Sovetlərin xəyanət möhürü vurulmuşdu. İ.VStalin S.C.Pişəvəriyə məktubunda* Pişəvərini həm İran daxilində, həm də beynəlxalq aləmdə vəziyyəti düzgün qiymətləndirməməkdə ittiham edir, «Azərbaycanın inqilabi tələblərinə nail olmağı» ona günah sayır, onu İranda dərin inqilabi böhranın olmamasına, fəhlələrin sayca azlığına, kəndlilərin qeyri-fəal olduğuna və beynəlxalq vəziyyətin İrandakı inqilabi situasiyanın xeyrinə olmamasına inandırmağa çalışırdı. Bütün ölkələrin inqilabi çevriliş vaxtı Rusiyanı təqlid etməyini mütləqləşdirən Stalin məktubunda yazır: «...deməli, İranda belə bir şərait yoxdur ki, Leninin 1905 və 1917-ci illərdəki taktikasını yürütməyə imkan versin». Stalin Sovet qoşunlarının İrandan mümkün qədər bir az gec çıxarılmasını Avropa və Asiyada sovetlərin «xilaskarlıq siyasətinin əsaslarını» sarsıda biləcəyini və buna görə də qoşunların İrandan çıxarılması zərurətini məktubda xatırladır. Stalinə görə İranda inqilabi şəraitin olması üçün, İran hansı ölkə ilə isə uğursuz müharibə vəziyyətində olmalıdır. Elə bir vəziyyət olmadığı üçün Azərbaycandakı hərəkatı davam etdirməyin və dərinləşdirməyin məqsədə uyğunluğu yoxdur və buna əsasən sovet qoşunları oradan çıxarılmalıdır. Stalin öz məktubunda bir vaxtlar irticaçı adam kimi tanıdığı baş nazir Qəvamı demokratik islahatlara tərəfdar adam kimi səciyyələndirir və onun «İranın demokrat elementləri arasında dayaq axtardığı» qeyd olunur. Daha sonra Stalin məktubunda İranda Sovet rəhbərliyinin taktikasının nədən ibarət olduğunu açıqlayaraq yazır: «Mən fikirləşirəm ki, Qəvamdan güzəştlər qoparmaq üçün bu münaqişədən istifadə etməliyik, ona kömək göstərməliyik». Bu taktikanın əleyhinə hər hansı addımı Stalin axmaqlıq hesab edir. Qəvama yardım etməyin əleyhinə olmağı Stalin «Mahiyyətcə Azərbaycan xalqının işinə və İran demokratiyasına xəyanət» kimi qiymətləndirir. Stalin həmin məktubda Pişəvəridən elə onun özünə gileylənərək yazır: «Bizə məlum olduğuna görə, Siz demisiniz ki, biz əvvəlcə Sizi göylərə qaldırmışıq, sonra isə uçuruma yuvarlamışıq və Sizi rüsvay etmişik». Stalin sözünə davam edərək yazır ki: «Sizin üçün hər hansı rüsvayç ılıqdan söz ola bilməz... Əgər Siz özünüzü ağıllı aparsanız... bizim mənəvi köməkliyimiz sayəsində... Sizə Orta Şərqdə mütərəqqi demokratik hərəkatın pioneri kimi, azərbaycanlılar da, İran da xeyir dua verər».

* Məktub kitabın sonunadakı əlavələrdə verilir.

Riyakarlıq pərdəsi ilə örtülən (çünki Güney Azərbaycanın mənafei artıq aprelin 4-də imzalanmış neft sazişinə qurban verilmişdir) həmin məktub Pişəvərinin başçılıq etdiyi hökumətin meydanda tək qaldığını, üstəlik xəyanət müqabilində Tehrana güzəştə gedib, təslimçi bağlaşmanı imzalamağı «tövsiyyə» edirdi.

S.C.Pişəvərinin Tehran danışıqlarında özünü sərt aparması, Sovet səfirinin «məsləhətlərinə» kifayət qədər əməl etməməsi Sovetlərin Pişəvəriyə inamını xeyli azaltdı. «S.C.Pişəvərinin bir sıra mətləbləri açıq söyləməsi, Gilan hadisələrini xatırlatması, Sovet siyasətinə artıq inanmadığı İ.Stalini bir qədər narahat etmişdi» (49. s.424). Əslində Stalinin S.C.Pişəvəriyə məktub ünvanlandırmasının bir səbəbi də bu idi. Sovetlərin S.C.Pişəvəridə kommunist məsləkinə inamının tədricən itməsi və onun zindanda tünd gedən kommunistlərlə məlum mübahisə və ixtilafları, istintaq sorğusunda sovet kommunistləri əleyhinə dedikləri sovet kəşfiyyatı orqanlarına çatdırılmamış deyildi. Buna görə 1946-cı ilin mayından başlayaraq S.C.Pişəvəri İrandakı Sovet xəfiyyəsinin nəzarətinə alınır. Onun hətta evdə və iş yerində danışıqlarının gizli qeydə alınması faktları mövcuddur. S.C.Pişəvərinin müavini olmuş Nüsrətulla Cahanşahlu Əfşar 2001-ci ildə çap etdirdiyi xatirələrində yazır: «Mən Pişəvərinin iş otağında Tehrandakı danışıqlar zamanı Sovet səfirinin mövqeyindən narazılığımı bildirərkən Pişəvəri barmağı ilə dodaqlarını qapamaqla mənə susmağa, mövzunu dəyişməyə işarə etdi. Sonra biz həyətdə gəzişərkən o, iş otağına, hətta evinə səs yazma aparatının qoyulmasını güman etdiyini bildirdi (179a). Xatirələrdən bəlli olur ki, S.C.Pişəvəri 1946-cı ilin mart-aprel ayından artıq sovet kəşfiyyatının bilavasitə nəzarətində idi və bütün hərəkətləri izlənilirdi.

## S.C.PİŞƏVƏRİ BAŞ NAZİR OLMAQDAN İSTEFA VERDİ

Hər cür xarici yardımdan məhrum olmuş və üstəlik Kreml rəhbərliyi tərəfindən «neft sövdası şərəfinə» təzyiqlərə məruz qalmış AMH rəhbərliyi sözün əsl mənasında dalana dirədilmişdi. Moskvadan gələn ismarışları yerinə yetirmək və irticaçı Qəvam dövləti ilə «dil tapmaq»dan başqa yol qalmamışdı. Buna görə də Tehranda S.C.Pişəvərinin başçılıq etdiyi nümayəndəliklə Tehran arasında (1946 28 IV -12 V) uğursuz qurtarmış danışıqlar 1946-cı ilin iyun ayında (1325-ci il Xordadın 21-də) Təbrizdə davam etdirildi və nəticədə 13 iyun 1946-cı il qərardadı (bağlaşması) imzalandı. Bağlaşmanı AMH tərəfindən S.C.Pişəvəri, Qəvam hökuməti tərəfindən siyasi məsələlər üzrə Ə.Qəvamın müavini Müzəffər Firuz imzalamışlar. Bağlaşmadakı əlavələ (təbsirələr) nəzərə alınmazsa o 15 maddədən ibarət olmuşdur*.

* Bağlaşmanın tam mətni kitabın sonunda əlavələrdə verilir.

Bu bağlaşmada (qərardadda) S.C.Pişəvərinin başçılıq etdiyi nümayəndəliyin və şəxsən S.C.Pişəvərinin təkid etdiyi Azərbaycan üçün önəmli olan bir sıra məsələlər öz əksini tapmamışdır. MH süqutundan sonra Azərbaycanın xeyrinə heç bir maddə yerinə yetirilməmişdir. Bağlaşmaya görə mərkəzi hökumət ən azı aşağıda qeyd olunanları yerinə yetirməyi öhdəsinə götürmüşdü:

Yerli Əncümənlərin fəaliyyətinə imkan veriləcək;

Azərbaycandakı mədaxilin 75%-i Azərbaycanda qalacaq.

Azərbaycanın tədris ocaqlarında fars dili ilə yanaşı azərbaycan dilinin tədrisinə icazə veriləcək;

Təbriz-Miyana dəmir yolunun çəkilişi başa çatdırılacaq və abadlıq işləri genişləndiriləcək və s. Deyilişi və yazılışı xoş olan bu bəndlərdən sonra bir çox məsələnin, o cümlədən qadınların kişilərlə bərabər səs verməyi, əhalinin sayına görə Məclisdə deputat kürsüsünün ayrılması, Xalisələr haqda qanunun qəbul edilməsi, «jandarm» adının «mühafizəçi» adı ilə əvəz olunması, xalq qoşunlarının İran hərbisinə, fədailərin jandarm bölmələrinə qəbulu, Zəncanın Azərbaycanın inzibati-ərazi bölgüsünə yenidən daxil ediləcəyi məsələsi kəndlilərə verilmiş torpaqlar məsələsi və s. bu kimi önəmli maddələr XV çağırış İran Şura Məclisinin müzakirə və təsdiqdən sonra qüvvəyə minəcəyi müqabilində və ona edilmiş əlavələrdə (təbsirələr) qeyd olunmuşdur (98. s. 396-398). Quzey Azərbaycanın rəhbəri M.C.Bağırov Əhməd Qəvamın XV məclisə seçki adı ilə oynadığı oyunun mahiyyətini İ.V.Stalinə 22 oktyabr 1946-cı ildə göndərdiyi məktubda yazırdı: «S.C.Pişəvəri və onun yoldaşları hesab edirlər ki, Tehranda olan son hadisələrlə əlaqədar Məclisə olan seçkilər Azərbaycan məsələsinin ləğvi və İranda demokratik qüvvələrin qəti məğlubiyyətinədək təxirə salınacaq». Bu şəraitdə M.Bağırov Güneydəki hərəkata hərbi və maliyyə yardımının göstərilməsinin vacibliyini məktubunda qeyd edir (247. s. 185).

S.C.Pişəvəri Tehran nümayəndəliyi ilə bağlanılmış müqavilənin icra olunacağına öz şübhələrini Təbriz radiosu ilə xalqa müraciətində və «Azərbaycan» qəzetində çap etdirdiyi məqalədə açıq ifadə etmişdir. O, hələ Tehran hökuməti nümayəndələri ilə danışıqlara getməmişdən əvvəl öz mövqeyini «Qəvama qarşı yumşaq hərəkət etməyi» məsləhət görən sovet nümayəndəliyinə «...Sizin və Tehran hökumətinin konkret təkliflərindən asılı olmayaraq Azərbaycanın ərazisində öz silahlı qüvvələri, fədailəri, nəzmiyyəsi (polisi), öz sərhədləri olmasına mən indi təkid edirəm və danışıqlar vaxtı da təkid edəcəyəm» (49. s. 383-384). Təəssüflə qeyd etmək lazımdır ki, Moskva rəhbərliyinin və s. S.C.Pişəvərini əhatəyə almış sovet çinovniklərinin təzyiqlərini və hədə qorxuları Azərbaycan Milli hökumət rəhbərliyini düşündüyü kimi hərəkət etməyə qoymamışdı. S.C.Pişəvəri Tehrana danışıqlara gedərkən ona Qəvamın qarşısında möhkəm dayanmağı, istədiklərini ondan almaqda təkid göstərməyi məsləhət görən M.C.Bağırov sonrakı mərhələdə Moskvanın təzyiqi ilə öz mövqeyini dəyişməli olmuşdur. Təbrizdə

aparılacaq danışıqlar ərəfəsində M.C.Bağırov S.C.Pişəvəridən xahiş edirdi ki, «Qəvama dəyib toxunma... Mən qardaş kimi səndən xahiş edirəm ki, gərəkbunu edəsən...» (Yenə orada, s. 443). «Firqənin mütəfəkkir və zəkalı rəhbəri olan Pişəvəri öz səhvini (sovetlərə növbəti dəfə inanmaq səhvini - Ə.R) başa düşsə də iş-işdən keçmişdi. Daxili siyasi və xarici şərait irticanın xeyrinə, azadlığın ziyanına inkişaf edirdi. Təşkil olunmuş irtica qüvvələri ABŞ və İngiltərə dövlətlərini dəstəyi ilə Azərbaycana hücuma hazırlaşırdılar» (98. s.453).

S.C.Pişəvəri Qəvamın oyunlarının mahiyyətini lap əvvəldən bilirdi. Bu hiyləgər, çoxüzlü diplomatın keçdiyi həyat yoluna və başdan ayağa şovinizmə köklənmiş məfkurəsinə çoxdan bələd idi. O, Əhməd Qəvamın Azərbaycandakı hərəkatı dəstəklərdən məhrum etmək üçün işlətdiyi manevr və kələkləri dəfələrlə sovet orqanlarına rəsmən bildirsə də «şimal neftin qoxusu» Kreml rəhbərliyini artıq ovsunlanmışdı.. 1946-cı il iyunun 14-də MM. öz səlahiyyətinə xitam verdi, onu Əyalət Əncüməni əvəzlədi. Mövcud vəziyyətlə heç cürə barışmayan S.C.Pişəvəri 1946-cı ilin iyunun 16-da istefa ərizəsini - AMH-nin başçısı vəzifəsindən istefa ərizəsini Əyalət Əncüməninə verdi. Hökumət başçısı vəzifəsindən getsə də Azərbaycana aid bütün məsələlər onun iştirakı və göstərişləri ilə həll olunurdu.

Qeyd etmək lazımdır ki, Əhməd Qəvam hökuməti başladığı müqaviləyə əməl etmədi, verilmiş vədlər ancaq söz olaraq kağız üzərində qalmış oldu. Üstəlik XV çağrış Məclisə seçkilər keçirmək adı altında Azərbaycana gələn şah qoşunları ilk addımda - Zəngana daxil olarkən (12 noyabr 1946) AMH tərəfdarlarına və onların ailə üzvlərinə qarşı etdikləri cinayətlər Tehranm Təbriz danışıqlarında üzərinə götürdüyü bütün təəhütlərdən qaçdığını göstərdi. Belə bir şəraitdə təpədən dırnağa qədər silahlanmış, çoxsaylı hərbi təyyarələrə, tanklara, zirehli maşınlara, üstəlik ABŞ və İngiltərənin yardım və dəstəyinə malik olan 50 minilik şah ordusu bir çoxunun əli yalın qaldığı Azərbaycan fədailərinin və xalq qoşunlarının üzərinə hücumu davam etdirdi...

Ağır psixoloji sarsıntı keçirən S.C.Pişəvəri hərəkatın əvvəlində şirin vədlər verib sonluqda onları meydanda çıxılmaz, ağır vəziyyətdə qoyub gedən sovet rəhbərliyinə son müraciətini etmək məcburiyyətində qaldı. S.C.Pişəvərinin öz silahdaşları ilə sovet rəhbərliyinə ünvanlandırdığı və uzun müddət ictimaiyyətdən gizlədilmiş müraciət məktubu bir çox məqamları açıqlayır*. «21 Azər» hərəkatının süqutuna dörd gün qalmış bu məktubda qeyd olunur ki, «Azərbaycan xalqı üçün vahid bir yol qalır: o da öz silahının gücü, öz cavanlarının qəhrəmanlığı ilə azadlığını müdafiə etməkdən ibarətdir”. Məktubda sovet rəhbərliyinə xatırladılır ki, “Qəvam neft məsələsini ona görə qabağa çəkmişdi ki, qızıl ordunun İrandan çıxmasını təmin etsin və Azərbaycan Milli Nehzətini ortadan aparsın». Çox ətraflı təhlil əsasında yazılmış məktubda sovet dövlətindən iki şey xahiş edilir: əli boş qalmış xalq könüllülərini silahla təmin etmək üçün az miqdarda silah və Tehran qoşununa

* Həmin məktubun tam mətni kitabın əlavə hissəsində verilir.

müqavimət göstərməkdə bizi təqsirləndirib qınamamaq. «...Yenə də təkrar edirik: iş danışıqlar və sazişlər ilə həll olunmaqdan keçmişdir» (196.2007, N?9, s. 33-36). Sovet rəhbərliyinə ünvanlanmış məktubun sonunda deyilir ki, «Sizin müxtəsər köməyinizin yetişməsini səbirsizlik ilə gözləyirik» (Yenə orada, s.36). M.Bağırovun 5 dekabr 1946-cı ildə İ.Y.Stalinə göndərdiyi növbəti məktubda «Azərbaycanın hər yerindən Demokrat Firqəsinin Mərkəzi Komitəsinə xalqın müraciətində müdafiə üçün silah xahiş olunur. Silahın olmaması bu xahişləri cavabsız qoyur. Azərbaycan Demokratik partiyası yenə də onlara az miqdarda silah verməklə köməkliyi bizdən xahiş edir (247. s. 188). Məktubda istənilən silahın miqdarı 16 top, 5 min tüfəng, 20 tank əleyhinə qumbara və onlara müvafiq hərbi sursatdan ibarət olunmalıydı.

Azərbaycan rəhbərliyinin şəxsən, M.Bağırovun Güney Azərbaycanda yaranmış və getdikcə faciəli sonluğa yaxınlaşan vəziyyətdə demokratlara kömək əli uzatmaq xahiş və müraciətlərinə İ.V.Stalinin son cavabı «Mən beş milyonluq azərbaycanlılar üçün üçüncü dünya müharibəsinə başlaya bilmərəm» (Yenə orada, s. 189). İ.V.Stalinin M.C.Bağırova çox sərt və lokonik cavabını bəzi müəlliflər ABŞ-ın sovetləri atom müharibəsi ilə hədələdiyini və bu haqda ABŞ Prezidenti Trumenin sovetlərə xəbərdarlıq notası verməsilə əlaqələndirirlər. İndiyədək bu məsələ ilə bağlı nə sovetlərdə və nə də ABŞ-da verilmiş notanın mətninə rast gəlinməyib (143. s.520). Bunu amerikalı müəlliflər də etiraf edir və belə bir hədələyici notanın, ümumiyyətlə olmadığını yazırlar*. Beləliklə «ellər atasının» Azərbaycan xalqına, onun taleyinə göstərdiyi «mərhəmət» bəlli oldu. Bu xəyanət azadlıq istəyən xalqın bu günkü və gələcək nəsillərinin zehnində həmişəlik həkk olunmuş ibarət dərsidir.

Buradaca, tarixşünaslıqda və mətbuatda mübahisəli olan və aydınlıq gətirilməsini gözləyən bir məsələyə ABŞ prezidenti Trumenin Stalinə yolladığı «atom müharibəsi» ilə yazılmış hədələyici ultumatumun olub olmamasına toxunaq. Əgər doğurdan da Sovet rəhbərliyi Üçüncü Dünya müharibəsinin başlanmasından və ABŞ-ın atom silahından çəkinmişdirsə bəs Şərqi Avropada, Uzaq Şərqdə kommunist hərəkatlarına arxa durmaqda və onlara yardımda və eləcə də Yunanıstanda kommunistlərin qiyamına dayaq nümayiş etdirməkdən niyə çəkinməmişdir? Görünür Molla Nəsrəddin lətifələrində deyildiyi kimi burada məsələ «yorğan məsələsidir». SSRİ-nin Cənub sərhəddində yeni bir türk dövlətinin yaranması və gələcəkdə onun Quzey Azərbaycanla birləşməsi ehtimalı Stalin-Mikoyan birliyini narahat edən məsələlərdən biri olmuşdur. Güneydəki hərəkata xəyanət ipinin bir ucunun da məhz bura gəlib çıxması şəksizdir.

Güney Azərbaycandakı türklər üçün tarixin ən ağır günlərində meydanda əli yalın qalmış, lakin son nəfəsinə qədər döyüşə hazır olan bir millətin rəhbərliyi

---

* Thore, «Truman s ultumatum to Stalin in 1946: Fact ov fantasy?», The newsletter ofihe society for studies? 4 (Ottober 1972) 8-10.

çıxılmaz vəziyyətdə qalmışdı. Moskva rəhbərliyinin Güney Azərbaycandakı xalq hərəkatına və AMH xəyanət edib, arxa çevirməsi baş nazir Qəvamül-Səltənənin fevral mart aylarında Moskvaya olan uğurlu səfərindən sonra başlanmaşıdı. Şimaldakı neft yataqlarının sovetlərin «ixtiyarına» verilməsi əvəzinə sovet qoşunlarının Azərbaycandan çıxarılması və Azərbaycan Milli hökumətinin rəhbərliyinə Azərbaycana gələn Tehran qoşununa müqavimət göstərməməsi haqda təzyiqlərin artması faciəli sonluqdan xəbər verirdi.

Sovetlərin dönüklüyünə qarşı S.C.Pişəvərinin getdikcə sərtləşən mövqeyi vali təyin edilmiş və mötədillik göstərən Salamulla Cavidlə S.C.Pişəvəri arasında müəyyən məsələlərin həllində fərqli yanaşmaları yaratdı. Bu işdə Tehrandakı sovet səfiri Sadçikovun və Təbrizdəki konsul Krasnının qəsdən ara qızışdırması az rol oynamamışdır. «Bağırov hələ bilmirdi ki, Pişəvəriyə münasibətdə Sovet diplomatik idarələrinin belə siyasəti Moskva rəhbərliyindən, SSRİ Xarici İşlər Nazirliyindən gəlirdi» (49. s.499-500).

Tehranla Təbriz arasında 13 iyun 1946-cı il bağlaşmasına görə Azərbaycanda Məclisə seçkilər keçirilməsinin təhlükəsizliyini yerli hərbi qüvvələr (fədailər, nizami ordu, polis) öz üzərinə götürmüşdü. Bağlaşmaya zidd olaraq Tehran qoşunu 13 noyabrda Zənganı tutduqdan sonra noyabrın 24-də Təbrizə doğru irəlilədi. Azərbaycanın valisi S.Cavid Qəvama vurduğu teleqramda Tehranın Azərbaycana hərbi qüvvə yetirməsini Təbriz bağlaşması maddələrinə zidd olduğunu onun nəzərinə çatırsa da Ə.Qəvam mövqeyindən geri çəkilmədi.

Hadisələrin gedişindən narahat olan S.C.Pişəvəri öz sərt cavabını «Azərbaycan» qəzetində çap etdiyi «Hara və nə üçün gəlirlər?» adlı məqaləsində belə ifadə etmiş: «Olsun! Biz buna təəssüf etmirik, təəssüfümüz bunadır ki, ağaye Qəvam-əlsəltənənin ğərəz olud (qərəzli) və irticai siyasəti nəticəsində vətənimizdə böyük qanlı macəralar hazırlanır. Biz içdiyimiz anda sadiq qalıb Azərbaycan torpağına silah ilə soxulub, azadhğımızı sərneyzə (süngü) gücü ilə aradan aparmaq istəyənləri, kim olursa-olsun xalqımızın qolunun gücü ilə əzib geri qaytaracağıq. Bu isə bizim əvvəl və axır sözümüzdür: Öldü var, döndüyoxdur» (209. 4.IX.1325).

Azərbaycan rəhbərliyinin (S.Cavid, M.Şəbüstəri) Tehrana olan müraciətlərinə baxmayaraq Əhməd Qəvam 30 noyabrda verdiyi son cavabında qoşunların Azərbaycana yeridiləcəyində israrlı olduğunu bildirmişdi. 1946-cı il dekabr ayının 4-də Tehran qoşunları geniş miqyasda Azərbaycana hücuma başlamışdı...

Belə gərgin şəraitdə S.C.Pişəvərinin başçılığı altında «Müdafiə Komitəsi» yaradıldı (Komitəyə S.C.Pişəvəri, M.Ə.Şəbüstəri, Qazi Məhəmməd, Padigan Qulamyəhya və pənahian daxil idi). Xalq qəhrəmanı Babəkin adma yaradılmış könüllülərdən ibarət dəstəyə axın-axın cavanlar daxil oldular. Vuruşmağa hazır olan müxtəlif sinif və təbəqələrin çoxsaylı nümayəndələri əliyalın olduqlarından MK-dən silah tələb edirdilər. Azərin 17-də (dekabrın 8-də) Azərbaycan Xalq Qoşunları və Fədai dəstələri Miyana-Tkab istiqamətində əks hücuma keçib

düşməni tutduqları mövqeyindən geri çəkilməyə məcbur etmişdi (142. s. 139-142). Buna baxmayaraq tükənməkdə olan hərbi sursat, arxadan yetərincə hərbi köməyin gəlməməsi, üstəlik təyyarələrin, tank və artilleriyamn, çoxsaylı nizami ordunun Tehran tərəfindən işə salınması qeyri-bərabər döyüşləri düşmənin xeyrinə istiqamətləndirmiş oldu. Dekabrın 11-ə keçən gecə Miyana işğal edildi, şah qoşununun Təbrizə doğru yürüşü başlandı. Həmin ağır gündə M.C.Bağırovun sonuncu dəfə Güney Azərbaycana kömək göstərmək müraciətinə İ.V.Stalin, Azərbaycanı müdafiə edən qüvvələrin geri çəkilməsini silahı yerə qoyub mərkəzi dövlət qoşunlarına müqavimət göstərməməsini «tövsiyyə» etmişdi. Bu haqda T.V.Stalinin «tövsiyyələri» Təbrizdəki vitse-konsul Nuru Quluyev vasitəsi ilə S.C.Pişəvəriyə və onun silahdaşlarına çatdırıldı (49. s.524). «Tövsiyyə»də S.C.Pişəvəriyə müqavimətin dayandırılması və bu haqda Qəvama məlumat verilməsi məsləhət görülsə də o, bu məsləhətə əməl etməmişdi. S.C.Pişəvəri özünün çıxılmaz vəziyyətdə qaldığını başa düşsə də «O, müqavimətin dayandırılması haqqında partiya aktivinə, ordu komandirlərinə və fədai başçılarına heç bir göstəriş vermədi. Məsələni yalnız Mərkəzi Komitənin yeni rəhbərliyinin seçilməsi ilə məhdudlaşdırdı» (Yenə orada, s.527).

S.C.Pişəvəri axırıncı məqamda da düşmənə müqavimət göstərmək, «ya azadlıq, ya ölüm» şüarına əməl etməkdən ötrü son nəfəsə qədər vuruşmaq əzmində olmuşdur. Azərin 20-də onun xalqa müraciətində bütün xalq azğın düşmənə qarşı ölüm-dirim mübarizəsinə çağrılırdı» (209. 20 IX 1325). Sovetlərin xəyanəti və dönüklüyü S.C.Pişəvərini və onun xalqını düşmən ayağına verdi. Moskva tərəfindən hiyləgərcəsinə qurulan plan əsasında S.C.Pişəvəri «məsləhətləşmək» adı ilə əvvəl Culfaya, sonra Naxçıvana dəvət edilir və onun geri qayıtmaq yolu həmişəlik qapanır.

## S.C.PİŞƏVƏRİ SOVETLƏRƏ İNAMINI İTİRMİŞDİ

Moskvanın Güney Azərbaycandakı olaylara əvvəlkindən fərqli münasibəti 1946-cı ilin yanvarından neft amili ortaya gəldiyi vaxtdan açıq-aydın hiss olunmağa başladı. Sovetlərin İrandakı xalq hərəkatına həmişə öz mənafeyi prizmasından yanaşma tərzi S.C.Pişəvəriyə xeyli əvvəldən «Cəngəli» (1920) və 1921-ci il Ə.Lahuti hərəkatlarına (204. 1383. № 13-14, s. 13-14) olan dönüklükdən, eləcə də 1921 və 1927-ci illərdə İranla bağladığı dostluq müqavilələrindən bələd idi. Bundan əlavə S.C.Pişəvəri kommunistlik əqidəsinə xidmət etdiyi 1917-1927-ci illərdə Moskvadakı kommunist rəhbərliyin və Bakıdakı «yoldaşların» cənublu kadrlara göstərdikləri inamsızlıq və ehtinasızlıqlar onun sovetlərə baxışlarında məzmunca fərqli cəhətlər yaratmışdı. Yeri gəldikcə o bunu söhbət və yazılarında etiraf etmişdir. Sovetlərin bərk ayaqda öz xeyirlərinə etdikləri dönüklük haqda S.C.Pişəvərinin şahidi olduğu olaylar «Qəsr Qacar»dakı zindan dövründən Ardaşeş

Qvanisyan və ona tərəf saxlayanlarla onun arasında ciddi və prinsipial mübahisə mövzusu olmuşdur. Bunu S.C.Pişəvərinin «Zindan dəftərindən xatirilər»i, sonrakı dövrdə yazdıqlarını diqqətlə izləyən hər bir kəs sezə bilər.

Azərbaycan Demokrat Firqəsinin yaranması ərəfəsində M.C.Bağırovla S.C.Pişəvəri arasında söhbətə şahid olmuş şəxsin dediyinə görə S.C.Pişəvəri hərəkatın lap əvvəlindəcə Sovetlərin sözünə və vədilərinə inanmadığını, «bərk ayaqda öz mənafeləri xatirinə Azərbaycanın azadlıq istəyən qüvvələrini meydanda tək qoyub qaçacaqlarını» deməkdən çəkinməmişdir (176. s.20).

Qəvamül-səltənənin hakimiyyətə gəldiyi gündən onun Güney Azərbaycan məsələsində Moskva ilə dil tapacağını və son hesabda Azərbaycandakı hərəkata xəyanət ediləcəyini S.C.Pişəvəri sezmişdi. 1946-cı ilin fevralından bu sezmələr real fakta çevrilməyə başladı. O, AMH-ni qarşıda çətin günlər gözlədiyini öz çıxışlarmda, müsahibə və məqalələrində sətir altı cümlələrdə və bəzən də açıq dəfələrlə təkrar etmişdi. Sovetlərin Güneydəki hərəkatın arxasından qaçdığını və onların Tehranla «əməkdaşlıq» etmək fonunda ediləcək dönüklüyü görən S.C.Pişəvəri 1946-cı ilin əvvəlindən Azərbaycan üçün faciələr yaradacağı ehtimalı ilə Güney Azərbaycan məsələsini beynəlxalq arenaya çrxartmaq qərarına gəlmişdi. Bu məqsədlə o, 1946-cı il yanvarn 28-də BMT-nin Baş Assambleyasına məktubla müraciət etməli olmuşdur*. Məktubda Azərbaycan xalqının azadlıq istəyindən və keçdiyi mübarizə yollarından bəhs olunduqdan sonra beynəlxalq təşkilat, insan haqlarının müdafiəçisi kimi çıxış edən dövlətlər köməyə çağırılır. «BMT baş assambleyasına müraciəti ilə azərbaycan xalqı xahiş edir ki, azərbaycan milli hökumətinin mövcudluğu faktını tanısın və kənardan müdaxilə olmadan ona öz taleyinin özü tərəfindən müəyyənləşdirilməsinə təminat verilsin».

BMT BA-da Güney Azərbaycan məsələsi ortaya gətirilərkən sovet nümayəndəsi neft amili ilə bağlı İrana təzyiqi artırmaq məqsədi ilə mövqeyini müdafiə etmişdi.

1941-1946-cı illərdə İranda və Güney Azərbaycanda mövcud olmuş siyasi mühit də azadlıq istər qüvvələrin etibarlı xarici arxaya malik olmadığını göstərir. Onlar az-çox sovetlərə söykənsələr də onun sonadək duruş gətirəcəyinə şübhə ilə yanaşırdılar. Bunu onlara tarixin keçmiş acı təcrübəsi inandırmışdı. Buna baxmayaraq zaman, məkan və tarixi şərait azadlıq cəbhəsinə daxil olan bir sıra başqaları kimi S.C.Pişəvərini də Sovetlərin «mərhəmətindən» faydalanmağa məcbur etmiş, bununla bağlı ürəyindəkiləri dilə və yazıya gətirməmək zorunda qoymuşdur. Bu vəziyyət dünyasını dəyişənə qədər S.C.Pişəvərini öz düşüncələrini açıq demək imkanından məhrum etmiş və onu qapalı «çərçivədə» saxlamışdı.

1946-cı ilin fevralında İranın o zamankı baş naziri Əhməd Qəvvamül-səltənənin Moskvaya dəvət olunması, onun İ.V.Stalin və digər sovet rəhbərləri ilə görüşü və söhbətləri son hesabda Azərbaycandakı xalq hərəkatına endiriləcək ağır

* Məktubun tam mətni kitabın əlavəsində verilir.

zərbədən və sovetlərin növbəti xəyanətindən xəbər verirdi. Kremldə əldə olan razılıq və Tehranda Moskva ilə Tehran arasındakı bağlaşmaya əsasən (98. s. 380) İran dövləti ölkənin şimalındakı neft yataqlarının axtarışını və çıxarılması ixtiyarını sovetlərə verir və birgə «İran-Sovet şirkəti» yaradılması nəzərdə tutulur. Bunun müqabilində sovetlər öz qoşunlarını və hərbi sürsatı mart-aprel ayından gec olmayaraq İran ərazisindən tam çıxarmağa və Azərbaycandakı olayları İranın daxili işi hesab etmək təəhüdünü qəbul edir. Bu Qəvamın başçılıq etdiyi nümayəndəlik üçün böyük uğur idi.

Sovet qoşunlarının İrandan çıxmasını bayram edən şahpərəst qüvvələrdən Məşhur tacir Məmməd Rza İntizari bu münasibətlə verilmiş ziyafətlərin birində demişdi: «Qəvam öz ağıllı siyasəti ilə Sovet İttifaqı kimi böyük bir dövlətin rəhbərini aldada bildi. Həmin Qəvam eyni müvəffəqiyyətlə Pişəvərinin də öhdəsindən gələcək. Başlıcası odur ki, ruslar Azərbaycandan çıxsın» (49. 418).

Moskva-Tehran sövdələşməsi Azərbaycandakı hərəkata endirilmiş ağır zərbə oldu. Bu sövdələşməyə görə İran Şura Məclisinin 15-ci çağırışı ilə bağlı şah qoşununun Azərbaycana gəlməsi üçün dinc və münasib şərait yaradılmalıydı:

Azərbaycandakı fədai dəstələri və xalq qoşunları tərk silah olunub buraxılmalıydı. Tehran hərbi qüvvələrinə müqavimət göstərməməsi üçün S.C.Pişəvəriyə qarşı sovet təzyiqi gücləndirildi və S.C.Pişəvərinin fəaliyyəti gözaltına alındı. Bu təzyiqin əyani nümunəsini İ.V.Stalinin S.C.Pişəvəriyə yolladığı 8 may 1946-cı il tarixli məktubdan görmək olar*.

Bu məktub S.C.Pişəvəriyə o zaman çatdırıhr ki o, özü istəmədən, könülsüz (Qan təzyiqini bəhanə edib Tehrana getmək istəməmişdi) Tehrana gəlmiş və nifrət etdiyi bir adamla - Ə.Qəvamlə üz-üzə danışıqlar aparırdı. İ.V.Stalinin məktubundakı sərtlik və S.C.Pişəvəriyə «öyüd-nəsihət» ünvanı ilə göstərilən təzyiq məktubda açıq-aydın hiss olunur.

Sovetlərin Ə.Qəvam hökuməti ilə əldə olunmuş bağlaşmanın mürəkkəbi qurumamış İrandan Sovet «Elçiləri»nin S.C.Pişəvəriyə qarşı Qəvamla «dil» tapmaq və ona güzəştlərə getməklə bağlı təzyiq və hədə-qorxuları işə salındı. Sovet səfiri İ.Satçikovun göstərişi ilə 1946-cı ilin aprelin 3-də S.C.Pişəvəri Təbrizdəki Sovet Konsulluğuna dəvət edilir. Bu görüşdə qarşı tərəf Ə.Qəvamla danışıqlara başlamağı, ona güzəştə getməkdə inad etməməyi və 15 çağırış İran Məclisinə seçkilər keçirmək üçün Azərbaycana gələcək şah qoşunlarına müqavimət göstərməməyi və s. S.C.Pişəvəriyə «tövsiyə» edilir (172. s.236-245).

S.C.Pişəvəri qarşı tərəfin riyakarlığa bürünmüş «tövsiyələr»indən narahat olur və əsəbləşdiyini gizlədə bilmir. O, İ.V.Stalinin bu məktubundakıları eşitdikdə 1920-ci ildə Gilandakı xəyanət (Cəngəlilər hərəkatına olan sovet xəyanəti) yada düşdüyünü, o zamanla bu günkü olayların təkrarının baş verdiyi, inqilabçı qüvvələrin meydanda tək və arxasız qoyulduğunu qeyd etdikdən sonra, «Əgər biz

* İ.V.Stalinin S.C.Pişəvəriyə məktub kitabın sonunda əlavələrdə verilir.

Qəvam dövləti qarşısında geri oturarıqsa, bu, öz hədəflərimizdən, etiqad və mühüm işlərdən əl çəkmək olar. Bu əməl ilə biz şah hökumətini öz əleyhimizə yönəltmiş olardıq. Onların qabağında dizə çökə bilmərəm. Bu iş mənim üçün təəssüflüdür. Mən bunu qəbul edə bilmərəm. Mən insanların mənafeyi xatirinə döyüş meydanında ölərəm, lakin təslim olmaram» (Yenə orada, s.240). S.C.Pişəvəri bu görüşdə üzünü sovet nümayəndələrinə tutaraq açıqca deyir: «...Mən qəti şəkildə sizə inanmıram, təkrar edirəm: Mənim sizə etimadım yoxdur...» (Yenə orada, s.241). S.C.Pişəvəri Azərbaycanın Tehran qarşısında geri çəkilməsinin sonluğunda baş verəcək olayların anatomiyasını elə real söyləmişdir ki, sonrakı hadisələr onun dediklərini və təsəvvür etdikərini yüzə-yüz həqiqət olduğunu sübut etmişdir.

1946-cı ilin aprelin 4-də S.C.Pişəvəri ilə Təbrizdəki Sovet konsulunun növbəti - ikinci görüş keçirilir. S.C.Pişəvəri bu görüşə Sovetlərin mövqeyi ilə yaxından tanış olmaq üçün özü ilə birlikdə Milli Məclisin sədri Hacı Mirzə Əli Şəbüstərini, Daxili İşlər naziri Salamulla Cavidi və ADF rəhbərlərindən Sadıq Padiqanı da aparır. Danışıqların növbəti raundunda məqsəd AMH rəhbərliyini Tehranla danışıqlara getməyə razı salmaq idi.

Sovet qoşunları 1946-cı il mayın ilk on günlüyündə Güney Azərbaycan ərazisini demək olar ki, tam tərk etdi. 1946-cı ilin yazında Azərbaycan Milli hökuməti Tehran rejimi ilə yanaşı faktiki olaraq ABŞ və İngiltərə ilə də üzbəüz dayanmah oldu. Belə bir şəraitdə Moskva rəhbərliyi ancaq öz mənafeyindən çıxış edərək Azərbaycan Milli hökuməti rəhbərliyini Qəvamül-səltənə ilə dil tapmağa itələdi. Bu sahədə Güney Azərbaycan rəhbərliyinə göstərilən təzyiqləri təsdiq edən çoxsaylı sənədlər mövcuddur*.

Moskva Azərbaycan milli hökumətinə təsir və təzyiqini təkcə İranda olan Səfirliyi, konsulluq və xüsusi rabitəçiləri ilə məhdudlaşdırmayıb əlavə, Bakını da bu oyuna qatmışdı. 1946-cı ilin martında S.C.Pişəvəriyə göndərdiyi ismarıçda Tehran qarşısında möhkəm dayanmağı, əllərindən gələn köməkliyi əsirgəməyəcəyini vəd edən M.C.Bağırov aprelin əvvəlində verilmiş vədlərdən qaçaraq Pişəvəriyə Qəvamın nümayəndəsi ilə bir stolda oturub, onunla «dil tapmağı» məsləhət görürdü (49. s.407-454). Moskvanın xəyanəti, öz mənafeyi üçün dostu düşmənin ayağına çox asanlıqla vermək kimi xəbis xisləti S.C.Pişəvəriyə yuxarıda qeyd etdiyimiz kimi əvvəlcədən məlum idi.

«Dostun» xəyanəti nəticəsində Qəvamla oyunda artıq uduzduğunu başa düşən S.C.Pişəvəri çox ağır olsa da, Tehranla danışıqlara getməkdən başqa yolun qalmadığını anladı. «Keçmiş, gələcək yolun çırağıdır» kollektiv qiymətli əsərin müəllifləri həmin dövrün olaylarını tədqiq edərkən S.C.Pişəvərinin hər tərəfdən bağlı dalana düşdüyünü yazırlar. «...Pişəvəri mütəfəkkir və bilikli firqə rəhbəri idi. Lakin o, öz səhvinin güdazına getdi. O, bunu anlayan vaxt artıq iş-işdən keçmişdi.

* Bu sənədlər xüsusən son 10 ildə Azərbaycan Rcspublikasında, İranda, ABŞ və Avropa ölkələrində yetərincə çap olunmuşdur.

Daxili və xarici siyasi şərait onun ziyanına, irticanın xeyrinə işləyirdi. Amerika və İngiltərənin dəstəyi ilə irticanın birləşmiş qüvvəsi Azərbaycana hücuma hazır idilər» (98. s.453).

## AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN SÜQUTU VƏ S.C.PİŞƏVƏRİNİN SONRAKI TALEYİ

Azərbaycan Milli Hökumətinin süqutu əlamətləri baş nazir Əhməd Qavamül-səltənənin 1946-cı ilin mart ayında Moskvaya olan səfərindən sonra sezilməyə başladı. Ə.Qəvam İranın şimalındakı neft yataqlarını kəşfiyyatını və çıxarılması icazəsini sovetlərə vermək müqabilində iki mühüm şərti onlara qəbul etdirmişdi:

1. Sovet hərbi kontingentinin 1946-cı il martın sonunadək Güney Azərbaycanı tərk etməsi;
2. Güney Azərbaycan məsələsinin İranın daxili işi hesab edilməsi.

Kreml rəhbərliyi İrandan daha çox iqtisadi-siyasi imtiyazlar qoparmaq iştahı ilə Qəvam Moskvada danışıqlar aparan zaman ona konkret və qəti cavab verməmişlər. Sovet rəhbərliyinin bu mövqeyi Ə.Qəvamı narazı salıb, danışıqların müsbət nəticəsindən nigaran qoymuşdur. Ə.Qəvam bu haqda öz nigarançılığını 1946-cı il martın 5-də onun «şərəfinə» Kremldə düzəldilmiş ziyafətdə Sovet rəhbəri İ.V.Stalinə də bildirmişdir. İ.V.Stalin isə ona cavabmda «ümüdvaram ki, bizim Tehrandakı səfirimiz siz Tehrana çatanda sizin üçün bir neçə xoş xəbər verəcək» (61. s. 112). Həqiqətən də Qəvamın Sovet səfiri İvan Sadçikovla görüşdə Stalinin söz verdiyi xoş xəbər (Ə.Qəvamın Moskvada irəli sürdüyü tələblər) Sovetlər tərəfindən yerinə yetirildi. Bu haqda iki dövlət arasında bağlaşma da oldu. Bağlaşma zamanı Tehrandakı sovet səfiri Əhməd Qəvamı «Orta şərqin böyük siyasətçisi» adlandırmaqdan belə çəkinməmişdi (129. s. 466). Həmin tarixdən Azərbaycan Milli Hökumət rəhbərliyinə, xüsusən S.C.Pişəvəriyə qarşı Sovet təzyiqləri gücləndirilmiş oldu. Əvvəl onu Tehranla «dil tapmağa», onlarla bağlaşma əldə etməyə itələdilər. Əvvəl Tehranda, sonra Təbrizdəki danışıqlar və 1946-cı il 13 iyunda Tehran nümayəndəliyi ilə bağlaşma bilavasitə sovet rəhbərliyinin təzyiq və «xeyirxah məsləhətləri» əsasında mümkün olmuşdur.

Sovetlərin növbəti xəyanətini görən S.CPişəvəri 1946-cı il iyunun 16-da Azərbaycan Milli Hökumətinin başçısı vəzifəsindən istefa verdi. Əslində bu istefa Milli-demokrauk hərəkatın böyük öndərinin sovetlərin sonrakı oyunlarının iştirakçısı olmamaq niyyətindən irəli gəlsə də, sovet kəşfiyyatı bütün çirkin vasitələri işə salıb (hədə, qorxu, gizli səsini yazmaq, terror və s.) onu çıxılmaz hala salmağa müvəffəq oldular.

Həmin dövrə aid sənədlər, S.C.Pişəvərinin qəzetlərdə çap olunmuş məqalə və müsahibələri, xatirələr və s. təsdiq edir ki, Moskvanın S.C.Pişəvəriyə ardı-arası kəsilməyən təzyiqlərinə baxmayaraq bir çox məqamlarda o, müstəqil hərəkət

etməyə meyilli olmuşdur. Tehranla yumuşaq rəftar etməyi, «demokratlaşmış» Qəvama kömək etməyi, Azərbaycana gələcək şah qoşununa müqavimət göstərməməyi Moskva S.C.Pişəvəriyə ardıcıl olaraq tövsiyyə edirdi. Moskvanın buyruğu əleyhinə olaraq S.C.Pişəvəri isə 1946-cı ilin noyabr-dekabr çıxışlarında, xalqa müraciətində qətiyyətli olmağı, son nəfəsə qədər azadlığı müdafiə edib saxlamağı, düşməni Azərbaycanın müqəddəs torpağına buraxmamağı israr edirdi.

5 dekabr 1946-cı ildə Təbrizdəki sovet vitse-konsulunun M.C.Bağırova yolladığı məlumatda göstərilir ki, «Bu gün radio ilə Pişəvəri xalqa müraciət edib, onları Tehran irticasına qarşı mübarizəyə çağırdı. Sabah Azərbaycan Əyalət Əncüməni yaranmış şəraiti müzakirə edib, əməli tədbirlər haqda qərar qəbul edəcək... Qərara alınıb ki, Pişəvəri sədr olmaqla Şəbüstəri, Qazı Məhəmməd, Qulamyəhya, Pənahian və Badiqandan ibarət Müdafiə Komitəsini Əncüməndən keçirsinlər. Təbrizdə hərbi vəziyyət elan edilib. Azərbaycanın hər guşəsindən kəndlilər ADP-sına müraciət edirlər ki, onlara silah verib cəbhəyə göndərsinlər. Bu gün Təbrizdə Azərbaycan qəhrəmanı Babəkin adını daşıyan könüllü dəstəyə yazılış başlanıb» (49. s.518-519).

Yuxarıdakı məlumatı M.C.Bağırov alan kimi, o, ədalət naminə demək lazımdır ki, Güney Azərbaycanda silah sarıdan xalqın çətin vəziyyətdə qaldığını və onlara imkan daxilində az miqdarda olsa da silah və hərbi sürsat göndərilməsini Stalindən xahiş etmişdi. Bağırov teleqramına Moskvadan cavabı almadığı üçün xahişini yenidən təkrar etsə də Moskvanın cavabı müsbət olmamışdı.

Kreml rəhbərliyinin Güney Azərbaycandakı hərəkata dönük münasibətini görən firqə rəhbərliyi 1946-cı il dekabrın 8-də yaranmış ağır vəziyyət haqda geniş məktubla Sovet rəhbərliyinə təkrar müraciət edir. Müraciətə cavab olaraq Moskva, silahlı müqavimətdən əl götürüb Tehran qoşununa yol verməyi təkrar-təkrar «tövsiyyə» etmişdi. Əslində bu «tövsiyyələr» dönüklük meyarı ilə ölçülən xəyanət idi.

S.C.Pişəvərinin silahdaşları ilə birlikdə sovetlərə az miqdar silah istəməklə bağlı məktubunda* deyilir ki, «...Əgər biz təslim olsaq, tarix bizi həmişə lənətləyəcək. Dünyada heç bir xalq öz qüdrətini öz əli ilə məhv etməz. Bütün xalq bizə müraciət edib öz azadlığım qorumaq üçün cəbhəyə getməyə icazə verməyimizi tələb edir». Sovet rəhbərliyinə ünvanlanmış məktubda iki istək vurğulanır:

«Nə qədər sərhədlər açıqdır məxfi yolla bir qədər silahın verilməsi. Əgər bu mümkün olmasa müqavimət hərəkatını təşkil etməkdə Sovetlər onlara maneçelik törətməsin». Altında S.C.Pişəvərinin imzası olan bu məktubdan bəlli olur ki, S.C.Pişəvəri və onun silahdaşları Moskvanın «Qəvama toxunmayın», Azərbaycana gələn işğalçı şah ordusuna «müqavimət göstərməyin» tövsiyyələrinə arxa çevirib nəyin bahasına olursa olsun alınmış azadlığı əldən verməməyə çalışırdılar.

* Məktubun tam mətni kitabın əlavələr bölməsində verilir.

Hərəkatın iştirakçısı Əmrəli Lahrudi öz xatirələrində yazır ki, «Pişəvəri və Azərbaycan Demokratik Firqəsinin digər rəhbərləri sovetlərin İranın ümumi daxili işlərinə qarışmamalarını, Azərbaycan xalqının Tehran irticasına müqavimət göstərməyi, Azərbaycan Milli Hökumətinin əldə etdiklərinin əldən verilməməsini istəyirdilər. Pişəvəri fədailərin şah qoşununun topu, tankı və təyyarələri qarşısında duruş gətirməsi üçün sovetlərdən bir miqdar silah istəyirdi. Bu istəklər Sovet rəhbərliyi tərəfindən rədd edilmişdi» (172. s.282).

Şah qoşunlarının Zəngana daxil olar-olmaz (11-12 noyabr) və onları himayə edən varlı şahpərəst mülkədar Zülfiqarilər dəstəsinin törətdikləri ağlagəlməz cinayətlər Şahənşah qoşunun «sülhsevərliyini» ilk addımda göstərmiş oldu. S.C.Pişəvərinin təklifi ilə Azərbaycan Əyalət Şurası adından Tehran hökumətinə göndərilmiş teleqramda 13 iyun 1946-cı ildə bağlanılmış razılaşmanı qarşı tərəf pozduğu üçün qoşunun Azərbaycanın başqa ərazilərinə buraxılmayacağı və onun Azərbaycan xalqı tərəfindən müqavimətlə qarşılanacağı bildirilmişdi (209.18 IX 1325).

Miyana Fədai dəstəsinin komandanı general Qulamyəhya 1325-ci il 19 Azərdə (1946-cı il 10 dekabr) Baş komandan S.C.Pişəvəriyə göndərdiyi təcili teleqramda Tehran qoşununun təyyarələr, tanklar və ağır toplarla fədai dəstələri üzərinə hücuma keçdiyi bildirilir. Bu vəziyyətdə fədailərin və xalq qoşunlarının silah və köməyə ciddi ehtiyac olduğu yazılır. S.C.Pişəvəri Milli hökumətin Baş Qərargah rəisi general Pənahiyana göstəriş verir ki, imkan daxilində Qaflantudakı fədai dəstələrinə kömək edilsin. Geri çəkilmə olmamalıdır. Tank əleyhinə düzəldilmiş yandırıcı şüşələr işə salınsın. Cəbhədəki vəziyyət və zəruri ehtiyac haqqında ona müntəzəm məlumat verilməsi Baş Qərargah rəisindən xahiş edilir.

Tehran qoşunları Azərbaycan üzərinə geniş miqyaslı hücuma keçərkən ABŞ Baş Hərbi Komandanlığı maddi köməkdən əlavə, müxtəlif növ ağır silahları, hərbi təlimatçıları və 40 «dörd matorlu» bombardımançı təyyarələri, İkinci Dünya müharibəsində Avropa və Orta şərqdəki döyüşlərdə fərqlənən dörd nəfər təlimatçı hərbi təyyarəçini İran ordusunun ixtiyarında qoymuşdu (110. s. 484).

Qaflantudakı döyüşlərdə Tehran ordusunun Şərq bölüyünə Milli hökumətin fədai və hərbi dəstələri ağır zərbələr endirsələr də, qeyri-bərabər döyüşdə xeyli itki verdikdən sonra onlar geri çəkilmək məcburiyyətində qalırlar (129.S.452-454).

Tarixçi alim Cəmil Həsənli istinad etdiyimiz kitabında yazır ki, 11 dekabr 1946-cı il səhər Təbrizdəki qəzetlər xalqın S.C.Pişəvərinin ətrafında birləşib müqavimət göstərməyi və son damcı qan qalana qədər düşmənə qarşı vuruşacaqlarını yazdıqları halda, günortadan sonra qəflətən vəziyyət dəyişdi (49. s.527). S.C.Pişəvəri yaxın bir neçə silahdaşı ilə «məsləhət» ünvanı ilə əvvəl Culfaya, sonra isə Naxçıvana aparıldı. Əslində «məsləhətləşmə» adı ilə Naxçıvana gətirilmiş (gəlməmiş, gətirilmiş! - Ə.R) S.C.Pişəvəri prespektivdə böyük işlər görmək niyyətlərinin və arzularının puç olduğunu, hər şeyin «dost» xəyanətinə qurban verildiyini başa düşsə də artıq gec idi, iş-işdən keçmişdi. «...Pişəvəri hər

hansı tədbirin əhəmiyyətsiz olduğunu başa düşdü və özünün çıxılmaz vəziyyətdə qaldığını hiss etdi» (Yenə orada, s.527).

Mürəkkəb və anlaşılmaz bir situasiyanın qabağa gəldiyi bir şəraitdə S.C.Pişəvəri Təbrizi tərk etməzdən bir neçə saat əvvəl (11 dekabr 1946-cı ildə) özünün və Hacı Mirzə Əli Şəbüstəri, doktor Salamulla Cavid və Sadiq Badiqandan ibarət firqə dördlüyünün fövqəladə toplantısını keçirir. Bu toplantıda S.C.Pişəvəri Firqədə sədrlik səlahiyyətini müvəqqəti Məhəmməd Biriyaya (maarif nazirinə) həvalə edir. Məşvərət və məsləhətləşmə zamanı məlum olur ki, Tehran qoşununa sonadək müqavimət göstərilib, göstərilməməsi məsələsində firqə rəhbərliyində yekdil rəy yoxdur. S.C.Pişəvəri və onun tərəfində olanlar (F.İbrahimi, Q.Danişan, M.Çeşmazər, N.Cahanşahlu) müqavimət göstərmək təklifinə tərəfdar olduqları halda, M.Ə.Şəbüstəri, S.Cavid və Məhəmməd Biriya millətin silahsız və arxasız olduğu faktına əsaslanıb Tehrandan gələn qoşuna müqavimət göstərməməsini məqbul sayırlar. Son nəticədə 22 Azər 1325-ci ildə (13 dekabr 1946) şah qoşunu saat 1600-da artıq şahpərəst ünsürlər və banda dəstələri tərəfindən qan dəryasına qərq olmuş Təbrizə daxil olurlar. İşğalçı şah qoşunları tərəfindən Azərbaycan ərazisinin tam nəzarətə alınması Azər ayının son günlərində (dekabrın 18-19-da) mümkün olmuşdur. «Beləliklə Azərbaycanda bütün xalqın, bütün mütərəqqi qüvvələrin iştirakı ilə ərnələ gəlmiş böyük və qüdrətli bir milli-demokratik hərəkat qan dəryasında boğduruldu» (24. s.106).

Mübarizələr burulğanlarında keçən Pişəvəri ömrünün ağır, kədərli və faciəli bir mərhələsi də beləcə sona yetmişdi.

Tehran qoşununun Təbrizə daxil olduğu vaxt törətdiyi cinayətlərdən bəhs edən hadisələrin şahidi Mənuçöhr Əzizi «Qanlı, qadalı günlər» adlı məqaləsində yazmışdı: «Mən hələ xiyabanlarda asılan, güllələnən, doğranılan fədailərdən, talan edilmiş, yandırılmış evlərdən, mədrəsələrimizdə türkcə kitablarımızın yandırılmasından yazmağa əlim belə gəlmir. Bir həqiqət mənim üçün aydındır ki, şəhid olan qəhrəmanların, fədailərin, azadlıq mücahidlərinin qanı yerdə qalmayacaq və Azərbaycan milləti şəhidlərin və Pişəvərinin yolunu davam etdirəcəklər» (187. s.79).

## S.C.PİŞƏVƏRİ ÖMRÜNÜN SON 172 GÜNÜ...

Culfaya, sonra isə Naxçıvana gətirilən S.C.Pişəvərini burada Azərbaycan sovet rəhbərliyi tərəfindən bir neçə nəfər qarşılamışdı. S.C.Pişəvərini qarşılayan rəsmilər mübarizəni yaxın vaxtda hər hansı formada davam etdirməyə Moskvanın hələlik razılıq vermədiyini ona bildirdikdə ruslarla «oyunda» növbəti dəfə tam uduzduğunu başa düşdü.

Qulamyəhya öz xatirələrində yazır: «Sərhəddi keçən günü bizi Naxçıvana apardılar. Onun sonrakı günü daha doğrusu Azərin 22-də (dekabrın 13-də) yoldaşlarla görüşdük (sovet nümayəndələri nəzərdə tutulur - Ə.R). Ümumi

görüşdən sonra ADF MK üzvləri, Milli Məclis nümayəndələri bir yerə toplaşıb ümumi vəziyyətimizdən, geri çəkilməmizdən danışdıq. Əlbəttə, belə hazırlıqsız, plansız geri çəkilmə işimiz bərk tənqid edildi. Hər halda tənqidi çıxışlar nə qədər ağır olsa da əncam şudə (olub, bitmiş - Ə.R) faktın müqabilində vaqe olmuşdu. Bu haqda danışmaqda yubandığımız hamıya məlum idi» (180a. s.83).

S.C.Pişəvəridən sonra sərhədi keçib Quzey Azərbaycana pənah gətirən insanlar (fədailər və fədai ailələri) bir müddət Jdanov (indiki Beyləqan) rayonuna gətirildi. Burada ərazisi qapalı olan sovxozlarda 2-3 ay saxlanıldıqdan sonra Azərbaycan rayonlarına paylanıldı. Fədailərdən iki dəstə, biri Kirovabad (indiki Gəncə), digəri isə Nuxa (indiki Şəki) rayonlarında kompakt şəkildə yerləşdirildi. Tezliklə geri qayıdıb, mübarizəni davam etdiriləcəyi fikri ilə onlarla hərbi təlimi təkmilləşdirmək nəzərdə tutulmuşdu. Bu ideya bilavasitə S.C.Pişəvəriyə şamil edilir. (S.C.Pişəvərinin faciəli ölümündən sonra fədai düşərgələri də ləğv edilmişdir).

S.C.Pişəvəri sərhəddi keçmiş soydaşlarını Jdanov rayonu sovxozlarında yerbəyer etmək işi ilə məşğul olduğu bir vaxtda onu və Qulamyəhyanı M.C.Bağırov görüşə çağırır «Bizi MK-də qəbul etdilər. Orada bir sıra mövzularda söhbət oldu. M.C.Bağrov əlini bintlə sarmışdı. O, dedi ki, həkimlərin dediklərinə görə, əsəb pozğunluğundan baş verir. O, dedi ki, həyatında ikinci dəfədir ki, əlim belə olur. Birinci dəfə oğlunun Böyük Vətən müharibəsində həlak olması xəbərini eşidəndə belə olmuşdu. Bu dəfə də sizin hadisə ilə əlaqədar əlim belə olmuşdur. O, Stalindən alınmış teleqramı bizə oxudu. Teleqramda ümumiyyətlə bizə səbirli olmaq, işdə ciddi və möhkəm olmağımız tövsiyyə edilirdi» (Yenə orada, s.85). Qulam Yəhyanın xatirələrindən bəlli olur ki, M.C.Bağırov S.C.Pişəvəri ilə növbəti görüşdə qarşıdan gələn Novruz bayramına necə hazırlaşdıqlarını soruşduqda S.C.Pişəvəri cavabında: «Hələ bayrama çox qalır...» deməklə yəqin ki məğlub olmuş hərəkatm gələcək qələbə bayramını nəzərdə tutmuşdur.

S.C.Pişəvəri mühacirətdəki qısa ömrünün (cəmi 6 aydan da az) son dövrünü ailəsi ilə birlikdə (xanımı Məsumə, onun anası və yeganə oğlu Daryuşla) Bakıda, Mərdəkanda ona ayrılmış bağ evində və şəhərdə Xaqani küçəsində 13 №-li mənzildə ildə keçirmişdi. O, ömründən qalmış qısa dövrdə Güneydəki olayları ardıcıl izləməklə yanaşı, mübarizəsini dirənmiş dalandan necə çıxartmaq haqda düşünür, variantlar cızır və vaxtaşırı M.C.Bağırovu, digər sovet rəhbərliyini öz təklif və mülahizələri ilə «narahat» edir. Məğlubiyyətlə barışmayan və onu sovetlərin namərdlik mövqeyi ilə bağlayan S.C.Pişəvəri Stalinlə görüşmək və fikirlərini ona demək istəyirmiş. Bu fıkirləri S.C.Pişəvərinin yazılarını makinada yazan və mühacirət dövründə onun şəxsi katibəsi və köməkçisi olmuş mərhum doktor Humay xanım Ruindej bizimlə söhbətində söyləmişdi. Humay xanımın dediklərindən məlum olurdu ki, S.C.Pişəvəri mühacirətdə öz siyasi fəaliyyətini bir an belə dayandırmamış, firqə təşkilatını, cənubla bağlı təşkilat-təbliğat işini hadisələrin və günün tələbinə uyğun qurmağa çalışmışdı. Bununla birlikdə o,

rayonlara səpələnmiş soydaşlarının və təlim düşərgəsindəki fədailərin vəziyyəti ilə yaxından tanış olmaq üçün qısa müddətli səfərlərə çıxır və onlara baş çəkirmiş. İmkan ələ düşən kimi S.Pişəvəri Azərbaycan Yazıçılar İttifaqında (indiki birlikdə) 3-cü mərtəbədə onun ixtiyarında qoyulmuş kiçik otağa gəlir, firqə tarixini, hərəkatla bağlı xatirələrini və bəzən bədii səpgili yazı, feleton, şeir və hekayələrini əlyazmasından makina yazısına keçirirmiş. Təəssüflə qeyd etməliyik ki, S.C.Pişəvərinin mühacirət dövründə makinada yazdırdıqları və o yazıların əlyazmalarının xeyli hissəsi (çox güman sovetlərin güneylə bağlı əməllərindən bəhs edən hissələr) aradan aparılmışdı. Şübhəsiz bu «itbat» edilmiş hissə bir çox həqiqətlərin ortaya gətirilməsində, Güney Azərbaycandakı olayların və bununla bağlı edilmiş xəyanətlərin üstünün açıhşında tarixşünaslığa və cəmiyyətimizə çox böyük kömək olardı.



Xalxal – Seyidlər Zeyvəsinə gedən yol



Seyidlər Zeyvəsi kəndində bir evin görünüşü



Seyidlər Zeyvəsinin ağsaqqallarından



Cavadzadə ailəsinin Bülbülədə(Bakı) məskunlaşdığı ev – 1905



S.C.Pişəvərinin «yaşıl bağ»dakı evinin görünüşü



S.C.Pişəvərinin Bakı şəhərindəki evinin indiki görünüşü
(Xaqani küçəsi ev 13)




S.C.Pişəvəri və «Ajir» qəzeti



Təbriz şəhərinin görünüşü



Xalq Yaradıcılığı evinin kollektivi. Təbriz 1946.



S.C.Pişəvəri Sərdari Milli Səttərxanın qızı ilə söhbət edərkən





Məhəmmədrza şah və baş nazir Qəvamül-səltənə Azərbaycana hücum edəcək hərbi hissələri seyr edərkən (noyabr 1946-cı il).



Şah ordusunun təyyarələri Azərbaycan səmasında (noyabr-dekabr 1946-cı il).



Tehranın Azərbaycana basqınından sonra yerlə-yeksan edilmiş evlər

**ЦК ВКП(б)**
**товарищу СТАЛИНУ**

Передаю информацию, полученную из Тавриза.

4-го декабря иранские войска с района Зенджан начали продвижение в сторону Миане.

Между передовыми частями азербайджанцев и иранскими войсками завязался бой, продолжавшийся несколько часов.

Иранские войска применяют танки, полевые орудия и минометы.

В результате боя отряды азербайджанских партизан, несущие дозорную службу, отошли на новые оборонительные рубежи, оставив село и железнодорожную станцию Реджеин.

Командир мианинской группы азербайджанцев Данешян в телеграмме на имя Пишевари просит немедленной поглоти с танковыми пулеметами и квалифицированными офицерами.



Из другой телеграммы Данешяна видно, что иранские войска также концентрируются в районах сел Тзером и Армеган Хате с целью прорыва в Халхал и выхода к Ардебилю.

Пишевари по радио оповестил население о начавшемся наступлении иранских войск на Азербайджан.

В Тавризе установлено военное положение.

Со всех концов Азербайджана крестьяне обращаются в ЦК демократическом партии с просьбой об их вооружении для обороны. Однако эти обращения руководство оставляет без последствий, ввиду отсутствия у него оружия.

Руководство демократической партии Азербайджана вновь просит оказать им хотя бы минимальную помощь: 16 орудий, 5 тысяч винтовок, 20 противотанковых ружей с соответствующим количеством снарядов и патронов.

М.Д. Багиров.
«5» декабря 1946 г.

## QƏZA YA QƏSD?

Başlığa çıxartdığımız bu sual 60 ildən çoxdur ki, sirri tam açılmamış müəmmalı ölümlərdəndir. Bu haqda mövcud olan məlumatlar və yazılar məzmunca biri digərindən fərqlənir və bəzən ziddiyyət təşkil edir. Biz də bu barədə qəti nəticəyə gəlməkdə çətinlik çəkdiyimizdən, S.C.Pişəvərinin 1947-ci il iyunun 11 -də dünyasını dəyişməsinin «Qəza, yoxsa qəsd?», «Ölüb, ya öldürülüb?» haqda suala cavab tapmağı kitabda verilmiş yazılar əsasında oxucunun mühakiməsinə vermək qərarına gəldik.

## HADİSƏNİN QISA ŞƏRHİ:

Azərbaycan Milli Hökumətinin süqutundan sonra Quzey Azərbaycana pənah gətirən güneylilər 1947-ci ilin mart-aprel aylarında yaşamaq və işləmək üçün müxtəlif rayon və şəhərlərdə məskunlaşdırıldı. S.C.Pişəvərinin təklifi ilə say-seçmə subay fədailərdən iki dəstə təşkil edilib, biri Gəncə şəhəri yaxınlığındakı Hacıkəndə, digəri isə Şəki şəhərinə göndərilmişdi. Hacıkənddəki fədailərə Tağı Musəvi (sonra tarix elmləri namizədi olmuş), Şəkidəki dəstəyə mayor Həsən Nəzəri (sonra iqtisadi elmləri doktoru olmuş) başçı təyin edilir. «Qızıl başlar» adlanan bu dəstələrə düşərgədə müntəzəm hərbi təlim keçirilir və onlar Azərbaycanı işğal etmiş şah qoşununa qarşı güman edilən partizan və müqavimət hərəkatı üçün hazırlaşdırıldı. S.C.Pişəvəri kompakt halda saxlanılan bu hərhi dəstələrin saxlanılmasında və hərbi təlimlə təkmilləşdirilməsində çox israrlı idi. S.C.Pişəvərinin bu işdə israrlı olması, yenidən müqavimət hərəkatına baş-lamaq meyli Sovet rəhbərliyini, şəxsən Stalini razı salmırdı. Arxiv sənədlərinə istinad edən bir məqalədə S.C.Pişəvəri tərəfindən deyilmiş aşağıdakı sözlər diqqəti çəkir: «Şurəvilər təlim batalyonlarına baş çəkməyimdən və hərbi hazırlıq işlərində iştirak etməyimdən narazıdırlar. Aldığım məlumata görə, bu işi Stalinə də çatdırıblar»*.

Arazın o tayında olduğu kimi bu tayda da Sovet rəhbərliyi, xüsusən Stalin-Mikoyan bloku güneydə müstəqil türk dövlətinin olmaması üçün Tehrana qarşı güney azərbaycanlıların hər hansı dövlət qurumu formasında dirçəlməsi əleyhinə olmuşlar.

Maneə və çətinliklərə baxmayaraq S.C.Pişəvəri 1947-ci ilin iyunun 10-da Təbrizdən yaxşı tanıdığı konsul müavini, DTK-nın nümayəndəsi Nuru Quliyev və general Qulamyəhyanm müşayəti ilə Bakıdan Hacıkəndə yola düşür. Məqsədi fədailərə baş çəkmək, onlardakı ruh yüksəkliyini qoruyub saxlamaq olmuşdur. Düşərgədəki fədailərin vətənə qayıdıb döyüşmək istək və əzmi S.C.Pişəvərini çox məmnun etmişdi. Düşərgədəki Ərdəbil fədaisi Zülfəli kişinin oğlu Səmədə dediklərindən: «Pişəvəri düşərgəyə gəldi, «Qızıl baş»ların istək və arzularını

* T.Quliyeva «Sirli Qətl günü...» «E1» dərgisi, Bakı, 1999, № 2, s.78-87.

öyrəndi. Ondan hamımızın yeganə xahişimiz və istəyimiz vətənə qayıtmağı, düşmənlə haqq-hesab çəkməyi tezləşdirmək oldu. O, bizim dediklərimizdən çox qayğılandı və məmnun oldu. Mən onun bir gözündə sevinci, digərində isə kədəri sezdim. Sevinci fədailərin yüksək ruhiyyədə qalması idisə, kədər onun düşüncələrini buxovda saxlayan, əl-qol açmasına imkan verməyənlərin əməlləri idi. O, bizim dəstəmizdən xoş əhval-ruhiyə ilə ayrıldı və tezliklə onların yanına təkrar gələcəyinə söz verdi. Lakin biz bilmədik ki, böyük rəhbərlə bu bizim son görüşümüz olacaq. O, getdi, iki gün sonra onun qara xəbəri bizə çatdı. Bütün bölük matəmə batdı...»[**].

S.C.Pişəvəri Hacıkəndə etdiyi səfərdən əvvəl Qazanbulaq, Qasım İsmayılov (indiki Goranboy) və Gəncədəki həmvətənlərinə baş çəkmiş, onların vəziyyətini və çətinliklərini öyrənib dəftərinə qeydlər etmişdi (172. s.100-102).

11 iyun 1947-ci il səhər saat 6-da S.C.Pişəvəri, Nuru Quliyev, Qulamyəhyanın əyləşdiyi və erməni sürücü Qarnik Melikyanın idarə etdiyi «Ford» markalı maşında[*] Gəncədən Yevlağa doğru yola düşür. Həmişə arxa oturacaqda əyləşən pişəvərini bu dəfə qabaq oturacaqda, sürücünün sağında əyləşdirirlər. Yevlaxa 14-15 km. qalmış «Ford» yolun sağındakı beton divarcığa zərbə ilə dəyir. Sürücüdən başqa sərnişinlərin üçü də xəsarət alsa da xəstəxanada dünyasını dəyişən təkcə S.C.Pişəvəri olur.

Bu müəmmalı avtomobil qəzası ilə bağlı şahidlərin ifadələrində və yazılarda biri-birinə uyğun gəlməyən və bəzən ziddiyyət təşkil edən motivlər vardır. Bu motivlər aşağıdakı sualları yaradır:

1. Qəza ilə bağlı S.C.Pişəvəri xəstəxanada öz əcəli ilə ölüb, ya öldürülüb?
2. Keçmişi bir qədər şübhəli olan erməni sürücü maşını beton divarcığa qəsdən vurub, ya sükan arxasında yatıb?
3. Bu müəmmalı ölümdürsə sifarişçisi kimdir, hansı orqandır?
4. S.C.Pişəvərinin qəsdən qətlə yetirildiyini M.C. Bağırovun 1956-ci ildəki məhkəməsində deyən Yevlaxın o zamankı DTK nümayəndəsi Lətif Salayev verdiyi ifadələr həqiqətdirmi?
5. Rəsmi toplantıda S.C.Pişəvərinin əmioğlusu və bacısı əri Murağa Azərinin general Qulam Yəhyaya müraciətilə: «Qulam, Pişəvərini sən öldürdün ki, onun yerinə keçəsən» ifadəsinə inanmaq olarmı?
6. «Pişəvərinin ölməsi ruslar üçün yaşamasından sərfəli idi» - deyən bir neçə kitabların müəllifi X.Məmmədi nə dərəcə haqlıdır?

Baş vermiş avtomobil qəzası və S.C.Pişəvərini həlak olası ilə bağlı daha çoxsaylı suallar, şübhəli məqamlar, uyurma və rəvayətlərə oxşar söz-söhbət vardır. Fakt bundan ibarətdir ki, günümüzədək S.C.Pişəvərinin ölümü «Qəza idimi, yainki qəsd!?» - sualı cavabsız qalan suallardandır.

---

[**] Səməd Bayramzadə. Atamın mənə dedikləri (xatirələr, əlyazması).

[*] Pişəvəriyə məxsus, ABŞ istehsalı olan “Buyuk” markalı maşın məlum olmayan səbəbdən işə düşmədiyindən o, “Ford”la getməli olub.

S.C.Pişəvərinin ölümü ilə bağlı kitabın sonundakı yazılarda cavab tapmağı oxucunun ixtiyarında qoyuruq.

## MƏZARDAN MƏZARA KÖÇÜRÜLƏN İNSAN SON MƏZARIN TƏBRİZDƏ OLSUN

Azərbaycandakı xalq hərəkatının (1945-1946) böyük öndəri, ADF-nin banilərindən və AMH-nin rəhbəri Seyid Cəfər Pişəvərinin cənazəsi 1946-cı il iyunun 13-də saat 16:00-da torpağa tapşırılmışdır. Onun ilk məzarı Bakının ətrafında yerləşən Buzovna kəndinin (indi qəsəbədir) «Nobel»bağı adlanan («Yaşıl bağ») yerdə olmuşdu. S.C.Pişəvərinin ailəsinin Bakıda ilk məskunlaşdığı ev də bu bağın ərazisində yerləşirdi.

S.C.Pişəvəri avtomobil qəzasına 1946-cı il iyunun 11-də səhər saat 06:00 radələrində düşsə də o, Yevlax rayonunun mərkəzi xəstəxanasına 2-3 saat sonra çatdırılmışdır. S.C.Pişəvərinin 14-15 km. məsafədə yerləşən xəstəxanaya gec çatdırılması səhər tezdən Kirovabad (indiki Gəncə)-Yevlax yolunda nəqliyyat hərəkətinin olmaması ilə şərh edilir.

Şahidlərin dediklərinə əsaslansaq, xəstəxanaya çatırılanadək S.C.Pişəvərinin çox qan itirməsinə baxmayaraq onun huşu başında, nitqi də öz yerində imiş.

Bakıdan tibb briqadası gələnədək nə Gəncədən, nə də Qarabağdan gəlmiş həkim-cərrahların Pişəvərinin üzərində xilasetmə əməliyyatı aparmalarına icazə verilməmişdir. Bakıdan cərrahlar və dövlət nümayəndəsini gətirən təyyarə isə 5-6 saat sonra Yevlaxa gəlib çatmışdı.

Cərrahların «əməliyyatından» az sonra S.C.Pişəvəri dünyasını dəyişir. Bu haqda ilk xəbər cərrahiyyə otağı qarşısında dayanmış, S.C.Pişəvərinin həkim qardaşı Mir Xəlilə, sonra isə rəsmi dövlət orqanlarına çatdırılmışdı.

S.C.Pişəvərinin meyidi iki gün sonra, 1946-ci il iyunun 13-də ailəsinə təhvil verilmişdi. Ailəyə, xüsusən S.C.Pişəvərinin cənazəsi olan otağa kənar şəxslərin daxil olmasına icazə verilməmişdi. Doktor N.Cahanşahlu öz xatirələrində yazır: «S.C.Pişəvəri ilə görüşdən 3-4 gün keçmişdi ki, general Atakişiyev mənə zəng vurub dedi: «Yoldaş Seyid Cəfər Kirovabad-Yevlax yolunda avtomobil qəzasında ölüb. Mən sizə başsağlığı verir və xahiş edirəm ki, partiya məktəbində təhsil alan iranlı tələbələri Buzovnadakı bağa göndərəsiz. Günortadan sonra saat 2-də orada olsunlar. Günortadan az sonra məni gözləyin. Mən gəlib sizi oraya aparacağam ki, dəfn mərasimində iştirak edək»[*]

---

[*] Bu haqda bax: N.Cahanşahlunun «Ma və biqanəqan» (Biz və özgələr) xatirələr toplusuna, Berlin, 2003; Mir Cəfər Bağırovun məhkəməsi (arxiv sənədləri) Bakı, 1993; Həmid Mollazadə. «Başı möhürlənmiş sirlər», Təbriz, 1376 (1997).

S.C.Pişəvərinin dəfn mərasiminin şahidi olmuş yaşı 85-90-nı haqlamış Buzovna qəsəbəsinin sakinləri Babayev Ələkbər və Səlimov Ruhulla nağıl edirlər ki, «dəfn mərasimi vaxtı «Yaşıl bağ» hər tərəfdən polis nəzarətində idi. Biz demokratların (Güney Azərbaycandan gələnlərin) rəhbərinin avtomobil qəzasında həlak olması xəbərini «Buzovna neft» mədənlərində işləyən cənublu iş yoldaşlarımızdan eşitdik. Onlar Buzovna neftin 4-cü yataqxanasında qalırdılar. Dəfhin bu gün (iyunun 13-də) «Yaşıl bağ»da olacağını onlar bizə demişdi. Biz bağın polis nəzarətindən kənarda qalmış hissəsindən birtəhər özümüzü içəriyə saldıq və ora toplananlara qatıldıq».

Ruhulla və Malik kişi S.C.Pişəvərinin dəfn olunduğu «Yaşıl bağ» haqqında da məlumat verdilər. Onlar dedilər ki, bu bağ əvvəlcə əslən Sabunçu kəndindən olan İsa və Musa qardaşlarına məxsus olub. Nobel qardaşları bu bağı aldıqdan sonra ora «Nobel bağı» adlandırılmışdı. Cənubdan gələn demokratların bir neçə ailəsi, o cümlədən mərhum Seyid Cəfər Pişəvərinin ailəsi əvvəlcə bu bağda məskunlaşmış, sonra isə onlara Bakıda Xəqani küçəsində də mənzil verilmişdir.

«Yaşıl bağ» demokratlar yaşayanda da, sonra bağ vərəm xəstəliyi sanatoriyasına çevriləndə də demək olar ki, həmişə kənar adamlar üçün bağlı yer olub. S.C.Pişəvəri burada dəfn olunandan sonra bağa gedib-gəlmək daha da yasaqlandı.

Cahanşahlu yazır: «General Atakişiyev bağa çatan kimi, o, başqalarına fikir vermədən məni birbaşa cənab Pişəvərinin ailəsi olan binaya apardı. Tabutun qoyulduğu kiçik bir otağa daxil olduq. O, dedi ki, cənazəni görmək üçün hamının buraya gəlməsini məsləhət görmürəm. Pişəvərinin xanımı pərişan halda səssiz dayanıb, ağlayırdı. Mən cənazəyə baxan kimi zəhərlənmə əlamətlərini müşahidə etdim. Çünki bütün bədən şişmişdi və yalnız iki kiçik yara, biri üzünün sağ hissəsində, digəri isə boynunda (çiyinə yaxın hissədə) müşahidə olunurdu. Mən təəccüblənib dedim: Yoldaş general, bu iki kiçik yara ki, adamı öldürməz? O, polis baxışlarına bənzər dərin, mənalı və nəsihətamiz baxışlarını mənə zillədi və dedi: «Yoldaş həkim! Siz onunla Rza şah zindanında olubsunuz. Bilirsiniz ki, o, illərlə orada çox çətinliklərlə yaşayıb. Bu hadisədə onun xəstə ürəyi təəssüf ki, tab gətirməyib, keçinib. Onun həyata qaytarılması üçün əllərindən gələni əsirgəməyiblər».

Bu qısa danışıqdan sonra o, cənazənin üstünü örtdü və əvvəldən qapının arxasında gözləyən şəxslərə əmr etdi ki, tabutun mıxlarını çalsınlar».

Dəfn mərasiminin canlı şahid kimi Ruhulla kişi nəql edir ki, S.C.Pişəvərini qəbrə göz yaşları içərisində bizim iş yoldaşımız Gülməhəmməd Natəvanı qoydu.

N.Cahanşahlunun və buzovnalı şahidlərin dediklərindən məlum olur ki, dəfn mərasimində S.C.Pişəvərinin silahdaşlarından Sadıq Padiqan, Məhəmməd Biriya, Azərbaycan Kommunist partiyasının bir neçə nümayəndəsi və Mirzə İbrahimov, Həsən Həsənov, doktor Səmədov, Qulam Məmmədli (bunlar S.C.Pişəvərini Təbrizdən tanıyırdılar) və partiya məktəbindəki cənublu

müdavimlər, Milli Hökumət dövründə fədai başçısı olmuş və «Buzovna neft» mədənlərində çalışan G.Natəvani, Qulam Şücai, Sultanəli Qulamı, Hənifə və Yaqub Əmiri qardaşları və başqaları iştirak etmişlər. Mirzə İbrahimovun qısa danışığından sonra dəfn mərasimi başa çatmışdı.

Beləliklə, Güney Azərbaycanın Xalxal mahalının Seyidlər Zeyvəsi kəndində dünyaya göz açmış S.C.Pişəvəri Yevlax xəstəxanasında gözlərini əbədi olaraq yumdu! Hansı səbəbdənsə onun Buzovnadakı məzar daşına heç bir yazı yazılmamış və məzar diqqəti cəlb etməsin deyə gül-çiçək kolları ilə ört-basdır edilmişdi. Yevlaxdakı Pişəvərisevərlər öz vəsaitləri ilə şəhər qəbiristanlığında ona rəmzi qəbir-abidə qoymuşlar və baş daşında onun adını, soyadını, təvəllüd və vəfat tarixini yazdırmışlar. Həmin abidə Yevlax qəbristanlığında indi də durur.

S.C.Pişəvərinin müəmmalı ölümünü Sovet orqanları nə qədər gizlətməyə cəhd etsələrdə, dəfnin sabahı günü xarici radiolar baş vermiş hadisə haqqında xəbər yaydılar. S.C.Pişəvərini faciəli vəfatı Tehran radiosu üçün bir neçə günlük sevindirici şou mövzusuna çevrilmiş oldu.

60-cı illərin əvvəllərində ictimaiyyətin, Pişəvəri silahdaşlarının təşəbbüsü və Azərbaycan rəhbərliyinə olan çoxsaylı müraciətlərlə bağlı olaraq S.C.Pişəvərinin Buzovnada, «Yaşıl bağ»dakı məzarı 1965-ci ilin «21 Azər inqilabının» 20 illiyi günlərində Azərbaycan dövlət və Firqə rəhbərlərinin, ictimaiyyətin iştirakı ilə «Fəxri xiyaban»a köçürülmüşdü. «Fəxri xiyaban»dakı məzar üçün hazırlanmış xüsusi beton qəbir-qutu o məqsədlə düzəldilmişdi ki, zamanı gələndə S.C.Pişəvərinin sümüklərini Təbrizə köçürmək mümkün olsun. Firqə arxivindəki sənədlərdən məlum olur ki, Fəxri xiyabandakı qəbir üçün 50 tonluq qranit mərmər daşı Ukraynadan gətirilmiş, heykəltaraşı isə Leninqrad (indiki Sankt-Peterburq) şəhərindən dəvət edilmişdir. Məzarın esgizini və tərtibatını mərhum memar Adil Dadrəs vermişdi.

S.C.Pişəvərinin məzarı və məzarüstü abidələri, o cümlədən dərin düşüncəyə dalmış əzəmətli heykəli Bakıda, fəxri xiyabandadır. Pişəvərisevər insanlar onun anadan olduğu 26 avqust və vəfat etdiyi (11 iyun) günlərində bu böyük şəxsiyyətin məzarını ziyarət edir onun unudulmaz xatirəsini hörmətlə yad edirlər.

## NƏTİCƏ

1941-1946-cı illərdə Güney Azərbaycandakı azadlıq hərəkatının öndəri olmuş S.C.Pişəvərinin həyatının və keçdiyi mübarizə yolunun bütün mərhələlərinin öyrənilməsi tarixşünaslığımız və cəmiyyətimiz üçün şübhəsiz vacib və aktual mövzulardandır. Araşdırmalar göstərir ki, S.C.Pişəvərinin çoxşaxəli: maarifçilik, siyasi-ictimai, bədii, elmi və s. sahədəki irsinin daha dərindən və ətraflı tədqiq olunmasına ehtiyac vardır.

Əlbəttə S.C.Pişəvəri haqqında Azərbaycanın həm güneyində, həm də quzeyində xeyli yazıların olduğunu inkar etmək olmaz. Lakin bu yazılarda

S.C.Pişəvərinin keşməkeşlərlə dolu həyatının və mübarizəsinin bütün cəhətlərindən yetərincə öyrənildiyini də demək mümkün deyil.

Yuxarıda dediyimiz kimi, S.C.Pişəvəri haqqında İranda yazılanların çoxu şovinist ünsürlərin pulu və sifarişi ilə yazıldığından onlar Pişəvəri şəxsiyyətini və onun fəaliyyətini bütövlükdə təhrif və böhtanlara məruz qoymuş və qoyurlar. Bu işdə onların əsas hədəfi S.C.Pişəvəri ilə birlikdə 1941 -1946-cı illərdə güneydəki hərəkatı ləkələmək, onu ictimaiyyətin gözündən salmaq eləcə də hərəkatın milli xarakterini və hədəfini şovinistlərin istək və ruhuna uyğun şərh etməkdir.

İran İslam Respublikasının keçmiş prezidenti M.Xatəmi İrəvana rəsmi səfəri zamanı (avqust 2004) erməni müxbirinin S.C.Pişəvəri və onun başçılıq etdiyi hökumət haqqında fitnəkarcasına verildiyi suala cavabında M.Xatəmi: «Həm Pişəvəri, həm də o hərəkat xaricdən gəlmə olduğu üçün xaricə də çıxıb getdi Azərbaycandakı zəminlə onun heç bir əlaqəsi olmamışdı» deməsi əslində Pişəvəri əleyhdarlarının və Azərbaycan xalqının azadlığına düşmən olanların dəyirmanına su tökmək idi. Belə bir durumda biz «ağzımıza su alıb» dayanmamalıyıq. Həqiqəti olduğu kimi ictimaiyyətə çatdırmalıyıq və şərəfli keçmişimizi şərəfsizlərin basqı və təhqirlərindən qorumalıyıq. Bu bizim hər birimizin vətəndaşlıq borcumuzdur. Bunu bizdən həm də obyektiv və qərəzsiz tədqiqatçılıq vəzifəmiz tələb edir.

* * *

S.C.Pişəvərinin 35-40 illik mübarizə yolunun eniş və yoxuşları ilə az-çox tanış olduqdan sonra onun fəaliyyətinin qüsurlardan tam xali olduğunu demək də çətindir.

S.C.Pişəvəri dövrünün və MH-lə bağlı olayların şahidi, ən başlıcası S.C.Pişəvəri şəxsiyyətinə hörmət qail olan bir adam kimi onun fəaliyyəti dövründə buraxdığı səhvləri qələmə gətirmək, bu haqda öz fikir və mülahizələrimizi oxucu ilə bölüşdürmək nə qədər ağır olsa da bunlar deyilməlidi. Deyilməlidi ona görə yox ki, biz keçmişimizi «təftiş» etmək istəyirik. Deyilməli və yazılmalıdı ona görə ki «keçmiş gələcək yolun aynasıdır». Biz bu «aynada» S.C.Pişəvəri şəxsiyyətinin hər tərəfli cəhətlərini görməli, ağı-ağ, qaranı-qara yazmalıyıq.

S.C.Pişəvərinin Məhəmmədəmin Rəsulzadənin azərbaycançılıq məfkurəsindən uzaqlaşması, sosial-demokratlıqdan Kommunistlik məsləkinə keçməsi onun ilk və ciddi səhvlərindən biri sayılmalıdır. Özü sonralar, bir qədər gec də olsa: "İranda kommunist məsləkinin yayılması üçün milli zəminin yoxdur" deməklə vaxtı ilə buraxılmış səhvin etirafı kimi başa düşülməlidir. (Bax: S.Fərzadın tərtibatına istinad materialları s.7-70)

Onun baxışlarında başqa yalnış mövqe, 1918-ci ilin mart qırğını ilə bağlıdır. Bolşevik-daşnakların fitvası ilə Bakıda və ətraf bölgələrdə ermənilər tərəfindən türklərə qarşı kütləvi qırğının həyata keçirilməsi tarixdə məlum və inkar olunmaz fakt olsa da, S.C.Pişəvəri bu qanlı olayda müsavatla daşnakları eyni dərəcə də günahlandırır (7. s.397-398)

Rza xan kimi qəddar və şovinist bir tiranın şahlıq taxtına yiyələnmək üçün əvvəlcə özünü «respublika» tərəfdarı kimi hiyləgər vədinə S.C.Pişəvərinin inanmaq meyli onun sonrakı həyatı və mübarizəsi üçün ağır başa gəlmişdi (Bax: seçilmiş əsərləri, s.150, 152-153, 159)

S.C.Pişəvərinin əvvəl inandığı və arxalandığı sovetlərin 1920-1921-ci illərdə Gilan hadisələrinə etdikləri açıq-aydın xəyanət İran vətənpərvərləri sırasında S.C.Pişəvəriyə də ibrət dərsi olmalıydı.

1946-cı ilin yazında Moskva rəhbərliyinin «məsləhəti» və təzyiqi ilə Tehrana, Qəvam dövləti ilə «dil» tapmağa getməməliydi, üstəlik Təbriz radiosundakı çıxışında (13 iyun 1946) Əhməd Qəvam kimi hiyləgər qatili təriflənməməliydi (60. 28 Xordad, 1325). Təzyiq və zorakı buyruqlarla edilmiş bu işlər S.C.Pişəvəri şəxsiyyəti üçün uğur sayıla bilməz. Tehranın nümayəndəsi, S.Qəvamın müavini M.Firuzla bağlanmış təslimçi müqavilənin (Bax müqavilənin mətninə) altında S.C.Pişəvərinin imzası olmamalıydı. Müqavilə əsasında Tehran qoşunu Zəngana daxil olarkən törədilmiş vəhşilik və özbaşınalıqlar hüquqi cəhətdən əsas verirdi ki, Azərbaycan bir tərəfli olaraq bağlanmış müqavilədən çıxsın və özünü hər tərəfli müdafiəyə hazırlasın.

1945-1946-cı illərdəki hərəkat zamanı buraxılmış ciddi səhvlərdən biri də AMH-ti rəhbərliyinin İranın başqa bölgələrindəki demokratik və antirejim qüvvələrlə zəif təmas saxlaması, onların köməyindən faydalana bilməməsi idi. (1946-cı ilin martında M.C.Bağırovla görüşdə S.C.Pişəvəri bu səhvi özü etiraf etmişdi) Halbuki, Azərbaycan və Kürdüstan kimi Bəluc, Ərəb, Türkmən, Lor, Qaşqay və s. xalqlarda rejimin zorakılığından və şovinist əməllərindən əzab çəkmiş insanlar idi. Onlarla dil tapmaq, əlaqə yaratmaq, vahid cəbhədə çıxış etmək Azərbaycandakı milli qüvvələrin mübarizəsinə böyük və əvəzsiz kömək olardı. Tehranın bütün qüvvələri birbaşa Azərbaycana yönəltmək planını pozardı.

1946-cı ilin sonundakı real vəziyyət, arxasızhq Azərbaycandakı hərəkatın süqutunun mütləqləşdirirdi. Belə şəraitdə mübarizənin gizli formasına keçmək, fədai dəstlərindən partizan qrupları düzəltmək, «Babək» adına yaranmış könüllülər dəstəsini istiqamətləndirmək, firqə rəhbərlərini, fədai başçılarının müqavimət hərəkatına cəlb etmək və bu işdə şəxsi nümunələr göstərmək S.C.Pişəvərinin rəhbərlik etdiyi təşkilatın və hökumətin göstərəcəyi ümdə işlərdən olmalı idi. Mübarizənin ağır və mürəkkəb vaxtında S.C.Pişəvərinin verilmiş vədlərə inanıb qəflətən Təbrizi tərk etməsi əhalidə ruh düşkünlüyü, mənəvi sarsıntı yaratdı. Başsız qalmış şəhərdə çaşqınlıq və başı pozğunluq artdı... İctimai fikir belədir ki, S.C.Pişəvəri nəyin bahasına olsaydı belə bu ağır vaxtda Təbrizi tərk etməməli idi. O, fədailəri ilə birgə Tehran qoşununa müqavimət göstərib qəhrəman kimi həlak olmağı Arazı bu taya keçməkdən üstün tutmalıydı və s.i.a...

Firuz Heyət («Varlıq» dərgisinin naşiri Cavad Heyətin qardaşı) ABŞ-da çap etdirdiyi «Reform» dərgisinin 1997-ci il iyun nömrəsində (№ 3) Məmmədrza şahın generallarından olan, Azərbaycanan hücumu iştirakçısı Foladinin «xatirələr»indən

parçalar çap etdirmişdir. Foladi öz xatirələrində yazır ki, «biz 1946-cı ilin noyabr-dekabr aylarında (Aban-Azər) aylarında Azərbaycana hücum edərkən əgər qarşı tərəf 300 mütəşəkkil hərbi qüvvə ilə bizə müqavimət göstərsəydi Təbrizi tutmağımız müşkül olacaq idi» (187. 1383,№ 4,s.77).

Əhali arasında çaşqınlıq, orduda və fədai dəstələrində başlı-başına qalma və istiqamətsizlik halı əvəzinə müstəqil müqaviməti təşkil etmək olsaydı, nəticədə yəqin ki, başqa cür ola bilərdi.

Ürək yanğısı ilə bu deyilənlər müəllifin olmuşlara əsaslanan subyektiv fikir və mülahizələridi. Bunlar S.C.Pişəvəri şəxsiyyətinə, onun irsinə və fəaliyyətinə kölgə salmaq niyyətindən tam uzaqdır. Bunu yəqinki Pişəvərisevər oxucuda sezməmiş deyil. Biz keçmişimizin kəm-kəsirlərini ona görə dilə gətirmirik ki, onun uğurlarına kölgə salaq. Burada məqsəd keçmişin ağır və acı olaylarını yada salıb onlardan nəticə çıxarmaqdır. Buraxılmış səhvlərə və büdrəmələrə təkrar yol verməmək istəyidir.

S.C.Pişəvərinin həyatı, keçdiyi şərəfli mübarizə yolu, özünün dediyi kimi, ancaq və ancaq xalqının azadlığına həsr edilmişdir. Bu işdə onun hər hansı taktiki və mülahizə yanlışlığı da şübhəsiz onun öz məqsədinə çatmaq istəyi ilə bağlı olmuşdur. Həm də ictimai-siyasi xalq hərəkatlarında səhvlərə yol verilməməsi nadir istisnalardandır.

S.C.Pişəvəri ideyaları Güney Azərbaycanda azadlıq və demokratiya mücadiləsinin hədəf və qayəsi olaraq bu gün də yaşamaqdadır. S.C.Pişəvəri ilə bağlı araşdırmalara onun sözləri ilə yekun vuraq: «Düşmən hədələri bizi tutduğumuz haqq yolundan qaytara bilməz. Ya ölüm, ya azadlıq, üçüncü yol yoxdur!».

***

P.S. XX əsrin böyük fenomen şəxsiyyətlərindən olmuş Seyid Cəfər Pişəvəri haqqında əlim yetişdiyi, gücüm çatdığı qədər həqiqətləri oxucuya çatdırmaq istədim. Çox ağır zəhmət tələb edən, məsuliyyətli bu tədqiqat işi yəqin ki qüsur və çatışmayan cəhətlərdən azad deyildi. Bu haqda öz tənqidi fikir və mülahizələrini müəllifə çatdıran pişəvərisevərlərə öz təşəkkür və minnətdarlığımı əvvəlcədən bildirirəm.

ekremrehimli@mail.ru

## ƏLAVƏLƏR

“Əgər Tehran xarici imperialistlərin göstərişi və köməyi ilə bizim hərəkatı məğlub etməyə müvəffəq olsa belə, xalqımızın haqqını əbədi olaraq qəsb edə bilməyəcəkdir Tez-gec azərbaycan öz istiqlaliyyətini alacaq, öz müqəddəratını özü təyin edəcəkdir”

S.C.Pişəvəri

## BÖYÜK DÖVLƏTLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN LONDONDAKI TOPLANTISINA

**Təbriz, 23 sentyabr 1945-ci il,**

ABŞ Xarici İşlər naziri cənab Brenesə, İngiltərə Xarici İşlər naziri cənab Büvenə, Sovet İttifaqı Xarici İşlər Naziri cənab Molotova, Fransa Xarici işlər naziri cənab Bidaya, Çin Xarici İşlər naziri cənab Vanşiyə.

Böyük demokratik dövlətlər qanlı faşist üsul-idarəsini məhv etdikdən sonra dünyanın çox məmləkətləri adilanə demokratik üsul-idarəsi yaratmışdır. Qabaqlar da zülm altında əzilən cahanın çoxlu qovm və millətləri tarixi Atlantik Mənşurinə (Xartiyasına) müvafiq olaraq öz müqəddəratlarını təyin etməyə başlamışdır.

Hər xalq öz milli mədəniyyətini, iqtisadiyyatını və güzəranını qaldırmaq üçün demokrası rejimin nemətlərindən istifadə etmək istəyir. Mütəəssüfanə İranda günbəgün diktatorluq təhlükəsi artmaqda və faşist ünsürləri Rza şahın mənhus hakimiyyətindən sonra əldə edilən natamam azadlığı belə boğmaq üçün hər cür fitnələrə əl atmaqdadır. Həm əyalətlərdə və həm də paytaxtda azadxahlar təqib olunur. Demokratik hərəkatı təmsil edən ruznamələr (qəzetlər) və cəmiyyətlər silah gücü ilə dağıdılır. İrtica qüvvələri təzədən sabiq Rza şahın istibdad rejimini istəmək üçün tranın namuslu azadxahlarının qanını tökməkdən çəkinmirlər.

İranda beş milyon nüfuza malik olan biz azərbaycanlıların vəziyyəti daha təhəmmül edilməzdir. Azərbaycan milləti uzun illərdən bəri İrandakı azadlıq nehzətinin ələmdarı olmağına baxmayaraq öz torpaqlarında fəqr və biçarəlik halında, hər cür hüquqdan məhrum halda yaşamaqdadır. İranda bu vaxta qədər ağalıq edən irtica hakimiyyəti nəticəsində Azərbaycan milləti öz milli mədəniyyəti tərəqqisinə çalışmaq, xaraba şəhərlərini abadlaşdırmaq və xalqın fəlahət (kənd təsərrüfatı) behdaşt (səhiyyə) və sair ehtiyaclarını rəf etmək və hətta öz uşaqlarını ana dilində belə oxutmaq üçün heç haqq və ixtiyara malik deyildir. Dünyanın qədim xalqı olan və min illər ərzində böyük mədəniyyət və sənət əsərləri yaratmış Azərbaycan xalqı indi istibdad və diktatorluğun aradan götürülməyə başlandığı bir zamanda öz hüquqlarını tələb edib və bu müqəddəs yolda mübarizəyə qalxmışlar.

Biz azərbaycanlılar Atlantik Mənşurunda göstərilən hər bir millətin öz müqəddəratını özü təyin etmək əqidəsinə dərin bir iman bəslədiyimizi və bu acı vəziyyətimizi böyük mütəffiq dövlətlərin təşkil verdiyi vəzirlər şurasına yetiririk.

Biz bütün İranda həqiqi demokrasi üsulun bərpasının və Azərbaycan xalqına daxili azadlıq və muxtariyyat verilməsini, ümum məmləkətin adilanə qanunlarını gözləməklə bərabər, Azərbaycanın öz sərneviştini özü təyin etməsini istəyirik.

Biz böyük mütəffiq demokrasi dövlətlərin xalqımızın bu tarixi və adilanə tələbində bizə kömək etmələrini, beş milyondan artıq Azərbaycan xalqı adından tələb edirik.

Azərbaycan xalqı əmindir ki, bütün millətlərə və qövmlərə milli azadlıq və xilaskarlıq vəd etmiş böyük müttəfiq demokrasi dövlətlər bizim də tələbimizi və təbii haqqımızı nəzərdə tutacaq və öz köməklərini bizdən əsirgəməyəcəklər.

Azərbaycan xalqı adından müraciəti 1500 nəfərdən çox xalq elçisi imzalamışdı.

«Qızıl səhifələr», Təbriz, 1324-cü il, s. 62-64.

## AZƏRBAYCAN XALQ KONQRESİNİN İRAN HÖKUMƏTİNƏ MÜRACİƏTİ

İranın şahənşahının xidmətinə, İran Milli Şura Mədisinin rəisi Məhəmməd Təbatəbaiyə, Baş nazir ağaye İbrahim Həkimiyə.

Bu il Aban ayının 29-30-da (1945-ci il noyabrın 21-22-də) Təbriz şəhərinin Şir-Xorşid salonunda 150000 nəfərin imzası ilə Ümumazərbaycan şəhər və hövmələrindən toplanan ümum mitinqlər tərəfindən seçilmiş yeddi yüz nəfər nümayəndənin şirkəti ilə təşkil tapan Böyük xalq Konqresi özünün 4-cü iclasında ittifaq ara ilə (səs çoxluğu ilə) öz tələbatının əsas məsələlərini aşağıdakı maddələrdə qeyd olunan elamiyyə vasitəsilə İranın mərkəzi hökumətinə bildirməyi qərara aldı:

1. Azərbaycan xalqı burada yazılmasına yer olmayan saysız-hesabsız tarixi səbəblər və hadisələrə görə özünəməxsus milliyyət, dil, adab və rüsum və sair xüsusiyyətə malikdir. Bu xüsusiyyət ona haqq verir İranın istiqlaliyyət və tamamiyyətinə müraat etməklə bərabər bütün dünya münasibətləri kimi Atlantik Elamiyyəsi mocibincə öz müqəddəratını təyin etmək üçün azad və muxtar olsun.

2. Konqres Azərbaycan xalqının İranın başqa əyalət və vilayətləri ilə olan mədəni, iqtisadi və siyasi rabitəsini nəzərə almaq ilə bərabər bu xalqın indiki İran dövlətinin təsisi haqqında göstərdiyi fədakarlıqları (vaqiən indiki İran dövləti Azərbaycanlılar vasitəsilə təsis olunmuşdur) nəzərə almağa heç cürə hazır deyil, onun məşrut və qanuni təqazalarını ki, milli muxtariyyətdən ibarətdir, İranın mərzlərinə xələl gətirib onun təcziyəsi üzərində qərar versin.

3. Azərbaycan xalqı var qüvvəsi ilə İranda məşrutə şəkli almış demokrasi üsulunun tərəfdarıdır. Azərbaycan milləti İranın tamam əyalət və vilayətləri kimi İranın Məclisi Şurası məclisinə nümayəndə göndərəcək və adilanə maliyyat verməkdə şirkət edəcəkdir.

4. Azərbaycan xalqı rəsmən və ələni elam edir ki, bütün dünyanın diri millətləri kimi (İranın tamamiyyət və istiqlalını gözləməklə) özünün daxili işlərini

idarə etməkdə özü milli hökumət yaratmağa haqlıdır və o bacarıb İranın istiqlal və tamamiyyətini müraat etməklə Azərbaycan demokrası və hakimiyyətə milli üsulu ilə idarə edə bilər.

5. Azərbaycan xalqı azadlıq və demokratlıq yolunda böyük zəhmətlər çəkib, çoxlu qurbanlar verməyinə görə istəyir özünün muxtar hökumətini həqiqi demokratik əsası üstündə qursun. Buna görə konqres tərəfindən təsvib olunmuş daxili nizamnamə üstündə özünün Məclis Millisini intixab edib lazım görür Azərbaycanın milli və daxili hökuməti bu məclisin nümayəndələrinin arasından intixab olub onun qabağında məsul olsun.

6. Azərbaycan xalqının öz milli ana dilinə əlaqəsi vardır. Özgə dilinin təhmili onu tərəqqi və təməddün karvanından dala salmış və onun milli fərhəng və maarifinin yolunu bağlamışdır.

Buna rəva təhmilin qabağını almaq və Azərbaycanın tərəqqisinə lazım gələn bütün vəsilələri vücuda gətirmək üçün Azərbaycan xalqının milli konqresi heyətə milliyə dəstur verir, çox tez bir zamanda Azərbaycan dilini bütün dövlət idarələrində mürəssum və onun tədrisini tamam mədrəsələrdə (dövləti və milli) əməli etsin.

7. Yüz əlli min nəfərin imzası və yeddi yüz nəfər nümayəndənin iştirakı ilə təşkil tapan milli konqres Azərbaycan millətinin iradəsi ilə özünü Müəssislər Məclisi elan edib Azərbaycanın daxili işlərini idarə etmək üçün onun doqquz nəfərdən ibarət bir milli heyət intixab edib onlara ixtiyar verir, milli istəklərini əməli etmək üçün lazımi tədbirlər görüb səlahiyyətdar məqamat ilə müzakirəyə girişsinlər. Eyni zamanda Azərbaycan Məclis Millisini və həmçinin Məclis Şuraye Milli intixabını icra eləsinlər.

Axırda konqrə İran dövlətinin və dünyanın böyük demokratik dövlətlərinin diqqətini yuxanda yazılanlara cəlb edib izhar edirlər ki, bu mütalibin icrası üçün fəqət təbliğ və təşkil vasitəsi ilə iqdam edib nəzaı daxili və qardaş qanı tök-məyə icazə verməyəcək. Vəli əgər mərkəzi dövlət istərsə, onun qanuni silah gücü və qəhro-qələbə ilə ortadan aparsın o vaxt naçar hər qiymətə olur-olsun öz hüququndan müdafiə edəcək və ta bir nəfər azərbaycanlı qalanadək öz milli muxtariyyatı yolunda mübarizə aparacaqdır.

Məclis Müəssisan (Konqreye Milli) heyət milliyə ixtiyar verir Azərbaycanın muxtariyyatını təmin etmək üçün səlahiyyətdar məqamət ilə əlaqəyə girsin. Məsələni sülh və müsalimət yolu ilə həll etsin. Vəli heyəte milli heç vəchlə Azərbaycanın muxtariyyatı və milli hököməti haqqında sərfhəzər etmək və İranın tamamiyyət və istiqlalını pozmaq ixtiyarına malik deyildir.

Biz arzu edirik bütün demokrası aləm bilsin ki, dünyada bir millət vardır hazır olub özünün var qüvvəsi ilə öz hüququndan müdafiə edib Asiyanın bir guşəsində azadlıq və demokratik bayrağını qalxızıb, istəyir fəqət öz köməyi ilə özünün azadlığını təmin etsin.

Ümid edirik İranın səlahiyyətdar məqamatı və böyük demokratik dövlətlər bizim milli mənzurumuzun icrası üçün naı pərvanə köməklərdən ki, Mənşur Atlantik onun əsası üzərində qoyulmuşdur müzaiqə etməyəcəklər.

Etiramat faiqilə (Milli Konqrənin) Məclis müəsisan milli rəyasət heyəti.

“Azərbaycan” qəzeti, l Azər 1324, Təbriz.

## AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN BAŞÇISI S.C.PİŞƏVƏRİNİN BMT BAŞ ASSAMBLEYASINA M Ü R A C İ Ə T İ

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün zəngin milli tarixinə mahkdir. Əsrlərin keşməkeşində o, öz milli dilini, adət və ənənələrini qoruyub saxlaya bilmişdir.

İran zülmkarları Azərbaycanı öz hakimiyyətləri altına alaraq, onun sərvətini amansızcasına taladılar. Nəticədə Azərbaycanın çiçəklənən kənd və şəhərləri dağılmaq həddinə gəlib çatdı.

Şovinist böyük dövlətçilik siyasəti yürüdən İran hökmdarları azərbaycanlıların mövcudluğunu tamamilə inkar etməyə cəhd göstərir, onların dilini əlindən almaqdan, hər cür təhqiredici əməllərdən çəkinmirdi.

Buna baxmayaraq Azərbaycan xalqı bir gün də olsun, öz azadlığı uğrunda mübarizəsini dayandırmadı. Azərbaycanlıların öz milli azadlıqları uğrunda mübarizəsinin ən parlaq nümunəsi Səttarxan, Bağırxan, Şeyx Məhəmməd Xiyabani və başqalarının hərəkatıdır. Bu cəsur insanlar mübarizənin başçılan, həm də şəhidləri idi.

Qanlı faşizmin üzərində demokratik dövlətiərin qələbəsi Azərbaycan xalqının mübarizəsinə yeni təkan verdi, yeni şərait yaratdı.

Tehran hökumətinin müqavimətinə baxmayaraq bu üin 21 Azərində (12 dekabr) Azərbaycan xalqının əsrlərdən bəri apardığı mübarizəsi qələbə ilə başa çatdı, Atlantik Xartiyasına uyğun olaraq Milli Məclisin, Azərbaycan Milli Hökumətinin qurulması ilə nəticələndi.

Azərbaycanda demokratik əsaslara dayanan bir Milli Hökumət qurulub və öz fəaliyyəti barədə bütün dünyaya məlumat yayıb.

5 milyonluq Azərbaycan xalqı milli dilinin, tarixinin, mədəniyyətinin köməyi ilə özünün müasir bir xalq olduğunu dərk etdi və bir də heç vaxt fars zülmünün altında inləməyə, fars dilinin İrandakı başqa xalqların dilləri üzərində ağalıqlarına icazə verməyəcəkdi.

Bu xalq bir nəfər kimi öz həyatını milli azadlığına və dövlətinə qurban verməyə hazırdır.

Yeni Milli Hökumətin fəaliyyəti sayəsində əsrlərlə istismar olunan xalq adi insani şəraitdə yaşamağa başlayıb. Bununla da o, öz milli dövlətini qurmağa, onu idarə etməyə qadir olduğunu göstərir.

Azərbaycan xalqının iradəsi ilə Atlantik Xartiyasına, yəni böyük demokratik dövlətlərin vədlərinə uyğun olaraq qurulan Azərbaycan Milli Hökuməti artıq danılmaz faktdır.

BMT Baş Assambleyasına müraciəti ilə Azərbaycan xalqı xahiş edir ki, Azərbaycan Milli Hökumətinin mövcudluğu faktı tanınsın və kənardan müdaxilə olmadan, ona öz taleyinin özü tərəfindən müəyyənləşdirilməsinə təminat verilsin.

S.C.Pişəvəri,
Azərbaycan Milli hökumətinin başçısı
28 yanvar, 1946-cı il.

## AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN PROQRAMI

Azərbaycan Milli Nazirlər Kabineti, Azərbaycan xalqının illər boyu arzu etdiyi milli muxtariyyətini vücuda gətirmək və bu vasitə ilə Azərbaycan xalqının milli ehtiyaclarını həll edib onu inkişaf və təkamülə sövq etmək üçün aşağıdakı vəzifələri özünün yaxın hədəfi və proqramı təyin edir.

1. Milli muxtariyyətimizi dünyaya tanıtmaq, onun da vam və bəqasını təmin etmək üçün ciddi tədbirlər görüb, səlahiyyətdar məqamat ilə müzakirəyə girişmək, İranın istiqlal və ərazi bütövlüyünə xələl gətirmədən milli dövlətimizi demokratik əsaslar üzrə qurmaq və bu yolda qabağa çıxa bilən çətinlikləri aradan qaldırmaq.

2.Milli muxtariyyətimizi möhkəm əsaslar üzrə qurub, onu xalqa yaxınlaşdırmaq məqsədi ilə çox tez bir surətdə vilayət əncümənlərinin seçkilərinə başlamaq və yerli idarələrin nəzarətini onların ixtiyarına vermək.

3. Şəhərlərimizin abadlığı üçün yubadılmadan şəhər əncümənlərini, demokratik əsaslar üzrə seçib, onların işlərini düzgün bir surətdə cərəyana salmaq.

4. Yerlərdə sağlam azadlıqsevər adamlardan rayon və qəsəbə başçıları seçib, onların vasitəsi ilə keçmiş zalimcəsinə hərəkətlər və xalqı təhqir edici əməllərin qarşısım alıb, bütün ölkədə təhlükəsizlik və asayişi təmin etmək.

5.Jandarm və polis idarələrini xain və xalqı əzib fəlakətə sövq edən şəxslərin əlindən çıxarıb, azadlıqsevər və vətənsevər şəxslərə tapşırmaq və onların işlərini xalqın arzu və ehtiyaclarına mütənasib bir hala salmaq.

Vergi qanunlarını nəzərdən keçirmək və maliyyə idarəsinin gəlir və xərclərini təftiş etdikdən sonra, çox tez bir surətdə milli büdcə layihəsini Milli Məclisə təqdim etmək. Ümumiyyətlə mali siyasətin gəlir və xərclərin əsasını məmləkətin inkişaf və təkamülü üzərində qurmaq.

7. Muxtariyyətimizi, Milli Məclisimizi və Milli Dövlətimizi qurmaq və onun gələcəyini təmin etmək üçün kəndlərdə və şəhərlərdə yaranmış fədai dəstələrini bir mərkəz ətrafında mərkəzləşdirmək, milli xalq qoşunu yaratmaq və bu qoşunun silah və tənzimatını müasir hala salmaq məqsədi ilə ciddi tədbirlər görmək.

8. Mədəniyyət və maarif sahəsində dövlətimizin qabağında iki böyük məsələ durur. Birincisi öz milli dilimizi bütün məktəblərdə rəsmi olaraq qəbul və icra etmək, ikincisi isə ümumiyyətlə savadsızlığa qarşı mübarizə aparmaq, pulsuz və icbari təhsili milli yoluna qoymaq. Bunların hamısından çox, Milli Hökumətimizin ali təhsil məsələsinə əhəmmiyyət verib, milli universitet əsasını qurmağa çalışmalıdır.

9.Ticarət və iqtisad sahəsində Milli Hökumətimiz birinci növbədə milli sənayemizə əhəmmiyyət verib, mövcud zavodları düzgün yoluna qoyacaq. İkinci növbədə də yeni zavodlar açmaqla, məmləkətin sənayesinə olan ehtiyaclarını təmin edəcəkdir. Ticarət sahəsində dövlətimiz Azərbaycanın ticarət mərkəzi ola bilməsi üçün tədbirlər görəcək və yollar arayacaqdır.

10. Yolların təmir və çəkilməsi də, poçt və teleqraf və telefon kimi əlaqə vəsaitinin genişləndirilib, müasir hala salınması hökumətimizin əsasi vəzifələrindəndir.

11. Kəndli ilə ərbablar arasında yaranan münaqişələri aradan qaldırmaq üçün qarşılıqlı razılıq şərti ilə, ciddi qanun layihəsi tərtib edib, bu yol ilə kəndli və ərbab məsələsini həll və təsdiq etmək.

Kəndlərdə və şəhərlərdə gündən-günə artmaqda olan işsizliyin qarşısını almaq üçün dövlət torpaqlarını tezliklə əkinçilər arasında bölüşdürmək. Həmçinin Azərbaycanı tərk edib onun xaricində milli muxtariyyətimiz əleyhinə təbliğat aparanların da yerlərini zəbt edib kəndlilərin ixtiyarına qoymaq ilə torpaqsız kəndlilər ayaqlandırılmalıdır.

Bundan əlavə xalqımızın əksəriyyətini kəndlilər təşkil etdiyi üçün gələcəkdə Aqrar Bankı elə bir surətdə gücləndirmək lazımdır ki, eliyə bilsin kəndliyə kredit verməklə torpaq məsələsini həll etsin və ərbablar öz istək və rəğbətləri ilə torpaqları kəndlilərə adilanə qiymətə sata bilsinlər.

13. İşsizliklə ciddi mübarizə etmək üçün ciddi tədbirlər görmək, əl sənayesi, yol işləri, zavodların təsisi, əkinçilik və ticarətin artması vəsaitindən ciddi surətdə istifadə etməyi lazım görür.

14. Fəhlə və zəhmətkeşin məişətini düzgün yola qoymaq üçün iş və əmək qanun layihəsini hazırlayrb məclisə təqdim etməli və eyni zamanda işçilərin sığorta edilməsini icbari etmək üçün tədbirlər görməlidir.

15. Səhiyyə işinə diqqət yetirib birinci növbədə ümumi və keçici xəstəliklərin qarşısının alınmasi və xüsusilə kəndlərdə və aşağı sinfə mənsub əhaliyə həkim və dərman çatdırmaqla xalqın səhiyyəsini təmin etməlidir.

16. Milli Şura Məclisi tərəfindən bu ana qədər qərara alınmış qanunları, Azərbaycan xalqının həyatına və milli muxtariyyətinə münasib bir surətdə islah edib təzə faydalı layihələr təqdim etmək.

17. Xüsusi mülkiyyət haqqında Azərbaycan Milli Hökuməti, məmləkətin bütün sahələri üçün xüsusi mülkiyyəti qəbul edib, məmləkətin və xalq

iqtisadiyyatının inkişafina və xalqın vəziyyətinin yaşılaşmasına səbəb olan hər növ xüsusi hərəkətlərə kömək edəcəkdir.

18. Azərbaycan Milli Hökuməti, ölkədə yaşayan ümum əhalinin vicdan və inam azadlığına ehtiram edəcəkdir.

19. Azərbaycan Milli Hökuməti, Azərbaycanlılarla birlikdə Azərbaycanda yaşayan bütün vətəndaşları xüsusi ilə kürdlər və başqalarını hüquq və qanun qarşısında eyni hesab edir.

20. Azərbaycan Milli Hökuməti, mərkəzi İran hakimiyyətini tanımaqla yanaşı bu hökumətin Azərbaycanın muxtariyyətinə müxalif olmayan, Azərbaycan xalqının təsisçilər məclisi və Azərbaycan məclisinin müraciətnamə və qərarlarında qeyd olunan milli hüquq tələblərinə zidd olmayan tədbirləri həyata keçirəcəkdir.

Proqramın ətrafında geniş surətdə müzakirə etdikdən sonra səsə qoyulub, Azərbaycan Milli Hökumətinin proqramı səs çoxluğu ilə qəbul olundu.

## AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN DİL HAQQINDA QƏRARI

Xalqımızı dövlət aparatına yaxınlaşdırmaq və ümum əhalinin ehtiyaclarını sadə bir surətdə anlamaq və həmçinin milli dili və milli mədəniyyətimizin inkişaf və təkamül yollarını təmizləmək üçün Azərbaycan Milli Hökuməti özünün 6 Yanvar (1945-ci il) tarixli iclasında aşağıdakı qərarları qəbul etmişdir.

1-Bu gündən etibarən Azərbaycanda, Azərbaycan (türkcəsi) dili rəsmi dövlət dili hesab olunur. Dövlətin qərarları və rəsmi elanlar, həmçinin xalq qoşunları hissələrinə verilən əmrlər və qanun layihələri mütiəq Azərbaycan dilində yazılmalıdır.

2-Bütün idarələr (dövləti, milli, ticari və ictimai) öz işlərini Azərbaycan dilində yazmağa məcburdular. Bu dildə yazılmayan dəftərlər və sənədlər rəsmi hesab olunmayacaqdır.

3-Məhkəmələrdə işlərin baxılması təmamilə Azərbaycan dilində aparılmalı və bu dili bilməyənlər üçün tərcüməçi təyin olunmalıdır.

4-Azərbaycanın bütün idarə, müəssisə və ticarət məkanlarında tablolar mütləq Azərbaycan dilində yazılmalıdır.

5-Rəsmi iclaslar, yığıncaqlar, nitq və müzakirələr Azərbaycan dilində olmalıdır.

6-Azərbaycanlı olmayıb başqa dil ilə danışanlar və ümumi dövlət idarələrində xidmət edənlər Azərbaycan dilində yazıb-oxumağı və danışmağı öyrənməlidirlər.

7-Maarif Nazirliyinin idarə işçilərini Azərbaycan dili ilə tanış etmək məqsədi ilə ayrı dillərdən savayı, onlar üçün idarələrin nəzdində yaşlılara məxsus kurslar açılmalıdır. Bu kurslarda iştirak edənlərin iş müddəti bir saat az olmalıdır.

8- Azərbaycanda yaşayan başqa millətlər öz işlərini öz ana dillərində aparmağa haqlıdırlar. Lakin onlar öz rəsmi elanları və yazılarında öz milli dilləri ilə yanaşı Azərbaycan dilini, rəsmi dövlət dili olaraq, işlətməlidirlər.

9- Azərbaycanda yaşayan azlıqlar xüsusi milli məktəblərindəki təhsil öz ana dillərində olduğu halda, Azərbaycan dilinin də tədrisi məcburidir.

10-Azərbaycan Milli Hökuməti Maarif Nazirinin məktəblərdə dərslərin Azərbaycan dilində olması haqqındakı qərarını qəbul və təsdiq edib, məktəblərin milli dilə keçməsini bütün müəllim və müəllimələrə bir milli vəzifə kimi tapşırır.

Azərbaycan Milli Dövlətinin Baş Naziri, Pişəvəri

## SOVET DÖVLƏTİNİN BAŞÇISI İ.STALİNİN AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN LİDERİ SEYİD CƏFƏR PİŞƏVƏRİYƏ ŞƏXSİ MƏKTUBU

**Pişəvəri yoldaşa**

Mənə elə gəlir ki, Siz İran daxilində, həm də beynəlxalq nöqteyi-nəzərdən yaranmış vəziyyəti düzgün qiymətləndirmirsiniz.

Birincisi, Siz hazırda Azərbaycanın bütün inqilabi tələblərinə nail olmaq istəyirsiniz. Lakin indiki şərait belə bir proqramın həyata keçirilməsi imkanını istisna edir. Lenin praktiki tələblər kimi, qeyd edirəm, praktiki tələblər kimi əsas inqilabi tələbləri yalnız xarici düşmənlə uğursuz müharibənin dərinləşdirildiyi ölkə daxilində güclü inqilabi böhranın olduğu bir şəraitdə irəli sürmüşdü. 1905-ci ildə Yaponiya ilə uğursuz müharibə zamanı belə olmuşdu. 1917-ci ildə Almaniya ilə uğursuz müharibə zamanı belə olmuşdu. Siz indiki halda Lenini təqlid etmək istəyirsiniz. Bu çox yaxşı və tərifəlayiqdir. Ancaq İranda vəziyyət hazırda tamamilə başqadır. İranda hazırda dərin inqilabi böhran yoxdur. İranda fəhlələr azsaylıdır, onlar pis təşkil olunmuşlar. İran kəndliləri hələlik ciddi fəallıq göstərmirlər. İran hazırda xarici düşmənlə müharibə aparmır. Belə bir müharibədə məğlubiyyət isə İranın irticaçı dairələrini zəiflədə bilərdi. Deməli, İranda belə bir şərait yoxdur ki, Leninin 1905-1917-cı illərdəki taktikasını yürütməyə imkan versin.

İkincisi, əlbəttə, Siz Sovet qoşunlarının İranda qalmaqda davam edəcəyi təqdirdə Azərbaycan xalqının inqilabi tələbləri uğrunda mübarizə işində uğur qazanmağa ümid ola bilərdiniz. Lakin biz onları daha İranda saxlaya bilmirik, başlıca olaraq ona görə ki, sovet qoşunlarının İranda olması Avropa və Asiyada bizim xilaskarlıq siyasətimizin əsaslarını sarsıdır. İngilislər və amerikalılar bizə deyirlər ki, əgər Sovet qoşunları İranda qala bilirsə, onda nəyə görə ingilis qoşunları Misir, Suriya, İndoneziya və Yunanıstanda, həmçinin Amerika qoşunları Çin, İslandiya və Danimarkada qalmasın. Buna görə də biz İran və Çindən qoşunları çıxarmaq qərarına gəlmişik ki, ingilislərin və amerikalıların əlindən bu silahı qoparıb alaq, müstəmləkələrdə azadlıq hərəkatını genişləndirək və bununla

da öz xilaskarlıq siyasətimizi daha əsaslı və faydalı edək. Siz bir inqilabçı kimi, əlbəttə, başa düşürsünüz ki, biz başqa cür hərəkət edə bilmərik.

Üçüncüsü, deyilənləri nəzərə alaraq, İrandakı vəziyyətlə bağlı aşağıdakı nəticələrə gəlmək olar: İranda inqilabi böhran yoxdur, İranda xarici düşmənlərlə müharibə vəziyyəti yoxdur, deməli, irticanı zəiflədə və böhranı kəskinləşdirə bilən müharibədə uğursuzluq da yoxdur. Nə qədər ki, sovet qoşunları İranda yerləşib, Siz Azərbaycanda mübarizəni genişləndirmək və daha irəli gedən tələblərlə geniş demokratik hərəkatı təşkil etmək imkanına maliksiniz. Ancaq bizim qoşunlar getməlidirlər və İrandan çıxıb getdilər. Biz artıq İranda nəyə malikik? Biz İranda Qəvam hökumətinin İranın daha irticaçı ünsürlərini təmsil edən anqlofil dairələrlə münaqişəsinə malikik. Keçmişdə Qəvamın necə bir irticaçı olmasına baxmayaraq, o indi özünümüdafiə mənafeyinə və öz hökumətinin müdafiəsi naminə bəzi demokratik islahatlara getməyə və İranın demokratik elementləri arasında dayaq axtarmağa məcburdur. Belə bir şəraitdə bizim taktikamız necə olmahdır? Mən fikirləşirəm ki, Qəvamdan güzəştlər qoparmaq üçün bu münaqişədən istifadə etməliyik, anqlofilləri təcrid etmək və bununla da İranın daha da demokratikləşməsi üçün müəyyən bazis yaratmalıyıq. Bizim sizə bütün məsləhətlərimiz məhz belə bir vəziyyətdən irəli gəlir. Əlbəttə, başqa taktika da qəbul etmək olar: hər şeyə tüpürmək, Qəvamla əlaqələri kəsmək və bununla da anqlofil irticaçıların qələbəsini təmin etmək olar. Amma bu, taktika deyil, axmaqlıq olardı. Bu mahiyyətcə Azərbaycan xalqınm işinə və İran demokratiyasına xəyanət olardı.

Dördüncüsü, bizə məlum olduğuna görə, Siz demişsiniz ki, biz əvvəlcə Sizi göylərə qaldırmış, sonra isə uçuruma yuvarlamışıq və Sizi rüsvay etmişik. Əgər bu doğrudursa, onda bu bizdə təəccüb doğurur. Əslində isə nə baş vermişdir? Biz burada hər bir inqilabçıya məlum olan adi inqilabi fənd tətbiq etmişik. İrandakı şərait kimi belə bir vəziyyətdə özümüz üçün hərəkatın məlum minimum tələbini əldə etməyi təmin etməkdən ötrü hərəkatı irəli qaçırmaq, minimum tələblərdən irəli getmək və hökumət üçün təhlükə yaratmaq, hökumət tərəfindən ediləcək güzəştlər üçün imkan yaratmaq lazımdır. Daha irəli qaçmadan, Siz İranın indiki vəziyyətində hazırda Qəvam hökumətinin getməyə vadar olduğu tələblərə nail olmaq imkanına malik ola bilməzdiniz. İnqilabi hərəkatların qanunu belədir. Sizin üçün hər hansı bir rüsvayçılıqdan söz ola bilməz. Çox qəribədir ki, əgər Siz fikirləşirsiniz ki, biz Sizin rüsvayçılığınıza yol verə bildik. Əksinə, əgər Siz özünüzü ağıllı aparsanız və bizim mənəviköməyimiz sayəsində əsasən Azərbaycanın indiki faktiki vəziyyətinin leqallaşdırdığı tələblərə nail olsanız, o vaxt Sizə Orta Şərqdə mütərəqqi demokratik hərəkatın pioneri kimi azərbaycanlılar da, İran da xeyir-dua verər.

İ.Stalin 8 may l946-cı il.

## M.C.BAĞIROVUN ÜMUMİTTİFAQ KOMMUNİST (BOLŞEVİKLƏR) PARTİYASININ MƏRKƏZİ KOMİTƏSİ MƏKTUBU

### YOLDAŞ STALİNƏ:

Təbrizdən alınmış məlumatı sizə göndərirəm:

Dekabr ayının 4-də İran qoşunları Zəncan Rayonunda Miyanaya tərəf hərəkətə başlamışlar. Azərbaycanlıların ön hərbi hissələri ilə İran qoşunları arasında bir neçə saat davam edən döyüş baş vermişdir.

İran qoşunları tanklardan, səhra toplarından və minaatanlardan istifadə edirlər. Döyüş nəticəsində gözətçi xidmətlərini yerinə yetirən Azərbaycan partizan dəstələri yeni müdafiə mövqelərindən geri çəkilmiş, Recein kəndini və dəmiryol stansiyasım tərk etmişlər.

Azərbaycan Demokrat partiyası Miyanadakı hərbi dəstlə minimal olaraq aşağıdakı silahlarla yardım göstərilməsini xahiş edir: 16 top, 5 min tüfəng və müvafiq miqdarda mərmi və güllə ilə birlikdə 20 ədəd tank əleyhinə top.

M.C. Bağırov Dekabr 1946-cı il

## AMH RƏHBƏRLİYİNİN KÖMƏKLİK HAQDA SOVETLƏRƏ SON MÜRACİƏTİ

### MÜRACİƏTİN MƏTNİ

Siz özünüz çox gözəl bilirsiz ki, bizim nümayəndələrimiz Tehranda müraciət etdikdən sonra, Tehranın sağ və irticai mətbuatı çox ciddi və hərarəti ləhn ilə bizim azadlığımızı pozmaq və demokratik nehzətimizin asarını tamamilə ortadan aparmaq üçün Azərbaycana qoşun yeritməyi təbliğ edirdilər. Qəvamüs-səltənə isə əvvəl intixabat üçün qüvayi-təminə (asayişi qorumaq) göndərmək bəhanəsi ilə, nəhayət, açıqdan-açığa Azərbaycan nehzətini ləğv edib, onun başçılarını məhv etmək şüarilə üzərimizə həmlə edəcəyini rəsmi sürətdə özünün teleqraflarında və bəyaniyyətlərində dünyaya bildirmişdi. Nəhayət, iş söz və yazı ilə qurtarmayıb həmin ayın on üçündə günortadan qabaq saat yeddidə onun göndərdiyi müsəlləh qüvvələr Rəcəin məntəqəsinə bizim fədai postlarımızı 12 saat tamam tüfəng, müsəlsəl, top və tank vasitəsi ilə (atəşə tutaraq) yol açıb torpağımıza soxulmağa çalışmışdır. Bundan əlavə müvafiq qətnaməmizin xilafına olaraq, Zəncana müsəlləh qüvvə göndərilmiş və rəsmi surətdə onun müavini Müzəffər Firuzun bizə yazdığı naməyə baxmayaraq məşhur feodal Zülfüqarini və sairlərini

Zəncandan uzaqlaşdırmamış, hətta ona sərhəng dərəcəsi (Polkovnik rütbəsi) verdikdən sonra müsəlləh edib üzərimizə göndərmişdir. Bunlar isbəta edir ki, Qəvam bizim ilə bağladığı sazişini, özünün Azərbaycan valisi doktor Cavidə yazdığı namələrinin mürəkkəbi qurumadığı bir halda həyasızca(sına) onu pozmağa başlamaqla özünün sui-qəsdini aşkara çıxarmışdır. Görünür, o, özünü bizim saziş üçün vasitə qərar verdiyi sovet nümayəndələrinə etdiyi rəsmi vədəyə, yəni Azərbaycan məsələsinin sülh yolu ilə həll edilməsinə əməl etmək fikrində deyil. Belə olduğu halda Azərbaycan xalqı üçün vahid bir yol qalır: o da öz silahının gücü, öz cavanlarının qəhrəmanlığı ilə azadlığını müdafiə etməkdən ibarətdir. Xalqımız çox (gözəl) bir surətdə anlamışdır ki, onun azadlığının zamini sazişlər, kağızlar, müvafiq qətnamələr və teleqraflar deyil, bəlkə onun qolunun gücü və süngüsünün qüdrəti ola bilər. Bizim xalqımız Qəvamın doktora (doktor Cavidə) yazdığı saziş məktubunun ardınca göndərilən qoşun və silahlı qüvvələri eləyə bilməz görməsin. Qəvam bu işi hər dəqiqə görə bilər və heç bir kağız, müvafiq qətnamə onun xainanə hərəkatının qabağını ala bilməz. Biz səkkiz ay tamamdır ki, xalqımızın ehsasatı və firqə üzvlərimizin arzuları, firqə aktivinin meylinin xilafına olaraq, iş xatirəsi və ixtilafin sülh və saziş yolu ilə həll edilməsi və böyük dostumuz Şuralar İttifaqına dünya siyasətini gözləmək, həmçinin Şura dövlətinin ortamızda vasitə olmasını nəzərə alıb Qəvamın irticai simasını demokratik və mütərəqqi göstərməyə çalışmışıq, hətta bəzən öz fikir və əqidəmizin xilafına olaraq, onu tərif və təmcid (yüksək) dəxi etmişik ki, iş bizim tərəfimizdən pozulmasın. Hətta fədailərimizin Qəzvin, Rəşt və Tehranı götürmək imkanı olduğu halda öz nüfuz və hörmətimizi sərf edib onların qabaqlarını saxlamışıq ki, onun əlinə həhanə düşməsin.

Bizim böyük güzəştlərimizi bütün dünya bildiyi kimi siz daha gözəl bilirsiz: biz bu saziş yolunda Milli Hökumətimizi ləğv etdik, Milli Məclisimizi Əyalət Əncüməninə döndərdik, fədai dəstələrini nigəhban təşkilatına təbdil etdik (çevirdik), milli qoşunumuzun ixtiyarını və fərmandehliyini (əmr verməyi) onların əlinə tapşırmağa hazırlandıq, bütün aidatımızı onların xəzinəsinə, yəni Milli Banka verməyə başladıq. Bunların hamısı ondan ötrü idi ki, onların əllərinə dəstaviz verməmiş olaq. Qəvam isə bizim güzəştlərimizi gördükdə hər gün tələbatını artırıb axırda iş o yerə gətirib çıxardıb ki, istəyir nağəhani (qəfləti) bir həmlədə azadlığımıza birdəfəlik xatimə versin. O, neft məsələsini qabağa çəkmişdi ki, Qızıl Ordunun İrandan çıxmasını təmin etsin və Azərbaycan Milli Nehzətini ortadan aparsın.

Bu aydın bir məsələdir ki, o, bu işləri İranın sərvətinə göz dikən İngilis və Amerika dövlətlərinin göstərişi ilə icra etməkdədir. O fikir edir ki, həmişə hoqqabazlıq və yalançılıq ilə etdiyini eləyə bilər. Azərbaycanlıları aldatdığı kimi Sovet dövlətini də iğfal edib (çaşdırıb) neft məsələsini də cürbəcür hoqqalar ilə başdan sala bilər. Biz azərbaycanlılar çox yaxşı anlamışıq ki, ingilislər və amerikalılar hər qiymətə olur-olsun, neft məsələsini öz mənfəətlərinə həll etməyə

çalışırlar. Qəvam isə onların nökəridir. Əvvəla, necə ki, gorürsüz, Məclisə bir nəfər də olsun azadixahlardan yol vermək istəmir, bu isə müstəqimən Şuralar əleyhinə olan bir tədbirdir. Mürtəcelərdən toplanan bir Məclis qətiyyən neftin Şuralara verilməsinə razı olmayacaqdır. Qəvam isə Məclisi bəhanə edib özünün verdiyi sözdən qaçacaq və yaxud istefa verməklə yaxasını qurtaracaqdır. Sovet hökuməti isə Qəvamın verdiyi vədədən qanuni bir sənəd və rəsmi bir mədrək kimi istifadə edə bilməyəcəkdir. İran tarixində bu kimi hadisələr çox olmuşdur. Birinci dünya müharibəsindən sonra Qəvamüs-səltənənin qardaşı Vüsuddövlə ingilislər ilə bir müahidə bağlamışdı. Bu müahidəni şah və Məclis rədd etdi, ingilislər isə hətta dövlətin vəzirlərinə məsələn, Müzəffər Firuzun atası Nüsrətüddövləyə və qeyrilərinə rəsmi surətdə verdiyi pulu da geri ala bilmədi. Demək, neft imtiyazı məsələsi olduqca nisyə bir məsələdir ki, Sovet dövlətinin Məclisdə və camiədə tərəfdarları olmasa, onu əldə edə bilməyəcəkdir. Qəvamüs-səltənənin [hüsni-niyyəti] isə möhkəm bir qaranti ola bilməz, çünki o, Azərbaycan məsələsində hüsni-niyyətin nə olduğunu açıq bir şəkildə göstərməkdədir.

Neft məsələsi o vaxt Sovetlər nəfinə həll ola bilər ki, onun arxasında ictimai qüvvələr olsun, İranın ayn yerlərində isə bu qüvvələr fövqəladə bir surətdə yığılıb, əzilib və ortadan getməkdədir, vəli tamamilə ortadan getməmişdir. Azərbaycanda isə bizim qüvvəmiz əhəmiyyətli bir qüvvə hesab oluna bilər. İndi bizim Tehran hökumətinə böyük fişar gətirmək imkanımız vardır və bizim bu imkanımız İranın ayrı yerlərində olan azadixah və demokratik qüvvələri də təqviyyət (möhkəmlədə) edə bilər. Mütəəssifanə, iş belə gedərsə, bizim gücümüz də çox tez bir zamanda əldən çıxa bilər. O vaxt Qəvam və sair mürtəcelər hər nə istəsələr, maneəsiz edə bilərlər. Ümumiyyətlə, etiraf etmək gərək ki, siyasəti Qəvam və başqa bir dövlət adamının hüsni-niyyətinə bağlamaq quru bir işdir. Sovet siyasətinin ciddi tərəfdarı xalqın mütərəqqi və azadxah təbəqəsidir ki, onu gərək təqviyət edib əldə saxlamaq və ondan ötrü Azərbaycanın qüdrətini hifz etmək, onu qorumaq lazımdır. Bunu da nəzərdə tutmaq lazımdır ki, İranda siyasət ilə olan xarici ölkələr heç vaxt öz nüfuz və qüvvələrini əldən verməmişlər, xüsusən ingilislər ki, nüfuzlarını həmişə güclü saxlamaqla onlann etimadını qazanıb istədikləri vaxt istifadə edə bilmişlər. Məsələn, qaş-qay hadisəsini götürək. Siz gözəl bilirsiz ki, orada dövlət əleyhinə neçə dəfə böyük müsəlləh üsyan olmuşdur, bununla belə bu günədək ingilislər imkan verməyiblər dövlət onlardan bir qəbzə əsləhə (silah) ala bilsin; ora, ya bəxtiyari və ya cənubun başqa tayfalarınm yeri ingilislərin möhkəm qalaları halında qalmaqdadır. Onlar isə bu qüvvələri gündən-günə artırırlar.

Sizə çox yaxşı məlumdur ki, xalqı hər vaxt ayağa qaldırmaq olmaz və [hərəkat] hər gün yaradılmaz, hər zaman böyük xalq hərəkəti üçün zəminə olmaz. Çox illətlər və böyük fədakarlıqlar nəticəsində İranda nəzərimizi cəlb edən ictimai qüvvələr və Azərbaycanda böyük bir nehzət vücuda gəlmişdir. Bu nehzət müstəqimən sovet dövlətinin İranda olan [köməkçisi] və Sovet siyasətinin poştibanıdır (arxa durmasıdır). Bu qüdrət sovet siyasəti üçün kəskin bir silahdır ki,

onun vasitəsilə İran xalqları kimi Şuralar İttifaqı da böyük işlər görə bilər. Bu qüdrəti ümumi iş uğrunda hər bir fədakarlığa hazır olan bir qüdrətdir; onu əldən versək, bu tezlik ilə yeni bir qüdrət vücuda gələ bilməz.

Biz bilmirik, necə olur ki, Yunanıstanda, İtndoneziyada və qeyri yerlərdə məzlum xalqlar öz azadlığı uğrunda müsəlləh bir surətdə mübarizə edə bilərlər, amma biz gərək öz əlimiz ilə cəlladlara təslim olaq. Bu, tək bizim sözümüz deyildir, bunu xalqımız vəfirqənin görkəmli üzvləri açıq bir surətdə söyləməkdən [çəkinmirlər]. Bizim firqəmiz və xalqımız bizə deyir ki, bugünkü əlimizdə olan dəlillər və mədrəklərdən (sənədlərdən) sonra artıq sözə və ya kağıza etimad edib Qəvamüs-səltənə və başqalarına inana bilmərik. Qəvam gedər, yerinə başqası gələr. Hərgah müsəlləh qüvvəmiz vasitəsilə irticanı əzməsək, heç vaxt siyasət bizim nəfimizə dönə biməz. Və bizim üçün əldə heç bir qarantı yoxdur, özümüzü də nahaq yerə aldada bilmərik. Bugünkü imkanı əldən buraxmaq olmaz. Belə bir iş görsək, tarix bizi həmişə məzəmmət edəcəkdir. Dünyada heç bir millət özü öz əlilə öz qüdrətini məhv etməmişdir, biz də bunu etməməliyik.

Qəvamın üzərimizə göndərdiyi qüvvənin xaincəsinə həmləsi xalqımız içərisində şədid (kəskin) bir həyəcan tövlid etmişdir (əmələ gətirmişdi). Xalq dəstə-dəstə firqəyə müraciət edib azadlığı müdafiə etmək üçün icazə və silah tələb edirlər. Bu isə xalqımızın ruhiyyəsini ciddi surətdə aşkara çıxarır. Beş-üç nəfər malik və ya irticai ünsürlərin, məsələn, Əmir Nüsrət İsgəndəri, Camal İmami, sərləşkər Müqəddəm və Zülfüqarilərin ruhiyyəsi xalq ruhiyyəsinə nümunə ola bilməz. Bunların ağalıqları, torpaqları əllərindən getdiyi üçün ruhiyyələri də məlumdur ki, nə cür ola bilər. Amma azadlıq, torpaq alan kənd və şəhər camaatı aldığını saxlamaq yolunda hər bir şeyini fəda etməyə hazırdır. Hərgah biz bu gün onların azadlığının ortadan getməsinə imkan versək, onları bir də ayağa qaldırmaq mümkün ola bilməz, artıq onlar kimsəyə etimad etməzlər. Xalq nə tək bizdən, bəlkə ümumi azadlıq şüarı ilə meydana çıxan ümumi-qüvvələrdən naümid və məyus ola bilər. Bizim qüvvə və qüdrətimiz isə xalqın bizə olan etimad və inamına bağlıdır.

Azərbaycan xalqı və ona rəhbərlik edən Demokrat Firqəsi və onun başçılarının Sovet dövlətindən iki intizarı vardır:

Əvvəla, sərhədlərimiz açıq ikən, milli qüdrətimiz mövcud ikən bizə CÜZİ MİQDAR ƏSLƏHƏ (SİLAH) VERİLSİN, çün iş belə gedərsə, bu imkan olmayacaqdır. Biz çox asanlıq ilə məxfi surətdə eləyə bilərik verilən əsləhəni milli qüvvələrimizə yetirək, müxalif qüvvələr ondan müttəla olmasın. Dava başlanırsa, şiddətləndikdən sonra bu iş çox çətin ola bilər. Biz elə çox silah istəmirik; müxtəsər bir miqdar olsun ki, fədailər silahsız düşmən qabağına getməyə məcbur olmasınlar.

İkinci, indi ki, Qəvam müharibəni başlayıb və bizim qardaşlarımızın qanını tökməkdədir, icazə verilsin biz də hər tərəfdən onu məziqədə (ehtiyacda) saxlamaqla, İranda olan azadixah qüvvələrin ayağa qalxmalarına imkan verək, bu vasitə ilə bütün İranda böyük bir nehzət başlayıb irticai hökuməti sərnigun (yerlə-yeksan) edək, yerində demokratik bir hökumət vücuda gətirək. Əgər bu

səlah[dırsa], icazə verilsin Tehran ilə tamamilə qətirabitə edib öz Milli Hökumətimizi vücuda gətirək ([xalq isə bu axırıncı tədbirə daha artıq rağibdir). Sovet siyasəti bu iki tədbirdən hər [hansı birini] intixab edərsə, biz şərafətlə onu əncam verib müvəffəq ola bilərik.

Demək lazımdır ki, çox yaxşı oldu ki, Qəvam bizim silahlı qüvvələrimizin fərmandehliyini alma[mış], əvvəl öz həqiqi simasını göstərdi. Əgər sonra bu işi etsə idi, bizi tamamilə məhv edə [bilərdi]. Onun bu gün bizə həmlə etməsini Azərbaycan xalqı özünə xoşbəxtlik hesab edir. İşi elə bir vaxt edə bilərdi ki, bizim nıüdafiəyə imkanımız olmasm, indi isə bizim müdafiəyə imkanımız vardır. Bu imkandan düzgün istifadə olunursa, biz istədiklərimizi [əldə] edə bilərik. Əgər bir qədər təxir olursa, ya işə tərdid ilə baxarsaq, bu imkan ortadan [gedər] necə ki, yuxarıda dedik, xalq qorxar, məyus olar, irtica azadlıq qüvvələrini əzib [yox] edər. Bu isə Sovet dövlətinin İranda illər boyu fəaliyyət və zəhmət nəticəsində qazandığı böyük nüfuz və böyük qüdrətin ortadan getməsi deməkdir. Bunun nəticəsində İran tamam ingilislər və amerikalıların qucağına düşər və burada Rza xan dövrəsindən şədid bir despotizm meydana çıxar ki, İran xalqı Sovet siyasəti [üzrə] heç bir növ ilə hərəkət etmək imkanına malik [olmaz]. Belə bir dövrdə, belə şəraitdə İranda neft məsələsindən danışmaq belə bir söz olub qalar. Və Sovet dövləti nefti tamamilə uduza bilər. Buna isə hec bir şübhə yoxdur.

Sovet hökumətinin İranda nefti uduzması isə İranda mütərəqqi siyasətin uduzulması deməkdir. Bu isə Yaxın Şərqdə demokratik hərəkata böyük bir zərbədir. Çünki artıq Azərbaycan nehzəti Yaxın və Uzaq Şərqdə böyük müsbət təsir bağışladığı kimi, onun məhvi də mənfi təsir bağışlaya bilər.

Yenə də təkrar edirik: iş danışıqlar və sazişlər ilə həll olmaqdan keçmişdir.

Sovet dövləti nə qədər sülh və sazişə çalışırsa, yüz o qədər Amerika və İngilis dövlətləri İran dövlətlərini cəngə (müharibəyə) və daxili müharibəyə və qan tökməyə təhrik edirlər. Onun üçün bu davanı vücuda gətirməyə imkanlar yaradırlar. Bu gün Qəvam hökumətini[nin] Amerikadan külli miqdarda pul aldığı əfsanə deyildir.

İngilistandan və sair irticai ölkələrdən İrana silah sel kimi axıb gəlməkdədir. […]dan yüklənən əsləhə müstəqimən Zəncanda vaqonlardan alınıb bizim əleyhimizə göndərilir. Biz Sovet hökumətindən böyük kömək istəmirik. Biz deyirik, Şuralar əleyhinə aparılan xainanə siyasətə bəhanə verilməsin və Şura hökuməti özünü zahirdə bizə əlaqəmənd dəxi göstərməyə bilər, amma necə İran dövləti istəmir Sovet dövləti vasitə olub işi sülh yolu ilə həll etsin, Sovet hökuməti bizə də imkan versin, biz də Tehranın əleyhinə onun öz götürdüyü yol ilə [rəftar] edək.

Zərər yoxdur, madam ki, Qəvama ingilis və amerikalılar deyirlər Azərbaycan məsələsi daxili bir məsələdir, biz də deyirik belə bir məsələdir.

Qoy onlar Azərbaycana hücum etdikləri zaman Azərbaycan fədailəri onların başını əzsin. Biz də deyirik Azərbaycan məsələsi daxili məsələdir, biz bu daxili

məsələni özümüz həll edərik, kimsənin Əmniyyət Şurasında və ya ayrı bir xarici ölkədə Şuralar İttifaqı əleyhinə çığır-bağır salmağa haqqı yoxdur.

Yuxarıda dediyimiz kimi, əgər Şuralar İttifaqının köməyi gizli olarsa, ondan İran dövlətinin Təhlükəsizlik Şurasına müraciət etməyə də əlində heç bir dəlil ola bilməz. Axırda yenə də təkrar edirik: artıq sazişlər, danışıqlar fayda verməz. Xalqımız, firqəmiz və onun rəhbərləri fəqət sizin [ölkənizə] ümid bağlayır və ondan nicat gözləyir, bu isə ancaq sizin edəcəyini cüzi silah köməyinə bağlıdır.

İndi on minlərlə kəndli fəqət silah tələb edir və bu köməyi bir an verməklə İran xalqının azadlığı və sovet siyasəti təhlükədən xilas ola bilər və illa xətər çox yaxın və çox böyükdür. Yenə qeyd edirik, mümkündür qəvam qısa bir müddət hücumu dayandırsın. Buna inanmaq olmaz, bu sadə bir manevr olub qalar. Onun Azərbaycan nehzətini məhv etməyə ciddən hazırlandığına bizim zərrəcə şübhəmiz qalmamışdır. Bizim üçün başqa bir yol yoxdur. Qeyri-müəyyən vəziyyətin xətəri hücumdan daha artıqdır. Bu vəziyyət bizi tədric ilə yorub [zəif] salmaqla məhv edəcəkdir.

Sizin müxtəsər köməyinizin yetişməsini səbr[siz]lik ilə gözləyirik.

Səmimi ehtiram ilə:

Pişəvəri Şəbüstəri Padeqan

Doktor Cavid Qulam Daneşyan

17Azər l325.*

**Seyid Cəfər Pişəvəri Xatirələrdə**

## S.C.PİŞƏVƏRİNİN BACISI SUĞRA XANIM QARDAŞINI XATIRLAYARKƏN

Suğraxanım Azəri (Cavadzadə) - 21 Azər Hərəkatının lideri, Azərbaycan Demokrat Firqəsinin qurucusu və rəhbəri Seyid Cəfər Pişəvərinin bacısıdır. Azərbaycanın hər iki tərəfində və İraqda yaşayıb işləmişdi. İctimai-siyasi fəaliyyətə maraq göstərmişdir. ADF-nin fəal üzvlərindən olmuş, ictimai işlərdə çalışmışdır. Həyat yoldaşı Mirağa Azəri Azərbaycanın tərəfində hər iki İraqda Dəmiryolu və körpüsalma üzrə mühəndis işləyibdir. Bu gün Azərbaycanda inşa edilmiş bir körpü onun adı ilə bağlıdır.

İş elə gətirmişdi ki, Suğra xanım qardaşı Seyid Cəfər Pişəvəri ilə tək uşaqlıqda deyil, sonralar da uzun müddət ailəlikcə bir yerdə yaşamış, qayğıkeş bir bacı kimi Pişəvərinin həmdərdi və sirdaşı olmuşdur.

* Bu sənədi tam məzmunda mətbuata ilk dəfə soydaşımız Siruz Mədədi təqdim etmişdir (196. 2007, № 9)

Azərbaycan EA-nın elmi işçisi Pərvanə Məmmədli 94 yaşlı Suğraxanımın öz qardaşıyla bağlı söylədikləri xatirələri qələmə almışdır. Həmin xatirəni sizə təqdim edirik.

## O, AĞIR GÜNDƏ DOĞULMUŞDU

Cəfər də Bülbülədəki yeni məktəbə gedirdi. Bir neçə aydan sonra müəllimi atamı çağırıb dedi ki, mən bacardığımı ona öyrətdim, nə kitab verirəmsə, hamısını bilir, hafizəsi güclüdür, çox irəli gedəcək. O, əmək fəaliyyətinə də çox erkən başlamışdı.

Seyid Cəfər oxuduğu məktəbdə həm də işləyirdi - zəngi çalır, qapı-pəncərəyə diqqət edirdi. 13-14 yaşlı bu oğlana müəllimlər hərdən dərs keçməyi də etibar edirdilər.

Sonralar təhsilini Sabunçuda davam etdirdi. O vaxtlar İrandan çörək pulu qazanmaq üçün Bakıya çoxlu kəndlilər gəlirdi. Səhər erkəndən işə gedən fəhlələr 200 q. ət, 100 q. noxud, bir dənə soğan, içində su olan saxsı bir bardağa alıb, balaca bir həyətdəki sobanın üstünə qoyur, axşam da gəlib onu götürüb yeyirdilər. Qazandıqları bir manatla dolanır, hələ ondan İrandakı ailələrinə göndərirdilər. Neft quyularında işləyirdilər. Quyunu qazanda əvvəl qaz çıxırdı, çox vaxt biçarələr qazdan boğulur, elə oradaca can verirdilər.

Seyid Cəfər bütün bunları görüb deyirdi ki, İranda quldur-qaçaqların onların başına açdıqları oyundan bura qaçıb gəlsələr də, burada da bir gün görmürdülər. O, belə şeyləri çox görmüş və bu haqda çox fikirləşmişdi. İnqilabi ruh da onlar belə halları gördükdən sonra yaranmışdı.

Bizdən tez ayrı düşmüşdü. Üzünü çox vaxt evdə də görmürdüm. Qazanıb yığdığı pullara da Xırdalanda iki otaq kirayələmişdi. İranlı fəhlələrin yaşadığı yerlərdə elanlar yapışdırıb onları könüllü açdığı kurslara (onlar pulsuz idi) dəvət edirdi. Gün ərzində elə olurdu ki, tələbələrlə 2-3 növbəli dərs keçirdi. Atam onu danlayıb deyirdi ki, çox çətin işdən yapışırsan, bacarmazsan. O isə atama qulaq asmırdı. Beləcə, üç il müəllimlik etdi.

Əslində atamın ona təsiri daha çox olmuşdu. Atam Səttarxanın yaxın mücahidlərindən idi. Hələ o vaxtlar atamla dostları arasında fədailər, inqilabçılar barədə söhbətlər olurdu. 11-12 yaşlı Seyid Cəfər də həmişə onların qulaq yoldaşı olardı. Söhbətə qarışıb bir söz soruşanda ona gülüb deyərdilər ki, sən belə şeylər bilmək üçün hələ çox kiçiksən.

O vaxt böyük bacım Rüxsarə öz ailəsi ilə birlikdə bu taya gələ bilməyib, İranda qalmışdı. Seyid Cəfər arada vaxt tapıb bacımı Bakıya gətirmək üçün İrana getmişdi. Lakin o vaxtlar kəndlərdə yayılan amansız qızdırma xəstəliyi bacımı və onun ailəsini yaxalamışdı, xəstəlikdən heç biri salamat qalmamışdı. Bu faciə

ailəmizə, xüsusilə Seyid Cəfərə çox pis təsir etmişdi. O, bir müddət xəstə düşmüşdü...

İki bacı, üç qardaş olmuşuq. Qeyd etdiyim kimi böyük bacım Rüxsarə qızdırma xəstəliyindən bizi vaxtsız tərk etdi. Xatirəsini yaşatmaq üçün adını böyük qızıma qoydum. Həyat yoldaşım çox səmimi və ciddi adam idi. Seyid Cəfərlə yaxın dost idilər. Bizim beş övladımız olub... Son beşik qızım Fəxri və nəvəmlə bir yerdə yaşayıram.

O biri qardaşlarımdan biri həkim, o biri isə mühəndis idi. Mirsəlim əvvəllər «Hüriyyət» qəzetində məqalələr yazırdı. Peterburqda oxuyub Dəmiryolu-Su-Şosse yolu üzrə mühəndis olmuşdur. Bakıda o vaxtlar içməli su məsələsi çətin idi. Tək-tək dövlətlilərin həyətində su olardı. Suyu tək Zeynalabdin Tağıyev çəkdirmişdi. Sonralar Şamaxı və Quba tərəflərdən Bakıya su çəkilməsində onun böyük rolu olub.

Kiçik qardaşım Mirxəlil uzun müddət Bakıda Musa Nağıyev adına xəstəxananın IV korpusunun müdiri olub. Həm də Tibb institutunda dərs deyirdi...

Seyid Cəfər elə uşaqlıqdan çox mütaliə edirdi. Dünya malı, var dövlət onu heç maraqlandırmırdı. Evdə, çöldə işləməklə arası yox idi. Anam da onu həmişə elə bu xasiyyətinə görə danlardı. Hərdən yanına dost-yoldaşları gələndə ya qızğın mübahisələr edər. Ya da teatr oyunu çıxarardılar. O vaxtlar İranda teatr - filan yox idi. Yeganə tamaşaçıları da mən olardım.

Birinci dünya müharibəsi gedən zaman yaşayış çox ağır-laşmışdı. Bir yandan da erməni-müsəlman davası camaatı yaman günə qoymuşdu. O nankorlar həmişə bayram vaxtı - Novruzda quldurluq edir, evləri soyur, araya qan salırdılar. O vaxtlar bu hadisəylə bağlı kədərli bir şeir dillərdə dolaşırdı. Adı gərək ki, «Yaşardı gözəl əsgərlərimizin gözü» idi.

Seyid Cəfəri qəzaya salanda bir ermənidən istifadə etdilər. Mənim bir cavan oğlum da 23 yaşında bir erməni hiyləsinin qurbanı oldu...

Qardaşımın gördüyü ictimai-siyasi işlərindən çox yazıblar. Onun üçün də bu barədə çox danışmayacağam.

İlk məqaləsi gərək ki, «Yoldaş» qəzetində çıxmışdı. Sonralar özü elə 17-yə yaxın qəzet çıxarırdı.

Seyid Cəfər şah sarayına yaxın bir qızla evlənmişdi. Atası şahın etibar etdiyi məmurlardan idi. Anası isə Tiflis türklərindəndi (azərbaycanlı). Çox gec evlənmişdi, peşəkar inqilabçı idi. Evlənəndə sarayla əlaqəsi olan qızla evlənmişdi ki, saraya nüfuz edə bilsin.

Seyid Cəfər işi ilə bağlı bir yerə gedəndə Məsumə mənim yanımda qalardı. Seyid Cəfərə qarşı çox nəzakətli, qayğıkeş idi. Onun işlərinə qarışmaz, onun rahatlığı üçün həmişə şərait yaradardı. Məsumə xanım yaxşı tar çalardı. Bircə oğulları qaldı. Atasınm evdən son gedişində oğlu Dəryuşun 20 yaşı vardı. Həyat yoldaşının müəmmalı ölümündən sonra Məsumə xanım Bakıda qala bilmədi. Dəryuş da sonra bibisi qızı - yəni böyük qızım Rüxsarə ilə evləndi. İki övladlan

oldu. Biri atasının, o biri isə anasının sənətini seçib, mühəndis və həkim oldular. İndi Almaniyada yaşayırlar.

Mənə bəzən qardaşımla bağlı qəribə suallar verirlər. Onlardan biri də S.C. Pişəvərinin vəsiyyətnamə yazıb qoyması ilə bağlıdır.

Onun axı, cəmi 55 yaşı var idi. Bizim Şərq aləmində vəsiyyəti adətən ölümqabağı yazıb qoyurlar. Bunu da adətən ahıl, yaşlı, bir də tezliklə öləcəyini bilən və duyan xəstə adamlar edirlər.

O, ömrü boyu çox əziyyətlərə qatlaşmışdı. 11 il «Qəsri-Qacar həbsxanasında saxlanılaraq işgəncələrə dözmüşdü. Oradan çıxanda onu çətinliklə tanıya bildim. O ağbəniz idi, iri gözləri vardı. Uşaqların içində ən gözəgəlimlisi idi - zahiri anama çəkmişdi. Zindandan azad olanda qarayanız olmuş, gözləri alacalanmışdı.

Azərbaycan Milli Hökumətinin qələbəsindən çox fərəhlənirdi. Yetim uşaqları küçələrdən yığışdırmış, kəndlilərə torpaq paylamış, qadınlara hürriyyət vermiş, türk dilli məktəblər açdırmışdır. Biz o zaman ailəmizlə İraqda idik. Yoldaşım Sultanabadda dəmiryol çəkilişinə rəhbərlik edirdi. Bizə məktub yazmışdı ki, nəyi gözləyirsiniz, qayıdın Vətənə. Biz də geri döndük.

1946-cı ilin dekabr ayında onu buraya - Bakıya çağırdılar. Mənə onda xəbər eləmişdi ki, əlində vacib işi də olsa qoysun, durmayıb gəlsin. Xasiyyətinə bələd idim. Tez-tələsik bir də yola düşdük. Bizi bir neçə ailə bir birlikdə Bakıya gətirdilər. Mərdəkanda bir hərbi sanatoriya vardır. Orada iki aya yaxın saxladılar, sonra bizi tələm-tələsik başqa yerə apardılar. S.C.Pişəvəri bizə heç nə götürməyə icazə vermədi. Dedi ki, 2-3 günə yenə qayıdacağıq. Amma səfərimiz çox uzun çəkəsi oldu. Əvvəl Astaraya, sonra isə Naxçıvana getdik. Seyid Cəfər öz maşınının ixtiyarını mənə və xanımına vermişdi. O vaxtlar Azərbaycanın birinci katibi olmuş M.Bağırovla onun arasında məxfi söhbət olmuşdu. M.Bağırov çalışırdı ki, o, sərhəd rayonlarından imtina etməyə razılıq versin. Bunun üçün ona çox şey boyun olurdu. Qoşun, silah-sursat, ümumiyyətlə hər nə istəsə idi alacaqdı. Lakin S.C.Pişəvəri buna heç cür razı olmamışdı. O deyir ki, bu işə qol qoysam xalq mənə nə deyər?

M.Bağırovun İ.Stalinlə sonuncu dəfə danışığından sonra Pişəvəriyə fikirləşmək üçün vaxt verilmişdi. O zaman 3 gün ərzində bütün İranboyu sərhədlər açıldı.

M.Bağırovla söhbətdən sonra onun qanı çox qaralmışdı. Deyirdi ki, bizi bura gətirməklə aldatdılar. Onun dediyi işə razılaşsam, mənə nə deyərlər? Qayıtmalı olacağam, qoşunları yığacağam. Lazım gəlsə, fədailəri başımıza yığıb partizanlıq edəcəyik. Son sözlərindən biri də bu oldu ki, burda daha qalmaq olmaz, səhər də olmasa, o biri gün yola çıxmalıyıq. Bakıda və respublikanın bir çox rayonlarında yerləşdiyi fədailərin hər bir ehtiyacı ilə özü məşğul olurdu. Yuxarıdakı sözləri deyəndən sonra o, fədailərinə pul və paltar çatdırmaq üçün maşına minib yola düşdü. Onu da deyim ki, son 3 gün ərzində şəxsi sürücüsünü

(Çeşmazərin qardaşı idi) dəyişdirmişdilər. Mənə naməlum olan sürücünü isə məndən maşını təmizləmək üçün bəzi şeylər soruşanda görə bilirdim. O, bunu deyəndən sonra fədailərinə paltar çatdırmaq üçün maşına minib yola düşmüşdü.

1947-ci il iyulun 11-də o, avtomobil qəzasına düşüb həlak oldu. Dedilər təsadüfi hadisədi, qəzadı, filandı...

Bir onu bilirəm ki, öləsi var, gedəsi yoxdu deyən o Seyid Cəfər, bizim Seyid Cəfərin qatili oldu!

Təqdim edəni Pərvanə Məmmədli Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat institutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin elmi işçisi

## O, MÜTƏFƏKKİR, HƏM DƏ SADƏ İNSAN İDİ

Doktor Cavidin oğlu mərhum Azad Cavid, Sabir Taftei və mən, Əkrəm Bije (Rəhimli) ildə bir neçə dəfə imkan olanda bağında xəstə yatan İsmayıl Şəms müəllimə baş çəkərdik. Novruz bayramında onun görüşünə getməyimiz mütləq olardı. 2005-ci ilin Novruzunda biz növbəti dəfə onun görüşünə gedərkən mən S.C.Pişəvəri haqda xatirələrini kitaba daxil etmək üçün ona dedikdə o, Pişəvəri haqda kitablar, məqalələr yazılmasını vacib iş saydı. Öz xatirələrində S.C.Pişəvəriyə xüsusi yer verdiyini bildirdi. Gözləri görmək qabiliyyətini itirdiyi üçün o, bu işi görə bilmədiyinə təəssüfləndi və kövrəldi. Biz qərara gəldik o, S.C.Pişəvəri haqda bildiklərini sual-cavab şəklində desin bizyazaq. Təklifimiz İsmayıl müəllim tərəfindən məmnuniyyətlə qəbul edildi. 2005-ci il martın 22-də verdiyimiz suallarla cavabları oxucuların diqqətinə çatdırırıq.

Sual: S.C.Pişəvəri ilə nə vaxt, necə tanış olmusunuz?

Cavab: Əvvələn sizə təşəkkür edirəm ki, məni yaddan çıxarmırsız. O ki qaldı böyük rəhbərimiz, mərhum Pişəvəri ilə ilk görüşümə, o haqda yadımda qalanlar təqribən bunlardı:

İndi neçənci ildir?

2005-ci il.

(O, barmaqlarında hesablama apardıqdan sonra)

Dedi: deməli mən Pişəvəri ilə düz 61 il bundan əvvəl Tehranda «Ajir» qəzetinin kiçik otağında tanış olmuşam. O vaxt mənim 30 yaşım olar, ya olmazdı. Bizim yaratdığımız «Azərbaycan Cəmiyyəti» Pəhləvi dövləti tərəfindən qeyri-qanuni elan edildikdən sonra mən bir müddət Tehranda yaşamalı oldum. O vaxt Tehranda çox qəzet çıxsa da, onların içində məqalələrdəki kəskinlik, obyektivlik və demokratik ruhuna görə «Ajir» diqqətimi çox çəkdi və qərara gəldim ki, imkan olsa bunun naşiri ilə görüşüm. Belə də etdim. Qəzetin başında yazılmış ünvana getdim. Qapı açıq idi. Ağsaçlı bir kişi başını aşağı salıb «Ajir»in növbəti nömrəsinə hazırlıqla məşğul olduğundan deyəsən mənim otağa daxil olduğumu da bilmədi. Sonra otağa gələn adam ağaye Pişəvərinin həmkarı Kərim Kəşavərzi adlı şəxs idi.

O, Pişəvəriyə: «ağa seyid, qonağımız var» dedi: Pişəvəri başını qaldınb, işdən bir anlığa ayrılıb, ayağa qalxdı, gülər üzlə:

«Xoş gəlmisən təbrizli qardaş! Mən səni yaratdığın «Cəmiyyətdən» yaxşı tanıyıram, bərnaməniz xoşuma gəlmişdi». Biz salamlaşıb, şəxsən tanış olduqdan sonra ondan soruşdum: «ağaye Pişəvəri siz mənim təbrizli olduğumu hardan bildiniz?»

O, cavabında: «üz qiyafəndən, üzündəki nurdan. Gözündəki mərhəmətdən». Doğrusu mən təbrizlilər haqda deyilmiş bu xoş sözlərdən məmnun olsam da bir qədər utandım. O, mənimlə elə söhbətə başladı ki, sanki məni əzəldən tanıyır və ürəyimdəkiləri elə bil oxuyurdu. O, mənimlə söhbətində «Azərbaycan Cəmiyyəti»nə çox yüksək qiymət verdi. Onu gələcək mübarizə yollarını işıqlandıran məşəllərdən biri saydı. Mən onun işinin çox olduğunu his edib «Ajir»lə bağlı, mübarizəmizlə əlaqədar, Azərbaycandakı siyasi durum və s. çox şey haqda öz fikirlərimi qısaca ona söylədim. Mən hiss etdim ki o, özü danışıb fikir söyləməkdən daha çox mənə qulaq asmaq, danışdırmağa meyilli idi. Bizim ilk görüşdə söhbətimiz nə az, nə çox 1 saat 45 dəqiqə çəkdi. Mən onunla və ağaye K.Kəşavərzlə xudahafizləşəndə, ağaye Pişəvəri mənə: «birdəfəlik getmə, tez-tez gəl. Mən səni başqa yoldaşlarımızla da tanış edəcəm» deyib əlimi sıxdı. Mən 10 gündən sonra yenə yolumu «Ajir»dən saldım. Bu dəfə ağaye Pişəvərinin dövrəsində əvvəldən tanıdığım bir neçə nəfərdən başqa doktor Vəlizadəni, Nəmi Nükəkərani, doktor Salamulla Cavid, Firudun İbrahim, Məşədi Cəfər Kaviyanı və adlarını unutduğum bir neçə nəfər başqalarını gördüm. Sanki bunlar Azərbaycanın azadlığı haqqında məşvərətə toplanmışlar. Mən də onlara qatıldım. Sonrakı aylarda bu məzmunda «Ajir» də bir neçə görüşlərimiz oldu. O görüşlərdəki söhbəti açıqlasam çox çəkər. Fəqət bunu deyə bilərəm ki, bu görüşlərdəki söhbətlər, fikir və mülahizələr Azərbaycandakı hərəkatın nəzəri hazırlığına Pişəvəri tərəfindən söylənən dəyərli fikirlər idi.

Sual: Təbrizdəki görüşünüz necə olub? İ.Şdms: Mənim S.C.Pişəvəri ilə sonrakı görüşüm 1944-cü ilin yazında Təbrizdə oldu. O, Təbrizdən 14-cü Məclisə vəkil seçilmişdi. Əgər müqəddəmlərin, Seyid ziyaların, şahpərəst əyan-əşrəflərin hilləkar əməlləri, maniə və işə saldıqları yüz min tümənlərlə pul olmasaydı, Pişəvəri 16 min səs əvəzinə 25-30 min səs qazana bilərdi. Təbriz əhli 16 min səslə onu Məclisə yolladı... Məclisdəki «oğru və cinayətkar» (bu sözlər M.Müsədiqə məxsusdur - İ.Ş.) Pişəvəriyə yol vermədilər.

14-cü Məclisdəki şovinist ab-havası ağaye Pişəvərini milli səmtə üz tutmağa daha artıq yönəltdi. Bu sözlər onun başlıca şüarlarından oldu ki: «Bununla bizim suyumuz bir arxda getməyəcək».

Sual: S.C.Pişəvərini Təbrizə çağıran oldu, ya özü gəldi? İ.Şəms: Biz, Təbrizin azadlıq istəyən ziyalısı, müxtəlif zümrələrdən olan azadxahlar məşvərət və məsləhət etdik ki, bu vəziyyətə nə qədər dözmək olar! Qərarımız bu oldu ki ağaye Pişəvərini Tehrandan Təbrizə çağıraq. Bu haqda çox geniş və həyəcanlı yazılmış

məktubu mən, ağaye M.Çavuşi və M.Vilai aparıb Tehranda Pişəvəriyə çatdırdı. Biz onu «Ajir» redaksiyasında tapdıq və məktubu təqdim etdik. O, məktubu oxuyarkən gözlərindəki sevinci və sifətinə hopmuş ciddiliyi indi də unuda bilmərəm... Hər birimizə bir stəkan çay verildikdən sonra əməkdaşları çağırıb, «getməsəm anam Seyid Səkinənin südü mənə haram olar» deyib qəzetə aid tapşırıqları verdi və sabahdan işə gəlməyəcəyini onlara bildirdi.

Biz həmin gün günortadan sonra Təbrizə qayıtdıq. Ağaye pişəvəri sabah axşam, səssiz-küysüz Təbrizə gəldi. Azadlıq istəyən qüvvələrin nümayəndələri ilə görüşdü, məsləhətləşdi və yeni bir firqənin yaradılması üçün işə başlandı.

Sual: «21 Azər» və Milli Hökumət haqda sizdən eşitmək maraqlı olar İ.Şəms: Firqənin yaranması fəaliyyəti, Hökumət və s. ilə bağlı tarixçilərimiz, jurnalistlərimiz - həm dost, həm düşmən çox yazıblar və yəqin ki bundan sonra da yazacaqlar. Odur ki, mən bu məsələyə toxunmuram, həm də çox danışmağa taqətim azdır.

Sual: Azərbaycan Milli Hökuməti dövründə siz hansı vəzifə daşıyıbsız və S.C.Pişəvəri ilə təmaslarınız olurdumu?

İ.Şəms: Firqənin yaranmasından süqutadək elə bir həftə olmazdı ki, müxtəlif məsələ ilə bağlı mən ağaye Pişəvəri ilə görüşməyim. Xəttim yaxşı olduğundan çox toplantıların surtcələ səsini (protokolunu) yazmağı mənə həvalə edərdi. Ağaye Pişəvərinin təklifi ilə mən MK üzvlüyünə, qanun-əsası hazırlayan hüquq komissiyasına üzv olmuşam. Bu vəzifələr içərisində məni daha çox məşğul edən AMM orqanı «Azad Millət» qəzetinə baş redaktor təyin olunmağım idi. Bu münasibətlə ağaye Pişəvəri məni yanına çağıtdırdı. Milli Məclisin sədri Hacı Mirzəli də onun kabinetində idi. O, mətləbi mənə açdı, mənim Məclisin rəsmi orqanına redaktor olmağım haqda fikrini çatdırdı. Sualım bu oldu ki, ağaye Pişəvəri qəzeti hansı dildə, farsca, ya türkcə çıxaraq. Sualımın cavabında o mənə: ağaye Şəms sizcə hansı dildə çıxsa yaxşıdır?» Mən fikirləşmədən: «Əlbəttə ana dilimizdə, bütün xalqın anladığı dildə». O, mənə «bəs onda fikrimiz eynidir, günü sabahdan qəzet çıxmalıdır». O, mənim çaş-baş qaldığımı görüb soruşdu: «çətinliyin olacaqmı?» Dedim «əlbəttə, ən böyük çətinlik savadımın farsca olmasıdır. Mən türkcə həm yazıda, həm də danışıqda iştibahlar (səhvlər) edirəm».

Pişəvəri bir qədər ciddi tərzdə: «Ağaye Şəms biz anamızdan imtina edə bilmədiyimiz kimi, onun dilindən də imtina edə bilmərik. Bu məsələ millətimizin faciəsidir, biz nəyin hesabına olursa-olsun bu faciədən bir dəfəlik yaxa qurtarmalıyıq» - dedi.

O özü tərtib etdiyi «Farsca-türkcə mühüm sözlərin lüğəti» kitabçasını mənə verdi və əlavə etdi ki, bir müddət o özü də bu işdə mənə köməkçi olacaq.

Mən «Azad Millət»in çapını təşkil etdim, qəzetin dili məsələsində Arazın o tayından gəlmiş azərbaycanlı ziyalılar da (C.Xəndan, Q.Musayev (İlkin), Ə.Sadıq və s.) mənə kömək etdilər.

Bir gün mənə dedilər ki, ağaye Pişəvəri səni çağırtdırıb və deyib ki «Azad Millət»in son bir neçə nömrəsini də özü ilə gətirsin. Mən qoltuğumda «Azad Millət» Ağaye Pişəvərinin qəbuluna getdim. O, son dərəcə səmimi, sadə və işdə ciddi adam idi. Mən onun qəbulunda olarkən o bir qayda olaraq yerindən durub mənlə ya üzbəüz və ya yanımda əyləşərdi. Bu dəfə də o, yanımda əyləşdi, işlərin gedişi ilə maraqlandı, tövsiyələrini verdikdən sonra gətirdiyim «Azad Millət»in son nömrələrini varaqladı. Demə bəs məndən əvvəl o qəzetin hər nömrəsini oxuyub və faydalı qeydlər edib. Bu qeydlər sonrakı nömrələrdə nəzərə alındı. Mən hiss etdim ki, o, qəzetin bütün nömrələrini diqqətlə oxuyub. Ağaye Pişəvəri dəfələrlə redaksiyaya gəlmiş, ana dilimizin saflığını, məqalələrin müxtəlif mövzuda yazılmasını, Milli Məclisin qərar və qanunlarının gecikdirmədən oxuculara çatdırılmasını mühüm vəzifə olaraq qeyd etdi. MM-in 100-dən çox qanun və qərarları «Azad Millət» səhifələrində çap olunmuşdur.

Suah İsmayıl müəllim, siz Milli Hökumətin konstitusiyasını tərtib edənlərdən olmusuz, bu işin sonu necə oldu?

İ.Şəms: Milli hökumətin muxtariyyət hüquqlarını özündə əks edən qanun - əsasiyə ehtiyac olduğu bilindi. Bu məsələ ilə məşğul olacaq 13 nəfərdən biri də mən idim.

Ağaye Pişəvəri özü bu işə rəhbərlik edirdi. Hüquqşünas olduğumuza görə Firidun İbrahim (baş prokuror) və mən sədrin müavinləri idik. Biz çox böyük həvəs və zəhmətlə muxtar dövlətin konstitusiyası layihəsini hazırladıq. Sonra hansı səbəbdənsə bu layihə rəsmi qanun-əsası kimi çap olunmadı. Bunu o zaman milli hökumətə qarşı Tehranın qopardığı hay-küy və beynəlxalq vəziyyətlə bağlı artan təzyiqlərlə izah edirdilər.

Mənim Ağaye Pişəvəri ilə son görüşüm haqda bir neçə kəlmə deyim.

1325-ci ilin Azərin 17-si və ya 18 idi. Mən qəzetimizin bəzi məsələləri ilə bağlı MK-yə, Ağaye Pişəvərinin yanına getmişdim. O, çox əsəbi, fikirli və sarsıntılı görünürdü. Mən qəzetin vəziyyətindən, maliyyə çətinliklərimizdən, kadır çatışmamazlıqlarımızdan danışmaq və kömək almaq istəyirdim. O, dərdli adam kimi sanki ürəyini boşaltmaqla təskinlik tapmaq istəyirdi. Zənganı tutub ağlagəlməz cinayət etmiş şah qoşununun Azərbaycanın içərilərinə yeridiyini, silah-sursatın çatışmadığını, əli yalın xalqı ucuz ölümə verməyin mənasızlığını nitqinə fasilə vermədən elə danışırdı ki, o, təndirdə diri gözlə yanan adamı xatırladırdı. Mən söz arası ona: «bəs tovarişlər nə deyir» - dedim. Masası üstündə təzə alınmış teleqrafı göstərərək: «açıqca təslim olmadığımızı, qatil Qəvama hüsn-rəğbət gostərməyimizi «dostcasına» məsləhət görürlər. Bizim faciəmiz sənin dediyin «tovarişlərə» inanmağımız və arxasız qalmağımızdır» - cavabını verdi.

Ona haradansa telefon oldu. Mən onun harayasa çağrıldığını anladım, ona heç nə deməyib, kabinetini tərk etdim. Sonrakı olaylar sizə məlum olduğu üçün mən nə deyim?! Həm də yoruldum, ömür vəfa qılsa növbəti görüşümüzdə sizə məlum olmayan (və ya az məlum olan) məsələlərdən danışardım. Fəqət bunu bilin

ki, Ağaye Pişəvəri böyük inqilabçı, mütəfəkkir, təvazökar, millətini yanar ürəklə sevən insan idi. Allah ona rəhmət eləsin.

## Ə.ELÇİBƏY GÜNEY AZƏRBAYCANDAKI HƏRƏKAT VƏ PİŞƏVƏRİ HAQQINDA

S.C.Pişəvərini fərd kimi ayırmaq olmaz. İstər Səttarxan olsun, istər Məmmədəmin olsun, istər Xiyabani olsun, istərsə Pişəvəri, bunlar Azərbaycan xalqının silsilə mübarizəsində önə çıxan və ona rəhbərlik edən şəxsiyyətlərdir. Bu, Azərbaycan xalqının mübarizəsidir. 1920-ci ildə Azərbaycanın güneyində Təbrizdə inqilab olur, milli hökumət yaradılır. Amma bu hökumət 1 il ömür sürür. Bu xalq hökumət istəyir, demokratik cəmiyyət istəyir. Məndə bir sənəd var. Orada yazılmışdı: «Səttarxan hərəkatında iştirak edənlər qətlə yetirildi, onların övladları 1920-cı ildə hərəkata başladılar. Onlar qətlə yetirildilər, onların övladları 1945-ci ildə hərəkata başladılar. Millət mübarizə aparır, onun qabağını alırlar. Sonra qüvvəsini toplayıb o birisi nəsil gəlir, həmin xətti aparır. Çünki millət bir şey istəyir - azalıq və demokratiya. Azər-baycan xalqı gücünü toplayır, bir də 1945-ci ildə qalxır, bu da 1 il yaşayır. Azərbaycan xalqı əsrin əvvəlindən indiyə kimi həm Təbrizdə, həm də Bakıda azadlıq və demokratiya istəyib. Bizdə də 23 ay yaşadı. 1920-ci ildə məhv elədilər. Bu dəfə də istədik, 7-8 ildir ki, yaşayırıq. Bu dəfə Azərbaycanın Quzeyindəki azadlıq daimi olacaq. Güneyində, bir dəfə olub - 6 ay, bir dəfə isə 1 il. Bu dəfə Allah qoysa, başlasalar, daimi dövlət olar. Yəqin edirəm ki, Azərbaycanın Güneyində müstəqil dövlət olacaqdır.»

## DOKTOR M.T.ZEHTABİ: S.C.PİŞƏVƏRİ İLƏ TƏBRİZDƏSON GÖRÜŞÜM

S.C.Pişəvərinin rəhbərliyi altında Azərbaycan Demokrat Firqəsinin bir il ərzində gördüyü işləri bir məqalədə əhatə etmək mümkün deyil. Bu hərəkat İranm azadlıq mübarizəsi, habelə Azərbaycan xalqının tarixində elə böyük hadisədir ki, onun barəsində çoxlu yazılmış və bundan sonrada yenə yazılacaqdır... 21 Azər nehzəti (inqilabı) və onun rəhbərliyi son günə qədər, yəni 1325-ci il Azərin 20-nə qədər (1946-cı il 11 dekabr) öz inqilabi xəüərində azacıq da olsa dəyişiklik əmələ gətirməmişdi. Bir addım da olsa geri çəkilməmişdi. Əksinə Zəngan, Tehran cəlladları tərəfindən qan dəryasına çevriləndən sonra Azərbaycanın hər yerində təzə ruhiyyə ilə, 1324-cü il 21 Azərdəkindən daha şiddətli hazırlıq gedirdi. Xalq yeni ümidlərlə misilsiz şəkildə silaha sarılırdı. O günlər Azərbaycanda olmamış adam Səttarxan övladının bu dərəcədə yüksək inqilabı əhval-ruhiyyəsini təsəvvür edə bilməz. Bu günlər «21 Azər» nehzətinin il dönümünə hazırlıqla bərabər Mərkəzi

Komitə və mərhum S.C.Pişəvərinin əmri əsasında «Babək» adlı könüllülər dəstəsi yaranırdı. Mən bu könüllülər dəstəsinin yaradılmasında şəxsən iştirak edirdim. Könüllülər dəstəsi sırasına daxil olmaq istəyənlərin sayı o qədər idi ki, onların hamısını məşq üçün təlimat meydanına sığışdırmaq mümkün olmurdu. Bu günlər Təbrizin bütün məhlələrindəki geniş yerlər hərbi təlimat meydanına çevrilmişdi. Tüfəng götürüb təlimat meydanlarında məşq eləyən qadın və qızların sayı kişilərdən az deyildi.

Mərhum Pişəvərini sonuncu dəfə Azərin 20-də (dekabrın 11 -də) səhər MK-nin binasında gördüm. O, olduqca tutqun və əsəbi idi. Mərhum Pişəvəridə belə bir haləti 1324-cü il «21 Azər» günü səhər sərtib Derəxanı ilə müzakirədən qayıdanda pasajda görmüşdüm. Lakin, onda gözlərinin içi gülürdü. Üzündən müvəffəqiyyət yağırdı. Dayanıb gülə-gülə: «oğlum, işlər necə gedir? Zənginə təslim olmaq istəmir (Zənginə Urmiyadakı hərbi qarnizonun rəisi idi - Ə.R) Umiyaya kömək göndərmək lazımdır. İşlər düzələr inşaallah» deyib tələsik getdi. Lakin sonuncu dəfə mən onu görəndə başını aşağı salıb, heç nə demədən öz otağına girdi. Sonra onu bir daha görə bilmədim...

Mərhum Pişəvərinin tranı tərk etmə məsələsində çoxlu sirlər vardır. Lakin hələlik bunlar açılmamtşdı. Onun Şurəvidən İrana qayıtmağa çalışması və bu çalışmalar zamanı gözlənilmədən vəfatı bu sirlərin çox məkirli və mürəkkəb olmasından hekayət açır.

Xatirə «Ərmağan Azarbau» dərgisinin 1383-cü il 60-cı nömrasindan iqtibas edilmişdir.

## MƏN ONU XATIRLAYARKƏN TALEYİNƏ KÖVRƏLİRƏM

Seyid Cəfər Pişəvəri XX əsr Azərbaycan xalqının yetişdirdiyi görkəmli siyasi-ədəbi simalardan olmuşdur. O, siyasi xadim olmaqdan əlavə çox mahir jurnalist, yazıçı və felyetonçu kimi ədəbiyyat tariximizə daxil olmuşdur. Mənim bu böyük insanla ilk dəfə tanışlığım 20-ci illərin əvvəllərində olmuşdur. Bakıdakı 18 №-li pedaqoji texnikumda oxuyarkən yaxın qohumumla S.C.Pişəvərinin redaktor olduğu «Kəndli» qəzetinə getmişdim. Qohumumu və məni mehriban üzlə qarşılayan baş redaktor - Pişəvəri məni diqqətlə seyr etdikdən sonra:

- Sənin suyun mənə şirin gəlir cavan oğlan, sən bizim tərəflərdən deyilsənki?

Mən cavabında: - Sizin tərəf haradır?

Pişəvəri: Arazın o tayı, Azərbaycanın Cənubu.

Qohumum yox: o, Bakı ətrafındakı Mərdəkan kəndindəndir. Ancaq ana nənəsi danışardı ki, onun əsli cənubdandır, şahsevən elindən imiş.

Pişəvəri fikirli-fikirli Azərbaycan tarixindən, Vətənin parçalanması taleyindən elə danışırdı ki, mən heyran-heyran ona qulaq asardım. Nə qədər mehriban, sadə və adamı özünə cəlb etməyi bacaran insan idi...

Pişəvəri qohumumun kəndimiz haqda yazdığı məqaləni aldı, oxudu və növbəti nömrədə çap edəcəyini dedi. Mən sonrakı illərdə onu bir daha görmədim. Lakin onunla ilk görüş xoş təəssürat olaraq uzun müddət hafizəmdə qaldı. Ancaq həmişə düşünürdüm: Görəsən o redaktor haradadır?

Aylar, illər gəlib keçdi... Faşist Almaniyası qəflətən SSRİ-yə basqın etdi. Hamı kimi mən də hərbi səfərbərliyə alındım. Əksəriyyəti oxumuş ziyalılardan ibarət olan bizim dəstəni İrana, Təbrizə yolladılar. İrana yollanarkən vaqon pəncərəsindən Arazın o tayındakı evləri, səhraları, adamları seyr etdikdə yenə onu, Pişəvərini, onun ikiyə parçalanmış Azərbaycan haqda dediklərini yadıma salırdım.

Bizi İrana ona görə göndərmişdilər ki, orada kök salmaq istəyən və bizə qarşı hücuma keçməyi hazırlayan alman faşistlərinin oradakı yuvasım dağıdaq. Ordumuz bunu etdi.

Təbrizdə fəaliyyətim həm də «Vətən yolunda» hərbi qəzetin çıxmasında iştirak etmək idi. Köhnə dostun Qulam Məmmədli də mənimlə bu işdə çalışırdı. Azərbaycan dilində nəşr etdiyimiz «Vətən yolunda» qəzeti az müddətdə Güney Azərbaycanın bütün guşələrinə yayıldı, özünə çoxlu oxucular tapdı. Biz bir il yarım olardı ki, qəzeti böyük zəhmətlə çıxarırdıq. Bir dəfə istirahət vaxtı Qulam Məmmədli Pişəvəridən söz açdı. Mən dərhal ondan soruşdum: Onu haradan tanıyırsan? O dedi ki, mən S.C.Pişəvəri elə hələ 20-ci illərdən tanışam, hətta, bir redaksiyada çalışmışıq. Mən Qulamdan soruşdum ki, görəsən indi o haradadır? O bu sözün qabağında məni sevindirdi ki, o, ağır zindan həyatından sonra salamatdır, Tehranda «Ajir» adlı qəzet çıxarır. Pişəvərinin şah rejiminin əlindən sağ-salamat çıxması məni hədsiz dərəcədə sevindirdi.

Bir gün Qulam Məmmədliyə dedim ki, icazə versəydilər səninlə Tehrana gedib, Pişəvərini yaxından görərdim, mən onu çox görmək istəyirəm. Qulam fikrimi bəyəndi və biz Tehrana getmək üçün baş redaktor Mirzə Əjdər oğluna müraciət etdik. O, bizim fikrimizlə razılaşdı. İki gün ərzində sənədlərimizi səhmana salıb Tehrana yollandıq. «Ajir» qəzetinin redaksiya ünvanı əlimizdə var idi. Qulam farsca yaxşı bildiyindən ünvanı tez tapdıq. Biz içəri daxil olarkən Pişəvəri başını aşağı salıb qəzeti oxuyurdu, hansısa düzəliş və əlavələr edirdi. O, otağa kimsənin daxil olduğunu hiss edib başını qaldırdıqda bizi görcək. «Oy, sovet qardaşlar xoş gəlmisiz!» - dedi.

Mən 20-ci illərin əvvəlində gördüyüm Pişəvəri ilə bu pişəvəri arasında böyük dəyişiklik var idi - saçları ağarmış, üzündə, alnında qırışlar əmələ gəlmiş, arıq və solğunlaşmışdı. 10 illik zindanın, təqib və sürgünün əzablı günlərinin əlamətləri açıqca sezilirdi. Dəyişməyən onun gözləri və bir də yenə mərhəmətli görünən sifəti idi. O, üzünü bizə tutub Qulama müraciətlə: Qulam görürsən, həbslər, təqiblər, əziyyət və ehtiyac məni sarsıtmasa da, vaxtsız qocaltdı. Nə etməli, mənim taleyim də belə imiş...

Seyid Cəfər sonra Qulam müəllimə müraciətlə: Bu cavan oğlan kimdir, onun sifəti mənə tanış, suyu şirin gəlir.

Qulam müəllim: Vallah məni Təbrizdən sürükləyib bu ra gətirən elə odur. Mən də səni görmək istəyirdim, Mirzə Əjdər oğlu da sənə salam göndərdi, lakin bu cavan oğlan, adıdakı Qılmandır səni görmək həsrətində idi. O, sizi Bakıdan, «Kəndli» qəzetindən tanıyır, məqaləsini də çap etdirmisən. Pişəvəri bir qədər fikrə daldıqdan sonra, hə... yadıma düşdü, Mərdəkanlı oğlan, nənəsi şahsevən elindən olan oğlan. Mən onun yazısını oxuduqdan sonra onun gələcəkdə yaxşı qələm sahibi olacağını yoldaşlara demişdim. O, yerindən qalxdı, təkrarən məni öpüb qucaqladı, səhhətim və evdəkilərlə bağlı soruşdu. Mən isə nigarançılıq yoxdur dedim, həm də müharibədi, gərək hər şeyə dözək. O, mənim yazılarımla maraqlandı, çox suallar verdi.

Qulam müəllim Pişəvəriyə müraciətlə: ağa, mən sənin köhnə dostunam, mənimlə heç bir o qədər də maraqlanmırsan?

Pişəvəri: Qulam, qardaşım, gələcək gəncliyə məxsusdur, onlara qayğı və diqqət hər birimizin borcumuzdur. Qulam müəllim onun sözünə şərik olduğunu bildirdi və mənim yazıçı-jurnalist fəaliyyətimdən ona danışdı. Pişəvəri mənim «faşistlərin tör-töküntüləri» adlı məqaləmi «Vətən yolunda» oxuduğunu və bəyəndiyini bildirdi.

Mən, haqqımda söhbətin istiqamətini dəyişmək üçün Bakıda, «Kəndli» qəzeti redaksiyasında görüşümüzdən sonra onun haralarda olduğunu, nə iş gördüyünü bir qədər çəkinə-çəkinə ondan soruşdum. Cavabında o başına gətirilmiş bəlalardan, zindan həyatından və İrandakı indiki siyasi durumdan və qarşıda görüləcək işlərdən danışdı... Nə Qulam müəllim və nə də mən onun danışığını dinləməkdən yorulmadıq. Onun danışığı nə qədər şirin və duzlu olsa da, eyni zamanda acı bir hekayəni xatırladırdı. Biz onu yorduq, həm də bizə ayrılmış vaxt başa çatdı. O, yazdıqlarını bizə çatdıracağını bildirdi. Ondan ayrılarkən Təbrizdə bizə baş çəkməsini xahiş etdik. Biz onunla qucaqlaşıb ayrılanda mən özümü saxlaya bilməyib dedim: Ağaye Pişəvəri, biz sizdən ayrıla bilmirik, bəs bütöv vətənimiz bir-birindən niyə ayrıldı?

O isə cavabında: Biz ayrılmadıq, lənətə gəlmişlər ayırdılar!

Biz yenidən Təbrizə yola düşdük.

Pişəvəri Təbrizə, Azərbaycana gələrkən «Vətən yolunda» qəzeti redaksiyasına, burdakı dost və tanışlarına baş çəkməmiş Tehrana yollanmazdı. O, Azərbaycana növbəti gəlişlərinin birində (səhv etmirəmsə 1945-ci ilin mayında) Azərbaycanı başdan-başa gəzdiyini, xalqın istəyi və ruhiyyəsi ilə yaxından tanış olduğunu, kəndlilərə mülkədar, jandarm və dövlət məmurları tərəfindən olan zülm və zorakılıqdan danışdı. O, hər şeyi fakt və olmuşlar, canlı şahidlərin etiraf və dedikləri əsasda danışırdı. Danışdıqca kədərlənir və əsəbləşirdi. Çıxış yolunun, xilas olmanın yolunu Azərbaycanın ayağa qalxmasında görürdü. Bu işi etməkdən ötrü milli təşkilata ehtiyacı xüsusi vurğulayırdı.

Təbrizdə, bütövlükdə Azərbaycanda sonrakı hadisələr Pişəvərinin düşündüyü kimi oldu: Firqə yarandı, mübarizəyə rəhbərlik etdi, 21 Azər inqilabı oldu, Milli Hökumət yarandı, böyük iqtisadi-mədəni və s. tədbirlər həyata keçirildi.

Bizə Milli Hökumətin və Firqənin işlərinə müdaxilə etməmək tapşırıldığından biz Pişəvəri ilə çox az görüşürdük ki, Tehran rejimi Azərbaycanda baş verənləri bizim ayağımıza yazmasın (Təəssüf ki, bəziləri indi də buna cəhd edir). Bir gün Qulam Məmmədlini və məni S.C.Pişəvəri «Azərbaycan» qəzetinin redaksiyasına çağırtdırdı. Məlum oldu ki o, baş vermiş olayların mühüm hissələrini «Qızıl səhifələr» adlı topluda tərtib etdirib, çap olunmağını istəyir. Bu kitabdakıları redaktə etməyi bizdən xahiş edir. Qəzetlə bağlı işimizin çox olmasına baxmıyaraq rəhbərliyimizin icazəsi ilə biz bu işi gecə-gündüzə salıb, qısa müddətə başa çatdırdıq. Bizim adımızın kitabda yazılması məsləhət görülmədi. «Qızıl səhifələr» 1946-cı ilin əvvəllərində qiymədi toplu kimi çap olundu.

1946-cı ilin baharında o səmimi, böyük insandan ayrılmağım heç vaxt yadımdan çıxmır. O, «Azərbaycan» qəzeti redaksiyasında bizimlə bir vida görüşü təşkil etdirmişdi. O görüşdə bizim Təbrizdən getməyimizdən, ümumiyyətlə Sovet qoşunlarının İran ərazisini tərk etməsindən narahat idi. Elə bil o, hadisələrin faciəli sonluğunu görürdü...

Həmin ziyafətdə Pişəvəri üzünü Qulam Məmmədliyə tutub dediyi sözlər indi də qulağımda cingildəyir: «Qulam, qardaşım, öz aramızda qalsın mən sənə deyirdim ki, bu sovetlərə çox inanmaq olmaz. Yeri gəldikdə onlar öz xeyirlərinə bizi meydanda tək, həm də əliyalın qoyub gedə bilərlər. Görürsən nə oldu, hələ nələr olacaq!..» Pişəvəri bir qədər pıçütı ilə bu sözləri deyərkən onun əsəbilikdən səsindəki titrəklik və çöhrəsindəki pərişanlıq aydınca sezilirdi. O, bu halda bizirnlə vidalaşdı və Bakıdakı salamat qalmış dost və tanışlarına salamlar göndərdi. O, bizi öpdü, qucaqladı və bizdən ayrılıb getdi. O, gedəndən sonra otağa çökmüş kədərli sükut bizi qəm dəryasına qərq etmiş oldu.

Salamat qal Təbriz! Salamat qalın dostlar deyib 9 may 1946-cı ildə maşınımız Güney Azərbaycandan yola düşdü. Mən qəlbimdə çoxlu-çoxlu Təbriz xatirələri ilə Bakıya gəldim. Fürsət ələ düşdükcə şirinli-acılı bu xatirələri kağız üzərinə gətirmək fikrindəyəm. XX əsr tariximizin mütəfəkkirlərindən biri, siyasi xadim, vətəni yanar qəlblə sevən, sadə, təvəzökar insan - Seyid Cəfər Pişəvəri bu xatirələrdə olduğu kimi yad ediləcəkdir.

## QULAM YƏHYA PİŞƏVƏRİ HAQQINDA (XATİRƏLƏRİNDƏN)

### M.C.BAĞIROVLA GÖRÜŞ

Bizi Bakıya istədilər. Mən və Pişəvəri yol uzunu belə fikirləşdik ki, yəqin ki, yenidən fədai hərəkatı ilə əlaqədar bizi Bakıya dəvət edirlər. Əgər belə

olmasaydı onda məni yox, Pişəvəri ilə Badiqanı dəvət edərdilər. Çünki təşkilatı işlərə o baxırdı. Ona görə də Bakıya təcili dəvət olunmağımız, hamının, o, cümlədən mənim də böyük sevincimə səbəb olmuşdu. Bizi MK-da qəbul etdilər. Orada bir sıra mövzularda söhbət oldu. M.C.Bağırov əlində allergiya əmələ gəldiyindən əlini bintlə sarımışdı. O, dedi ki, həkimlərin dediklərinə görə, əsəb pozğunluğundan baş verir. Həyatımda ikinci dəfədir ki, əlim belə olur. Birinci dəfə oğlumun Böyük Vətən müharibəsində həlak olması xəbərini eşidəndə belə olmuşdu. Bu dəfə də sizin hadisə ilə əlaqədar əlim belə olmuşdur. O, Stalindən alınmış teleqramı bizə oxudu. Teleqramda ümumiyyətlə bizə səbrli olmaq, işdə ciddi və möhkəm olmağımız tövsiyə edilirdi.

Bir dəfə də 1947-ci il mart ayının əvvəllərində PİşəvərinI və məni MK-ya dəvət etdilər. Mirzə İbrahimov və Həsən Həsənov da orada idilər. Söhbət bizim yoldaşların necə yerbəyer olmasından başlandı. Mən yoldaşların necə yerbəyer olması haqqında qısa məlumat verdim. Bağırov bizim yoldaşların vəziyyətlərinin qaranlıq qalmış yerləri haqqında bir sıra suallar verdi və mən də cavablarını dedim. Sonra dedi yoldaşlarla vaxtaşırı görüşmək yaxşı olar. Eyni zamanda dedi ki, sənəti olmayan yoldaşlara müəyyən sənətlərin öyrədilməsi pis olmazdı. Sonra yoldaşlarımızın savadlanma kurslarına cəlb edilmələri haqda göstəriş verdi. Bir qədər də söhbət etdikdən sonra Bağırov Pişəvəridən soruşdu ki, bayrama necə hazırlaşırsız? Mənə elə gəldi ki, Pişəvəri belə bir suala cavab verməyə hazır deyildi. Ona görə də cavab verdi ki, bayrama hələ çox qalır...

## İLK FİRQƏ TƏDBİRLƏRİ HAQDA

Mən ilk görüşümüzdə yoldaşlara məsləhət gördüm ki, onlar müəyyən sənət öyrənsinlər, savadsızlıqlarını ləğv etmək üçün kurslara getsinlər. Doğrudur, onlar mənim nə demək istədiyimi bilir və bu tədbirlərin həqiqətən onların xeyrinə olmasını aydın hiss edirdilər. Digər tərəfdən mənim belə söhbətlərim onların vətənə getmələrinin yubanmasından xəbər verdiyi üçün o qədər də fərəh doğurmurdu. Mən hiss edirdim ki, onlar nə isə ancaq vətənə qayıtmağımız ilə əlaqədar olan hadisə və söhbətləri xoşlayırlar. Mən yoldaşlara aydınlaşdırdım ki, vətənə getmək və istədiyimizə nail olmaq üçün hələlik ən vacib tədbir sənət Öyrənib, savadsızlığımızı ləğv etmək, siyasi bilik və dünyagörüşümüzü artırmaqdır. Fədailərin hələlik yeganə xahişləri bu idi ki, onlarla tez-tez görüşək.

1947-ci ildə məhəllə təşkilatları yaranmağa başlandı. Təşkilatlar müəyyən edilmiş plan əsasında fəaliyyət edib, vaxtlı-vaxtında cələsələrini keçirirdilər. Bu mələsələrdə firqənin nizam-intizamı, məramnamə-nizamnaməsi, gündəlik cari işlərlə yanaşı beynəlxalq aləmdə baş verən hadisələrlə birlikdə vətənimizdə gedən hadisələr mətrəh edilirdi.

Yerlərdə təşkilat verməyimizin hər cəhətdən əhəmiyyəti çox böyük oldu. Demək olar ki, bütün müvəffəqiyyətlərimiz öz başlanğıclarını buradan başlamış

oldu. Biz təşkilat vasitəsilə yoldaşlarımızın bütün işlərinə yetişir, ehtiyaclarını öyrənir və onların rəf edilməsinə iqdam edirdik. Xüsusilə, yoldaşların münasib işlərlə təmin olunması, sənət öyrənib, savadlanması və sair işlərinin yerinə yetirilməsi bilavasitə təşkilat vasitəsilə həyata keçirilirdi.

Bizim yoxlamalardan aydın oldu ki, Mərəzədə olan bir neçə yoldaşın vəziyyəti yaxşı deyildir. Ona görə də onları oradan Umbakıda olan Azneft sisteminə gətirdik, onların da vəziyyəti qısa müddətdə yaxşılaşdı.

## FƏDAİLƏRƏ BAŞ ÇƏKDİKDƏN SONRA...

Mühacirət dövrünün başlanğıcında görülən mühüm işlərdən biri də fədailərlə təlim keçirilməsi işi idi. Bu işin təşkili və ona rəhbərlik etmək mənə həvalə edildi. Fədailər tədbiri çox həvəs və ruh yüksəkliyi ilə qarşıladılar. Onlar verilən bütün tapşırıqları can-başla yerinə yetirirdilər. Cəsarətlə demək olar ki, fədailər bu işə təmiz vicdan və pak qəlblə başladılar. Biz bu işi əsasən iki yerdə təşkil etmişdik. Bizə verilmiş tapşırıq yerinə yetiriləndən sonra biz tam hazır olduğumuzu bildirdikdən sonra bir neçə gün gözləməyi məsləhət gördülər. Vəd edilmiş vaxt başa çatdı. Mən yenə də müraciət etdim, yenə də məsləhət gördülər ki, bir qədər də səbr edək. Bu haqda Pişəvəriyə məlumat verdim. O da dedi ki, bu dəfə mənimlə Kirovabada (indiki Gəncəyə) getmək fikrindədir. O da işin tezliklə başlanılmasına tələsirdi.

Biz Kirovabada çatdıq. Mən fədailərin işi ilə, onların iş, məişət və başqa işləri ilə də məşğul oldum. Pişəvəri də şəhərlə tanış olurdu. Biz Kirovabaddan Şəkiyə getməli idik. Pişəvəri nə isə çox tələsirdi. Axşam belə qərara alındı ki, səhər tezdən Kirovabaddan çıxıb, Şəkiyə gedək. Mən onlardan xahiş etdim ki, imkan versinlər qalan işlərimi də gecə görüb qurtarım və səhər nə vaxt desələr o zaman hazır olum. Pişəvəri keçmişdən bir yerdə işlədikləri Nəzər Heydərovun evində qalırdı. Səhər saat 5-də məni çağırdılar. Mən mehmanxanadan çıxdım. Bizim belə tezdən getməyimizə Nəzər Heydərov bərk etiraz etdi. Pişəvəri cavabında dedi ki, ürəyim zəifdir, Yevlağın istisinə düşməmək üçün istəyirəm ki, oranı tezdən keçək. Biz maşına oturarkən dedim ki, mən gecəni yatmamışam, ola bilər ki, maşında məni yuxu tutsun. Ona görə də qadaqcadan üzr istəyirəm. Mənim maşının arxa tərəfində oturmağımı məsləhət gördülər. Mənə elə gəlir ki, maşın hələ şəhərdən çıxmamış yatmışam. Sonrasından daha xəbərim olmayıb, sonrakı hadisələrin gedişi bir daha göstərdi ki, məndən sonra sürücü ilə qabaqda əyləşmiş Pişəvərini və arxada mənimlə yanaşı əyləşmiş Nuri Quliyevi də yuxu tutur. Bu zaman yəqin ki, sürücünü də səhərin xoş və sərin havası xumarlandırır. Bu zaman maşın yoldan çıxır, Pişəvəri sürücüyə qışqırır ki, nə edirsən, sürücü yəqin ki, tormuz əvəzinə qazı basır. Maşını sağdan birdən sola tərəf alır, maşın körpünün divarına dəyir. Zərbədən Pişəvərinin bir neçə qabırğası sınır. Quliyevin ayağı lülədən sınır və hətta

bud lüləsi əti deşib, üzə çıxır. Mənim də başım bərk dəyir və özümdən gedib, huşumu itirirəm.

## S.C.PİŞƏVƏRİNİ TANIYANLAR BİLİRDİ Kİ...

Mən Pişəvərinin şəxsiyyəti, iş bacarığı, məlumatı, adamları tanıması, işə əlaqəsi və sair bu kimi keyfiyyətləri haqqında danışmaq fikrində deyiləm. Onun nə qədər böyük adam olmasını onu tanıyanlar, onunla işləyənlər qat-qat yaxşı bilirlər. Xüsusilə onun sağlığında və ölümündən sonra baş verən hadisələr onun nə qədər hazırlıqlı adam olmasını, rəhbərə xas olan çoxlu keyfiyyətlərə malik olmasını, hadisələr bir daha təsdiq etdi. Mən onun haqqında, daha doğrusu onun insani, rəhbərlik, inqilabçılıq, əqidəsinə vurğunluq və başqa bu kimi ancaq və ancaq müsbət keyfiyyətləri haqqında fikir söyləmək qüdrətinə malik olmağım barədə izhar vücud etməyə özümdə cəsarət hiss etmirəm. Ancaq Engels özünün həyat və əqidə dostu Marksın qəbri üstə dediyi bir sözü burada bir də yada salmaq istəyirəm: «.... Onun çox əleyhdarları ola bilərdi, lakin çətin ki, onun bircə nəfər də şəxsi düşməni olsun».

Həqiqətən Pişəvəri ancaq azadlıq uğrunda mübarizə üçün yaranmış bir marksist idi. Mən deyə bilərəm ki, həyatımda şəxsən tanıdığım adamlar içərisində heç kəs məndə Pişəvəri qədər xoş təəssürat bağışlamamışdı.

Yuxarıdakı parçalar general Qulam Yəhyanın xatirələrindən götürülmüşdü.

(«General Qulam Yəhyanın xatirələri», Bakı, 2006).

## S.C.PİŞƏVƏRİ HAQQINDA XATİRƏLƏRİMDƏN

### (qısa sətirlər)

Mən S.C.Pişəvərini ilk dəfə Ərdəbildə görüb onunla tanış olmuşam. 1944-cü ilin baharında o, «Sülh uğrunda mübarizə»nin nümayəndəsi kimi Ərdəbilə gəldi, birinci Səfəvi məktəbində geniş məruzə etdi. İkinci gün Ərdəbildə və Astarada olan, zindandan tanış olduğu yoldaşlarları ilə görüşdü.

Təbrizə gedən gün məni görmək istədiyini dedilər. Görüşünə getdim. Məni görən kimi «Mən səni şeirlərindən tanırdım, elə bilirdim sən də mənim kimi saçı-saqqalı ağartmısan, sən lap cavan imişsən. Sənin şeirlərini mən Təbrizdə çıxan «Vətən yolunda» qəzetində oxuyuram, xoşuma gəlir. Dilin sadədir, xalq başa düşən dildə yazırsan...». Ədəbi səpgidə şeir və ədəbiyyat haqqında çox gözəl və dərin mənalı fikirlər söylədi. Axırda: «Biz azad (dövlət tərəfindən idarə olunmayan) ruznamələrin (qəzetlərin) cəbhəsin yaratmışıq. «Ajirin» fars dilində çıxmasına baxma, şeirlərindən göndər çap edək. Tehranda azərbaycanlılar çoxdur,

qoy oxuyub tanış olsunlar...» Mən ağayi Pişəvəriyə xoş və dəyərli fikirlərinə görə təşəkkür etdim və mütləq şeir göndərəcəyimi də dedim və bir neçə şeir də göndərdim. Ancaq gözlədim, şeirlərim «Ajir»də çap olmadı.

1945-ci ilin may ayında Bakıda Azərbaycanda Sovet hökumətinin yaranmasının 25-illiyini bayram edirdilər. İrandan və Təbrizdən də qonaqlar dəvət olunmuşdu. Tehrandan Məlükül-Şura Bahar və Pişəvəri, Təbrizdən müxtəlif təbəqələrin nümayəndələri ilə birlikdə, şairlərdən M.Biriya, M.M.Cavuşi, Əli Fitrət, Ərdəbildən də mən Bakıya dəvət olunmuşduq. Bakıda mehmanxanada Pişəvəri məni görən kimi şair Baharla tanış etdi və sonra mənə dedi, sən mənə 50 tümən verməlisən. Mənim bir şey başa düşmədiyimi görüb güldü. Sonra dedi: - Sənin Ərdəbildən «Ajir»ə göndərdiyin şeirləri mən qəzetdə çap etdim, ancaq qəzetdə Azərbaycan dilində şeir çap etdiyimə görə həmin nömrəni müsadirə etdilər və üstəlik reaksiya 50 tümən də cərimə olundu.

Biz Bakıdan Təbrizə qayıdanda Pişəvəri Tehrana yox, Təbrizə gəldi. Azərbaycan Demokratik fırqəsinin yaranması ilə bağlı işlərlə məşğul oldu, buradakı siyasi-iqtisadi durumu yaxından öyrəndi, xalqın müxtəlif təbəqələrində mövcud olan əhval-ruhiyyəni, arzu və istəkləri öyrəndi.

* * *

1945-ci ilin dekabrın 12-də (21 Azər günü) Milli Məclisin nümayəndələri Təbriz bələdiyyəsinin salonuna yığıldılar. Məclisi ağsaqqallar adından ağayi Şəbüstəri açdı. Sonra Mirəhim Vilayi nümayəndələrin siyahısını oxuyanda adı çəkilən gəlib səhnədə qoyulmuş qurana əlini basıb milli hökumətə sədaqətlə xidmət edəcəyinə and içirdi. Mən də öz növbəmdə gedib qurana and içəndə aşağıdakı şeiri oxudum:

Sən azər oğlusan, məzlumam demə,
Bu el azadlığın sorağındadır.
Mübariz doğulub, mübariz ölmək
Bizim bu ölkənin torpağındadır.

Tənəffüs zamanı nümayəndələr bu şeirə görə gəlib məni təbrik edirdilər. Qurultay 2 gün çəkdi və baş vəziri (naziri) və vəzirləri seçdi. Baş vəzir ağayi Pişəvəri bölgələrdən gəlmiş nümayəndələri 2 gün qəbul etdi, arzu və qeydlərini dinlədi. Ərdəbildən gəlmiş nümayəndələri qəbul edəndə bizə Şahsevən tayfaları ilə dostluq etməyi məsləhət gördü. Sonra üzünü mənə tutub dedi, sən Təbrizdə qal, sənlə söhbətim olacaq. İki gündən sonra getdim görüşdük. Əvvəlcə konqrə haqda fikrimi soruşdu, sonra konqrənin qərarları, xüsusilə Azərbaycan dilinin rəsmi dövlət dili olması haqda olan qərarın xalqın həyatında olacaq təsirini izah edib uşaqların doğma dildə daha tez, daha yaxşı savadlanmasına şərait yaradacağını söylədi. O, elm, mədəniyyət, ədəbiyyat haqqında söhbət açdı, axırda sözünü yekunlaşdıraraq, «dostum M.Biriya indi maarif vəziridir, belə fikirləşirəm ki, sən

ona kömək edəsən, birinci müavin olasan. Onun bu təklifi o qədər gözlənilməz oldu ki, nə deyəcəyimi bilmədim, susdum. Pişəvərinin məndən cavab gözlədiyini görəndə dedim: - «Mən Bakıda 10-cu sinfi qurtarmışam, maarif sahəsində heç vaxt işləməmişəm, bildiyimiz kimi Təbrizdə qocaman müəllimlər var, mən vəzir müavini kimi onlara nə göstəriş verə bilərəm» dedim. O, mənə qulaq asıb dedi: - «Sözlərin düzdür, ancaq biz də dövlət idarə etməmişik, onu da bil ki, inqilab etmək nə qədər çətindirsə onu qorumaq, axıra çatdırmaq ondan da çətindir. İndi biz Milli hökumət qurmuşuq, nə qədər çətin olsa da onu qorumalıyıq, tədbirləri həyata keçirməliyik» deyib, o, fikrə getdi. Mənə elə gəldi ki, o məndən cavab gözləyir. Fikirləşdim ki, bir də təkid etsə razı olmalıyam. Ancaq o cavab gözləmədən dedi, onda M.Çeşmazərlə birlikdə Dövlət Radio Verilişlərinə rəhbərlik elə, çalış verilişlər təmiz Azərbaycan dilində olsun. Özün verilişlərə bax, məqalələri redaktə elə, çünki ziyalılarımız fars dilində təhsil aldıqları üçün yazılarında fars sözləri çox işlədirlər. Bəzən elə olur ki, elə bil yazılar farscadan tərcümə olunub. Mən Pişəvərinin qeydindən sonra radioda işə başlayan kimi verilişdə gedən məqalələri əvvəlcə özüm oxudum, imkan daxilində fars sözlərini Azərbaycan sözləri ilə əvəz etdim. Pişəvərinin bu tapşırığından istifadə edərək radioda ədəbi gecələr təşkil etdik, bu gecələrdə ana dilində yazılmış şeirlər, hekayələr oxundu. Bu da dilimizin səlisləşməsinə və saflaşmasına kömək oldu.

* * *

1945-ci ildə Təbrizdə telefonlar mərkəzlə idarə olunurdu. Danışmaq istəyəndə əvvəlcə telefon mərkəzinə zəng edirdin, istədiyin nömrəni Mərkəz vasitəsilə birləşdirirdilər. Pişəvərinin tapşırığına görə onun baş vəzirlikdəki telefonu bütün vəzirlər ilə ayrıca xətt ilə birləşdirilmişdi. Növbə radio komitəyə çatanda mən telefon ustasını özümlə baş vəzirliyə apardım. Bu zaman onun otağında bir qadın Pişəvəri ilə ötkəm-ötkəm danışırdı (sonradan öyrəndim ki, o Ərdəbilin Yurdçu mahalından məşhur mülkədar Əzəmətxanım idi. O Pişəvəriyə tez-tez ağa Cəddüvə qurban olum deyə müraciət edirdi).

O deyirdi ki, atadan-babadan Yurdçuda 4 kənddə torpaqlarım var. «Nə mənim kəndçilərdən, nə də onlar məndən narazı deyillər. Əkirlər-biçirlər öz haqlarını götürürlər. İndi mahalda söhbət gəzir ki, hökumət bizim torpaqları alıb kəndçilərə paylayacaq. Düzü, mahalda buna inanan da var, inanmayan da. Odur ki, mahalın ağsaqqalları belə məsləhət gördülər ki, həqiqəti mən gəlib sizin özünüzdən öyrənim». Pişəvəri ona dedi ki, milli hökumətin ölkədə islahat keçirmək fikri var. Min illər bundan qabaq şahların qoyduqları qaydalara yenidən baxmalıyıq. Bir iddənin tox, bir iddənin ac qalmasını biz düzgün hesab etmirik. Sizin eşitdiyiniz kimi maliklərin torpağını, xozeyinin fabrikini də əlindən almaq fikrimizdə yoxdur. Biz bu günlərdə ölkənin fabrik, zavod və torpaq sahibləri ilə birlikdə zavod fəhlələrindən, kəndçilərindən nümayəndələri ilə birlikdə yığıncaq çağıracağıq, məsləhətləşəcəyik, nə fəhlə və kəndçilərin, nə də malik və fabrikantların haqqı tapdalanmayan, ümumin xeyrinə bir qanun qəbul edəcəyik ki, hamı razı olsun. Sən

də o məclisdə iştirak edib Yurdçu mahalının ehtiyaclarından danışarsan. Əzəmət xanım Pişəvərinin bu sözlərindən sonra heç nə demədi, razılıq edib getdi. Ancaq zaman Pişəvərinin fəhlə sahibkar, kəndli, ərbab haqqında ədalətli fikrlərinin həyata keçirməsini imkan vermədi...

* * *

1946-cı ilin iyun ayında Təbrizdən Baş vəzirlikdən Tağı Şahinin imzası ilə teleqram aldım (Tağı Şahin vəzirlikdə xüsusi şöbənin müdiri idi). Məni Təbrizə çağırdılar. Məlum oldu ki, o gün saat 5-də Azərbaycan yazıçılar cəmiyyətinin idarə heyəti seçiləcək idi. İndiyə qədər cəmiyyətin binası olmadığından iclaslar «Vətən yolunda» qəzetinin binasında keçirilirdi. Milli hökumət təşkil olandan sonra cəmiyyətə yeni binada yer verilmişdi. Bu yeni binada cəmiyyətin ilk iclasında təzə idarə heyəti seçiləcək idi. İclası cəmiyyətin qocaman üzvü Səffət açdı, sonra Pişəvəri yazıçıları təbrik etdi və yazıçıların qarşısında duran vəzifələrdən danışdı.

Mən sabahısı günü Pişəvərinin qəbuluna getdim, o mənə dedi ki, Tehranda İran yazıçılarının qurultayı olacaq. Oraya Azərbaycandan 3 nəfər dəvət olunub. Biz də belə qə-rara gəldik ki, sən, «Azad Millət» qəzetindən İsmayıl Şəim, bir də fars dili müəllimi Milani qurultayda iştirak edəsiz. Mən Tehranda yaşayan kürdlərin rəhbəri Qaz Məhəmmədin kiçik qardaşı ilə görüşdüm O, mənə dedi ki, Tehran hökuməti Kürdüstana və Azərbaycana qoşun göndərəcək, bu haqda ağayi Pişəvərini xəbərdar edin. Mən Təbrizdə bu xəbəri Pişəvəriyə çatdıranda, Pişəvəri bundan xəbəri olduğunu dedi.

* * *

1946-cı ilin payızından başlayaraq gərginlik daha da artdı, Tehran radiosu demək olar ki, hər gün Azərbaycanın əleyhinə verilişlər verir, Pişəvəri də Təbriz radiosundan onları ifşa edən çıxışlar edir və bu çıxışlar «Azərbaycan» qəzetində dərc olunurdu. Tehran hökuməti seçkilərə nəzarət etmək adıyla Təbrizə qoşun hissələri göndərməsini tələb edirdi, Pişəvəri onların işğalçılıq niyyətlərini bildiyi üçün Azərbaycan özü seçkiləri keçirəcəyini deyirdi. Moskva Qəvəmül-Səltənənin şimaldakı neft haqda onlara verdiyi vədə inanaraq Pişəvərinin şah qoşunun Təbrizə seçkilərə nəzarət üçün gəlməsinə razı olmasını istəyirdi və bu işdə təkidli idi. Sovetlərin bu təkidi nəticəsində şah qoşunu Zəncana gəldi və bu işğalçı qoşun gələn kimi Zəncanda demokratlara və əhaliyə divan tutmağa başladı. Bu zaman, vəziyyətin gərginləşdiyini görən Pişəvəri Milli Məclisin iclasını çağırdı. Bu məşvərət iclasına Milli Məclisin Təbriz və Təbriz ətrannda olan nümayəndələri toplandı. Pişəvəri vəziyyəti qısa şərh edərək sonra milli Məclisin üzvlərinin fikirlərini soruşdu. Nümayəndələr hamısı bir nəfər kimi düşmənə müqavimət göstərilməsini və milli hökuməti müdafiə etmək qərarında olduqlarını bildirdilər. Bu qərardan sonra hərbi hazırlıq gücləndirildi, Təbriz ətrafında səngərlər qazıldı, milli qoşun mübarizəyə hazır vəziyyətinə gətirildi.

Pişəvəri hər gün saat 18:00-da hökumət binasının balkonunda çıxış edib əhalini baş verən hadisələrlə tanış etməyi və eyni zamanda düşmənə cavab

verməyə hökumətin qadir olduğundan heç bir nigarançılığa səbəb olmadığını deyirdi. Tehranda və Təbrizdə olan sovet hökumətinin konsulluqları isə onun Təbrizdən çıxmasını istəyirdilər. Belə ağır günlərin birində mitinqə yığışanlara Biriya müraciət edib əhalini sakitliyə dəvət edərək şah qoşunlarının Təbrizə seçkiyə nəzarət etmək üçün gəldiyini və bunun heç bir nigarançılığa səbəb olmadığını, onların seçkidən sonra gedəcəyini dedi. Əslində bu xəbər şəhərdə daha çox nigarançılığa səbəb oldu. İkinci gün də Biriya çıxıb həmin sözləri təkrar edəndə əhali Pişəvərinin Təbrizdə olmadığını anladı və sonrakı gün mitinqə gələn olmadı.

Mən bu olaylardan sonra müəyyən müddət gizli yaşadıqdan sonra Bakıya gəldim... Mən Bakıya İçəri Şəhərdə Əli Tudənin yaşadığı evə köçdüm. May ayının son günləri idi, havalar artıq qızışmışdı. Bakıda olan fədayi və tələbə yoldaşlarım çoxu hər gün axşamüstü dəniz kənarı parka çıxırdı. Bura bir növ cənubluların görüş yeri idi. Bir gün Əli ilə axşamüstü sahildən evə gələndə qonşumuz dedi ki, sizin yoldaşlardan bir nəfər gəlmişdi, sizi xəbər aldı. Gedəndə dedi ki, evdə olsunlar yarım saatdan sonra gələcəyəm. Biz yarırn saatdan sonra qapıda MH-nin maliyyə naziri ağayi İlhamini görəndə təəccüb etdik, görüşəndən sonra İlhami dedi:

- Ağayi Azəroğlu, mən sizin dalınızca gəlmişəm, aşağıda maşın gözləyir, zəhmət olmasa geyinin gedək. Sonra da Əliyə, «yoldaş Tudə, Azəroğlu axşam gec gəlsə darıxmayın.» - dedi. Bu sözləri yaxşı tanıdığım İlhami dediyi üçün heç nə soruşmadan onunla getdim. Küçədə maşın var idi, içəridə Ağayi Qiyami oturmuşdu, görüşdük. Biz oturandan sonra maşın hərəkət etdi, yenə hara getdiyimizi bilmədim. Maşın şəhərdən çıxıb Mərdəkan yolu ilə hərəkət edəndə fikirləş-dim ki, yəqin «Yaşıl bağ»a, gedirik. Bəlkə Təbrizdən təzə gələn var, görüş olacaq. Mən sonradan öyrəndim ki, getdiyimiz bağ M.C.Bağırovun Zuğulbadakı bağı imiş. Biz ora çatanda həyətdə MH-nin vəzirlərini, generallarını gördüm. Biriya, M.Rəhim, Mirqasım, şairlərdən S.Vurğun, S.Rümtəm bir tərəfdə dayanıb söhbət edirdilər. Görüşəndən sonra Mirqasım yavaşdan qulağıma dedi ki, heç bilirsən bizi bu dəniz kənarındakı bağa niyə toplayıblar? Mən dinmədim. O dedi: - «Əvvəlcə bizi aparıb görünən dənizdə yaxşıca isladıb sonra yaxşıca şallaq vuracaqlar ki, nə üçün vuruşmadınız, milləti, Vətəni qoyub gəldiniz». Əlbəttə bu sözlər zarafat idi. Ancaq MH-in vəzirlərini, generallarını bir yerdə görəndə adam fikirləşir ki, doğrudan da bunların vətəni qoyub qaçmasına heç cürə haqq qazandırmaq olmazdı. Ancaq məsələ heç də belə deyildi, onları təpədən-dırnağa qədər silahlanmış şah ordusunun qarşısını almaq üçün sərhəddəki cəbhədən zorla geri çağırmışdılar. Niyə? Bunu Moskva bilirdi...

Qonaqlar həyətdə çox da gözləməli olmadılar. Qarşıdakı otaqda qabaqda M.C.Bağırov, yanında ağayi Pişəvəri, Padiqan, Cahanşahlu, general Kaviyan, general Qulam Yəhya, onlarla bərabər nazirlər Sovetinin sədri Teymur Quliyev və başqa vəzifəli şəxslər gəldilər. Bağırov həyətdə onları gözləyən qonaqlarla

təkbətək görüşəndən sonra hamını otağa dəvət etdi. Onun qısa çıxışından bu məclisin ancaq tanışlıq mənası daşıdığı məlum oldu. O, ilk sözü Pişəvəriyə verdi. Pişəvəri əvvəlcə yoldaşlar adından və öz adından ev sahibinə təşəkkür etdi və sonra hadisələrin Təbrizdə bu gün baş verdiyi şəkildə olacağının əvvəlcədən məlum olduğunu və milli hökumətin Təbrizi tərk etməyə məcbur edilməsinin düzgün olmadığını, hadisələrin bügünkü şəkildə nəticələnməsini yerində şərh etdi. Pişəvərinin çıxışı Bağırovun gözlədiyinin əksinə olsa da o, narazılığını büruzə vermək üçün, görək ağayi Padiqan nə deyir - Padiqana söz verdi. Padiqan Pişəvəri kimi acı danışmasa da o da hadisələrin bu şəkildə olmasından narazılığını bildirdi. Sonra Qulam Yəhya fədeşlər adından danışdı. Bağırov məclisin onun istədiyi kimi getmədiyini, görüb istiqaməti dəyişmək üçün şeirlərə söz vermək qərarına gəldi. İlk sözü Səməd Vurğuna verib, «Yandırılan kitablar» şeirini oxumasını dedi. Ancaq S.Vurğun şeirin yanında olmadığını və əzbər bilmədiyini deyib üzr istədi. Səməd hətta ayağa qalxıb başqa bir şeir oxuyub və sağlıq da demək istəmədi. Onun bu hərəkəti Bağırova möhkəm toxunsa da, pərtliyini büruzə verməmək üçün sözü həmin məclisdə iştirak edən fars şairi Jaləyə verdi. Jalə fars dilində bir şeir oxudu. Şeiri onunçun tərcümə etdilər. Sonra S.Rüstəmə söz verdi, Süleyman «Təbrizim» şeirini oxudu. Sonra da üzünü Biriyaya tutub dedi, mənim adıma göndərdiyin şeiri burada oxu, qoy məclisdəkilər eşitsin. Buriya şeiri əzbərdən oxudu. Bağırov ona dedi ki, mən səndən belə sızıltı, acizlik gözləmirdim. Biriya şeirdə yazmışdı «Teymurun, Çingizin zülmü yalandı, cəsədlər üstündə tonqal qalandı...» Bu Bağırovun xoşuna gəlməmişdi. Axırda üzünü mənə tutub dedi, görək Azəroğlu nə deyir. Mən aşağıdakı 4 misra şeiri oxudum:

Sən Azəroğlusan, məzlumam demə,
Bu el azadlığın sorağındadır.
Mübariz yaşayib, mübariz ölmək
Bizim bu ölkənin torpağındadır.

Mən şeiri oxuyandan sonra o dedi: - Əlbəttə, mübariz yaşamağı, mübariz ölməyi bacarmaq lazımdır. Biriyaya müraciətlə deyilən bu sözlərin bütün məclisə aidiyyəti var idi.

Məclis gecədən xeyli keçmiş qurtardı. Adamların əhvali-ruhiyyəsindən hiss olunurdu ki, Məclis gözlənilən nəticəni verməmişdi. Ev sahibinin giriş sözündən özündən razılıq hiss olunurdu. O özü də Pişəvəridən belə narazı çıxış gözləmirdi. Padiqanın, Qulamın çıxışları xoşuna gəlməmişdi. Üzə vurmasa da S.Vurğunun şeir oxumaması da ona toxunmuşdu. Bəlkə elə buna görəydi ki, Biriyanın sızıltılı şeirini bəhanə edərək onu da tənqid etdi. Milli hökumətin generalları da məclisdə özlərini məğlub qoşunun başçıları kimi hiss etdilər. Halbuki, onlar cəbhədən sorğu-sualsız geri çağırılmışdılar. Cəbhədən Təbrizə, Təbrizdən Bakıya gəlmələrinin mahiyyəti o günə qədər onlara məlum deyildi. Bir sözlə tanışlıq, şadlıq üçün

qurulmuş məclis kədərli notlarla başa çatdı. Məclis o axşam gecədən xeyli keçəndə qurtardığından mən Bakıya yox, Kaviyan ilə Mərdəkana getdim.

Kaviyanın ailəsi şəhərdə havalar isti olduğundan şəhərdəki evlərinə köçməmişdilər. Səhər Səkinə xanım məni görəndə çox sevindi: - «Yaxşı eləyib gəlmisən, deyirlər şəhərdə çox istidir, inşallah sentyabrda bizimlə birgə köçərsən» dedi. Bakının, xüsusən İçəri Şəhərdəki evimizin istisi məni o qədər narahat etmişdi ki, mən bu təklifə ürəkdən razı olub şəhərə köçənə qədər onlarda qaldım.

* * *

Mədinə Gülgün Pişəvəri ailəsinə çox yaxın idi, hələ Təbrizdə olarkən o ailəyə get-gəli var idi. Bakıya köçəndən sonra o, bəzən məni Pişəvərigilə aparırdı. Mən onlara gedəndə hər dəfə o, Firqə rəhbərlərindən, generallardan Pişəvəri ilə söhbət etdiklərinin şahidi olurdum. Söhbət əsasən Pişəvərinin Moskvaya gedib Stalin ilə görüşməsindən olurdu. Hər dəfə də o, Bağırovun, «zəng edib demişəm, gözləyək, xəbər gələn kimi gedərsən» vədindən əsəbi halda danışırdı. Bir dəfə Mədinə ilə mən yenə Pişəvərigildə idim. General Azər ilə general Pənahiyan gəldi. Biz durub getmək istəyəndə Pişəvəri mənə dedi: - Sən otur, bizim millətdən gizli söhbətimiz yoxdur. Söhbət Moskvadan gözlənilən xəbərdən başladı, general Azər dedi - «mən Moskvadan heç bir müsbət xəbər gözləmirəm. Qəvam Moskvanı öz yalan vədi ilə aldatdı, Moskva milli hökuməti qurban verdi. Biz də sərhədləri açıb ölkəni işğalçılara təhvil verdik. Mən, neçə gün qabaq Bağırovla keçirilən görüşə qədər yeni bir fərman olacağına inanırdım, artıq o inam da yox oldu. Mən indi Molla Mustafa Bərzaninin fədailərinin müxtəlif rayonlarda kolxozlarda işləməsinə etiraz edib öz adamlarını Azərbaycandan apardığını gördüm. Biz isə rayonlara paylandıq, əlimizdəki silah külüng və bel ilə əvəz oldu...» (Mən Azərin bu alovlu, etiraz çıxışını dinlədikcə onun Xalxal döyüşündə düşmən güllələrinə məhəl qoymadan həmişə səngərdən çıxıb Fədailər qarşısında öndə getdiyi haqda xəbərləri xatırladım...)

Azəri diqqətlə dinləyən Pişəvəri Pənahiyanın nə deyəcəyini gözləmədən dedi: - «Mən də bilirəm Moskvadan gözlədiyiniz müsbət cavab gəlməyəcək. İndi bütün yollar-izlər qarla örtülüb, yaxşı olar ki, novruz bayramınacan gözləyək, baharda fədaiyi başçıları və əsgərlərlə yığışıb son qərara gələrik. Atalar sözüdür: «Özü yıxılan ağlamaz» mən gərək Təbrizdən çıxmayaydım. Döyüşdə ölmək şərəfini də əldən verdik...» S.C.Pişəvərinin hüzurunda o axşamkı söhbət beləcə qurtardı...

Novruz bayramından bir ay sonra xəbər yayıldı ki, Gəncədə və Şəkidə fədai dəstələri yaranıb təlim keçirlər. Ümidimizi doğruldan bu xoş xəbər bütün mühacirlərin sevincinə səbəbə oldu. Hamı vətənə qayıtmaq haqqında düşünürdü. Ancaq həmişə xoş xəbəri izləyən bir acı xəbər də olur... Bir gün sevincimizi-arzularımızı yarıda qoyan, Pişəvərinin ölüm xəbəri hərəmizin qəlbində uzun illər yaşayan bir dərd oldu. Bu ölüm hadisəsinə inanmayanlar daha çox oldu. Çünki hadisənin şərhinə düzülüb qoşulan rəvayətlər heç bir məntiqə əsaslanmırdı...

Rəhbərin bu vaxtsız, təsadüfən ölümü bütün qəlblərdə doğulan ümidi ümidsizliyə çevirdi. Onun vəfatından sonra fədailər yenə də silahı külüng və bel ilə əvəz etdilər. Sadıq Badeqan sədarət mizində oturdu, vətənə qayıtmaq gündəlik cari işlərlə əvəz olundu. Cəmiyyətdə olan bu susluqdan «anti-partiya», «likvitator» kimi cərəyanlar meydana gəldi. Təbrizdə milli-azadlıq hərəkatında fəal iştirak edən, milli hökumət zamanı firqənin təşkilat işlərinə rəhbərlik eləyən S.Padiqan firqə daxilində başlayan cərəyanın qurbanı oldu. O, «Firqəyə rəhbərlikdə zəiflik göstərdiyi üçün», bu adla sədrlikdən götürüldü, Qulam Yəhya sədr seçildi. Bu dəyişiklik daxili ziddiyyəti daha da artırdı. Əvvəlcə cavanlar «Gənc qvardiya» dəstəsi yaradıb vətənə gedib daxildə mübarizə aparmaq istədilər. Onları vaqonlarla Qazaxıstanın «Çimkənd» vilayətinə göndərdilər. Sonra milli hökumətə köməyə gəlmiş əfsərlər Bakını tərk edib Moskvaya getdi. Həsən Nəzəri əvvəl Şərqi Berlinə, oradan da qərbi Berlinə getdi. Milli hökumətdə sədr müavini olmuş Cahanşahlu əvvəlcə Moskvaya köçüb, bir müddət orada yaşayandan sonra Fransaya-Paris şəhərinə pənahəndə oldu. Biriya ailəsini Bakıya gətirmək adıyla Təbrizə qayıtmaq istədi, Sibirə göndərdilər. Beləliklə dəyərli kadrlar sıradan çıxarıldı. Fədayilərin başçısı Qulam Gəncə və Şəkidən fədailəri yenidən kolxoz və sovxozlarda işə qaytardı.

İllər keçdi, bir gün Bakıda qəzetlərin birində (qəzetin adı yadımda deyil) Həsən Nəzərinin Almanda çap etdiyi xatirəsindən bir parça çap olundu. Bu məqalədə H.Nəzəri Pişəvərinin ölümü haqqında öz mülahizələrini yazmışdı. Bir çoxları kimi Həsən Nəzəri də xatirəsində Pişəvərinin ölümünü adi hadisə kimi qəbul etmirdi. Pişəvərinin ölümünü adi hadisə etmiyənlərdən biri də Milli hökumətin üzvlərindən, baş nazirin müavini Cahanşahlu o hadisədən sonra Azərbaycanda qalmadı. O, Parisdə olduğu vaxt Qərbi Berlində olan «Azadlıq» radiosuna verdiyi müsahibəsində Milli hökumət və onun fəaliyyəti ilə əlaqədar gördüyü, daha doğrusu iştirakçısı olduğu hadisələri olduğu kimi şərh etdi. Pişəvərinin ölümü ilə əlaqədar öz şəxsi fikrini də söylədi və tarix bir gün bu şübhəli ölümün üzərindən sirrli pərdəni açacağını da dedi. Mən Cahanşahlunun adı çəkilən həmən çıxışını radioda eşidəndən sonra Pişəvərinin ölümü ilə əlaqədar xalq arasında danışılan sözlərin rəvayət yox, həqiqət olduğuna inandım.

* * *

Moskvadan Bakıya gəlib respublikada Bağırovun işlərini yoxlayan, daha doğrusu onu mühakimə edən komissiyanın iclası indiki Şəhriyar adına klubda gedirdi. Məhkəmə zalına adamlar xüsusi buraxılış vərəqəsi ilə gedə bilirdilər. Mən 2 dəfə həmən məhkəmə iclasında iştirak etdim. Onların birində hakim Bağırova Pişəvərinin ölümü ilə əlaqədar suallar verdi. Bağırov hadisəni o zaman xalq arasında yayıldığı kimi izah etdi. (Pişəvəri Gəncədəki fədailəri yoxlamaq üçün Gəncəyə gedir, səhər ordan Şəkidəki fədailərə baş çəkmək üçün gedərkən onun maşını xoda düşmür. Onunla Gəncəyə başqa maşınla gedən Qulam Yəhya ilə Nuri Quliyev onu öz maşmların dəvət edirlər. Haman maşın Gəncə Yevlax yolunda qəzaya uğrayır. Qəza zamanı maşında olan 3 nəfər huşunu itirir, Pişəvərinin başı və

sinəsi əzilir. Maşında olanlardan ancaq Pişəvəri özünə gələndən sonra yoldan gələn maşını saxlayır, onları Yevlax xəstəxasına çatdırırlar...) Bağırov hadisəni izah edəndən sonra dedi; «Yevlaxdan bu xəbər mənə çatan kimi Yevlağa vertolyot ilə həkim briqadası göndərdim, çox təəssüf ki, Pişəvərini xilas etmək mümkün olmadı. Mən, hətta o qəzanı törədən sürücünü çağırıb onu özüm danışdırdım. Ancaq heç bir şübhə doğuran hal hiss etmədim».

Pişəvərinin ölümündən sonra Gəncədə və Şəkidəki fədai düşərgələri dayandırıldı, Fədailər geri çağırılıb öz adi işlərinə göndərildi. Bu haqda düşünəndə adam belə qərara gəlir ki, bu fədaiyi dəstələri məhz Pişəvərinin təkidi ilə yaradılmışdı. Pişəvəri öldü, düşərgələr də dağıdıldı. Bağırovun o günkü məhkəmə iclasından yadımda qalan onun 2-3 dəfə «Məni 4 yerə parçalamaq lazımdır» deməsi oldu. Fikirləşəndə ilk növbədə onun ətrafına toplanmış erməni cəlladlarının əli ilə öldürülən vətən oğullarının ölümünə çıxarılan hökmlərə onun imza atması və ya Moskvaya inanması, Azərbaycana, millətə edə biləcəyini etməməsi kimi suallar hər birimizi düşündürür.

Məhkəmə son iclasında çıxarılan qərarda Bağırovun «Günahları» sadalanaraq onun güllələnməsini tələb edir (əslində o, Rusiyanın başqa şəhərindəki həbs düşərgəsinə göndərilmişdi).

## SEYİD CƏFƏR PİŞƏVƏRİDƏN XATİRƏLƏR

1920-ci ildən S.C.Pişəvərini tanıyan, «Ajir» qəzetinin nəşrində S.C.Pişəvəri ilə birgə çalışmış Kərim Kəşavərzin S.C.Pişəvəri haqda xatirələri disketə yazılmış, mətni müəllifin vəfatından sonra Nemət Lalei tərəfindən çapa təqdim edilmişdi. S.C.Pişəvərini yaxşı tanıyan və onunla bir müddət həmkarlıq etmiş Kərim Kəşavərzin «Seyid Cəfər Pişəvəridən xatirələr» başlıqlı yazısını kiçik ixtisarla təqdim edirik.

K.Kəşavərz yazır: Mən Seyid Cəfər Pişəvərini Gilan inqilabı vaxtından tanıyıram. O, Gilan Respublikasında Daxili İşlər Komissarı idi. Hərəkatda tünd və əyri xətt tutmuşların, bəzi «Ədalətçi»lərin yanlış hərəkətlərinin qabağını almaqla «Daş imarət» adlanan binanın balkonundan etdiyi nitqlər önəmli olmuşdur. O, Ağayevlər və digər bəzi «ədalət»çilərdən fərqli olaraq fars dilini yaxşı bilirdi. Mənim onunla tanışlığım Gilanda olsa da birgə əməkdaşlığımız «Ajir»dən başlamış, sonralar bu əməkdaşlıq dərinləşmiş və 14-cü Məclisə seçkilərədək bilavasitə davam etmişdi.

Jurnalistika sahəsində stajım olsa da bu sahədə mən S.C.Pişəvəridən çox şey öyrəndim - qəzet çıxartmaq, məqalə yazmaq, baş məqaləni necə hazırlamaq, xəbərləri necə tərtib etməkdə və s. mən ondan çox şey öyrəndim... Çoxları «Ajir»i sanballı qəzet sayırdı. Buna baxmayaraq onun satışı az olurdu, çünki polis rəisi Abbas Məsudi qəzetin satışına və yayılmasına hər vasitə ilə mane olurdu. Bu cür münasibət bəzi məsələlərdə Hizb Tudəyə müxalif olduğumuza görə onun rəhbərliyi tərəfindən də edilirdi.

Pişəvərinin Məclisdə mandatının təsdiqi gizli səsverməyə qoyularkən Məclisin bitərəf üzvləri Pişəvəriyə səs verdikləri halda, Hizb Tudənin Məclisdəki fraksiyasının iki üzvü: İyrəc İsgəndəri və Pişəvəri ilə hələ zindandan ixtilafı olan Ardaşest Ovanesyan Pişəvəriyə səs verməmişlər (müəllif bunu ehtimal edir - Ə.R)

K.Kəşavərz Pişəvərinin mandatını rədd etmək üçün pərdə dalındakı oyunlardan xəbərsiz olduğunu yazır. O, S.C.Pişəvəri ilə həmkarlığını Pişəvəri Azərbaycana həmişəlik gedənə qədər davam etdirmişdi. 1945-1946-ci illərdə Azərbaycandakı siyasi olaylardan kənarda qaldığını etiraf edən K.Kəşavərz S.C.Pişəvəri ilə dostluq əlaqəsini saxladığını yazır.

K.Kəşavərz «Ajir» qəzetinin nəşri üçün mövcud çətinliklərdən danışarkən qəzetin öz binasının olmadığını xatirədə yada salaraq deyir: «Ajir» Ümid Nurinin müdir olduğu «Dad» qəzetinin mətbəəsində çap edilirdi. Ümid Nuri, məncə Pişəvəri ilə hələ Kaşandan tanış idi. «Ajir»dəki məqalələrin mətnini Pişəvəri və mən tərtib edirdik. İki gənc tələbə korrektorda bizə kömək edirdilər»...

K.Kəşavərz daha sonra yazır: «Pişəvəriyə aid sözüm çoxdur. Mən gərək onun bir qismini deyəm: «O, huşlu-başlı, çox düz və insaflı adam idi. Güman edirəm ki, bir vaxt o, iranlıların Bakıda olan məktəbində müəllim olmuş, «Ədalət» partiyasına üzv olduqdan sonra Moskvada ali ictimai məktəbi bitirmiş, həm də jurnalistika üzrə təhsil almışdı»...

S.C.Pişəvərinin zindandan sonrakı illərdə maddi vəziyyətindən və dolanışığından bəhs edən K.Kəşavərz deyir: «ömrünün sonunadək deyə bilərəm ki, Pişəvərinin heç nəyi olmamışdı, onun mühəndis Şəqqaqinin indiki Vəliəsr meydanındakı mülkündə kiçik bir evi var idi... Onu da, güman edirəm Pişəvəri zindanda olarkən xanımı dərziliklə əldə etdiyi vəsaitlə almışdı. Pişəvəri Kaşan sürgünündən bu evə qayıtmışdı.

Pişəvəri yazıçılığın müxtəlif sahələrində çox istedadlı idi. Ancaq onun və mənim müştərək dostumuzun dediyi kimi, «Ajir»də təkmil çap olmuş, zindan xatirələrindən başqa demək olar ki, bütün yazılan tamamlanmamışdı. Yüz səhifəlik «Ədalət partiyası tarixi» və «53-lərə» aid yazı həmin yarımçıq qalmış işlər sırasındadır...

«Ajir» irtica ilə yanaşı Xalq partiyasının bəzi şəxsləri tərəfindən də hücumlara məruz qalırdı. Bu hücumlardan birinə də bəhanə o zaman Rza xanın ölümü münasibəti ilə S.C.Pişəvərinin «Ajir»də çap etdirdiyi məqalə olmuşdur. Bu haqda çox söz-söhbət olmuş, şayiələr yayılmışdı. K.Kəşavərz qeyd edir ki, Pişəvəri Rza xanın ölümü ilə bağlı yazısında onu «fövqəladə qeyri adi», eyni zamanda «hiyləgər» adam adlandırmışdı. Hizb Tudənin qəzetləri və A.Ovanesyan kimi rəhbərləri (başqaları da) iddia edirdilər ki, Pişəvəri şah ailəsinə ünvanladığı «başsağlığı» məqaləsində guya Rza xanı «dahi» (nabiğə), «fövqəladə şəxsiyyət» adlandırmışdı. K.Kəşavərz bu ifadələrin S.C.Pişəvərinin yazısında olmadığını və başqa mənada ifadə olunduğunu yazır. (A.Ovanesyan və ona qoşulan İXP başqa rəhbərləri «başsağlığı» yazısının məzmununu təhrif etməklə kifayətlənməyib, İXP

ilə əlaqəsini 1943-cü ildən kəsmiş S.C.Pişəvərini İXP sıralarından çıxartmaq haqda partiyanın qurultayında xüsusi qərar qəbulu edirlər - Ə.R)

K.Kəşavərz yazır: «Pişəvəri Gilan inqilabından sonrabir neçə ay Tehranda «Həqiqət» qəzetini çap etdirmişdi. Xalqın və zəhmətkeşlərin oyanışında bu qəzetin yetərincə payı və çoxlu oxucusu olmuşdur. Məncə o qəzeti Qəvam-səltənə bağlatdırmışdı. Bundan sonra Pişəvəri «Həqiqət»in müdiri olmuş, mərhum Lesaninin çap etdirdiyi «İran iqtisadiyyatı» qəzetində onunla həmkarlıq edib, məqalələr yazmışdı...

Azərbaycan Demokratik Firqəsindən sonra Pişəvəri Bakıya getdi və onun ölümü ilə bağlı çox söz-söhbət olmuş, bu haqda neçə kitab və dərgilərdə yazılar verilmişdi ki: «O, ölüb, ya öldürülüb?». Pişəvərinin yeganə oğlu Daryuş atasının vəfatından sonra Bakını tərk edib Almaniyaya getmiş sonrasını bilmirəm. Pişəvərinin həyat yoldaşı, Daryuşun anası neçə il bundan qabaq İrana qayıtdı. Pişəvəri ailəsinə hörmət qail olan mühəndis Şəqqaqi və onun kimi dostlar yəqin ki Pişəvəri ailəsinə yaşayış üçün müəyyən şərait yaratmış olarlar. Bu haqda da məlumatsızam. Bildiyim budur ki, mühəndis Şəqqaqi neçə il bundan əvvəl dünyasını dəyişmişdi. O, çox yaxşı, xeyirxah adam və yaxşı mühəndis idi və Pişəvəriyə hörməti var idi.

KƏRİM KƏŞAVƏRZl

K.Kəşavərzin Pişəvəri haqda xatirələri Tehranda çıxan «Buxara» dərgisinin 1378-ci il 2 sayında dərc olunmuşdur.

## PROFESSOR CƏMİL HƏSƏNLİ S. C. PİŞƏVƏRİ HAQDA YAZIR

«21 Azər» Azadlıq hərəkatının mənəvi lideri, rəhbəri və simvolu şübhəsiz ki, S.Pişəvəri idi. Onun Azərbaycan milli hərəkatının və Azərbaycan Demokratik Partiyasının rəhbəri kimi olan böyük əməyi unudulmazdır. Öz istedadı, şəxsi keyfiyyətləri, təşkilati xüsusiyyətləri ilə, vətəninə olan məhəbbəti və xalqına olan sədaqəti ilə Azərbaycan tarixində silinməz iz qoymuşdur. Bəli, o Sovet hökümətinin köməyinə malik idi, amma onu Azərbaycan xalqının Cənubi Azərbaycanın azadlığı haqqında olan arzusunu həyata keçirmək üçün istifadə edirdi. Həmçinin o, müharibədən sonrakı dövrdə, xüsusi ilə «21 Azər» hərəkatının süqutundan sonra Sovet hakimiyyətini açıq tənqid etməyə cürət edən ilk siyasi xadimlərdən biri idi. Bakıdakı bir neçə aylıq mühacirətı zamanı o, dəfələrlə yüksək rütbəli sovet rəhbərlərinə onların əvvəlki vədlərini yada salırdı. Bu tənqid, Tehran və Təbrizdən diplomatik kanallardan gələn kompromat ilə birlikdə Azərbaycan diplomatına çox baha başa gəlmişdir. Onu sakitləşdirmək üçün 1947-ci ilin mayında Cənubi Azərbaycana fədai dəstələrini göndərmək üçün xüsusi gizli komitə yaradılmışdır. Bu komitə tərəfindən seçilmiş fədailər iki məntəqədə - Şəki və Hacıkənddə cəmlənmişdir. Bu komitənin sonuncu iclası 1947-ci il mayın 23-də keçirilmişdir. Tələsik yaradılmış dəstələrinin İrana göndərilməsindən əvvəl onların

Pişəvəri ilə görüşməsi və son nəsihətlərinin verilməsi qərara alınmışdır. 11 iyun sübh çağı Gəncə şəhərinin yaxınlığında Yevlax-Gəncə trasının 14-cü kilometrində onun avtomobili qəzaya uğradı və bir neçə saatdan sonra Pişəvəri Yevlax mərkəzi xəstəxanasında vəfat etdi. SSRİ-nin müharibədən sonrakı dövründə avtomobil qəzalarında həlak olan məşhur adamların, siyasi xadimlərin həlak olunmasına dair bir neçə halları yada salmaq olar.

Pişəvərini Bakıda dəfn etməyə icazə vermədilər. Onu səssiz-səmirsiz Buzovnadakı belə adlanan «Nobel» bağında torpağa tapşırdılar. Baş daşı qoymağa da icazə vermədilər, Qəbrinin üstündə məzarını gizlətmək üçün gül əkdilər. Ancaq Azərbaycan Demokratik Partiyasının müraciətindən sonra Pişəvərinin cənazəsi Bakıda Fəxri xiyabanda yenidən torpağa tapşırıldı.

Pişəvərinin ölümü haqqında eşidən Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin işçiləri onun Yazıçılar İttifaqındakı kabinetində axtarış apardılar, onun əlyazmalarını müsadirə etdilər. Əlyazmalan arasında ikinci cildi tamamlanmamış, «İran Azərbaycanında demokratik hərəkatın tarixi» var idi. Hər iki cildin üzərində DTK-nın məsul işçisinin əlyazmanın məzmunu ilə tanış olması haqqında sərəncamı vardır.

Azərbaycanın Mərkəzi Komitəsinin Moskvaya göndərdiyi yalnız bir sənəddə Pişəvərinin «gözlənilməyən» ölümü haqqında ehtiyatlı şübhələr bildirilmişdi. Bu, Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi M.Suslova 16 avqust 1954-cı ildə Azərbaycanın Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi İ.Mustafayevin göndərdiyi beşsəhifəlik məktubundan sezilir. AKP MK katibinin məktubunda Azərbaycan Demokratik Partiyasında olan vəziyyət qiymətləndirilərək yazılır ki, «ADP-nın banisi Pişəvərinin 11 iyun 1947-ci ildə çox müəmmalı şəraitdə avtomobil qəzası nəticəsində vəfat etməsindən sonra Azərbaycan SSR Yevlax şəhəri ərazisində 1947-ci ilin sonunda Sov. İKP MK-nin icazəsi ilə demokratlar arasında siyasi və təşkilatı işi aparmaq üçün Azərbaycan Demokratik Partiyasının Komitəsi yaradılmışdır».

Bu, yüksək rütbəli siyasi rəhbərlərin Pişəvərinin ölümünun şübhəli şəraiti haqqında olan yazışmada yeganə ifadə idi. Lakin bütün xırdalıqlara əhəmiyyət verən Moskva bu dəfə İ.Mustafayevin bu sərt ifadəsinə fikir verməməyə üstünlük verdi.

1954-cü ilin aprel ayında Mir Cəfər Bağırovun məhkəməsi zamanı Pişəvərinin ölümü haqqında da məsələ üzə çıxdı. Şahid qismində Pişəvərinin son dəqiqələri zamanı yanında olan Yevlax DTK-nın sədri L.Salahov dindirilmişdir. M.C.Bağırovun bu məsələyə aidiyyəti öz təstiqini tapmadığına görə və bütün işlərin Moskvaya aparıldığı üçün işi ört-bastır etdilər. Lakin Pişəvərinin ölümünün səbəblərini araşdıran DTK məsul işçisi Moskvada işgüzar məzuniyyət zamanı orada müəmmalı şəraitdə vəfat etmişdir.

Pişəvərinin ölümündən sonra da ona və onun partiyasına yönələn hücumlar səngimədi. 1950-ci ildə M.İ.İvanov İran Kommunist Partiyasının fəaliyyətinə həsr

olunmuş və Sov. İKP nəzdində olan İctimai Elmlər Akademiyasında müdafiə etmiş dissertasiyasında Cavadzadəni (Pişəvərini) öz vətəninin düşməni adlandırmışdır. Hələ sağlığında M.Bağırov Q.M.Malenkova yazdığı məktubda məsələnin bu cür qoyulmasına qəti etiraz etmişdir. O, Pişəvərinin adının İranda çox tanındığını və pərəstiş edildiyini, onu düşmən adlandıran insanları İran irticasına yaxşı xidmətdə suçlamışdı. M.C.Bağırovun məsələyə bu cür yanaşmasını müəyyən məqsədlə əlaqələndirirlər. Pişəvəri adının ətrafında böhtan kampaniyası «Tudə» partiyası tərəfindən aparılır. O, bu provokator və məkrli əməlləri ilə.... fikir və məqsədlərini asan yolla həyata keçirmək üçün təsadüfi olmayaraq, qəsdən inqilab hərəkatının aktiv xadimlərinə İranda böhtan atmağa, xüsusilə Pişəvərinin siyasi reputasiyasına kölgə salmaq və onun nüfuzunu sarsıtmaq istəyirlər. Geniş xalq kütlələri arasında Pişəvəri haqda yaşayan xoş xatirələri silməyə çalışırlar».

Yuxarıdakı yazı professor C.Həsənlinin «SSRİ-İran-Azərbaycan böhranı vo soyuq müharibənin başlanması (1941-1946)» kitabından götürülmüşdü.

Moskva, 2006

## O, ZİNDANDA DA BİR «MƏKTƏB» İDİ

### (Doktor Salamulla Cavid S.C.Pişəvəri haqqında)

...Zindanın 7-ci koridorundakı kameralar dolduğundan orada siyasi məhbuslardan 2 nəfərin bir kamerada yaşamasına icazə verildi. Xoşbəxtlikdən ağaye Pişəvəri bir müddət mənimlə bir kameraya düşdü.

Pişəvəri ilə mənim tanışlığım lap cavan yaşlarımdan üzü bəri idi. Həm də biz həmkəndli idik. Onunla «İttihad» məktəbindən, Ədalət firqəsindən tanış idim. Mütaliəni çox sevən, iti düşünən, dönməz və bir qədər də emosional adam idi. Onunla zindan həyatındakı yaxınlığını mənə onu daha yaxşı tanımağa imkan verdi.

Bizim Qəsr-Qacar zindanında yatdığımız zaman Pişəvəri və onun həmfikirləri əhatəsində olmaq, onların məfkurə və mübarizə amallarını bölüşmək doğruda da əvəzsiz məktəb idi. Zindan nə qədər gərəkli məktəb olsa da, orada çöldəki azadlıq, sərbəstlik yox idi.

Rza şah diktaturası daha da amansızlaşmışdı. Belə bir şəraitdə Qəsr-Qacarda məhbusluq müddətini başa vurmuş siyasi şəxslərin tam azadlığından söz belə gedə bilməzdi. 1320-ci ilin əvvəllərində (1941-ci il mart) S.C.Pişəvəri,Mərni Nünəkərani (Dehqan) və bir neçə nəfər mənim yaxşı tanıdığım Qəsr-Qacardakı zindan yoldaşlarım həbs müddətlərini qurtardıqlarına görə onlar da Kaşana sürgün edilmişdilər. Zindan yoldaşlarımın Kaşana gəlməsi və onları sağ-salamat görməyim məni çox sevindirdi, həm də qayğılarımı artırdı. Axı onlar zindandan təzə çıxmışdılar, mən isə artıq Kaşanda sabiqəli» (stajlı) sürgündə idim, həm də keçən bir neçə ildə burada xeyli adamla tanış olmuşdum, hətta bəziləri ilə ailə dostluğumuz da var idi. Mən Pişəvərini bir müddət evimizdə saxladım. Pişəvəri bir

yerdə olmağımıza siyasi rəng verilə biləcəyi ehtimalını ortaya gətirdi və ona başqa yerdə ev kirayə etdik. Mənim zindandan çıxmış yoldaşlarımla görüş və söhbətlərim, demək olar ki, məxfi olurdu, çünki bizi burada da izləyirdilər. Pişəvəriyə bir əttar, Mərəndi familiyalı başqa bir dostuma baqqal dükanı açmaqda köməklik etdim. Əslində bu dükanlar Kaşandakı azadxahların gizli görüş və məşvərət yeri idi. Kaşanda olarkən Pişəvəri beynəlxalq vəziyyət, İranın daxili siyasi durumu, biz azadxahların vəzifəsi haqda, demək olar ki, hər gün söhbət edir, mülahizə və fikirlərini bizimlə bölüşdürürdü.

Beynəlxalq vəziyyətin kəskinləşməsi, İranın daxili siyasi durumunun gündən-günə mürəkkəbləşməsi ilə əlaqədar S.C.Pişəvərinin fəallığı artır və ətrafdakı yoldaşlara gələcəkdə hansı proqram əsasında hərəkət edəcəklərinə dair öz tövsiyələrini verirdi. Əlbəttə, bu işlər son dərəcə məxfi və Kaşan polisinin nəzarətindən uzaq məkanda görülürdü. Pişəvəri İranın gələcəyi haqda öz mülahizələrində İranı hər şeydən əvvəl Pəhləvi diktaturasından xilas etməyi və ölkədə demokratik bir mühitin yaradılmasını, İran ərazisində yaşayan bütün xalqlara azadlıq verilməsini, onların tapdalanıb yox olmuş hüquqlarının qaytarılmasını xüsusi olaraq qeyd edirdi. Pişəvərinin düşüncələrində Azərbaycanın taleyi, onun gələcəyi xüsusi vurğulanırdı. O, həm zindanda, həm də sonralar, həmişə deyirdi ki, «Azərbaycanın öz dərdləri var, ona ancaq millət özü əlac etməlidir». Səttarxan, Xiyabani hərəkatlarından iftixarla danışarkən bu hərəkarların məğlubiyyətində İran irticası ilə yanaşı və ondan daha çox xarici müdaxiləçilərin şeytani rol oynadığını xatırladırdı.

Ümumiyyətlə, onu deyə bilərəm ki, biz Azərbaycana dönənə qədər burada görəcəyimiz işlərin cizgiləri, hərəkət xətti rəhmətlik Pişəvəri tərəfindən ətraflı və ağla-batan səviyyədə müəyyənləşdirilmişdi. Buna görə Pişəvəri ətrafındakı siyasi qüvvələr Azərbaycana dönən kimi nə iş görəcəyini, hansı mərama qulluq edəcəyini və bu yolda nə kimi əngəl və maneələrlə rastlaşacağını, vəziyyətdən çıxış yollarını demək olar ki, əvvəlcədən bilirdilər.

Azərbaycandakı hərəkata Pişəvəri tərəfindən əvvəlcədən verilmiş tövsiyələr mübarizənin sonrakı mərhələsində, xüsusən «21 Azər» nehzətinin qələbəsində çox əhəmiyyətli oldu.

Pişəvəri zindandan çıxdığı ilk gündən ümumiran azadlığında milli zülmə qarşı mübarizəni ön cərgəyə gətirdi. O öz fikrini aydın və qəti bəyan edirdi ki, millətlərin hüquq bərabərliyini qəbul etməyənlərlə, milli zülmü kölgəyə çəkənlərlə onun suyu bir arxda getməyəcək. Bu məsələ ilk gündən Pişəvəri ətrafında toplaşanlarla digər «azadixahlar» arasında ciddi ixtilafa səbəb oldu. Pişəvərinin «Ajir»dəki məqalələrində bu səpgidə olan mübahisə və ixtilaflar ruznamənin (qəzetin) gündəliyinə çevrildi. 1320-1323-cü illərdə (1941-1944) Tehrandakı siyasi mühitdə meydanda olan «Hizbe Tudeye İran» (İran Xalq Partiyası), «İttehadiyeye Karegəran və Zəhmətkeşane İran» (İran fəhlə və zəhmətkeşlərin həmkarlar təşkilatı) və digər mütərəqqi birlik, təşkilat və cəmiyyətlərdə toplanmış üzvlər

İranda azadlıq və demokratiya uğrunda mübarizədə böyük zəhmət çəkmişlər. Onların sırasında «Ajir» mövqeyində duranlar az deyildi və bunların çoxu da azərbaycanlılar idi.

Tehrandakı siyasi mühitdə fəaliyyət göstərən təşkilatlarda, o cümlədən «Tudə» rəhbərliyində İranda milli məsələyə münasibətdə yanlış mövqeyin düzəlmədiyini görən Pişəvəri tez-tez bu sözləri təkrar edərdi: «Deyəsən, bunlarla bizim suyumuz bir arxda getməyəcək». Mən onun ağzından çıxan bu sözləri dəfələrlə eşitmişəm.

Ağaye Pişəvəri həmişəlik Azərbaycana siyasi işə getdiyindən «Ajir»i idarə etməyi dostlarına tapşırdı. Azərbaycandakı hadisələri müntəzəm işıqlandırmaqda «Ajir»in tayı-bərabəri yox idi. «Ajir»dəki son görüşdə firqənin adı, məram və məqsədi, hədəfi, hansı qüvvələrə söykənəcəyi, siyasəti, bir sözlə, hər şey müzakirə edildi. Sonra o, bir qədər keçdikdən sonra mənimlə birlikdə Təbrizə getdi. Azərbaycanı böyük təlatüm gözləyirdi.

## PİŞƏVƏRİ OLDUĞU KİMİ

### (xatirə ixtisara verilir)

Seyid Cəfər Pişəvəri Bakıda yaşayanda şəhərə az-az çıxardı... Sadə geyərdi. Heç bir əlaməti ilə başqa adamlardan seçilməzdi. Özü də piyada gəzərdi. Halbuki, xarici markalı maşını var idi. O maşınlardan birini C.Pişəvəriyə Milli Hökumət vermişdi. Birini də fədailər öz pulları ilə alıb ona bağışlamışlar. O, maşınlara minməzdi. Minməyə məcbur olanda da qısılardı. Bu maşınlar yoldan keçənlərin marağına səbəb olardı... Pişəvəri bu vəziyyətdən narahat olardı.

1947-ci ilin isti yay günlərinin birində mən yazıçılar ittifaqından evə gəlirdim, yolda onunla rastlaşdım, o da deyəsən ora gedirdi. Orada Pişəvəriyə bir otaq ayırmışlar. O, nə yazırdı. Deyəsən, 1941-1946-cı illərdə Cənubi Azərbaycanda təlatümə gəlmiş milli-azadlıq dalğalarının unudulmaz lövhələrini qələmə alırdı. Doğrusu mən bu görkəmli inqilabçının geyiminə baxanda kövrəlirdim. Başına parison kepka qoymuşdu, əyninə ucuz parçadan yüngül kostyum geymişdi. Bəli, o, geyimi ilə də marağa səbəb olmaq istəmirdi. Mən S.C.Pişəvərinin üzünə baxdım, sanki qəfil ayrılığın nisgilindən kişinin üzü ayazımışdı, bəyaz üzü daha da ağarmışdı. Bu azadlıq bahadurunun üzü öz xalqının yanında həmişə ağ idi. İndi isə geniş alnında iki dərin qırış açılmırdı: Biri vətəndən ayrılığa uzanan yol, digəri ayrılıqdan vətənə qayıdan yol... İndi S.C.Pişəvəri bu ayrılıqdan vətənə qayıdan da yol haqqında düşünürdü.

Yadıma Təbriz düşdü. Təbriz radiosunun açılışı üçün C.Cahangirovun yazdığı marşı çalınmamışdan əvvəl baş nazir onun mətnini imzalamalıydı. Pişəvəri imzalamamışdan əvvəl güldü və C.Cahangirova dedi: sizin bəslədiyinizi zaman

imzalayıb təsdiq edibdir. Dünyada zamandan ədalətli imza atan yoxdur, daha mənim imzama nə ehtiyac vardı?

...Təəssüflər olsun Milli Hökumət yaşaya bilmədi. Yox! Yaşamağa qoymadılar. Yoxsa Milli Hökumətin yaşamağa iqtidarı da, bacarığı da, ləyaqəti də var idi.

Deyirlər, Milli Hökumətin taleyi həll olunduğu günlərdə S.C.Pişəvəri tez-tez Arazın o tayındakılara müraciət edirmiş, kömək istəyirdi. Lakin...

Mir Cəfər Bağırovla son görüşdə M.Bağırov Stalinin buyruğu əsasında S.C.Pişəvəriyə sülh naminə şah qoşunlarına müqavimət göstərməməyi, silahı yerə qoymağı, lazım gələrsə bu taya keçməyi məsləhət görür. S.C.Pişəvəri M.C.Bağırovla razılaşmır. Bağırov bundan əsəbiləşir və S.C.Pişəvəriyə: axı siz kimə arxalanırsız? - deyir. S.C.Pişəvəri qürurla: «biz İran xalqlarına - şah səltənətinin barışmaz düşməni olan farslara, kürdlərə, türklərə, talışlara, ərəblərə, asorulara arxalanırdıq... biz şah qoşunları tərkibində yüksək rütbəli millətisevər zabitlərə arxalanırdıq. Biz sovetlərdən hər hansı bir kömək göstərilməsini gözləmirdik. Bizim işimizə qarışmasaydılar belə də olmaz»...

Yeri gəlmişkən deyim ki, S.C.Pişəvəri Təbrizdə yazıb «Azərbaycan» qəzetində çap etdirdiyi odlu-alovlu məqalələrində Təbrizin Tehrana şahlıq zülmündən nicat verməyə qadir olduğunu dəfələrlə bildirmişdi, özü də qürurla, fəxrlə, inamla bildirmişdi!

Mübariz, igid, cəfakeş insanlar vətənin, xalqın, inqilabın taleyinin həllində necə böyük səhvlərə yol verildiyini yana-yana duyurlar. Ancaq atalar demişkən «sonrakı peşmançıhq fayda verməz». Azərbaycana olan zülm artıq olmuşdur, özü də bu zülmün tayı bəşəriyyət tarixində çıraq nədir, heç günəşlə də tapılmaz.

Yadıma bir əhvalat düşdü: 1947-ci ilin əvvəlləri idi. Filarmoniyada yığıncaq var idi. Mən də, aşıq Hüseyn Cavanda o yığıncağa getmişdik. Yığıncağın sonunda foyedə M.C.Bağırov və S.C.Pişəvəri ilə üzbəüz gəldik. M.C.Bağırov və S.C.Pişəvəri ilə salamlaşdıq. Onlar bizi sorğu-suala tutdular... «eşitmişəm fədailərimiz meşələrdə hərbi təlim kecir, gələcək döyüşlərə hazırlaşırlar. Doğrudurmu?» - deyə mən S.C.Pişəvəridən soruşdum. S.C.Pişəvəri mənalı-mənalı: Bəli - dedi. Siz şairlər də fədailərimizi gələcək qələbəyə ruhlandıran şeirlər yazmalısız...

Mən hərarətlə: şairin birinci vəzifəsi, bəlkə də borcu yazmaqdır. Mən hazır! - dedim. Sonra səmimiyyətlə xudahafizləşib ayrıldıq. Sən demə bu rəhbərlə son görüşümüz idi...

Bir gün dəhşəli xəbər o taydan bu taya keçmiş bütün siyasi mühacirləri sarsıtdı. Deyirdilər ki S.C.Pişəvəri meşələrdə hərbi təlim keçən fədailərə baş çəkməyə gedərkən yolda maşını qəzaya uğrayıb... Qəzadan xəsarət alanları xəstəxanaya aparıblar. S.C.Pişəvəri üzərində cərrahiyyə əməliyyatı aparılan zaman təkidlə Bakıdan qardaşının çağırılıb gətirilməsini istəyir ki, o da əməliyyatda

yaxından iştirak etsin (S.C.Pişəvərinin qardaşı Mir Səlim Bakıda cərrah-həkim işləyirdi - Ə.R).

S.C.Pişəvərinin qardaşı gəlir, lakin onu yanına buraxmırlar. Danışırlar ki, S.C.Pişəvəri son nəfəsdə: Qəvamın evi yıxılsın! - deyib, gözlərini əbədi yumur.

Əli Tudə
Azarbaycanın xalq şairi
Xatirənin tam mətni üçün bax:
«Ərməğan Azərbaycan» № 60, 16 Azər, Azərbaycan qərbi, Nəqədə 1383.

## S.C.PİŞƏVƏRİ Ə.XAMEİNİN «XATİRƏLƏR»İNDƏ

Doktor Ənvər Xamei «Qəsr Qıcar» zindanına salınmış məşhur «53-lər»-dəndi. O bir müddət S.C.Pişəvəri ilə eyni otaqda (kamerada) zindan həya-tını yaşamışdı. S.CPisəvəri haqda bəzi düşüncələrini o, özünün «Əlli üç nəfər... və üç nəfər» kitabında vemişdi. Biz Ə.Xameinin kitabından S.C.Pi-şəvəri haqqında verilmiş parçalardan bir qismini oxuculara təqdim edirik.

...«Qayıdaq əsl məsələyə. Dediyimi kimi, qəsrin (həbs-xananın) köhnə dustaqlıları arasında didişmə və mübahisələr var idi. Məsələn, Ardaşes, Stalinin qeyd-şərtsiz tərəfdarı, Yusif isə Stalinin müxalifi idi. Ardaşes deyirdi ki, «Yusif Trotskistdir, Trotski tərəfdarıdır». Lakin əslində nə Ardaşes Stalinizmdən, nə də Yusif Trotskizmdən bir şey bilmirdilər. Pişəvəridən başqa, bütün qədim məhbusların bu haqda nəzəri bilik səviyyələri aşağı idi...

Kotoda (Kommunist Tnternasionah məktəbi) təhsil almış Ardaşes və köhnə dustaqların bir qrupu Sovet İttifaqına həqiqətən pərəstiş edirdilər. Onda olan hər şey digər ölkələrdə olanlardan daha yaxşı və ali sayırdılar. Çatışmazlıqları kimsənin dilə gətirməsindən razı deyildilər.

Lakin Pişəvəri onlardan fərqlənirdi. Onlardan həm savadı, həm də siyasi stajı çox idi. Onlardan fərqli olaraq, Pişəvəri həbsxanada siyasi mübarizəni qabartmaq və polislə əlbəyaxa olmağın tərəfdarı deyildi. Partiyalar və siyasətə aid məlumatı Yusif və Ardaşesdən qat-qat yüksək idi... O zindanda olduğu on il müddətində bəlkə bir dəfə də olsun belə daxili qayda-qanunu pozmamışdı. Bu cəhət onunla müxalifət olan Yusif və Ardaşesin xoşuna gəlmirdi və buna görə onu zəif, qorxaq və opportonist adlandırıb, hətta polislə əlaqədə olmasını zənn edirdilər.

Guya bir gün Pişəvəri zindanda əsəbiləşib Ardaşesə demişdi: «Artıq-əskik danışma. Açaram sandığı, tökərəm pambığı». Ardaşes də bu sözü belə yozurdu ki, o hədələyir ki, onlar haqda məxfi sirləri açıb polisə deyəcək. Məncə Pişəvəri bu sözü deməkdə məqsədi ondan ibarət olmuşdur ki, açaram ağzımı və sizin etdiyiniz bütün səhvləri və çıxartdığınız oyunları üzünüzə deyərəm. Ardaşesin dediklərini hətta doğru hesab etsək belə, yenə görərik ki, Pişəvəri heç bir sirri polisə deməmiş və yeri gələndə onun qarşısında müəyyən qədər müqavimət də göstərmişdir. Belə

olmasa idi o da polisə təslim olub, dilindən iltizam verən onlarca başqa liderlər kimi daha 10 il zindanda qalmazdı. Pişəvəri həbsdə olduğu on il müddətində oradakı hay-küydən və çəkişmələrdən kənarda duraraq heç bir nalayiq iş görmədi. Nə polisə sirr verdi, nə də qeyri-əxlaqi hərəkət etdi. Bəlkə də Pişəvərinin «günahı» öz şəxsiyyətinin müstəqilliyini qoruyub saxlaması olmuşdur. Mən onunla həbsxanada bir kamerada qaldığım son bir ildə onda qorxaqlıq və ehtiyatsızlıq izini görmədim...

Pişəvərinin Sovet İttifaqına və Stalinə münasibəti nə Ardaşesin, nə də Yusifinki kimi deyildi. Zahirən Oda Ardaşqes kimi Sovetlər birliyinə və onun bütün işlərinə müsbət baxırdı. Lakin Ardaşesin Sovet İttifaqına olan daxili inamı, səmimi qəlbdən onu sevib və ona pərəstiş etməsi Pişəvəridə yox idi.

Yaxşı xatırlayıram, o zindanda öz xatirələrini söyləyərkən Kominterndəki bir əhvalatı bizə danışırdı. O, deyirdi ki, sovetlər İranla 1921-ci ildə bağlanan müqavilədən sonra İran kommunistlərinə köməyi dayandırdı. Rza xanın diktatorluq siyasəti isə ölkədə ayaq tutmaqda idi, «Həqiqət» qəzetini bağladılar, birliklərə basqılar və təzyiqlər artdı və həbslər başlandı. Belə bir şəraitdə mən İrandakı vəziyyəti onlara çatdırmaq və kömək almaq üçün Sovet İttifaqına getdim. O, nəql edirdi ki, çox çətinlik və əziyyətlərdən sonra özümü Moskvaya çatdırdım. Orada hansı qapını açdımsa müsbət cavab ala bilmədim. Dövlət rəhbərləri onu səlahiyyətli partiya orqanlarına göndərir, partiya orqanları isə Kominternə, Komintern də onu «Yaxın Şərq» bölməsinə göndərir. «Yaxın Şərq» bölməsinin rəisi isə «Kitayqorodski» adlı bir şəxs imiş. Bu qəribə adın qırx neçə ildən sonra da mənim yadımda qalmasının əsas səbəbi Pişəvərinin onun admı qəzəbli vurğu ilə deməsi idi. Pişəvərinin dediyinə görə, o, bir nəfər fırıldaqçı və bürokrat adam idi. Yəhudi mənşəli bu adamı ancaq vəzifə və tutduğu rəhbər mövqeyi maraqlandırırdı. Onun başqa bir adı da var idi. İnqilabdan sonra adını dəyişib yüz faiz Moskva mənşəyinə uyğun gələn bu familiyanı qəbul etmişdi. «Kitay Qorodski» Moskvanın əsasən fəhlələr yaşayan məhəlləsi idi. O bu adı seçməklə özünün rus və fəhlə mənşəli olduğunu göstərmək istəyirdi. Belə bir adamla Pişəvərinin nə etdiyini soruşmaq yadımda qalmayıb. Fəqət ondan soruşdum ki, «doğrudan Kominterndə belə şəxslər olub»? O, isə cavabında: «Ondan pisləri də olub!». Belə olan təqdirdə mən düşünürdüm ki, bəs nə üçün Pişəvəri Sovet İttifaqını müdafiə edib və ona vəfadar idi? Məncə bu sualın cavabı o idi ki, onun apardığı mübarizəni himayə etməkdən ötrü başqa bir söykənəcək yox idi.

Bir çox başqa kommunistlər kimi Pişəvəri də dünyanı iki qütbə bölürdü. Bir tərəfdə İngiltərə və başqa imperialistlər, digər tərəfdə isə Sovetlər İttifaqının olduğunu söyləyirdi. Söykənəcək üçün ortaxəttin olmadığını deyirdi. İmperializmin əsarətinə düşməmək üçün Sovetləri dəstəkləməkdən başqa yol yox idi...

Dimitrov, Tito, Mao Tezese Dun, Coen-En-Lay, Qramşi və Tolyati kimi marksistlər həqiqət də Moskva siyasətçilərinə aldanmışlar idi. Onlar Zinoviflərin,

Boxarinlərin və başqalarının Stalinin siyasətinə qurbanlıq olduğunu bəlkə də heç bilmirdilər?! Əgər bilib öz etirazlarını bildirmişdilərsə onda bu dediklərimizdən başqa bir dəlil çıxır... Tito və Mao hakimiyyətə çatıb və imperialistlərdən qorxu olmadığını biləndən sonra Sovetlər Birliyinin qarşısında dayanıb, onunla müxalifətə qalxdılar. Hər halda məncə Pişəvəri də belə bir təfəkkürə malik adam idi».

## İMKANIM OLAN TƏQDİRDƏ PİŞƏVƏRİ HAQDA ÇOX YAZACAM

Adətən hər bir şəxsiyyət haqqında xatirə yazmaq istədikdə həmin şəxs ilə ilk dəfə necə və harada tanış olmaq yada düşür.

Mircəfər Pişəvəri ilə mən ilk dəfə 1943-cü ildə İranın XIV dövrə məclis seçkilərinə hazırlıq günlərində tanış oldum. O günlərdə Pişəvəri Təbriz əhalisi tərəfindən məclis nümayəndəliyinə nəmizəd verilmiş idi. O, öz seçiciləri ilə görüşmək üçün Təbrizə gəlmişdi.

Təravətli yaz günlərindən biri idi. Biz, Azərbaycan Kargərlər İttihadiyyələri (fəhlə birliyi - Ə.R) Mərkəzi Şurasının dəvəti əsasında M.C.Pişəvərini fəhlə klubuna dəvət etmişdik. Mən o vaxta qədər Pişəvərini görməmişdim. Onu yalnız «Ajir» qəzetində nəşr olan məqalələri ilə tanıyırdım. Mən xəyalımda Pişəvərini İran ziyalıları üçün səciyyəvi olan yaxşı geyimli, təşəxxüslü - boylu-buxunlu bir adam kimi təsəvvür edirdim. Görüşü təşkil etmək üçün təyin olunmuş fəhlə nümayəndələrindən biri Pişəvərinin gəlməsi xəbərini bizə çatdırdıqda, mən digər şura üzvləri ilə birlikdə onu qarşılamağa getdik. Məşdi Kaviyan, Mirrəhim Vilai, Mirmehdi Çavuşi ilə birlikdə əlində köhnə portfel olan, sadə geyimli, orta boylu bir şəxs ilə rastlaşdıq Salamlaşdıqdan sonra Mirrəhim Vilai bizi əlində portfel olan şəxs ilə tanış edib: Ağaye Pişəvəri və tanış olun dedi və sonra üzünü Pişəvəriyə tutub bunlar «Şuraye Müttəhidənin İcraiyyə Heyətinin» üzvləridirlər - dedi.

Mən Pişəvəridən başqa gələnlərin hamısını tanıdığım üçün əsas diqqətimi əlində portfel olan şəxsə yönəltdim. O, çox sadə bir jurnalisti xatırladırdı. Həssas və ciddi baxışları ilə hamıya dərindən diqqət yetirirdi.

Görüş zamanı Vilai Pişəvərinin keçdiyi inqilabi mübarizə yolundan, Rza xan zindanındakı məhbus həyatından, mahir jurnalist və ictimai bir şəxsiyyət olması haqqında danışdı. Mən gözümü Pişəvəridən çəkmirdim. Vilai danışdıqca hiss edirdim ki, Pişəvəri onu tərif etməkdən xoşu gəlmir və narahatdır. O, bu tariflərin təkrar olunmaması üçün Vilai sözünü qurtaran kimi özü ayağa qalxıb dedi:

«Ağalar, qardaşlar! Müttəfiq qoşunların İrana gəlməsilə istibdadın zəncirləri qırıldı, biz də Rza xanın zindanından xilas olub öz siyasi fəaliyyətimizi davam etdirməyə imkan tapdıq. Keçmişdən fərqli olaraq indi, deyəsən, məclisə seçkilər bir qədər azad keçiriləcək. Belə olsa, çox guman ki, xalqın həqiqi nümayəndələri də

məclisə yol tapa bilsin. Lakin irtica və dövlət bundan çox qorxur. Bunun üçün də azad seçkinin qabağını almaqdan ötrü müxtəlif hiylə və yaramaz işlərə əl atırlar. Bizim də ümidimiz xalqa və zəhmətkeşlərədir. Mən əminəm ki, Təbriz əhli bir nəfər kimi seçkidə şirkət edəcək və kimə səs verəcəyini özü müəyyən edəcəkdir. Ancaq bir məsələni bu başdan demək istəyirəm ki, təşkil olacaq İran məclisindən müsbət nəticə gözləmirəm. Mən və digər başqa azadixah şəxslər bu məclisə yol tapa bilsək də imperialistlərdən asılı olan İran hökuməti bizim qabağımızı kəsməyə, səsimizi boğmağa çalışacaqdır. Hər halda məclisə yol tapdığımız təqdirdə onun tribunasından istifadə etməliyik. Biz düşüncələrimizi istək və tələblərimizi məclisin xitabat kürsüsündən səsləndirməliyik. Bunun böyük əhəmiyyəti vardır».

İran irticasının məclisdə oynadığı oyun Məclis haqda Pişəvəri düşüncələrini və qabağı görmək qabiliyyətini təs-diq etdi. Təbriz əhalisi 16 min rəy ilə Mircəfər Pişəvərini İran məclisinə nümayəndə seçdisə də məclisdəki irticai dairələrinin köməyi ilə onun etibarnaməsi rədd olundu. Azərbaycan xalqının səsi növbəti dəfə boğduruldu.

Mənim Pişəvəri ilə ikinci görüşüm Azərbaycan Demokrat Firqəsinin təşkil olduğu günlərdə baş verdi. 12 şəhrivərdə firqənin təşkili haqqında məşhur müraciətnamə yayıldıqdan sonra Azərbaycan Kargərlər İttifaqının Mərkəzi Şurası firqənin rəhbərliyini qəbul etmək barədə tarixi bir qərar çıxardı. Həmin qərarı firqənin Müəssislər Heyətinə rəsmi şəkildə təqdim etmək üçün üç nəfərdən ibarət heyət seçildi. Bu heyətin tərkibinə Pəşminə karxanasının nümayəndəsi Abbasəli Zünuzi, Kəlkətəçi karxanasının nümayəndəsi İbrahim Əbhərdeh və bir də mən daxil idim. Yeni təşkil olmuş firqənin dəftəri bu zaman Təbrizdə məşhur Mirzə Həsənqərə hamamının üstündə, kiçik bir otaqda yerləşirdi. Biz gətirdiyimiz qərarı Pişəvəriyə həmin otaqda təqdim etdik. Görüş zamanı o dedi: - səhv etmirəmsə Sizinlə bir dəfə ittihadiyyədə (həmkarlar birliyində) görüşmüşük. Mən o zaman İran məclisinə namizəd göstərilmişdim. Yadınızda olsa mən onda dedim ki, seçiləcəyim bu məclisdən heç bir nəticə gözləmirəm. Ancaq indi Sizə tam inamla deyirəm ki, yeni təşkil olmuş Azərbaycan Demokrat Firqəsinə çox ümidlər bəsləyirəm. Bu firqəyə cəmiyyətin müxtəlif sinif və zümrələri üzv olacaq. Xalq birdəfəlik bilməlidir ki, Tehran bizə heç vaxt heç nə verməyəcəkdir. Biz öz haqqımızı zorla almalıyıq!!

Mən Mircəfər Pişəvəri ilə 21 Azər nehzəti gecəsi də görüşmüşəm. Həmin gecə Təbriz üzük qaşı kimi hər tərəfdən ətraf kəndlərdən gələn fədai dəstələri vasitəsilə mühasirəyə alınmışdı. Polis və jandarm dəstələri şəhər içərisində xalq tərəfindən tərk-silah edilmişdiər. Ordu hissələri əmrə müntəzir halda otursa da şəhər «nol» adlı silahlı qüvvələrin əlində idi. Axşam saat 8-də məni Mərkəzi komitəyə çağırdılar. Məndən başqa 9 nəfər də gizli silahlı dəstələrin başçıları ora dəvət olunmuşdu. Qulamrza İlhami və Mirrəhim Vilai Pişəvərinin yanında idilər. Onlar çıxdıqdan sonra Pişəvəri bizim hamımızı birlikdə qəbul etdi. Biz silahlarımızı təhvil verib içəri girdikdə Pişəvəri ayaq üstdə telefonla danışırdı. O,

çox əsəbi halda deyirdi: - Ağaye Dirəxşani (sərtip Dirəxşani o vaxt Təbrizdəki silahlı qarnizonun başçısı idi) siz başa düşün ki, indi mühasirədəsiniz. Yaxşı olar ki, qardaş qanı tökülməsinə yol verməyəsiniz. Təbrizdə nizamilərdən başqa bütün silahlı qüvvələr təslim olmuşlar. Mərkəzi komitə məni bu barədə sizinlə danışıq aparmağa məmur etmişdir. On dəqiqədən sonra sizin yanınızda olacağam...

Telefon dəstəyini Pişəvəri yerə qoyduqdan sonra bizə dedi: Təbrizdə 8 polis məntəqəsi vardır. Siz hər biriniz bir məntəqəyə gedib nahiyələri (şöbələri) təhvil almahsınız. Sərtip Dirəxşani təslim olsa, daha heç bir vuruşma qorxusu yoxdur. Ehtiyatlı olmalısınız ki, şəhərdə pozğunçuluq və qarət halları baş verməsin. Əks təqdirdə düşmənlərimizin əlinə bəhanə keçib bizi qarətçi adlandırarlar. 21 Azər gecəsi Təbriz silahlı qüvvələri müqavimətsiz olaraq təslim oldular. Həmin gecə silahlı xalq drujinaları (könülüllər) şəhərin əmin-amanlığını qorudular. Pişəvərinin düzgün tədbiri nəticəsində Təbrizdə heç bir pozğunluq halı baş vermədi. Bəzi yerlərdə xırda toqquşmalar baş verdisə də onun dərhal qarşısı alındı.

Azərbaycan Həmkarlar İttifaqı Mərkəzi Şurasının orqanı «Qələbə» qəzetinin redaksiyası heyətində M.C.Pişəvəri ilə görüşümüz məndə daha dərin təəssürat yaratmışdır. Həmin qəzetin təşkili münasibətilə Pişəvəri redaksiya heyəti üzvlərini qəbul etdikdə bildirdi ki, bu qəzetin məqalələrini əsasən fəhlə müxbirləri yazmahdır. Buna görə o, birinci nömrənin baş məqaləsini yazmağı mənə həvalə etdi. Məqalə Azərbaycan dilində yazılmalı idi. Riza şah dövründə Azərbaycanda bütün yazılar fars dilində getdiyi üçün mən o vaxta qədər ana dilimdə nəinki məqalə, hətta məktub belə yazmamışdım. Çox fikirləşdikdən sonra həmin vəzifənin öhdəsindən gələ bilmədiyimi söylədikdə Pişəvəri dedi: «Mən başa düşürəm ki, sən nə üçün etiraz edirsən. İndiyə qədər siz farsca yazmağa adət etmisiniz. Azərbaycan dilində yazmaq sizə çətin görünür. Siz öz ana dilinizin qüdrətini bilmirsiniz. Azərbaycan dilində nəinki məqalə, hətta yüksək səviyyəli elmi və bədii əsərlər yazmaq mümkündür. Əlbəttə, fars dilinə adət etdiyiniz üçün əvvəlcə bir qədər sizə çətin olacaq. Lakin Azərbaycan dilində yazmağa adət etdikdən sonra fars dilində yazmaqda bəlkə də çətinlik çəkəcəksiniz.

Pişəvərinin dedikləri həqiqət idi. Çətinliklə olsa da, mən «Qələbə» qəzetinin birinci nömrəsinin baş məqaləsini təyin olunmuş mövzu əsasında (Bizim əsas hədəf və məqsədimiz) Azərbaycan dilində yazdım. O zaman Pişəvəri Azərbaycan qəzetində yazdığı baş məqalələrin altına öz imzasını qoyardı. Biz gənclər hər işdə özümüzü Pişəvəriyə oxşatmağa çalışdığımız kimi mən də yazdığım məqalənin altına öz imzamı qoyub çapa verdim. Pişəvəri deyən kimi, sonralar fars dilində yazmaq bir qədər mənə çətin oldu.

Pişəvəri olduqca təvazökar firqə rəhbəri və dövlət xadimi idi. Yaxşı yadımdadır. Təbriz Şəhər Komitəsinin plenumunda firqənin təşkil olduğu günün /12 Şəhrivər/ necə bayram edilməsi məsələsi müzakirəyə qoyulmuşdu. Plenum üzvlərindən birisi 12 Şəhrivər günündə keçiriləcək nümayişdə firqə rəhbəri kimi, Pişəvərinin böyüdülmüş şəkilinin nümayişdə aparılmasını təklif etdi. Pişəvəri

dərhal bu təklifin əleyhinə çıxıb dedi: Düzdür, bir sıra ölkələrdə, o cümlədən Sovet İttifaqında nümayiş zamanı partiya və dövlət rəhbərlərinin şəkillərini əllərdə gəzdirirlər. Lakin biz hələ xalq və millət üçün elə bir diqqətəlayiq işlər görməmişik ki, belə bir təmənnada olaq. Əgər biz başladığımız işi axıra qədər davam etdirib, bütün İranı azad edə bilsək, o zaman xalq özü şəkillərimizi böyüdüb əllərdə gəzdirər. Pişəvəri belə dedikdə başqa rəhbərlər də işlərini bilib, şəkil məsələsinin üstünü vurmadılar. 12 Şəhrivər nümayişində yalnız Səttarxan, Bağırxanın və Şeyx Məhəmməd Xiyabaninin şəkilləri əllərdə görünürdü.

M.C.Pişəvəri, onun şəxsiyyəti haqda bildiklərim çoxdur. İmkan olan təqdirdən mən onları xatirələr şəklində yazıb, kitab kimi çap etdirmək fikrindəyəm.

P.S. Təəssüfki, vaxtsız ölüm bu imkam Hüseyn müəllimə vermədi.

Hüseyn Ciddi

Güney Azərbaycandakı Fəhlə hərəkatının liderlərindən biri, tarix elmləri doktoru 27 oktyabr 1984. (Əlyazması şəklində təqdim olunub.)

## S.C.PİŞƏVƏRİNİN NƏVƏSİ BABASI HAQQINDA

S.C.Pişəvərinin nəvəsi, ABŞ-dakı Harvard universitetinin professoru doktoru İbrahim Pişəvəri keçən yay (2008) Bakıda olmuşdur. «Turan» agentliyinin müxbiri ondan aşağıdakı müsahibəni almışdı:

İbrahim bəy, öncə özünüz barədə oxuculara məlumat verərdiniz?

- Əvvəlcə onu deyim ki, uzun müddət Ənzəlidə yaşasaq da, əslən Xalxallıyıq, bizimkilər sonradan Ənzəliyə gəliblər... Özüm aşağı-yuxarı 30 ildir ki, ABŞ-da yaşayıram, İran və Azərbaycan tarixilə bağlı bilgilərə bələdəm və hər iki Azərbaycanın ictimai həyatında yeri olan Dünya Azərbaycanlıları Konqresinin təsis konfransından Strasburqdakı 6-cı qurultayına qədər olan tədbirlərində iştirakçı olmuşam. Azərbaycanın tarixində çox şərəfli insanlar və liderlər var, həm də İranın dövlət olaraq yaranmasında azərbaycanlıların xüsusi rolu olub və düşüncəmə görə, Səttarxan, Bağırxan, Şeyx Məhəmməd Xiyabani bu liderlər sırasında ilk yerləri tuturlar.

- Güney Azərbaycandakı mövcud ictimai-siyasi durumu necə dəyərləndirirsiniz?

Güney Azərbaycanda siyasətə böyük maraq var və bu bölgənin insanları qədər siyasətə həssas və maraqlı olan ikinci bir bölgə tapmaq bəlkə də mümkün deyil, bu da bu bölgənin insanlarının siyasətdə deməyə sözlərinin olması və siyasətə diqqətli olması ilə bağhdır. Hazırda İran Azərbaycanı həssas bir mərhələ yaşayır və bu mərhələdə iki nəsil üz-üzə dayanıb. İnformasiyalara və siyasi proseslərə cavanların bir, yaşlı nəslin başqa, tamam fərqli yanaşma tərzi var. Gənclik proseslərə həssasdır, həyatsevər və idealistdir, yaşlı nəsil isə bir tərəfdən yorğun, digər tərəfdən konservativ, üçüncü bir tərəfdən uzaqgörəndir. Azadlığı və birliyi cavanı da, yaşlısı da qəbul edir, amma gənclik istədiyini ələ

gətirmək üçün tələsmək kimi bir xislətə malikdirsə, əksinə, yaşlı nəsli hələ də məsləhətə, zamana ehtiyac duyur.

- Sizin fikrinizcə, Güneydə milli mübarizə imkanlan necədir?

- Gənclik hərəkətə keçib, mübarizəyə başlayıb, amma cəmiyyətdə düşüncələrinə münasibət birmənalı deyil və manevr imkanları azdır. Nəticədə qan tökülür, həbslər olur, təqiblər başlayır. Amma yaşlı nəsil ilk olaraq mədəni sahədə azadlıq əldə etmək istəyir və siyasi azadlıqları tədricən, qan tökülmədən qazanmaq xəttini əsas götürür. Yəni, Güney Azərbaycanı elə bir səviyyəyə gətirmək istəyirlər ki, Şirazdan, Mazandarandan fars müəllim və polis gətirməyə ehtiyac qalmasın, özü öz idarəçiliyini təmin etsin. İndi bir mərhələ başlayır və bu mərhələdə xalq rəsmi Tehrandan ala biləcəyi haqlarını tələb edir. Bu sahədə artıq bəzi tələblər ortaya qoyulub və bunun üçün mübarizə gedir. Düşüncəmə görə, burada idealist yox, realist olmaq lazım gəlir və nəyi almaq mümkündürsə, onun mübarizəsi getməlidir.

- Babanız Seyid Cəfər Pişəvərinin taleyi barədə nələri açıqlaya bilərdiniz?

- Babanı S.C.Pişəvərinin taleyinə gəlincə, burada da maraqlı məqamlar var. Haqqında danışdığım idealist siyasətin açarında Pişəvəri hökuməti də olub və Pişəvəri hökumətinin həqiqi hədəfləri Moskva siyasətinin gücünə günbəgün dəyişməli olub. Yəni, bu hədəflər o qədər dəyişdirilib ki, Azərbaycan siyasi hazırlıq aparılmadan İrandan ayrılmalı olub. İndi əsərlər var ki, bu «siyasi teatrın» kökünü Moskvanın qoyduğunu sübut edir. Bütün bu siyasət Rusiyanın Xəzərdəki İran neft yataqlarına olan imtiyazları ələ keçirməsinə xidmət edib və həmin imtiyazı qazandıqdan sonra S.C.Pişəvərini də, Azərbaycan xalqını da qurban verdilər.

- Sizə görə, S.CPişəvəri bu siyasətin qurbanı olub?

- Bəli. Elə babamın aradan götürülməsi də bu siyasətin tərkib hissəsi oldu. Babamın həkimi doktor Cahanşah* bu barədə danışır ki, S.C.Pişəvəri onu görmək istədiyini deyərək, Bakıya çağırıb və burada görüşərək parka gediblər. Həkimin bildirdiyinə görə, babam sürücüsündən şikayət edib, onun xüsusi xidmət orqanları ilə əlaqəsi olmasından şübhələndiyini, dəfələrlə səbəb olmadan avtomobili yolun ortasında saxladığını və maşının xarab olduğunu deyərək, sonradan maşını sürdüyünü ona bildirib. Babam Cahanşaha özünün aradan götürülməsi istəyi olduğunu söyləyib. Doktor Cahanşah babama, belə isə, Moskvaya getməyi məsləhət bilib. Amma babam deyib ki, bu, elə Moskvanın siyasətidir və Moskvaya da getsə, nəticə birdir, aradan götürülməyi gündəmdə qalır.

- Bu barədə bir qədər geniş danışım?

- Doktor Cahanşah danışır ki, üç gündən sonra S.C.Pişəvərinin guya avtomobil qəzası keçirərək xəstəxanaya düşdüyünü eşidib, yanına gedib, babamın keyfi yaxşı olub və bəzi mülahizələri nəzərə alaraq, xəstəxanada qalmalı

* Doktor Nüsrətulla Cahanşahlu nəzərdə tutulur.

olmadığını, evə getməli olduğunu bildirib. Amma doktor deyir ki, onun bu təklifinə «hələ evə getməsinə icazə yoxdur», cavabı verilib və o, həmin cümləni xüsusi vurğu ilə bir neçə dəfə təkrar edib. Doktor Cahanşah həmin hadisənin sabahı günü Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırovun zəng edərək onu yanına çağırdığını deyib və maşınla xəstəxanaya yola düşdükdə S.C.Pişəvərinin vəfat etdiyini bildirib. Dr.Cahanşah xəstəxanasının həyatinə çatanda, burada Güneydən olan bir dəstə şəxs və o cümlədən S.C.Pişəvərinin xanımı onun yanına getmək üçün gözləyirmiş. Doktor Cahanşahın sözlərinə görə, M.C.Bağırov heç kimi babasının yanına qoymayıb. O, S.C.Pişəvərinin bədənində qəzadan hər hansı xəsarət olmadığını, yalnız başının sağ hissəsində göy bir ləkə gördüyünü deyib. Bu sovet siyasət üsulu özünü Macanstanda da, Rumıniyada da və s. yerlərdə təcrübədən çıxarıb.

- İbrahim bəy, buradan hansı nəticəni çıxarmaq istəyərdiniz?
- Nəticə budur ki, həmin hərəkatın məğlubiyyətinin nəticəsi olaraq, yüz minlərlə insan Azərbaycana gəlib, burada təhsil alıblar və Şimali Azərbaycanın müstəqilliyi bir daha sübut etdi ki, millət öz milli problemini Moskvanın və ya başqa bir siyasi məkanın əli ilə yox, məhz öz əli ilə həll etməlidir.

## QƏZA, YA QƏSD SEYİD CƏFƏR PİŞƏVƏRİ ÖLÜB, YA ÖLÜDÜRÜLÜB???

## ÖLÜM İDİ, YAİNKİ QƏSD?

Həftədə bir-iki dəfə cənab Pişəvəri ilə görüşərdik. Bəzən o partiya məktəbinə gələr, bəzən də mənə zəng edərdi ki, gedib evində onunla görüşüm. Bütün görüşlər ailəvi şəkildə keçirilərdi. Çünki mən onun həyat yoldaşı və xanımının anası ilə əvvəlcədən tanış idim.

Cənab Pişəvəri Bakı Tibb fakültəsinin yaxınlığındakı, Xaqani küçəsindəki evindən başqa, həm də o vaxt əksər iranlıların, o cümlədən zabit ailələrinin Xəzər dənizi sahilində, Buzovna məntəqəsində də (Buzovna bağında) yay aylarını keçirmək üçün bir evə malik idi. Burada həmçinin Pişəvəri Təbrizdə istifadə etdiyi ADF-nin avtomobil və onun sürücüsü də onun ixtiyarındaydı.

Zənnimizcə, yaz mövsümünün ilk günlərindən biri idi. Bakıda havalar isti keçdiyindən onun ailəsi deyəsən bağ evinə getmişdi. Cənab Pişəvəri axşam çağına yaxın partiya məktəbinə gəlib, bir-iki saatlıq söhbət üçün onun mənzilinə getməyimi istədi. O, avtomobildə sakit oturmuşdu. Evə çatdıqdan sonra dedi ki, bu sürücü bir neçə gündür ki, heç bir səbəb olmadan yolun xəlvət yerlərində avtomobili müxtəlif bəhanələrlə saxlayır. Soruşanda ki nə üçün dayanırsan? Cavabda deyir ki, mühərrik (motor) qızıb, elə buna görə də bir az gözləmək lazımdır. Sözün düzü, mən onun bu hərəkətlərinə şübhələnmişəm. Hesab edirəm ki, o, kiminləsə əlaqədardır. Hiss edirəm ki, mənə qəsb eləmək niyyətindədir.

Soruşdum ki, sizə qarşı bu qəsd kimlər tərəfindən ola bilər? Dedi ki, yəqin ABŞ və tngiltərə tərəfindən, çünki bizim başqa düşmənimiz yoxdur. İran hökuməti də ki, belə bir gücə malik deyil. Mən ona dedim ki, siz özünüzlə həmişə bir tapança gəzdirin. Dedi ki, bu məsələ ortaya çıxandan özümlə bir «volter» gəzdirirəm. Lakin əgər mənə qarşı qəsd niyyəti varsa, bu «volterin» əlindən nə gələ bilər ki? Çünki qəsd planı varsa, şübhəsiz ki, qəfildən həyata keçiriləcək. Dedim ki, yaxşısı budur bir neçə gün dəniz sahilində sürücülük məşqi edib, avtomobili şəxsən özünüz sürəsiniz. Yaxud da ki sürücünüzü dəyişəsiniz. Sovet Azərbaycanına gələn iranlılar içində yüksək sürücülük qabiliyyətinə malik olan etibarh sürücülər az deyil. Dedi siz ki, bilirsiniz, bu sürücünü rus dostlarımızın özləri iranlılar içindən seçib, onun aylıq maaşını da özləri ödəyirlər. Əgər onu dəyişmək istəyiriksə rus dostlarımıza bunu deməliyik. Səncə bu məsləhətdir? Dedim əgər bu sui-qəsd niyyəti ABŞ və İngiltərənin əlaltıları tərəfindən olsa, nəinki bunu onlara demək məsləhətdir, hətta onlara bu barədə xəbərdar etməliyik. Lakin əgər belə deyilsə, əlbəttə ki, məsləhət deyil və yalnız özümüz bir çarə qılmalıyıq. Dedi, sizin nə demək istədiyinizi başa düşmədim. Dedim, mən onu demək istəyirəm ki, əgər bu qəsd niyyəti ABŞ və İngiltərə əlaltıları tərəfindən olarsa. Gördüm bir az diksindi və dərin fikrə daldı. Elə buna görə də sözümü azca dəyişib dedim: mən onu demək istəyirəm ki, qəsd niyyətinin olub-olmaması hələ tam bəlli deyil. Əgər bu olarsa görəsən kimlər tərəfindən ola bilər?..

Növbəti dəfə görüşümüzdə cənab Pişəvəri yenidən həmin mövzuya toxunub dedi ki, sürücüdən yolda dayanmamasını istədiyim vaxtdan, artıq o, bu hərəkətini təkrar etmir. Soruşdum ki, bu məsələni məndən əlavə başqalarına da danışıbsınız? Dedi ki, həyat yoldaşıma və Qulama da danışmışam. Dedim, cənab Pişəvəri axı Qulam Yəhyaya niyə? Dedi ona görə ki, o bu baxımdan etibarlıdır. Dedim mənə danışdığınızı Qulama da deyibsiniz? Dedi: Bəli.

Oxucular yəqin ki, sürücünün öz rəftarını dəyişməsinin mahiyyətini başa düşürlər. Sürücünün öz rəftarını dəyişməsi ona görə deyil ki, o artıq cənab Pişəvərinin əmrinə tabe olduğundan onun istədiyi kimi hərəkət edib. Sürücü ona görə rəftarını dəyişib ki, rus təhlükəsizliyinin nökəri olan ...

onları cənab Pişəvərinin sui-qəsd niyyətini duyduğu haqda xəbəri onlara çatdırıb. O, cənab Pişəvərinin əhvalatı mənə danışmasını da onlara deyib. Bu hadisə üstündən bilmirəm bir neçə ay keçdi və məsələni müəyyən qədər həm o (Pişəvəri), həm də mən unutduq.

Qeyd edim ki, mən bu məsələyə şübhə ilə yanaşsam da, yenə də bu düşmənçiliyin Sovet hökumətinin özü tərəfindən ola bilməsi ehtimalına inana bilmirdim. Çünki bu barədə kifayət qədər təcrübəm yox idi. Onların (rusların) hər şeyi, hətta, həyatlarını belə onlarla dosduq uğrunda qurban vermiş şəxslərə qarşı bu qədər insafsız davranmalarını təsəvvür etmirdim.

Bir gün cənab Pişəvəri mənə zəng edib, onların mənzilinin yaxınlığındakı kiçik bir bağçada onunla görüşməyimi istədi. Ola bilsin ki, o, mənzilində dinləmə

cihazlarımn quraşdırılması ehtimalından ehtiyat edirdi. Mən razılaşdığımız vaxtda oraya getdim. Bir saata qədər addımlayıb söhbət etdik. Dedi ki, mən dostların məsləhəti ilə iki gündən sonra polkovnik Nuri Quliyev və Q.Yəhya ilə birlikdə bizimkilərin (iranlıların) qaldığı bölgələrə baxış çəkməyə gedəcəyəm. Çünki oralarda xoşagəlməz hallar baş verib. Bizimkilərin bir çoxu təhlükəsizlik orqanlarına şikayət ediblər. Soruşdum, sürücü əvvəlki sürücüdür. Dedi yox, bir ermənidir. Soruşdum ki, hansı ermənidir? Dedi, o zəncanlı erməni.

Dedim, cənab Pişəvəri o yaxşı adam deyil. Dedi, mən ki, özüm onu tanımırdım. Dostlar (ruslar) özləri onu bu işə təyin ediblər. Onlar həm də mənə tapşırıblar ki, haçan və haraya gedəcəyimizi heç kəsə danışmayım. Elə buna görə də dediklərim öz aramızda qalsın. Sizdən və ailəmdən başqa heç kəsin bundan xəbəri olmamalıdır. Onlar bu səfərdə oğlu Daryuşu da özü ilə aparmağa razılıq alıb.

Mən əvvəlcə bərk şübhələndim. Sonra fikirləşəndə ki, oğlu Daryuşu da öz yanında aparacaq, bir az sakitləşdim. Bu görüşdən 3-4 gün keçmişdi ki, general Ata Kişiyev mənə zəng vurub dedi: «-Yoldaş Seyid Cəfər Kirovabad - Yevlax yolunda avtomobil qəzasında ölüb. Mən sizə başsağlığı verir və xahiş edirəm ki, partiya məktəbində təhsil alan iranlı tələbələri Buzovna bağına göndərəsiniz. Günortadan sonra saat 2-də orada olsunlar. Günortadan azca sonra məni gözləyin. Mən gəlib sizi oraya aparacağacam ki, dəfn mərasimində iştirak edək».

Buzovna bağına çatanda gördüm ki, partiya məktəbinin tələbələri və həmin bağda yaşayan iranh ailələr, həmçinin cənablar Padqan, Məhəmməd Biriya, Azərbaycan Kommunist Partiyasının bir sıra rəhbərləri və Mirzə İbrahimov, Həsən Həsənov, Dr. Səmədov və başqaları bir araya gəliblər. Qəbir də əvvəlcədən qazılıb. General Ata Kişiyevlə oraya çatan kimi, o, başqalarına fikir vermədən məni birbaşa cənab Pişəvərinin ailəsi olan binaya apardı. Pişəvərinin xanımına başsağlığı verdikdən sonra, tabutun qoyduğu kiçik bir otağa daxil olduq. O dedi ki, cənazəni görmək üçün hamının buraya gəlməsini məsləhət görmədim. Pişəvərinin xanımı pərişan halda səssiz dayanıb, ağlayırdı. Mən cənazəyə baxan kimi zəhərlənmə simptomlarını müşahidə etdim. Çünki bütün bədəni şişmişdi və yalnız iki kiçik yara, biri üzünün sağ hissəsində, digəri isə boynunda, (çiyinə yaxın hissədə) müşahidə olunurdu. Mən təəccüblənib dedim ki, yoldaş general, bu iki kiçik yara ki adamı öldürməz, axı o bu yaralarla necə ölüb?

O, polis baxışlarına bənzər dərin, mənalı və nəsihətamiz baxışlarını mənə zillədi və dedi: - Yoldaş həkim! Siz onunla Rza Şah zindanında olubsunuz? Bilirsiniz ki, o, illərlə orada çox çətinliklə yaşayıb. Bu hadisədə onun xəstə ürəyi təəssüf ki, tab gətirməyib, keçindi. Onun həyata qaytarılması üçün əllərindən gələni əsirgəməyiblər.

Bu qısa danışıqdan sonra o, cənazənin üstünü örtdü və əvvəlcədən qapının arxasında gözləyən şəxslərə əmr etdi ki, tabutun mıxlarını çalsınlar. Dəfn mərasimi, cənab Mirzə İbrahimovun çıxışı, həmçinin... Məhəmməd Biriyanın,

sözləri ilə Pişəvərinin əmioğlusu Mirağa Azərinin sözləri ilə başa çatdı. Hazırda cənab Pişəvərinin ölümünün dəqiq tarixini xatırlamasam da, yadıma gələn odur ki, bu hadisə 1326-cı ilin şəhrivər ayının son günlərinə, yaxud da ki, mehr ayının ilk günlərinə təsadüf edirdi.

Qeyd edim ki, avtomobil qəzasında Q.Yəhya və polkovnik Quliyev də cüzi bədən xəsarəti alsalar da, hər biri qısa bir zamanda xəstəxanadan evlərinə buraxıldılar.

Cənab Pişəvərinin ölümündən sonra cənab Sadıq Padqan, Qulam Yəhya Daneşiyan və məndən ibarət üç nəfərlik bir komitə yaratdılar. Bu əslində bir partiya təşkilatı yox, müəyyən məsuliyyətləri öz üzərinə götürən bir qrup idi.

Yuxarıdakı qeydlər N.Cahanşahlunun Berlində çap edilmiş xatirələrindən iqtibas edilmişdi.

Doktor Nüsrptulla Cahanşahlu

(AMH dövründə Pişəvərinin müavinlərindən, Təbriz universitetinin ilk rektoru olmuşdur)

## PİŞƏVƏRİNİN QƏSDƏN ÖLDÜRÜLMƏSI ŞAYİƏDIR

### Bu sözləri müxbirə T.Musəvi deyib

Sual: Cənab Musəvi sizin səhhətinizdəki nasazlığı nəzərə alıb bir neçə sualımızı qısa cavablandırmağınızı xahiş edirik.

Sual: Azərbaycan rəhbərliyinin Pişəvəriyə münasibəti necədir?

Cavab: Azərbaycan rəhbərlərinin, o cümlədən M.C.Bağırovun Güney Azərbaycan haqqında fikri bam-başqa idi. Lakin Pişəvəri ilə Bağırov arasında olan fikir ayrılığı heç bir zaman dərinləşmədi. Bağırov Pişəvəriyə dərin hörmət bəsləyirdi. Pişəvəri yaşadığı dövrdə Azərbaycan rəhbərləri tərəfindən ona qarşı heç bir hörmətsizlik edilməmişdi. Azərbaycan xalqı arasında Pişəvərinin xüsusi yeri və hörməti var idi. Ona bir milli qəhrəman kimi baxırdılar."

Sual: S.C.Pişəvərinin ölümü ilə bağlı bəziləri bu fikirdədir ki, Pişəvəri Sovet Azərbaycan rəhbərlərinin, xüsusilə Bağırovun göstərişi ilə öldürülüb. Avtomobil qəzası bu ölüm üçün bir vasitə olub. Guya Pişəvəri ilə Bağırov arasında Cənubi Azərbaycanın müstəqil olması və onun Şimali Azərbaycanla birləşməsi məsələsində onların arasında fikir ayrılığı olub. Pişəvəri Bağırov düşüncənin əleyhinə imiş. Bu məsələ barəsində sizin fikrinizi bilmək istərdik.

Cavab: Bu haqda şayiə və uydurmalar çoxdur. İndiyə qədər bu məsələnin bu qədər müxtəlif yozumda şərhi mə nə aydın deyil. Nə üçün bu qədər yalan və şayiə yayılıb. Bilmirəm bunun kimə xeyri var? M.C.Bağırov S.C. Pişəvəri arasında heç bir fikir ayrılığı yox idi. Əksinə onlar bir-birinə hörmət qail idilər. Bundan əlavə, Pişəvəri Sovetlər İttifaqına bağlı idi. Buna görə də avtomobil qəzasının

törədilməsində sovet rəhbərlərinin və yaxud Bağırovun əli olmasına mən inanmıram. Bu düzəltmədir.

Mən bu hadisə ilə əlaqədar yaxından iştirak etmişəm. Hadisədən 1 gün qabaq biz Gəncə şəhərində partiya komitəsinin qonağı idik və mehmanxanada istirahət edirdik.

Pişəvəri, Qulam Yəhya və Azərbaycanın dövlət məmurlarından biri, Təbrizdə konsul vəzifəsində çalışan Quliyev ilə birlikdə firqə üzvlərinə baş çəkmək və onlarla fikir mübadiləsi aparmaq məqsədi ilə Gəncə şəhərinə getmişdir. Firqə üzvləri bu rayonun müxtəlif yerlərində məskunlaşmışlar. Bu görüş neçə gün sürdü. Qərar bu idi ki, ertəsi gün Bakıya qayıtsınlar. Mən sürücü Melikiyana sabah Gəncədən hərəkət etmə vaxtını ona bildirdim. Melikyana bir az pul verdim ki, yolda lazım olsa xərc etsin. Dəfələrlə ona xəbərdarlıq etmişdim ki, maşını ehtiyatla sür. Bu ehtiyatsız sürücünü mən hələ Zəncənda tanıyırdım. Əlbətdə Pişəvəri özüdə dəfələrlə onun ehtiyatsız maşını idarə etməsindən narahat olduğunu bildirmişdir. Yenidən bu haqda ona xəbərdarhq etdim.

Hadisədən sonra istintaqda Melikyandan alınan izahatdan məlum oldu ki, o, həmin gecə bir neçə dostu ilə restorana gedərək yetərincə içib sərxoş olmuşdur və nəticədə gecə yatmamışdır. Pişəvəri qabaqda, Qulam Yəhya və Quliyev isə arxa oturacaqda əyləşirlər. Maşın Bakıya doğru hərəkət edir. Yuxusuzluğun (və ya sərxoşluğun) təsirindən avtomobil Melikiyanın nəzarətindən çıxır. Nəticədə maşın zərbə ilə yolun kənarındakı beton səkiyə dəyir. Avtomobilin bir çox hissələri əzilib sıradan çıxır. Hadisədən sonra mən Fruğian ilə birlikdə hadisə yerinə gəldik. Hələ Pişəvəri sağ idi. Bir qədər gözlədikdən sonra onu şəxsən görməyə müvəffəq olduq. Ağır yaralanmışdı. Lakin huşunu itirməmişdi. Hadisənin necə və nə səbəbdən baş verdiyini şoruşduq. O, ağır vəziyyətdə olsa da, çalışdı ki, hadisənın baş vermə səbəbini izah etsin. Dediyindən belə çıxırdı kı, sürücü Melikyan günahkardır. O, avtomobili çox sürətlə sürürmüş. Pişəvəri çox qan itirdiyindən sabahısı gecə xəstəxanada dünyasını dəyişdi. Sabahısı məşhur həkim Mir Səlim Cavadzadə (Pişəvərinin doğma qardaşı) hadisədən xəbər tutub Bakıdan Yevlağa gəldi. O, Pişəvərinin ölüm səbəbini qəza vaxtı çox qan itirməyində gördü.

Bu hadisədə Qulam Yəhyanın bir neçə dişi və qabırğası sınmışdır. Quliyev isə ömrünün sonunadək ayağından əlil oldu. Olmuş hadisə əvvəldən hazırlanmış iş kimi göstərilir. Bu doğru deyil. Uydurmalara inanmaq olmaz. Bu uydurmalar camaatın fikrini çaşdırmaqdan başqa bir şey deyildir. Əgər sovet rəhbərlərinin Pişəvərini öldürmək məqsədi olsa idi nə üçün iki nəfər (Qulam Yəhya və Quliyev) gərəkli adamlarını ölümün pəncəsinə atırdı? Məncə bu işdə bir qəsd yoxdur.

Sual: Pişəvərinin vaxtsız ölümü firqə rəhbərliyində yeni bir şəraitin yaranmasına səbəb oldu. Ehtimal ki, onların arasında olan ziddiyətlər Pişəvərinin sağlığında gizli idi. Lakin, onun ölümündən sonra bu ziddiyyətlər üzə çıxdı. Firqə rəhbərləri bu məsələyə necə yanaşdılar?

Cavab: Şübəsiz ki, firqə öz böyük şəxsiyyətini və rəhbərini, hamının inandığı, Azərbaycan rəhbərliyinin hörmət etdiyi bir şəxsiyyəti itirdi.

Pişəvərinin sağlığında Azərbaycan rəhbərləri firqənin işlərinə müdaxilə etsələr də, bu müdaxilələr açıq və birbaşa yox, dolayısı ilə olurdu və həm də yalnız tövsiyə xarakteri daşıyırdı. Pişəvərinin ölümündən sonra vəziyyət dəyişdi. Müdaxilə bir buyruq xarakteri aldı.

Pişəvərinin ölümündən sonra, bu buyruq, tədricən açıq hala keçdi. Buna baxmayaraq firqə və onun rəhbərləri ilə münasibət yenə dostluq xarakteri daşıyırdı. Çox vaxt firqənin Mərkəzi komitəsini bir növ sürgündə olan hökumət rəhbərləri hesab edirdilər. Onlara xüsusi hörmət bu baxımdan olurdu. Sonra firqə daxilində qüdrət və rəhbərlik üstə çəkişmələr işi o yerə gətirib çıxardı ki, sovet rəhbərləri özləri firqə sədrini seçməyə müdaxilə etmək məcburiyyətində qaldılar. Əlbəttə, bu hadisə firqə üzvləri arasında ciddi narahatlıq yaratdı.

Tağı Musəvinin səhhətinin pisləşdiyini və həyəcanının artdığını görən müxbir sual-cavabı dayandırmağa məcbur olur.

Mayor, Tağı Musəvi,

Hacıkənddəki fədai düşərgəsinə məsulu olmuş və tarix elmləri namizədi idi

(Tağı Musəvi ilə müsahib Hüseyn Yəhyanın "Kuşehaye əz tarix Azərbaycan" kitabından iqtibas edilmişdi)

## «KEÇMİŞ GƏLƏCƏK YOLUN ÇIRAĞIDIR» KİTABINDAN BİR İQTİBAS

Pərviz Hümayunpur

Pişəvəri son nəfəsdə bu cümləni dilə gətirmişdi:

"Evin yıxılsın Qevamu-səltənə"

"Firqə rəhbərlərinin və qoşun zabitlərinin şərəfinə təşkil olunan ziyafətdə Sovet Azərbaycanın Cümhur rəisi Bağırov Cənubi Azərbaycanı Şimalı Azərbaycana birləşdirmək məsələsinə laqeyd yanaşmağı məğlubiyyətin əsas səbəbi kimi göstərmişdi. Bağırov düşüncəsinin əksinə olaraq Pişəvəri demişdi: "Bizim böyük səhvimiz Azərbaycan xalqının mübarizəsini İranın başqa əyalətlərinin xalqlarının mübarizəsi ilə birləşdirməmək olmuşdur. Məğlubiyyətin əsas səbəbi idi. Pişəvərinin bufikri Bağırovun etirazına səbəb olmuş və bəlkə də onun ölümü ilə nəticələnmişdi.

## MÜSTƏNTİQ QƏFLƏTƏN NİYƏ ÖLDÜ?

### (Mayor İbrahim Novruzovun xatirələrindən)

Mayor İbrahim Novruzov jurnalist kimi 1320-ci ildə (1941-ci il) Qızıl Ordu stralarında İrana getmiş, İran Azərbaycanında xeyli şəhərlərdə ezamiyyətlərdə olmuşdur.

O, öz xatirələrini İran Azərbaycanında olarkən yazmağa başlamışdır. Onun yazıları 1320-1325-ci illəri (1941-1946-cı illəri) əhatə edir. Novruzov təhlükəsizlik idarəsinin zabiti idi.

İbrahim Novruzov səksən yaşında olarkən Şəhrivər ayında (sentyabr) Bakıda mənimlə görüşdü. Makinada çap olunmuş xatira yazılarını mənə verdi və dedi, bunları sən özünlə apar və İranda çap elə, mən də onun istəyi əsasında bu işi gördüm.

**Həmid Mollazadə**

Mayor Novruzov xatirələrində yazır: İran pənahəndələrinin vəziyyətini müşahidə edəndə ürəgim kabab olurdu mənim, onlarla İranda xoş günlərim olmuşdu. Onların öz ölkələrində hər birinin evi, şəraiti var idi...

1947-ci ilin iyun ayının birinci yarısı idi. Mən Ağdamda ezamiyyətdə idim. Evdən çıxarkən Kazım İsmailovu gördüm. O, bir neçə nəfərlə söhbət edirdi, çox narahat görünürdü. Tez-tez siqaret çəkir və tüstüsünü udurdu. Mən ondan soruşdum: nə xəbər var?

O, astaca qulağıma pıçıldadı: Yevlax yolunda Pişəvərinin maşını aşıb. Mən o yola bələd idim, asfalt yaxşı örtüklü yol idi. Dərətəpə, döngə, filan yox idi. Öz-özümə dedim, bu necə olan işdi?

Pişəvərinin sürücüsünü mən Təbrizdən tanıyırdım, o işində məharətli idi. Bakıya gələndən sonra Pişəvəridən ayrılmadı, o erməni idi. Pişəvəriyə onu Dövlət Təhlükəsizlik Komitəsi təhmil etmişdi.

Pişəvəri Bakının Mərdəkan kəndində «Yaşıl Bağda» yaşayırdı və hərdən mühacirlərə baş çəkmək üçün iki nəfərin müşayiətilə gedirdi. Bu dəfə isə Qulam Yəhya və Dövlət Təhlükəsizlik komitəsinin nümayəndəsi - Nuru Quliyev ilə səfərə çıxmışdır. Səfər yoldaşları yerlərini dəyişməyi israr edirlər ki, guya bu yaxşı deyil ki, biz arxamızı sənə çevirək. Belə vəziyyətdə Pişəvəri sürücünün yanında oturur. Səhər saat 6-da Gəncədən hərəkətə edirlər və yarım saatdan sonra bu hadisə baş verir. Onlar iddia edirdilər ki, guya sürücü yuxulu olub. Amma hadisə belə ehtimalı rədd edir.

Mayor İbrahim Novruzov yazısında deyir: Mən Bakıya dönərkən Pişəvərinin cənazəsi artıq torpağa tapşırılmışdı. Ancaq xalq arasında söz-söhbət var idi ki, ölümün səbəbi Pişəvəriyə dəymiş zərbə ilə bağlı olub. O gecə Böyük dövlətlərin radioları bu xəbəri yaydılar. Tehranda isə sovetlərin əleyhinə olan məxfi yayımlarda deyilirdi ki, Pişəvərini bolşeviklər özləri aradan götürüblər...

Pişəvərinin ölüm işinin istintaqını Xanlar Abdullayev adlı bir şəxs aparırdı. O, mənim səmimi dostum idi, həm də biz bir yerdə böyümüşdük. 1940-cı ildə mən onunla bir yerdə Şimadi Qafqaz və Polşa cəbhələrində birgə ezamiyyətdə olmuşduq.

Müharibədən sonra o, Dövlət Təhlükəsizlik Komitəsində müstəntiq işləyirdi və həmişə mənə deyirdi ki, bura mənim yerim deyil. Ancaq mən ona kömək edə bilməzdim. Tez-tez görüşürdük. Pişəvərinin avtomobil qəzasından sonra ondan soruşdum bu bədbəxt Pişəvərinin ölüm işi nə üçün bu qədər uzanır? Cavab verdi ki, qurtarmaqdadır. Lavrentin Pavloviç də bu işdə maraqlıdır. Xanlardan soruşdum sənin nəzərincə hadisə təsadüfdür, ya qəsd? O, cavab verdi ki, hadisə daha çox qəsdə bənzəyir. Mən yenə soruşdum: bəs nə üçün təhqiqat belə uzanır? O, bu suala cavab vermək, istəmədi. Çiyinlərini çəkmək, göz və ağız hərəkətləri ilə sualıma konkret cavab verməkdən çəkindi. Sordum ki, hadisənin qəsdən törədilməsi kim tərəfindən ola bilər? Müqəssir kimdir?

Bu sorğu-sualdan bir neçə gün sonra Xanları gördüm, o, Moskvaya getməyə hazırlaşırdı. Yanımızda heç kimin olmasına baxmayaraq o, yavaşca qulağıma dedi: Məni Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini vəzifəsinə təyin etmək təklif istəyirlər, ona görə də Moskvaya gedirəm ki, yuxarı məqamlarla görüşəm. Ona yaxşı yol və müvəffəqiyyət arzulayıb ondan ayrıldım. Xanların Moskvadan möhürlənmiş tabutda cənazəsi Bakıya gətirildi.*

S.C.Pişəvərinin ölümü ilə bağlı hissə təbrizli müəllif Həmid Mollazadənin «Başı möhürlənmiş sirlər» kitabından götürülmüşdü.

Təbriz, 1376

## M.C.BAĞIROVUN MƏHKƏMƏSİNDƏ ŞAHİD SALAYEV LƏTİFİN İFADƏSİ

Mən Siyasi idarə - «NKVD» orqanlarında 1930-cu ildən 1950-ci ilədək işləmişəm. 1944-cü ildən 1949-cu ilədək Yevlaxda DTN rayon şöbəsinin müdiri olmuşam.

1947-ci ilin iyun-iyul aylarında Yevlağın 14 km-liyində içərisində Demokratik İran Azərbaycanının rəhbəri doktor Pişəvəri olan maşın qəzaya uğramışdı. Qəza barədə mənə məlumat çatan kimi hadisə yerinə yollandım. 28 aprel adına sovxozun ərazisindəki yolda əzilmiş «Qudzon» markalı avtomobili tapdım. Maşın körpünün çəpərinə dirənmişdi. Maşının içərisindəkilər: Pişəvəri, Qulam Yəhya və Nuru Quliyev yaralı halda rayon xəstəxanasına çatdırılmışdı. Hadisə yerində təkcə sürücü Karnik Melikyan qalmışdı. O, sərnişinlərinin sənədlərini əlində tutub durmuşdu. Axtarış zamanı ondan 10.000 manat pul və «Valter» tapançası çıxdı. Mən hadisə yerinin şəklini çəkdim, akt tərtib etdim və Yevlağa qayıdıb, dərhal rayon xəstəxanasına getdim. Pişəvərinin huşu özündə idi.

* Xanlar Abdullayev, S.C. Pişəvərinin ölümünün qəsd və ya qəza vəziyyətini təhqiq edən müstəntiq olmuşdur. Vəzifəsini böyütmək adı ilə onu Moskvaya çağırırlar. Lakin bir neçə gün sonra onun cənazəsi Bakıya gətirilir. Mayor İbrahim Novruzovun dediyinə görə - Xanlar bu hadisənin sirrlərini özü ilə torpağa apardı və bir daha bu hadisə gizli qaldı...

Onun ayağı və bir qabırğası sınmış, digər qabırğaları əzilmiş, başı yaralanmışdı. Quliyevin də huşu özündə idi (O vaxtlar Quliyev DTN-də Yemelyanovun yanında katibliyin rəisi vəzifəsində işləyirdi). General Qulam Yəhya yüngül yaralanmışdı, ancaq üzü zədələndiyindən danışa bilmirdi.

Mən Pişəvəriyə müraciət edərək avtomobil qəzasının baş verdiyi şəraitdən danışmasını xahiş etdim. Pişəvəri mənə danışdı ki, o həmin vaxtlarda Kirovabad neft kəşfiyyatın rəisi olan Nəzər Heydərovun evində imiş. Orada yeyib-içib, istirahət edirmişlər. Təqribən gecə saat 4-də Quliyev, Pişəvəriyə onunla Nuxaya getməyi təklif edir. Bildirir ki, Nuxa onun doğma torpağıdır, orada anadan olub, böyüyüb. Orada istirahət edib, növbəti günü keçirərlər. Axırda Pişəvəri bir neçə dəfə «Xəyanət» sözünü təkrar etdi və bildirdi ki, «Mən on bir il İranda təkadamlıq kamerada qaldım, Rza şah Qəvam-əs-Səltənə məni məhv edə bilmədi. İndi isə nəhayət, onlar öz niyyətlərinə çatdılar».

Mən Pişəvəridən soruşum ki, o niyə belə danışır, o ki, öz maşınında, öz sürücüsü ilə yola çıxıb. Pişəvəri mənə cavab verdi ki, «Maşın da, sürücü də mənim yox, general Qulam Yəhyanın idi».

Pişəvəri öz şübhələrini də mənə bildirdi ki, o, adətən heç vaxt sürücünün yanında oturmur, bu dəfə isə nədənsə onu sürücünün yanında əyləşdirmişdilər.

Söhbət əsnasında Pişəvəri özünü pis hiss etdiyini bildirdi, kömək istədi. Mən dərhal Bakıya, Yemelyanova zəng vurub, baş vermiş qəza və Pişəvərinin səhhəti barədə məlumat verdim.

Bundan təqribən 5-6 saat sonra təyyarə gəldi. Nazir müavini Kərimov, səhiyyə nazirinin müavini Səlim Səmədov, professor Zülfüqar Məmmədov, mayor Sarıcalinski və tibb bacıları həmin təyyarə ilə gəlmişdilər.

Məşhur həkim-cərrah professor Məmmədov, Pişəvəri üzərində şəxsən özü cərrahi əməliyyat apardı.

Mənim çağırışımla Gəncədən həkim-cərrah Qasım xan Talışinski və Dağlıq Qarabağdan cərrah Əsriyan da gəlmişdi.

Mənimlə söhbət zamanı Quliyev bildirdi ki, onlar Nuxaya gedib, orada istirahət etmək istəyirmişlər. Sürücü Melikyan dedi ki, gecə yol getdiklərindən sükan arxasında mürgüləyib, bu da qəzaya səbəb olub. Lakin sükan ikiyə bölünmüşdü. Buradan da aydın olur ki, Melikyan sinəsi əzilməsin deyə sükandan var gücü ilə yapışıbmış. Bunu isə o yatmış vəziyyətdə yox, qabaqcadan təhlükə hiss edib, özünü qorumaq üçün edə bilərdi.

Mən belə hesab edirəm ki, həmin qəza təsadüf olmayıb, Pişəvərini qədə yetirmək məqsədilə təşkil olunmuşdu. Mən aşağıdakı faktlara əsasən bu qərara gəlirəm:

1) Pişəvərini Nuxaya gecə aparmaq üçün heç bir zərurət yox idi. Maşını saatda 90 km sürətlə qovmaq da vacib deyildi.

2) Pişəvərini öz maşınında yox, general Qulam Yəhyanın maşınında aparıblar. Sürücü də onun öz sürücüsü yox, generalın sürücüsü imiş.

Pişəvərinin ölümündən sonra DTN Şamxor rayon şöbəsinin müdiri Sarkisov Ruben Mirzəyeviç mənə çatdırdı ki, bu qəza baş verməmişdən ona məlum olub ki, sürücü Melikyan İrandakı danışıqların liderinin oğluymuş, onun arvadı polyak qızı Qalla isə İrandakı Britaniya səfirliyində çalışırmış. Bununla əlaqədar Sarkisov Melikyan əleyhinə işə başlayır. Bunun üçün həmin iş qoyulmuş qayda üzrə rəsmiləşdirilir, Azərbaycan DTN-nə kartoçka göndərir və oradan cavab alır. Yəni Melikyanın adına Azərbaycan DTN «A» şöbəsində kartoçka açılıbmış.

Naxçıvan Muxtar respublikası DT naziri polkovnik Fərəcov qəzadan sonra mənə danışdı ki, hələ qəza baş verməmişdən xeyli əvvəl o, Azərbaycan DT naziri Yemelyanova teleqramla məlumat verib ki, Melikyanın xarici kəşfiyatın agenti olması müəyyənləşdirilib (Fərəcovun xarici agentura barədə məlumatı vardı).

Azərbaycan DTN-nə və onun naziri Yemeyanova hələ qəzadan çox-çox qabaq bəlli olan bütün bu məlumatlara baxmayaraq, sürücü Melikyan general Yəhyanın maşınını sürməkdə davam edirdi. Ona hətta Pişəvərini də gəzdirməyi etibar etmişdilər, daha doğrusu, tapşırmışdılar.

Xarakterikdir ki, axırda Pişəvərinin həlak olmasının təfərrüatından xəbərdar olan bütün şəxslər Bağırov və Yemelyanov tərəfindən repressiyaya məruz qaldılar. Sarkisov DTN orqanlarından qovuldu, indi haman müdiri işləyir. Mən DTN orqanlarından qovuldum, hazırda avtoməktəbin direktoruyam, Fərəcov Naxçıvanda nazir idi, şöbə müdiri vəzifəsinə endirildi. Əksinə, katibliyin rəisi Nuru Quliyevi qəzadan sonra nazir müavini qoydular.

O vaxtkı daxili işlər naziri Teymur Yaqubovun da hərəkətləri şübhə doğurur. O nədənsə həmin vaxt Kirovabadda idi, dərhal Yevlağa gəldi. Ancaq nədənsə xəstəxanaya gedib, Pişəvəriyə baş çəkməyi lazım bilmədi. Görünür, o bu görüşdən qorxurmuş. O, Pişəvəri üzərində aparılan cərrahi əməliyyatın nəticəsini gözləmədən çıxıb getdi. Həm də nədənsə mənə və DİN rayon şöbəsinin müdirinə xəbərdarlıq etdi ki, heç kim Pişəvərinin həlak olmasından xəbər tutmamalıdır. Ancaq 2-3 gün sonra İran radiosu bu xəbəri yaydı.

Əvvəllər Yemelyanovun mənə münasibəti çox yaxşı idi. O hətta məni nazirliyin IV şöbəsinə müdir qoymağın vaxtı çatdığını da söyləmişdi. Ancaq qəzadan sonra onut mənə münasibəti kəskin şəkildə dəyişdi. Yemelyanov Yevlağa gələndə mən ondan soruşdum ki, Pişəvərinin həlak olma səbəblərini araşdıran istintaqın nəticələri necədir? Yemelyanov çox acıqlandı və dedi: «Respublikanın sahibi kimdir? Mən və Bağırov, ya sən?».

Söhbət əsnasında mən bildirdim ki, nümayəndələrimizin İrandakı fəaliyyətlərinin düzgün olmaması oradakı inqilabı 20 il ləngitdi. Bu, Yemelyanovu daha çox acıqlandırdı.

Bundan sonra təqiblər başladı və onunla nəticələndi ki, məni DTN orqanlarından xaric etdilər. Mən Azərbaycan KP MK-ya gəlib Yemelyanovun qanunsuz hərəkətlərindən Bağırova şikayət etmək istədim.

Bu barədə Novikovaya danışdım, o isə məni Bağırovun yanına buraxmadı.

Pişəvərinin həlak olma səbəblərini araşdırmaq üçün Moskvadan SSRİ DTN əməkdaşları Bakıya gəldilər. Yemelyanov, Yaqubov və Quliyev işi elə qurdular ki, qəzadan sonra Pişəvərinin özü ilə danışdığıma baxmayaraq, məni dindirməyə çağırmadılar və məndən heç bir şey soruşmadılar. Mən buradan belə nəticə çıxarıram ki, mənim bu iş barədə öz fikirlərimi, şübhələrimi Moskvadan gələnlərə danışmağım Bağırova və Yemelyanova sərfəli deyilmiş.

Bir fakt da nəzəri cəlb edir ki, Pişəvəri mühafizə olunmurdu. Ondan əlavə Pişəvəri qəza yerindən 70 kilometr aralıda, Kirovabad şəhərində olan oğlunu gətirməyi xahiş etmişdi. Oğlu ən uzağı bir saat ərzində atasına çatdırıla bilərdi. Ancaq Pişəvərinin bu xahişi yerinə yetirilmədi. Oğlunun o vaxt 20 yaşı vardı. Pişəvəri bir sutkaya qədər sağ qaldı və bütün bu müddət ərzində huşu özündə idi. Görünür, ehtiyat ediblər ki, Pişəvəri qəzanın təsadüfi olmadığını oğluna danışa bilər.

Çox qəribədir ki, Pişəvərinin işi üzrə nə Sərkisov, nə də Fərəcov dindirilib.

Mən belə hesab edirəm ki, Pişəvəri öldürülüb, ancaq kim öldürüb, bu barədə mənim əlimdə əsaslı dəlil yoxdur. Hər halda mən əminəm ki, Pişəvərinin ölümündə Bağırovun, Yemelyanovun, Yaqubovun və Quliyevin əli var. Həmin qəza vaxtı onların özlərini çox şübhəli aparması mənim bu fikrə gəlməyimə əsas verir.

İfadə «Mir Cəfər Bağırovun məhkəməsi» (arxiv materialları) kitabından götürülüb.

## PİŞƏVƏRİNİN ÖLÜMÜ, FƏDAİ DÜŞƏRGƏLƏRİN BAĞLANMASI

(Həsən Nəzəri Pişəvərinin ölümü haqda. Yazı ixtisarla verilir)

Bir gün S.C.Pişəvəri ilə olan görüşdə mən ona dedim ki, hələlik məlum deyil ki, sovetlər bizə hərbi təşkilatımızı bərpa etməyə icazə verəcəklər, ya yox?

O, mənim bu haqda fikrimi ətraflı bilmək istərkən mən ona dedim: «Ağaye Pişəvəri, mən silahlı mübarizə tərəfdarıyam. Bizə lazımdır fədailərimizi təşkilandırıb İrana yollayaq. Mən özüm də bu işə hazıram». Pişəvəri bir qədər fikrə daldı və dedi: «Mən sənin bu fikrinlə razıyam. Biz burada heç bir işi başa çatdıra bilməyəcəyik. Siz Mərdəkandakı zabitlərlə görüşərkən hələlik bu haqda onlara söhbət açma. Baxaq görək əlimizdən nə gəlir...»

S.C.Pişəvərinin göstərişi və M.C.Bağırovun razılığı ilə Azərbaycan ərazisi də iki yerdə, Hacıkənddə (Gəncə yaxınlığında) və Nuxa (Şəki) şəhərindəki «Şah Abbas karvansarası»nda döyüş cəbhəsindən gəlmiş fədailərdən ibarət hərbi təlim düşərgəsi yaradıldı.

Hacıkənddəki (250 nəfərlik) Fədailər düşərgəsinə Milli hökumət mayoru Tagı Musəvi, Nuxadakı (indiki Şəki) düşərgəsinə mən məsul təyin edildim.

Həm Hacıkənddəki və həm də Şəkidəki Fədai düşərgəsindən təkcə mənə və T.Musəviyə düşərgədən kənara çıxmaq və lazım olan ərzağı və başqa şeyləri almağa icazə verilmişdi.

Biz Fədai düşərgələrini tam qaydasına sala bilmişdik. Şəhər saat 6:00-da yuxudan ayılır, idman edib səhər yeməyindən sonra İrana qayıtmaq haqda Fədailərdə ümid yaradıcı söhbətlər edir, sonra fişəngsiz silahlarla, hərbi tanklarla, təlim keçib, hərbi taktika ilə məşğul olurduq.

Fədailərin hərbi hazırlığı ilə təlimatçıların məşğul olması 1947-ci ilin iyun ayınadək davam etdi. Fədailər mübarizəni davam etdirmək üçün vətənə dönəcəklərindən çox şad idilər və buna ümid edirdilər.

Avqustun sonunda (əslində iyunun əvvəlində ər) bizə xəbər verdi ki, Pişəvəri, Qulam Yəhya Danişian və bir nəfər ali rütbəli dövlət nümayəndəsi bizim düşərgəyə gəlmək istəyirlər. Onlar əvvəl Hacı kəndə, sonra Şəkiyə gələcək idilər. Bizim sevincimizin hədd-hüdudu yox idi. Güman edirdi ki, biz sərhəddi keçib vətənə qayıdacağıq. Onların bizimlə xudahafizləşməyə gəlmələrini zənn etdik. Onlar bizim bazaya gəlməmişdən bir gün əvvəl mən bir Fədaini «Krayserlə» - avtomobil ilə Kirovabada yola çatdım və yazdığım naməni Pişəvəriyə çatdırmağı tapşırdım. Biz düşərgəni həmişəlik tərk edib İrana yollanacağımızı zənn edib burada satıcılara olan borcumuzu ödəmək üçün Pişəvəriyə yazdığım məktubda onun üç min manat pul verməsini xahiş etmişdim. Həmin gün Pişəvəri qısa yazdığı cavab məktubunda «sənin maşınını müvəqqəti müşahidə etdik. Sabah nahara bir piti hazırladarsan. Üç min manatı özümlə gətirəcəm». Mən qısa məzmunlu bu məktubu Fədailərə oxudum, onlar yaxşı əhval-ruhiyyə ilə «şah Abbas» karvansarasını sulayıb, süpürdülər...

Səhəri günü, başqa günlərdə olduğu kimi öz işlərimizlə məşğul olduq, aşpazımız nahara yaxşı bir bozbaş hazırlamışdı. Biz çox intizarla qonaqları gözləsək də onlar gəlib çıxmadılar. Mən göstəriş verdim ki, fədailərin naharını gecikdirməyib versinlər, qonaqların payını isə aşpaz isti saxla-sın. Onların belə gecikməsi məni nigaran etmişdi. «Karvansaraya» bir «cip» daxil oldu. Ondan düşən mayor filankəs özünü mənə mərifçilik etdikdən sonra yavaşca mənə dedi: «səhər saat 7-də Pişəvəri və onu müşayiət edən Danişyan, İrandan qaçıb gəlmişlərin işi üzrə respublika idarəsinin sərhəng (polkovnik) Nuru Quliyev Kirovobad-Yevlax yolundakı körpü yaxınlığında maşın qəzasına düşüblər. Hər üçü yaralıdırlar, xəstəxanaya qoyulub. Bağırov yoldaşın göstərişi ilə Bakıdan cərrahlar təyyarə ilə xəstəxanaya çatdırılıb. O birilərinə nisbət Pişəvəridə qan axına daha güclü olub. Ondan xahiş etdim, məni də xəstəxanaya çatdırsın.

Sovet mayoru məni saat 16-da xəstəxanaya çatırdı. Qəzaya uğramışlar içərisində Pişəvərinin çox qan itirməsi nigarançılıq yaradırdı. Danışyan bir neçə dişini itirmiş, döş qəfəsindən zərbə almışdı. Quluyevdə ayaqlarından yaralanmışdı. Həmən gün saat 17-də həkimlər Seyid Cəfər Pişəvərinin (Cavadzadə) vaxtsız ölüm xəbərini bildirdilər. O 55 yaşında enişli-yoxuşlu (1892-1847) həyatına həmişəlik

gözünü yumdu. O günlərdə lagerimizə bu üç nəfərin gəlişinin məqsəd və motivini heç kəs anlayanmadı...

## PİŞƏVƏRİNİN MAŞINI NİYƏ VƏ NECƏ QƏZAYA UĞRADI

Avtomobil qəzasından bir gün əvvəl Pişəvəri Hacıkənddəki Fədai düşərgəsinin məsulu mayor Tağı Musəvi ilə birlikdə düşərgəyə gəlir, Fədailərə baş çəkir, arzu və tələblərini öyrənir. Fədailərin düşərgəsinə yol sovet hərbiçilərinin düşərgəsi içindən keçirdi. Oraya getməyə təkcə Pişəvəriyə və Musəviyə icazə verilmişdi. Qulam və Nuru Quliyev Pişəvərini düşərgədən kənardakı çayxanada gözləməli olmuşlar. Pişəvərinin düşərgədəkilərlə görüşündən sonra onlar Gəncəyə gəlir, orada Pişəvəri köhnədən dostu olan Heydərovun evində axşamlayır.

Səhər saat 6-da Gəncədən yola düşüb Yevlaxa doğru yollanırlar. Bu yol çox hamar və avtomobili saatda 100-lə də sürməyə imkan verirdi. Qulam Yəhya və Nuru Quliyev arxa oturacaqda, Pişəvəri isə qabaqda, sürücünün sağ tərəfində oturur. Deyilənə görə, maşındakı sərnişinləri, o cümlədən sürücünü yuxu tutur. Nəticədə maşın Yevlaxa 11 km. qalmış qəzaya uğrayır. Pişəvəri qabaqda oturduğundan daha ağır zərbə alır. Səhər olduğundan saat 7-dən 9-a dəkyoldan heç bir nəqliyyat, filan keçmir ki, hadisənin xəbərini vaxtında çatdırsın. Saat 9-da yoldan keçən yük maşını sürücüsü baş vermiş qəzanı və yaralıların olduğunu Kirovobaddakı dövlət məqamlarına çatdırır. Hadisə yerinə gələn rəsmilər yaralıları Yevlax xəstəxanasına çatdırırlar. Pişəvəri çox qan itirdiyindən saat 17-də dünyasım dəyişir...

Bu qəzanın törədilməsi sürücü ilə əlaqələndirilir. O, ingilislərin casusu olduğu söylənilir və ona cinayət işi açılır...

1956-cı ilin aprelində Bakıda Azərbaycan Kommunist Partiya MK katibi Mir Cəfər Bağırov, ali məqam sahibi Ağasəlim Atakişiyev və KGB-rəisi Yemelyanova qarşı məhkəmə başlarkən o məhkəmənin üç iclasında məndə iştirak edə bildim. (Mən o zaman Bakı Neft institutunda işləyirdim. Müəllim Korşunov məhkəmədə iştirakı həvəsi olmadığı üçün ona verilmiş xüsusi buraxıhş vərəqəsini mən xahiş edib ondan aldım).

Yemelyanov məhkəmədə etiraf etdi ki qəza vaxtı maşının sürücüsü Melikyan Abadanda (İran) iki il ingilis şirkətində işləyib və özü etiraf edir ki, onların casusu olub, Cə-nubi Azərbaycandakı demokratik hərəkata qatıhb, sonra isə demokratlarla sovet Azərbaycanına gəlib. Sürücü kimi firqə rəhbərlərinin maşınlarını sürməklə məşğul olub. Qəza vaxtı onun cibindən tapılan 3000 rubl pulu guya Pişəvəri ona verib. Bu pul ona niyə və nə üçün verildiyi sualını cavablandıra bilmədi, sonra özü etiraf etdi ki, ingilislər bu pulu ona veribmişlər. Halbuki, Melikyan özü də bilirdi ki, bu 3000 rubli Pişəvəri ona Şəki Fədai düşərgəsindən mağazalara olan borcları ödəmək üçün vermişdi...

Pişəvərinin ölümündən sonra qorxurduq ki, İranda bizim silahlı mübarizəmizə yol verilməsin. Elə belə də oldu. Pişəvərinin ölümündən iki gün sonra iki nəfər sovet partiya və dövlət nümayəndəsi Şəkiyə gəldi. Onlar mənlə məhəli firqə komitəsində görüşüb Pişəvərinin ölümü ilə bağlı təəssüfləndiklərini bildirib baş sağlığı verdilər. Onlar bildirirdilər ki, «xarici dövlətlərin kəşfiyyatı Gəncə və Şəkidə fədai düşərgələri olduğunu biliblər və radiolarla bu haqda xəbərdə yayıblar. İrana daxil olacaq fədailəri Amerikanın köməyi ilə tutmağı da planlaşdırıblar. Bundan əlavə bu məsələni BMT-də bizim əleyhimizə qaldırmaq istəyirlər. Bu məsələni İranla neft çıxarma sahəsində bağladığımız müqavilənin də təsdiqinə əngəl törətmək niyyətindədirlər. Buna görə də bizim Moskva rəhbərliyimiz bildirib ki, siz gərək bu proqramdan əl götürəsiz və münasib bir şəraitin yaranmasını gözləyəsiz...».

Bununla da bizim Hacıkənddəki və Şəkidəki fədai düşərgələrimiz «sabahkı münasib zaman naminə» qapadıldı.

Qeyd: Pişəvərinin ölümü ilə bağlı xatirələrinin sonunda Həsən Nəzəri iki cəhət üzərində dayanır:

1.Sovetlər Çində kommunistlərin xeyrinə etdikləri yardımla onları qələbəyə çatdırdı. Hindistanda, İndoneziyada, Vyetnamda bir sıra Afrika və Latın amerikası ölkələrində, Yunanıstanda olan hərəkatlara köməklik etdikləri bir vaxtda Azərbaycan məsələsini önəmli saymadılar. Onlar güman edirdilər ki, İran iqtisadiyyatına yol tapıb, birgə neft şirkət yaratmaqla rəqibləri İngilisləri və Amerikalıları yavaş-yavaş sıxışdırıb İrandan çıxaracaqlar.

2.Hacıkənd və Şəkidə fədai düşərgələrini ləğv etməklə sovetlər öz sədaqətlərini İran hökumətinə nişan vermək istəyirdilər. Düşərgələr haqda İranın xəbərdar olması və xarici radivların bu haqda məlumatlar verməsi düşərgələri bağlamaq üçün düzəldilmiş uydurma idi. Bu Qəvamın sovetlərlə bağladığı neft müqaviləsinin İran Məclisində təsdiqinə bağlanılan ümidlə əlaqədar idi.

Yazı Həsən Nəzərinin (Gazyani)
«Gmaştəgihaye bədfərcam» (xatirələr)
kitabındakı iqtibas edilmişdi

## İKİ MİR CƏFƏR

İki Mir Cəfər, seyid nəslindən iki tarixi şəxsiyyət. Birisi Arazın bu tayında, digəri o tayında dünyaya göz açmışdır... Birisi bu tayda, o birisi o tayda. Aralarında üç il yaş fərqi vardır. Birisi əlli doqquz yaşında rusun «Rudenko məhkəməsinin müttəhimidir. O birisi bu məhkəmədən doqquz il əvvəl əlli dörd yaşında rusun KQB-nin əli ilə aradan götürülmüşdü. İndi isə yalançı şahidlər ifadə verirlərki, Pişəvərinin ölümündə Bağırovun əli vardır.

Bu Mir Cəfər o Mir Cəfərin qəsdinə dura bilərdimi?

* * *

Müttəhim böhtançılara cavab vermirdi. Öz aləminə qapılmışdı. O bilirdi ki, bu məhkəmə əslində məzhəkədir. Ali partiya orqanı olan MK-nın üzvü kimi bilirdi ki, sovet qoşunları İrana nə üçün girmişdi və nə üçün çıxarıldılar. Bu illərdə də sovet siyasətinin İranda həyata keçirilməsində onun rolu böyük olmuşdu.

İranın şimalında milli muxtariyyəti gerçəkləşdirən hökumətin də nə üçün və necə qurulduğunu, sonra isə necə yıxıldığını o, gözəl anlayırdı. Cənubi Azərbaycandakı hərəkat əsrin əvvəllərində baş vermiş Məşrutə-Konstitusiya hərəkatı və Xiyabani hərəkatı kimi şah istibdadına qarşı İran xalqlarının demokratik hərəkatının bariz nümunəsi idi.

M.C.Pişəvəri yazırdı: «Azərbaycan Tehrandan bir şey istəmir. Onu öz halına qoysalar kafidir. Ona imkan versələr, öz əli ilə işlərini idarə etsin, bəsdir. Biz İranın istiqlal və tamamiyyətinə şədidən əlaqəməndik. Azərbaycan isə İran daxilində öz mədəni, milli haqqına malik olmalıdır».

Azərbaycan milli hökuməti yarandığı gündən İranın bütün irticaçı qüvvələrinin əlbir təzyiqinə məruz qaldı. Milli hökumətə qarşı milliyyətindən asılı olmayaraq, İranın bütün qara qüvvələri birləşdilər. Ona qərəzlə «separatçı, ruspərəst» damğası vurdular. Dedilər ki, Pişəvəri Cənubi Azərbaycanı SSRİ-yə satıb. Məsələ BMT-nin Təhlükəsizlik Şurasına çıxarıldı. Moskvada İranın baş naziri Qəvam İranın şimalındakı neftin çıxarılmasını Stalinə vəd etdi. 1946-cı il aprelin 4-də imzalanan Sovet-İran sənədindən sonra BMT-də bir daha Azərbaycan məsələsinin müzakirəsinə lüzum qalmadı.

Bir ay sonra, 1946-cı il mayın 8-də İ.Stalinin Azərbaycan Demokratik Firqəsinin lideri M.C.Pişəvəriyə məxfi məktubunda deyilirdi: «Siz Sovet qoşunlarının İranda qalmaqda davam edəcəyi təqdirdə Azərbaycan xalqının inqilabi işində uğur qazanacağına ümid edə bilərdiniz. Lakin biz onları daha İranda saxlaya bilmirik, başlıca olaraq ona görə ki, Sovet qoşunlarının İranda olması Avropa və Asiyada bizim xilaskarlıq siyasətimizin əsaslarını sarsıdır. Siz bir inqilabçı kimi əlbəttə, başa düşürsünüz ki, biz başqa cür hərəkət edə bilmərik».

Şərqi Avropa ölkələrində, Koreyada, Vyetnamda millətlərin taleyini kommunistlərə və Qızıl Ordunun himayəsinə tapşıran Stalin İranda azərbaycanlıların hüquqlarını... Qəvamüs-səltənəyə həvalə edirdi. Kim idi bu «xilaskar» Qəddarlıqda və amansızlıqda ad çıxarmışdı, Stalinin yaşıdı idi. Azərbaycanlıların qənimi idi. Başqa sözlə, Sovet Azərbaycanında kirovlar, mirzoyanlar kim idisə, İranda bu rolu Qəvam oynamışdı. Maraqlıdır ki, Stalin özü də Pişəvəriyə məktubunda Qəvamın irticaçı keçmişindən bəhs edirdi. Məktubda deyilirdi: «Keçmişdə Qəvamın necə bir irticaçı olmasına baxmayaraq, indi o özünü və hökumətini müdafiə etmək üçün bəzi demokratik islahatlara getməyə və İranın demokratik elementləri arasında dayaq axtarmağa məcburdur. Belə bir şəraitdə bizim taktikamız necə olmalıdır? Mən fikirləşirəm ki, biz Qəvamdan güzəştlər qoparmaq üçün bu münaqişədən istifadə etməliyik, ona kömək göstərməliyik».

Mir Cəfər Bağırov Stalinin Pişəvəriyə məktubundakı bu sözləri yaxşı xatırlayırdı: «Bizə məlum olduğuna görə, siz demişsiniz ki, biz əvvəlcə sizi göylərə qaldırmış, sonra isə uçuruma yuvarlatmışıq və sizi rüsvay etmişik. Əgər bu doğrudursa, onda bizdə təəccüb hissi doğurur».

Burada təəccüblənəsi bir şey yoxdur. Hər iki Mir Cəfərə gün kimi aydın idi ki, Qızıl Ordu hissələrinin İrana yeridildiyi ilk mərhələlərdə Stalin Cənubi Azərbaycanda özünü idarəçiliyi müdafiə edirdi... Stalinin gələcəkdə Cənubi və Şimali Azərbaycanı birləşdirmək, planını Mir Cəfər Bağırov ürəkdən alqışlayır və buna səy göstərirdi. Müharibə nəticəsində ikiyə bölünmüş Azərbaycanı müharibə nəticəsində də birləşdirmək üçün bundan əlverişli imkan ola bilməzdi. Bütövlük Azərbaycanın bütün dərdlərinə son qoyardı. Fəqət bu plan əslində SSRİ-nin genişlənməsinə, Cənubi Azərbaycanda da totalitar kommunist rejiminin qurulmasına gətirə bilərdi. Qərbin ultimatumu, ABŞ-ın atom şantajı Stalini geri çəkilməyə məcbur etdi.

Mir Cəfər Bağırovdan fərqli olaraq, Mir Cəfər Pişəvəri türk xalqlarının taleyinə tarix boyu düşmən münasibəti bəsləyən ermənipərəst rus və bolşevik rəhbərlərinin siyasi oyunbazlığını daha çox dərk edirdi. Stalinin şəxsi məktubu ilə tanış olandan sonra o demişdi: «Mən rusları yaxşı tanıyıram. Onlar, öz mənfəətləri başqa bir tərəfdə olsa, bizi meydanm ortasında tək qoyacaq və hətta çox ola bilər düşmənin əlinə verəcəklər».

Elə də oldu. İki Mir Cəfər meydanda köməksiz qaldı. Rusiya və Amerika İranda irtica qüvvələrinə rəvac verdilər... Şah qoşunları azəri türklərinin demokratik hərəkatına divan tutanda sovet mətbuatı günahın əsas hissəsini Amerika-İngiltərə imperializminin üzərinə yıxırdı. Cənubi Azərbaycanda tüğyan edən vəhşiliklərdən bəhs edən bir yazını «Kommunist» qəzeti özünün 1950-ci il 18 avqust tarixli sayında dərc etmişdi. Məqalədə oxuyuruq: «Gizli iş görməyə mahir olan şəxslər Amerika-İngiltərə hakim dairələrinin göstərişi ilə İranda elə qanlar və çirkin işlərlə məşğul olurdular ki, bunun misli hətta orta əsrlər dövründə belə görünməmişdir. İran irticaçıları və onların amerikan ağaları Arazın o tayında öz milli azadlığı və demokratik hüquqları uğrunda mübarizəyə qalxan milyonlarla xalq kütlələrinin hərəkatını qan dəryasında boğdular». Kim idi bu irticaçılar? Zəhmətkeş və azadlıqsevər vətəndaşların iradəsini qıranlar! Lakin xeyir-duanı onlara Kremlin ikiüzlü rəhbərləri və beynəlmiləlçi cildinə girmiş daşnaklar, arxiyepiskop Tanginyan və icma başçısı Mkrtıçyanlar verirdi.

Mir Cəfər Pişəvəri Moskva üçün M.Ə.Rəsulzadə və N.Nərimanovdan sonra ən qatı «millətçi rəhbər» idi. Onu M.Ə.Rəsulzadə kimi ölkədən çıxarıb mühacirətə göndərmək olmazdı. Çünki SSRİ-nin sərhədləri seyf qapı kimi kilidlənmişdi. M.C.Pişəvərini N.Nərimanov kimi Moskvaya aparıb rəhbər bir iş də vermək olmazdı. Ən başlıcası ona görə ki, İranla münasibətlər Kreml üçün Azərbaycanın taleyindən üstün idi. M.C.PİşəvərI elə Sovet Azərbaycanının hüdudları çərçivəsində yox edilməli idi. Həm də bu, Bakıda baş verməməliydi. Çünki Moskvanın iki Mir Cəfərin arasını vurmaq cəhdlərinə baxmayaraq, onları bir-birinə düşmən etmək

qeyri-mümkündü. «Gizli iş görməyə mahir olan şəxslər» Mir Cəfər Pişəvəriyə qarşı «əməliyyatı» Mir Cəfər Bağırovun xəbəri olmadan həyata keçirməli idilər.

1947-ci ilin isti yay günlərində Mir Cəfər Pişəvəri Gəncədə idi. O, tək deyildi. Qonaqlar arasında respublika Dövlət Təhlükəsizliyi Nazirliyi katibliyinin rəisi, SSRİ-nin Təbrizdəki konsulunun müavini işlədiyi illərdən Pişəvərinin tanıdığı Nuru Quliyev, general Qulam Yəhya da vardı...

Qonaqlar general Qulam Yəhyanın «Hudzon» markalı avtomaşınında yay gecəsinin sakitliyində Şəkiyə tərəf irəliləməkdə idilər. «Hudzon»un sürücüsü kim idi? Karnik Melixyan. Onun mənşəyi DTN rəhbərlərinə yaxşıca məlum idi. Atası İranda Daşnaksütyun partiyasının lideri imiş. Arvadı vaxtilə Britaniyanın İrandaki səfirliyində işləyirmiş. Karnik Melixyanın adına Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyinin şöbəsində şəxsi vərəqə açılıbmış.

1944-49-cu illərdə respublika Dövlət Təhlükəsizliyi Nazirliyi Yevlax rayon şöbəsinin müdiri vəzifəsində işləmiş Lətif Salayevin şahid ifadəsində deyildiyi kimi, Karnik Melixyanın xarici kəşfiyyatın agenti olması Dövlət Təhlükəsizliyi naziri Yemelyanova məlum idi. Buna baxmayaraq, erməni sürücü general Qulam Yəhyanın maşınını sürməkdə idi. Ona hətta Pişəvərini də gəzdirməyi tapşırmışdılar.

Azərbaycan xalqının qatillərinə nökərlik edən K.Melixyan Yevlaxın 14 kilometrliyində maşını qəzaya uğratmışdı... Guya maşını gecə vaxtı sürdüyündən sükan arxasında onu yuxu tutubmuş. Sürücüdən soruşan olmamışdı ki, sükanın ikiyə bölünməsinə baxmayaraq, sənə heç bir xətər dəymədiyi halda necə olub ki, sənin yanında əyləşən Pişəvərinin qabırğası əzilmiş, ayağı sınmış, başı yaralanmışdır?

Əvvəlcədən qurulmuş maşın qəzasında Pişəvərinin sağ qalması «əməliyyatın» tam həyata keçirilməməsi demək idi. Ona görə də Pişəvərinin ölümü, necə deyərlər, təşkil olunmalı idi.

1947-ci il iyul ayının 11-də Pişəvəri ölümcül halda Yevlax rayon xəstəxanasına gətiriləndə huşu özündə idi. Həkimlərdən xahiş etdi ki, Bakıdan doğma qardaşını gətirsinlər, o, həkim-cərrahdır. Əvəzində Stepanakertdən cərrah Əsriyan gəldi. Pişəvəri Gəncədəki iyirmi yaşlı oğlunu yanında görmək istədi. Ömrünün ən çətin məqamında ataya oğlundan daha yaxın kim ola bilərdi? Xəbər çatdırmadüar. Çatdırsaydılar, qaça-qaça gələrdi və ... cinayətdən agah olardı.

Yalnız ertəsi günü, iyulun 12-də Bakıdan həkimləri və şəfqət bacılarını gətirən təyyarə Yevlaxa endi. Artıq gec idi. Pişəvəri cərrahiyyə əməliyyatından ayağa qalxmadı...

...İllər keçmişdir. Mir Cəfərləri göyə qaldırıb sonra da yerə çırpan imperiya dağılmışdır. Xalqımızın nadir övladlarının müəmmalı ölümünün əsl səbəbləri üzə çıxmaqdadır. Tarix elmləri doktoru, professor Şövkət Tağıyeva «Azadlıq» qəzetinin 1996-cı il 13 iyul tarixli sayında dərc olunmuş «Əbədi dərs» məqaləsində inkaredilməz elmi nəticələrə gəlmişdir. Görkəmli alim yazır: «İran müəlliflərindən

Vəkilinin gəldiyi bu nəticə də düşündürücüdür: «Pişəvərinin dikbaşlığından incik və narazı olan ruslar... onu öldürməyi qərara aldılar, qəzadan sonra xəstəxanada iynə vurub öldürdülər».

## ZİNDAN DƏFTƏRİNDƏN XATİRƏLƏR

## (1930-1941-ci illər)

## ZİNDAN DİVARLARI ARASINDA YAZILMIŞ XATİRƏLƏR

Seyid Cəfər Pişəvəri (Cavadzadə) Azərbaycan xalqının keçən yüzillikdə yetirdiyi görkəmli siyasi xadimlərdən olmuşdur. Onun həyatının bütün çalarları doğma xalqının azadlıq və qurtuluşuna həsr olunmuşdu. O, özü bu haqda yazmışdı: "Məni bu böyük və şərəfli yola çəkib gətirən azadlıq istəyim və bir də millətim haqda düşüncələrim olmuşdur".

XX əsrin əvvəllərində mübarizə meydanına əvvəl bir maarifçi, sonra istedadlı jurnalist kimi atılan S.C. Pişəvəri sonrakı illərdə ideoloji xətt axtarışında olmuş: inqilabçı demokrat, sosial-demokrat, kommunist və son hesabda kommunistlik məsləkindən əl çəkən milli-demokrat olmuşdur. O, ömrünü demokrat kimi də başa vurmuşdur. S.C.Pişəvəri 1930-cu ildə istintaqa verdiyi izahatda kommunistliyi, onun ideologiyasını 10 il öyrənib, mütaliə etdikdən sonra bu ideologiyanın prinsiplərini İranın milli zəminə tətbiqinin mümkünsüzlüyünü öz xatirələrində dönə-dönə etiraf etmişdi. O, yazır: "Bizim qurduğumuz Azərbaycan Milli Hökuməti nə kommunist və nə də sosialist dövlət deyildi, bütün sinif və təbəqələrə söykənən milli-demokrat bir hökumət idi”.

S.C.Pişəvərinin dünya görüşünün formalaşmasında və sabitləşməsində onun 10 il “Qəsr-Qacar” adlanan zindan həyatının mühüm rolu olmuşdu. Zindanda siyasi məhbus həyatı keçirərkən o, 10-15 ildə keçdiyi mübarizə yoluna tənqidi nəzər salır, olmuşları götür-qoy edir və bu nəticəyə gəlir ki, onun vətəni üçün Arazın o tayından Sovet rejimi yararsızdı. Onun bu haqda fikir və düşüncələrini təkcə istintaq materiallarından yox, həm də "Ajır" qəzetində çap etdirdiyi məqalələrdən, öz əli ilə yazdığı "Xatirələr"dən və ən nəhayət onunla bir zindanda (hətta bir il bir kamerada) yatmış və məsləkcə o zaman kommunist olan Ənvər Xameinin yazılarında görmək olur. Sonralar S.C.Pişəvəri "Qəsr-Qacar" da keçirdiyi zindan illərini bir məktəb adlandırmışdı. Siyasi mübariz, inqilabçı, demokrat, jurnalist, yazıçı, dövlət xadimi olmuş S.C.Pişəvəri ağır zindan günlərində də qələmi yerə qoymamışdı. O, "Ədalət Firqəsinin tarixi", "Zindan xatirə dəftərindən", "Cəngəl hərəkatı" siyasi-tarixi səpgili kitablarını və bir sıra elmi, bədii-tənqidi yazılarını, həmçinin, "Nadirə" və "Məhin banu" adlı romanlarını zindanda yazmışdı.

Onun zindan xatirələri toplusunda Pəhləvi rejiminin amansızlığı, "Qəsr-Qacar" zindanındakı insan qatillərinin siyasi məhbusları diri gözlü məhv etməyə yönəldilmiş alçaq əməlləri geniş müşahidə diapazonunda qələmə alınmışdı.

Xatirələri bütövlükdə kitabda yerləşdirmək mümkünsüz olduğundan biz xatirələrdən bəzi lövhələri oxucuların nəzərinə çatdırmaqla kifayətlənirik.

S.C.Pişəvəri Tehranın şimal-şərqində yerləşən «Qəsr-Qacar» adlanan zindanda 10 il tamam məhbus ömrü keçirmişdi. O, zindanda olarkən özünün «Zindan xatirələri» başlıqlı yazısını - gündəliyini yazmışdı. O, bu gündəliyi xatirələr kimi çap etdirmək fikrində olmamışdı. Özünün yazdığı kimi, onu bu işə dostu, «Dad» qəzetinin redaktoru Ütnid Nuri razı salmışdır. İlk dəfə «Dad» qəzetində «Sirnruğ» imzası ilə çap edilən «Zindandan Kaşanədək xatirələr», sonra «Ajir» qazetində «Zindan xatirələri dəftərindən» başlığı altında çap edilmişdir. «Zindan xatirələri dəftərindən» bəzi parçaları oxucuya təqdim edirik.

«...Qəsrin» dastanı kədərli, dəhşətli, eyni halda oxunmalıdır. Təəssüflər olsun ki, mövcud vasitələrlə bu dastanı bütövlüklə təsvir etmək mümkün deyil. Biz bu xatirələrdə icbari olaraq, onların bəzi yerlərini nəzərə çatdırmaqla qənaətlənmişik. Eyni halda hadisələri hekayə kimi şərh etsəydik çox uzun və yorucu ola bilərdi. Buna görə də müvəqqəti həbs və istintaq günlərini qeyd olunan tərzdə qələmə alıb, qalan məsələləri isə ayrı-ayrı mövzular kimi qeyd edəcəyik. Bizcə, bu üslub ilə həm xatirələr yorucu olmaz, həm də oxucu istədiyi bölməni asanlıqla tapıb istifadə edə bilər. Buna görə də qeyd etdiyim yazı səpgi və eləcə də yeri gəldikdə qədim lüğət və ibarələrdən istifadə etmək müəllif üçün icbari bir hal olmuşdur. Çünki, qədim lüğətlərin yerinə yaxşı adət etmədiyim təzə sözləri işlətmək üçün lüğət kitabına baxsaydım ehtimal ki, cümlələrin yazılmasında süni hallar meydana gəlirdi və xatirələr dəyərsiz bir hala düşərdi. Hər halda mən bu yazını kitab hesab etmirəm. Müntəzəm bir xatirə və ya qeydlər də deyil. Bu yazılar demək olar ki, sadəcə olaraq gördüyüm hadisələrin təsvirindən ibarətdir. Burada yazılmış imla və mətləbləri olduğu kimi şərh etmək sahəsində də bir çox nöqsanlara yol verildiyini etiraf etməliyəm. Oxucu da yaddan çıxarmamalıdır ki, o, on bir il zindanda qalmış bir adamın yorğun və sarsılmış beyninin məhsulunu nəzərdən keçirir.

## İLK İSTİNTAQ

Gün batanadək heç kəs mənimlə danışmadı. Otağın xəlvət olmasını gözləyirdilər. Ehteşam başını aşağı salaraq qarşısına qoyulmuş kağız və papkaları vərəqləyirdi. Rüfət avtomatik maşın kimi daim hərəkətdə idi. O, gedir-gəlir, oturur-qalxır və tez-tez diqqətlə mənə baxırdı. O çimçəşdirici gülüşü ilə məni istehza edirdi. Mən isə fikrə dalmışdım. Bu intizar iki-üç saat çəkdi. Mən büsbütün yorulmuşdum. Gecənin başlanması ilə əlaqədar beynimdə qara düşüncə və xəyallar qüblənirdi. Nəhayət saat 6 radələrində, qısa boylu, sarıbəniz arıq kişi özünü şən

göstərmək üçün süni təbəssüm ilə qapıdan içəri girdi. Rüfət işarə ilə məni ona tanıtdırdı. O, salam verdikdən və bir çox səmimi təriflər etdikdən sonra mizin arxasında əyləşərək, mənə də öz qarşısında əyləşməyə icazə verdi. Bizim danışıqlarımıza heç kəs qulaq asmırdı. Həmin şəxs dərhal qiyafəsini ciddiləşdirib, mizin siyirtməsindən neçə vərəq rəsmi kağız çıxartdıqdan sonra adımı, familiyamı, nə işlə məşğul olduğumu soruşdu. Sonra o, artist kimi başını qaldırıb, gözlərini üzümə zillədi. O, öz fikrincə istəyirdi ki, gözlərimin içini oxusun. Mən çox çətinliklə gülməyimin qarşısını aldım. Çünki o, sadə bir məsələni israramiz bir şəkilə salmaq istəyirdi.

İlk vaxtlarda soyuqqanlılıq göstərdim. Lakin sonra yavaş-yavaş əsəbiləşməyə başladım. Öz-özümə deyirdim ki, daha istintaq üçün məzhəkəbazlıq lazım deyildir. Bu gənc də yəqin bəzi polis və cinai romanların təsiri altına düşmüş, hər şeyə şübhəli yanaşır və bütün bu məsələləri öz xəyal və təsəvvürləri ilə həll etmək istəyir. Sonralar həmin fikrimin də yanlış olduğunu başa düşdüm. Mənə məlum oldu ki, bu ağa hətta polisliyə dair romanları belə oxumamışdır. Onun hərəkətləri işlədiyi alacaq mühitin məhsulu idi. Buna baxmayaraq o özünü ədiblər sırasında sayırdı. Söz arası deyirdi: «Bir şeyi yazması üçün vaxt tapa bilməmişdi».

O, Xuzistandan təzə gəlmişdi. Zahirdə hazırlıqlı adam kimi görünürdü. Lakin hamı onu fırıldaqçı, şarlatan kimi məriflik edirdi.

İstintaq mənimlə Əli Şərqinin arasındakı tanışlıq üstündə gedirdi. Foruzeş istəyirdi ki, onu adam öldürən, terrorçu, məni isə onu təhrik edən bir adam kimi göstərib, bu yol ilə hər ikimizin edam olunmamız üçün əsas hazırlasın. Şərqini məndən bir həftə qabaq tutmuşdular. Foruzeş onun öz günahlarını boynuna aldığını iddia edirdi. Mən dedim ki, bizi üzləşdirin, o nə desə mən qəbul edərəm. Bu üzləşdirmə çox gülünc bir vəziyyətdə həyata keçirildi. Məlum oldu ki, hər ikimizi sadə bir anlaşılmazlıq üzündən həbs etmişlər. Buna baxmayaraq qeyd etdiyimiz ağa öz təsəvvürlərini həqiqi bir hadisə şəklinə salıb raport vermişdi.

Daha gülünc məsələ bundan ibarət idi ki, o, cavablarımı oxumadan altına qol çəkməyimi tələb edirdi. O deyirdi: «Adam «Molla Nəqti» kimi nöqtələr üzərində israr etməməlidir. Mən ki, sizə papış tikmək istəmirəm. Burada iki kəlmənin artıq ya əskik olmasının nə əhəmiyyəti vardır».

Mən isə bilirdim ki, iş yoxlanılan zaman təqsiri ancaq bir kəlmə ilə sabit etmək olar. Məsələn, «xeyr» əvəzinə «bəli» sözünün yazılmasını götürək. Lakin mənim bütün bu xəyallarım tamamilə yersizdir. Çünki məhkəmədə və hətta ədliyyədə belə işlər yoxlanılmadı. Yalnız foruzeşin raportu əsasında hökm çıxarıldı.

Təhqiqat sona çatdıqdan sonra o, ciblərimi axtararaq qoltuğumdan qələm və kağız parçalarının hamısını götürdü. Bu həbsə alınmaq əlaməti idi. Birlikdə otaqdan çıxdıq. Yolda mənə dedi: «Ağa, hamama gedin, tərləməmiş kir çıxmaz».

Mən onun məqsədini başa düşmədim. Müstəntiqin maddi məqsədi olmasını xəyalıma belə gətirə bilmirdim. Lakin o, həmin məsələ üzərində israr edirdi. Ona görə də daha bir addım irəli ataraq aydın şəkildə dedi: «Ağa, siz bizə kömək etməlisiniz».

Təəccüblə dedim: «Sizə nə kimi kömək göstərə bilərəm? Mən də sizin kimi azacıq maaş alıram və bununla öz əhl-əyalımı idarə etməliyəm. Mənim pulum haradadır?»

Fikir edirdim ki, o, bəlkə də məni sınamaq istəyir və ya istəyir ki, həmin vasitə ilə müəyyən sübut əldə etsin. O, təcrübəli və məharətli idi. Mənim mənfi cavabımı eşitdikcə gülüb dedi: «Siz mənim məqsədimi yaxşı başa düşmədiniz. Mən istəyirdim ki, siz məsələnin üstünün açılmasında bizə yardım edəsiz». Bu zaman biz müvəqqəti həbsxananın qapısına çatmışdıq.

## İKİ NÖMRƏLİ MÜVƏQQƏTİ HƏBSXANANIN BEŞİNCİ OTAĞI

Nəzmiyyənin (polis idarəsi) məşhur dalanı altında yerləşən bu qapının dəhşətli bir görünüşü var idi. O alçaq, qaranlıq və sehramiz görünürdü. Foruzeş qapının zəngini çaldı. Kök və enlikürək bir pasban (polis) ilk dəfə qapının ortasındakı kiçik deşikdən başını çıxararaq foruzeş ilə salamlaşdı, sonra qapını açaraq məni təhvil aldı. Qapı bağlandı.

Polis yaşlı bir adam idi. Sonralar onun familiyasının Dəbir olduğunu bildim. Savadı yox idi. Deyirdi ki, düz 25 ildir ki, həbsxanada qulluq edir. O, qorxaq, inzibatçı və tam dindar bir adam idi. Özündən dörd qat kiçik olan arvadını həddindən artıq sevir və ona az qala sitayiş edirdi. Uşağı yox idi. Söz düşəndə deyirdi ki, arvad mənim həm atam, həm uşağım, həm dostum, həm tanışım, bir sözlə hər şeyimdir.

Məhbuslar onu incitmək istəyəndə arvadına nifrət edirdilər. Dəbir sözbaşı «əstafürlah. La ilahə illəllah» deyirdi.

Müvəqqəti saxlama dəhlizində o, ilk dəfə ciddi bir baxışla başdan ayağa məni süzdü və bu yol ilə məni başa saldı ki, daha azadlıq və müstəqillikdən göz yummalıyam, bura zindandır, buraya gələn hər bir adam öz təklifini anlamalıdır, iradə meyil və ixtiyarını bir kənara tullamahdır. Sən də mənim əlimə tapşırılmısan. Başa düşməlisən ki, səninlə könlüm istədiyi kimi rəftar edəcəyəm. Bundan əlavə mən özüm də başqalarının göstəriş və poladdan möhkəm qayda-qanunlarına tabe edilmişəm. Mən onların göstərişlərini iradəsiz bir maşın kimi həyata keçirirəm. Əgər ürəyim, hissiyyatım, vicdanım və kişiliyim varsa da onların hamısını zindandan xaricdə qoymuşam. Məndən kişilik gözləməməlisən...

Beşinci otağın qapısına çatdıq. Çox dar və qaranlıq dalana açılan bu qapının dəmir məhəccərləri və dəhşətli görünən böyük bir qıfılı var idi. Dəbir qapını açdıqdan sonra onun üzbəüzündə qoyulmuş dəmir çarpayını göstərərək dedi: «Bu sənin çarpayındır, yerindən tərpənməməlisən. Elə oturmalısan ki, mən qapının

deşiyindən baxanda səni görə bilim. Tualet isə arxada yerləşir. Su istəyəndə qapını döyərsən gətirərlər».

Bu sözdən sonra o, fanosu (əl çırağı) götürüb dəmir məcərli qapını bağladı. Qıfılı vurub, çıxıb getdi. Qaranlıq və pis qoxu gələn bu soyuq otaqda tək qaldım. Otağa girən zaman fürsətdən istifadə edərək öz təzə «mənzilimi» və oradakı əşyaları diqqətlə nəzərdən keçirmişdim. Çarpayıdan və nə də onun üzərindəki yorğan-döşəkdən istifadə etmək olmazdı. Kəsif yorğan-döşəyin iyindən adamın ürəyi qalxırdı. Adam hətta onun üstündə əyləşməyə belə çimçəşirdi. Əlacsız qalaraq otaqda gəzişməyə başladım. Otağın uzunluğu beş addım, eni isə təqribən üç addım idi. Bu isə dolanmağım üçün kifayət edirdi.

Çarpayı haqqında iki kəlmə də olsa yazmaq lazımdır. O elə qayrılmışdı ki, istirahət əvəzinə insana əziyyət verirdi. Yoğun dəmirləri adamın bədənini əzirdi. Lakin hər halda çarpayı idi. Üstündə də qeyd etdiyim yorğan-döşək var idi. Bunlar İsveçrə müşavirlərindən yadigar qalmışdı. Mövcud üsul-idarənin cəlladları hələ də onlardan istifadə edirdilər. Lakin son vaxtlarda, yəni mənim tutulduğumdan on il sonra, biz mərkəzi zindanın zahirdə çox yaxşı görünən binasının otaqlarında çürümüş kələmələrdən başqa ayrı bir əşya görmədik. Məhbuslara hətta küzə və su qabı da vermirdilər. On nəfər məhbus bir çürümüş adyalın altında yatırdı.

Buradakı ağcaqanadlar daha pis vəziyyət törətmişdi. Onlar lap qışın çiləsində belə adamı rahat qoymurdular. Pıs-pısalar, siçanlar da rahat oturmayaraq lazımi «xidmət» göstərirdilər. Ağcaqanadlar yeknəsək və yorucu səsləri ilə sanki qarışıq bir «orkestr» təşkil edirdi. Pıs-pısalar və siçanlar isə atılıb düşüb oynayırdılar. Bu haqda mənim fikirləşməyə kiçik imkanım belə yox idi.

Dəbirin çıxıb getməsi ilə başıma min cür xəyal və dəhşətli fikirlər hücum etməyə başlamışdı. Daima gəzişir və öz düşüncələrimi müəyyən nöqtədə toplamağa çalışırdım ki, bu tərsə quyuda nə vaxtadək qalacağam. Bu barədə düşünürdüm. Fikirləşirdim ki, ailəm nə vəziyyətdədir?

Görəsən Ənzabi evimizə xəbər çatdırdımı? Mənlə dostluq onun üçün gələcəkdə çətinlik törədəcəkmi? İndi bir çox məsələ onun üçün aydın deyildir. Bəlkə də çoxlu yeni şeylər kəşf edibdir. Axı o, çox məğrur idi. Məndən başqa heç kəsin sözünü qəbul etməzdi. Yazıq yəqin ki, indi qüssə edəcəkdir. Bəlkə də korlanıb aradan getdi. Bu qış fəslində o, haradan kömür və azuqə tapacaqdır. Beləliklə fikirlər məni get-gedə bədbinliyə doğru yönəldirdi. Hər an daha qorxulu hadisələr gözümün qarşısında canlanırdı. Çünki Hecazini öldürmüşlər. Mahmud Qatilin əvəzinə Əkbər Sallaxa işgəncə vermişlər.

Məni nə üçün altı aydı zindandan buraxmırlar? Axı məndən nə istəyirlər? Yazıq Əli Şərqini nə üçün tofiq (həbs) etmişlər? Deyirlər ki, hamı casus olmuşdur. Adamlar, hətta öz arvad-uşaqdarına da etibar etmirlər. Bəzi adamların yanında ağzımdan belə müxalif söz qaçırmışam - diyə düşünürdüm.

Dəqiqəbədəqiqə artmaqda olan bu müxtəlif fikirlər məni incidirdi. Hava çox soyuq idi. Bir tərəfdən də külək əsirdi. Zindanda bədbəxt məhbusların taleyindən

uca və həmahəng səslərdən başqa ayrı bir səs eşidilmirdi. Mən çox əsəbləşmişdim. Hətta öz həyatımdan belə doymuşdum. Bu əzabverici fikirlərin pəncəsindən yaxamı necə xilas etmək haqqında düşünürdüm. Birdən-birə neçə illər bundan qabaq oxuduğum siyasi məhbuslardan birinin xatirələri yadıma düşdü. Bu xatirələr zindan dövrünün sonunadək tam mənasında mənə təsginlik verən və yol göstərən amilə çevrildi. Həmin xatirələri təsadüfi olaraq oxumasa idim və ya onlar mənim yadıma düşməsəydi, bəlkə də digər dostlar kimi mənə də zindan mühiti qalib gələrdi. Onlar kimi məni də öldürüb aradan apardı...

Ehtiyac qəribə bir şeydir. O hər hansı bir moğedə öz təsirini göstərir. Məhbuslar da ehtiyac üzündən özlərinə xüsusi qayda-qanunlar düzəltmişdilər. Həmin qayda-qanunları da ciddi surətdə gözləyirdilər. Məsələn mənim beşinci otağa gəldiyim saatda dərhal məndən papiros ya tiryəkə ehtiyacım olub, oldağımı soruşdular. Mən isə bu cəhətdən çox rahat idim. Ona görə ki, ömrümdə heç bir pis şeyə adət etməmişdim.

Üçüncü gecənin əhvalatını heç vaxt yadımdan çıxara bilmirəm. Təxminən gecə yarısı idi. Bir nəfər isə sanki, pişik ilə danışırdı. Səsi eşidən kimi dayandım. Səs düz otağın qapısı dalından gəlirdi. O deyirdi: «Ey pişik, səninləyəm! Bilirəm ki yuxum gəlmir, ayıq ol. Gözlə başına papaq keçirməsinlər. Təminat işçiləri çox pis adamlardırlar. Ey heyvan, səninləyəm. Sən gözə çox fəqir görünürsən. Bunlar vicdan, Allah, Peyğəmbərin nə olduğunu bilmirlər. Gözlə, onların yalan andiçmələrinə birdən inanarsan ha... Ey pişik, səninləyəm! Sədinin bu hekayəsini yəqin ki, dəfələrlə eşitmişəm. Orada deyilir: «Səndən soruşulmayan suala cavab vermə. Səndən istənilməyən şeyi göstərmə. Pişikciyəzim, səninləyəm! Gözlərini yaxşı aç. Nəzmiyədə söhbətlər «yox» ilə başlanır. «Bəli» dedikdə daha xilas ola bilməyəcəksən».

Bu sözləri deyən adam həmin vasitə ilə mənə yol göstərmək istəyirdi. Bu adam zindanı təmizləyən idi. O, məşhur və zirək oğrulardan biri sayılırdı. Buna baxmayaraq o məhbusluq təəssübünü yaddan çıxartmayır və iki-üç saat müddətində pişik adı ilə mənə nəsihət verirdi.

## AXTARIŞ VƏ TƏFTİŞ

Zindanın birinci gecəsi müxtəlif qorxu və yorucu düşüncələrlə başa çatdı... Dəbir gəlib mənə dedi: sizi istəmişlər.

Kamerada tək yatan məhbusları bir qayda olaraq adları ilə yox, kameranın nömrəsi ilə çağırırdüar. Buna görə də mənim adımı «Beşinci otaq» qoymuşdular.

Zindan qapısının xaricində Ettelaat (Təhlükəsizlik) idarəsindən göndərilmiş iki polis nəfəri dayanıb məni gözləyirdi. Dəbir məni onlara təhvil verib rəsid (imza) aldı. Nəzmiyyətinin böyük qapısından çıxıb evə tərəf yola düşdük. Ağalar mərhəmət göstərərək mənim hesabıma fayton çağırdılar.

Mənə məlum oldu ki, Ənzabi tutulmağımı evə xəbər vermişdi. Evdə Daryuşi (oğlunu) çox nigaran, qorxulu vəziyyətdə gördüm. O, bəzən mənə, bəzən də mənimlə gəlmiş adamlara baxırdı. Ağalar axtarışa gəlmişdilər. Onların içərisində nisbətən gənc görünən polisin farsca savadı var idi. Nisbətən ağllı və ədəbli idi. Digəri isə tam savadsız idi. Həddindən ziyada yerləri nəzərdən keçirdilər. Hər bir deşiyə dəfələrlə başlarını soxdular. Hər yeri axtardılar. Əllərinə keçən şeyləri yüz dəfə yoxlayır, sonra isə tam etinasızlıqla bir kənara atırdılar. Hətta uşaq oyuncaqlarını belə yoxlayır, uşağın gözü qarşısında sındırır, yerə tökür və təpik altına salırdılar. Uşaq isə mat-mat baxır və danışmırdı. Sanki o, heyrət, təəccüb dənizində qərq olmuşdu. Daha hər vaxtlar olduğu kimi dil uzunluğu etmirdi. Özü oyuncaqlarının sındırılıb yerə tullanmasına mane olmurdu. Polislər dedilər ki, farsi dilindən başqa ayrı dillərdə yazılmış kitabları yığıb aparmaq haqqında onlara göstəriş vermişdilər. Bu işdən nə məqsəd daşımaları məlum idi. O vaxt Ettelaat idarəsində xarici dilləri bilən məmur yox idi. Buna görə də başqa dillərdə olan bütün kitabları nəzmiyyəyə aparmalı olurdular.

Evdə axtarış aparılan zaman altı yaşlı uşaq və ona baxan qoca dayəsindən başqa evdə heç kim yox idi. Mən son dəfə olaraq oğlumla miz arxasında əyləşmək istədim. Uşağın nənəsi çay gətirdi. Uşaq bir az cəsartlənərək mənə tərəf əyilib anasının evdə olmaması səbəbini yavaşca məlumat verdi. Mən belə xəyal etdim ki, o, anasının göstərişi əsasında mənimlə bu cür ehtiyat ilə danışır. Sonralar isə məlum oldu ki, bu haqda uşağa heç bir tapşırıq verilməmişdi. O özü anlamışdı ki, atasını evə qayıtmağa qoymayan, sevimli oyuncaqlarım sındırıb, dağıdan biganə adamların yanında uca səslə danışmamalıdır. Qüssə və kədərin şiddətindən istər mən, istərsə də uşaq heç bir şey yeyə bilmədik. Yalnız bir fincan çay içdikdən sonra mən verilən əmr əsasında ayağa durdum. Vidalaşma zamanı uşağın gözləri dolmuşdu. O, məni kədərləndirməmək üçün ağlamaq istəmirdi. Eyni zamanda həmişə dediyi kimi: «Atacan, evə tez qayıt» sözünü də təkrar etmədi. O, sanki, kədərli və məhzun bir həyatın başlanmasını, öz atasının əldən getməsini hiss etmişdi.

Axtarış qurtardıqdan və kədərləndirici vidalaşma sona çatdıqdan sonra, uşaq işin gedişini hiss etdi. Polislər kitabları daşıyaraq faytonun içinə tökdülər. Onları Ettelaat idarəsinə gətirdik.

Foruzeş bizi tam səbirsizliklə gözləyirdi. Kitabları gördükdə onun gözləri parıldadı. Bəlkə də onların hamısının «Zərərli» kitablar olduğunu güman edirdi...

Biz gələn kimi dərhal işə başlandı. Foruzeş yanında oturmuş zabitə üz tutaraq dedi: «Buyurun, sizin növbəniz çatmışdır». Mən qoşun və nəzmiyyə (polis) işçilərinin dərəcələrini (rütbələrini) hələ də ayırd edə bilmədiyim üçün müraciət olunan zabitin nə rütbədə olduğunu deyə bilmərəm. Fəqət onu bildim ki, o, Rəştli idi.

Foruzeşin özü də bekar dayanmayaraq kitabları alt-üst etməyə başladı. Hərəkətindən, onun xarici dilləri bilməməsini anladım. O yalnız şəkillərdən və

tablolardan bir şeyi anlamağa çalışırdı. Təsadüfən kitablarımın içərisində fars dilində yazılmış çox kiçik bir kitabça var idi. Bu Tolstoyun çox adi kitabçalarından biri idi. Seyid Əbdülləhim Xarxalinin xarici dildən tərcümə etdiyi həmin kitabçanın başlığında «Biri-birinizə yaxşılıq edin» cümləsi yazılmışdı. Onun üstündə Tolstoyun adı olduğuna görə polis şübhələndi. Bu hərəkət nəticəsində məni gülmək tutdu. Zərərli kitaba baxın! Nə qədər də təhlükəli adı var idi? «Bir-birinizə yaxşılıq edin»!!.. Ağa üzdən getmədi. O kitabçanı axıra qədər yoxladı. Öz qəlbimdə dedim, şükür olsun ki, ağa xarici dilləri bilmir. Yoxsa Darvinin «İnsanın mənşəyi» kitabı haqqında, rus ensiklopediyasının müxtəlif cildləri haqqında, digər tarix və fəlsəfəyə aid kitablar haqqında nələr edərdi...

Polis zabiti isə nəzərə sadə bir adam kimi görünürdü. Onun fransız və ingilis dilində yazılmış kitablarla işi yox idi. O, fəqət rus dilində yazılmış kitablara baxırdı. Zabit rus dilinin ancaq əlifbasını bilirdi. Daha çox şübhələndiyi rus kitablarını ayırd edə bilmirdi. Bu isə yaxşı hal idi. İlk növbədə xarici dillərdə yazılmış kitabları ayırıb bir kənara qoydular. Mən bir rahat nəfəs aldım. Sonra rus kitablarına başladıq. Zabit heç nə başa düşmürdü. Bu məsələ təhlükəli idi. Çünki, kitabların hamısını zərərli hesab edə bilərdi. Mən qərara gəldim ki, onun ovucunu açam və rus dilini bilməməsini isbat edəm. Lakin... Mən dedim zərərli kitablar Rusiyada baş vermiş Oktyabr İnqilabından sonra, yəni 1917-ci ildən sonra nəşr olunmuşdur. Belə olduqda həmin tarixdən qabaq nəşr edilən kitablar zərərli sayılmamalıdır. Bu sözlərimi onların hər ikisi təsdiq etdilər. Beləliklə, rus dilində 1917-ci ilə qədər yazılmış kitabları seyr etsələr də zərərli sayılmadı. Kitablarımın çoxu, hətta siyasi-iqtsadi kitabları da 1917-ci ildən qabaq çap edilmişdi. Bir sıra kiçik kitablar qaldı ki, onların da roman olmasını bildirdim.

Kitabları yoxlamaq mənim hansı adamlarla üz-üzə gəldiyimi, harada olmağımı bilmək üçün imiş. Demək, mənə də siyasi töhmət atılmışdı. Bu məsələyə yetişməklə müqəddəratım təyin olunmalı idi. Mən yaxşı bilirdim ki, bu işlər heç də kitabları yoxlamaq kimi sadə və üzdən keçmə olmayacaqdır...

* * *

Axşam kitabların yoxlanılması işindən xilas olaraq müvəqqəti həbsxanaya qaytarıldım. Həddindən ziyada yorğun və taqətsiz olduğumu hiss edirdim. Aclıqdan, yuxusuzluqdan başım şiddətlə ağrayırdı. Dəbir dəyişilmişdi. Onun yerinə Məhəmmədxan Yəzdi adlı başqası gəlmişdi. Onun heykəli, surəti, burnu və gözləri bütünlüklə keçmiş şaha, «Rza şaha» oxşayırdı. Bir gün həmin məsələni özünə dedim. O, sözümü təsdiq edərək dedi: «Şahın özü ilə bir-iki dəfə rastlaşmışam. O mənə əyri-əyri baxıb, bu isə məni çox qorxudub». Acudan Yəzdi çox qarınqulu və acgöz bir adam idi. On səkkiz nəfər məhbusun xörəyini bir oturuma yeyirdi. İndi onun iştahasından xəbərim yoxdur. Hər halda çox diqqətli adam idi. Yuxarıdan verilən göstərişləri son nöqtəsinədək yerinə yetirirdi. Deyirdi ki, o, iki nömrəli müvəqqəti həbsxanada işə başlamış ilk polisdir. Həqiqətən də o, müvəqqəti həbsxananın canlı tarixi idi. Savadı yox idi. Lakin çox yaxşı huşu və

hafizəsi var idi. Müvəqqəti həbsxanaya düşmüş adamları yaxşı tanıyırdı. Azdanışan və ciddi adam idi. Səhərdən axşamadək dəridən çıxardı. Zindan otaqlarının nəzarətinə və təmizliyinə böyük diqqət göstərirdi. Müvəqqəti həbsxananın bütün işləri onun əlində idi.

Dəbir dindar bir adam idi. O heç kəsə qəsdən mərdiməzarlıq etməzdi. Lakin Məhəmmədxan Yəzdi belə deyildi. O, istəyirdi ki, müvəqqəti həbsxananı həmişə öz əlində saxlasın. Oradan çörəyini çıxarsın, uşaqlarının həyatını təmin etsin. Bundan başqa o, cəlladlıq da edirdi. Məhkumları dara da çəkirdi. Bu işi onun üçün başqa mədaxil yolu idi. Deyildiyinə görə Əsgər Qatili də o dara çəkmişdi. Bu işi üstündə ona acudanlıq rütbəsi vermişdilər. Acudan Yəzdi tam mənasında polis idi. Qayda - qanundan başqa heç nəyi bilmirdi. Vəfalı bir it xasiyyətində idi. On ildən sonra da məni yadından çıxarmamışdı.

Bir qayda olaraq Qəsr zindanında saxlanılan adamları müvəqqəti həbsxanadan ədliyyəyə apardılar. On il qəsrdə qaldıqdan sonra Ədliyyə aparılan zaman bir gün yolum yenə də müvəqqəti həbsxanaya düşdü. Məvəqqəti həbsxananm məmuru bir neçə saat eyvanda dayanmağım haqqında göstəriş vermişdi. Pilləkanların yanında Acudan ilə rastlaşdım. İrəliyə gəlib salam verdi. Sonra ciddi bir qiyafə tutaraq dedi: «Ağa, inanmıram ki, sizi eyvana qoyalar. Buyurun buraya». Bura sözündən onun məqsədi müvəqqəti həbsxananın ən pis kooridoru hesab edilən üçüncü kooridoru idi. Buna baxmayaraq, xidmət üstə olmayan zaman mənə çox hörmət edərdi. Çünki onun uşaqlarının müəllimi olmuşdum. Bilmirəm nə üçün, hansı mülahizə üzündən o, ilk günlərdə özünü mənə tanıtdırmamışdı. Mən də onu şəxsən tanımırdım.

Xülasə, istintaqdan qayıtdıqdan sonra o vaxt adi polis olan bu dama məni beşinci otağa gətirdi. Mənimlə yumşaq danışırdı. O dedi: «Çox təəssüf edirəm ki, burada qalmalı oldunuz. Bəs uşaqlar nə edəcəklər?»

Mən belə xəyal etdim ki, o mənim uşaqlarımın qayğısına qalır. Dedim: «Allah kərimdir. Bir təhər dolanarlar».

Lakin sonra başa düşdüm ki, o öz uşaqlarının dərs məsələsini nəzərdə tutmuşdu. Sonra məndən nahar yeyib-yemədiyimi soruşdu. Dünən gecədən bəri heç şey yemədiyimi bildirdim. Gedib bir kasa ılıq süd və bir taftun (bir parça) çörəyi gətirib dedi: «Ye!»

Bu səmimi qonaqpərvərlikdən xoşum gəldi. Belə xəyal etdim ki, bütün məhbuslarla bu cür rəftar olunur. Mən bilmirdim ki, o, yalnız öz uşaqlarının xatirinə mənlə, istisna olaraq belə rəftar etmişdir. Bundan başqa mənə ayrı bir yaxşılıq da etdi. Mən bu yaxşılığı heç vaxt unutmaram. Çarpayım narahat oduğu üçün gedib bir qədər yumşaq və nisbətən təmiz yorğan-döşək gətirdi. Onları büküb çarpayının ortasına qoydu. Sonra üzünü mənə tutaraq dedi: «Bu çarpayı çox narahatdır. Onun qabarıq dəmirləri sənin qabırğalarını əzər». Bundan başqa mənim üçün bir çay qabı da gətirdi.

Görürsünüz! Cəlladın da öz uşaqlarına əlaqəsi vardır. O da istəyirdi ki, övladlarının tərbiyəsi yolunda müəyyən addım atmış bir adama yaxşılıq etsin. Qeyd etdiyim kimi, mən o günədək Məhəmməd Yəzdini tanımırdım. Belə xəyal edirdim ki, bu mehribanlıq onun xoş niyyətindən doğmuş və ya yuxarıdan verilmiş göstəriş əsasında olmuşdur. Çörəyi yedikdən sonra soyuğa, otağın iyrənc qoxusuna, pıs-pısalar, siçan və ağcaqanadlara etina etməyərək, paltarlarımı soyunmadan çarpayının üstünə düşüb çox şirin yuxuya getdim. Sabahı günü günortaya 2 saat qalmış keşikçi dəyişilən zaman Dəbir məni yuxudan ayıltdı...

Dəbir fars dilindən başqa ayrı bir dil bilmirdi. 1931-ci il yanvar ayının əvvəli idi. Xristian məhbuslar təzə libas geyinmiş, üzlərini qırxmış və görüşlərinə gələcək adamlarını gözləyirdilər. Mən yalnız öz gülüşlərimlə onların salamına cavab verib bayramların təbrik edirdim. Pur Afər yaxşı geyinmiş centlemen bir adamı mənə göstərərək dedi: «Boynu yoğunu görürsən, dörd ildir ki, zindanda saxlanılır». O məşhur Lapitvos idi. Sonralar bəlkə də onun adını çəkdik. Mən onun dörd il müddətində, bu cəhənnəmə oxşar deşikdə yaşayıb hələ də diri qalmasına təəccüb edirdim. Öz-özümə dedim ki, burada bir il qalsam ölərəm.

On on iki gün olardı ki, üzümü qırxmamışdım. Özümdən heç xəbərim yox idi. Lapitvos təcrübəli adam idi. O məni görən kimi tez otağına qaçıb, kiçik bir ayna götürərək qayıtdı. Dərhal Dəbirin arxasına keçərək aynanı mənim üzümə tutdu. Öz saqqahmı görəndə bərk güldüm. Həsən Azərbaycan, rus, fransız dillərində cürbəcür zarafatlar etdi. Ayrı bir vüqarlı saqqallı adam da rusca və azərbaycanca ürək-dirək verərək məni ruhlandırdı. Bu adam məşhur Yepremin müavini Səhəng Gigu idi.

Purafər və başqaları məni başa saldılar ki, havaya çıxarılmağım haqqında xahiş etməliyəm. Dəbir xahişi dərhal qəbul etdi. Lakin havaya çıxarılan yer elə bir vəziyyətdə idi ki, mən iyləncli beşinci otağı oradan daha yaxşı hesab etdim. Məhbuslar oradakı üçbucaqlı və yalnız adamın gəzişməsi üçün kifayət edən həyətlərin adını «qazanca» qoymuşdular. Bir və iki nömrəli müvəqqəti həbsxanaların, ümumi həbsxananın və başqa binaların bütün tualetlərinin quyuları həmin həyətdə yerləşirdi. Beləliklə, birinci gündən başlamış ikinci, üçüncü, dördüncü, beşinci, onuncu və sair... günləri sayaraq, hər bir dəqiqədə Ettelaat idarəsi tərəfindən çağrılıb, təklifimin məlum ediləcəyini gözləyirdim. Lakin oradan heç bir xəbər çıxmırdı. Get-gedə məyus olub müxtəlif fikirlərə dalırdım...

Gündüzlər də gecələr kimi qaranlıq və yorucu idi. Səhərdən gecə yarısınadək otaqda dolanır, sonra isə çarpayının üstünə uzanaraq cürbəcür fikirlərə dalırdım. Hətta yavaş-yavaş məhbus dostlarımın təskinverici sözlərindən də acığım gəlirdi. Evdən və ailədən xəbərim yox idi. Onların nə vəziyyətdə yaşamalarını bilmirdim. Hava təmiz olan gecələrdə tavandakı kiçik deşikdən ulduzları seyr edərək bununla fikrimi məşğul edirdim. Günəş gündüzlər üçün mənim saatım idi. Günləri divara xətt çəkməklə sayırdım. Robenzon kimi özüm üçün cizgilər kalendarı düzəltmişdim. Hətta Purafər və digər məhbuslar belə məmuniyyətlə

mənim təbii saat və kalendarımdan istifadə edirdilər. Ulduzlarla vaxtı, günəşdən daha dəqiq müəyyənləşdirə bilirdim.

On səkkizinci gün səhər tezdən sərçələrin cikkildisi diqqətimi cəlb etdi. Başımı qaldırıb sərçələrin həmin deşik üzərində dəstə-dəstə uçub getdiyini gördüm. Bunu yaxşı bir fal kimi yozub sevindim. Təsadüfən həmin gün günortaya yaxın ilk dəfə olaraq ailə üzvlərimlə görüşdüm...

Zindan yaxşı məhəkdir. Oradan insan öz səmimi dostlarını və ən uzaq qohumlarını daha yaxşı tanıyır. Onların səninlə nə kimi münasibətdə olduqlarını müəyyənləşdirir.

Həbsdə olduğum yeddinci ildə bir dəfə də olsun ailəmlə mənə görüş icazəsi vermədilər. Görüş xətərli bir işə çevrilmişdi. Adam onun təfərrüatını şərh etməyə utanır. Zindan məmurları bu yol ilə çox çirkin istifadələr edirdilər. Hətta bir çox namuslu məhbuslar özlərini bu yeganə ümid yolundan da məhrum edərək öz ailələrinə tapşırırdılar ki, daha bir də görüşə gəlməsinlər. Onlar bu yol ilə öz abırlarını qorumağa çalışırdılar. Məhbus üçün görüşsüz qalmaq, adamsız olmaq çətindir. Lakin qeyd etdiyimiz vəziyyətdə görüş bundan daha ağır idi.

## ZİNDAN CASUSLARI

Mən mərkəzi zindanın yeddinci koridorunda yaşayırdım. İki nömrəli müvəqqəti həbsxanadan əlavə mərkəzi zindanın ikinci, dördüncü və yeddinci koridorlarında da yaşamışdım. Bu koridorlar keçmiş üsuli-idarənin siyasət mərkəzinin ən həssas nöqtəsi idi. Biz siyasi məhbusların başlıca nümayəndələri hesab edilirdik. Hətta Teymurtaşı, hərbi nazir Sərdar Əsədi və digər hökumət müttəhimlərini bizim yanımıza gətirməyə cürət etmirdilər. Polis məqamları tərəfindən göstərilən hər hansı təzyiq və işgəncə tədbirləri ilk dəfə bizə tətbiq olunurdu. Zindanda işləməyə gələn hər hansı yeni qulluqçu öz iqbal və taleyini bizim müqəddəratımız üzərində sınaqdan keçirirdi. Siyasi idarə işçilərinin heç biri bizim işlərimizə qarışmadan tərəqqi edə bilmir, rütbə və dərəcə əldə etməyə nail olmurdu. Zindan rəisi Rasix sərhəng (polkovnik) Giquya belə demişdi: “Bu qapıların arxasına qanlı əllər basılmışdır. Mən onlara yaxınlaşıb orada yaşayan adamlarla danışa bilmərəm.”

Beləliklə, üzərimizə qoyulmuş həmin siyasi ad nəticəsində polislər və başqa məhbuslar üçün bir növ dükana (alverə) çevrilmişdik. Görüşünün xüsusi şəklə düşməsini istəyən, tək otaqda yaşamaq istəyən, azad tiryək çəkmək istəyən, bütün koridorları azad dolanmaq istəyən, bir kasa süd və ya iki yumurta almaq istəyən, zindan daxilindəki müəssisələrdə işləmək istəyən, heç olmazsa nəzarətçi və ya xörək paylamaq vəzifəsinə keçmək istəyən, çayçılıq edib məhbusları soymaq fikrinə düşən, bir sözlə başqalarının bədbəxtliyindən istifadə etmək istəyən bütün adamlar üçün ancaq bir vasitə, bir sadə yol var idi ki, o da bizə göz olmaqdan ibarət idi. Zindan məmurları məhbusların zindana gəldikləri birinci gündən bu yolu onlara

göstərirdilər. Qısa sözlə desək, alış-veriş vasitəsinə çevrilmişdik. Hamı yalnız bizə əzab-əziyyət vermək yolu ilə zindan məmurlarından müəyyən güzəştlər ala bilirdi. Hətta sonralar iş o yerə gəlib çatmışdı ki, biz ikilikdə bir-birimizlə danışa da bilmirdik. Fərruxini, demək olar ki, əxlaqsız və cəfəng qoca ərbab Güdərzi ölümə verdi. Bədbəxt şair öz həmyerlisinə inanaraq təzə şeirlərini "...."-nin vasitəsi ilə ona göndərmişdi. O isə namərdcəsinə uzun-uzadı bir raportla birlikdə həmin şeirləri zindanm rəisinə göndərmişdi. Şeirlər məzəli, ciddi, eyni halda təsirli və kəskin idi. Bu şeirlər əldən-ələ keçərək, nəhayət şahın əlinə çatmışdı. Beləliklə, Fərruxinin öldürülməsi haqqında fərman verildi.

## ZİNDANDA QALMALI OLDUM

Neçə ay davam edən istintaqın sona çatmasından sonra məni nisbətən təmiz olan səkkiz nömrəli otağa köçürdülər və onun qapısını açıq qoydular. Lakin sair məhbuslarla əlaqə yaratmağımı qadağan etmişdilər. Bu zahiri bir hədə-qorxu idi. Bu işin əməli olmadığını özləri də, yəni zindan məmurları da yaxşı başa düşürdülər...

Fərvərdin və Ordibehişt ayları* intizarla keçdi. Bir tərəfdən taleyimlə üns tutaraq digər məhbuslar kimi öz mühitimin kiçik və məhdud hadisələri ilə başımı qatırdım. Digər tərəfdən isə hər saat zindandan azad olacağımın intizarını çəkirdim. Hətta Füruzeş özü də demişdi: "bu haqda saraydan məktub yazmışlar. Biz müxalif olmasaq sizi buraxmaq olar. Hələlik biz də müxaliflik göstərmirik. Yalnız nəzmiyyə rəisinin Gorgandan qayıtmasını gözləyirik."

Bu, heç də yalan deyildi. Etdiyi yaxşılıqlarından keçmişdə danışdığım adam mənə buraxılmağım üçün müqəddimə hazırlanması haqqında sifariş də göndərmişdi. O, Ayrum** gələndən sonra zindandan buraxılmağımı bildirmişdi. Hətta bir gün Nəsrullah İsfəndiyari həmin hökmü mənə göstərərək dedi: "İş qurtarmışdır. Ancaq heç bir siyasi işə qarışmayacağın haqqında iltizam verməlisən".

Bütün bunlara baxmayaraq mən şübhə edirdim. Belə sadəliklə həbsdən buraxılacağıma inana bilmirdim. Ayrumun qayıtması qurban bayramı gününədək uzandı. Həmin gün keçmiş adət üzrə səhər tezdən otaqdan çıxıb həyətdəki hovuzun kənarında idman etmək istəyirdim. Purafər hələ yatmışdı. Dəbir dəstəmaz alırdı. Sərhəng Gigo primusu yandırıb çay qoymaq istəyirdi. Zahirdə məhbusların həyatı adi vəziyyət ilə davam edirdi. Baharın havası yüngül və ruhu oxşayan idi. Adam zindanın məhdudiyyətlərini az qala unutmaq istəyirdi. Qış fəslindən fərqli olaraq günəşin şüaları zindanın dərin həyətinin divarları üstündə oynayır, qəmgin ürəkləri sevindirirdi. Həmən gün mənim üçün ağır saaüardan biri sayılacağı hələlik məlum

---

* Məqsəd 1931-ci ilin aprel və may aylarıdır.

** Ayrum vaxtilə İranın polis rəisi olmuşdur

olmamışdı. Hələ əl-üzümü yuyub qurtarmamışdım ki, "D" əl-ayağını itirmiş bir şəkildə yanıma gəldi. O günlər biz bir-birimizlə danışmırdıq. Lakin ciddi işlər zamanı bu cür müvəqqəti küsülü hallarının təsiri ola bilməzdi. O, bilirsən nə var, xəbərin var? - deyə həyəcanla mənə müraciət etdi.

- Nə xəbər var? Nə olmuşdur?

- Gecə yarısından təxminən bir saat keçmiş neçə nəfər təzə məhbus gətirdilər. Deyildiyinə görə onlar da siyasi töhmətlə təqsirləndirilmişlər.

- Burada pis bir iş yoxdur. Siyasi müttəhimləri olmayan bir ölkə nəyə lazımdır. Siyasi müttəhimin olması özlüyündə millətin siyasi şüurunun yüksəldiyini göstərir. Məlumdur ki, ölkədəki işlər adi qayda ilə cərəyan etmir. Xoşagəlməz hadisələr çoxdur, o günü-gündən artır. Bunun əksi baş versə idi onda təəccüblənmək olardı.

"D" dedi: axı bu işin sənin və mənim zindandan buraxılmağımızda təsiri ola bilər.

Mən dedim: Bu təsir kimlərin nə kimi ittihamlarla tutulmasına bağlıdır.

## ZİNDANIN MƏNZƏRƏSİ

Biz zindanda cürbəcür adamlar gördük. Yol kəsmək və adam öldürmək ittihamı ilə oraya bir ildə məhbus gətirmişdilər. Müstəntiq hələ onlardan etiraf ala bilməmişdi. Bir neçə ay onları ayrılıqda saxladıqdan sonra başçıları Quran ilə istixarə etdikdən sonra demişdi: «İstixarə yaxşı gəldiyi üçün gedib etiraf edəcəyəm ta bu qaranlıq otaqdan özümü xilas edəm». Həmin etirafdan sonra onu məhkum edib güllələdilər. Bu hadisədən sonra həqiqətən yol kəsib qatil olan şəxsi zindana gətirdilər. O, bütün günahlarını boynuna aldı. Lakin başqa bir məhbusu onun əvəzinə edam etdikləri üçün həqiqi qatilin etiraflarına əhəmiyyət verməyib onu zindandan buraxdılar.

## TEYMURTAŞ

Biz hələ zindana düşməzdən əvvəl Teymurtaşın daşürəkli və rəhimsiz olması haqqında çoxlu sözlər eşitmişdik. Doktor Heşmətin və digər Gilan azadxahlarının edam olunmaları haqqmdakı kədərli xatirələr yadımızda idi. Digər tərəfdən bilirdik ki, Teymurtaş İranın görkəmli siyasi şəxsiyyətlərindən, fəal, oxumuş, yeni fikirli və şöhrətli zabitlərindən biri sayılırdı. Biz ondan gözləyirdik ki, müəyyən hadisələrə və çətinliklərə etinasızhq göstərəcək, öz heysiyyət və məqamını qurtaracaqdır.

Zindan həqiqətdə çoxyaxşı məhək daşıdır. Zahiri cəhətdən Teymurtaşdan nəhayət dərəcədə yoxsul, zəif və yazıq görünən adamlar zindanda böyük şücaət və mərdanəlik göstərərək çətinliklərə, aclığa, əzab və işgəncələrə dözüb, polisə

etinasızlıq edirdilər. Lakin Pəhləvi sarayının naziri olan bu ağa ilk gündən alçaq və miskin göründü.

Bayquş əziyyətsiz bir heyvandır. Məhbuslar onu o qədər də şum (ziyanlı) hesab etmirdilər. Deyirdilər: Bayquşun oxuması iki cür olur. Onun qəhqəhə çəkib gülməsi məhbusların azad olunması əlamətidir. Ağlaması isə zindana yeni məhbuslar gətiriləcəyini xəbər verir.

Bəziləri isə deyirdilər ki, bayquş çox yaxşı heyvandır. Hansı adamın başının üstündə oxusa o, zindandan labüd azad ediləcəkdir.

Lakin Teymurtaş məyus, bədbin olmuş, öz iradəsini əldən vermişdi. Bütün hadisələri özü üçün zərərli hesab edirdi. Hər hansı kiçik bir təsadüfdən qorxurdu. Məhz qorxudan cəmi bir neçə gün ərzində qocaldı. Beli bükülüb taqətdən düşdü. Həmişə əyləşib ağlayırdı. Ona yaxınlaşmaq üçün bizə imkan vermirdilər. Lakin nəzarətçinin vasitəsilə o, bizim siyasi məhbus olduğumuzu anlamışdı. Buna görə də bizi görəndə titrək səslə deyirdi: "Ağa, siz bilmirsiz, vallah bilmirsiz..."

Eşitdiyimə görə məhkəmə zamanı ağlamışdı. Əvvəllər onu xəstəxanada saxlayırdılar. ölümünə bir ay qalmış tək saxlanılan məhbusların yaşadıqları koridora köçürdülər. Deyildiyinə görə can verən zaman çoxlu əzab-əziyyət vermişdilər. Bir nəfər deyirdi ki, Acudan Suti onun üzüyünü oğurlamışdı. Oğlu ilə uzaqdan-uzağa xəstəxananın pəncərəsi arxasından görüşməyə icazə vermişdilər.

Ümumiyyətlə, Teymurtaşın ölümü zindanda o qədər də böyük təsir buraxmadı. Onun zəiflik və acizlik göstərməsindən məhbusların xoşu gəlmirdi. Bir çox adamlar onun bu hərəkətinə təəccüblənirdilər.

## FƏRRUXİ

Teymurtaşın əksinə olaraq Fərruxi yaxşı sifətlərə malik idi. O, müvəqqəti həbsxananın pəncərəsindən özünü bütün məhbuslara tanıtdıraraq demişdi:

Mən şura məclisinin vəkili, "Tufan" qəzetinin müdiri, ağzı tikilmiş Fərruxiyəm. Məni qeyri qanuni olaraq həbsə alıb buraya gətirmişlər. Mənə ....-yen vasitəsilə təminat verərək Avropadan İrana qaytarmışlar. Gördüyünüz kimi verdikləri vədlərin əleyhinə olaraq məni həbs etmişlər.

O, qəsr zindanında da həmişə mübarizə edərdi. Bir gün deşilmiş aftafanı keşikçi zabitin başına çırparaq demişdi: "Götürün, heç olmasa bu şahənşah ölkəsinin aftafasını təmir edin. Əcəba, şahənşahi həbsxananın nə üçün şahənşahi aftafası yoxdur?"

Fərruxi ilə zindanda bir neçə dəfədən artıq görüşə bilmədim. Novruz bayramının birinci günü idi. Həmin bayramda o, "Bizim üçün bayram deyil" adlı şerini oxudu.

Həbsə düşməzdən əvvəl də Fərruxi ilə tanışlığımız var idi. Bir gün ona dedim: Nə üçün Avropadan geri qayıtdın? Yad adamlar olduğu üçün cavab vermək

istəmirdi. Ona görə də üstü örtülü şəkildə "Mən biganələr əlindən heç vaxt nalə etmirəm" şeirini oxudu.

O, hamıdan şübhəli idi. Hamını zindan casusu hesab edirdi. Heç kimin yardım və köməyini qəbul etmirdi.

O, deyirdi:

- Nəzmiyyə (Polis) müəyyən adamların köməyi ilə məni öz əlalatısına çevirmək istəyir.

Fərruxi zindanda öz paltarını, adyalını, kitablarını və sair şeylərini satmış idi. Bir dəst köhnə pijama və bir əzilmiş papaqdan başqaheç bir libası yox idi. Lakin əhval-ruhiyyəsi çox mətin və möhkəm idi. Danışıq tərzi qətiyyən dəyişməmişdi. Həmişə olduğu kimi yenə də təbəssümlü, qürurlu və eyni halda çox müaşir (ünsiyyətcil) idi. O, bəzən deyirdi:

- Bu ağalara hər həftə görüş icazəsi verilir. Bəs nə üçün mənim dost və tanışlarımla görüşməyim üçün icazə verilmir?

Mən isə: "Axı sən Fərruxisən, siyasi şəxsiyyət və jurnalistsən. Bunu bilmirsən ki, damı çox olanın qarı da çox olar?-deyə cavab verərdim. O, sözlərimi təbəssüm və zarafatla qarşılardı...

Fərruxi ilə ikinci görüşümüz Qədr bayramı günü baş verdi. Dostlarımdan biri iki gün çalışdıqdan sonra zindan müdirindən icazə alaraq məni nahara qonaq çağırmışdı. Bu hadisədən xəbərdar olan Fərruxi həmişə olduğu kimi gülə-gülə gəlib dedi: "Bilirsən? Yalnız sənin xatirinə gəlmişəm. Ev sahibi və onun dostu müsyo Boqosla da barışıram. Əsədidən də küsməmişdim. İndi hamınızla barışmağa gəlmişəm. Hamınızı öpmək istəyirəm. Naharı da burada meyil edəcəyik. ətli balığım var. Onu kətə ilə yeyəcəyik. Dəmlədiyim əla növlu, Lahican çayını da bu saat sizin üçün gətirəcəyəm.

Həmin gün axşamadək bir yerdə olduq. Onun həyatma qəsd olunacağını heç kəs ağlına belə gətirə bilmirdi. O, deyirdi:

-Mən sizin kimi deyiləm. Baltanı kökündən vurmaram. Heç olmazsa özüm üçün bir əl yeri qoyaram.

Mən bu sözlərin cavabında dedim:

-Bəs nə üçün Avropaya getdin, nə üçün geri qayıtdın?

O, dedi:

- Getmək məsələsi çox sadə idi. Salar Zəfərin gizli vərəqə məsələsində məni də həbsə almaq istəyirdilər. Moskvada verilən pul mənə kifayət etmirdi. İran səfarətxanasından xərclik istədim. Səfarətxana isə mənə yalnız Avropada xərclik veriləcəyi imkanım bildirdi. Beləliklə, Berlinə gedib oradakı İran səfarətxanasından xərclik alaraq Alman mətbuatının himayəsi altına sığındım. Orada istədiyim yerlərə gedir və hər yerdə böyük hörmətlə qarşılanırdım. O dövrdə hələ Almaniya demokratik vəziyyətdə idi. Müxtəlif qrupları yaxından müşahidə və tədqiq edirdim.

Fərruxi belə bir əqidədə idi ki, Almaniya gələcəkdə Rusiya ilə müharibə edəcəkdir. Fərruxi İrana qayıtması barədə deyirdi:

Mən heç də səhvə yol verməmişəm. Canımın təmin olunacağı haqqında mənə söz verdilər, İrana qayıtdıqdan sonra çoxlu çətinliklər çəkdim. Müəyyən müddət qarajda yaşadım. Sonra Dərbəndə köçdüm. Orada da məni rahat qoymadılar. Qulluqçumu həbs etdilər. Dostlarımla gəl-get etməyə mane olurdular. Yanıma gələn adamları istintaqa çəkirdilər.

Bəzən şeirdən danışaraq ona deyirdim: şairlikdə yalnız zindanda qalmağın çatışmırdı. Bədbəxtlik və sıxıntılara məruz qalmayan adam yaxşı şeir deyə bilməz. Sənin son şeirlərini bütün ömrün boyu fars dilində dediyin ən səlis və ən təbii şeirlər hesab edirəm. Sən əslində şeir demək deyil, təbiəti, daha doğrusu həqiqəti təsvir edirsən.

Bu sözdən onun sanki xoşu gələrək dedi: Yenə də kələk gəlirsən.

Mən dedim: - Sən belə xəyal et. O gün günün altında oturaraq dərin fikrə dalmışdın. Zənnimcə "nə qədər çılpaq oluramsa məni bir o qədər artıq isindirir. Heç bir yaz günəş şüaları qədər mehriban deyil" şeirini hazırlayırdın. O şəraitdə başqa bir təsəvvürün ola da bilməzdi. Demək bu şeir deyil, ilhamdır. Təbiətin özüdür. Sən zindanda olmasaydın, bu beyti belə orijinal şəkildə yaza bilməzdin.

Şair şerini belə qiymətləndirilməsindən ruhlandı. Mən əlavə edərək dedim: - Söz yox ki, zindandan xaricdə söylədiyin rübailər də təqdirə layiq şöhrət qazanmışdır. Bu sözüm müqabilində Fərruxi dedi: - Mən daha çox öz qəzəllərimlə şöhrət qazanmışam. Moskvada gördüyüm bir hadisə heç vaxt yadımdan çıxmaz... Bir gün Moskvanın soyuq və qarlı küçələrindən birindən keçirdim. Qəflətən doçərxiyə (viliosepetə) minmiş bir qız arxadan çatıb öz doçərxisini bir anlığa mənim yanımda saxladı. Mən təəccüblə ona baxdım. O mənim baxışımı təbəssümlə qarşılayaraq çox səlis bir ləhcədə farsca danışmağa başladı. Əl-ayağımı yığışdırıb söhbət açmaq istədim. O isə dərhal doçərxisini sürüb gözdən itdi. Bu hadisədən sonra müxtəlif küçələrdə bir daha iki-üç dəfə həmin qızla rastlaşdım. Lakin heç vaxt onunla danışmağa imkan olmadı. Halbuki həmin ilk təsadüfdən etibarən həmişə onun fikri ilə yaşayır və istəyirdim ki, bir dəfə də olsa onunla danışam. O qızın baxışı, cazibədar gözləri və xoş əndamı həmişə nəzərimdə təcəssüm edirdi. Hətta bir an onu fikrimdən çıxara bilmirdim. Nəhayət bir gün sakin olduğum mehmanxananın pillələri qarşısında həmin qızla rastlaşdım. Bir neçə gənc qız da onunla birlikdə idi. Onu görən kimi ürəyim titrədi. İnsafla deməliyəm ki, gözəl və məlahətli idi. Məni görən kimi yenə də duzlu təbəssüm edərək dayanıb salam verdi. Əleyk əssəlam deyib soruşdum: - Bağışlayın siz məni haradan tanıyırsınız?

- Mən sizin müridlərinizdən biriyəm. Siz "Tufari' qəzetinin müdiri cənab Fərruxi deyilsinizmi?

- Bəli həman adamam. Lakin siz məni haradan tanıyırsınız?

- Sizi şəkilinizdən tanıdım. Qəzəlləriniz şəkillərinizlə bərabər Leninqradda da çap edilmişdir. Mən Leninqrad şərq dilləri institutunun tələbəsi olmuşam.

Görürsünüz
fars dilində pis danışmıram. Sizin kitabınızı çox xoşlayıram. Qəzəllərinizdən bir çoxunu əzbərləmişəm. Vaxt olsa bəlkə də sizin üçün oxuyaram.

Şair bu sərgüzəşti söylədiyi zaman zindanın bütün çətinliklərini unutmuş idi. O, sanki qəzəllərini bir daha doçərxi sürən qızın dilindən eşitmək istəyirdi. Təəssüflər olsun ki, yazıq şair bu arzusunu da özü ilə qəbrə apardı. Ərbab Güdərzini verdiyi raport nəticəsində faciəli bir surətdə həyatını başa vurdu. İndi onun məzarının harada yerləşməsi məlum deyil. Bu məlum olsa idi yəqin ki, doçərxiyə minən İranh qızlardan biri onun qəbri üstə bir dəstə çiçək qoyub deyirdi: - Yalnız Moskvadakı qızlar deyil, iranlı qızlar da sənin qəzəllərini ürəkdən sevir və əzbərləyirlər. Məgər sən bundan başqa bir şey istəyirdinmi?

## 1310-CU İL TARİXLİ QANUN

Bir iddənin tutulması və xəyanətkarların yalan etirafları siyasi idarənin əlinə bəhanə verdi. Onlar bu məsələni böyük hay-küylə şaha çatdırmağı təklif etdilər. Şah və onun əlaltıları heç bir böyük hadisə baş vermədiyini yaxşı bilirdilər. Onlar bilirdilər ki, nəzmiyyənin siyasət ittihamı ilə tutduğu adamlar həqiqətdə günahkar olmamış və qanunun əksinə heç bir iş görməmişlər. Hətta nəzmiyyənin ən adi bəhanələri olan casusluq, suiqəsdçilik ittihamlarını da bu iddəyə heç bir bəhanə ilə yapışdırmaq mümkün deyildi. Xainlər, şarlatanlar da öz böhtanlarını lazımı yerlərə çatdıra bilmədilər. Lakin azadixah olmalarına heç kəsin şübhə etmədiyi həmin iddəni də belə sadəliklə zindandan buraxmaq istəmirdilər. Buna görə də ayrı bir yolla fəaliyyətə başlayır, "ölkə təhlükəsizliyi əleyhinə tədbirlər görmək" məsələsini ortalığa ataraq qanuni əsasiyə zidd olan 1310-cu il xordad (1931.VI) ayı tarixli qarq qanunu Davərin əli ilə məclisə gətirdilər. Kommunist məramı əleyhinə yönəlmiş bu qanun zahirdə "ölkənin təhlükəsizliyini qorumaq üçün tədbirlər görməyə" aid olduğu halda, həqiqətdə o qədər elastik şəkildə hazırlanmışdı ki, istənilən təşkilatı təqib etməyə, istənilən adamı üç ildən on ilədək həbs cəzasına məhkum etməyə imkan verirdi. Biz o qanunu oxuduqdan sonra həm təəssüfləndik, həm də sevindik. Təəssüfümüz ona görə idi ki, demokratik və məşrutə üsulu hökm sürən bir ölkədə qanuni əsasını payələrindən biri hesab edilən yığıncaq azadlığı aradan gedirdi. Eyni zamanda buna görə sevindik ki, həmin qanuna uyğun olaraq bizi həbsdən buraxmalı idilər. Qanunda açıqcasına deyilirdi ki, bu qanun keçmişə aid deyil, 1310-cu il tir ayının əvvəlindən (1931-ci il iyunun 22-si) etibarən icra olunmalıdır.

Mən 1309-cu ilin Dey ayında tutulmuşdum. Hətta siyasi idarənin məmurları da belə bir əqidədə idilər ki, qeyd olunan qanun təsdiq edildikdən sonra bizi zindandan buraxacaqlar. Lakin əməldə belə bir iş görmədilər. Bizi yenə də təklifsiz vəziyyətdə saxladılar. Soruşduqda deyirdilər ki, "sizi həmin qanunla mühakimə

etmək olmaz. Çünki bu qanun sizin vəziyyətinizə şamil olmur. Siz qanuna zidd olaraq tutulduğunuz üçün qanuna zidd şəkildə də azad olmalısınız."

Bu o demək idi ki, həbsdən buraxılmanız öz əlinizdədir. Haçan həqiqəti söyləsəniz, siyasi idarəyə sadiq olduğunuzu göstərsəniz o zaman buraxılacaqsınız. Əlbəttə, bu sözləri bizə əvvəllər də deyirdilər. Sonralar rəsmi surətdə bildirdilər ki, “sizin işiniz Allaha qalıb. Müəyyən ittifaq və hadisələrin baş verməsini gözləməlisiniz. Ərizə yazmaq və teleqraf göndərməyinizin də faydası yoxdur. Hədər yerə bu kimi işlərə əl atmayın.”

Nəhayət, bizi həmin qara qanunla mühakimə etdilər. Lakin bu mühakimə doqquz il təklifsiz saxlanıldıqdan sonra həyata keçirildi. Bu mühakimənin özünün maraqlı bir dastanı vardır.

## ƏZAB VƏ İŞGƏNCƏ

Söz yox ki, ən böyük, ən ağır və ən geniş tətbiq edilən işgəncə növü qaranlıq otaqda (kamerada) tək saxlanılmaqdan ibarət idi. Siyasi idarənin məmurları digər cinayətkar işlərdə olduğu kimi həmin işdə də çox ifrata yuvarlanıbdılar. Bir nəfərlik qaranhq otaq istər qış fəslinin soyuq günlərində, istərsə də yay fəslində xəfələyici və üfunətli idi. Xüsusilə, yayda bu otaqlar müxtəlif həşərat ilə dolu olurdu. Bundan əlavə palaz, yorğan-döşək və hətta paltardan da istifadə olunmasına yol verilmirdi. Burada saxlanılan məhbuslara adi xörəklər də vermirdilər. Bəzi məhbusları bu qaranhq otaqda bir gün, iki gün deyil, aylar və bəlkə illərlə də saxlayırdılar.

Axı insan ictimai bir canlıdır. O, ağac, daş və ya kərpic deyil. O, danışmaq, zarafat etmək, dərdləşmək, kitab oxumaq, çay içmək, papiros çəkmək istəyir. O, öz yoldaşları və tanışları ilə məaşirətdən ləzzət almaq, faydalı bir şəxs kimi cəmiyyətin tərəqqisi yolunda çalışmaq istəyir. O, işləyib balaları üçün həyat şəraiti fərahəm (yaratmaq) etmək istəyir. Bütün bu adətləri birdən-birə yaddan çıxarmaq heç də asan iş deyil. Həmahəng, məqsədsiz və yorucu həyata heç də aylar və illərlə dözmək olmaz. İnsanın bədəni polad olsa da bu təzyiq qarşısında nəhayət dağılır. O, öz qüdrət və iradəsini itirir. Bir neçə dəqiqəlik azad buraxılmaq, nəfəs almaq üçün imkan əldə etmək xatirinə ən ağrr günahları belə boynuna götürməyə, hətta ölümə, edama belə razılıq verir. Dost və tanışlarımın bir çoxu altı, yeddi və səkkiz aylarla bu cür çətin şəraitdə yaşayıblar. Onlardan bir neçəsi ağır ürək naxoşluğu, revmatizm və sair xəstəliklərə tutulmuşdular. Mən özüm cürbəcür xəstəliklərdən başqa gözlərimin nurunun yarıdan çoxunu da itirmişəm. Yoldaşlarımdan bir neçəsi hətta siflis naxoşluğuna da tutulmuşdu. Biz bu vəziyyətə təəssüfləndik. Lakin doktor "S" dedi ki, bu heç də təəccübləndirici deyil. Ona görə ki, bir qayda olaraq məhbusların xörək qabları yuyulmur. Bəzən yuyulduqda vəziyyət daha da pisləşir. Belə ki, min ədəd kasam böyük bir qab içində natəmiz su ilə yuyub hamısını kəsif, köhnə bir parça ilə silərlər. Bundan əlavə cürbəcür adamların yatdığı köhnə

yorğan-döşək bir məhbus getdikdən sonra digərinə verilir. Onları dezinfeksiya etmirlər...

Muxtarinin rəis olduğu dövrdə məhbusların içərisində kimin qəhrəman seçilməsini səsə qoysaydılar, mən öz səsimi Ərdəbilli qaçaq İzətə verərdim. O, üç ildən artıq bir müddətdə, əli və ayağı bağlanmış şəraitdə qəsre zindanın ən dəhşətli və qaranlıq, təknəfərli otaqlarından birində saxlanıldı və nəhayət onun başına kimin bəlalar gətirilməsi məlum olmadı. Mən bu iradəli adamın şərhi-halını olduğu kimi yazsam, bu oxucular üçün ən yaxşı bir hədiyyə olar. Söhbət qəhrəmanhqdan getdikdə Xanbaba, Əsəd və doktor Ərani kimi qəhrəmanları yaddan çıxarmaq olmaz. Onlar da tam mərdanəliklə müqavimət göstərərək ömürlərinin sonunadək tək və qaranlıq otaqlarda qaldılar.

Qeyd etdiyimiz kimi uzun müddət tək, qaranlıq otaqda qalmaq çox ağır və təhlükəlidir. Müttəhim nəhayət canından doyur, istənilən günahı boynuna atır, öz dedikləri üçün dəlil və sübut da gətirir.

Yuxusuz saxlamaq və ya polisin dili ilə desək, yuxunu almaq da ayrı bir işgəncə növüdür. Bu işgəncə o müttəhimlər haqqında həyata keçirilirdi ki, onların tezliklə mühakimə olunmaları vaxtı ittihamları tez boynuna götürmələri lazım gəlirdi.

Hamıya aydındır ki, insan heç də uzun müddət yuxusuz qala bilmir. Bu bir çox hallarda aclıq və susuzluqdan daha çətin olur. Dostlarımdan biri deyirdi ki, Damqanda onu üç gecə-gündüz ərzində yatmağa qoymayıblar. Başqa dostumu altmış saat yuxusuz saxlamışdılar. O deyirdi ki, ətrafıma dörd nəfər adam qoymuşdular. Gözlərimi yummaq istədikdə onlar çənəmin altına yumruq ilə vurub məni ayıldırdılar. Başım şişmişdi. Əsəblərim titrəyirdi, ürəyim döyünürdü. Xüsusilə, üçüncü gecə büsbütün dəli olmuşdum. Haray çəkmək istəyirdim. Hətta hazır olmuşdum ki, neçə dəqiqə yatmağıma icazə verilsin, sonra aparıb məni güllələsinlər, odun içinə atsınlar. Keşikçilər manqalın ətrafında oturub tiryək çəkirdilər, araq içirdilər. Onlar növbə ilə çarpayıların üstünə uzanıb yatır və bununla məni incidir, yatmağa təhrik edirdilər. Əsnəmə məni taqətdən salmışdı. Bədənim başqa bir şəklə düşmüşdü. Bir yerdə otura bilmirdim. Heç olmazsa ayağa qalxıb dolanmaq, əl-üzümü yuyub yuxumu qaçırmaq istədikdə məmurlar qollarımdan yapışır, tərpəşməyə qoymurdular. Sayıqlayırdım...

Polis qarşıma kağız-qələm qoyub deyirdi: "Həqiqəti yaz, özünü xilas et." Bunlar daşürəkli, qəddar və heç bir şeyi başa düşməyən adamlardan ibarət idi. Mənim ağır və dözülməz vəziyyətimdən ləzzət alırdılar. Mən isə ilan çalmış adamlar kimi çapalayırdım. Onlar yenə də öz sözlərini təkrar edib gülüşürdülər, mənə öcəşir, bəzən hədələyir və döyürdülər. "Qapan" adlı əli qandallı cəza daha ağır idi. Bu işgəncənin təsiri daha tez zahirə çıxırdı. Bu dəhşətli alətdən Muxtari dövründə daha çox istifadə olunurdu. Azacıq adam tapılar ki, bu işgəncəyə dözə bilsin. "53-lər"in bir neçəsinin həmin işgəncə nəticəsində qolu çıxmış, əli şikəst olmuşdu. Onlardan biri deyirdi ki, mənim qollarım kiçik və kök olduğuna görə üç-

dörd nəfər əllərimi burub kürəyimin arxasında biri-birinin üstünə qoyaraq qandal vururdular. Sinəm az qalırdı partlasın. İsfəndiyari sinəmi və qollarımı yumruqlayır və bununla istəyirdi ki, qandal öz yerini alsın. Dəhşətli ağrılar başlandı. Gözlərimdən od çıxırdı. Sanki bütün sümüklərimi əzirdilər. Qollarım az qalırdı sınsın, polislər isə məni tək buraxaraq o biri otağa keçib bir-biri ilə mərc bağlayırdılar. Biri deyirdi: "Gönü qalındır. Bu tezliklə günahlarını boynuna almayacaq, bəlkə də beş-altı saat tab gətirə biləcək".

Digəri deyirdi: "Yox, ağıllı və zəkalı gəncdir. Zənnimcə, özünə çox da zəhmət verməyəcək. Bir az üzə düşüb".

Digəri sözə qarışaraq deyirdi: "Daha bəsdir. Gəlin qandalı açaq, ürəyi zəifdir. Təhlükəli vəziyyət qarşıya çıxa bilər. Qandalı açın, həqiqəti deyər..."

## İLK QURBANLAR

Bizim ilk qurbanımız Məhəmməd Bağır Sadiqpur olmuşdu. Bu təmkinli məhbusu digər 18 siyasi müttəhimlə birlikdə Astara və Ərdəbildən gətirmişdilər. Digər məhbuslar kimi onun da arvad-uşağı başsız qalmışdı. Deyildiyinə görə iki qızı və iki oğlu var idi. Böyük oğlunu daha çox sevərdi. Həmin oğlanın öz xətti ilə məktub yazmasına çox sevinirdi. Məhəmməd Bağır həbs olduğumuz ilk ildə, yəni 1310-cu ildə təqif (həbs) edilmişdi. O, bir nömrəli müvəqqəti həbsxanada vərəm xəstəliyinə tutuldu. Məhəmməd Bağır qəsrin xəstəxanasına göndərildikdən sonra aclıq, qaranlıq və otağın natəmiz havası onun xəstəliyini daha da ağırlaşdırdı. Nəhayət, ağzından qan gəldi. Çox arıqlamış və candan düşmüşdü. Bizim ciddi iqdamatımız nəticəsində zindanın həkimi siyasi idarəyə müraciət və nə kimi tədbir görəcəyini soruşdu. Bu hadisədən sonra dərman göndərmək, xəstəyə əlac etmək və ya onu buraxmaq əvəzinə, siyasi idarənin nümayəndəsi zindana gəldi. Həmin nümayəndə indiki kimi yüksəlməmişdi. Heç də bir neçə avtomaşın sahibi və bugünki kimi kök, qarnı yoğun deyildi.

## ...XƏSTƏNİN DANIŞMAĞA QÜDRƏTİ YOX İDİ

- Ağa, özünüz də mənim təqsirsiz və günahsız olduğumu bilirsiniz. Mən heç kəsin divarından düşməmişəm. Heç kəsin namusuna pis gözlə baxmamışam. Əgər öz əlinizdədirsə özünüz, yaxud tezliklə əlahəzrətə raport verərək məni zindandan azad edin. Arvad-uşağım ac-yalavacdır, başsızdır. Heç olmazsa imkan verin öz arvad-uşağımın yanında can verim.

Polis etinasız, quru, şiddətli, dəhşətli səslə belə cavab verdi:

- Öl, cəhənnəmə ki! Hamınız gərək öləsiniz! Nə də başından yekə danışır. Əlahəzrətin işi qurtarıb ki, sizin kimi adamların haqqında raport oxusun!

Bu hadisədən iki saat sonra Məhəmməd Bağır öldü. Bu xəbər siyasi məhbusların arasında bomba kimi səsləndi. Hər kəs öz gələcəyini düşünürdü. Hissləri cuşa gəlir və qanı qaynayırdı. Hamının səbri tükənmişdi.

Tədrici ölüm bizim üçün yaramaz. Bizi də Məhəmməd Bağır kimi tədriclə, əzab-əziyyətlə öldürmək istəyirlər. Buna dözmək olmaz. Biz ya hamılıqla bir yerdə ölməli, ya da işlərimizin mümkün qədər tez yetirilməsinə nail olmalıyıq.

## MƏHBUSLARI NECƏ ÖLDÜRÜRDÜLƏR

Zindan daxilində bəzən adamın ruhu kiçilir. O, mövhumatçı olur. Hər hansı bir hadisəyə xüsusi qiymət verir. O, bütün eşitdiklərini, gördüklərini və hiss etdiklərini öz nəzərində ayrı cür mənalandırır və təbir edir. Məhbus hətta küləyin əsməsindən, ağac yarpağının yerə düşməsindən, adi sərçənin uçmasından, kiçik heyvanların səsindən özü üçün müəyyən nəticələr çıxarır və onları öz müqəddəratı ilə əlaqələndirir. Noxud falı, Hafiz və Sədinin əsərlərindən fal açmaq, istixarə etmək, yuxuları təbir (yazmaq) etmək, əlin içindəki xətləri oxuyub öyrənməyə çalışmaq məhbusların demək olar ki, gündəlik işləri idi. Bu işlər bəzən onun ürəyini sakitləşdirir, ümidini artırır, bəzən isə məyus və naümid edirdi. Yoldaşlarımızdan biri ağır xülya xəstəliyinə tutulmuşdu. O heç kəsə qoşulmayır, həmişə bir guşədə oturaraq dizlərini qucaqlayır, uzun-uzadı fikir-xəyalla özünü yorurdu. Biz onu bu təhlükəli vəziyyətdən xilas etmək üçün çoxlu çalışdıqsa da müsbət nəticə əldə edə bilmirdik. Günlərin bir günündə o, təsadüfən bir məhbusun əlində Hafizin əsərini görüb ondan xahiş etmişdi ki, bir fal açsın. Fal açarkən Hafizin "İtmiş Yusif yenə də kənana qayıdar, qüssə etmə" misrası ilə başlanan məşhur qəzəli çıxmışdı. Sadə gənc bu təsadüfdən ürəklənmişdi. O gündən etibarən o büsbütün dəyişərək bir-iki həftədən sonra zindanın ən yaxşı idmançılarından birinə çevrildi. O, xarici dil də öyrənməyə başladı, guşənişinlik xəstəliyindən özünü xilas etdi. Fiziki, ruhi və mədəni fəaliyyət sahəsinə qədəm qoydu.

Qeyd etmək lazımdır ki, həmin hadisənin əksi də baş verə bilərdi. Münasib olmayan bir fal müəyyən məhbusu ümidsizlik və məyusluq girdabma sövq edərək onu ayaqdan salırdı. Yazıq Seyid Məhəmməd Tənhanın başına məhz belə bir hadisə gəldi. Xaricdə onun yalnız bir anası var idi. Bu yazıq ana bir il idi ki, İsfahanda qalaraq öz oğlundan xəbərsiz idi. Nəhayət zindanda saxlanılmış bir yolkəsən buraxıldıqdan sonra təsadüfən Seyid Məhəmməd Tənhanın həbsə alınması xəbərini onun anasına çatdırmışdı. Bu bədbəxt qarı evlərdə qulluqçuluq etmək və paltar yumaq yolu ilə bir təhər həyat sürürmüş. O, oğlunun tutulması xəbərini eşitdikdə özünü birtəhər Tehrana çatdırır. Çoxlu zəhmətdən və üç ay avaraçılıqdan sonra nəhayət qəsr zindanına gəlib dəmir məcərlər arxasından oğlunu gorərək onun saralmış üzündən öpüb demişdi: 'Änan sənə qurban olsun. İnşallah tezliklə səni buraxacaqlar. Qapıdakı polislə danışdım. O, sənin tezliklə buraxılacağın haqqında

mənə söz verdi. Qəm etmə, yenə də sənin yanına gələcəyəm. Al bu köynəyi gey. İkinci gələndə sənin üçün ipək köynək toxuyub gətirəcəyəm. Qabağı qışa gedir. Qoy sənə soyuq olmasın..."

Seyid Məhəmməd Tənha anasından ayrılandan sonra bir-iki həftə ümidli və fərəhli yaşadı. Üçüncü həftə yenə də darıxdı. Dördüncü həftə çox nigaran oldu. Həftələr, aylar ötüb keçdi, anadan bir xəbər çıxmadı. O, zindan idarəsinə müraciət etsə də qənaətləndirici bir cavab ala bilmədi. Siyasi idarənin rəisi sərhəng Seyfə ərizə yazdı... Ərizədə anasının çağırılmasını tələb edirdi. Eşitdiyimizə görə Seyid Məhəmməd Tənhanın anası hələ də Tehranda idi. O, hər gün siyasi idarəyə gedir, ikinci dəfə öz oğlunu görməyə icazə verilməsi üçün çalışırdı. Lakin ağayi sərhəng Seyfin ürəyi daşdan və poladdan möhkəm idi. Siyasi idarənin məmurları qoca ananın döşündən vurub eşiyə salırdılar. Nəhayət bu qarını çağırıb demişdilər ki, əbəs yerə polisə dərd-sər vermə, sənin oğlun buraxılmayacaq. Bütün nicat və xilas yolları oğlunun üzünə bağlanmışdır. Bu vəziyyət gənc fəhləni ayaqdan saldı. Biz və sairlərin nəsihətləri onun ruhiyyəsinə təsir göstərə bilmədi. Bir guşəyə çəkilib xəyal və düşüncələrinə qərq oldu. Bir aydan sonra o, dəli oldu. Daha bir neçə gün sonra da eşitdik ki, zindan cəlladları Seyid Məhəmməd Tənhanı da Əlim əl-dövlə qəbiristanlığından çıxarıb adsız qəhrəmanlar qəbiristanına aparmışlar. Belə cinayətlər törətmiş adamlar hələ bu gün də iş başındadırlar.

Siyasi məhbusların ikinci qurbanı Məhəmməd Dadizadə (Ənzabi) olmuşdur. Bu gənc yoxsul bir ailədə doğulmuş, hələ kiçik yaşlarından əzab-əziyyətə və çətinliklərə adət etmişdi. O, öz qoca anasını, bacı və qardaşlarını dolandırmaq üçün gecə-gündüz çalışırdı. İbtidai məktəbdə dərs deyirdi. Bəzi ticarətxanalarda mirzəlik və mühasiblik vəzifələrində də işləmişdi. Boş vaxtlarında isə şeir deyib, məqalə yazardı. Onun yaxşı istedadı parlaq gələcəyə malik olduğunu göstərirdi. Hələ çox gənc yaşlarında gözəl əxlaqı, mülayimliyi və səmimiliyi sayəsində çoxlu dost qazanmış və hamının sevimlisi olmuşdu. Zindanda saxlanıldığı ikinci ildə qəflətən xəstələndi. O, daima qusur, şiddətli qarın ağrıları çəkirdi. Bu vəziyyət cəmi bir neçə saat ərzində Ənzabini taqətdən saldı. Çox çalışdıqdan sonra onun görüşünə getmək üçün icazə ala bildim. Rəngi qaçmış, üzü arıqlamışdı. Lakin simasında heç bir vəhşət və nigaranlıq görünmürdü. Otağa girən kimi gülərək dedi: "Yaxşı gəlib çatdın, vəziyyətim deyəsən ağırdır. Deyirlər kor bağırsağım çirk eləyib partlamışdır. Nəyin bahasına olur olsun cərrahiyyə əməliyyatı aparılmalıdır. Başım çox bərk ağrıyır. Qarnımın ağrısı sanki azalıb. Şeirlərimi Məhəmməd Nunəkəraniyə tapşırmışam. Eləyə bilsən, onları zindandan çıxart".

Zindanda olduğumuz ilk dövrlərdə xəstə yoldaşlara özümüz xidmət göstərirdik. Zindanın həkimi məhbuslardan biri idi. O vaxt bizim üçün belə bir icazə verilirdi. Zindan həkimləri məhbusları özləri müalicə edirdilər. Sonra isə bu kiçik imkan da əlimizdən alındı. Xəstə məhbuslar qədim dövrlərin dustaqbanlarından daha kobud, daha əxlaqsız, daha cinayətkar olan Bərazəndələrin, doktor Əhmədilərin, doktor Xosrovxavərlərin əlinə düşdülər.

Onlar xəstələrə dava-dərman əvəzinə söyüş verirdilər. Ağzında bir qızıl dişi və ya əynində bir dəst təmiz paltarı olan adam özünü bu həkimlərin əlindən xilas edə bilməzdi. Doktor Əhməd qışda xəstə məhbuslardan birini həyətdə saxlayaraq dondurmuş, səhər isə onu səssiz-sədasız Əlim əl-dövlə qapısından qəbiristana göndərmək istəyirmiş. Günortaya yaxın meyidi çıxaran zaman məlum olmuşdu ki, xəstə hələ də ölməmişdir. Deyildiyinə görə bu cinayət yalnız məhbusun bir dəst yaxşı paltarı və neçə tümən pulu xatirinə həyata keçirilmişdir.

Dadizadə (Ənzabi) ömrünün son dəqiqələrində belə gülərüzlü idi və zarafat edirdi. Bir sıra təarüflərdən sonra dedi: "Ağayi "S" yenə də mənimlə doktorcasına rəftar edir. O, məni könlüm istədiyi şeyi yeməyə qoymur, rejim saxlamağa məcbur edir. Mən istəyirəm öləndə də azad olum. Dərman və limonad nəyə lazımdır. Halımın getdikcə yaxşılaşmasını hiss edirəm. Deyəsən qızdırmam yoxdur..."

Əlindən tutdum. Əlləri soyumuşdu. Nə qədər çalışdım nəbzini tapa bilmədim. Mən onun yanından çıxandan bir neçə dəqiqə sonra cərrahiyyə əməliyyatı adı ilə xəstəni zindandan götürüb apardılar. Cansız bir cəsəd nəzmiyyə xəstəxanasına təhvil verildi.

Bu kədərli hadisədən iki-üç ay əvvəl Ənzabinin anası öz oğlunu xilas etmək üçün Tehrana gəlmişdi. O, bu iş üçün bir çox idarələrə gedirdi. Bir gün görüş zamanı deyirdi: "Bala, mən ki, fars dilini bilmirəm. Sözümə heç kəs qulaq asmır. Sırağa gün nəzmiyyə rəisinin az qala maşını altında qalacaq idim. Nəhayət ərizəni ona çatdırdım. İki-üç gün əvvəl siyasi idarəyə getmişdim. Orada mənimlə çox pis rəftar etdilər. Polis yumruqla döşümdən vurub məni çölə atdı. Yenə də siyasi idarəyə gedirəm, yenə də gedəcəyəm. Səni azad edənə qədər gedəcəyəm!"

Başqa görüş zamanı qoca ana sevinclə oğluna deyirdi: "Nəzmiyyə rəisi səni buraxmaq haqqında söz vermişdi."

Bu hadisədən beş ay sonra yazıq ananın ürəyi tab gətirməyərək öz əşyalarını satıb yenidən Tehrana gəldi. Bu dəfə daha o ərizə vermir, ona-buna yalvarmırdı. Oğlunun ölümü xəbərini eşitmişdi. Balasını itirmiş şir kimi nalə edirdi. O, təhqirdən, hətta ölümdən də qorxmurdu. Daha heç kəs onun sinəsindən yumruq vurub çölə atmağa cürət etmirdi. O, öz oğlunu istəyirdi.

- Oğlumu öldürmüsünüz. Heç olmasa onun meyidini verin. Heç olmasa onun qəbrini mənə göstərin...

Qoca arvad polisləri təhqir edib söyürdü. O, öz zəif və titrək əlləri ilə cəlladları boğmaq istəyirdi. Bununla ürəyindəki həsrət alovunu söndürməyə çalışırdı.

- Sarayı od tutub yansın. Ürəyi kabab olsun. Ciyəri mənim ciyərim kimi alovlansın - deyib haray çəkirdi. Nəhayət ananın əlinə bir dəst köhnə paltar verib yola saldılar...

## DOKTOR ƏRANİNİN ÖLDÜRÜLMƏSİ XƏBƏRİ

Yeddinci koridorda artıq uca gülüşmələrdən, şux zarafatlardan əsər görünmürdü. Siyasi məhbuslar gizli vasitələrlə əldə etdikləri kitab və kağız-qələmi də bir kənara qoymuşdular. Heç kəs gündəlik yazmaq məşğələsi ilə də başını qatmırdı. Hər tərəfi tam ölüm sükutu bürümüşdü. Ehsasatlı başlar aşağı sallanıb, alovlu ürəklər məhzun və tutqun idi. Heç kəs başqasından bir kəlmə söz soruşmaq, yaxud öz nigaranlığını ən yaxın dostuna bildirmək, bu həyəcanlı xəbərin doğru olub-olmamasını müəyyənləşdirmək istəmirdi. Hamı yayılmış şayiənin düzgün ola biləcəyindən qorxurdu.

Hətta o gün heç kəs həyətə çıxmaq, təzə hava almaq da istəmirdi. Koridorlarda gəzən yox idi. Hətta həyətə çıxmaq imkanından bir dəqiqə belə qəflət etməyən Sərdar Rəşid Kürdüstani də otaqdan bayıra çıxmırdı.

Məhbusların çoxu ağlayır, onların kədərli ürəkləri kin və intiqam hissi ilə dolmuşdu.

Onlar bir-birinin gözünə belə baxa bilmirdilər. Eşitdikləri xəbərin doğru olduğunu bildirən hər hansı bir əlaməti görüb məyus olacaqlarından qorxurdular. Ürəklər bir idi. Hamının hissiyyatını bir qüvvə həyəcanlandırırdı.

Hamı bir cür fikirləşir, bir cür hərəkət edir, bir cür intizar çəkirdi. Bədbəxt hadisə demək olar ki, hamını vahid şəklə salmışdı.

Günortaya bir saat qalanadək heç kəs yemək-içmək fikrinə düşmədi. Əsəbilikdən hamının boğazı qurumuşdu. Nəhayət günorta radələrində həmişə gülüşü ilə zindan mühitini lərzəyə gətirən "Y" zindan qapısının səkkiz qat dəmir məcərləri arxasından göründü. O, qara əbası altında büzüşmüş, gözlərini yerə dikmişdi. Daha həmişəki kimi şən görünmürdü. Çox ciddi və son dərəcə kədərli idi. Sanki başındakı ağ tüklərin sayı daha da çoxalmışdı.

Nəhayət, o içəri daxil oldu. Heç söz demək istəmirdi. Lakin məhbuslar inanmaq istəmədikləri hadisəni başa düşdülər. O, bizə tərəf gəlmədən öz otağına getdi. Yolda da heç kimlə danışmadı. Bir dəqiqədən sonra qətl hadisəsi bütün təfərrüatı ilə zindana yayıldı. Məlum oldu ki, doktor Əranini neçə ay bundan əvvəl tif xəstəliyinə tutulmuş bir məhbusun saxlanıldığı otağa salmışdılar. O, həmin yerdə dərhal xəstələnərək zindan xəstəxanasına köçürülmüşdü. Qohumları və dostlarının israrına baxmayaraq, evdən onun üçün yemək, dava-dərman, hətta meyvə gətirilməsinə icazə verilməmişdir. Qırx dərəcə qızdırmanın içərisində olan zaman ona "genin" iynəsi vurub öldürmüşdülər.

Bu hadisədən bir saat sonra, zindanın bütün koridorlarında gizli matəm yığıncaqları təşkil edildi. Mən bir çox bu qəbil matəm yığıncaqları görsəm də, qeyd etməliyəm ki, Əraniyə həsr edilmiş matəm yığıncağı onların heç birinə oxşamırdı. Bu matəm mərasimində hamının simasında intiqam hissi duyulurdu. Baxışlar məhzun, qəzəbli və dəhşətli idi.

Məhbusların etdikləri hərarətli nitqlər adamın əsəblərini titrədir və həyəcanlandırırdı. Hamı doktor Əraninin qəsdən, müəyyən nəqşə əsasında

öldürülməsini başa düşürdü. Hamı başa düşürdü ki, zindan rəisi bu yol ilə İran azadıxahlarını başsız və rəhbərsiz qoymuşdur.

## HAŞİYƏ

Başqa bir mətləbi də haşiyə olaraq qeyd etmək istəyirəm. Siyasi məhbuslardan biri bir gün şahın "mübarək" hüzuruna ərizə göndərərək, süni cümhuriyyət tələbəlik nehzəti günlərində* məlumatsızhq və ya sair amillərin təsiri altında gösrətdiyi cüzi xidmətlərini həmin ərizədə xatırlatmış və bununla özünə bəraət qazandırmağa, yeni əsrin "böyük nabiqəsinin" (böyük dahisinin) rəhm və "mərdanəlik" hisslərini hərəkətə gətirməklə özünü cəhənnəm deşiyindən xilas etməyə çalışmışdı. Məşhur sərhəng Nirumənd senzura zamanı ərizəni saxlayıb dərhal ağanı... öz hüzuruna çağıraraq demişdi: "Həmin bu ərizə göstərir ki, sən siyasi bir adam olmuş və yenə də həman yolu davam etdirirsən. Sən necə cəsarət edib yazırsan ki, "şahın mübarək qədəmləri baharıstanın qarşısına çatan zaman mən onun ayaqları altına çiçək səpənlərdən biri idim."

"Bu nə deməkdir? Sən siyasi adam olmağını inkar etmək istəyirsən. Lakin bundan böyük etiraf olarmı? Ağa, məgər sən bilmirsən ki, bu ölkədə siyasət olmamalıdır. Əla-həzrətin tərəfdarlıq göstərənlərə ehtiyacı yoxdur. Dövlətin xeyrinə danışmaq istəyən adamlar da siyasi müqəssir hesab olunurlar. Yüksək düşüncə tələb edən məsələlərə heç kəs qarışmamalıdır. Get ərizəni dəyişdir və belə yaz: "mən anlaşılmamazlıq nəticəsində tutularaq altı il müddətində mühakimə olunmadan qəsr zindanında həbs edilmiş savadsız və aciz bir adamam..."

## İRAN BAŞDAN-BAŞA HƏBSXANA DEYİLDİ?

Biz zindana gətirilən zaman Tehranın müvəqqəti həbsxanasında, mərkəzi zindan və dejbanda (Polisin müvəqqəti saxlanma məntəqəsi - Ə.R.) saxlanılan məhbusların sayı təxminən min nəfərə yaxın olardı. Mərkəzi zindan binası əslində altı yüz məhbus üçün tikilmişdi. Məni qəsrə köçürən zaman oradakı otaqların çoxu boş idi. İki nömrəli koridorda yalnız Azərbaycandan yenicə gətirilmiş on səkkiz nəfər saxlanılırdı. Doqquzuncu koridorda emalatxanalar yerləşirdi. Mən koridorunda məhbus saxlanılmırdı. Qəsrdə saxlanılan biz məhbusların sayı üst-üstə üç yüz nəfərdən artıq deyildi...

Qəsr zindanına köçdükdən sonra, Davərin sınaqdan keçirmə qanunları sayəsində zindanın bütün koridorları məhbusla dolduruldu. Otaqlardakı məhbusların sayı əlli, altmış, bəlkə yüzü də ötüb keçdi. Zindandan buraxıldığım zaman altı yüz nəfər üçün nəzərdə tutulmuş bu həbsxanada iki min nəfərdən çox

* Rza xanının "respublikaçılıq" şüarını ortaya atdığı günlərdə (Ə.R.)

məhbus var idi. Dəjban (gözləmə -Ə.R.) zindanında, müvəqqəti məhbəsdə, qadınlara məxsus həbsxanada və tərbiyəvi adlanan binada da üst-üstə bir o qədər məhbus saxlanıldığını ehtimal etmək olardı. Ömürlük həbs cəzasına məhkum olanların sayı gündən-günə artaraq, 1319-cu ildə (1940-cı ildə) iki yüz nəfərdən çox idi. Ağır həbs cəzasına məhkum olanların sayı da gündən-günə artırdı.

İsfəndiyari deyirdi: "Vətən öz intiqamını alır". O, şübhəsiz ki, iyrənc sözü həmən dövrdə çıxan yaltaq qəzetlərdən və yaxud başqalarından öyrənmişdi.

Foruzeş deyirdi: "Biz dövlət əleyhinə olanların kökünü kəsmək və zindan vasitəsilə onlardan əlahəzrətin intiqamını almaq istəyirdik". Bu sözlər nə qərdər şit və iyrənc idi. Bunlar heç də onların öz sözü deyildi. Demək lazımdır ki, həmin sözləri onlara bəzi "aşdan isti kasalar" diktə etmişdilər. Deyiləsi sözü demək lazımdır.

Bəli, ictimaiyyətimizin düzgün məqsəd və hədəfi olmamış və yenə də yoxdur. Davərin qanunları, Rza xanın zorakı nizam-intizamı, bugünkü rüsvayçılıq və biabırçılıqdan başqa heç bir fayda verə bilməzdi... Zindan nə deməkdir? Siz sərgüzəşt eşitmək, on bir illik bir məhbusun söhbətlərinə qulaq asmaqla öz hisslərinizi bir növ qidalandırmaq istəyirsiniz. Şübhəsiz buna nail olacaqsınız. Lakin bir az diqqət etdikdə aydın olur ki, zindandan xaricdəki mühit də sizin həmin tələbatınızı ödəyə bilər. Məgər bütün İran başdan-başa həbsxana deyildi? İctimai məsələlərin hansı sahəsində sizə azadlıq verilmişdi?...

## SEYİD CƏFƏR PİŞƏVƏRİNİN HƏYAT VƏ FƏALİYYƏTİNİN XRONOLOGİYASI

1892-ci ildə avqustun 26-da (Hicri tarixlə 1313-cü il səfər ayının 13-də) Güney Azərbaycanın Xalxal bölgəsinin Zivə kəndində anadan olmuşdur.

1897-ci ildə kənddəki dini mədrəsəyə daxil olub 1900-ci ildə mədrəsəni uğurla bitirir.

1905-ci ildə ailəsi ilə birlikdə 14 yaşlı S.C.Pişəvəri Arazın bu tayına - Bakıya gəlir.

1905-1908-ci illərdə Bakı ətrafındakı Bülbülə kəndində ibtidai məktəbdə oxuyur.

1908-1910-cu illərdə Bakıdakı «İttihad» məktəbində təhsilini davam etdirir.

1911-1912-ci illərdə Bakıda «Darül müəllim» (pedaqoji məktəb) məktəbinə daxil olur və oranı uğurla bitirir.

1913-1916-cı illərdə Bakının Xırdalan kəndində, həm də 9 №-li Bakı Bələdiyyə məktəbində pedaqoji fəaliyyətlə məşğul olur.

1917-ci ilin mart ayında ilk məqaləsini M.Ə.Rəsulzadənin redaktoru olduğu «Açıq söz» qəzetində çap etdirir.

1918-ci ildə İran Sosial Demokrat Firqəsinin Orqanı «Azərbaycan Güze layənfək İran» qəzetində fəaliyyət edir və bir müddət qəzetin redaktoru olur.

1979-cu ildə M.Fətullazadə, Y.Yaqub və B.Ağazadənin zəmanəti ilə «İran Ədalət Firqəsi»nə üzv yazılır.

1919-1920-ci ilin aprel aymda Ədalət Firqəsinin mərkəzi orqanı «Hürriyyət» qəzetinin məsul redaktoru vəzifəsində çalışır.
1920-ci ilin mayında N.Nərimanovla şəxsən tanış olur və onun kommunistlik məfkurəsinə qoşulur və Gilan Respublikasının Xarici İşlər naziri təyin olunur.

1920-ci il may-iyul aylarında Gilandakı hərəkatda işirak edir.
1920-ci ildə İran Kommunist partiyasının Ənzəlidə keçirilən I qurultayında partiyanın üzvü kimi iştirak edir və rəhbər vəzifəyə seçilir.
1921-ci ildə İrandan gəlmiş əslən qacarlardan olan bir ailənin qızı - Məsumə xanımla dostu İsmayılın evində tanış olur və sonra onunla ailə qurur.
1921-ci il (iyun-iyul) III İnternasionalın Moskvada keçirilən konqresində iştirak cdir.
1921-ci il iyun - İran Həmkarlar Təşkilatını yaradanlardan biri olur və təşkilatın Orqanı «Həqiqət» qəzetinin (1921-1922-ci ildə) baş redaktoru olur.
1923-cü ildə İsfahanda yaşayır və siyasi fəaliyyətini gizli şəkildə davam etdirir.
1925-ci il İrandakı şiddətlənən irtica təqibindən yaxa qurtarıb əvvəl Bakıya, sonra Moskvaya gedir, İrandakı ağır vəziyyətiə onları tanış edir, kömək istəyir, lakin heç bir uğurlu nəticə əldə edə bilmir.
1927-ci ilin baharında xanımı və 1 yaşlı oğlu Daryuşla birgə İrana-Tehrana qayıdır və orada məskunlaşır.
1927-ci ilədək «Pərviz» soyadı daşıyan Seyid Cəfər pasportunun itməsi səbəbi ilə bağlı qarşı tərəfin təkidi ilə yeni soyadı - Pişəvəri familini qəbul edir və ömrünün sonunadək bu soyadı daşıyır.
1930-cu il 27 dekabr (6 dey 1319) Rza şaha məxsus xəfiyyə Polisinin ardıcıl təqiblərindən sonra S.C.Pişəvəri həbs edilir.
1930-1940-cu illər S.C.Pişəvəri 226 №-li siyasi məhbus kimi 10 il «Qəsr-Qacar» zindanı divarları arasında məhbus ömrü keçirmiş, sonra isə Kaşana sürgün edilmiş, orada yenidən həbsə alınmışdı.
- S.C.Pişəvəri həbsdə olarkən onun həyat yoldaşı Məsumə xanım ərinin günahsız-sübutsuz həbsə alındığını şaha, sahın arvadına, anasına, müxtəlif dövlət məqamlarına ərizə ilə müraciətində bildirsə də ona cavab bu olub: «Təkrar ərizələr yazmaqla nə əlahəzrəti, nə də başqalarını narahat etməyin».
- S.C.Pişəvəri haqda 1930-ci ilin yanvarında başlanan istintaq 1940-cı ilin yazında başa çatmışdı. 7 qalın cilddən ibarət «cinayət işi»ndə S.C.Pişəvərinin günahı sübuta yetməmişdi.
1940-cı il 22 aprel (1 ördbeheşt 1319) S.C.Pişəvəri «Qəsr-Qacar» zindanından azadlığa buraxılsa da Kaşana sürgün olunur.
1941-ci il 14 sentyabr, S.C.Pişəvəri Kasan həbsxanasından azad olub Tehrana gəlir.

1941-ci il oktyabr, S.C.Pişəvəri Əhməd Əsədi adlı iş adamına məxsus şirkətdə işə qəbul edilir.
1941-ci il oktyabr (1320, mehr) S.C.Pişəvəri Süleyman Mirzənin evində İXP özəyini təşkil edən toplantıda iştirak edir. Partiyanın ilk müvəqqəti məramnamə layihəsini hazırlayan 2 nəfərdən biri olur.
1943-cü il 6 aprel (1322-ci il 17 Fərvərdin) S.C.Pişəvəri «Ajir» adlı qəzetin nəşrinə dövlət məqamlarından rəsmi icazə alır.
1943-ci il mayın 10-u (1322-ci il 2 xordad) «Ajir» qəzetinin ilk nömrəsi Tehranda çapdan çıxır.
1942-ci il oktyabr S.C.Pişəvərinin iştirak və rəhbərliyi ilə «Azadlıq cəbhəsi» fəaliyyətə başlayır, sonrakı ildə «cəbhə» 40-dan çox qəzetin birliyini yaradır.
1944-cü il yanvar (1323 dcy) Təbriz əhalisi tərəfindən S.C.Pişəvərinin 14-cü çağırış İran Şura məclisinə deputatlığı namizəd göstərilir.
1943, 1944 və 1945-ci il müxtəlif aylarda S.C.Pişəvəri vəziyyətlə tanış olmaq üçün Güney Azərbaycanın bütün bölgələrinə səfər edir.
1944-cü il iyul (1323-cü il 22 tir) Məclisdə S.C.Pişəvəriyə qarşı edilmiş fitnəkarlıq nəticəsində onun deputat mandatı 50:48 səs nisbətində rədd edilmişdi.
1945-ci il avqust (1324-ci il Mördad) S.C.Pişəvəri Təbrizdəki həmfikirlərinin müraciəti ilə Təbrizə gəlir. Azərbaycan Demokrat Firqəsinin yaradılmasına hazırlıq işləri görülür.
1945-ci il 3 sentyabr (12 Şəhrivər 1324-cü il) S.C.Pişəvərinin rəhbərliyi ilə Azərbaycan Demokrat Firqəsinin yaradılması haqda bəyaniyyə çap edilir.
1945-ci ilin sentyabrın 12-də (21 Şəhrivər 1324) S.C.Pişəvərinin başçılığı ilə ADF-nın ilk konfransı keçirilmişdi.
1945-ci ilin oktyabrın 2-3-də (11-12 Mehr 1324) ADF I qurultayında S.C.Pişəvəri Firqənin baş katibi (sədri) seçilmişdi.
1945-ci ilin dekabrın 12-də (21 Azər 1324) S.C.Pisəvəri Azərbaycan Milli hökumətinin sədri seçilmişdi.
İ945-ci ilin dekabrın 23-də (22 Azər 1324) S.C.Pişəvərinin rəhbərliyi altında Təbrizin düşməndən tam azad edilməsi.
1945-ci ilin dekabrın 28-də (7 dey 1324) S.C.Pişəvərinin əmri ilə Azərbaycan ərazisində Azərbaycan dili rəsmi dövlət dili elan edilmişdi.
1946-cı ilin yanvarın 28-də AMH başçısı S.C.Pişəvəri Azərbaycanın milli hüquqlarının tanınması haqqında xüsusi məktubla BMT Baş Assambleyasına müraciət etmişdi.
1946-cı ilin aprelin 29-da (8 Ordebeheşt 1325) S.C.Pişəvərinin başçılığı ilə Tehranda mərkəzi dövlətlə danışıqlar başlamış və danışıqlar nəticəsiz qurtarmışdı.
1946-cı ilin mayın 8-də İ.V.Stalinin S.C.Pişəvəriyə - öz mövqeyindən geri çəkilməsi haqda məktubu olmuşdur.
1946-cı ilin iyununda (21 tir 1325) S.C.Pişəvəri 6 ayda görülmüş işlər haqda AMH adından AMM-ə hesabat vermişdi.

1946-cı ilin iyunun 13-də (23 Xordad 1325) AMH başçısı S.C.Pişəvəri ilə Tehran nümayəndəliyi arasında 15 maddədən ibarət bağlaşma olmuşdur.
1946-cı ilin iyunun 16-da S.C.Pişəvəri AMH baş naziri vəzifəsindən istefa vermişdi.
1946-cı ilin dekabrın 8-də (17 Azər 1325) S.C.Pişəvəri öz məsləkdaşları ilə birlikdə cüzi hərbi yardım üçün Sovet rəhbərliyinə son müraciəti etmişdi.
1947-ci ilin dekabrın 11-də (20 Azər 1325) S.C.Pişəvəri Arazın bu tayına gətirilmişdi.
- S.C.Pişəvəri Təbrizi tərk etdikdən sonra Arazın bu tay-ında cəmi 161 gün yaşamışdı.
1947-ci ilin iyunun 11-də S.C.Pişəvəri maşın qəzasına düşərək müəmmalı şəkildə həlak olmuşdur.

## SEYID JAFAR PISHEVARI

## (1892-1947)

## (RESUME)

The 20th century discovered a number of prominent political figures in the history of Azerbaijani people fighting for their national freedom to the both sides from the Araks River. One of them was Seyid Jafar Pishevari (Javadzadch), head of the National Democratic Movement of Southern Azerbaijan (1945-1946). He was born in 1892, in Seyidler Zeyvesi Village of Southern Azerbaijans Halhal District; in 1905, he moved across the Araks to Baku with his parents. Elementary-taught at a religious school (madrasah) in his vilage, he continued his education in a Baku secular school. Upon graduation from a teacher college, he started his professional activities in Khirdalan Village; he opened a literacy course in his lodgings. The early 1900s' political, literary and cultural environment in Baku and its key persons played big roles to form Pishevari as a skillfull journalist, writer and a political figure. As the other educated South-Azerbaijani, Pishevari inclined to participation in public and political groups and organizations of national and democratic spirit. This period of Pishevaris's activity could be characterized as that of ideological search. The early articles published in Mamed Emin Rasulzadeh's Achig Soz newspaper, Pishevari would yet drift apart from him due to differences of views emerging and joined the communist movement represented by Nariman Narimanov. By the resolution of the Adalat Party's leaders he was a member of, Pishevari for a while joined the Jangaliler Movement and even became one of its leaders. After the movement lost, Pishevari secretly came to Tehran and, in the early 1922, published the Haghigat, a professional union's newspaper, together with Muhammad Dehgan. Before the newspaper was banned in June 1922, its 106

issues published included many articles written by Pishevari. Then, he changed his status to half-legal and continued struggling against Rza Shah's regime. In 1930s December, Pishevari was accused on anti-government activities and arrested; he would spend 10 years as a prisoner of the Qasr-Qasar jail. As a prisoner, he wrote a number of political and fiction papers including articles.

Along with such political works as From the Prison Memorial Notebook, History of Adalat Party, and a number of critical literature articles, he completed his novels Nadirc and Menim banu The downfall of Rza Shah's regime in August 1941 resulted in liberty for his prisoners. As soon as freed, Pishevari restarted his political activities, participated in establishing the Iran Popular Party (Tudeh) and published the Ajir, a democratic newspaper. Though elected a Member of the 14th Iran Parliament in 1944 from Tabriz, his tenure was cancelled due to a plot against him by the Parliament's reactionaries.

Pishevari several times visited Azerbaijan through 1941-1945; he closely learnt people's socio-political and economic lives, and their wishes, needs and problems.

Then, he came to Azerbaijan for good in 1945's summer and headed the popular movement there. With his initiative and participation, the Azerbaijan Democratic Party was established on September 3, 1945. Headed by Pishevari, the party started the 21 Azeri Revolution and Azerbaijan National Autonomous State. The state's one-year-long history represented a number of democratic reforms and large projects done in the fields of economy and culture.

To take over oil resources in Iran's North and create there a military base against other state, the USSR government betrayed the national democratic movement in Southern Azerbaijan. This betrayal and, in addition, support the US and UK provided the shah's army with determined the loss of the movement. Pishevari, who came (or was brought) North across the Araks, would only live another 172 days. He got into a mysterious car crash on June 11, 1947 and died on the same day.

His name has been the symbol of South Azerbaijan's national liberty movement

## سید جعفر پیشه‌وری ( ۱۹۴۷-۱۸۹۲)

### ( خلاصه)

قرن بیستم به تاریخ مبارزاتی ملی اینسو و آنسوی خلق آذربایجان یک سری شخصیتهای برجسته‌ای عطا نموده است. یکی از این شخصیتها سید جعفر پیشه‌وری، رهبر جنبش ملی دمکرات آذربایجان جنوبی (۱۹۴۶- ۱۹۴۵) می‌باشد. او، در سال ۱۸۹۲ در ده زیوه( به آن ده سیدها نیز می‌گویند) یکی از روستاهای شهر خلخال آذربایجان جنوبی به دنیا آمده و در ۱۳ سالگی، یعنی در سال ۱۹۰۵با والدین خود به این سوی ارس، به باکو مهاجرت کرده است. وی تحصیلات ابتدائی را در روستای زیوه زادگاه خود در مدرسه دینی شروع کرده و بعداً در مدارس عادی باکو به تحصیل خود ادامه داده است. او پس از اتمام دوره تحصیل در رشته ادبیات، مدتی در روستای خیردالان به شغل معلی پرداخته و در همین روستا در منزل اجاره‌ای خود برای بیسوادان کلاسهای درس دایر نموده است.

پیشه‌وری بعنوان روزنامه‌نگار ماهر ، نویسنده و شخصیت برجسته سیاسی، در اوایل قرن بیستم در محیط ادبی، سیاسی و فرهنگی باکو پرورش یافته است است. البته در بوجود آمدن این محیط شخصیتهای بزرگ آن دوره نقش بسزائی ایفا نموده‌اند.

پیشه‌وری مانند دیگر آذربایجانیهای جنوبی در باکو برای فعالیت در تشکیلاها و سازمانهای ملی دمکراتیک از خود تمایل نشان داده است. این در دوره از زندگی پیشه‌وری است که، برای جستجوی خط فکری و ایدئولوژیک در او تظاهر می‌نماید. علیرغم اینکه سید جعفر پیشه‌وری نخستین مقاله خود را در روزنامه « آچیق سوز» محمد امین رسول‌زاده منتشر نمود، اما به علت اختلاف عقیده، از وی جدا شد و به خط فکری کمونیستی نریمان نریمان اف گروید. وی بعنوان عضو حزب «عدالت» به دستور رهبری این حزب مدتی در گیلان با جنبش «جنگل» همکاری نموده و حتی در مقام یکی از رهبران این جنبش قرار گرفته است. بعد از شکست این جنبش پیشه‌وری بطور مخفیانه به تهران رفت و در اوایل سال ۱۹۲۲ با همکاری محمد دهقان روزنامه «حقیقت» ارگان اتحادیه کارگران و دهقانان را منتشر نمود. تا غیر قانونی کردن روزنامه( ماه ژوئن سال ۱۹۲۲) که فقط ۱۰۶شماره منتشر گشته، اکثر مقالات به قلم پیشه‌وری نوشته شده است. بعد از اینکه انتشار روزنامه»حقیقت» ممنوع اعلام شد، پیشه‌وری به‌ حالت نیمه مخفی بر علیه رژیم رضا شاهی به مبارزه ادامه داد.

در سال۱۹۳۰ پیشه‌وری بجرم فعالیت علیه رژیم دستگیر و در زندان «قصر قاجار» به مدت ۱۰ سال تمام در حبس بسر برده است. او در مدت اقامت در زندان به نوشتن یک سری آثار و مقالات پرداخته است. «دفترچه خاطرات زندان»، « تاریخ حزب عدالت» که هر دو در مورد مسائل سیاسی است، از آنجمله می‌باشند. همچنین در کنار مقالات ادبی، دو رمان به نامهای « نادره»، «میهن بالو» را در زندان به اتمام رسانده است.

در ماه اوت سال ۱۹۴۱ با فرو پاشی رژیم رضاهی همه زندانیان سیاسی از حبس از آزاد شدند. پیشه‌وری نیز به محض آزادی از زندان دوباره به پیکار خود ادامه داد. او در تشکیل حزب توده ایران از نزدیک همکاری کرده و روزنامه دمکراتیکی بنام « آژیر» را منتشر نمود. پیشه‌وری در سال ۱۹۴۴ برای هفدهمین دوره مجلس شورای ملی از تبریز نماینده انتخاب شد. اما مرتجعین مجلس با حیله و نیرنگ اعتبارنامه او را رد کردند و در نتیجه نمایندگی وی لغو گردید.

سید جعفر پیشه¬وری در بین سالهای ۱۹۴۱-۱۹۴۵ چندین بار به آذربایجان مسافرت نموده و از نزدیک با وضعیت اجتماعی، سیاسی و اقتصادی آنجا آشنائی شده است. وی آمال و آرزوها و مشکلات مردم را شناسائی کرده است. بعد از این آشنائی، در تابستان سال ۱۹۴۵ برای همیشه از تهران به آذربایجان آمد و در اینجا رهبری جنبش ملی دمکراتیک خلق را بدست گرفت. در سوم سپتامبر سال ۱۹۴۵ با تشبث و رهبری او، حزبی با مرام و مسلک دمکراتیک به نام فرقه دمکرات آذربایجان تشکیل شد. این حزب به سرکردگی سید جعفر پیشه¬وری نهضت «۲۱ آذر» و حکومت خود¬مختار آذربایجان را رهبری نمود. این حکومت در طی یکسال یک سری اصلاحات دمکراتیک انجام داد. از جمله در زمینه اقتصادی و فرهنگی در مقیاس وسیع به اقدامات مهمی دست زد.

رهبری اتحاد شوروی بخاطر بدست آوردن امتیاز نفت شمال ایران و همچنین در این اراضی به علت تشکیل مراکز جنگی و جاسوسی بر علیه دیگر دولتهای خارجی از ادامه کمک به جنبش ملی دمکراتیک آذربایجان جنوبی دست کشید. همرا با این خیانت بزرگ، با حمایت و کمک همه جانبه انگلیس و آمریکا به ارتش شاه، نهضت ملی دمکراتیک آذربایجان به شکست انجامید. بعد از این شکست سید جعفر پیشه¬وری به این سوی ارس آمد (به احتمال زیاد اورا آوردند) فقط ۱۷۲ روز زنده ماند. او در روز ۱۱ ماه ژوئن سال ۱۹۴۷ در نتیجه تصادف ساختگی اتوموبیل در همان روز از دنیا رفت.

نام پر افتخار وی در حرکت ملی دمکراتیک معاصر آذربایجان جنوبی بعنوان سنبل ملی در خاطره¬ها زنده است.

## СЕЙИД ДЖАФАР ПИЩЕРАВИ

## (1892-1947)

## (Краткий обзор)

XX век выдвинул целый ряд выдающихся политических деятелей, которые выступали за свободу народов Северного и Южного Азербайджана. Одним из таких деятелей был руководитель (вождь, лидер) народно-демократического движения Южного Азербайджана (1945-1946) Сейид Джафар Пищерави (Джавадзаде). Он родился в 1892 году в селе Сейидляр Зейвеси Халхалской области Южного Азербайджана. В 1905 году его семья переселилась в г. Баку. Получив начальное образование в медресе родной деревни, Пищевари продолжил свою учебу в школе г. Баку. Окончив педагогическую школу, он некоторое время работал учителем в селе Хырдалан. В этом селе Пищевари в доме, который он снимал, открыл курсы ликбеза.

В становлении Пищевари как талантливого журналиста, писателя и политического деятеля большую роль сыграли общественно-политическая и культурная среда Баку начала XX века и личности, формировавшие эту среду. Как и другие образованные люди из Южного Азербайджана, Пищевари стремился к активной деятельности в национальных и демократических группах, обществах и политических организациях. Этот период жизни и деятельности Пищевари можно охарактеризовать гак поиск собственного идеологическогог пути опубликовав первые статьи в газете «Ачыг сёз», издаваемый под редакцией М.Э.Расулзаде, Пищевари впоследствии из-за возникших разногласий отдалился от Расулзаде и примкнул к коммунисту Н.Нариманову.

Являясь членом Партии справедливости, по указанию ее руководства Пищевари одно время участвовал в созданном в Гилане обществе «Ченгелилер» и даже занимал одно из руководящих долж-ностей этого движения. После поражсния движения Пищевари тайно приезжает в Тегеран и здесь в начале 1922 года совместно с Магомедом Дехганом печатает газету «Хагигат» - орган профсоюзной организации. В 106 успевших увидеть свет (до июня 1922 года) номерах газеты подавляющее статей принадлежало перу Пищевари. После закрытия газеты С.С.Пищевари находится в полулегальном положеии и продолжает свою борьбу против режима Рза-шаха.

В декабре 1930 года Пищевари был обвинен в антиглахской деятельности, арестован и 10 лет жизни провел в тюрьме «Гяср Гасар». За период заключения он создал целый ряд политических и художе-ственных произведений и статей. Наряду с такими политическими записками как «Из

тетрадей тюремных воспоминаний», «История Партий Справед-ливости» он пишет ряд литературно-критических статей, заканчивает романы «Надира» и «Моя бану».

1941-й год знаменателен тем, что рсжит Рза-шаха пал и заключенных тюрем вышли на свободу. Пищевари сразу же бросается на арену борьбу, принимает участие в создании Иранской Народной Партии (Тйде), печатает газету «Ажир» демократического толка. В 1944-м году на 14-м Иранском Меджлисе он был выбран депутатом от Тебриза, но в результате провокационных действий реакционных сил Меджлиса депутатский мандат Пищевари был аннулирован.

В течение 1941-1945 гг. Пищевари неоднократно был в Азербайджане, близко знакомился с социально-политической и экономической ситуацией, изучал мечты и проблемы народа. После 1945-го года он до конца жизни жил в Азербайджане и возглавлял народное движение. При его участии и по его инициативе была создана Азербайджанская Демократическая Партия, которая руководила выступлением (революцией) «21 Азер» и созданием Азербайджанского Национального Автономного Государства (республики). Правительство этой Республики в течение одного года провело в жизнь ряд демократических нововведений, осуществило широкий спектр эко-номических и культурных мероприятий.

Руководство ССР не поддержало народно-демократическое движение Южного Азербайджана. У него были на это свои причины: прибрать к рукам нефтяные месторождения Северного Ирана, подготовить военный плацдарм против южных соседей, создать постоянно тлеющую точку сопротивления. В этих трудных условиях, вдобавок всесторонняя поддержка шахского режима, освободительное движение в Южном Азербайджане потерпело поражение. Перейдя на эту сторону Араза (по другим источникам насильно привезен-ный) Пищевари прожил всего 172 дня. 11 июня 1947 года он попал в автомобильную катастрофу при невыясненных обстоятельствах, в результате которой скончался в тот же день.

Имя С.С.Пищевари в братском Южном Азербайджане является символом национально-освободительного движения.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR

**(Əlifba sırası ilə)**

### AZƏRBAYCAN TÜRKCƏSİNDƏ

1. «Ağ ləkələr silinir». Bakı-Azərnəşr 1991.
2. «Cənubi Azərbaycan tarixi məsələləri», Bakı, 1991.

3. Azərbaycan tarixi. Bakı, 1999.
4. Aydın Mədətoğlu Güney Azərbaycan dünən, bugün, sabah, Bakı - 2005.
5. Atamoğlan Məmmədli. İran ikinci Dünya müharibəsində. Bakı-2000.
6. Behruz Həqqi. Milli Hökumət Fədaisi Səfərxan. Bakı, 2001.
7. Böyük Rəsuloğlu. Azərbaycan yolunda (məqalələr toplusu). Bakı, 2001.
8. V.İ.Lenin. Şərqxalqları kommunist təşkilatlarının II ümumrusiya qurultayında məruzə, Bakı, 1983. «Göytürk» Bakı-1998.
9. Vidadi Mustafayev. Cənubi Azərbaycan məsələsinin öyrənilməsi.Bakı, 2002.
10. Vidadi Mustafayev. Cənubi Azərbaycanda milli şüur (XX əsrin I yarısı),Bakı, 1998.
11. Vüqar Əhməd. M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı, Bakı, 1998.
12. Qulam Məmmədli Xiyabani. Bakı, 1949.
13. Qulu Məhərrəmli. Danışır Təbriz. «Nurlan» nəşriyyatı, Bakı-2004.
14. Qılman İlkin. «Qızıl səhifələr necə yarandı», «21 Azər» 1999, № 3.
15. Qəvamül-səltənənin cinayət tarixi. «21 Azər», 2000, № 2.
16. Eldar Qaradağlı. Azərbaycan Demokrat firqəsi. İstiqlaliyyət bildirişi (ötəri baxış). İsveç, Götebörq, 2005.
17. Z.Z.Abdullayev, N.M. Ağası. Müasir İran, Bakı, 1976.
18. İ.H.Təriqpeyma. Doktor Tağı Əraninin ictimai-siyasi və dövlət görüşləri.Bakı-1965.
19. İ.H.Təriqpeyma. Doktor Təqi Ərani. Bakı-1965.
20. tsmayıl Şəms. Azərbaycan cəmiyyəti. «21 Azər» 1999, № 2.
21. M.M.Çeşmazər. Azərbaycan Demokrat partiyasının yaranması və fəaliyyəti. Bakı -Elm - 1986.
22. M.Ə.Rəsulzadə. Bolşeviklərin Şərq siyasəti, Bakı, 1994. 22(a). Mir Cəfər Pişəvəri seçilmiş əsərləri, Bakı 1984.
23. Mirzə İbrahimov. İran Azərbaycan haqda həqiqətlər. Bakı, 1948.
24. Mirzə İbrahimov. Sarı sim. Bakı, 1959.
25. Mirzə İbrahimov. Cənubi Azərbaycanda milli-demokratik hərəkat «İnqilab və mədəniyyət» (dərgi), Bakı, 1947, № 9.
26. Mirəhim Abdullayev (Vilai). İran Azərbaycanında milli-azadlıq hərəkatında demokratik mətbuatın rolu (1941-1946), Bakı, 1979.
27. Musa Qasımov. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı-1993.
28. Müxtəsər Azərbaycan tarixi. Bakı, 2000.
29. N.N.Nərimanov. Məqalələr və nitqlər (iki cilddə). Bakı, 1971
30. Nəriman Həsənov. Oyanmış Təbriz və Səttarxan, Bakı, 1986.
31. Nəsib Nəsibzadə. Bölünmüş Azərbaycan. Bütöv Azərbaycan. Bakı, 1997.
32. Nəsib Nəsibzadə. İranda Azərbaycan.
33. S.C.Pişəvəri. Milli hərəkatdan qabaq İran Azərbaycanında siyasi partiya və ictimai təşkilatlar, «21 Azər» dərgisinin nəşri.
34. Sovet Azərbaycanı və xarici şərq (məqalələr toplusu). Bakı, 1980.

35. Solmaz Rüstəmova-Tohidi. Azərbaycan dövrü mətbuatı 1875-1990 (biblioqrafiya) Bakı-1993.
36. Solmaz Rüstəmova-Tohidi. Komintemin Şərq siyasəti və İran (1919-1943) Xəzər universitetinin nəşriyyatı, Bakı, 2001.
37. Sultanəli Mirzəzadə. Milli Məclis (1945-1946). «21 Azər»,2000, № 9.
38. Səməd Bayramzadə. «Cənubi Azərbaycan tarixində «ağ ləkələr» (məqalələr toplusunda). Bakı, 1992.
39. T.A.İbrahimov (Şahin). İran Kommunist partiyasının yaranması. Bakı-1963.
40. Teyyub Qurban. Düşmənlərindən güclü şəxsiyyət. Bakı «Şirvan nəşr» 2006.
41. Şövkət Tağıyeva (Əkrəm Rəhimli, Səməd Bayramzadə ilə birlikdə). Güney Azərbaycan, Bakı, 2000.
42. Şövkət Tağıyeva. 1920-ci il Təbriz üsyanı, Bakı, 1990.
43. Şövkət Tağıyeva. BMT Təhlükəsizlik Şurasında Cənubi Azərbaycan məsələsi. «Araz» dərgisi (İsveç), 1996, № 1.
44. Şövkət Tağıyeva. Sovet-İran siyasi ilişgilərində Cənubi Azərbaycan məsələsi. Ankara «Yeni Forum» dərgisi 1992, № 272.
45. Həsən Həsənov. Güney Azərbaycanda milli demokratik hərəkat (1941-1946), Bakı, 2004.
46. Cavanşir Vəkilov. Azərbaycan Respublikası və İran: 40-cı illərdə. Bakı, 1991.
47. Cəmil Həsənli. Soyuq müharibənin başlandığı yer. Güney Azərbaycan 1945-1946. Bakı - 1999.
48. Cəmil Həsənli. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945), Bakı, 1998.
49. Cəmil Həsənli. Güney Azərbaycanda Sovet-Amerika və İngiltərə qarşıdurması (1941-1946). Bakı, 2001.
50. Cənubi Azərbaycan tarixinin oçerkləri 1828-1917. Bakı, «Elm» nəşriyyatı, 1985.
51. Cəfər Xəndan. Uğur yolu, Bakı-1987.
52. Cəfər Xəndan. Uğurlu yol. Bakı, 1987.
53. Ə.İ Şəmidə. İranda Fəhlə və Həmkarlar hərəkatı (1941-1946). Bakı, 1964.
54. Əvəz Həbibov. Cənubi Azərbaycanda azadlıq hərəkatı (1914-1918). Bakı-1998.
55. Əkrəm Bije. Güney Azərbaycanda milli və demokratik cəmiyyətlər və təşkilatlar (XX əsrin 40-cı illərində) AMEA Şərqşünaslıq İnstitutu, Elmi Araşdırmalar. Bakı, 2004, № 3-4.
56. Əkrəm Mişovdağlı (Bije). Azərbaycan Milli Hökumətinin iqtisadi tədbirləri «Azərbaycan» (dərgi) 1998, № 1.
57. Əkrəm Mişovdağlı (Bije). AMH-nin aqrar siyasəti. «21 Azər» 1999, № 2.
58. Əkrəm Mişovdağlı (Bije). Güney Azərbaycan türklərinin XX yüzildə taleyi. «Düşüncə» (dərgi), Bakı, 1998, № 1.

59. Əkrəm Mişovdağlı (Bije). Güney Azərbaycanda xalqın dil, milli maarif və mədəniyyət uğrunda mübarizəsi. (məqalələr məcmuəsində). Bakı, 1998.
60. Əkrəm Rəhimli (Bije). Yaddaşlardan silinməz olayların salnaməsi (21 Azər haqqında). AMEA Şərqşünaslıq İnstitutu. Elmi araşdırmalar, 2003, № 1-2.
61. Əkrəm Rəhimli (Bije). Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946) «MEQA» nəşriyyatı, Bakı, 2003.
62. Əkrəm Rəhimli (Bije). Güney Azərbaycanda milli-demokratik hərəkat Bakı, 2003.
63. Əli Tudə. Təbriz Filarmoniyası «21 Azər» 2009, № 9.
64. Əlövsət Quliyev. Cənubi Azərbaycanda milli-azadlıq və demokratik hərəkat tarixindən (1941-1946). (Tarix və fəlsəfə institutunun əsərləri, I buraxılış), Bakı, 1951.
65. Əmir Teymuroğlu. Nəriman Nərimanov və türk xalqları. «Nurlan» Bakı - 2006.
66. Əmrəli Lahrudi. Seçilmiş məqalələr (1990-1999) «Azərbaycan» qəzetinin nəşriyyəsi.

## DİSSERTASİYALAR

67. Vüqar Əhməd. M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı (dok.dis). Bakı;1998.
68. İsmayıl Təriqpeyma. Doktor Tağı Əraninin ictimai-siyasi və dövlət görüşləri. Bakı, 1962. nam.dis.).
69. Kamran Məmmədov. Cənubi Azərbaycan xalq demokratik dövlətinin yaranması (1945-1946). Moskva, 1950 (nam. dis.).
70. Mir Rəhim Abdullayev (Vilai). İran Azərbaycanında milli-azadlıq hərəkatında mətbuatın rolu (1941-1946), Bakı, 1975 (nam. dis.).
71. Mirqasım Çeşmazər. Azərbaycan Demokrat partiyasının yaranması və fəaliyyəti. Bakı, 1987. (nam.dis.).
72. Məhəmməd Dəvəli. İran Azərbaycanında Milli Hökumətin təşkili və fəaliyyəti (1945-1946). Bakı, 1967 (nam.dis.).
73. Sultanəli Mirzəzadə. İran Azərbaycanın Milli Məclisi və onun qanunvericilik fəaliyyəti (1945-1946). Bakı, 197 (nam. dis.).
74. Fərəc Dəstqüşadə. İran Azərbaycanında Milli Hökumətin iqtisadi tədbirləri (1945-1946). Bakı, 1964 (nam.dis.).
75. Həmid Məhəmmədzadə. İnqilabçı, jurnalist, yazıçı Pişəvəri. Bakı, 1955 (namiz.dis.).
76. Cəfər Xəndan Hacıyev. Cənubi Azərbaycan ədəbiyyatında milli-azadlıq ideyaları (1906-1946). Bakı, 1967 (dok.dis.).

## ARXİV MATERİALLARI

77. Azərbaycan Demokrat Firqəsi arxivi
78. Azərbaycan Rcspublikası Mərkəzi Dövlət Arxivi. Fond. № 28-29.
79. Mir Cəfər Bağırovun məhkəməsi materialları. Bakı, 1993.

## FARSCA VƏ AZƏRBAYCAN TÜRKCƏSİNDƏ (Əski Əlifba ilə)

## فارسجا و آذربایجان تورکجه‌سینده (اسکی الفبا ایله)

80. آذربایجان» (مقاله‌لر توپلوسو). «آذربایجان» روزنامه سینین نشریه سی ۱۳۴۴
81. آزادلیق یولونون مبارزلری «آذربایجان» روزنامه سینین نشری سی ۱۳۴۱ (جلد I) و ۱۳۴۸ (جلدII)
82. احمد رضوانی، ماجرای آذربایجان از شهریور ۱۳۲۰ تا ۱۳۲۵، نشریات «راک»، جلد I، تهران ۱۳۲۶.
83. احمد محمودی. اسناد روابط ایران و شوروی در دوره رضاشاه. تهران اسناد ملی ایران ۱۳۷۴

84. اقتصاد ایران، تهران ۱۳۷۱

85. ا.لاهرودی(احمد زاده). فرقه دمکرات آذربایجان. نشریه روزنامه «آذربایجان» ۱۳۶۸.

86. ابراهیم فخرائی. سردار جنگل: میرزه کوچک خان. تهران انتشارات«جاویدان» چاپ۹، ۱۳۵۷.

87. ابراهیم ناصحی. عائله آذربایجان در رهگذر تاریخ و چهره پیشه‌وری در آیینه فرقه دمکرات. تبریز ۱۳۸۴.

88. احسان طبری. جامعه ایران در دوران رضاشاه. (انتشارات«بی جا). ۱۳۵۶

89. اکرم رحیملی(بیژه). گوننی آذربایجاندامِلی دموکراتیک حرکات. کانادا، ونکوور ۱۳۸۴.

90. اکرم رحیملی. مروری بر ظهور و سقوط فرقه دمکرات آذربایجان(۱۹۴۶-۱۹۴۱) تهران ، ۱۳۸۶.

91. اکرم میشو داغلی. (کول الیندا کوز کوزه ره جک « ایدیریم» ژورنالی ۲-جی نمره« رحیملی)« (تورونتو کانادا)۲۰۰۱ – جی ایل

92. امیر چهرگشا زندانی زمان نگاهی به مبارزات با سابقه ترین زندانی سیاسی جهان صفرخان قهرمانیان. تبریز، نشر «اختر» ۱۳۸۳.

93. ایرج ذوقی. ایران و قدرتها بزرگ در جنگ جهانی دوم. تهران، چاپ سوم ۱۳۷۲

94. به کوشش: رحیم رئیس نیا. آخرین سنگر آزادی. مجموعه مقالات میر جعفر پیشه‌وری در روزنامه «حقیقت» ۱۳۰۱-۱۳۰۰. تهران، ۱۳۷۷

95. بزرگ علوی. ۵۳ نفر یا تاریخ سالهای سیاه. بی-جا، ۱۳۵۷.

96. بهار. محمدتقی ملک الشعراء. تاریخ مختصر احزاب سیاسی ایران. انتشارات امیر کبیر ۱۳۵۷

97. بهرام امیر احمدیان. روابط ایران و جمهوری آذربایجان، تهران ۱۳۸۴

98. پژوهش گروهی. جامی، گذشته چراغ راه آینده است. انتشارات «نیلوفر» چاپ دوم ۱۳۷۱

99. تیمور بختیار. سیر کمونیزم در ایران از شهریور ۱۳۲۰ تا فروردین ۱۳۳۶. تهران، انتشارات «کیهان»، ۱۳۳۶.

100. جان فوران. تاریخ تحولات اجتماعی ایران، چاپ دوم، تهران ۱۳۷۸( مترجم از انگلیسی احمد تدین)

101. جعفر مجیری. خراسان عصیانی و محمدتقی خان پسیان. (۱۹۲۱-۱۳۰۰). «آذربایجان» روزنامه سینین نشری ۱۳۵۳

102. جعفر مهدی نیا. زندگی سیاسی قوا السلطنه. تهران، انتشارات « پونوس» چاپ چهارم ۱۳۵۷

103. جلال زاهدی. حاضربرکی زمانین استراتژی خطی دموکراتیا اوغروندا مبارزه‌دیر (مقاله لر توپلوسو) «آذربایجان» روزنامه - سینین نشریه سی، ۱۳۸۶.

103-a. جمیل حسنلی. فراز و فرود فرقه دموکرات آذربایجان، بروایت اسناد محرمانه ارشیوهای اتحاد جماهیر شوروی. تهران، ۱۳۸۳.

104. حسین کوهی کرمانی. از شهریور تا فاجعه آذربایجان و زنجان، تهران ۱۳۷۱

105. حسین استوان. سیاست موازنه منفی در مجلس چهاردهم. تهران، انتشارات «مصدق» ۱۳۵۵.

106. حمید ملازاده رازهای سر به مهر ناگفته های وقایع آذربایجان. تبریز ۱۳۷۶.

107. حسین ابوترابیان. مطبوعات ایران از شهریور ۱۳۲۰ تا ۱۳۲۶. تهران نشریات «اطلاعات» ۱۳۶۶.

108. خانبابا تهرانی. عاله آذربایجان(مستند به اسناد تاریخی و سیاسی ارشیوی)تهران. ۱۳۷۵.

110. خسرو معتضد. درون ارتش شاه. «البرز»، تهران ۱۳۷۶
111. دکتر حسین یحیائی. گوشه هائی از تاریخ و گفتگویی با یکی از سران فرقه دمکرات آذربایجان. انتشارات «زاگروس» (بی سال)
112. دیوید نیسمان. اتحاد شوروی و آذربایجان ایران استفاده از ناسیونالیسم برای نفوذ سیاسی. تهران ۱۳۸۱. (ترجمه از زبان انگلیسی)
113. دکتر براندا شیفر. مرزها و برادری ایران و چالش هویت آذربایجانی (ترجمه از انگلیسی) تهران. ۱۳۸۵
114. دکتر رحیم قاضی. اسرار محاکمه قاضی محمد و یارانش... تهران، نشر «آنا» ۱۳۸۵.
115. زاهدی. صنایع ایران بعد از جنگ. تهران ۱۳۲۳.
116. زهره وفائی. نام آوران آذربایجان (۲-۱). تبریز ۱۳۷۸
116-a. سرهنگ سید احمد جان پولاد. سرگذشت یک افسر ایرانی. تهران، ۱۳۸۵.
117. سرهنگ علی زیبائی. کمونیزم در ایران. تهران. ۱۳۸۵
118. سید ابوالفتح فنائی علوی. شکست احزاب سیاسی در انتخابات دوره چهاردهم. تهران ۱۳۲۵
119. سید جعفر پیشه وری؛ «نادره» (رمان)؛ تهران ۱۳۸۳
120. سید جعفر پیشه وری. ۲۱ اثر (مقاله لریندن سنچمه لر). «آذربایجان» روزنامه سینین نشریه سی، ۱۳۴۰
121. سید محمود مسعود نقیب. خلخال و مشاهیر. تبریز. ۱۳۷۹
122. س. کاویانپور. تاریخ عمومی آذربایجان. تهران ۱۳۴۶
123. «شاعرلر مجلسی» تبریز ۱۳۲۴
124. شیخ محمد خیابانی. آذربایجان و آذربایجانین دموکراتیک قووه لری. «آذربایجان» روزنامه سینین نشری. ۱۳۴۰.
125. صمد سرداری نیا. دارالفنون تبریز. تبریز ۱۳۸۲.
126. عبدالصمد پور نظمی میشی. فرقه دمکرات آذربایجان یا حکومت یکساله پیشه وری ۱۳۸۲ (یترسیز)
127. ع.آذری. قیام شیخ محمد خیابانی در تبریز. تهران ۱۳۵۴.
128. علی دهباشی. زندگی سیاسی و اجتماعی مظفر فیروز. تهران ۱۳۸۰
129. علی مرادی مراغه ای. از زندان رضاخان تا صدر فرقه دمکرات آذربایجان. نشر اوحدی تهران ۱۳۸۱
130. علیرضا میانالی. سلاحلا اولچولن ترپاق (I و II جلده) کانادا - ونکوور ۱۳۸۴
131. فریدون کشاورز. من متهم میکنم کمیته مرکزی حزب توده ایران را. انتشارات «رواق»، چاپ دوم، تهران، ۱۳۵۷
131-a. فرزاد شاهرخ. فرقه دمکرات آذربایجان از تخلیه تبریز تا مرگ پیشه وری. انتشارات «اوحدی»، تهران ۱۳۸۴
132. فریدون کشاورز. خاطرات سیاسی، (به کوشش علی دهباشی). تهران. نشر «آبی» ۱۳۸۰
133. کاوه بیات. فعالیتهای کمونیستی در دوره رضاشاه. انتشارات سازمان اسناد ملی ایران ۱۳۷۰
134. م.پناهیان. فرهنگ جغرافیای ملی ترکان ایران زمین (جلد ۱-۴). بغداد ۱۳۴۴-۱۳۴۳.
135. میر جعفر پیشه وری ( جوادزاده خلخالی). سنچیلمیش اثرلری. «آذربایجان» روزنامه سینین نشریه سی، ۱۳۴۴ – جی ایل

135-a. مسعود بهنود از سید ضیا تا بختیار. (چاپ هفتم) تهران، 1377

136. م.کریمی. اتلیمیزین نیسگیل قالاغی (پروفسور زهتابی‌نین یاشاییشی و اثری) تبریز. ۱۳۸۴

136-a. منیژه صدری/ رحیم نیکبخت. پیدایش فرقه دمکرات آذربایجان، به روایت اسناد و خاطرات منتشر نشده. تهران، ۱۳۸۴.

137. محمدرضا پهلوی. پاسخ به تاریخ. تهران چاپ دوم ۱۳۷۱.

138. محمدعلی گیلک. تاریخ انقلاب جنگل. رشت ۱۳۷۱.

138-a. محمود طلوعی. پدر و پسر ناگفته هائی از زندگی و روزگار پهلوی ها. (چاپ دهم) ۱۳۸۶.

139. ن.امید. تاریخ فرهنگ آذربایجان (جلد ۲) تهران ۱۳۲۹.

140. نجفقلی پسیان. مرگ بود، بازگشت هم بود. تهران ۱۳۲۸.

141. لوئیس فاوست. ایران و جنگ سرد، بحران آذربایجان (۱۳۲۴-۱۳۲۵) (مترجم کاوه بیات) انتشارات وزارت امور خارجه چاپ تهران ۱۳۷۴

142. ل.اردبیلیان. فدائیلر آذربایجان خالقینین ۲۱ نهضتینده. «آذربایجان» روزنامه‌سینین نشری‌سی. ۱۳۶۱

143. یرواند آبراهامیان. ایران بین دو انقلاب (از مشروطه تا انقلاب اسلامی) تهران ۱۳۸۰ (انگلیسجه دن ترجمه)

144. ۲۱ آذر نهضتی ایران ملی دموکراتیک حرکاتی تاریخینده پارلاق صحیفه دیر (مقاله‌لر توپلوسو) «آذربایجان» روزنامه سینین نشریه سی ۱۳۵۵

145. ۳۰ سال از انتشارات فرقه دموکرات آذربایجان ۱۳۵۷


## SƏNƏDLƏR

سندلر (اسکی الفبادا و فارسجا)


146. شهریورین اون ایکیسی ۱۳۲۴- ۱۳۲۵ تبریز ۱۳۲۵

147. قیزیل صحیفه لر ۱۳۲۴-۱۳۲۵ (آذربایجان خالقینین ملی آزادلیق یولوندا مبارزه تاریخیندن) تبریز ۱۳۲۵.

148. سید جعفر پیشه وری نین الیازمالاری (۱ و ۲-جی حیصه). آذربایجان دموکرات فرقه سینین آرخیوی.

149. متن کامل دفاعیات و محاکمات سید جعفر پیشه وری. تهران ۱۳۸۴.

150. آذربایجان ملی مجلیسی نین قرار و قانونلاری(سندلر مجموعه سی) باکی ۲۰۰۵.

151. آذربایجان دموکرات فرقه سینین مرامنامه سی و نظامنامه سی. تبریز ۱۳۲۴

152. اسناد احزاب سیاسی ایران. فعالیتهای کمونیستی در دوره رضاشاه (۱۳۱۰-۱۳۰۰) به کوشش: کاوه بیات، تهران ۱۳۷۰.

153. ۲۱ آذر نهضتی(۱۳۲۴- ۱۳۲۵) باره ده تزیسلر. «آذربایجان» روزنامه سی نین نشریه سی، ۱۳۴۹

154. تریمان تریمان اف. ای.و. استالینه مکتوب (اوجقارلاردا انقلابیمیزین تاریخینه دایر (کریل الفباسیندا) باکی ۱۹۹۲

155. ۳۰ سال نهضت ۲۱ آذر (۱۳۲۴-۱۳۲۵) از انتشارات فرقه دمکرات آذربایجان ۱۳۵۷.

156. بویوک دووللرین خارجی ایشلر ناظرلرینین لندنده کی توپلانتیسیندا ۲۳ سنتیابر ۱۹۴۵

157. ۲۱ آذر نهضتی ایران ملی دموکراتین حرکاتی تاریخینین پارلاق صحیفه سیدیر. ۱۳۵۵
158. آذربایجان خالق کنگره‌سینین ایران حکومتینه مراجعتی. ۱ آذر ۱۳۲۴.
159. سوونت دوولتینین باشچیسی ای.و. استالینین آذربایجان دموکرات فرقه سینین لیدری سیدجعفر پیشه وریه شخصی مکتوبو. ۸ مای ۱۹۴۶ (کریل الفباسیندا)
160. آذربایجان ملی حکومتینین باشچیسی س.ج.پیشه وری‌نین بیرلشمیش ملتلر تشکیلاتینین اسامبلیاسینا مراجعتی. ۲۸ یانوار ۱۹۴٦-جی ایل.
161. آذربایجان ملی حکومتینین رهبرلرینین سوونت رهبرلیگینه سون مراجعتی. ۵ دکابر ۱۹۴٦.
162. ۲۱ آذر نهضتی(۱۳۲۴- ۱۳۲۵) باره سینده تدقیقلر. («آذربایجان» روزنامه سینین نشریه سی) ۱۳۴۹.
163. آذربایجان دموکرات فرقه سینین ایکنجی پلنوموموتون ماتریاللاری.تبریز، ۱۳۲۴.
164. مرامنامه جبهه آزادی. تهران۱۳۲۲.
165. صورت جلسه مجلس ( مجلس چهاردهم). تهران۱۳۲۴.
166. اسناد وزارت خارجه ایران ۱۳۲٦، ۱۳۲۷.
167. آمار کشاورزی ایران در سالهای ۱۳۲۴، ۱۳۲٦.
168. اسناد سیاست خارجی شوروی، جلد ۳-۴ , مسکو ۱۹٦۰ (بزبان روسی)
169. برنامه و اساسنامه حزب توده ایران. تهران۱۳۲۴.

## XATİRƏLƏR

### خاطره لر

170. اسد مستوفی. مویه های غریبانه(خاطرات). تهران. ۱۳۷۹
171. احمد زنگنه. خاطرات از مأموریتهای من در آذربایجان. از شهریور ۱۳۲۰ تا دی ماه ۱۳۲۵. تهران. چاپ ارتش ۱۳۵۳
172. امیرعلی لاهرودی. یادمانده ها و ملاحظه ها (نشریه فرقه دمکرات آذربایجان). باکی، توران نشریاتی ۱۳۸۷
172-a. کریم کشاورز. خاطرات از سید جعفر پیشه وری در مجله «بخارا»
173. ایرج اسکندری. خاطرات سیاسی. تهران ۱۳۷۲
174. خاطرات انور خامه ای. پنجاه نفر... و سه نفر. سازمان انتشارات هفته (بی جا).
175. دکتر حسن نظری(غازیانی). گماشتگی های نافرجام. تهران چاپ اول ۱۳۷٦.
176. حمید ملازاده. سیری در کوچه های خاطرات تبریزاز شهریور ۱۳۲۰ تا انقلاب اسلامی. تهران ۱۳۸۱.
177. خاطرات حسین فردوست. ظهور و سقوط پهلوی. چاپ پانزدهم. جلد I- II . تهران ۱۳۸۲
178. سید جعفر پیشه وری. «خاطره لر. ( ۱۹۲-۱۹۴۵)»، آذربایجان دموکرات فرقه سینین نشریه سی، باکی ۲۰۰۵ (لاتین الفباسیله).
179. شاهرخ فرزاد. زندان رضاشاه. محاکمات و دفاعیات و خاطرات زندان. میر جعفر پیشه وری. تهران نشر «شیرین» ۱۳۸۴.
A-179. خاطرات دکتر نصرت الله جهانشاهلو افشار. « سرگذشت ما و بیگانگان»/ برلین، ۱۳۸۰

180. عبدالصمد پورنظمی سیسی. پیشه وری کیست؟ (از کتاب فرقه دمکرات آذربایجان یا حکومت یکساله پیشه وری حکومت یکساله پیشه وری) ۱۳۸۲.
A-180. گنترال غلام یحیی. (۱۹۰۶-۲۰۰۶). باکی، ۲۰۰۵ (لاتین الفباسیله).
181. خاطرات مرحوم ایت الله میرزا عبدالله مجتهدی. بحران آذربایجان (۱۳۲۴- ۱۳۲۵) تهران، ۱۳۸۱.
182. علی مرادی مراغه ای. خاطرات سرلشکر درخشانی از فرقه دمکرات آذربایجان. تهران ۱۳۸۵.
183. فرح پهلوی. خاطرلر. باکی. ۲۰۰۸ (لاتین الفباسیندا)
184. محمد دهقانی. ۱۰ ایل قصر قاجار زندانیندا. باکی ۱۹۸۸. (کریل الفباسیندا)
185. قلب یاراسی (خاطره لر توپلوسو) باکی ۲۰۰۰.
a-185. دکتر سلام الله جاوید. او گونون حسرتی ایله...، باکی ۲۰۰۳ (لاتین الفباسیله)

## DƏRGİLƏR (müxtəlif nömrələr)

درگی لر (مختلف نمره لر)

186. «آذربایجان» (آذربایجان روزنامه سی نین نشریه سی)
187. «ارمغان آذربایجان» (شمس تبریز روزنامه سینین علاوه سی) آذربایجان غربی- نقده
188. آذربایجان انجمنی (فصل نامه) تهران
189. «آذری» (فصل نامه ترکی-فارسی) تهران)
a-189. «دده قورقود» (تهران)
190. «انقلاب و مدنیت» (باکی)
191. اطلاعات سیاسی اقتصادی (تهران)
192. «آذربایجان» (آذربایجان کولتوره ل درنگینین اورقانی) (آنکارا)
193. «آذربایجان سسی» (المانیا)
194. «اشیریم» سوسیال-توپلومسال-تاریخسل- کولتوره ل- باغیمسیز درگی)
195. «۲۱ آذر» (۲۱ تشکیلاتینین ارقانی) (باکی)
196. «باکی- تبریز» (لاتین الفباسیندا) (باکی)
197. «بخارا» تهران ۱۳۷۸
198. «تریبون» (استکهم)
199. «دنیا» (ارگان مرکزی حزب توده ایران)
200. «دنیا آذربایجانلیلاری» (المانیا)
201. «دیلماج» (ماهنامه اجتماعی-سیاسی- اقتصادی- و فرهنگی) (تبریز)
202. «خدافرین» (تهران)
203. «سارای» (اردبیل)
204. «سحر» تبریز (ماهنامه ادبی، هنری دانشجوئی)
205. «گونئی آذربایجان» (آنکارا)
206. «مجله کار» (تهران)
207. «وارلیق» (فصل نامه فرهنگی ترکی- فارسی) (تهران)
208. «یول» (هفته نامه خبری دانشجویان ترک دانشگان تهران)

## QƏZETLƏR (müxtəlif nömrələr)
## قزئتلر (مختلف نمرەلری)

209. «آذربایجان» (آذربایجان دموکرات فرقه سینین ارقانی)
209-a. «آذربایجان جزء لاینفک ایران»» ( ایران دمکرات فرقه سی نین ارقانی).
210. «آزاد ملت» (آذربایجان ملی مجلی سینین ارقانی) تبریز
211. «آراز» (اردبیل)
212. « آژیر» (تهران)
113. «آنادیلی» (آلمانیا)
214. «انقلاب یولوندا (تهران)
215. «آینده» ( تهران)
216. « ادبیات و اینجه صنعت» (باکی)
217. «ارشم»
218. «ایلدیریم» (کانادا)
219. «اطلاعات» (تهران)
220. «اکسپرس» (باکی)
221. «اورمیه»
222. «اوزنجی» تهران، (اونیورسیتیت طلبه لرین ارقانی)
223. «اولایلار» ( باکی)
224. « تبریزین سسی» (آنکارا)
225. «حریت» (باکی)
226. «حقیقت» (تهران)
227. «حیدربابا» (تبریز )
228. «جمهوریت» (کریل الفباسیندا) باکی
229. «داد» ( تهران)
230. «ساوالان» (تبریز )
231. «سس» (تبریز )
232. «سهند» (تبریز )
233. « رئسپوبلیکا؟ (باکی)
A-233. « رهبر». ( تهران).
234. «شمس تبریز» (تبریز )
235. «صدای اورمیه» (اورمیه)
236. «فجر آذربایجان» (اورمیه)
237. «قورتولوش»
238. «کیهان» (تهران)
239. «مردم» و «نامه مردم» (ارگان مرکزی حزب توده ایران)
240. «مهاجر» (آدف-نین ارقانی)
241. «نویدآذربایجان» (اورمیه)
242. «همشهری» (تهران)
243. «سهند» (تبریز )

244. А.И.Демин. Аграрные преобразования Ближнсго и Среднего Востока.
245. А.И.Шамиде. Рабочее и профсоюзное движенис в Иране 1946-1953 гг. Баку, 1955.
246. Абдуллаев (Вилан) Миррагим. Роль демократической печати в национально-освободительном движснии в Иранском Азербайджане (1941-1946). Баку, 1975 (автореферат)
247. Адгезал Мамедов. Час «икс» переворота М.Д.Багирова и Л.П.Берин. Баку. 2005.
248. Г.З.Сорокин. Первый сжезд народов востока (1-8 сентября1920) Москва, 1961.
249. Джамиля Гасанлы. СССР - Иран: Азербайджанский кризис и начало холодной войны 1941-1946 гг. Москва, 2006 г.
250. И.И.Палюкайтис. Экономическое развитие Ирана. М. 1965.
251. Л. Алексеев. Советский союз и Иран. Москва, 1963.
252. М.Н.Иванова. Октябрьская революция и Иран. М.. 1958.
253. М.С.Иванов. Иран - национальные прогрессы в странах Ближ него и Среднего Востока. Москва, 1970 г.
254. М.С.Иванов. Новейшая история Ирана. Москва, 1965.
255. Мирза Ибрагимов. О демократическом движснии в Южном Азербайджане в 1945-1946 гг. Баку, 1948.
256. О.С.Меликов. Установление диктатуры Рза-шаха в Иране. Москва, 1961.
257. Очерки Новой истории Ирана. Москва. 1978.
258. Правда об Иранском Азербайджане. Баку, 1949.
259. С.Л.Агаев. Иран: внешняя политика и проблема независимости 1925-1941 гг. Москва. 1971.
260. С.М.Алиев. История Ирана XX века. Москва, 2004.
261. С.Самедов. Здравоохранение в Иранском Азербайджане в пери од 1945-1946 гг. Баку, 1960.
262. Современный Иран. Москва «Наука» 1993.
263. Ш.А.Тагиева. Демократические республики юго-восточного Кавказа (Азадстан и гилянская советская республика). Баку. «Кавказ», 2005.
264. Ш.А.Тагиева. Национально-освободительное движенис в Иранском Азербайджане 1917-1920 гг. Баку, 1956.
265. Ю.Александров. Сущность советского социализма. Свободная мысль, 1999.

**KİTABIN İÇİNDƏKİLƏR**

**ÖNSÖZ**

SEYİD CƏFƏR PİŞƏVƏRİ (1892 - 1947) **(Həyatı və ictimai-siyasi fəaliyyəti)**

MİR CƏFƏR CAVADZADƏ - PİŞƏVƏRİ

(avtobioqrafik məlumat)

Uşaqlıq və gənclik illəri

S.C.Pişəvərinin gənclik illəri

Seyid Cəfər Pişəvəri və Gilandakı «Cəngəlilər» Hərəkatı

«Həqiqət» İran həqiqətlərindən yazırdı

S.C.PİŞƏVƏRİ «QƏSR-QACAR» ZİNDANINDA

Zindan divarları arasında keçən 10 illik ömür

Zindan «məktəbi» - fikir ayrılıqları

Zindanın son günləri

YENİDƏN MÜBARİZƏ MEYDANINDA

«Ajir» oyanış və mübarizə çağrışçısı idi

S.C.Pişəvərinin deputat mandatı niyə ləğv olundu?

S.C.Pişəvərinin Azərbaycana dönüşü ərəfəsində orada durum

S.C.PİŞƏVƏRİNİN AZƏRBAYCANDAKI

FƏALİYYƏTİ (1945-1946)

Azərbaycan Demokrat Firqəsinin yaranması

(«12 şəhrivər» müraciəti)

Ümumazərbaycan Xalq Konqresi

Azərbaycan Milli Məclisi

S.C.PİŞƏVƏRİ VƏ AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİ

« Azərbaycan» qəzeti və S.C.Pişəvəri

S.C.Pişəvərinin çıxışlarından və məqalələrindən

«Bizi öz halımıza qoysunlar»:

«Dostum sənə deyirəm»:
S.C.PİŞƏVƏRİ TEHRAN-TƏBRİZ DANIŞIQLARINDA
S.C.Pişəvəri baş nazir olmaqdan istcfa verdi
S.C.Pişəvəri sovetlərə inamını itirmişdi
Azərbaycan milli hökumətinin süqutu və
S.C.Pişəvərinin sonrakı taleyi
S.C.Pişəvəri ömrünün son 172 günü
QƏZA YA QƏSD?
Hadisənin qısa şərhi:
Məzardan məzara köçürülən insan. Son məzarın
Təbrizdo olsun
NƏTİCƏ

ƏLAVƏLƏR

**(Sənədlər, Müraciətlər, Məktublar)**
Böyük dövlətlərin Xarici İşlər nazirlərinin
Londondakı toplantısına
Azərbaycan Xalq Konqresinin İran hökumətinə müraciəti
Azərbaycan Milli Hökumətinin başçısı S.C.Pişəvərinin
BMT baş assambleyasına müraciəti
Azərbaycan Milli Hökumətinin Proqramı
Azərbaycan Milli Hökumətinin dil haqqında qərarı
Sovet dövlətinin başçısı İ.Stalinin Azərbaycan Demokrat Firqəsinin lideri Seyid Cəfər Pişəvəriyə şəxsi məktubu
Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının
Mərkəzi Komitəsi

AMH rəhbərliyinin sovetlərə son müraciəti
SEYİD CƏFƏR PİŞƏVƏRİ XATİRƏLƏRDƏ
S.C.Pişəvərinin bacısı SUĞRA xanım qardaşını xatırlayarkən
O, ağır gündə doğulmuşdu
İSMAYIL ŞƏMS: O, mütəfəkkir, həm də sadə insan idi
Ə.ELÇİBƏY: Güney Azərbaycandakı hərəkat və Pişəvəri haqqında
DOKTOR M.T.ZEHTABİ: S.C.Pişəvəri ilə təbrizdə son görüşüm
QILMAN İLKİN: Mən onu xatırlayarkən taleyinə kövrəlirəm
QULAM YƏHYA Pişəvəri haqqında (xatirələrindən)
M.C.Bağırovla görüş
İlk firqə tədbirləri haqda
Fədailərə baş çəkdikdən sonra
S.C.Pişəvərini tanıyanlar bilirdi ki
BALAŞ AZƏROĞLU: S.C.Pişəvəri haqqında xatirələrimdən
(qısa sətirlər)
KƏRİM KƏŞAVƏRZİ: Seyid Cəfər Pişəvəridən xatirələr
PROFESSOR CƏMİL HƏSƏNLİ S.C.Pişəvəri haqda yazır
S.CAVİD: O, zindanda da bir «məktəb» idi
(Doktor Salamulla Cavid S.C.Pişəvəri haqqında)
ƏLİ TUDƏ: Pişəvəri olduğu kimi (xatirə ixtisarla verilir)
DOKTOR ƏNVƏR XAMEİ: S.C.Pişəvəri
Ə.Xameinin «Xatirələr»ində
HÜSEYN CİDDİ: İmkanım olan təqdirdə Pişəvəri haqda
çox yazacam
İBRAHİM PİŞƏVƏRİ: S.C.Pişəvərinin nəvəsi babası haqqında
QƏZA, YA QƏSD (Seyid Cəfər Pişəvəri ölüb, ya öldürülüb???)
DOKTOR NÜSRƏTULLA CAHANŞAHLU:

Ölüm idi, yainki qəsd?

TAĞI MUSƏVİ: Pişəvərinin qəsdən öldürülməsi şayiədir

(Bu sözləri müxbirə T.Musəvi deyib) MAYOR İBRAHİM NOVRUZOV: Müstəntiq niyə öldü?

(Mayor İbrahim Novruzovun xatirələrindən

M.C.Bağırovun məhkəməsində şahid Salayev Lətifin ifadəsi

HƏSƏN NƏZƏRİ: Pişəvərinin ölümü, fədai düşərgələrin bağlanması (Yazı ixtisarla verilir)

Pişəvərinin maşını niyə və necə qəzaya uğradı

TEYYUB QURBAN: İki Mir Cəfər

ZİNDAN DƏFTƏRİNDƏN XATİRƏLƏR (1930-1941-ci illər)

ZİNDAN DİVARLARI ARASINDA YAZILMIŞ XATİRƏLƏR

İlk istintaq

İki nömrəli müvəqqəti həbsxananın beşinci otağı

Axtarış və təftiş

Zindan casusları

Zindanda qalmalı oldum

Zindanın mənzərəsi

Teymurtaş

Fərruxi

1310-cu il tarixli qanun

Əzab və işgəncə

İlk qurbanlar

Xəstənin danışmağa qüdrəti yox idi

Məhbusları necə öldürürdülər

Doktor Əraninin öldürülməsi xəbəri

Haşiyə

İran başdan-başa həbsxana deyildi?

SEYİD CƏFƏR PİŞƏVƏRİNİN HƏYAT VƏ FƏALİYYƏTİNİN XRONOLOGİYASI
SEYİD CƏFƏR PİŞƏVƏRİ (1892 - 1947) (ingiliscə)
SEYİD CƏFƏR PİŞƏVƏRİ (1892 - 1947) (farsca)
SEYİD CƏFƏR PİŞƏVƏRİ (1892 - 1947) (rusca)
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR (Əlifba sırası ilə)
Azərbaycan türkcəsində
Dissertasiyalar
Arxiv materialları
Farsca və Azərbaycan türkcəsində (əski əlifba ilə)
Sənədlər
Xatirələr
Dərgilər (müxtəlif nömrələr)
Qəzetlər (müxtəlif nömrələr)
Rusdilində

AMEA-nın akad. Z.M.BÜNYADOV ADINA
ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

ƏKRƏM RƏHİMLİ (BİJE)

MÜBARİZƏ BURULĞANLARINDA KEÇƏN ÖMÜR

**SEYİD CƏFƏR PİŞƏVƏRİ**

**(Həyatı və siyasi fəaliyyəti) (1892-1947)**

Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Pərvin MƏHƏRRƏMOV
Korrektor: Suğra OSMANOVA

Yığılmağa verilmişdir: 09.02.2009.
Çapa imzalanmışdır: 19.03.2009.
Nəşrin ölçüsü: 60x90 1/16.
Fiziki çap vərəqi: 25.
Sifariş: 47. Sayı: 1000 ədəd.
Müqavilə qiyməti ilə.

Nurlar Nəşriyyat – Poliqrafiya – Mərkəzi

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021 Faks: 4971295 / E-poçtu: office@nurprint.com

Müəlliflə əlaqə: ekremrehimli@mail.ru